**KAMRAN ƏLİYEV**

# BƏDİİ ƏSƏRLƏR, PUBLİSİSTİKA

**Əsərləri, 10 cilddə**
**X cild**

**"Elm və təhsil"**
**Bakı – 2019**

**Tərtib edənlər:** **Orxan ƏLİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

**Aytəkin ALLAHVERDİYEVA**
*cərrah-ginekoloq*

**Redaktor və nəşrə məsul:** **Gülnar OSMANOVA**
*filologiya üzrə fəlsəfə doktoru*

**Kamran Əliyev. Bədii əsərlər, publisistika. (Əsərləri 10 cilddə, X cild).** Bakı, "Elm və təhsil", 2019, 488 səh.

Kitabda AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Kamran İmran oğlu Əliyevin müxtəlif illərdə yazdığı hekayə, povest və şeirləri, o cümlədən "Sədərək döyüşləri" kitabı və publisistik əsərləri toplanmışdır.

**ISBN 978-9952-37-331-0**

**© Kamran Əliyev, 2019**

# ÖN SÖZ YERİNƏ: YARADICILIQ İMKANLARI

Kamran Əliyevin ədəbiyyatın özünü hiss etməsi, obrazların daxili dünyasına yaxından bələd olması, "Yalquzaq" kimi yadda qalan nəsr əsəri yaratması onun yaxşı ədəbiyyatçı olmasından irəli gəlir.

***İsa Həbibbəyli, akademik,***
***AMEA-nın vitse-prezidenti***

"Yalquzaq" povesti təkcə Hacı Muraddan ibarət deyil. Povestdə Kamranın öz müşahidələrindən doğulan və buna görə də Hacı Muraddan daha maraqlı görünən neçə-neçə obraz var, özü də bu obrazlara sinfi mübarizənin sən deyən elə bir isti-soyuğu yoxdur: onun-bunun qapısında çörək yapa-yapa özünə ər axtaran Qadoş, camaata nə qədər yaxşılıq eləsə də, ayaması üstündən götürülməyən Naftalin Kərəm, özgəsinin dediklərini ancaq öz arvadının süzgəcindən keçirəndən sonra eşidən Kar Abbasəli, xəstəni camışa mindirib müalicə edən Sınıqçı Hacı...

***Muxtar Kazımoğlu.***
***Hər kəsin öz işi. Yalquzaq (povest),***
***Bakı, Yurd, 1998, 1-3***

Bu gün istər poeziya, istərsə də nəsr aləmində maraqlı bir proses müşahidə olunur: professionalların, peşəkarların sırasına professional olmayan xeyli həvəskar da qoşulur. Filologiya elmləri doktoru, professor, XX əsr Azərbaycan ədəbiyyatının

kamil tədqiqatçılarından biri kimi tanıdığım Kamran İmranoğlunun (Əliyev) "Yalquzaq" povesti də məndə məhz belə bir təəssürat oyatdı. Ömrünün əllinci aşırımına az qalmış, ciddi bir alim kimi tanıdığım Kamranın birdən-birə nəsrə müraciəti öncə məndə təəccüb doğursa da, əsəri oxuduqdan sonra bu təəccüb sovuşub keçdi.

***Vaqif Yusifli. Bir povest haqqında.***
***"Ədəbiyyat qəzeti", 23 iyul 1999***

Hekayənin bədii mətnində kənd mühiti, məktəb həyatı aydın və canlı əks olunub. Kamran İmranoğlunun (Əliyevin) hekayəsinin mətni o qədər canlıdır ki, sanki müəllif özü oxucunun qarşısındadır və oxucu ilə söhbət edir. Bu üslub oxucunu müəllifin təsvir etdiyi mühitə aparır və onu da bir növ hadisələrin şahidinə çevirir.

***Aytac Abbasova. Canlı həyat hekayəsi***
***(Kamran Əliyevin "Bənövşə oyunu"***
***hekayəsi haqqında). "Kaspi" qəzeti, 24 dekabr 2016***

Kamran İmranoğlunun (Əliyev) imzası ilə "Kaspi" qəzetinin 17-19 dekabr sayında çap olunmuş "Bənövşə" oyunu" hekayəsinin bir özəlliyi var: bu, ondan ibarətdir ki, hekayədəki hadisələr və insanlar müasir dünyamızda dəbdə olan "gələcəkdə və kosmosda" deyil, hamımıza yaxından tanış olan, hamımıza doğma olan, qəlbimizdə həmişə saf duyğular oyadan kənddə baş verir. Bu hekayəni oxuduqca mənəvi cəhətdən saflaşıram, uşaqlığıma geri dönürəm, xatirələrim göz önündə canlanır.

***Adilə Qulamova. Kəndin yaddaşı.***
***"Kaspi" qəzeti, 28 yanvar 2017***

Son vaxtlar mətbuatda elm adamı kimi tanıdığımız Kamran İmranoğlunun (Əliyevin) hekayələrinə tez-tez rast gəlirik. Həmin maraqlı hekayələrdən biri də "525-ci qəzet"də çap olunan "Markesin ölümü" hekayəsidir. Hekayə bir uşağın dünyaya gəliş səbəbinin atası tərəfindən böyük oğluna nəql edilməsindən ibarətdir.

Salah yaxşılıq etmək məqsədi ilə dünyaya gətirildi, lakin saleh bir bəndə kimi həyata gözlərini yumdu. Kim bilir, bəlkə, Qəşəm və Güldəstəyə verilsəydi, onu tam başqa bir həyat gözləyərdi.

***Leyla Əhmədova. Yaşanmayan uşaqlıq.***
***"İctimaiyyətin səsi və***
***ekologiya" qəzeti, 25 may 2018***

Bəzən kiçik bir hekayədə romanlara mövzu olacaq məsələlərə toxunmaq mümkündür. Ədəbiyyatşünas alim, tənqidçi, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, çoxsaylı hekayələrin müəllifi Kamran İmranoğlunun (Əliyevin) qələmindən çıxan hekayələr bu qəbildəndir... Yazıçının "Markesin ölümü" hekayəsi isə onun qələmindən çıxan ən dərin və fəlsəfi mövzulara, məsələlərə toxunulmuş hekayələrdən hesab olunur.

***Aytəkin Əlizadə. İki ölüm arasında.***
***"Hakimiyyət və gələcək" qəzeti, 5-12 iyun 2018***

Bir əsər o zaman qiymətli hesab oluna bilər ki, onu oxuduqdan sonra oxucunu düşündürməyə vadar etsin. Bəzən kiçik həcmli bir əsərdən tutumlu bir sual yaranır. Bu suala cavab tapdıqda isə oxucu daxilən rahatlıq tapır. Eynilə "Markesin ölümü" əsərindəki kimi...

***Zümrüd Əsgərova. Həyat içində ölüm.***
***"Hakimiyyət və gələcək" qəzeti, 5-12 iyun 2018***

Kamran İmranoğlunun (Əliyevin) “Gəlincik” hekayəsinin gedişatından da gördüyümüz kimi, əsərdə canlandırılan hər bir obraz bir növ öz xarakterinin açılışının güzgüsü rolunda çıxış edir. Baş qəhrəman – Mədinə obrazının timsalında biz gənc qız, gənc olduğu qədər də özündən qat-qat böyük adamların xarakterinə malik olan tələbə obrazı görürük. Mədinə həyat eşqi olan, öz arzu və məqsədlərinə çatmaq üçün səylə çalışan və onları üstün mövqedə tutan bir qızcığazdır. O, həyatda ona əziz olan, dəyər verdiyi hər bir şeyi yüksək qiymətləndirir. Bütün məhrumiyyətlərinə baxmayaraq, qarşısına qoyduğu amallarına çatmaq iqtidarındadır və bu da onun mənəvi və ruhən xoşbəxtliyinin açarıdır.

***Çiçək Paşazadə. Ölməz xatirələr cığırıyla.***
***“Kaspi” qəzeti, 23 iyun 2018***

Kamran Əliyevin yazmış olduğu “Dağlı məhəlləsi” adlı hekayə maraqlıdır, diqqəti çəkə bilir və mənim “bədii əsərin özü özünü oxutmağı bacarmalıdır” prinsipimə də cavab verir. Hekayəni ayaq üstə və sürətlə oxudum. Xatırlayıram ki, L.Tolstoyun “Qafqaz əsiri”ni rus dilində bu cür maraqla oxumuşdum. “Qafqaz əsiri”ni həcminə görə “Dağlı məhəlləsi” ilə müqayisə etmirəm. Təbii ki, o povestdir və həcmi də genişdir. “Dağlı məhəlləsi”ndə isə, doğrudan da, kiçik bir qəzet səhifəsində böyük bir həyat hekayəsi öz əksini tapa bilib.

***Ağaverdi Xəlil. “Dağlı məhəlləsi”***
***hekayəsində məkan, zaman və əxlaq konsepti.***
***“Kaspi” qəzeti, 7-9 iyul 2018***

Yazıçı Kamran Əliyevin “204 nömrəli avtobus” adlı hekayəsini oxudum. Burada məkandan məkana şəklində olmasa da, bir məkandan çıxıb başqa məkana yol gedən insandan bəhs olunur. Onun yolu daşa dönmüş dünyadan, heykəllərdən, onların daşıdığı dəyərlərdən keçir. Heminqueyin Qocası bu yolu qayıqla

dənizdə keçir. Kamran Əliyevin qəhrəmanı isə avtobusda, həm də onun 204 nömrəlisində hərəkət edir. Burada köpək balığı ilə mübarizə motivi də yoxdur. Burada mübarizə üç yerə parçalanır: çətin yol şəraiti ilə hərəkət edən avtobus, sərnişinlərlə mübarizə aparan sürücü, ehtiyacları ilə mübarizə aparan tələbə. Tələbənin ehtiyaclı durumu onun bir qız tanışının beş qəpiklik yol pulusunu verə bilməyib aldatma metodundan istifadə edərək təhlükəli bir vəziyyətə düşməsi ilə də gücləndirilmiş olur.

***Ağaverdi Xəlil. "204 nömrəli avtobus"a prototipdən və arxetipdən baxış. "Kaspi" qəzeti, 27 avqust 2018***

Yazıçı Kamran İmranoğlunun "Kaspi" qəzetinin 17 dekabr 2016-cı il sayında yayınlanmış yazısının adı "Bənövşə oyunu"dur. Hekayədə istifadə olunan oyun arxaik ritualdan qaynaqlanır. Oyunun ritual arxetipi sxeminə görə mövcud şəklinə uyğundur. Burada ritual hərəkətləri gənclərin evlənməsi ilə əlaqəlidir. Ritual gənclərə seçim imkanı təqdim edir və bu yolla gənclər özlərinə uyğun yoldaş seçirlər. Bu seçimlər icma tərəfindən də dəstəklənmiş olur. Arxaik ritualdan gələn oyunun əski adının Bənövşə olduğunu düşünmürəm. Ola bilər ki, bu oyunun əski adı "Bənədüşə" (bənə+düşə) olmuşdur. "Bəndə düşə", "Kim düşə" şəkilləri də qədim və ritualın xarakterinə uyğun görünür.

***Ağaverdi Xəlil. "Bənövşə oyunu"nda hekayədən rituala retrospektiv baxış. Kamran Əliyev-65, Bakı, "Zərdabi LTD", 2018, 169-173***

Hekayəni oxuduqca bir çox mətləblərin bir yerə toplandığını görürük. Belə ki, ata daha sonra öz nitqini başqa bir mövzu ilə davam etdirir, bu zaman oxucuda sualla yenə maraq oyadır ki, "o xəstə qardaşa nə oldu?" Əslində bu sualın özü də bir semiotik işarədir və öz izahını gözləyir.

***Şəbnəm Ağaməmmədova. "Markesin ölümü": semiotik işarələr. "Kaspi" qəzeti, 14 dekabr 2019***

Mədinənin yaddaşından silinməyən uşaqlıq xatirələri və onu Şeyda xalanın yanına aparan elə onun itirdiyi özü idi, o, özünü itirmişdi və əslində özünü tapmaq istəyirdi.

***Xalidə Hovuslu. “Gəlincik” hekayəsi: Mədinənin psixologiyası. “Kaspi” qəzeti, 14 dekabr 2019***

Hekayədəki hadisələr əsərin baş qəhrəmanlarından biri olan Rezidentin otağında cərəyan edir. Hekayədə Rezidentin sadəcə təcrübə üçün buraya gəldiyi vurğulanır, zənnimcə, müəllifin bunu vurğulamasının səbəbi o idi ki, əgər Rezident yerinə ixtisaslaşmış həkim surəti yaradılsaydı, hadisələrin gedişatı tamam fərqli olardı.

***Məltəm Akman. “Mən dəli deyildim” hekayəsinin bədii strukturu. “Kaspi” qəzeti, 21 dekabr 2019***

Hekayənin sonu oxucunun qəlbində də bir təlatüm yaradır. Axı o da Şamamanın getməsini istəmirdi. Ancaq niyə bir söz demədi? Yəqin ki, bu sualın cavabını sadəcə Müəllifin özü bilir. Ya o, Şamama barədə nə düşündüyünü bilmir, onun ağlı qarışıq idi, ya da ki o cəsur davranmadı, sevgisini etiraf etmədi və gecikdi. Hər halda bir gün, bəlkə də, “kaş fərqli davranardım və Şamamanı getməyə qoymazdım”, – deyə düşünəcək.

***Ləman Qasımova. “Novruza bir gün qalırdı”, yaxud sonrakı peşmançılıq fayda verməz. “Kaspi” qəzeti, 28 dekabr 2019***

# HEKAYƏLƏR

# DAĞLI MƏHƏLLƏSİ

Bu məhəllə Yasamalda yerləşirdi. İndi onun qalıb-qalmamağı haqqında heç bir təsəvvürüm yoxdur. Çünki son vaxtlar həyət evlərini alıb onların yerində çoxmərtəbəli binalar tikirlər. Yolumu o tərəfə salıb həmin məhəllənin qalıb-qalmadığını dəqiqləşdirmək də olar, amma qorxuram ki, məhəlləni öz yerində görməyəm və tələbəlik illərindən üzü bəri gizli bir həsrətlə qoruyub saxladığım xatirələrim bir andaca yaddaşımdan silinib gedə.

Yasamaldakı bu məhəlləni bir tərəfdən Qanlı göl, bir tərəfdən universitetin və Politexnik İnstitutunun yataqxanaları, o biri tərəfdən isə bazar əhatəyə almışdı. Bu məhəlləyə getmək üçün ən qısa yol Musabəyovun heykəlinin yanından idi. İndi yerində olmayan bu heykəlin üzü dənizə baxırdı, arxasında isə heykəldən yüz-yüz əlli metr uzaqlıqda həmin məhəllə başlayırdı. Heykəlin yanından yol düz gəlib həmin məhəllənin üstünə çıxırdı.

Açığını deyim ki, Yasamalda belə məhəllələr çoxdu. Amma bu məhəllənin mənim üçün özəlliyi onda idi ki, mən özüm bir neçə ilimi orada yaşamışam. Yasamaldakı hamam düz həmin məhəllənin yanında yerləşirdi. Məhəllədə kirayənişin qalan tələbələr öz tanış-bilişlərinə qaldıqları yeri tapmaq üçün məhz həmin hamamı nişan verərdilər. Hamam da elə əslində tələbələrin hamamı kimi tanınırdı. Çünki universitetin və politexnikin yataqxanalarında qalan tələbələrin əsas hamamı bura idi.

Hamamda həmişə tünlük olardı. Hamama gələnlərin növbəsi azalmırdı ki, azalmırdı. Hamamda işləyən dolubədənli, bir az da ayağını çəkə-çəkə yeriyən bəstəboy, xoşsifət kişi (onun adı, düzü, yadımdan çıxıb) buraya gələn tələbələrin çoxunu ad-baad tanıyırdı. Hətta onlarla məzəli-məzəli söhbətlər də edirdi. Müharibəyə getməsə də, əsas söhbəti müharibədən olardı. Söhbətlərində Hitlerin atasını yandırırdı. Ən çox Məmmədbağır

Bağırzadəni sevərdi. Mənə danışardı ki, bir gün evdəki divanda uzanıb istirahət edirdim, uşaqlar da balkonda televizora baxırdılar. Birdən qulağıma elə bir müğənni səsi gəldi ki, gözlərim bərələ qaldı. Divandan dik atılıb oturdum. Yadıma salmağa çalışdım ki, bu, kimin səsidi? Əvvəl düşündüm ki, Xan əmidir, yəni Xan Şuşinskidir. Sonra aydınlaşdırdım ki, yox, o deyil. Düşündüm ki, bəlkə, Əbülfətdir. Əbülfət Əliyevi deyirəm. Sonra fikirləşdim ki, yox, o deyil. Axırda qərara gəldim ki, Seyid Şuşinskidir. Durub yavaş-yavaş aynabəndə keçdim. Baxdım ki, heç Seyid Şuşinski də deyil. Oxuyan bir cavan oğlandı. Uşaqlardan soruşub öyrəndim ki, onun adı Məmmədbağır Bağırzadədir. Xülasə, həmin hamamçı bu əhvalatı, bəlkə, yüz dəfə, min dəfə danışmışdı, amma Bakıya təzə gələn və birinci kursda oxuyan tələbələrə yenə eyni həvəslə danışırdı və bu söhbətlərindən heç yorulmurdu, bezmirdi. Yataqxanada qalan yuxarı kurs tələbələri hamama ilk dəfə gedən uşaqlardan Məmmədbağır Bağırzadəni tanıyıb-tanımadıqlarını soruşur, onların cavablarından məmnun qalırdılar.

Vay-vay, yadıma düşdü, hamamçının adı Sədulla idi. Amma yenə bilmirəm ki, bu, onun öz adıydı, yoxsa ləqəbi. Hər halda maraqlı kişiydi. Bir dəfə də politexnikin tələbələri ilə əməllibaşlı davaya çıxmışdı. Səbəb də bu idi ki, universitetin tələbələrindən ikisi, deyilənə görə, nömrəyə növbəsiz girmişdi. Politexnikin uşaqları da hay-həşir salmışdılar ki, bəs onlar növbəsiz giriblər, nömrədən çıxsınlar. İçəridən də uşaqların səsi gəlirdi ki, biz artıq soyunub çimirik, bədənimiz yaşdı, bayıra çıxa bilmərik. Xülasə, Sədulla kişinin nüfuzu politexnikin uşaqlarını birtəhər ki, sakitləşdirə bildi. Amma, öz aramızdı, yaman qoçaqlıq elədi. Çünki onlar nömrədən çıxsa idilər, möhkəm dava-dalaş olacaqdı. Onsuz da yataqxanaları bir-birinə yaxın olan politexnikin və universitetin tələbələri aranı araya qatıb tez-tez dalaşırdılar. Hər dalaşma bir bəhanə ilə baş verərdi, əsl səbəbi isə heç kəs deməz-

di. İndi bu dava-dalaşdan xeyli vaxt keçdiyinə görə əsl səbəbini mən deyirəm, qoy sirr kimi qalmasın. Tələbələrin davası qız üstündə olardı. Politexnikdə oxuyan qızların sayı az olduğuna görə oranın uşaqları tez-tez universitetin qızlar yataqxanasının ətrafında hərlənərdilər. Bu da tələbələr arasında qalmaqala səbəb olardı. Universitetin oğlanları yataqxanadakı qızların əməlli-başlı təəssübünü çəkərdilər.

Bir də o yadımda qalıb ki, hamamda hamının çimdiyi bir ümumi otaq vardı və oraya "obşi hamam" deyərdilər. Bu otaq çox böyük idi, otuz-qırx adam eyni vaxtda çimə bilərdi. "Obşi hamam"ın baş tərəfində isə balaca bir otaq vardı ki, həmişə onun içində buxar olardı. Ürəyi istəyənlər o buxarın içinə girib özlərini bərk tərlədirdilər. Ən çox da güləşçilər yarışdan qabaq bu otağa girib çəkilərini aşağı salardılar. Bu isə onlara özlərindən az çəkili güləşçilərlə yarışmağa imkan verərdi. O da yadıma düşür ki, bir dəfə tələbələrdən biri buxarın içərisində çox qaldığına görə halı pisləşmişdi. Sədulla kişi ilə köməkləşib onu dəhlizə çıxardıq, yardım göstərdik, üstünə soyuq su tökdük. Dəhlizdə gölməçə əmələ gəlmişdi. Sədulla ucadan qışqırıb mənə deyirdi ki, o boynuyoğuna əlli dəfə demişəm ki, bu buxar otağını bağlatdır. Gərək biri ölə, ondan sonra ağlı başına gələ. Sədulla "boynuyoğun" deyəndə hamamın müdirini nəzərdə tuturdu. Xülasə, o əhvalatdan sonra Sədulla kişinin yanında mənim hörmətim birə on qat artmışdı.

Hamamdan on-on beş addım o tərəfdə Höcətulla kişinin həyəti başlayırdı. Höcətulla ilə Sədulla adları qafiyə olsa da, onların bir-biri ilə heç bir əlaqəsi yox idi. Bu məhəllənin əsasını Höcətulla kişi qoyduğuna görə elə onun adı ilə də adlandırmışdılar. Əsasını deyəndə ki, bu yerlər vaxtilə bomboş imiş. Bakının ən uzaq nöqtələrindən hesab edilirmiş. Buralarda adam-madam yaşamırdı. Höcətulla kişi özünün dediyi kimi itə-qurda beş-üç manat verib itlərin hürüşdüyü bu yerdə özünə ev tikdir-

miş, ağac əkmiş və həyətini də ala-babat hasarlamışdı. Sonra kənddən-kəsəkdən gələn qohum-əqrəbasını yavaş-yavaş başına yığıb əməlli-başlı məhəllə yaratmışdı. Əsas dolanacağı həyətdə tikdiyi balaca otaqları tələbələrə kirayə verməkdən çıxırdı.

Məhəllədə hamamın əks tərəfində Zeynəbin dükanı yerləşirdi. Zeynəbin dükanı Sədullanın hamamından heç də az məşhur deyildi. Məsələ burasındadır ki, Zeynəbin dükanı "gecə" dükanı idi və ona "naçnoy mağaza" deyərdilər. Bu ətrafda olan mağazalar saat 7-də, uzaqbaşı saat 8-də bağlanardı. Ondan sonra ətrafda yaşayanların nəyəsə ehtiyacı olanda məhz bu dükana gələrdilər. Tələbələr buradan daha çox çörək, çay, qənd, kolbasa, kibrit, bir də arabir araqdan-çaxırdan alardılar. Zeynəbin dükanı o qədər də böyük deyildi. Olsa-olsa, 7-8 kvadratmetr olardı. Hətta dükan o qədər kiçik idi ki, Zeynəb müştərilərlə dükanın pəncərəsindən alış-veriş edərdi.

Nəinki məhəllədə, hətta Yasamalın bu tərəfində hamının tanıdığı Zeynəbin dükanının bir özəlliyi də vardı. Zeynəb tələbələr üçün "nisyə dəftəri" açmışdı. Tələbələr də Zeynəbə sədaqətli idilər, borclarını gec də olsa, gətirib verirdilər. Bu, tələbələrin ya təqaüd aldığı, ya da evlərindən pul gəldiyi vaxtlara düşərdi.

Nisyə dəftəri tələbələrin tanınmasında Zeynəbə çox kömək edirdi. Zeynəb də tanıyandan sonra onları öz adları ilə çağırırdı. Hərdən ərki çatan tələbələrə ayama da qoşardı. Zeynəbin çox sevdiyi bir söz də var idi: Yetim! Tələbələrin bəziləri, xüsusən də atasız olanlar bundan umu-küsü eləsə də, Zeynəb öz şakərini tərgitmirdi, elə bil uşaqlarla icəşirdi. Amma heç kəs bir dəfə də olsun onun üzünə qayıtmazdı. Zeynəbin sözündə bir məhrəmlik, mehribanlıq var idi.

Bir bazar günü politexnikdə oxuyan tələbələrdən birinin atası şəhərə oğluna baş çəkməyə gəlir. Bu kişi kolxoz sədri imiş. Sədr yataqxanada qalan oğluna bir xeyli pay-puş da gətirir. Am-

ma heç yerə getmir günorta çörəyini də oğlunun dostları ilə yeyir. Necə olursa, sədr öyrənir ki, tələbələrin Zeynəbin dükanına borcları var. Bir dəstə tələbə ilə dar yollardan keçərək Zeynəbin dükanına gəlir. Zeynəb nisyə dəftərini açıb oradakı uşaqların borclarının nə qədər olduğunu söyləyir. Sədr dəftərdə olan bütün borcları hesabladır, hamısını ödəyir və nisyə dəftərini bağladır. Həmin gün həm tələbələrin, həm də Zeynəbin bayramı olur. Borc çox yığılanda tələbələr zarafatla deyərdilər ki, bir sədr dədəmiz gəlsəydi, Zeynəbdən xəcalətli qalmazdıq.

Nisyə dəftərinin bağlanması əhvalatını yaddan çıxarsaq, Zeynəbin halı heç də həmişə yaxşı olmazdı. Çünki Zeynəb həmişə “rayondan gələn bu yetimlərə nisyə mal verim, verməyim?” düşüncəsinin altında əzilərdi. Nisyələrini vaxtında ödəməyənlərə bir də mal verməyəcəyinə and içsə də, yenə ürəyi durmazdı, uşaqlar nə istəyərdilərsə, verərdi. Zeynəb bu dükandan nə qazanırdısa, bilmirəm, amma bir iş var ki, o, nisyə mal alan tələbələrə daha çox bağlanmışdı. Zeynəbə elə gəlirdi ki, bu uşaqlar olmasa, özü yetim qalacaq. Bunun da səbəbi o idi ki, Zeynəb dul qalmışdı, tək-tənha yaşayırdı, heç kimi yox idi. Yaşadığı həyət müharibəyə gedib qayıtmayan ərinin mirası, dükan onun yadigarı idi.

Məhəllənin başqa bir tərəfində isə təndir çörəyi satılırdı. Bura Zibeydə xalanın “obyekti” idi. Zibeydə xala çörəyi çox gözəl bişirirdi. Üstünə küncüt səpdiyinə görə ləzzətli olurdu, yeməklə adam doymurdu. Az adam tapılardı ki, çörəyi alan kimi qırağından bir tikə qoparmasın. “O az adam” da tələbə qızlara aid idi, çünki qızlar ətrafdakılardan utanıb çəkinirdilər. Amma ikisi-üçü bir yerdə olanda onlar da gülə-gülə çörəkdən bir tikə qoparıb ləzzətlə yeyirdilər. Hərdən evə çörəyin yarısı gedib çatardı.

Zeynəbin dükanından fərqli olaraq Zibeydə xalanın “obyektinə” getmək adamdan xüsusi səy tələb eləyirdi. Əvvəlcə Nə-

cəfulla kişinin həyətinə kimi bir böyük həyətə girirdin, sonra sola burulub divarın dibi ilə düz on-on beş addım atırdın, sonra sağa dönürdün, beş-altı addım atıb sola dönürdün, yenə sola dönürdün və düz təndirəsərin başına gəlib çıxırdın. Təndirəsərə də girmək üçün xeyli əyilməli idin, çünki qapısı alçaq idi. Əslində Zibeydə xalanın bu "obyekti"ndən yola Zeynəbin dükanındakı kimi balaca pəncərə açmaq olardı. Amma açmırdılar, pəncərə açmaq müftə deyildi.

Mən Şamama ilə bu hisli, paslı, tüstülü təndirəsərdə tanış olmuşam. O da mən qaldığım həyətdə – Höcətulla kişinin həyətində kirayənişin idi. Amma qismət elə gətirdi ki, biz burada – çörək növbəsinə duranda tanış olduq və Höcətulla kişinin həyətinə də aldığımız çörəkdən qoparıb yeyə-yeyə bir yerdə qayıtdıq.

Mən atası ispalkomda işləyən bu tələbə qızın adını olduğu kimi, dəyişdirmədən yazıram. Kimsə fikirləşər ki, adını olduğu kimi yazıramsa, onu tanıyanlardan birisi bunları oxusa, bu qız haqqında nə deyər? Bəlkə, lap elə ailə qurduğu adam oxudu, gəlib evdə həngamə qoparmazmı? Məncə, yox! Ona görə ki, indi kitab, qəzet oxuyan yoxdur. Mən də arxayınam ki, bu yazını oxumayacaqlar. Şəhərdə oxusalar da, onun yaşayıb işlədiyi kənddə oxuyan olmayacaq.

Mən Şamama ilə ikinci dəfə Zeynəbin dükanına gedərkən yol yoldaşı oldum. Əslində bunu Şamama özü təklif etdi. Hava qaranlıq idi. Mən də Höcətulla kişinin həyətindən – kirayə qaldığım həyətdən çıxıb küçədə dayanmışdım, siqaret çəkirdim. Höcətulla kişi həyətdə və kirayə evlərdə siqaret çəkməyə icazə vermirdi. Onun özü də, oğlanları da siqaret çəkmirdilər. Höcətulla kişinin kirayə verdiyi bir neçə otaq var idi ki, onlarda da, əsasən, qızlar qalırdı. Mən təsadüfən gəlib buraya düşmüşdüm. Bəlkə, yeganə adam idim ki, siqaret çəkirdim. Əslində mənim buraya gəlib çıxmağımın səbəbkarı Zibeydə arvadın bizdən yuxarı kursda oxuyan, dərnəkdən tanıdığım nəvəsi olmuşdu.

Xülasə, Şamama küçəyə çıxdı və mənə Zeynəbin dükanına getməyi təklif etdi, qaranlıqda tək getmək istəmirdi. Həmin vaxt öyrəndim ki, Şamama həkim olmaq istəyirmiş, amma birinci ili kəsilib. İkinci ili isə sənədlərini universitetin biologiya fakültəsinə verib və qəbul olub. Özü də səmimi şəkildə etiraf edirdi ki, məhz bilə-bilə biologiya fakültəsinə girmişəm. Biologiya müəllimimiz bizə dərsləri yaxşı öyrətmirdi ki, gedib biologiya müəllimi olub rayona qayıdarsınız, mənim dərslərimi əlimdən alarsınız. Orta məktəbdə sidq-ürəklə mənə dərs deyən, neçə riyaziyyatçı yetişdirən riyaziyyat müəlliminin dərslərini sonralar öz şagirdləri əlindən aldılar və yarım stavka dərsin ümidinə qalan riyaziyyat müəllimi də çıxıb öz kəndlərinə getdi.

Şamama Zeynəbin dükanından bəzi şeylər aldı. Qayıdıb evə gələndə Höcətulla kişini düz darvazanın qabağında gördük. Elə bil orada durub məxsusi bizi gözləyirdi. Onunla salamlaşıb həyətə keçdik. Qaranlıq olduğundan Höcətulla kişinin sifətini görmədim və əhvalından xəbərim olmadı.

Bundan xeyli keçmiş şənbə günlərinin birində Sədullanın hamamına getmişdim. Mən hamamın qapısından çıxmaq istəyirdim ki, Şamamanın da oradan çıxdığını gördüm. Başına ağ yaylıq bağlamışdı, əlində böyük torba da vardı. Torbanın böyüklüyünün səbəbini bilirdim. Qızlar, adətən, hamama gedəndə bəzi paltarlarını, döşəkağını da aparıb orada yuyurdular. Şamama ilə söhbət edə-edə həyətə yollandıq.

Onu da sizə deyim ki, bir xeyli bundan əvvəl Höcətulla kişinin Xarici Dillər İnstitutunda oxuyan qızı ilə də beləcə hamamın qarşısında rastlaşmışdıq. Amma mən onunla birlikdə həyətə getmədim. Ayağımı sürüdüm ki, o, məndən qabağa düşsün və qabağa düşdü də. Deyəsən, bunu o, özü də hiss elədi. Höcətulla kişinin qızı adamın ağlını aparan elə bir güllü və uzun paltar geymişdi ki, həmin paltar onun topuqlarını örtürdü. Mən belə bir paltarı ilk dəfə böyük qardaşımın evinə gəlin gələn Qönçə bacı-

da görmüşdüm. İndi onlar qalsın bir tərəfə, amma mən Şamama ilə həyətə çatanda işin tərsliyinə bax ki, Höcətulla kişi yenə darvazanın qabağında idi. Elə bil qəsdən bizi gözləyirdi. Salamlaşıb həyətə keçdik. Bu dəfə Höcətulla kişinin narazı sifəti açıq-aydın göründü. Salamımızı almadı.

Bazar günlərindən biri idi. Mən səhər tezdən Axundov kitabxanasına getmişdim. Günortaüstü işimi qurtarıb evə qayıdırdım. Avtobusla gəlib "Lalə" kafesinin yanında düşdüm. Bu, o vaxtlar idi ki, "İnşaatçılar" metrosunun hələ izi-tozu yox idi. Yolun digər tərəfinə keçəndə Şamamanın da başqa avtobusdan düşdüyünü görüb ona yaxınlaşaraq salamlaşdım. Xalasıgildən gəlirdi. Birdən haradansa özümdə cəsarət tapıb Şamamaya dondurma yeməyi təklif etdim, qəribədir ki, o da razılaşdı. Bazarın yaxınlığında dondurma satılan yerə üz tutduq.

İki dondurma sifariş etdim, üzərinə də qızılgül mürəbbəsi tökdürdüm. Oturub məktəb illərindən, rayondan, dərsdən, kitablardan şirin söhbət edə-edə dondurma yeyirdik. Bir də nə görsəm yaxşıdır? Bazardan çıxan və hər iki əli dolu olan Höcətulla kişi yükünü yerə qoymadan dayanıb bizə baxırdı. Baxdı, baxdı və sonra da çıxıb getdi.

Dondurmanı yeyib qurtarandan sonra Şamama evə tərəf yollandı, mən isə universitetin yataqxanasındakı uşaqların yanına getdim. Bir-iki saat orada ləngidim. Mənə lazım olan kitabı tapa bilmədim. Məyus-məyus məhəlləyə döndüm. Sonra evə qayıtdım. Höcətulla kişinin həyətinə girəndə gözlərimə inanmadım. Otaqda nəyim vardısa, hamısı həyətin ortasına tökülmüşdü. Təkcə paltarlarım görünmürdü. Bu an Şamama həyətə çıxdı, mənə yaxınlaşdı, astaca:

– Zeynal, evə gələndə gördüm ki, paltarların və kitabların həyətin ortasına tökülüb. Paltarlarını götürüb şifonerdən asmışam. Höcətulla kişi deyib ki, dəftər-kitabını da götürüb buradan

rədd olsun, gözlərimə görünməsin, axırıncı ayın kirayə pulunu da istəmirəm.

Məni Höcətulla kişinin həyətindən Şamama ilə Höcətulla kişinin qızı yola saldı. Həmin axşam oradan köçümü çəkib yenidən yataqxanaya qayıtdım. Yolda hamamın qabağında oturmuş Sədulla kişi salamımı almadı. O gündən sonra Zeynəb də mənə nisyə mal verməyi tərgitdi.

# 204 NÖMRƏLİ AVTOBUS

O zaman Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsi indi İqtisad Universitetinin yerləşdiyi binanın sol tərəfində – Baksovetin qəbul otağı ilə üzbəüzə olan hissəsində yerləşirdi. Universitetin yataqxanaları isə buradan xeyli uzaqda – Yasamalda olduğundan tələbələrin əsas çətinliyi yataqxanalardan fakültəyə necə gəlib-getmək idi. İndi bu, çox asandı. Yasamaldan metronun "İçərişəhər" stansiyasına getmək üçün Yasamalın yaxınlığındakı stansiyalardan birində metroya minirsən və bir neçə dəqiqəyə gedib oraya çatırsan.

Tələbələr yataqxanalara iki yolla gedə bilirdilər. Bunlardan biri Filarmoniyanın yanından başlayan və 5 nömrəli trolleybusun getdiyi yol idi. Bu trolleybusa tələbələrin az bir qismi minərdi. Səbəbi də bu idi ki, trolleybus oradan baş götürüb nazlana-nazlana indiki Mətbuat prospektinə doğru hərəkət edərdi və gəlib yataqxanaların aşağısında dayanardı. Buradan da gərək pilləkənlə Yasamalın dikinə qalxaydın. Dərsdən yorğun çıxan tələbələrə bu, sərf eləmirdi. İnsaf naminə demək lazımdır ki, pilləkənlərin də öz azarkeşləri var idi. Bunlar, əsasən, təzə tanış olan tələbə qızlar və oğlanlar idi. Onlar sayı-hesabı bilinməyən pillələri asta-asta qalxar, şirin-şirin söhbət edər, bu pilləkənlərin qurtarmasını istəməzdilər.

İkinci yol – Marks bağının (indiki Fəvvarələr meydanının) yanından başlayan 204 nömrəli marşrut üzrə gedən avtobus idi. 204 nömrəli avtobusda 5 nömrəli trolleybusdan fərqli olaraq, həmişə basabas olardı. Buna baxmayaraq, bu marşrutu seçən tələbələrin sayı daha çox idi. Bunun səbəbi avtobusun yataqxanaların üst tərəfində dayanması idi. Bu zaman artıq pilləkənlərin əzabını çəkmək lazım olmurdu. Xatırlayıram ki, 204 nömrəli avtobusun dayanacağının yanındakı pilləkənin böyründə ciyər peraşkisi satırdılar, qiyməti cəmi 5 qəpik idi, amma çox dadlı olar-

dı. Oğlanlar hərdən o isti peraşkilərdən alıb dayanacaqda ləzzətlə yeyərdilər, qızlar isə aldıqları peraşkiləri yataqxanaya aparardılar.

Qarlı günlərin birində dərsdən çıxıb əllərimizi ovuşdura-ovuşdura 204 nömrəli avtobusun son dayanacağına gəldik. Bizdən qoçaqlar artıq avtobus üçün növbəyə dayanmışdılar. Gözümün ucuyla peraşki satılan tərəfə baxdım, satıcı arvad qapağı qaldırıb peraşkiləri alıcılara verəndə qazanın içindən ağ buxar qalxırdı. İnanın ki, bu buxar qışın bu qarlı çağında elə bil adamın içini isidirdi. Qəribədir, bu gün heç kəs peraşki satılan tərəfə getmədi. Təqaüdə hələ xeyli vardı.

Bir azdan biz də avtobusa minməyə imkan tapdıq. Mən arxa qapıdan içəri keçib adamların arası ilə sürücünün lap yaxınlığına qədər irəliləyə bildim. İçəri dolu olduğundan bir neçə tələbə avtobusun qapısından sallana-sallana qaldı. Sürücü avtobusu sürmədi, sallanan uşaqlara qışqırdı ki, qapını buraxın. Uşaqlardan biri "səhər hamı sallanır, söz demirsən, indi səsin-küyün buranı götürüb", – cavabını verdi. Bu sözlərin sürücüyə təsiri olmadı, kobud səslə qapının buraxılmasını tələb etdi. Bildirdi ki, qapılar bağlanmayınca avtobus getməyəcək. Avtobusun içindəkilər də qapıdan sallananlara irad tutdular. Hərə bir söz dedi. Kimi sallanan uşaqların üstünə təpinir, kimi sürücünü ittiham edirdi. Heç bir söz demədən sakit dayananlar da var idi. Arxa qapının yanındakı tutacaqdan tutan iki qızdan biri sallananlara dedi ki, icazə verin biz düşək, siz rahat minin, qoy avtobus getsin. Bu sözdən sonra sallananlar sakitcə ayaqlarını yerə qoyub avtobusun qapılarını buraxdılar. Qapılar da sanki buna bənd imiş kimi bir-birinə dəyib bərkdən şaqqıldayaraq örtüldü.

Avtobus "Araz" kinoteatrının yanından irəlilədikcə silkələnir, adamlar öz yerlərini rahatlayırdılar. Bu marşrutda digər avtobuslarda, ya Moskva metrosunda olan kimi oturacaqlardan durmamaq, yerini yaşlılara verməmək üçün üzünə qəzet, jurnal

tutub özünü görməməzliyə vuran sərnişin olmazdı. Kiçiklər böyüklərə, oğlanlar qızlara yer verərdilər. Bizdən aşağı kursda oxuyan Polad görmədiyi üçün oğlanlar, lap elə qızlar da yerlərini ona verərdilər. İndi də belə oldu. Polad dinməz-söyləməz təklif edilən yerdə oturdu. Onu da deyim ki, sözə baxan olduğundan tələbələrin hamısı Poladın xətrini istəyərdi. Poladın məclislərdə Əli Kərimin "İki sevgi" şeirini ürəkdən deməsi uşaqları ona daha çox bağlayardı:

...Gözəl qız, sən işıqsan,
Yurduma yaraşıqsan.
Mənsə səni sevirəm
iynənin ucu boyda
İşığa həsrət qalan göz işıq sevən kimi...

Bu minvalla avtobus M.F.Axundov bağına çatdı. Bu bağ məndə xoş təəssürat yaratmışdı, həmişə bura çatanda həmin təəssürat təzələnirdi. Ağlınıza gəlməsin ki, mən bu bağda hansısa bir qızla eşq macərası yaşamışdım, burada onunla tez-tez görüşürdük. Yox, bu təəssürat heykəlin aşağısında – postamentində olan yazı ilə bağlı idi. M.F.Axundovun heykəlinin üzərində yazıçının adı latın əlifbasında yazılmışdı və bu cəhətdən o, Bakıda, bəlkə də, ölkədə yeganə heykəl idi. Mən aşağı kurslarda oxuyanda bir neçə dəfə gəlib heykəlin postamentində yazılmış o hərflərə diqqətlə baxmışdım. Ola bilsin ki, bu hərflər indi dayımın əzizləyə-əzizləyə saxladığı babam Əli Tağı oğlunun köhnə pasportunda olan hərflərə oxşadığı üçün mənə doğma gəlirdi.

Bakıdakı heykəllərin çoxusu şair və yazıçıların heykəlləri idi. Elə bil onların hərəsi bir tərəfdə dayanıb gecə-gündüz Bakıya keşik çəkirdi. Amma Sankt-Peterburqda, əsasən, çarların heykəlləri var. Danimarkalılar Kopenhagendə onların dilini xilas edən dilçilərə heykəl qoyublar.

Avtobus Dadaş Bünyadzadənin indi yerində olmayan heykəlinin yanından keçib sola dönəndə yadıma Məmməd Cəfər

müəllim düşdü. Məmməd Cəfər müəllim bu küçədəki “Yazıçıların binası”nda yaşayırdı. Bir dəfə o, bizi 5 nömrəli trolleybusla Akademiyanın əsas binasına, Mirzə İbrahimovun “Pərvanə” romanının müzakirəsinə aparırdı. Mən Məmməd Cəfər müəllimdən soruşdum ki, müəllim, Bəxtiyar Vahabzadənin maşını da, sürücüsü də var, siz niyə maşın almırsınız? O da gülümsəyə-gülümsəyə dedi ki, hesablamışam, maşına və sürücüyə verdiyim pulu taksiyə versəm, ömrümün sonuna qədər çatar, hələ bir az da artıq qalar.

Həmin küçəyə çatanda bizim tələbələrin yadına tamamilə başqa bir hadisə də düşürdü. Bu da ondan ibarət idi ki, bir neçə həftə bundan öncə bu küçə ilə gedən hərbi maşın yolunu azıb universitetimizin professoru İnayət müəllimgilin evinin bir divarını uçurmuş, nəinki uçurmuş, hətta mətbəxə girmişdi. İnayət müəllim sürücü əsgərdən heç bir şikayət etmədən həmin divardakı pəncərələri də ləğv edərək yeni və möhkəm bir divar çəkdirmişdi. Uşaqlar həmin divara zarafatla “İçərişəhərin qala divarı” deyirdilər.

Avtobus bir az da irəliləyib Əzim Əzimzadə adına rəssamlıq məktəbinin yanından N.Nərimanovun heykəlinə tərəf döndü. N.Nərimanovun heykəli əzəmətli idi. O, sağ əlini ürəyinin üstünə qoymuşdu. Sizə deyim ki, heykəldə əl məsələsi çətin bir məsələdir. Çox vaxt heykəltaraşlar əlləri ifadə etməyin yolunu tapa bilmirlər və əllər bayağı görünür. Amma N.Nərimanovun əli onun həyatının mənasını ifadə etməyə imkan verirdi. Həmin gün avtobusda gedəndə mən heç bilmirdim ki, professor Abbas Zamanov N.Nərimanovun heykəlinin arxasındakı binada yaşayır, indi o binaya Abbas müəllimin xatirə lövhəsi vurulub.

Avtobus N.Nərimanovun heykəlinin başına fırlanıb yuxarıya doğru istiqamət götürdü. Bura yoxuş olduğuna görə qarlı günlərdə maşınlar oranı çətin qalxırdılar. Ona görə də avtobusun nəriltisindən bəlli olurdu ki, sürücü özünü əməlli-başlı topar-

layıb. Şükür Allaha, gəlib Əzizbəyovun heykəlinin yanına çatdıq. Heykəlin yanındakı bağa aid mənim xoş bir xatirəm var, amma onu indi sizə danışa bilməyəcəm, çünki avtobus oradakı dayanacaqda durmadı, sürətlə gəlib C.Cabbarlı kinotetrının qarşısında dayandı. İndi orada "Space" televiziyası yerləşir.

Kinoteatrla üzbəüz yolun o biri tərəfindəki Dağüstü bazarın arxasında kiçik bir çayxana yerləşirdi. Biz tez-tez həmin çayxanaya gedərdik. Orada yaxşı və maraqlı ədəbi söhbələr olardı. Politexnik İnstitutunda işləyən, "Füyuzat" jurnalının və Əlibəy Hüseynzadənin tədqiqatçısı olan Ofelya xanımın həyat yoldaşı Səlim müəllim həmin çayxananın yanından keçib evlərinə gedəndə həmişə ora girər, bizə salam verər, içdiyimiz çayın, yediyimiz yeməyin pulunu ödəyərdi. Bəzən öz-özümüzə danışardıq ki, daha bura gəlməyək, kişini yaman xərcə salırıq. Deyirdik, amma yenə gəlirdik, yenə intizarla Səlim müəllimi gözləyirdik...

Avtobus "Ceyran" restoranının qarşısında dayananda çox adam düşdü. Restoranla üz-üzə yolun o biri tərəfində Politexnik İnstitutu yerləşirdi, onun qarşısında Çingiz İldırımın heykəlinə baxmaq istəyəndə qulağıma doğma bir səs gəldi. Kimsə avtobusdan düşə-düşə ucadan: "Mənim pulumu Məmmədağa verib", – sözlərini dedi. Məmmədağanın adını çəkdiyinə görə bildim ki, düşən bizim tələbələrdəndir. Onun kim olduğunu görmək istəyirdim, bu, mümkün olmadı, çünki həmin adam avtobusun qarşısından burulub yan tərəfə keçmişdi. Gözlərim avtobusa minmək istəyən Şamamaya sataşdı. Nə xoş təsadüf! Şamama arxa qapıdan avtobusa mindi, məni görmədi. Mənim avtobusdakı sıxlığı yarıb ona tərəfə getməyim mümkün deyildi. Şamama ilə mən Dağlı məhəlləsində Höcətullanın həyətində kirayənişin qalmışdıq. Hər dəfə Şamamanı görəndə onunla hal-əhval tuturdum, çox büruzə verməsək də, hər ikimiz ürəkdən sevinirdik. Gözləyirdim ki, indi Şamama başını qaldırıb məni görəcək. Elə bu dəm yataqxanadan tanıdığım və şərqşünaslıqda oxuyan bir oğlan

da sürücünün yanından astaca keçərək: “Pulumu Məmmədağa verib”, – dedi və avtobusdan düşdü. Avtobusdakı tələbələrin çoxu bu sözlərə dodaqaltı gülümsündü.

Məmmədağa jurnalistika fakültəsində oxuyurdu. Bu fakültə də Baksovetin yaxınlığında – vaxtilə Nikolayevski, sonra Kommunist, indi İstiqlaliyyət adlanan küçənin o biri tərəfində Yefim Saratov küçəsində yerləşirdi. Məmmədağa nəinki kurslarında, hətta fakültədə yaşca hamıdan böyük idi, çünki əsgərlikdə xidmət eləmiş, hələ üstəlik universitetə də üç-dörd il gec qəbul olunmuşdu. Maraqlı adam idi, öz bildiyini dədəsinə verməzdi. Çəkinmədən fakültənin yerləşdiyi küçəyə “Yetim Saratov” deyərdi. Həmişə səliqə ilə geyinərdi, əlində qara çanta olardı. Yayın qızmar günlərini çıxsaq, demək olar ki, həmişə kostyum geyinər, qalstuk taxardı. Tələbələrin məzəmmətinə əhəmiyyət verməzdi. Məmmədağanın qalstuku, kostyumu və çantası sonralar onun karına gəldi. Rayonların birində qəzet redaktoru oldu. Daha sonrasını bilmirəm. O vaxtlar qalstuk, kostyum qalsın bir tərəfə, tələbələr çanta da götürməzdilər. Dəftərlərini köynəklərinin altından kəmərlərinə keçirərdilər. Çox adam çanta götürməyi qəbahət bilirdi.

Məmmədağanı tələbələr arasında məşhur eyləyən başqa bir cəhət vardı. Bu da ondan ibarət idi ki, pulu olmayan tələbələr avtobusdan düşəndə pul verməmək üçün həmişə Məmmədağanın adını çəkərdilər. Bunun da öz səbəbi var. Məmmədağa bir dəfə avtobusda gedəndə quruplarındakı xoşu gələn bir qızın pulunu verir. Sürücünün yanında ucadan bildirir ki, düşərsən, düşəndə de ki, Məmmədağa pulumu verib. Ondan sonra bu sözlər tələbələr arasında zərbi-məsələ çevrildi. Məmmədağa universiteti qurtarandan sonra da pulsuzların “pənahı” Məmmədağa olardı. Bir az bundan qabaq tələbələrin Məmmədağanın adını çəkməsi məhz həmin vərdişin nəticəsi idi. Məmmədağanın xə-

yalının üstündən dönüb Şamamaya tərəf baxdım, demə Şamama məni görürmüş. Gülümsəyə-gülümsəyə başımızla salamlaşdıq.

Avtobus Akademiyanın qarşısındakı bağın başına fırlandı. (İndi bu bağ "Cavid bağı" adlanır və orada Hüseyn Cavidin heykəli ucalır). Bağın ətrafındakı döngələr sərt olduğuna görə avtobus bir tərəfə əyildi. Adamlar bir-birinin üstünə yıxılmamaq üçün birtəhər özlərini saxlaya bildilər. Avtobus metronun indiki "Elmlər Akademiyası" stansiyasının çıxışının qabağında dayananda xeyli adam düşdü. Yenə bir nəfər: "Mənə Məmmədağa bilet götürüb", – deyərək qabaq qapıdan çıxdı. Onu tanıdım. Jurnalistika fakültəsində oxuyurdu. Xalasıgil dayanacaqdakı kitab mağazasının arxasındakı Xrebtovı küçəsində yaşayırdı. Yəqin yuyulmaq üçün verdiyi pal-paltarlarını götürmək üçün gedirdi.

Avtobus universitetin binasının yaxınlığından keçəndə mən başımla Şamamaya işarə elədim ki, növbəti dayanacaqda düşək, o da razılaşdı. Həmin dayanacaq 5 nömrəli trolleybusun dayanacağı idi. Oradan yuxarıya – yataqxanalara aparan hündür pilləkənlər başlayırdı.

Avtobus indiki Mətbuat prospektinə burulub dayandı. Şamama arxa qapıya doğru getdi, mən isə qabaq qapıya tərəf irəlilədim. Ucadan Şamamaya bildirdim ki, sən düş, biletini alıram. Mən elə səslə deyirdim ki, Şamama da, sürücü də bunu eşitsin və hər ikisi eşitdi. Sürücüyə yaxınlaşıb avtobusun motorunun üstünə sərilmiş dərinin üzərinə 5 qəpik qoydum və "mənim biletimi Məmmədağa alıb", – dedim. Bunu demişdim ki, sürücü yerindən sıçrayıb mənim nimdaş qəhvəyi rəngli paltomun yaxasından yapışdı. Yaxalığımı bərk-bərk silkələyərək ucadan qışqırdı:

– Əşi, nə Məmmədağa, Məmmədağa salmısınız! Elə düşən deyir ki, mənim pulumu Məmmədağa verib.

Sürücü paltomun yaxalığını sıxmaqda davam edirdi. Mən yavaşca dedim ki, əlini çək, paltomu cırarsan! O, paltomun yaxalığını buraxmayıb dediyini deyirdi:

– Mənə o Məmmədağanı göstər görüm, kimdi o Məmmədağa?

Mən yenə yavaşca "Məmmədağa avtobusdan çoxdan düşüb, mən onu sənə necə göstərə bilərəm?" – dedim.

– Hansı dayanacaqda düşüb? – sürücü bu sualı verib paltomun yaxasını bir az boşaltdı.

– "Ceyran" restoranının yanında.

Sürücü paltomun yaxalığını buraxdı, geri çəkilə-çəkilə dedi:

– Yaxşı, gələn dəfə hökmən Məmmədağanı mənə göstərməlisən. Göstərməsən mənim avtobusuma minmə!

Mən avtobusdan düşdüm. Avtobus hirslə uzaqlaşdı. Şamama məni elektrik dirəyinin yanında gözləyirdi. O soruşdu ki, nə olmuşdu? Mən də cavab verdim ki, heç, elə-belə. Şamama çox da bənd olmadı. Biz qarın üstü ilə ehtiyatla pilləkənlərə doğru addımladıq. Pilləkənlərə bir az qalmış uşaqların su töküb dondurduğu və gəlib-gedənlər üçün tələ hazırladıqları sürüşkənlik başlayırdı. Həmin yerə çatanda təklif elədim ki, sürüşməmək üçün ona kömək edim. O razılaşdı, çünki yer çox sürüşkən idi. Hiss elədim ki, çəkmələrinin altı da, deyəsən, çox etibarsızdı, adamı böyrü üstə qoyar. Biz ilkin on pilləni qalxıb nisbətən düz yerə çatdıq. Həm Şamamanın isti təmasından, həm də bu sərt pilləkənləri çıxmaqda ona kömək edə bildiyimdən fərəh hissi keçirirdim. Böyük bir işi yerinə yetirmiş adamlar kimi sevinirdim. Özümü sərbəst aparmağa başladım. Bu sərbəstlik çox çəkmədi, qəfil ayağım sürüşdü və tir-tap yerə sərildim. Şüşə kimi hamar, sürüşkən pilləkənlərlə sürətlə üzüaşağı yumbalandım. Pilləkənlərin axırıncısına çatanda da özümü saxlaya bilmədim, sürüşkən yeri keçib dayanacağa qədər gedib çıxdım. Bu zaman

pilləkənlərin başında: “Narahat olma, get, pulunu Məmmədağa verib”, – deyən Şamamanın gülüşləri ağappaq qar dənələrinə də-yib çiliklənərək ətrafa səpələnirdi.

***Bakı, dekabr 2015***

# NOVRUZA BİR GÜN QALIRDI

Novruza bir gün qalırdı. Şəhərin bütün küçələri tərtəmiz idi. Onda ikinci növbədə oxuyurduq. Mən filologiya fakültəsinə çatanda bizim qrupun uşaqlarının pıçhapıçları ara vermirdi. Xüsusilə qızlar künc-bucağa qısılıb xısın-xısın danışırdılar. Əhvalatdan elə o dəqiqə mən də xəbər tutdum. Şəlalə Oruc Arazçaylının Novruz bayramı ilə əlaqədar ona aldığı hədiyyəni qəbul etməmişdi. Ən pisi bu idi ki, belə bir hadisə ikinci dəfə təkrar olunurdu. Şəlalə əvvəlki illərdən fərqli olaraq, 8 Mart ərəfəsində də bu cür hərəkət etmiş, heç kəsin gözləmədiyi halda, əməllibaşlı qanqaralıq salmışdı. Onda da, indi də hamı Şəlaləni qınayırdı. Bu barədə danışan hər kəs: "Sənə hörmət qoyublar, hədiyyə alıblar, adamı xəcalət etməzlər axı!" – deyə gileylənirdi. Şəlalə isə elə bil heç nə olmayıb kimi sus-pus dayanmışdı, bir kəlmə belə danışmırdı.

Oruc Arazçaylı ilə Şəlalənin məsələsi uzun söhbətdir. Mənə elə gəlirdi ki, onların bir-birlərini istəyib-istəməmələri özlərindən başqa heç kəsə bəlli deyildi. Amma ötən il Şəlalənin Oruc Arazçaylı üçün ovuc-ovuc "moskovski" konfetlər daşıdığının şahidiyəm. Hətta bir dəfə o konfetlərdən mənə də pay düşmüşdü. Oruc isə bu konfetləri adi bir nəzakət qaydası kimi yox, ona olan sevgi kimi başa düşürdü. Qəribədir, bu hay-hayda içimdən bir gizilti keçdi, dodaqlarıma gizli bir təbəssüm qondu və tələbə yoldaşımız Musa Ələkbərlinin yazdığı məşhur məhəbbət dastanından bir bəndi xatırladım:

Uca zirvə göy üzündən nəm çəkər,
Pürrəngi çay yana-yana dəm çəkər,
Bu hicrandan fakültəmiz qəm çəkər,
Kül eyləyər darülfunu bu nalə,
Şəlalə!

Bu bəndi ürəyimdə deyib qurtarmışdım ki, qrupumuzun dilli-dilavər qızı Arzu mənə yaxınlaşdı, salamsız-kəlamsız danışmağa başladı:

– Hardasan, ay pir olmuş! Gəlib bir dəsgaha baxaydın! Dünyanın ən böyük ləzzətindən məhrum oldun. Xəbərin yoxdu, Şəlalə yenə Oruca "vız" dedi. Görmürsən, Orucun rəngi qapqara qaralıb, bıçaq vursan, qanı çıxmaz.

Arzu qəfildən heç gözləmədiyim halda, Musa Ələkbərlinin indicə xatırladığım şeirindən bir-iki misranı həvəslə, özü də bir az ucadan söylədi. Arzunun səsini eşidən yaxınlıqdakı tələbələr də ona qoşuldular. Həmin şeirdən hərə yadında qalan bir-iki misranı şövqlə deməyə başlamışdı ki, zəng vuruldu. Zəngin səsini eşidən Arzu tələm-tələsik çantasını açıb bir bloknot çıxartdı: "Bütün oğlanları təbrik etmişəm, bircə sən qalıbsan, al, bu da sənin bayram payın olsun!" – deyib bloknotu mənə uzatdı. Sonra da: "Mən Oruc-moruc, Şəlalə-məlalə deyiləm ha, götürməzsən, başına çırparam!" – dedi.

Cildinə üzlük çəkilmiş bloknotu aldım, üz qabığındakı medalyonun içərisində belinə qırmızı lent bağlanmış səməni şəkli vardı. Səməniyə baxdıqca xəyalımda ərimiş qarın altından boy verib qalxan taxıl zəmiləri canlanırdı. Arzunun isə gözləri məndə idi, yəqin nəsə deyəcəyimi gözləyirdi. Mən heç nə demədim və biz sakitcə auditoriyaya doğru irəlilədik. Auditoriyanın qapısından içəriyə keçəndə Arzu dilləndi:

– Saat 4-də yuxarı binada – Akademiya metrosunun yanı nəzərdə tutulur – Novruz bayramı ilə bağlı tədbir keçiriləcək, istəsən, birinci dərsdən çıxıb ora gedərik!

Mən başımla razılığımı bildirdim...

Biz dörd nəfər – Arzu, Çiçək, mən və nə qədər qəribə olsa da, Şəlalə birinci dərsdən sonra Universitetin yuxarı binasına gəldik. Qapının ağzında bəlli oldu ki, heç kəsi içəriyə buraxmırlar. Baksovetin yanında yerləşən filologiya, şərqşünaslıq və jur-

nalistika fakültələrindən gələn tələbələri isə heç yaxına qoymurdular. Amma bizim bəxtimiz gətirdi. Orada növbətçilik edənlərdən biri Çiçəyin əmisioğlu çıxdı. O, bizi sakitcə içəri keçirdi və dedi ki, tədbir kimya fakültəsindəki böyük auditoriyada olacaq.

Bu auditoriya mənə tanış idi və Universitetin giriş qapısından xeyli içəridə – ikinci mərtəbədə yerləşirdi. Orada qəbul imtahanları zamanı fransız dilindən imtahan vermişdim və həmin vaxt məndən əvvəlki qızların imtahan verməsini həmişə ürəkağrısı ilə xatırlayıram. Adını bilmədiym birinci qız suallara yaxşı cavab verməmişdi, amma ona üç yazmaq olardı. Qız da ciddi cəhdlə üç almaq istəyirdi. Əslində müəllimə də tərəddüd içərisində idi. İmtahan verən qızın cəhdi müəllimədə xüsusi maraq yaratdı və müəllimə soruşdu:

– Axı bu üçü neynirsən, onsuz da qəbul üçün sənin balın çatmayacaq!

Qız ağlamsınaraq: “Müəllimə, mən rayona gedən kimi hamı soruşacaq ki, kəsilmisən, yoxsa konkursa düşmüsən?” – cavabını verdi. (O zaman qəbul komissiyasının məsul katibi olan Şirməmməd Hüseynov “konkursa düşmək” ifadəsini eşidən kimi deyirdi ki, konkurs məgər boçkadır ki, oraya düşəsən?)

Müəllimə təəccüblə: “Ay qızım, bunun nə mənası var, müsabiqədən keçmədin, yaxud kəsildin?”, – soruşdu.

Qız yazıq-yazıq dilləndi:

– Müəllimə, bizim kəndimizdə kəsilənləri lağa qoyurlar. Bütün imtahanlardan qiymət alıb qəbul olmayanların isə az-maz hörməti olur.

Müəllimə fürsət gözləyirmiş kimi “qoy səni lağa qoysunlar, eybi yox, yaxşı hazırlaşıb gələn il təzədən gələrsən”, – deyib o qıza iki yazdı. Ağlaya-ağlaya auditoriyanı tərk edən qızın hıçqırıqları indi də qulaqlarımdadır.

İkinci qız Yevlaxdan gəlib imtahan verən Samirə idi. Samirənin adı ona görə yadımda qalıb ki, ilk gündən mənimlə bir

qrupda imtahan verirdi. Hətta yazılı imtahanda ona köməkliyim də dəymişdi. (Dərs dediyim tələbələrə tapşırmışam ki, əgər Samirəni, yaxud onun uşaqlarını tanıyan olsa, mənə xəbər versinlər. Hələ də bir xəbər yoxdur. Kaş bu yazını o, özü oxuyaydı.)

Samirənin vəziyyəti birinci qızdan acınacaqlı oldu. Belə ki, Samirə tam cavab verməsə də, ona üç yazmaq olardı, o da üç istəyirdi. Qızlara üç vermək məsələsini belə qabartmağımın səbəbi budur ki, orta məktəbdə bizə fransız dilindən dərs deyən Əli müəllim şagirdlərə dörd, beş qiymətlərini çətinliklə versə də, bir az bilənə üç yazardı.

Xülasə, fransız dili müəlliməsi: “Sən niyə üç almaq istəyirsən? Üç alsan da, sənin qəbul olmağa balın çatmır”, –deyib diqqətlə onun üzünə baxdı. O da gözlərinin yaşını axıdaraq üç almağın minnətini yaşayırdı. Samirə: “Yaxşısı budur, heç danışmayım, qoy müəllimə özü qərar versin!”– düşüncəsinin altında əzilirdi. Fransız dili müəlliməsi bir az da qəzəblə soruşdu:

– Üç sənin nəyinə lazımdır? Deməsən, iki yazacağam!

Samirə müəllimənin sözlərində bir işıq görüb dilləndi:

– Müəllimə, mən ikinci ildir ki, qəbula gəlirəm. Keçən il kəsiləndən sonra gedib kolxozda işləmişəm. Bir illik əmək stajım olduğu üçün mənə bir üç lazımdır,  qəbul olacağam.

Müəllimə yanındakı assistentindən soruşdu:

– Uşaq doğru deyir? Elə qayda var?

Assistent başı ilə qızın fikrini təsdiqlədi. Müəllimə üzünü ayaq üstə dayanan Samirəyə tərəf tutdu və astaca dedi:

– Demək, üç alsan, qəbul olacaqsan?

Müəllimənin əvvəlki sözlərindən aldığı işığı hələ də ürəyində yaşadan Samirə bir az da cəsarətlə: “Bəli, müəllimə”, – cavab verdi.

Müəllimə hirslə dilləndi:

– Demək, bizə kələk gəlirmişsən. İki alırsan, gedə bilərsən!

Müəllimənin qəfil dediyi bu sözlər Samirənin bir az bundan qabaq içində qoruyub saxladığı işığı qapqara zülmətə çevirdi.

Novruz bayramı ilə bağlı tədbirin keçirildiyi auditoriyaya tərəf gedə-gedə bunları fikirləşirdim ki, Arzu məni düşüncələrdən ayırdı:

– Çatmışıq, tədbir burada olmalıdır!

Qapını astaca açdım. İşıqlar söndürülmüşdü, amfiteatr formasında olan auditoriya yarıqaranlıq idi. Ayaqlarımızın ucunda içəriyə daxil olduq. Hər tərəfə şamlar və səmənilər düzülmüşdü. Şamların işığı səmənilərdə bərq vurub qəribə rəng çaları yaradırdı. Sol tərəfə burulub divarın dibi ilə üzü yuxarı qalxmağa başladıq. Partalarda oturmuş qızların çoxu yataqxanada qalan Arzu ilə Çiçəyi tanıdıqlarına görə onlara və Şəlaləyə oturmaq üçün yer tapıldı. Mən isə divarın dibində ayaqüstə qaldım. Bir az keçmişdi ki, yuxarıdan bir qız divarın dibi ilə mənə yaxınlaşdı, əlimdən tutub dartdı və dedi:

– Gəl, mənim yanımda yer var!

Bu, Şamama idi. Onun bu yarıqaranlıq otaqda məni tanımasına təəccüb elədim. Sözəbaxan uşaqlar kimi Şamamanın yanına düşüb üzüyuxarı qalxmağa başladım. Partaların birində biz yanaşı oturduq. Sonra Şamama mənə işarə elədi ki, plaşımı çıxarım. Hamı plaşını çıxarıb partaların üzərinə qoymuşdu. Mənim qarşımdakı plaş Şamamanın idi. Höcətullanın evində kirayənişin qaldığımz vaxtlarda Şamama həmin qara rəngli və üstündə ağ nöqtələri olan plaşı geyinirdi. Mən ayağa qalxmadan Şamamanın köməyi ilə plaşımı soyundum. Şamama onu qatlayıb öz plaşının üstünə qoydu.

Tribunada bəstəboy kimyaçı alim danışırdı:

– Bizim xalçaların naxışları atomun quruluşunu xatırladır...

Bu sözlər məni xəyalən Bəxtiyar Vahabzadənin mühazirələrinə apardı. O, deyirdi ki, biz torpağın altından yeni bir şey tapanda o dəqiqə deyirik ki, bura bizim eradan əvvəl neçənci minillikdəsə tövlə olub, başqaları isə həmin tapıntını kosmodrom adlandırırlar.

Elə bu vaxt auditoriyanın qapısı açıldı. Dörd-beş nəfər içəri daxil oldu. Onlardan biri qəzəblə: "İşıqları yandırın!" – dedi. İşıqlar yandı. Həmin adam üzünü auditoriyaya tərəf tutub qışqırdı:

– Bu, nə dəsgahdır? Kim sizə icazə verib? Kimdən icazə almısınız?

Şamama səsi titrəyə-titrəyə yavaşca: "Partkomun müavinidir", – dedi.

Həmin adam səhnənin ortasında qoyulmuş iri səməniyə yaxınlaşdı, bir göz qırpımında onu təpiklə vurub dağıtdı. Yenə qışqırdı:

– Bizim universitetdə icazəsiz heç kim heç bir tədbir keçirə bilməz!

Şamama əlləri ilə üzünü örtüb hıçqırmağa başladı. Niyə ağladığını soruşdum. O da cavab verdi ki, həmin səmənini mən gətirmişəm, on-on beş günə onu əzizləyə-əzizləyə böyütmüşdüm.

Bir azdan auditoriya boşaldı. Əllərində səməni və şam tutmuş tələbələr qızlar yataqxanasına tərəf hərəkət edirdilər. Kimyaçı müəllim də tələbələrlə bir addımlayırdı. Biz – Arzu, Şəlalə, Çiçək, Şamama və mən onlara qoşulduq. Heç kəs bikef deyildi, heç nə olmayıb kimi hamı deyib gülürdü. Birdən Şəlaləyə elə bil ilham gəldi. Özü də ləzzət ala-ala Musa Ələkbərlinin şeirindən bir bənd dedi:

Musa, sözü mətləbinə doğru de,
Aşiq yardan yana baxsa oğru de.
Sən vicdanın açıq danış, doğru de,

Söylə Oruc çatacaqmı vüsalə,
Şəlalə!

Heyrətlə Şəlalənin üzünə baxırdıq, nə deyəcəyimizi bilmirdik. Yaxşı ki, yataqxanaların aşağısındakı trolleybus dayanacağına çatdıq, Şəlaləni trolleybusla evlərinə yola saldıq.

Novruz şənliyi qızlar yataqxanasında xeyli çəkdi. Heç kəsin gözləmədiyi halda Xəlil Rza da oraya gəlib çıxdı. Əsl şənlik oldu. Şənlik qurtarandan sonra mən Şamama ilə yataqxananın vestibülündə – bura tələbə oğlanlarla qızların görüş yeri idi – bir tərəfə çəkildik. Şamama hələ də səməninin dağılmasını yadından çıxara bilmirdi. Ona təsəlli vermək mənasızdı. Deyirdi ki, elə bil bu səməni mənim bəxtim idi, bəxtimi vurub dağıtdılar.

Artıq vaxt çatmışdı, gecə saat 12-yə bir neçə dəqiqə qalırdı. Saat 12-dən sonra bir oğlan belə qızlar yataqxanasındakı vestibüldə qala bilməzdi. Yataqxananın gözətçisi Sura xala vestibüldəki adbaad tanıdığı oğlanlara yataqxanadan çıxmaq xəbərdarlığını elədi. Şamama buna bənd imiş kimi: “Sabah tezdən rayona gedəcəyəm”, – dedi. Mənsə: “Bayramın mübarək!” – sözlərini yavaşca pıçıldayıb azca gülümsündüm. O isə: “Mənə heç bir sözün yoxdur?” – deyə dilləndi.

Çiyinlərimi çəkib nə deyəcəyimi bilmədim. Vestibüldə bizdən başqa heç kəs qalmamışdı. Sura xala da çox böyük intizarla mənim yataqxanadan çıxmağımı gözləyirdi. Şamama məndən iki addım uzaqlaşıb geriyə döndü: “Rayonda məni nişanlayacaqlar!” – dedi və sürətlə uzaqlaşdı.

Sura xala məni zorla yataqxanadan çıxaranda Şamamanın son sözləri beynimdə ildırım kimi təlatüm yaradırdı və qəlbimdən təsəlli kimi bir aprel aldatma günü gəlib keçirdi. Amma aldatma gününə hələ çox vardı, bayırda yazın nəfəsi duyulurdu, Novruz bayramının qədəmləri hiss edilirdi.

# GƏLİNCİK

Mədinənin universitetə qəbul olması hamını sevindirmişdi. İki il gecə-gündüz bilmədən imtahanlara hazırlaşan Mədinənin onu təbrik etməyə gələnlərə ürəkdən dediyi bir söz vardı: bu iki ildə bir dəfə də olsun televizora baxmamışam, bizim evdə heç internet də yoxdur. O sözləri eşidənlər də əməlli-başlı təəccüblənir və öz-özlərinə sual verirdilər ki, necə ola bilər, Mədinə bir dəfə də olsun televizorun qabağında oturmasın, bir verilişə baxmasın, bir mahnıya qulaq asmasın? Mədinənin bu iki ildə televizordan uzaq durmasına şübhə edənləri isə Mədinə and-aman eyləyə-eyləyə inandırmağa çalışır və çətin də olsa, inandırırdı.

Mədinə söyləyirdi ki, məktəb illərində müəllimlərimiz bizə nə qədər desən öyüd-nəsihət, məsləhət veriblər, amma onların bəzisi yadımızda qalıb, bəzisi yox. Kimya müəllimimiz həmişə atalar sözləri ilə danışardı. Ən çox sevdiyi və tez-tez təkrar elədiyi bu idi ki, müəlliminə kəm baxanın gözlərinə qan damar. Kefimizin çağ vaxtında uşaqlardan biri belə atalar sözünün olmadığını ona xatırladanda müəllim də tövrünü pozmadan cavab verdi ki, atalar sözləri illər keçdikcə dəyişilir, yeniləşir. Elə xalqın böyüklüyü də ondadır ki, öz kəlamlarını təzələməyi bacarır. Sizə tanış gəlməyən həmin atalar sözünü bundan sonra çox eşidəcəksiniz. Daha bundan sonra heç kəs dinmədi. Kimya müəlliminin həmin sözlərinə sinifdə kimin inanıb-inanmadığını deyə bilmərəm. Amma onuncu sinifdə oxuyanda ədəbiyyatdan məni imtahana hazırlaşdıran Qəni müəllimin bir izahı gecə-gündüz yadımdan çıxmırdı. O deyirdi ki, söz yalnız deyilən və eşidilən deyil, gördüyün hər bir adamın özü də, hərəkəti də sözdür. Bu sözlərin sayı artdıqca insan yorulur, fikrini heç cür bir yerə cəmləşdirə bilmir. Ona görə də imtahanlara hazırlaşdığınız dövrdə televizora, kinoya baxmağı, ad gününə, toya getməyi bir dəfəlik yığışdırın. Elə ki, ali məktəbə qəbul oldunuz, tələbə biletini

alıb cibinizə qoydunuz, ondan sonra daha özünüz bilərsiniz, kinoya-minoya, toya-moya gedərsiniz nə yaxşı, getməzsiniz nə yaxşı! Mənim iki il televizora baxmamağımın səbəbi də məhz Qəni müəllimin bu sözləri olmuşdu.

Mədinənin ayrıca bir otağı var idi. Otağın uzun divarını yarıyacan kitab şkafı örtürdü. Kitab şkafı ilə üzbəüz divarın qarşısında isə onun imtahanlara hazırlaşması üçün stol və stul qoyulmuşdu. Həmin stol və stul təptəzə görünürdü və Mədinənin atası Sərdar  müəllim onları düz iki il bundan qabaq binalarının birinci mərtəbəsində olan mebel mağazasından alıb gətirmişdi. Uzunsov və ensiz bir divan isə o biri divara yapışmışdı. Mədinə dincələndə də, gecələr yatanda da elə həmin divanda dincəlir və həmin divanda yatırdı. Ata-anası nə qədər çalışmışdı ki, o divanın yerinə çarpayı qoysunlar və uşaq dincələndə, yatanda rahat olsun, amma əmələ gəlməmişdi. Bu barədə evdə söhbət düşəndə Mədinə heç vaxt razı olmayıb demişdi ki, bu divana öyrəşmişəm, universitetə qəbul olandan sonra necə istəyirsiniz, elə də dəyişərsiniz.

Valideynlərin bəziləri abituriyent uşaqlarına bahalı, şəkilləri aydın çəkə bilən cib telefonları alardılar, bəziləri isə onlara yalnız danışmaq üçün yarayan sadə telefonlar verərdilər. Qəribə burasıdır ki, Mədinənin bahalısı, sadəsi dursun bir yana, heç cib telefonu da yox idi. Onu hazırlıq müəllimlərinin yanına sifarişlə tutulmuş taksi aparıb gətirirdi. Ehtiyac olanda isə Mədinə müəllimin telefonu ilə danışırdı, valideynləri də ona bir söz demək istəyəndə elə müəllimə zəng edərdilər.

İndi səhər-səhər Mədinə özünə aid əşyalarını yığdığı boz rəngli çantasını atasının maşınının dal təkərinə söykəmişdi, düşünürdü ki, atası gələn kimi çantanı maşının baqaj hissəsinə qoyacaqdır. Mədinənin kiçik qardaşı Ayxan isə hamıdan tez gəlib maşının qabaq oturacağında rulun arxasında oturmuşdu, kefi saz idi və öz-özünə asta-asta zümzümə edirdi. Əslində evdə

lazım olan bütün yır-yığış işləri başa çatmışdı, hazırlıq işləri, demək olar ki, tam qurtarmışdı, amma atası Sərdar müəllimlə anası Gülbaharın hələ də içəridən bayıra çıxmamaları Mədinəni əməli-başlı dilxor eləmişdi.

Mədinə bir əlində qara eynək tut ağacının kölgəsində dayanan maşının ətrafında gəzişməyə başladı və birdən instituta qəbul olan günü hönkür-hönkür ağlamağı yadına düşdü. Atası hay-küylə həyətə girib onu qonşuların eşidəcəyi bir səslə təbrik edəndə Mədinə göz yaşlarını saxlaya bilməmişdi. Sərdar müəllim onun boynunu qucaqlayıb sakitləşdirmək istədikcə Mədinənin hönkürtüsü daha da ucadan eşidilməyə başlamışdı. Axırda Mədinə evə qaçaraq öz otağına girmiş və stolun üstündə çox nizamla yığılmış bütün kitabları hirslə götürüb döşəməyə çırpmışdı. Onun ardınca gələn anası Mədinəni zorla sakitləşdirmişdi.

Mədinə bunları fikirləşə-fikirləşə maşının sağ qapısının yuxarı küncündə olan güzgüsünə yaxınlaşıb üz-gözünə diqqətlə baxdı, barmaqları ilə saçını alnının yuxarısına doğru geriyə tumarladı, düşündü ki, bəlkə, ogünkü ağlamağından üz-gözündə nəsə bir iz qalıb? Heç bir izin olmadığını görüb güzgünün qabağında dilini bir qarış irəli çıxardı və sir-sifətini tanınmaz hala saldı. Hələ bir az da özündən qorxan kimi oldu. O sanki bununla ağlamağını unutmaq istəyirdi.

Sonra Mədinə geri çəkilib bir ayağı üstə tullana-tullana irəli getməyə başladı. Yəqin ki, Mədinənin kiçik yaşlarında məhəllənin ortasındakı boş yerdə məktəbdən gətirdikləri tabaşirlə çəkdikləri xətlərin üzərindən hoppanaraq "klas-klas" oynamaqları yadına düşmüşdü. Mədinə tut ağacının arxasına keçdi. Gözləri tut ağacının lap dibinə düşmüş dəmir parçasına sataşdı. Əyilib onu götürdü və tutun gövdəsi üzərində nəsə xətt çəkməyə başladı. Bu, onun darıxmağının əlaməti idi. Ola bilsin ki, Mədinə ağaca kiminsə adının baş hərfini yazmaq istəyirdi. Amma bu, o qədər də ağıla batan deyildi. Ona görə ki, adətən, divara, ağaca

ad yazmaqla oğlan uşaqları məşğul olurdular. İki il ara vermədən imtahanlara hazırlaşan və universitetə qəbul olan bir qız uşağı üçün hansısa oğlanın adını ağaca (o da ola həyətlərindəki ağaca) yazmaq da heç inandırıcı görünmürdü.

Evin qapısı açıldı, Mədinənin ata-anası həyətə çıxdılar, anasının narazı səsi eşidildi:

– Mədinə, harda qaldın? Gəl çamadanı götür!

Bunu görən Ayxan da maşının rolunun arxasından yavaşca sağ oturacağa tərəf sürüşdü. Heç beş dəqiqə keçmədi ki, maşın həyətdən tərpəndi. Ailənin bu səfəri Mədinənin istəyi ilə olan səfər idi. Yola gəldikdə isə o qədər də uzaq deyildi. Dayanmadan üç saata getmək olardı. Əgər dayanmalı olsalar, mənzil başına bir az gec çatacaqdılar. Hər halda Sərdar müəllimin ailəsi bu yolu axırıncı dəfə on iki il bundan qabaq getmişdi. On iki il bundan qabağa qədər konservatoriyada çalışan Sərdar müəllim həmişə yayda istilər düşəndə ailəsi ilə birlikdə həmin kəndə gedib on beş – iyirmi gün orada istirahət edər və Bakıya xeyli məmnun qayıdardı. Təkcə Sərdar müəllim yox, başqaları da buraya gələrdilər və onlar da buradan razı gedərdilər. Ən maraqlısı o idi ki, bu kəndə dincəlməyə gələnlərin əksəriyyəti musiqiçilər olardı. Elə bil bu kənd konservatoriyanın və musiqi kollecinin işçilərindən ötrü qurulmuşdu. İndi həmin musiqiçilərin yayda buraya toplaşmağının sirrini tapmaq mənim üçün kifayət qədər çətindir, amma ən çox valehedici orası idi ki, meşəli dağların arası ilə kəndboyu axan çayın həzin bir səsi insanlarda qəribə əhvali-ruhiyyə yaradırdı. Bu səs adamların ruhuna bir sakitlik gətirirdi. Bəlkə də, musiqi müəllimlərini buraya cəlb edən çayın həzin səsi idi.

Sərdar müəllimin maşını orta sürətlə hərəkət edirdi. Ayxan radionu qurdalayır, nəsə axtarırdı. Səslər dəyişir, müxtəlif avazlar gəlir, Ayxan isə "yoruldum" demirdi. Elə bil tez-tez dəyişən musiqilərdən ləzzət alırdı. Birdən anası Gülbahar asta səslə dedi:

– Ay bala, yorulmadın? Səhər-səhərdir, onu söndür, qoy bir az dincələk də!

Mədinə elə bu səsə bənd imiş kimi cəld dilləndi:

– Yox, ana, qoy Barış Mançonun diskini qoysun.

Əslində Barış Mançodan Mədinənin yox, Mədinənin anasının xoşu gəlirdi. Gülbahar heç nə demədi. Bir dəqiqə keçməmiş Barış Mançonun həzin səsi maşının içərisini bürüdü. Gülbahar hər il yayda dincəlməyə getdikləri Karlovı Varının sakit mənzərəsini xatırlamağa başladı. Müxtəlif yerlərdən gələn qadınlarla birgə dükan-dükan gəzməkləri də yadına düşdü. Bir də fikirləşdi ki, bu il oraya getməmələri rəfiqə olduğu qadınların narahatlığına səbəb olacaqdır. Hətta ürəyində bir günahkar kimi Mədinəni də əməlli-başlı yuyub sərdi. Bir-iki mahnıdan sonra Ayxan da bezikib maqnitofonu söndürdü. İçəriyə sükut çökdü. Elə bil hamı yatmışdı. Maşın isə irəliləyirdi. Mədinəin gözlərində qara eynək vardı. Onun bəzən mürgüləməsi, bəzən də xəyala dalması eynəyin altında görünməz olurdu. “Heyf Güləsərdən, bu qız niyə belə elədi, heç nə başa düşmürəm. Dərs öyrənməkdə heç kəsdən geri qalmayasan, müəllimlərin həmişə səni tərifləyə, yoldaşlarının sevimlisinə çevriləsən, hamı səninlə rəfiqə olmaq istəyə sən də imtahanlara iki-üç ay qalmış qoşulub qaçasan! Heç olmazsa, qəbul olaydın, sonra nə edirsənsə, edəydin!”

Mədinə gah Güləsər haqqında düşünür, gah da Şahin barədə fikirləşirdi. Əslinə qalsa, Güləsər haqqında düşünsə də, xəyalı fırlana-fırlana gedib Şahinə ilişirdi. Şahinlə Güləsərin çox isti münasibətləri vardı. Amma Mədinənin xəyalının Şahinin üstünə gedib qonması, deyəsən, bu münasibətlə bağlı deyildi. Hər halda Mədinə ilə Şahin bir universitetdə, amma ayrı-ayrı fakültələrdə oxuyacaqdılar. Şahin də universitetin tələbəsi olmuşdu. Qəfildən Qəni müəllimin bir sözü də Mədinənin yadına düşdü. Ədəbiyyat müəllimi qızlara üzünü tutub deyərdi ki, hamınız ali məktəblərə qəbul olacaqsınız. Dərsləriniz, imtahanlarınız da öz qaydasında

gedəcək. Müəllimlərin də hədələrindən qorxmayın. Mən indiyə qədər ali məktəbə qəbul olub oradan qovulan uşaq tanımıram. Sonra da əlavə edirdi ki, birinci, yaxud ikinci kursu bitirən kimi ailə həyatınız barəsində düşünün, yoxsa gec olar.

Mədinə xeyli düşündü ki, bu fikirlər onun ağlına hardan gəlir? Birdən özünü narahat hiss etməyə başladı. Cəld eynəyi gözündən çıxardı, maşının kondisionerinin işləməsinə baxmayaraq, arxa qapının şüşəsini azca aşağı saldı. Bunu görən atası ucadan dedi:

– Qızım, yarımca dəqiqə döz, maşını saxlayıram.

Doğrudan da, atasının ağzından çıxan sözlər qurtarmamış maşın yol kənarındakı çayxananın qabağında dayandı. Mədinə qapını açıb yerə düşdü, amma yaxşı ki, hər şey keçib getmişdi.

Sərdar müəllimin səsi eşidildi:

– Gülbahar, düş gör, Mədinə özünü yaxşı hiss etmir.

Gülbahar da yuxudan ayılan kimi oldu və tez maşından düşüb Mədinəyə yaxınlaşdı. Mədinənin vəziyyəti, həqiqətən, normallaşmışdı. Sərdar müəllim də maşından düşüb sağ tərəfə keçdi:

– Yaxşı, gəlin bu çayxanada oturub çay içək, bir az dincələk, sonra yolumuza davam edərik.

Ayxan oturduğu yerdən tərpənmədi. Anası onu da birtəhər maşından düşürüb hamılıqla çayxananın həyətinə keçdilər və kölgəliyi olan iri bir çinar ağacının altında qoyulmuş stolun ətrafındakı stullarda oturdular. Həmin anda da Sərdar müəllim sual verdi:

– Buranı tanıdınız?

Tanımağa qalsaydı, gərək Gülbahar tanıyaydı, amma ondan da səs çıxmadı. Sərdar müəllim heç onun cavabını gözləmədən dedi:

– Bu yoldan keçəndə həmişə oturub çay içdiyimiz yerdi. On iki il bundan qabaq, bax, bu çinarın kölgəsi hələ təzə-təzə

əmələ gəlirdi. Yadınızdadır, kölgə olsun deyə stolu o tərəf-bu tərəfə dartırdıq. Bu dəfə Gülbahar qəribə bir tərzdə soruşdu:

– Doğrudan, həmin çayxanadır?

Gülbahar o tərəf-bu tərəfə zəndlə baxmağa başladı. Sonra dedi:

– Onda çayxananın o başında hovuz olmalıdır.

Elə bu sözlər Gülbaharın ağzından çıxmışdı ki, Mədinə qışqırdı:

– Hovuzda balıqlar da var.

Mədinə bu sözləri deyib hovuza tərəf qaçdı. Hovuz da yerindəydi, balıqlar da. Amma hovuz bir qədər böyümüşdü...

Qalxıb yollarına davam eləmək ərəfəsində Gülbahar güclə eşidiləcək səslə Mədinədən soruşdu:

– Ay qızım, bizi bu istidə o kəndə niyə aparırsan?

Mədinə bu sualı gözləyirmiş kimi çox sakit tərzdə cavab verdi:

– Şeyda xalanı görmək istəyirəm.

Mədinənin danışıq tərzi Gülbaharın xoşuna gəlmədi:

– Bəs Şeyda xala hardan ağlına gəldi?

Anasının eyhamlı suallarının səbəbini başa düşürdü. Amma Mədinə də Mədinəydi ha! Bir az fasilə verib vəziyyəti gərginləşdirməmək üçün yavaşca dilləndi:

– Mən atama demişdim ki, universitetə qəbul olsam, məni Şeyda xalanın yanına apar. Atam da "gözlərim üstə!" demişdi.

Gülbaharla Sərdar müəllim çox diqqətlə bir-birinin üzünə baxdılar. Sərdar müəllim ayağa qalxdı, ucadan: "Getdik!"– dedi.

Mədinə əməlli-başlı dilxor olmuşdu. O, dilxorluğunu büruzə verməmək üçün eynəyini gözünə taxmışdı. Bir azdan sakitləşən Mədinə Şeyda xalanın onu Bakıdan gələn qonaqların yanına aparmasını xatırladı. Üç-dörd yaşında olan uşağın xatirəsinə hopmuş o anlar əfsanəyə oxşayır.

Kəndin yuxarısı başdan-başa yaşıllığa bürünmüşdü. Yaşıllığın örtdüyü yamacda "Alimlər evi" vardı. Bu "Alimlər evi" universitetdə tarixdən dərs deyən professor Xəlil Əlimirzəyevin qardaşının təşəbbüsü ilə inşa edilmişdi. Xəlil müəllim birinci semestrdə iki qrupun tələbələri arasında yalnız bir tələbəyə "5" yazaraq adlı təqaüd alması üçün imkan yaratdı və bunu da açıqca dedi. Amma nə faydası, sonra həmin tələbəyə başqa fəndən "4" yazdılar və filologiya fakültəsində Lenin, Axundov və Cabbarlı təqaüdlərini rus bölməsinin uşaqlarına verdilər.

"Alimlər evi"ndə bir neçə ailə eyni vaxtda rahatca dincələ bilirdi. Kəndin "gözü" olan bulağın suyu "Alimlər evi"nin yanından aşağıya – kənd evlərinə axırdı. Ağacların altında bir-birindən aralı skamyalar qoyulmuşdu. Qonaqlar da iki-iki, üç-üç həmin skamyalarda oturub söhbət edir, dincəlir, bəzən də şahmat oynayırdılar. Mədinənin əlindən tutub buraya gətirən Şeyda xalanın söhbəti Bakıdan gələnlərlə əməlli-başlı tuturdu, çünki Şeyda xala qeybət adamı deyildi. Bakıdan gələn qadın qonaqlar Mədinəyə hədiyyələr bağışlayardılar. Mədinənin yaddaşında o günlərdən ayrı-ayrı epizodlar qalmışdı, amma Mədinə ona bağışlanmış gəlinciyi yaxşı xatırlayırdı. Uzun saçları olan bu gəlinciyi Mədinənin əlindən axşam yatanda belə ala bilmirdilər.

Sərin meh maşının içərisinə doldu. Çayın səsi eşidilməyə başladı. Bu dəfə Sərdar müəllim özü Ayxana dedi ki, Barış Mançonun diskini qoy. Gülbahar:

– Deyəsən, çatırıq axı?! – dedi.

Bunu eşidən Mədinə eynəyi gözündən çıxardı. Sağ tərəfdə qalın meşə ilə örtülmüş dağlara diqqətlə baxdı. Anası isə Mədinəyə nəzər yetirir, heç cür başa düşmürdü ki, Mədinə bu oyunu onların başına niyə gətirir? Maşın ağır nəfəs ala-ala yoxuşu dırmaşırdı. Sərdar müəllim özü bilə-bilə belə yavaş sürürdü. Yavaş sürürdü ki, uşaqlar ətrafı seyr edə bilsinlər. Mədinə əlini atasının çiyninə qoyub:

– Ata, saxla! – dedi.

Maşın yolun sağına çıxıb nəfəsini dərdi. Mədinə əlini yamacdakı ağ binaya uzadıb:

– Bax, Şeyda xala məni ora aparırdı, – dedi.

Maşından endilər. Qabaqda Mədinə, arxalarında isə Sərdar müəllim, Ayxan və könülsüz olsa da, anası Gülbahar adamların gedəcəyi cığırla "Alimlər evi"nə doğru qalxdılar. Bina olduğu kimi yerindəydi. Binanın hər iki başında dairəvi aynabəndi vardı. Kəndə tərəf olan uzun divarının düz ortasında o vaxtdan qalan ensiz qapı və qapının da hər tərəfində üç pəncərə görünürdü. Bu qapı giriş qapısı deyildi, sadəcə olaraq, çayı seyr etməyə çıxanlar həmin qapıdan istifadə edirdilər. Bircə fərq onda idi ki, qapının sol tərəfindəki pəncərələrdən biri kərpiclə tutulmuşdu.

"Alimlər evi"nin həyətinə keçdilər. Həyətdə ağaclara bağlanmış iplərə çoxlu paltar sərilmişdi. Handan-hana evdən yaşlı qadın çıxdı və kimi axtardıqlarını soruşdu. Sərdar müəllim də cavab verdi ki, ay ana, heç kimi, elə belə gəzməyə gəlmişik. Yaşlı qadın bir az da onlara yaxınlaşıb dedi:

– Allah mərdimazarın evini yıxsın, evimizi yıxdılar, bizi qaçqın saldılar, bala.

– Darıxma, ana, pis günün ömrü az olar, – bunu Sərdar müəllim dedi.

Vəziyyətdən tam hali olandan sonra hamısı yola tərəf endilər. Bu dəfə Mədinə fikirli-fikirli hamıdan arxada gəlirdi. Çırtma vursaydın, onun qanı çıxmazdı.

Maşın yenə yoxuş boyu irəliləyirdi. Sərdar müəllim məscidi keçəndən bir az sonra maşını iri bir şabalıd ağacının altında saxladı: "Düşün, Şeyda xalanın evi buralardadır".

Hamı maşından düşdü. Sərdar müəllim dedi:

– Bax, Şeyda xalanın evi şabalıd ağacı ilə üzbəüz sol tərəfdə olmalıdır.

Hamı diqqətlə sol tərəfə baxırdı. Orada hasardan güclə görünən həyət evi yox idi. Onun yerində iki mərtəbəli bir villa ucalmışdı.

Sərdar müəllimin qanı əməlli-başlı qaraldı. Düşündü ki, yəqin Şeyda xala ölmüş, onun həyətini isə kiməsə satıblar.

Sərdar müəllim özü villanın qarşısına gəldi. Barmaqları ilə dəmir darvazanı taqqıldatdı. Heç kəs cavab vermədi. Yenə qapını döyəcləməyə başladı. Qapını açan olmadı. Bu vaxt qonşu darvazadan bir uşaq çıxdı:

– Əmi, qapını daşla döyün. Arvadın qulağı ağır eşidir.

Bu sözdən sonra Sərdar müəllimin ürəyi bir az sakitləşdi. Sonra yerdən daş götürüb darvazanı bərk-bərk döyməyə başladı. İçəridən səs eşidildi:

– Ay bala, sındırma, gəlirəm!

Mədinənin həyəcanlı səsi ucaldı:

– Şeyda xaladır.

Bir azdan darvazanın kiçik qapısı açıldı. Arvad zəndlə darvazanın ağzında duran adamlara baxdı. Sərdar müəllim onu qabaqladı:

– Qonaq istəmirsiniz?

– Niyə istəmirik, ay bala, buyurun, buyurun. Yəqin sizi Nurəhməd göndərib.

Nurəhməd onun Moskvada yaşayan biznesmen oğlu idi. Sərdar müəllim bir də dilləndi ki, biz Allah qonağıyıq. Şeyda xala da cavab verdi ki, nə olar, nə olar, keçin həyətə.

Hamı həyətə keçəndən sonra Mədinə gəlib düz Şeyda xalanın qabağında dayandı:

– Şeyda xala, məni tanımadınız?

Şeyda xala ona cavab vermədi. Bircə onu dedi ki, keçin həyətdə oturun, sonra tanış olarıq. Amma Mədinənin səsi ona nəsə deyirdi. Mədinə də çox bənd olmadı. Hamısı gəlib həyətin ortasındakı hovuzun qırağında düzəldilmiş kölgəlikdə oturdular.

Təkcə Mədinə oturmadı, yenə gəlib Şeyda xalanın qabağında dayandı və başladı oxumağa:

– Ninnə yarım, ninnə! Ninnə yarım, ninnə!

Birdən Şeyda xala qışqırdı:

– Ay qız, Mədinə, sənsən? Səni görüm yanasan, bəs neçə vaxtdır hardasan?

Şeyda xala ilə Mədinə bir-birinə sarmaşdılar. Onların hər ikisi hıçqıra-hıçqıra ağlayırdı. Hamı Şeyda xala ilə görüşüb öpüşdü.

Ara sakitləşdi. Birdən Şeyda xala "bu dəqiqə gəlirəm" deyib getdi və evin birinci mərtəbəsinə qalxdı. Şeyda xala aşağıya enəndə onun əlində Mədinənin on iki il bundan qabaq burada qoyub getdiyi gəlincik var idi. Mədinə sürətlə Şeyda xalaya tərəf qaçdı. Gəlinciyi tez onun əlindən alıb havada oynatmağa başladı. Mədinə həyətdə tullanıb-düşür və ucadan qışqırırdı:

– Tapdım, tapdım!

Mədinənin atası, anası və qardaşı məəttəl qalmışdılar. Onlar nə edəcəklərini bilmirdilər. Mədinə sonra gəlib düz anasının qarşısında dayandı:

– Ana, Bakıya qayıdırıq! – dedi.

Axşamçağının sərinində Sərdar müəllimin maşını sürətlə Bakıya doğru şütüyürdü. Neçə illər idi, yayda öz ailəsi ilə birgə xaricdə dincələn Sərdar müəllim indi haraya gedəcəkləri barədə düşünürdü.

***Qəbələ, Qəmərvan, 20.08.2016***

# KOLLECDƏ VALİDEYN İCLASI

Texniki kollecdə bütün işlər qaydaya düşmüşdü. Neçə illər idi ki, kollec haqqında ürəkbulandıran söz-söhbət eşidilmirdi. Bu "neçə illəri" ona görə deyirəm ki, kollecin sonuncu direktoru Mansur müəllim düz on il idi ki, kollektivə rəhbərlik edirdi. İşlərin "qaydaya düşməsi" də ona bağlı idi ki, əvvəllər iki-üç ildən bir direktor dəyişilərdi və hər şey bir-birinə qarışardı. Axırda şəhər rəhbərliyi belə qərara gəldi ki, təcrübəli orta məktəb direktorlarından birini kollecə rəhbər təyin etsin. Mansur müəllimin özünün də gözləmədiyi halda, şahlıq quşu gəlib onun çiyninə qondu. Mansur müəllimi bir kənd məktəbinin direktorluğundan birbaşa şəhərə gətirdilər. Əslində o, elə şəhərdə yaşayırdı və direktoru olduğu məktəbin xətrinə hər gün kəndə gedib-gələrdi. Düzünə qalsa, bu, o qədər də çətinlik törətmirdi. Əvvəla, Mansur müəllimin şəxsi maşını vardı. İkincisi, kənd məktəbi ilə şəhərin arası cəmi-cümlətanı bir kilometr olar, ya olmazdı. Bu yolu Mansur müəllim direktor olana qədər neçə illər həmişə piyada gedib gəlmişdi.

Bütün kolleclərdə olduğu kimi, bu texniki kollecin də direktoru, direktor müavini, müəllimləri, xadimələri və bir də tələbələri vardı. Tələbələrin çoxu üçün dərsə gəlib-getmək o qədər də çətin deyildi. Çünki başqa rayonlardan gələn uşaqlar kollecin ətrafındakı həyət evlərində kirayə qalırdılar. Bu kirayə evlərin əksəriyyətini tələbələr üçün kollecin xadimələri tapmışdılar, hətta bəzi qızlar elə həmin xadimələrin həyətlərinin bir küncündə tikilmiş balaca otaqlarda kirayə qalırdılar. Oradan da kollecə beş-on addımlıq yol olardı.

Tələbələrin dərs oxumaqları da elə narahatlıq törətmirdi. Bunun səbəbi o idi ki, uşaqların bir çoxu elə həqiqətən oxumaq istəyirdi. Həmin oxumaq istəyən tələbələr imkansızlıq ucbatından Bakıdakı ali məktəblərə sənəd verə bilmirdilər. Onlar bu

texniki kollecdə oxumaqla hər həftə şəhərdən evlərinə yollanır, həyətlərində əkilmiş kartofdan-soğandan yığışdırıb şəhərə gətirir, həftələrini beləcə başa vururdular. Bir vaxtlar bacım da şəhərdə qalıb oxuduğuna görə bu işlərin necə olduğunu yaxşı bilirəm.

Bəzi uşaqları isə müəllimlər, necə deyərlər, özləri yola verirdilər. Yəni çalışırdılar ki, azdan-çoxdan tərpənən, başını birtəhər saxlamaq istəyən uşağı imtahanlardan kəsməsinlər. Əslində bu prinsip Mansur müəllimin prinsipi idi. Mansur müəllim kollecin direktoru olandan pedaqoji şuranın iclasında dönə-dönə deyirdi ki, uşaq iki alırsa, bu, uşağın yox, müəllimin günahıdır, deməli, müəllim dərs demir, öyrətmək istəmir, məqsədi isə uşaqları imtahandan kəsməkdir. Qadın müəllimələr elə ilk günlərdən abırlarına qısılıb Mansur müəllimlə razılaşdılar. Azlıqda qalan kişi müəllimlər də bir neçə gün nəm-nüm eləsələr belə tezliklə direktorun fikri ilə barışmalı oldular. Şəhər rəhbərliyi, hətta şəhərdəki çayçılarda səs-səsə verib kollecdən danışanlar da Mansur müəllimin düz on il ardıcıl olaraq direktor işləməsinin səbəbini məhz uşaqların iki almamasında görürdülər.

O ki qaldı kollecdəki tərbiyə işlərinə, bu, xeyli çətin məsələ idi. Ona görə də uşaqların davranışı, intizamı kollecdəki valideyn iclaslarının əsas mövzusu olurdu. Belə iclaslardan biri də Novruz bayramı ərəfəsinə təyin edilmişdi. Bu da Mansur müəllimin humanist təklifi idi, çünki Novruz bayramı ərəfəsində valideynlər istər-istəməz şəhərə bazarlıq üçün gəlirdilər və düzü, Mansur müəllim onların iki dəfə xərc çəkib şəhərə gəlməsini istəmirdi.

Günortadan azca ötmüşdü. Kollecin bir neçə gün əvvəl Novruz bayramı ilə bağlı tədbirinin keçirildiyi salona xeyli adam yığışmışdı. Səhnədə qoyulmuş stolun arxasında kollec direktorunun müavini Zəfər müəllim oturmuşdu. Mansur müəllim özü isə gəlməmişdi və uşaqlar arasında o dəqiqə səs yayılmışdı

ki, deyəsən, Mansur müəllimi direktorluqdan çıxarırlar və o da öz işlərini qaydaya salmaq üçün şəhər rəhbərliyinin yanına getmişdi. Bu söz-söhbətin yayılmasının başçısı isə lap arxa cərgələrin birində oturan Fariz idi. Mansur müəllimin gəlməməsini görən Fariz yanındakı oğlana pıçıltıyla dedi:

– Gördün, axı, sənə deymişdim ki, Mansur müəllimi çıxardırlar, sən də inanmırdın. Bax, əgər elə olmasaydı, iclasa gələrdi.

Bu vaxt Zəfər müəllim ayağa qalxıb bildirdi ki, Mansur müəllim şəhər rəhbərliyinin yanındadır və tezliklə özü də gəlib çıxacaqdır.

Fariz yenə əyilib yanındakı uşağa dedi ki, boş söhbətdir. Axşam kirayə qaldığım evdəki arvad mənə danışırdı ki, direktorunuzu çıxaracaqlar. O arvadın da dediyi dedikdir.

Sonra Fariz əlini səhnəyə uzatdı:

–Bax, Mansur müəllim üçün heç stul da qoyulmayıb.

Farizin yanındakı uşaq təzədən başını bir az da dikəldib diqqətlə səhnəyə baxdı və sus-pus dayandı. Onun əvəzində isə Zəfər müəllimin səsi ucaldı:

– Bizim əsas məqsədimiz cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetirməkdir. Oxumaq öz yerində. Şükür Allaha ki, uşaqların oxumağından gileyimiz yoxdur, amma kollecdə tərbiyə birinci məsələdir. İş o yerə çatıb ki, uşaqlar böyüklərə salam da vermək istəmirlər, salam verəndə də candərdi dodaqlarını tərpədirlər. Balam, salam Allah salamıdır, o da olmayandan sonra daha yaşamağın nə mənası var?! Görmüşük ki, uşaqlar böyüklərin yanında siqaret çəkməzlər, əllərində siqaret olsa da, böyükləri görəndə gizlədərlər. Gör iş o yerə çatıb ki, indi uşaqlar böyüklərdən alışqan alıb siqaretlərini yandırırlar. Hələ onu demirəm ki, siqaret qutularının üzərində açıqca yazılır ki, siqaret sağlamlığa ziyandır.

Zəfər müəllim bu məsələləri gur səslə deyir, valideynlər isə narahatlıq keçirirdilər. Öz-özlərinə düşünürdülər ki, bu salam verməyən tərbiyəsiz uşaq kimdir? Şakir müəllimin də içi qövr eləməyə başlamışdı. Şakir müəllim həm öz kəndlərində, həm də ətraf kəndlərdə sayılıb seçilən müəllimlərdən idi. İndi əməlli-başlı qorxurdu ki, birdən bu tərbiyəsiz uşaq onun oğlu Müslüm olar. Bunu düşünə-düşünə dünya, aləm Şakir müəllimin başına fırlanırdı. "Əgər bu uşaq elə bir qələt eyləyibsə, mən daha bu müəllimlərin gözünün içinə dik baxa bilmərəm. Deyəcəklər ki, səndən müəllim olmaz. Bir halda ki, öz uşağını tərbiyə edə bilmirsən, onda başqalarının uşağına necə dərs deyirsən? Hələ bunlar bir tərəfə dursun, kənd içinə də çıxa bilməyəcəyəm. Ona görə ki, məndən arxada oturan İmamalının törəməsi birinin üstünə beşini də qoyub qəşş eləyə-eləyə hamıya danışacaq".

Şakir müəllimi bu çətin vəziyyətdən Zəfər müəllimin zəhmli səsi çıxardı:

– Samir, qalx ayağa görüm!

Arxa cərgədə oturan bir uşaq ayağa qalxdı və elə bu zaman Şakir müəllim rahat nəfəs almağa başladı. Zəfər müəllim davam elədi:

– A bala, sənə neçə dəfə demişəm ki, adam nizam-intizamlı olar. Uşaq çalışmalıdır ki, valideynin üzünə söz gəlməsin. O günü kirayə qaldığın evin sahibəsi məni bazarda görüb səndən xeyli şikayət eylədi.

Sonra da Zəfər müəllim nəzərlərini valideynlərin üzərində gəzdirib soruşdu:

– Samirin valideyni burdadırmı?

Qabaq cərgələrdə oturan və başında kəlağayı olan bir qadın ayağa qalxıb sakitcə dayandı.

– Siz uşağın anasısınız?
– Xeyr, xalasıyam.
– Bəs anası niyə gəlməyib?

– Müəllim, bacım ağır xəstədir, vallah, heç yerindən tərpənə bilmir, bayram üçün bazarlığa gəlməyə də taqəti yox idi. Onların bazarlığını da mən eləyib aparacağam. Nə fərqi var, anası olmasın, xalası olsun.

– Yaxşı, tutaq ki, anası olmasın, xalası olsun. Ay bacı, uşağın tərbiyəsi ilə məşğul olmaq lazımdır. Heç olmasa, uşağınızı qabağınıza qoyub hərdənbir danlayın. Elə sizin özünüzdə də günah var. Bəs bacınızın uşağı ilə maraqlanmaq lazım deyil? Siz də uşaqlarınıza belə tərbiyə verirsiniz?

Zəfər müəllim danışırdı. Sədaqət arvad sanki heç nə eşitmirdi. Fikri də bu dünyadan o dünyaya, o dünyadan bu dünyaya hərlənirdi. Nə deyəcəyini, nə danışacağını bilmirdi. Birdən Zəfər müəllim uca səslə dedi:

– Otur, bacı, otur! Uşaqların tərbiyəsi hamı üçün əziz olmalıdır.

Bu cümlə Mansur müəllimin cümləsi idi. Amma Sədaqət arvadın beyni dumanlanmışdı. Nə Mansur müəllim yadına düşürdü, nə də onun cümləsi. Yalnız ürəyində özünü danlayırdı: "Ay pir olmuşun qızı, sənin nə işin var bu xarabalıqda? Get dükanda alverini elə də! Vallah, bu Samirə də yazığım gəlir. Yalvardı ki, anam kənddə xəstədir, evdən bayıra çıxa bilmir. Gəl valideyn iclasına, de ki, xalasıyam, səni kim tanıyacaq? Budur, gəldim. İtin sözünü dedilər. Ta mənə tövbələtmə olsun. Bir də bu xarabalığa ayaq qoymaram. Qoy gedib özlərinə xala tapsınlar".

Zəfər müəllim danışırdı:

– Ay valideynlər, ay mənim əzizlərim, biz cəmiyyət üçün əsl vətəndaşlar yetişdiririk. Bu müqəddəs vəzifə yalnız məktəbdən deyil, həm də ailədən asılıdır. Tərbiyə məsələsində məktəblə ailə, müəllimlə valideyn bir yerdə çalışmalıdır. Müəllim öyrədir ki, böyüklərə hörmət etmək lazımdır. Valideyn də deməlidir ki, avtobusda oturduğun yerdən durub özündən yaşlılara yer vermə-

lisən, daha qəzeti gözünün qabağına tutub özünü görməməzliyə vurmamalısan. İş o yerə çatıb ki, qızlardan da gileylənməyə başlamışıq.

Şakir müəllim yenidən rahatlıq tapdı, çünki kollecdə onun qızı deyil, oğlu oxuyurdu. Amma Zəfər müəllim gözlərini Şakir müəllimin gözlərinə dikmişdi və əl-qolunu o tərəf-bu tərəfə ata-ata sözünə davam eyləyirdi:

– A qardaş, bu telefon bütün uşaqları xəstə eləyib. Pulu olan-olmayan, hərə borca, kreditə bir telefon alıb uşağına verib.

Sonra Zəfər müəllim gözünü Şakir müəllimdən ayırıb Səltənətə tərəf baxdı və dedi:

– Bax, onlardan biri elə bu Səltənətdir. Qalx ayağa görüm!

Səltənət əsə-əsə ayağa qalxdı. Qalxdı və halsız adamlar kimi beli də əyri qaldı. Elə bil yerə girib qolunu qoluna keçirdiyi yanındakı arvaddan gizlənirdi, arvad da Zəfər müəllimin üzünə baxa bilmirdi, çünki özünü çox narahat hiss edirdi və Zəfər müəllimin dişinin dibindən qopanı ona deyəcəyini gözləyirdi. O tərəfdən də Səltənətə söz vermişdi ki, dədəsini söysələr də, bir kəlmə belə danışmayacaq. Cınqırını çıxarıb deməyəcək ki, mən onun anası deyiləm. Elə bu dəm Zəfər müəllimin səsi ona tərəf tuşlandı:

– Ay bacı, bir ayağa qalx görək, kimsiniz, nəçisiniz, adınız nədir?

Arvad ayağa qalxdı, hələ üstəlik ədəb-ərkanla yaşmaq da aldı. Yəni işarə elədi ki, mən o evə gəlin gələndən kişilərlə bir kəlmə belə danışmamışam. Zəfər müəllim də arif adam idi, bunu başa düşüb uşaqdan soruşdu ki, bəs ananın adı nədir? Uşaq da asta səslə cavab verdi:

– Hürü!

– Ay Hürü bacı, o nə telefondur, alıb bu uşağa vermisiniz? O tərəfə gedir, çəkir, bu tərəfə gəlir, çəkir. Yoxsa, kollec üçün fotoalbom düzəldəcək? Ya kollecin şəkillərini çıxarıb ora-bura

yapışdıracaq? Ay mənim əzizlərim, dədə-babadan bilirik ki, bu telefon danışmaq üçündür. Daha bu şəkil çəkmək haradan çıxdı? Ay Hürü bacı, uşağın tərbiyəsi ilə məşğul olun!

Hürü fikirləşirdi ki, nə yeridi, yaşmağı ağızdan götürüb bunun eninə-uzununa o ki var döşəyəsən. Deyəsən ki, tərbiyəsiz sən özünsən, sənin uşaqlarındı, arvadındı. Bir də fikirləşdi ki, yox, bunları demək olmaz. Çünki hər şey açılar, biabır olarıq. Bilinər ki, mənim adım Hürü deyil, Səkinədir. Bu qız da mənim qızım deyil, bizim evdə qalan kirayənişindir. O, bunları fikirləşə-fikirləşə həm də Zəfər müəllimin səsini eşidirdi:

– Ay mənim əzizlərim, peyğəmbərimiz buyurub ki, cənnət anaların ayaqları altındadır. Bu sözün qədrini bilin.

Zəfər müəllim gah səsini ucaldır, gah aşağı salır, hərdən də salona göz gəzdirirdi. Fürsətdən istifadə edən Fariz yenə yanındakı uşağa pıçıldadı:

– Mansur müəllim gəlmədi, onu yüz faiz çıxaracaqlar.

Bu sözlər səhnədən xeyli uzaqda deyilsə də, Zəfər müəllimin qulağı darı dəlirmiş kimi sanki o sözləri eşitdi:

– Fariz, ayağa qalx görüm! Ay bacı, sən əyləş! – bu axırıncı cümləni Hürü üçün dedi.

Farizin ürəyi düşdü, Şakir müəllimin isə ürəyi yerinə gəldi. Fariz dimdik durdu. Ayaqlarını cütləyib özünü qurutdu. Elə bil hərbi dərsdə idi. Zəfər müəllimin səsi ucaldı:

– Bəs atan hanı? Demişdim, atan da gəlsin axı!

Fariz heç ağzını açmamış orta sıralarda oturan kök bir kişi ayağa qalxdı və Zəfər müəllimin gözləmədiyi halda, yüksək tonla və bir az da kinayə ilə dedi:

– Atası mənəm, müəllim.

– Oğlunuzdan xəbəriniz varmı?

– Əlbəttə, var.

– Necə oxuyur?

– Yaxşı!

– Bir neçə dəfə çağırmışıq, gəlməmisiniz.

– Bəli.

– Səbəbini bilmək olarmı?

– Olar.

– Səbəbi nədir?

– Mən İstanbulda işləyirəm, balalarıma çörək pulu qazanıram. Ona görə də kəndə az-az gəlirəm.

– Hörmətli valideyn, uşağın tərbiyəsi ailədən başlayır.

– Bəli.

– Çalışmaq lazımdır ki, hər bir uşaq ədəb-ərkanlı olsun, böyüklərə hörmət etsin, özündən kiçiklərin qayğısına qalsın.

– Bəli, biz məktəbdə oxuyanda da elə deyirdilər.

– Hörmətli valideyn, hər bir uşağın tərbiyəsi həmin ailənin güzgüsüdür. Bax, bu Fariz, sizin oğlunuz tərbiyəsizin biridir.

– Müəllim, bir dəqiqə dayan, belə çıxır ki, mən də tərbiyəsizəm.

– Bəli, siz də tərbiyəsizsiniz!

Bir anlıq fasilə yarandı. Valideyn oturduğu yerdən qalxıb düz səhnənin qabağına gəldi, Zəfər müəllimlə üzbəsurət dayandı. Zəfər müəllim də, salondakılar da sakitcə durub onun nə deyəcəyini gəzləyirdi. Farizin atası əlini elə bil Zəfər müəllimin gözünə soxurmuş kimi ona tərəf uzadıb dedi:

– Tərbiyəsiz sənin özünsən, sənin balalarındır və sənin valideynlərindir. Ə, qırışmal, sən nə vaxtdan tərbiyəli olmusan? Yadından çıxıb, üç-dörd il bundan qabaq teatrın yanında mənim taksimdən düşüb pul vermədin və dedin ki, evdən pul götürmək yadımdan çıxıb. Sabah, ya da birisi gün səni tapıb pulunu verəcəyəm. Bəs hanı o pul? Üstündən düz beş il keçir.

Zəfər müəllim yerində donub qalmışdı, heç bir söz deyə bilmirdi. Elə bu vaxt Farizin atası üzünü uşaqlara tutub ucadan dedi:

– Ay uşaqlar, bunun özü tərbiyəsizdir. Durun evizə-eşiyizə dağılın. Axşam düşür, avtobusların axırıncısına az qalır. Sabah da bayramdır.

Uşaqlar elə bir haya bənd idilər. Salon hay-küylə boşalmağa başladı. Hamı bir-birinə qarışmışdı. Fariz qısıla-qısıla kök kişiyə – taksi sürücüsünə yaxınlaşdı. Hirsindən gözləri qızarmış taksi sürücüsü əlindəki on manatı Farizin cibinə basıb dedi:

– Qələt eyləyirəm, mən bir də sənin dədən olaram!

Valideynlər və uşaqlar kollecin həyətindən dəstə-dəstə çıxanda Mansur müəllim öz şəxsi maşını ilə kollecə yaxınlaşırdı.

# BƏNÖVŞƏ OYUNU

Zərnişan müəllimə zəngin vurulmasını səbirsizliklə gözləyirdi. O gah müəllimlər otağının iri pəncərəsindən göy üzünə baxır, gah yuxarı başda üzərinə qırmızı parça salınmış stolun arxasında oturmuş dərs hissə müdirinə nəzər yetirir, gah da qarşısındakı sinif jurnalını könülsüz-könülsüz vərəqləyirdi. Zərnişan müəllimənin sağında, solunda oturan müəllimələr bir-birləri ilə pıçıltıyla söhbət edirdilər. Dərs hissə müdirindən başqa içəridə olanlar qadın müəllimələr idi, kişi müəllimlər isə məktəbin həyətinə çıxmışdılar, bəziləri siqaret çəkirdilər.

Zərnişan müəllimə sol tərəfində oturmuş fizika müəlliməsindən soruşdu:

– Dünən axşam kinoya getmişdin?

– Hə, getmişdim. Qəşəm günortadan bir az keçmiş evə gələndə salam-kalamsız, bir azda ucadan dedi ki, hazırlaş, axşam kinoya gedəcəyik. Düzü, heç bunu Qəşəmdən gözləmirdim. Ürəyimdə də dedim ki, ay Allah, gün haradan doğub? Heç mən onun sözünü yerə sala bilərəm?!

Fizika müəlliməsi sonuncu cümləni bir az qımışa-qımışa söylədi.

Zərnişan müəllimə güclə eşidiləcək səslə dilləndi:

– Mən kinoya gedə bilmirəm. Qayınanam ağır xəstədir. Onu evdə tək qoyub heç yerə çıxmaq olmur. Bizimki də haqq üçün mənsiz kinoya getmir.

Zərnişan müəllimə "bizimki" deyəndə ərini – kolxozda mühasib işləyən Cəmili nəzərdə tuturdu.

Fizika müəlliməsi həvəslə danışmağa başladı:

– Ay Zərnişan müəllimə, kino qalsın bir tərəfə, axşam orada bir dəsgah olub ki, gəl görəsən.

Zərnişan müəllimənin qəm-qüssəsi bir anda yoxa çıxdı, fizika müəlliməsinə tərəf əyilib soruşdu:

– Sən canın, nə dəsgah?

– Bəs, Nəcəfalının gədəsi təzəcə evləndiyi kor Əsmərin nəvəsiylə kinoya gəlmişdilər. Özü də keçib xatalı kimi düz bizdən qabaqda oturmuşdular. Nəcəfalının gədəsinin qolu kinonun axırına qədər gəlinin çiynindən düşmədi. Hələ bu, bir tərəfə dursun, on dəqiqədən bir öpüş-öpüş idi, gəl görəsən. Elə bilirdilər ki, heç kəs onları görmür. Utanmaq yox, qızarmaq yox. Bir demirlər, iki demirlər, beş demirlər. İnanmıram ki, dünən Nəcəfalının gədəsi ilə kor Əsmərin nəvəsinin kinosunu qoyub kimsə hind filminə baxası olsun.

Bu dəm zəng vuruldu. Fizika müəlliməsi Zərnişan müəllimədən tez ayağa qalxdı. Amma bayaqdan darıxan Zərnişan müəllimə indi ayağa durmaq istəmirdi, elə bil bir az bundan əvvəl dilxor olan Zərnişan müəllimə deyildi. Bunu hiss edən fizika müəlliməsi ikiqat əyilib Zərnişan müəllimənin qulağına pıçıldadı:

– Dur, dərsə gedək, serialın ikinci hissəsini o biri tənəffüsdə sənə danışaram.

Zərnişan müəllimə də əlacsız qalıb ayağa qalxdı. Bayaqdan əlində saxladığı sinif jurnalını götürüb müəllimlər otağından bir yerdə çıxdılar. Sonra hərəsi ayrı-ayrı siniflərə yollandı.

Zərnişan müəllimənin sinfə girməsi ilə sinifdən çıxması bir oldu. Uşaqlar dəhliz boyu onun dalısınca, özü də səs salmadan, lap sakit addımlarla məktəbin həyətinə çıxmaq üçün hərəkət etməyə başladılar.

Məktəbin həyəti çox geniş idi. Həyətə çıxdığın zaman sol tərəfdə müxtəlif meyvə ağacları vardı. Ağacların altı başdan-başa çəmənlik idi. Söhbət edə-edə gəzmək, çəmənliyin üstündə oturub şahmat oynamaq adama ləzzət verirdi. Bunu elə-belə demirəm, orada o qədər şahmat oynayan görmüşəm ki, heç vaxt yadımdan çıxmaz. Düzü, mən özüm də o ağacların altında xeyli şahmat oynamışam. Hətta elə olub ki, qaranlıq düşüb, göz-gözü görməyib, amma şahmat oynayanlar evlərinə getmək istəməyib-

lər. Axırda məktəbin keşikçisi gəlib onları oturduqları yerdən zorla durğuzub evlərinə yola salıb. Bir az əvvəl sizə kişi müəllimlərin böyük tənəffüsdə siqaret çəkməsini dedim ha, bax, onlar elə bu ağacların altında siqaret çəkirdilər. Amma bir məsələni də deyim ki, kişi müəllimlər böyük tənəffüsdə siqaret çəkə-çəkə axşamkı hind filmindən söz salmışdılar. Lap düzünə qalsa, hind filmindən yox, orada baş verən daha maraqlı əhvalatdan danışırdılar. Elə bu əhvalata fizika müəlliməsi ilə Zərnişan müəllimənin söhbətinin davamı da demək olardı. Əslində söhbəti Zahid müəllim başlamışdı:

– Gərək Nəcəfalını görüb onun abrını verəm. Belə də uşaq tərbiyə eləyərlər? Həs-hüs qanmayan adamdan heç nə çıxmaz. Yaxşı eləyib kənddə ona "Nəcəfalının gədəsi" deyirlər, axırda elə olacaq ki, əsl adı da yaddan çıxacaq. Şafət müəllim Zahid müəllimin sözlərinin qabağına söz qoydu:

– Tutalım, Nəcəfalıya dedin ki, uşağına tərbiyə ver, sonra küçəyə ötür. Bəs o, nə cavab verəcək? Onun cavabını sən bilməsən də, mən yaxşı bilirəm. Deyəcək ki, məktəbdə verdiyiniz tərbiyədi də, qabağınıza çıxır.

Zahid müəllim geri durmadı, dediyini dedi:

– Yox, onda gərək sabah təzə evlənən cavanların hamısı qol-boyun olub kəndin bu başından o başına şütüsünlər. Özü də hamı desin ki, məktəbdə bizə tərbiyə verməyiblər! Hələ o birinə bax, kor Əsmərin nəvəsini deyirəm. Bu qanmadı-qanmadı bəs onun həyasına nə gəlib? Elə kor Əsmərin tərbiyəsi də Nəcəfalının tərbiyəsi kimidi. Bir-birilərini yaxşı tapıblar.

Şafət müəllim ağzını açıb nəsə demək istəyirdi ki, zəng vuruldu. Uşaqlar eşitməsin deyə müəllimlər sus-pus olub jurnalları götürmək üçün məktəbin dəhlizinə daxil oldular. Zərnişan müəllimə ilə uşaqlar kişi müəllimlərlə dəhlizin bu biri başında rastlaşdılar. Onlar bir-birlərinə yol verə-verə irəliləyirdilər. Həyətə çıxan kimi Zərnişan müəllimənin yanındakı uşaqlar ağacla-

rın altına doğru yüyürdülər. Onlar yaxşı bilirdilər ki, Zərnişan müəllimə yaz başlayıb havalar isinəndə bədən tərbiyəsi dərslərini o ağacların altında keçir. Onu da deyim ki, Zərnişan müəllimə əslində ümumi texniki fənlər fakültəsini bitirmişdi, amma dərs yükü az olduğuna görə ona üç-dörd saat da bədən tərbiyəsi dərsi vermişdilər.

Zərnişan müəllimə uşaqların arxasınca gedib məktəbin tininə çatanda Rəhman müəllimlə üz-üzə gəldi. Rəhman müəllim Zərnişan müəllimənin baldızının, yəni ərinin bacısının yoldaşıdır. Həm də Zərnişan müəllimə ilə Rəhman müəllim on il bir sinifdə oxumuşdular. Əvvəlcə, Rəhman müəllim salam verdi, Zərnişan müəllimə də bu səmimiyyəti görüb bir az ona tərəf addımladı və Rəhman müəllimin salamının cavabını vermədən çox böyük ərklə birbaşa soruşurdu:

– Ay Rəhman, axşam kinoda nə hadisə baş verib, hamı ondan danışır.

Rəhman müəllim də özünəməxsus şəkildə gülümsəyərək birbaşa cavab verdi:

– Ə, bu kor Əsmərin nəvəsi nə sırtığımış! Yapışmışdı o gədədən, qopmurdu ki, qopmurdu! Sarmaşmışdı gədənin boynuna! Kino nədi, adam nədi, heç kəsi saymırdı. Bilirsən niyə? Onlardan qabaq sırada qardaşın oğlu oturmuşdu, ona yandıqqındıx verirdi. Çünki kor Əsmərin nəvəsini qardaşın oğluna istədiniz, sonra da almadınız, yadından çıxıb?!

Zərnişan müəllimə Rəhman müəllimlə üz-üzə gəlməyinə peşman oldu. Amma cavab verməyə də bilmədi:

– Ay Rəhman, yenə köhnə palan içi tökməynən məşğulsan. Elə sən uşaqlıqdan beləsən. İndi mən də durum deyim ki, Nəcəfalının gədəsinə sənin bacını vermədiklərinə görə Nəcəfalının gədəsi də o hoqqaları çıxardırdı?

Rəhman müəllim heç nə demədi, irişə-irişə Zərnişan müəllimədən uzaqlaşdı.

Zərnişan müəllimə ağacların altına gələndə uşaqlar tam sakitləşmişdilər və onu gözləyirdilər. Zərnişan müəllimə dilxor-dilxor dərsə başladı:

– Uşaqlar bugünkü dərsimiz "Bənövşə" oyunudu. Yəqin ki, aşağı siniflərdə müəllimlər bu oyunu sizə öyrədiblər. Oyunun qaydası belədir ki, əvvəlcə iki dəstəyə ayrılmalısınız, hər dəstədə oğlanlar və qızlar qarışıq olmalıdır. Sonra özünüzə dəstəbaşı seçməlisiniz. Hə, indi iki dəstəyə bölünün, baxım.

Uşaqlar elə bil bir haya bənd idilər. Bir göz qırpımında iki dəstəyə ayrıldılar. Zərnişan müəllimə göz gəzdirib iştirakçıların sayını bilmək istədi və aydın oldu ki, bir dəstədə yeddi, o biri dəstədə isə səkkiz nəfər var. Uşaqların narazı olmadığını görüb Zərnişan müəllimə də səsini çıxartmadı və qərara gəldi ki, indi dəstəbaşını seçmək lazımdı. Üzünü özündən sol tərəfdəki uşaqlara tutub soruşdu:

– Siz kimi seçirsiniz?

Ümumi şəkildə deyilən bu suala heç kim cavab vermədi. Bir az fasilə yarandı, sonra Zərnişan müəllimə dəstəyə yaxınlaşıb uşaqların ortasında özünə yer tutmuş və bütün yay boyu müəlliməgilin quzularını otarmış Ramilin qabağında dayandı və amiranə bir tərzdə dedi:

– Ramil, bəlkə, başçı sən olasan?

Qəribədir, bir anda Ramilin də beynindən quzu otarmaq məsələsi keçdi və Ramil elə o andaca dilləndi:

– Yox, müəllimə, qoy Sahilə olsun!

Sahilə həm də onların sinif nümayəndəsi idi.

Zərnişan müəllimə heç nə demədən başı ilə təsdiqlədi, Sahilənin başa keçməsi üçün əli ilə işarə verdi və arxaya dönüb o biri dəstəyə yaxınlaşdı. Zərnişan müəllimənin sualına ehtiyac qalmadı. Sinfin əlaçı tələbələrindən biri olan Haqverdi ucadan dedi ki, artıq biz başçımızı seçmişik. Odur, bax, Xəyalə öz yerində durub. Zərnişan müəllimə buna da heç nə demədi, amma

Xəyalə məsələsi bir az onu çaşdırdı. Ona görə ki, Xəyalə Rəhman müəllimin Nəcəfalıgilnən qohum olmaq istəyən bacısının balaca qızı idi.

Zərnişan müəllimə geriyə çəkilib nisbətən hündür bir yerdə dayandı, oyunun qaydasını söyləməyə davam etdi:

– Dəstənin uşaqları möhkəm-möhkəm əl-ələ tutub zəncir yaradırlar. Bir dəstə deyir: “Bənövşə!” O biri dəstə cavab verir: “Bəndə düşə!” Yenə əvvəlki dəstə deyir: “Bizdən sizə kim düşə?” Bu dəfə o biri dəstə qarşıdakı uşaqlardan birinin adını çəkir. Məsələn belə: “Adı göyçək, özü göyçək Afət!” Afət də sürətlə gəlib qarşıdakı dəstənin zəncirini qırmağa çalışır, əgər qıra bilsə, həmin dəstədəki uşaqlardan birini əsir götürüb öz dəstəsinə aparır, qıra bilməsə, özü həmin dəstədə əsir qalır. Axırda sayıb baxacağıq ki, hansı dəstədə uşaq çoxdursa, deməк, o dəstə qalib gəlir. Başa düşdünüz?

Hamı bir səslə dedi:

– Bəli!

Uşaqlar oynamağa yaman tələsirdilər, amma Zərnişan müəllimə yenə üzünü onlara tutub dedi:

–Əgər istəsəniz, bu oyunun bir bənd də nəğməsi var, onu da oxuya bilərsiniz.

Bunu eşidən uşaqlar bir səslə ucadan dedilər:

– Bilirik, bilirik!

–Yaxşı, onda biriniz ucadan söyləyin görüm, necə oxuyacaqsınız?

Elə bil əvvəldən dilləşmişdilər, Sahilə ilə Xəyalə səs-səsə verdilər:

Bizim zənciri qırsan,
Bir nəfər apararsan.
Əgər qıra bilməsən,
Onda əsir olarsan.

– Afərin, uşaqlar!

Sonra oyun başladı:

– Bənövşə!

– Bəndə düşə!

– Bizdən sizə kim düşə?

– Adı göyçək, özü göyçək Səkinə!

Səkinə öz dəstəsindən ayrılıb irəliyə doğru qaçmağa başladı. Qaçıb-qaçıb özünü Ramillə Leylanın arasına vurdu. Zənciri qıra bilmədi, Ramillə Leylanın arasında əsir kimi qaldı. Bircə Ramil bildi ki, Səkinə özünün dolu bədənini birbaşa onun qolunun üstünə salmışdı.

Oyun davam edir:

– Bənövşə!

– Bəndə düşə!

– Bizdən sizə kim düşə?

– Boyu uca, bığı burma Nihad!

Nihad Səkinənin gəldiyi dəstəyə hücuma keçdi. Sürətli qaçışından adama elə gəlirdi ki, bu dəqiqə o biri dəstəni darmadağın eləyəcək. Qaçdı-qaçdı, Şərəbanı ilə Xuramanın arasına çatanda özünü yavaşca onların qolunun üstünə saldı. Belə demək olardı ki, Nihad könüllü şəkildə əsir düşdü. Bunu öz dəstəsinin uşaqları da bilib hay-küy saldılar. Amma heç bir faydası olmadı.

Növbə yenə Xəyalənin dəstəsinə keçdi. İndi buradan kimsə Sahilənin dəstəsinə hücum etməli idi.

– Bənövşə!

– Bəndə düşə!

– Bizdən sizə kim düşə?

– Həmişə beş alan Səməd!

Səməd irəli çıxmaq istəyirdi ki, Zərnişan müəllimə onu saxladı. Üzünü qarşıdakı dəstəyə tutub dedi ki, nəğməni yaddan çıxarıbsınız, indi nəğməni də oxuyun. Zərnişan müəllimə bunu ona görə edirdi ki, direktor, dərs hissə müdiri eşidib Zərnişan

müəllimənin ürəkdən dərs keçməsinə inansınlar. Elə uşaqlara da bu lazım idi:

– Ay Səməd,
Bizim zənciri qırsan,
Bir nəfər apararsan.
Əgər qıra bilməsən,
Onda əsir olarsan.

Bundan sonra Səməd sürətlə irəli şığıdı. O, Səkinə ilə Leylanın arasını gözaltı eləmişdi. Özlüyündə belə düşünmüşdü ki, birincisi, onların hər ikisi qız olduğuna görə aralarından keçmək çətin olmayacaq; ikincisi, Səkinə bunların dəstəsindəndir, onun zənciri qırıb keçməsinə şərait yaradacaq. Bu ikincisi Səkinənin də lap ürəyindən oldu və o an qolunu boşaldıb fikirləşdi ki, zəncir qırılsa, Səməd Səkinəni öz dəstəsinə geri qaytaracaq. Səmədin də, Səkinənin də zəncirin qırılması barədəki fikirləri tamamilə üst-üstə düşdü. Amma sonrası Səkinə üçün gözlənilməz oldu. Səməd qalib gələn kimi dəstənin başçısı Sahiləyə tərəf üz tutdu. Hamı elə bildi ki, Sahiləni aparacaq, amma belə olmadı. Səməd Sahilənin yanında olan Ülkərin qolundan yapışdı. Ülkər nə qədər dartındısa, Səməd onun qolunu buraxmadı. Ülkər elə bil əlini kəsirmişlər kimi hıçqırmağa başladı. Onu əməlli-başlı ağlamaq tutmuşdu. Müəllim qarışıq hamını heyrət bürümüşdü. Ülkər bir qolu Səmədin əlində ola-ola yerə çökdü və çəmənliyin üzərində oturub ayaqlarını qabağa tərəf uzatdı. Səməd onun qolunu buraxıb yanında dayandı. Uşaqların nizamı pozuldu, dəstələr dağıldı. Zərnişan müəllimə də, uşaqlar da Ülkərin başına yığışdılar. Ülkər isə ağlaya-ağlaya bunları deyirdi:

– Mən əsir olmaq istəmirəm! Mən heç yerə getməyəcəyəm!

Uşaqların bəziləri bu sözlərə gülür, bəziləri isə qaşlarını çatıb nəsə fikirləşirdilər. Zərnişan müəllimə Ülkərin başını sığallaya-sığallaya onu ovutmaq istəyirdi:

– Qızım, Ülkər, bu, bir oyundur. Adam ondan ötrü ağlayıb özünü üzməz. İndi bax, Səmədə deyərəm, heç səni aparmaz.

Bu sözlər Ülkərin ürəyini bir azca toxtatmışdı ki, Səmədin səsi ucaldı və Səmədin müəllimlərinin yanında belə ucadan danışması heç vaxt eşidilməmişdi:

– Yox, mən ancaq Ülkəri aparacağam!

Ülkər bu sözləri eşidəndən sonra yenə də dəli kimi qışqırmağa başladı:

– Mən getmirəm! Mən əsir olmaq istəmirəm! Mən əsir olmaq istəmirəm!

Zərnişan müəllimənin əsəbləri tarıma çəkildi. Uşaqların üstünə hirslə qışqırdı:

– Kənara çəkilin! Dərsimiz qurtardı!

Bu sözdən bəzi uşaqlar bir az kənara durdular. Səməd də Ülkərin üzünə xeyli tamaşa edib, yavaşca oradan uzaqlaşdı və xəyalında beş-altı gün bundan qabaq Ülkərin ona dediyi sözlər canlandı: "Evdə qalaram, amma sənə ərə getmərəm!"

Bu vaxt Sahilə ilə Xəyalə Zərnişan müəlliməyə yaxınlaşdılar. Sahilə dedi:

– Müəllimə, icazə verin, özümüzün "Bənövşə" oyunu var, onu oynayaq.

Zərnişan müəllimə saata baxdı, zəngin vurulmasına on-on beş dəqiqə qalırdı. Uşaqları belə tezliklə buraxmaq olmazdı. Zərnişan müəllimə ehtiyatla soruşdu:

– Daha ağlamaq olmayacaq ki?!

Bu dəfə Xəyalə dilləndi:

– Yox, müəllimə, narahat olmayın!

Dəstələr yenidən düzəldi. Müəllimə Ülkəri öz yanında saxladı. İndi hər dəstə yeddi nəfərdən ibarət idi.

– Hə, başlayın görək! – müəllimənin səsi eşidildi. Uşaqlar başladılar:

– Bənövşə!
– Bəndə düşə!
– Bizdən sizə kim düşə?
– Nəcəfalının gədəsi!

Bir dəstə bütövlükdə o biri dəstəyə hücuma keçdi. Sonra geri qayıtdılar.

– Bənövşə!
– Bəndə düşə!
– Bizdən sizə kim düşə?
– Kor Əsmərin nəvəsi!

Bu dəfə o biri dəstə hücuma keçdi və geri qayıtmadılar. Uşaqlar bir-birinə qarışıb oynamağa başladılar. Səsləri isə bütün məktəbin həyətini bürümüşdü:

– Nəcəfalının gədəsi, kor Əsmərin nəvəsi!

Zərnişan müəlliməni elə bil ildırım vurmuşdu. Dili söz tutmurdu. Sinif otaqlarında dərs keçən şagirdlər və müəllimlər açıq pəncərələrin qabağına yığışmışdılar. Handan-hana Zərnişan müəllimə özünə gəlib uşaqların üstünə qışqırdı. Amma onun səsini eşidən yox idi. Uşaqlar öz mahnılarını oxuyurdular:

– Nəcəfalının gədəsi, kor Əsmərin nəvəsi!
– Nəcəfalının gədəsi, kor Əsmərin nəvəsi!

***Qəmərvan, 24.08.2016***

## POEZİYA GÜNLƏRİ

Qapılar fısıldayaraq yavaşca örtüldü və sürücünün "Ya Allah!" yalvarışından sonra avtobus sanki öz-özünə yeriməyə başladı. Bu, ilk baxışda elə görünürdü, amma avtobusu sürən bir adam var idi – Mahmud kişi. Şəhərə gəlməmişdən əvvəl kəndlərində onu uşaqdan böyüyə hamı "Mahmud əmi", "Mahmud dayı" deyil, "Usta Mahmud" deyə çağırırdı. Bunun da səbəbi uşaqlara aydın olmasa da, böyüklərə tam aydın idi: o həm maşın sürməyi atasından yaxşı öyrənmişdi, həm də heç kəs deyə bilməzdi ki, onun maşını nə vaxtsa yol üstə çıxan bir toyuğu əzib keçib. Mahmud özü də həmişə "əgər şofer bir toyuğu vurdusa, aparıb maşını tez təhvil versin", – söyləyərdi.

Mahmud öz adəti ilə bəzi hazırlıq işlərini dünəndən görmüşdü; avtobusun təkərlərini yoxlamış, motorun yağını dəyişmiş, bakı ağzına qədər yanacaqla doldurmuş, hətta arvadı Bənövşəyə yol üçün yemək tədarük etməyi xatırlatmışdı ki, Mahmuda görə, yemək tədarükünün özü də hazırlıq işlərinə daxil olan məsələlərdən idi.

Avtobus hərəkətə gələndə, nədənsə, Mahmudun gözləri sağ tərəfdə ayağının yanına qoyduğu yemək çantasına zilləndi. Bunun niyə məhz belə olduğunu o, özü də bilmədi, amma qabağa baxa-baxa balaca çantanın içərisində olan biş-düşü xəyalına gətirməyə başladı: iki küftə, iki yumurta, bir dəst göyərti, qırmızı turp, kənddən gətirilən pendir, uşaqların dəftərindən cırılmış ağ vərəqə bükülü duz və ədəb-ərkanla yan tərəfə qoyulmuş salfet kağızı. Əslində Mahmud saydıqlarının heç birini görməmişdi, sadəcə, xəyalına gətirirdi və həm də bunların məhz çantanın içərisində olacağına da tam əmin idi. Ona görə ki, arvadı Mahmud üçün yemək tədarükü görəndə həmişə eyni ərzaq növlərini çantaya qoyardı. Bu dəfə Mahmudun tapşırığı ilə Bənövşə yalnız salfet kağızını oraya əlavə etməli idi və yəqin ki, əlavə etmişdi.

Mahmud həmişə yola çıxanda iki ayaqqabı götürərdi. Bunlardan biri iri şap-şap idi ki, Mahmud bu şap-şaplar olmasaydı, avtobus sürə bilməzdi. Yalan-gerçək deyirdi ki, avtobusu sürəndə motorun istisi aşağıdan ayağıma vurur, ayaqqabının yanları açıq olmasa, ayaqlarım o dəqiqə bişər. İkinci bir ayaqqabı isə narıncı rəngli tufli idi. Əslində Mahmud ona da əməlli-başlı öyrəşmişdi. Deyirdi ki, bu tufli ayağıma çox rahat olur. Həmin ayaqqabı da ona görə lazım idi ki, uzaq səfərlərə gedəndə qaldıqları şəhərləri rahatca gəzə bilsin. Bu gün isə Mahmud həm şap-şapını, həm də tuflisini dəyişmişdi. O şap-şap ki var, indi Mahmudun ayağındaydı, Mahmud onu Tiflisdən almışdı və indiyə qədər bir dəfə də olsun ayağına geyinməmişdi. Sadəcə olaraq, ilk dəfə mağazada, sonra da evlərində təkrarən ayağına olub-olmamasını yoxlamışdı. Elə həmin vaxt da arvadına demişdi ki, bunu bir küncə qoy, lazım olanda geyəcəyəm. Arvadı Mahmudun sözlərini canla-başla yerinə yetirərdi və bilirdi ki, onun bir sözünü iki eləmək olmaz, hətta Mahmudun yaddaşının möhkəm olmasından da xəbərdar idi. Nəyi hara qoy, necə qoy məsələlərinin hamısını əzbər bilirdi. Mahmud bu gün arvadından təzə şap-şapı istəyəndə arvad tez-tələsik o biri evə keçib şifonerin qapısını açaraq şap-şapı lap aşağı gözdən çıxarıb geri qayıtdı, onları böyük həvəslə cütlədi, ikiqat əyilib ərinin qabağına qoydu. Öz aramızda deyim ki, arvadının əzilib-büzülməsindən Mahmudun çox xoşu gəldi.

Təzə tufliyə gələndə Mahmud özü bunun hazırlığını dünəndən görmüşdü. Yəni silib təmizləyib evin giriş hissəsində qapı ilə divarın arasına qoymuşdu. Trabzondan aldığı tuflinin əvvəlcə geydiyi tuflidən iki əsas fərqi vardı: birincisi, qara rəngdə idi, ikincisi, bu, Mahmudun toylara geydiyi tufli idi. Həm Mahmud, həm də arvadı onu əzizləyə-əzizləyə saxlayırdılar. Dünəndən arvadı Mahmudun bu tuflini hazırlayıb götürməsinin səbəbini soruşmaq istəyirdi, amma, nədənsə, soruşa bilmirdi. Bu-

rada qorxulu elə bir şey də yox idi. Soruşacaq, Mahmud da ona cavab verəcəkdi. Amma elə bil arvadın dili kilidlənmişdi. Xoşbəxtlikdən səhər-səhər arvadı bu nigarançılıqdan Mahmudun özü qurtardı: "Bu gün yazıçılarla yola çıxacağam, təzə ayaqqabını geyim ki, mənə kəndçi deməsinlər". Mahmudun iki il bundan qabaq Dərbənddən aldığı və az-az geydiyi "adidas" idman formasını götürməsini də nəzərə alsaq, onun bu səfərə əməlli-başlı hazırlaşdığına heç bir şübhə yox idi.

Avtobus yavaş-yavaş paytaxtdan uzaqlaşırdı. Mənzil başına qədər olan məsafə cəmi-cümlətanı 120 kilometr idi. Bu da vur-tut saatyarımlıq və yaxud iki saatlıq yol edərdi. Əgər yazıçılar yarıyolda sağ tərəfdə yerləşən yamyaşıl ağacların arasındakı pirə baş çəksələr, bir az da gecikmiş olacaqlar. Geciksələr belə bunun heç nəyə ziyanı yoxdur. Yəni ki, onların heç birinin əlində südü daşmır. Mahmud bunları xəyalında götür-qoy edirdi ki, yolun kənarında dayanan polis məlum bir işarə ilə avtobusu saxlamaq əmrini verdi. Avtobus sağ tərəfə burulub polis məntəqəsinin yaxınlığında dayandı. Mahmud bu işə lap məəttəl qalmışdı, ona görə ki, hələ indiyə qədər onu bu məntəqədə saxlayan olmamışdı. Çünki Mahmud heç vaxt yol hərəkəti qaydalarını pozmayıb və polislərlə də heç bir haqq-hesabı yox idi.

Yol polisi Mahmuda yaxınlaşdı, əlini cəld hərəkətlə gicgahına tərəf apardı və amiranə səslə dedi:

– Serjant Rəhimov! Sənədlərinizi göstərin!

Mahmud ədəb-ərkanla lazım olan sənədləri ona tərəf uzatdı və diqqətlə də onun üzünə baxmağa başladı. Beynində isə fikirləşirdi ki, yazıçıların yanında biabır olduq, ürəklərində deyəcəklər ki, bu nə şoferdir, bizimlə yola çıxıb, qaydaları da bilmir ki! Serjant Rəhimov isə sənədlərə baxır və avtobusdan sızıb gələn səsi də eşidirdi:

– Ay oğul, biz yazıçıyıq, tədbirə gedirik. Bu yazıçılara hörmət eyləyin, buraxın, gedək!

Serjant Rəhimov yenə sənədləri nəzərdən keçirir və yenə də avtobusdan gələn ayrı səsə qulaq asırdı:

– Gör bu yazıçının, şairin yol polisinin yanında bir qəpiklik hörməti yoxdur!

Elə bu vaxt serjant Rəhimov gözlərinin altı ilə pəncərə şüşələrinin arxasındakı yazıçıları süzdü və sənədləri Mahmuda qaytarıb yavaşca dedi:

– Yaxşı yol!

Avtobus hərəkətə gəldi. Yazıçıları deyə bilmərəm, amma serjant Rəhimovun sifəti Mahmudun yadından çıxmırdı. Elə bil Mahmud onu haradasa görmüşdü və tanıyırdı, amma nə qədər çalışırdısa da, yadına sala bilmirdi. Bu zaman Şair Kirmani (bəli, bəli, onun adı Şair, təxəllüsü Kirmani idi) yerindən qalxıb qabağa doğru gəldi və ədəb-ərkanla Mahmudun yanındakı boş kresloda oturdu. Bu yer, adətən, avtobus bələdçilərinin yeri idi, yaxud da sürücülər uzaq səfərə yoldaşlı çıxanda biri avtobusu sürür, digəri isə həmin kresloda dincəlirdi. İndi Mahmuda nə bələdçi, nə də köməkçi lazım idi. Ona görə ki, bu yol o qədər də uzun yol deyildi; cəmisi 120 kilometr o yana, bir o qədər də bu yana.

Sürücü ilə yanaşı oturan Şair Kirmaninin barmaqları arasında bir siqaret də var idi. Şair həmin siqareti dayanmadan barmaqları ilə o tərəf-bu tərəfə fırladırdı. Şübhəsiz, avtobusun içərisində siqaret çəkməyin qadağan olunduğunu Şair yaxşı bilirdi, əslində də heç çəkmək istəmirdi, sadəcə, siqaret çəkə bilmədiyinə görə hövsələsinə təskinlik verirdi. Söhbətə Şair Kirmani başladı:

– Qardaş, bu şairləri tanıyırsan? Onların hamısı millətə dayaqdırlar.

– Bəzilərini televizorda görmüşəm.

– Heç şeirlərini əzbər bilirsən?

–Yox! Orta məktəbdə oxuyanda şeir əzbərləyə bilmədiyimə görə ədəbiyyat müəllimimiz məni həmişə döyürdi. O qədər döydü ki, axırda özüm də şeir yazmağa başladım.

Şair Kirmani elə bunu eşitmişdi ki, üzünü salona tərəf tutub uca səslə qışqırdı:

– Ayə, Səməd Vahid, sürücümüz də şair imiş!

Bir anda salonda qaynaşma əmələ gəldi, amma heç kəsdən səs çıxmadı. Şair yenə üzünü Mahmuda tərəf tutub yalvardı ki, sən Allah, yadında qalıbsa, yazdıqlarından birini söylə, səhər-səhər feyziyab olaq. Mahmud da cavab verdi ki, vallah, bir bənd yadımdadır, elə də mənalı deyil, həm də kədərlidir.

Şair sözünə ara vermədən Mahmudun qılığına girdi:

– Qardaşımsan, nə yazmısan, utanma, de gəlsin! Öz hisslərini yazmısan da! Ən gözəl şeir  məhz belə yaranır. Unutma ki, şairlik Allah vergisidir.

Mahmud bir əli ilə roldan bərk-bərk tutdu, o biri əlini isə qaldırıb başının arxasını qaşıdı. Deyəsən, razılığa gəlirdi. Şair də sakitcə durub ona baxırdı. Bu dəfə Şairin dili yox, gözləri yalvarırdı. Vaxt o qədər də uzun çəkmədi. Mahmud məktəb illərinin əziz yadigarını yavaş-yavaş dilinə gətirdi:

Rəhm etməsən göz yaşıma,
Məhv olaram öz başıma,
Yazarsız məzar daşıma,
O qızı yaman istəyirdi.

Şairin yenidən səsi ucaldı:

– Ay Səməd Vahid, şeirə bax eyyy, şeirə!

Sonra Mahmuda tərəf döndü və onun yanındakı mikrafonu göstərib soruşdu:

– Mikrofon işləyir?

Mahmud da başı ilə "hə" dedi. Bunu görən Şair ondan xahiş elədi ki, şeiri təzədən mikrofonla söyləsin. Salondakılara da üz tutub ucadan qışqırdı:

– Ay camaat, qulaq asın!

Mahmud şeiri təzədən mikrofonla söylədi. Hamı əl çaldı, alqışlar avtobusun şüşələrini dağıdırdı, az qalırdı şüşələr çilik-çilik ola. Mahmud uçmaq istəyirdi, amma uça bilmirdi, çünki avtobusun içindəydi.

Bundan sonra avtobusa qəribə bir sükut çökdü. Şair də ləzzətlə siqaret çəkib hövsələsinə tüstü vermiş kimi sakitcə keçib öz yerində oturdu. Səhər tezdən yuxudan durduqlarına görə hamı qəfildən mürgüləməyə başladı. Hətta iş o yerə çatdı ki, avtobus piri də ötüb keçdi. Pirdə düşüb nəzir vermək heç kəsin yadına düşmədi.

Avtobusu əyalət şəhərinin kənarında qarşıladılar. Yazıçılar avtobusdan düşüb onları qarşılayan adamlarla bir-bir görüşdülər və iki-iki, üç-üç qonaqlar üçün gətirilən minik maşınlara oturdular. Avtobus sürücüsünə dedilər ki, bir kölgəlik tapıb istirahət etsin, axşamüstü saat 7-də bu yerdə onları gözləsin, həmin vaxt geri qayıdacağıq.

...Axşamüstü saat 7 idi. Mahmud ədəb-ərkanla yolun kənarında dayanmışdı və öz istirahətindən çox məmnun idi. Səhər gələndə yazıçıların onun şeirinə ürəkdən əl çalmaları da bütün günü yadından çıxmamışdı və hətta istirahət vaxtı həmin şeiri bir neçə dəfə ürəyində xatırlamışdı. Elə bu dəm yenə o barədə fikirləşirdi ki, bir neçə minik maşını dalbadal onun yanında dayandı. Yazıçılar həmin maşınlardan tökülüşməyə başladılar. Səs-küy bütün ətrafı bürüdü. Onlar yerli sakinlərlə marçamarç öpüşürdülər. Yan-yörədə duran adamlar çox böyük maraqla bu mənzərəni seyr edirdilər. Nəhayət, yenə səs-küylə Mahmuddan bir addım o tərəfdə dayanan avtobusa doluşdular və azca sonra avtobus hərəkətə gəldi. Səs-küy kəsilmək əvəzinə yenə də alovlandı və avtobusu başına götürdü. Orta sırada oturanlardan biri sürücünü nəzərdə tutaraq ucadan dilləndi:

– Qardaşımsan, birbaşa şəhərə sür!

Avtobus irəliləyirdi. Mahmuda elə gəlirdi ki, bu adamlar heç səhərki adamlar deyil. Dolaşıq fikirlər onun içini gəmirirdi. Birdən Səməd Vahid iynə üstündə oturmuş kimi yerindən dik atıldı. Başının üstündə əşyalar üçün nəzərdə tutulmuş yerə təzəcə qoyduğu çantasını açaraq oradakı şeir kitabını götürdü. Sonra isə səndələyə-səndələyə Mahmuda tərəf addımladı. Mahmudun yanına çatıb başını ona tərəf əyərək soruşdu:

– Məktəbdə oxuyan uşaqların varmı?

– Var.

Bu dəfə Səməd Vahid əlindəki kitabı ona tərəf uzadıb dedi:

– Bu kitabı onlara ver, qoy oxusunlar. Mənim şeirlərim səndən çox onlara lazımdır. Ha-ha-ha!

Mahmud başını bulayaraq heç nə demədi və kitabı alıb qabaq şüşənin aşağısına qoydu. Ürəyində də dedi ki, içə bilmirsən, içmə də! Mən içmirəm, ölürəm!

Bu zaman avtobusun ortasına tərəf gedən Səməd Vahid azca geriyə dönüb dedi:

– Lap istəyirsən, sən də oxuyarsan!

Mahmud yenə başını buladı. Yenə arxadan səs gəldi:

– Qardaşımsan, birbaşa şəhərə sür!

Bir xeyli vaxt keçmişdi ki, səhərki kimi Şair Kirmani yenə də gəlib ədəb-ərkanla sürücünün yanındakı kresloda oturdu. Kefi Səməd Vahid kimi saz idi və dilləndi:

– Sürücü qardaş, sən yazsaydın, əsl şair olardın. And olsun Allaha düz deyirəm. Elə bilirsən bunlar şeir yaza bilirlər? (Əli ilə avtobusdakıları göstərdi). Həmin şeiri yaz ver, qəzetlərin birində çap elətdirim.

Mahmud əsəblərini cilovlayaraq ağızucu dedi:

– Yox, istəmirəm!

– Niyə istəmirsən? Axı sənin gələcəyin var. El-oba tanıyacaq, nəvələrin şeirlərini əzbər söyləyəcək. Nəvə ki babanın şeiri-

ni dedi, bunun əvəzi yoxdu, ömrün on il də uzanacaq. Hələ o biri tərəfini demirəm ki, toy məclislərində, ad günlərində sənə söz verəcəklər. Məktəblərdə universitetlərə qəbul olunan tələbələrlə görüşə çağıracaqlar. Nə çətin şey var ki, bir-iki yaxşı şeir yazırsan, verirsən əli qələm tutana, lap elə mənim özümə, ora-burasını düzəldirlər, hər yerdə də həmin şeirləri söyləyirsən. Niyə biz müğənnilərcə də olmadıq! Bir də bilirsən niyə deyirəm? Elə əlüstü sənin şeirinə yaxşı bir cavab yazmışam, ikisini də bir yerdə çap etdirəcəyəm. Narahat olma, başqa yerdə xərcim-zadım çıxmayacaq, özümün qəzeti var, on ildir ki, çıxardıram. Hələ dost-tanışın o qədər şeirini çap eləmişəm ki! Niyə sənin bir şeirinə yer tapılmadı? Lap istəsən şəklini də verə bilərəm.

Sonra mikrofona yaxınlaşıb qışqırdı:

– Ay millət, sürücümüzün səhərki şeirinə cavab yazmışam, qulaq asın!

Şairin səsi asta-asta avtobusa yayılırdı:

Yaxşı bax üst başına,
Yaraşmayır yaşına,
Zəhər qatma aşına,
Bu sevgi sənlik deyil.

Sonra da qəh-qəh çəkdi və barmağı ilə Mahmudun çənəsinin altından vurub dedi:

– Həə, şair, necədir!? Sən yaxşı yazırsan, yoxsa mən? Əlbəttə, ikimiz də! Hi-hi-hi!

Mahmud cavab vermədi. Heç şair də sonra dillənmədi. Sakitcə keçib yerində oturdu və o dəqiqə də yuxuya getdi.

Amma bu zaman yenə arxadan səs gəldi:

– Qardaşımsan, birbaşa şəhərə sür!

Fikirlər içərisində boğulan Mahmud bir xeyli sonra avtobusu yavaşca yolun kənarında saxladı. Bura səhər ziyarət etmədikləri pir idi. Avtobusdan düşdü və nəzir qutusuna tərəf addımladı. Nəzir qutusuna pul salıb ağacların ortasında səliqə-səh-

manla düzəldilmiş "Ehsan bulaq"da əl-üzünü yudu. Sonra yenə qutuya yaxınlaşdı və yenə oraya pul saldı. Lap astaca "Allah, sən mənə səbir ver!" sözlərini dedi. Avtobusa tərəf gəldi. Avtobus təzəcə hərəkətə gəlmişdi ki, arxadan tanış səs eşidildi:

– Qardaşımsan, birbaşa şəhərə sür!

Birdən Mahmud özü də hiss etmədən ucadan dedi:

– A kişi, mən də fikirləşirəm ki, bu serjantı harada görmüşəm?

Sonra içində danışmağa başladı: "Bu serjant Rəhimov bizim qonşu kənddəki sədrin oğludur. Allah, Allah, yaddaşım necə də korşalıb! Onun atası hörmətli-izzətli bir adamdır. Həmişə kasıb-kusubun qeydinə qalardı. Bir dəfə Bakıdan bir alim gəlmişdi və onun kənddə mal-heyvan saxlayan ata-anasının bir maşın ota ehtiyacı vardı. Bunu bilən kimi kolxozun "QAZ-51" maşınını otla yüklədib onların həyətinə göndərmişdi. Maşına baxanda adama elə gəlirdi ki, böyük bir taya öz-özünə yeriyir. Səhərki serjant Rəhimovu o vaxtlar sədrin yanında görmüşəm. Sədr də onun başını sığallayıb bizə deyirdi ki, bu uşaq hökmən avtoinspektor olacaq. İşə bax ey, mən də fikirləşirəm ki, o, bizi niyə tez buraxdı?! Yəqin məni tanımışdı".

Mahmud bu fikirlərin içində idi və avtobus polis məntəqəsinə yaxınlaşırdı. Düşünürdü ki, məntəqədə olsa, avtobusu saxlayıb onunla hal-əhval tutsun. Axı onun atası hörmətli-izzətli kişi idi! Mahmud məntəqəyə çataçatda nə qədər o tərəf-bu tərəfə baxdısa, serjant Rəhimovu görə bilmədi. Xeyli təəssüfləndi.

Mahmud evə gəlib çatanda azca qaranlıq düşmüşdü. Dəhlizə daxil olub qara rəngli tuflini onu qarşılayan arvadına tərəf uzatdı və dedi:

– Bu ayaqqabı toy üçündür. Sənə yüz dəfə demişəm ki, bu ayaqqabını toya gedəndə mənə verərsən.

***22.06.2014***

# NATURA

– Əmi, ehtiyatlı ol! Birdən sürüşüb yıxılarsan!

– Gəl, əmi, gəl! Hər şey yaxşı olacaq. Bizdən narazı qalmayacaqsan?

– Əmi, başına dönüm, sən necə də mənim atama oxşayırsan. Vallah, deyəsən, bir-birimizdən xəbərimiz yoxdur.

Bu sözləri arıq, ucaboy, bir az da omuzları əyilmiş qocanı çox böyük maraqla müşaiyət edən tələbə qızlar söyləyirdilər. Qoca da qızlara tam təslim olmuş şəkildə və onların əhatəsində səssizcə və ağır addımlarla irəliləyirdi. Bu, kənardan diqqətlə baxan adamlar üçün qızların sanki dustaq aparmaq mənzərəsini yaradırdı. Həm də fikirləri bir-birinə dolaşmış qızlar qışın son ayı olduğuna görə qocanın qəfildən sürüşməsindən ehtiyat edirdilər. İşdi-şayəd belə bir hadisə baş versəydi, qoca sürüşüb yıxılsaydı, onun qolunun, qıçının sınması bir tərəfə qalsın, tələbə qızların bu il təhsillərini başa vurmaq arzuları da özlərinin dediyi kimi yarımçıq qala bilərdi.

Yenə qızlardan birinin səsi ucaldı:

– Bax, əmi, elə bil oturmuşdun o bağdakı çayçının bir tərəfində. Onsuz da hər gün oturursan da! Həmişəki kimi bütün günü çay içəcəkdin, ona-buna baxacaqdın. Çayçıya gəlib gedənlərin hamısını da bir-bir tanıyırsan. Bəs sonra? Sonra da həmişəki kimi qaranlıq düşəndə durub evinizə gedəcəkdin. Amma burada sənin üçün bilirsən necə maraqlı olacaq? Əgər istəsən, sənə indeyski çay da verərik, bilmirəm, çayçıda sizə indeyski çay verirlər, ya yox! Hələ şokoladımız da var, pirojnamız da var!

– Hmmm! – qoca bundan başqa heç nə demədi. Bircə məsələ aydın idi ki, o, könüllü-könülsüz özünü bu qızların ixtiyarına vermişdi.

Yenə qızlardan biri gülümsəyə-gülümsəyə dilləndi:

– Əmi, xəbərin var, sən pul da alacaqsan. Ondan bizə də pay versən, lap ürəyimizcə olar, biz də adam kimi pul xərcləyərik, deyərik öz qazancımızdır, daha dədəmizin göndərdiyi qəpik-quruş deyil. Axı, sənin üçün bu işi biz təşkil edirik. Həm də indi faiz almaq dəbdədir. Əgər razılaşsaq, sən əməlli-başlı iş yeri də qazanmış olursan.

O biri qızlar da heç ağıllarına gəlməyən bu sözlərə qəhqəhə çəkib ürəkdən güldülər və onların şaqraq gülüş səsləri xeyli davam etdi. Hələ onu da deyim ki, onlar bu arada gizli şəkildə bir-birlərinə bic-bic göz də vururdular.

Qız qocadan heç bir cavabın gəlmədiyini görüb yenə ucadan dilləndi:

– Hə, əmi, razılaşdıq?

– Hmmm! – qoca bu dəfə gözlərini azca bərəldib bir növ təəccüb qarışıq razılığını bildirdi. Daha heç nə demədi. Amma faiz məsələsinin zarafat olduğunu tam əminliklə bilən qocanın pul alacağı xəbəri onu dağa aparıb arana gətirdi. Əslində qocanın bütün qışı, yayı parkdakı çayçının bir tərəfində tək-tənha büzüşüb oturması pulsuzluq əlaməti idi. O, hər gün buraya gəlirdi və həmişə olduğu kimi eyni stulda otururdu. Çayçını işlədənlər də, çayçıya gələnlər də – hamı onu yaxşı tanıyırdı. Bu çayçıda qocanı uzun illər idi ki, yola verirdilər. Xətrinə dəymirdilər, "gözün üstə qaşın var" demirdilər. Hamı onu çox abırlı adam kimi tanıyırdı. Əslində də elə beləydi.

Çay dursun bir tərəfə, qoca çörəyini də burada yeyirdi. Çayçının müdiri tapşırmışdı ki, müştərilərin qabağından qayıdan təmiz yeməkləri heç yerə atmasınlar. Buraya gələn kasıb-kusuba versinlər. Hətta Allahdan gizlin deyil, bəndədən nə gizlin; bu yeməklərdən çayçıda işləyən cavan xidmətçilər də yeyirdilər. İndi qızlardan biri deyəndə ki, "sən pul da alacaqsan", onda qocanın sevinməyi bir tərəfə qalsın, gözləri bir az da dumanlandı. Qoca bir anda arvadının ölümünü xatırladı.

Kollecin qabağına çatdılar. Düzü, parkdan kollecə qədər olan məsafə o qədər də çox deyildi. Saata baxsan, cəmisi 5-3 dəqiqəlik yoldu. Əvvəlcə qızlardan biri, sonra qoca, daha sonra isə digər qızlar növbə ilə içəriyə daxil oldular. Onları qapının ağzında dimdik dayanan təsərrüfat müdiri qarşıladı. Təsərrüfat müdiri içəriyə daxil olan qızlara qətiyyən fikir vermədən nəzərlərini qocaya dikdi və qocanı həm yuxarıdan aşağı, həm də aşağıdan yuxarı diqqətlə süzüb özünəməxsus qalın səslə dedi:

– Bu kişini haradansa tanıyıram.

Sonra da qocanın düz gözlərinin içinə baxıb soruşdu:

– Bəydadaş, hansı rayondansan?

Qocanın cavabı bu oldu:

– Hmmm!

Qızlar çaş-baş qaldılar. Vəziyyətin qəlizləşəcəyindən bir az da qorxuya düşdülər. Qocanın qolundan tutub irəli getmək istəyirdilər ki, təsərrüfat müdiri yenə soruşdu:

– Mən səni hardan tanıyıram?

– Hmmm!

Qızlar dinməz-söyləməz yenə qocanı kollecin içərisinə doğru aparmağa çalışsalar da, bu, mümkün deyildi, çünki təsərrüfat müdiri düz qoca ilə üzbəüz dayanmışdı. Qocanın danışmadığını görən təsərrüfat müdiri bu dəfə üzünü turşudaraq qızlara tərəf dönüb dedi:

– A bala, bu ki laldır, bunu haradan tutub gətiribsiniz? Bu böyüklükdə şəhərdə bir normal adam tapa bilmədiniz? Bizim kənddəki Ələsgərin tayıdır. O, sizin nəyinizə lazım olacaq?

Qızlardan biri fikri yayındırmaq və araya söz qatmaq bəhanəsi ilə tez dilləndi:

–Qardaşımın tanışıdır.

Həmin qız bir də ona görə tez-tələsik bunu dedi ki, qardaş ilə təsərrüfat müdiri bu qız kollecə qəbul olan ildən tanış

idilər. Düşündü ki, təsərrüfat müdiri qardaşının adını eşitsə, bizim işimizə xeyri dəyə bilər.

Doğrudan da, bu qocanı qızın həmin çayçıya gedib-gələn qardaşı nişan vermişdi. Qardaşı da öz tələbə yoldaşları ilə domino oynamaq üçün parkdakı çayçıya tez-tez gələrmiş. O, bacısının söhbətlərini bir neçə dəfə dinlədikdən sonra bu qərara gəlmiş, qocanı bir təhər razı salmış, bacısı da rəfiqələri ilə birgə gedib qocanı tapmış və iş də, deyəsən, alınmışdı. Amma təsərrüfat müdirinin başıpozuq cümlələri hər şeyi korlaya bilərdi.

Qızın qardaşını xatırlatması, doğrudan da, işin xeyrinə oldu. Təsərrüfat müdiri sus-pus dayandı. Bu sükutdan istifadə edən qızlar biz göz qırpımında tez-tələsik qocanın qolundan tutub oradan uzaqlaşdılar. Yenə də arxadan təsərrüfat müdirinin səsi eşidildi, amma bu səs çox həlim bir səs idi:

– Kassir deyir ki, narahat olmasınlar, gəlib pulunu ödəyəcəyəm.

Qızlar qoca ilə birlikdə geniş bir otağa daxil oldular. Bura rəssam tələbələrin təcrübə otağı idi.

Qızlar kollecin axırıncı kursunda oxuyurdular. Kolleci qurtarmaq üçün hər tələbə diplom işi yerinə yetirməli idi. Qızlara da bir qocanı naturadan çəkmək mövzusu verilmişdi. Amma mövzular qətiyyən üst-üstə düşmürdü. Onlardan biri qocanı paltoda, yəni qış geyimində, ikincisi pencəkdə, yəni yaz və yaxud payız geyimində, üçüncüsü köynəkdə, yəni yay geyimində, dördüncüsü isə çılpaq çəkməli idi.

Qızlar qocanı hələlik divanda oturtdular. Yolda söz verdikləri kimi çay hazırlamağa başladılar. Onlar çay qaynayana qədər çantalarını açıb qocanın oturduğu divanın qarşısındakı mizin üstünü şirniyyatla doldurdular. Çalışırdılar ki, qocanın rahatlığını təmin etsinlər və qoca onlardan razı qalsın. Amma qoca hələ də paltosunu soyunmurdu və qızlar da bunu təkid

etmirdilər. Onsuz da bilirdilər ki, təcrübə otağı həmişə isti olur və qocanın da gec-tez paltosunu soyunacağına əmin idilər.

Elə belə də oldu. Qızlar çay gətirəndə qoca ayağa qalxıb paltosunu çıxardı və qızlardan biri onun paltosunu alıb səliqə ilə divanın bir küncünə qoydu. Bu zaman qızların elmi rəhbəri olan müəllim də təcrübə otağına daxil oldu. Əslində hazırlıq işi qurtarandan sonra qızlardan biri gedib müəllimi çağıracaqdı. Amma müəllimin gəlişinə də təsadüf kimi baxmaq olmaz. Görünür, ya təsərrüfat müdiri demiş, ya da kollecə yayılan səs-sədadan xəbər tutmuşdu. Qızlardan heç biri cəsarət edib bunu ondan soruşmadılar. Əlavə söz-söhbətə ehtiyac da yox idi. Əsas məsələ bu idi ki, axtarılan qoca tapılmış, qızlar öz diplom işlərini uğurla başa çatdırıb kolleci qurtara bilərlər.

Müəllim bir an ayaq saxlayıb diqqətlə baxdı və sonra da qızlara tərəf çevrilib dedi:

– Afərin, qızlar! Məsələnin 80 faizini həll etmisiniz.

Sonra yenə qocaya tərəf döndü:

– A kişi, sən haralısan!

– Hmmm!

– Sən məni görmüsən?

– Hmmm!

Təsərrüfat müdirinin dediyini müəllim də dedi:

– A bala, bu ki laldır. Onunla nə təhər yola gedəcəksiniz.

Qızlardan biri gözlənilmədən cavab verdi:

– Müəllim, elə bizə belə adam lazımdır. Yoxsa keçən ilin uşaqları birini tapıb gətirmişdilər, o da dil boğaza qoymayıb uşaqların zəhləsini tökürdü.

Bir az pauza yarandı. Sonra müəllim sağ ayağının ucunu qocanın oturacağı stulun qarşısındakı yerə döyəcləyib dedi:

– Bax, bu yer əsas yerdir. Növbə ilə burada dayanıb öz işinizi görəcəksiniz. Hərəniz üçün 15-20 dəqiqə bəsdir. Qalanını

aparıb evdə işləyərsiniz. Kənar tərəfdə duranlar da özləri üçün çəksələr yaxşı olar. Yəni bu, bir-birinizə köməkdir.

Müəllim yenə qocaya tərəf döndü, "sağ ol!" mənasında sağ əlini yuxarı qaldırıb yellədi və təcrübə otağından çıxdı. Qoca da elə bil rahat nəfəs aldı, çünki o, hər gün oturduğu çayçıda gördüyü müəllimi yaxşı tanıyırdı.

Müəllim gedəndən sonra qızlar dərindən nəfəs aldılar və yenə qocanı əzizləməyə başladılar. Onu ədəb-ərkanla oturacağı stulun qarşısına gətirdilər və paltosunu geyindirib yavaşca stulda oturtdular. Stul yumşaq və çox rahat idi. Qocanı qış geyimində çəkmək istəyən qız ona daha diqqətlə baxmağa başladı. Hətta qocanın yanına gəlib nimdaş paltosunun yaxalığını yuxarıdan aşağı, aşağıdan yuxarı ütü ütülüyən kimi əli ilə xeyli sığalladı. İki addım da geri çəkildi və qəfildən dedi:

–Hökmən kişinin boynunda şarf olmalıdır. Eyni zamanda şarf papaq və paltoya uyğun gəlməlidir.

Qızlardan biri dedi ki, lap çoxdan şkafda qəşəng bir şarf görmüşəm, baxım görüm oradadırsa, bu dəqiqə gətirərəm. Qız şarfı tapıb gətirdi, onu paltonun altından qocanın boynuna doladılar. Heç gözləmədikləri halda, şarf daha qabarıq formada göründü. Qocanı qış geyimində çəkmək istəyən qız şarfın yaratdığı cazibədən xeyli məmnun qaldı. Qızlar geri çəkilib planşetlərinin arxasına keçdilər və qocanın oturacağı stulun qarşısında öz yerlərini tutdular. İndi tələbə qızlar kimdənsə intervü götürən jurnalistlərə oxşayırdılar.

Birinci çəkiliş o qədər də çox çəkmədi. Təxminən 15-20 dəqiqədən sonra ortada dayanan qız əlini yuxarı qaldırıb "bravo" dedi. Bu, şəklin çəkilib qurtarmasına işarə idi, həm də onun yaxşı alındığını bildirirdi.

Qızlar vatman kağızlarını dəyişməyə başladılar. Mərkəzi yeri sanki saçını bu dəqiqə kosmetik salonda düzəltdirib gəlmiş başqa bir qız tutdu. O, qocanı yaz, yaxud payız geyimində

çəkməli idi. Qız qocaya yaxınlaşıb əvvəlcə onun şapkasını başından çıxardı. Sonra da o biri qızlarla köməkləşib şarfını açdılar və paltosunu soyundurdular. Qoca qızların bu hərəkətinə heç bir söz demədi, doğrudan da, elə bil lal idi. Bilmək olmurdu ki, bu işdən razıdır, yoxsa narazı.

Şapkasını, şarfını və paltosunu soyunandan sonra qoca yenidən stulda oturdu. Qocanı çəkəcək əsas tələbə qız ona diqqətlə baxmağa başladı. Nimdaş pencəyi, nimdaş şalvarı və qabaq düymələri açıq pencək boyu görünən göy rəngli köynəyi vardı. Qız irəli yeriyib pencəyin qabaq düymələrini düymələdi. Bir-iki addım geriyə atıb qocaya diqqətlə baxdı. Qızlardan biri dilləndi ki, yox, əvvəlki variant yaxşıdır. Qocanı çəkəcək əsas tələbə qız da o dəqiqə razılaşdı. Əvvəlki varianta qayıtdılar, qocanın pencəyinin düymələrini açdılar.

Bu çəkiliş də o qədər çox çəkmədi. Tələbə qız sağ əlini göyə qaldırıb “bravo” dedi.

Üçüncü çəkilişdən əvvəl qızlar çay hazırladılar. Bir böyük stəkana çay süzüb divanın yanındakı mizin üstünə qoydular. Artıq qoca divanda əyləşmişdi. O, çayı isti-isti içməyə başladı. Elə bil ürəyi yanırdı. Qocanın dili açıldı:

– Ay atanıza rəhmət! Bu çayı səhərdən verin, içim də. Ciyərim paralanırdı.

Qızlar da qımışa-qımışa səs-səsə verib ucadan dedilər ki, sən nə vaxt çay istədin, biz vermədik?

Xülasə, üçüncü çəkilişdə əvvəkli iki qız təcrübə otağından çıxıb getdilər. Həm də müəllim tapşırsa da, sonrakı məqamların çəkilməyinin bu qızlara heç bir aidiyyatı yox idi.

Üçüncü çəkiliş də çox tez və rahat qurtardı. Qocanı bir köynək və şalvarda çəkən qız da harayasa çıxıb getdi. Təcrübə otağında bir qoca qaldı, bir də tələbə rəssam Vəfa.

– Hə, başlayaq? – bu sözləri qoca dedi. Yəqin darıxırdı, bəlkə də, pul almağa tələsirdi. Yox, bu, daha çox darıxmaq əlaməti idi. Bəlkə də, pul heç onun yadına düşmürdü.

– Başlayaq, əmi! – bu sözləri də Vəfa dedi. Sonra da əlavə etdi ki, bəs keçib stulda əyləşsin.

Qoca ağır addımlarla hərəkət edib stula yaxınlaşdı, oturdu və üzünü qıza tərəf tutub dedi:

– Bəs sən necə çəkəcəksən?

– Əmi, mənimki lap asandır. Biri şarf axtarırdı, biri əli ilə pencəyini ütüləyirdi, biri köynəyini düzəldirdi. Mən səni çılpaq çəkəcəyəm.

– Nə danışırsan, ay qızım? Mən soyunmalıyam? – qoca təəccüblə dedi.

– Narahat olma, mən özüm səni soyunduracağam, – bunu da Vəfa söylədi.

Bu sözlərdən sonra Vəfa qocaya yaxınlaşdı. Əli ilə qocanın əvvəlcə başını sığalladı, sonra əllərini üzünə gəzdirib nəvaziş göstərdi. Nəvazişin arxasınca dili ilə əzizləməyə başladı:

– Əmi, sən necə də nurani bir adamsan. Bax, üz-gözündən nur tökülür. Sən ömründə heç kəsə pislik eləməmisən. Bilirsən niyə? Çünki əlindən pislik gəlmir. Sən o qədər xeyirxah adamsan ki, indi sənin doğulduğun, böyüdüyün yerdə başına and içirlər.

Qoca dillənmirdi, şoka düşmüş adamlar kimi gözlərini Vəfanın gözlərinə dikmişdi. Bu hadisənin necə qurtaracağını özü də bilmirdi. Heç danışmaq heyində də deyildi. Ən qəribəsi bu idi ki, xəyalına da heç nə gəlmirdi.

Vəfa yavaş-yavaş qocanın köynəyinin düymələrini açmağa başladı. Əvvəlcə yuxarıdakı, sonra da ikinci düyməni açmaq istədi. İkinci düyməni açanda qoca əlləri ilə Vəfanın əllərini tutub dedi:

– Yox, qızım, olmaz! Mən soyunmaq istəmirəm.

Vəfa bu sözlərə o qədər də əhəmiyyət verməyib əllərini qocanın əlindən yavaşca sürüşdürüb çıxardı və üçüncü düyməni açmağa səy göstərdi. Qoca yenə Vəfanın əllərini tutub onun üçüncü düyməni açmasına imkan vermədi. Sonra da dedi:

– Yox, qızım, olmaz, ayıbdır! Sən də məni elə bu cür çək, qurtarsın getsin.

Vəfa bir az titrək səslə dilləndi:

– Nə danışırsan, əmi! Elə şey olar? Mənim diplom işimin mövzusu çılpaq kişi şəklidir. Adı da elə belə olacaq: “Çılpaq kişi”.

Vəfa bir az geri çəkilib gülümsər gözləri ilə qocaya baxıb dedi:

– Əmi, qardaşım bilirsən səni nə qədər tərifləyir? Hər gün mənə səndən danışır. Deyir ki, o qədər sadə insandır, adam ondan nümunə götürmək istəyir. Bir də sən mənim atama oxşayırsan. Üz, qaş, göz, alın – hamısı atamda necədir, səndə də elədir. Amma o, üç il olar ki, rəhmətə gedib. Lap istəsən səni əmimlə tanış edərəm. Çox söhbətcil adamdır. Sən də hərdən bizə gələrsən, əmim də çayçıya gələr. Dostlaşarsınız. Ona da yaxşı olar, sənə də.

Vəfa bu sözləri deyə-deyə qocaya yaxınlaşdı. Ədəb-ərkanla o biri düymələri açmağa başladı. Qoca qızın atasının rəhmətə getdiyini eşidib xeyli sakitləşmişdi, heç nə demirdi. Amma gözləri Vəfada idi.

Vəfa bütün düymələri açıb qurtardı. Qocanın qollarını qaldırıb köynəyi tamam çıxardı və divanın üzərinə qoydu. Hər şeyin qaydasında olduğunu düşünən Vəfa fürsəti fövtə verməmək üçün cəld geri qayıtdı. Yavaşca əl aparıb qocanın alt köynəyini çıxarmaq istədi və dedi:

– Narahat olma, əmi! Otaq istidir. Xəstələnməyəcəksən.

Vəfa bu sözləri deyə-deyə qocanın alt köynəyin yuxarı qaldırmaq istəyirdi ki, qoca bərk-bərk onun əlindən tutdu.

– Yox, qızım, olmaz!

– Nə danışırsan, əmi! Beş-on dəqiqəyə çəkib qurtaracağam, narahat olma!

– Yox, qızım, qəti olmaz!

– Axı niyə olmur ki, əmi!

– Bilirsən, qızım, birincisi, sən mənim qızım yerindəsən, ona görə olmaz.

Vəfa fürsəti ötürməyib dedi:

– Bəli, mən sənin qızın yerində yox, elə qızınam. Qız öz atasının qulluğunda dura bilməz?

– Yox, qızım, ikincisi də mən arvadımla bir yerdə olanda da heç vaxt soyunmamışam.

Vəfa qəh-qəh çəkərək dilləndi:

– Vay səni, əmi! Sən nə qəribə adamsan? Mən bundan sonra da səndən əl çəkməyəcəyəm. Qardaşıma deyəcəyəm ki, səni hökmən bizə qonaq gətirsin.

Vəfa bu sözləri deyə-deyə yenə qocanın başını sığallayır, üzünü tumarlayır, üz-gözündən öpürdü. Hətta bəzən də qəşş edə-edə qocanın başını döşlərinin arasına sıxırdı. Qoca elə bil məst olmuşdu və bir də gördü ki, alt köynəyi də yoxdur. Bədəninin yuxarı hissəsi tam çılpaqdır.

Vəfa xeyli rahatlandı. Sonra bir az aşağı əyilib qocanın şalvarının kəmərini açmağa başladı. Bunu hiss edən qoca Vəfanın əlini o tərəfə itələyib əsəbi şəkildə dilləndi:

– Nə edirsən, qızım?! Qətiyyən ola bilməz!

Vəfa geri çəkilib qocanın stulunun yanında qoyulmuş balaca bir kətildə oturdu və ağlamağa başladı. Vəfa ağlaya-ağlaya deyirdi:

– Mən neçə ildir ki, nişanlıyam. Qayınanam da deyir ki, neynirsən bu kolleci? Çıx gəl, toyunuzu edək, qurtarsın getsin. Mən də deyirəm ki, azca qalıb, qoy diplomu müdafiə edim, gələcəyəm. İndi əgər bu iş baş tutmasa, sizi çılpaq çəkə

bilməsəm, kolleci qurtara bilməyəcəyəm. Kəsilsəm də, gələn il buraya ayaq qoymağa imkan verməyəcəklər.

Vəfa yenə hıçqırmağa başladı, elə bil barmağını kəsmişdilər. Yadına kollecdə keçirdiyi ağır günlər düşür, qardaşı ilə birgə yatmadığı gecələri xatırlayır və ağlamağa davam edirdi:

– Əmi, mən bədbəxt bir adamam. Atam da sağ deyil ki, barı mənim qayğıma qalsın. Kolleci qurtarmasam, hamı mənə tənə ilə baxacaq. Niyə bu dünyanın bütün dərdi-səri mənim üstümə tökülməliydi? Bircə anlıq hiss elə ki, mən elə sənin qızınam. Bəs ata öz qızına kömək eləməz?

Vəfa bu sözləri deyib ağlaya-ağlaya əlləri ilə üzünü örtdü. Elə bil dünya başına fırlandı. Daha nə edəcəyi barədə heç nə düşünə bilmədi. Qəfil Vəfa hiss etdi ki, qoca əlləri ilə Vəfanın əllərini üzündən ayırmaq istəyir. Vəfa buna mane olmadı. Düşündü ki, üzünü bürüyən göz yaşları, bəlkə, onu rəhmə gətirər. Elə ki, qızın üzü-gözü aydınca göründü, qoca titrək səslə dedi:

– Qızım, ağlama, mən səni başa düşürəm, gəl çək!

# OĞRU PİŞİK

Tut ağacının altına sərilmiş palazın bir tərəfində uzanmışdı. Onun şirin-şirin yatmasından xeyli keçmişdi. Ağzını quş tutmuş kimi geniş açdı və əsnəyə-əsnəyə başını sağ tərəfə çevirdi. Gözlərini ağır-ağır açıb səmaya tərəf baxdı. Heç kəsdən qorxusu-ürküsü yox idi. Naz-qəmzə ilə rahat nəfəs alırdı. Sonra yenə ağzını açdı və yenə əsnəyə-əsnəyə bu dəfə başını sol tərəfə çevirdi. Bədənini onurğası boyu gərib bir az da xoşhallandı. Bu əlamətlər onun yuxudan durmasının əlamətləri idi.

İndi artıq quyruğunu nə qədər özünə qısırdısa, yenə günəşin şüalarından can qurtara bilmirdi, quyruğunun üstünə gün düşürdü. Günorta gün əyiləndən sonra buranın istisi daha çox yandırırdı. Adamlar da həmin vaxtlar ya evlərinə çəkilərdilər, ya da ağacların kölgəsində uzanıb bir hovur yatardılar.

O, yenə bədənini o tərəf-bu tərəfə gərdi. Amma nə yerindən durdu, nə də bir tərəfə çəkildi. Hərəkətlərindən belə bəlli olurdu ki, ya tənbəlləşmişdi, ya da istinin təsiri o qədər də hiss edilmirdi. Yenə gərnəşib gözlərini yuxarı dikdi. Çox diqqətlə baxanda gözünə tut ağacının budaqlarının arasından bir sərçə balası göründü. Sərçə balası aşağı baxırdı. Demək çətindir ki, bu sərçə balası onu görürdü, ya yox? Onun sərçə balasını görməsi isə şübhəsiz idi. Amma o halda deyildi ki, durub tut ağacına dırmaşsın və oradan da budaqdan budağa tullanıb sərçə balasının dalına düşsün. Bəlkə, uşaqlıqda nə vaxtsa bunu eləmişdi. Amma indi ona tam aydın idi ki, budağın üzərində sərçə balasını tutmaq mümkün deyil. Buna baxmayaraq, gözlərini yenə də oraya zilləmişdi.

Neçə illər idi ki, bu oğru pişik dörd-beş evin ətrafında fırlanır. Əslində bu kənddə hər evin öz pişiyi var və uşaqlı-böyüklü hamı öz pişiyini daha çox sevir. Bu sevginin bir tərəfində də həmin pişiklərin siçanların qənimi olması dayanır. Bəlkə də, bu sevgidəndir ki, adamlar qış aylarında öz pişiklərini

evlərində – peçin başında yatırdırlar, uşaq kimi onlara yemək verirlər, su verirlər. Bizim evdə də həmişə pişiyin və itin yeməyi olardı, yığışılan süfrədən onlara da pay qalardı. Hətta uşaq vaxtından yadımda qalan ən maraqlı məqamlardan biri budur ki, itin yeməyini aparmaq üçün bayır qapı açılanda otuz-qırx metr uzaqda öz yuvasının qarşısında intizarla gözləyən it o dəqiqə bilərdi ki, onun yeməyi gəlir və o tərəf-bu tərəfə hərlənib həzin bir səs çıxarardı.

İt qalsın bir tərəfə, bizim evin pişiyi çox ağıllı idi. Yatışını, duruşunu, harada necə hərəkət etməyi çox yaxşı bilirdi. Ağıllı olmağının bir əlaməti də ondan ibarət idi ki, bayıra çıxmaq istəyəndə qabaq qıçlarını yuxarı qaldırıb qapını cırmaqlayardı. Eynən soyuqda üşüyüb geri qayıdanda da cırmaq səsi eşidilər və kimsə durub qapını açardı.

Xülasə, söhbət bizim pişikdən deyil, oğru pişikdən gedir. Onun oğru olduğunu hamı – bütün ailələr bilirdi. Amma qəribə burasıydı ki, heç kəs onu həyətlərindən qovub çıxartmırdı. Özü bir dəfə bir həyətdə olurdu, başqa vaxt isə başqa həyətdə görünürdü. Əslində nə vaxt, haradan oğurluq elədiyini də heç kəs görməmişdi, ya da görmüşdülərsə də, bu barədə bir kəlmə belə danışan yox idi. Amma çox adam bu oğru pişiyin bir qəhrəmanlığının şahidi olmuşdu. Belə ki, yaz aylarının birində cücələri təzəcə yumurtadan çıxan qonşunun toyuğu həyətin ortasında balaları ilə bir yerdə gəzişir və yem axtarırdı. Görənlər yaxşı bilirlər ki, anac toyuğun da təzə çıxan cücələrlə baş-başa verib həyətdə gəzişməsi bir başqa aləmdir. İstər-istəməz hiss edirsən ki, toyuq bu gəzintidən əməlli-başlı ləzzət alır. Körpə uşaqların da bu mənzərəni seyr etməsi, cücələrin üstünə getməsi, onları tutmaq istəməsi də ən gözəl xatirələrdəndir.

Sözüm ondadır ki, qonşunun toyuğu cücələri ilə birlikdə həyətdə olanda göydən qıy vurub enən bir çalağan qəfildən cücələrə hücum edir. Toyuq isə özünü itirməyib gücünü toplayır

və çalağanla əməlli-başlı vuruşur. Bütün gücü ilə o, balalarını xilas etməyə çalışır. Toyuğun və cücələrin səsini eşidən oğru pişik tez özünü oraya yetirir və toyuqla birləşib çalağanı əməlli-başlı qovurlar. Bu hadisə məhəlləyə səs salır, bir neçə gün hamı oğru pişikdən danışır və bundan sonra məhəllədə heç kəsin oğru pişiklə işi olmur.

İndi oğru pişik uzandığı palazın üstündən tut ağacının budağında oynayan sərçə balasına göz yetirir və ürəyində onu necə yeməsi haqqında fikirləşirdi. Oğru pişik sərçə balalarını az yeməmişdi. Nə vaxt girinə keçmişdisə, bir an belə fürsəti fövtə verməmişdi. Hətta onun yadına gəlir ki, lap balaca sərçələri də elə öz yuvalarında boğub yemişdi.

Oğru pişik hərdən də gözlərini budaqdakı sərçə balasından yayındırıb asta-asta yumur, özünə bir az rahatlıq verirdi. Sonra yenə gözlərini açaraq sərçə balasının yerində olub-olmamasını yoxlayırdı. Qəfildən oğru pişiyin xəyalından bir vaxtlar bizim cücəni necə oğurlayıb aparması gəlib keçdi.

Anam hər il bir neçə toyuq basdırırdı. Yəni ki, kürt yatan toyuqları ayırar, onların altına yumurtalar qoyar və cücələrin yumurtadan çıxmasını səbirsizliklə gözləyərdi. Cücələr yumurtadan çıxanda artıq yaz olardı, hava da az-maz istiləşərdi. Anam gündə bir dəfə toyuğu və balalarını həyətə çıxarar, onların hava almasına çalışardı. Belə günlərin birində oğru pişik çox da uca olmayan tövlənin üstünə çıxar, özünə bir kölgəlik yer tapar və orada cücələri həsrətlə güdərdi. Əslinə qalsa, oğru pişikdə cücələrə olan marağı qonşudakı Şərəbanı arvad yaratmışdı. Yəni günlərin bir günü Şərəbanı arvadın cücələrindən birinin qıçı sınır. Şərəbanı arvad özü söyləyir ki, cücənin qıçı, deyəsən, tövlədəki dananın ayağı altında qalıbmış. Şərəbanı arvad da, əri də nə qədər çalışırlarsa, cücənin qıçı düzəlmir ki, düzəlmir. Əri bir gün Şərəbanı arvadın üstünə qışqırır ki, bir cücə olmasa, dünya dağılacaq? At pişiklər yesin, pişiklərin də bir ruzisi olma-

lıdır, ya yox? O da nə qədər yazığı gəlsə belə əlac olmadığını görüb cücəni götürüb tövlənin arxasına keçir. Fikri də bu olur ki, oradakı kol-kosun içərisinə atsın, kimin qismətidir, qoy o da aparsın. Şərəbanı arvad tövlənin arxasına keçən kimi oğru pişiklə qarşılaşır və heç bir tərəddüd etmədən cücəni oğru pişiyin qabağına atır, sonra da geriyə dönüb həyətə gəlir. Oğru pişik xeyli müddət qıçı sınmış cücəyə baxır. Cücə də elə gözəl idi ki, adam baxanda heyran qalırdı. Elə bil oğru pişik də cücəyə heyran qalmışdı. Bir az keçəndən sonra oğru pişik qabaqdakı sağ ayağı ilə cücəni sığallamağa başlayır. Cücə də bunu hiss edib ona tərəf sığınır. Birdən oğru pişiyin ürəyindən nə keçirsə, cücənin boğazından tutub onu boğur və dişində götürərək çayın o biri tərəfinə tullanır. Hansı tərəfə apardığı məlum olmur. Oğru pişiyin cücəyə dadanmağı elə o vaxtdan başlayır. Cücə yeməyə öyrənən oğru pişik indi də tövlənin üstündə, bir az da dəqiq desəm, tövlənin qabaq divarının sol küncündə oturub həyətimizdəki cücələri seyr edirdi.

Cücələr yavaş-yavaş ətrafa yayılırdılar. Ətrafı isə salmanca kolları bürümüşdü. Cücələrdən biri özünü salmanca kolunun altına verdi. Sakitcə orada oturdu. Bir az keçəndən sonra anac toyuq balalarını səsləyib oradan uzaqlaşdı. Amma salmanca kolunun altındakı cücə nə anasının səsinə səs verdi, nə də ki oradan çıxdı. Yeri çox rahat idi. Oğru pişik tövlənin qabaq divarına söykənmiş nərdivanla yavaş-yavaş düşüb salmanca koluna tərəf getdi. Sonra nə oldusa, heç kəs bilmədi. Axşam qaranlıq düşəndə isə anamın səsi eşidildi: "Oğru pişik cücəmin birini aparıb".

Oğru pişiyin məhəllədə özünə hörmət qazanmağının bir tarixçəsi də var. Bu tarixçə zəlzələ ilə bağlıdır. Belə ki, yay günlərindən biri idi. Yəni günün ən uzun sürən vaxtlarına aid həmin axşamçağı mal-heyvan örüşdən qayıdırdı. Hərə öz iş-gücü ilə məşğul olmağa başlamışdı. Bu axşamçağının mühüm bir özəlliyi

ondan ibarət idi ki, bütün həyətlərdə mal-qaranın bağlandığı yerlərdə balaca bir od qalayar, üstünə peyin tökər və tüstüsünü ətrafa verərdilər.

Bunun da səbəbi ondan ibarət idi ki, mal-heyvanla gələn mığmığalar həyətə toplaşmasınlar. Sonra da həyətlərdə sağın başlayardı. Əslində mığmığa olanda malları da sağmaq mümkün olmurdu. Mığmığalar südverən malları sancır, onlar da ayaqlarını tərpədərək sağılmağa imkan vermir, ya da süd dolu vedrəni təpiklə vurub dağıdardı.

Məhz belə bir yay axşamı idi.  Birdən oğru pişiyin qonşu həyətdən vahiməli səsi eşidildi. Elə bil pişiyi güllə ilə vurdular. Oğru pişik o həyətdən bu həyətə qaçır, elə bil başqa pişiklərə nəsə deyir və başqa pişiklər də səs-səsə verib ora-bura qaçışırdılar. Hamı bu mənzərəyə tamaşaya durmuşdu. Ot gətirən otunu saxlamışdı, inək sağan sağınını dayandırmışdı, bostan suvaran da beli yanına sancıb pişiklərin səsinə qulaq asırdı. Uşaqlar isə hoppanıb düşürdülər. Birdən yer guruldadı, elə bir zəlzələ qopdu ki, hamı qorxuya düşdü. Adamlar haraya qaçdıqlarını özləri də bilmədilər. Amma zəlzələ çox çəkmədi. Zəlzələ dayanan kimi qızlar, qadınlar evlərə qaçdılar. Hamı narahat idi ki, stəkan-nəlbəki, qab-qacaq yerə düşüb sınıb.

Bax, oğru pişiyin bu əhvalatı da heç kəsin yadından çıxmırdı. Kimsə ona hirslənmək istəyəndə zəlzələ, ya da cücələrin çalağandan qurtarılması yada düşür və oğru pişiyə "gözün üstə qaşın var" demirdilər.

Oğru pişik tut ağacının budağı üstündə gəzişən, həm də sanki civildəyərək öz-özünə mahnı oxuyan sərçə balasını seyr edir, eyni zamanda Güləsər xalanın aşsüzənindən toyuq budunu necə apardığını xatırlayırdı.

Məhəllədə hörmət-izzət sahibi olan qonşumuz Güləsər xalanın könlünə toyuq əti düşmüşdü. Evdə də, qonşuda da günün günorta çağı bir kişi xeylağı yox idi ki, toyuqlardan birini tutub

başını kəsdirsin. Güləsər xalagildən o tərəfdə yaşayan qonşunun 7-də, yaxud 8-də oxuyan oğlu evdə idi, amma ona da toyuq başı kəsdirmək olmazdı, çünki hələ sünnət olunmayıb. Elə bu fikir də Güləsər xalanın idi ki, sünnət olunmayan uşaq toyuq başı kəsə bilməz. Nəhayət, elə bil Allahdan idi, işıq pulu yığan və qonşu kənddən olan Hidayət istinin bu vaxtında özünü Güləsər xalagilin həyətinə saldı. Birinci sözü də bu oldu ki, ay Güləsər xala, qarpızdan-zaddan bir şey varsa, gətir yeyək, ürəyim yanır. Güləsər xala da zarafatından qalmayıb dedi ki, qarpızın əvəzinə gərək işıqpulundan bir az geri oxuyasan. Hər ikisi gülüşdü və Güləsər xala evlərinin zirzəmisindən qarpız götürməyə getdi. Qarpızı gətirib sini və bıçaqla birgə Hidayətin qarşısındakı stolun üstünə qoyub dedi:

– Könlümə toyuq əti düşüb, səhərdən bir adam axtarıram ki, toyuqlardan birinin başını kəssin. Səni mənə Allah yetirib.

Hidayət də gülə-gülə ona cavab verdi:

– Həə, yaxşı oldu. Qarpızla bunu əvəz-əvəz eyləyərik.

Hər ikisi yenə gülüşdü.

Gün əyilməyə başlayırdı. Hidayət çıxıb getmişdi. Güləsər xala da toyuğu pöşəliyib stolun üstündəki ət daşının üzərində qol-bud eləyir və aşsüzənə yığırdı. Demək olar ki, qurtarmaq üzrə idi. Bu zaman oğru pişik Güləsər arvaddan beş-altı addım o tərəfdəki badımcan kollarının arasında uzanıb Güləsər arvada tərəf baxırdı. İndi onun nə fikirləşdiyini demək çox çətin idi. Elə bu zaman çəpərin yanında görünməz olan Güləsər arvadın pişiyi ilə bizim pişiyimiz bir-biri ilə dalaşa-dalaşa hay-həşir salmağa başladı və hər ikisi hay-həşir sala-sala Güləsər arvada tərəf gəlirdi. Güləsər arvad bunu görüb yerdən bir çubuq götürdü və onları çaya tərəf qovmağa başladı. Özü də ucadan qışqırırdı ki, deyəsən, zəlzələ olacaq. Pişiklər xeyli uzaqlaşandan sonra çubuq əlində geri qayıtdı və yır-yığış eləyib toyuğu bişirməyə getdi. Yalnız səhərisi gün Güləsər xalanın səsi məhəlləyə yayıldı:

"Kor qalsın bu oğru pişiyi! Dünən toyuğun budunun birini göz görə-görə vurub qaçırdıb. Axşam qazandan boşqablara yemək çəkirəm, mənim də əkiz nəvələrim bud xoşlayırlar. Budun birini tapdım, qazanın içini nə qədər o tərəf-bu tərəfə çevirdim, o biri bud tapılmadı ki, tapılmadı. Kor qalsın bu oğru pişiyi!"

Oğru pişik gözünü budaqdakı sərçə balasından çəkmirdi. Amma vəziyyət də bir az dəyişirdi. Oğru pişik sərçə balasını elə bil ovsunlamışdı. Sərçə balası budağın eyni yerində durmuşdu. Haraya tərpənsə də, yenə oraya qayıdırdı. Amma, deyəsən, oğru pişiyi sərçədən çox başqa şey narahat edirdi. Bəlkə də, bu narahatlığa görə belinin yarısına, arxa ayaqlarına gün düşsə də, tərpənmirdi. Bu narahatlıq ondan ibarət idi ki, qəssab Əli onun ət oğurlamasını görmüşdü.

Bizim sol qonşumuz olan Nazəni arvad oğluna demişdi ki, mən qovurma istəyirəm. Oğlu da başlamışdı ki, ay ana, bu, nə vaxtın qovurmasıdır? İndi yaydır, heç xörəyi bir gün saxlamaq olmur, bəs qovurmanı necə saxlayacağıq? Bir-iki gündən sonra gömgöy olacaq, sonra da götürüb atacaqsan. Amma bu sözlər Nazəni arvada heç bir əsər eləməmişdi. O, yenə iki ayağını bir başmağa dirəmişdi ki, bir toğlu kəs, qovuracağam. Oğlu da görür ki, anası dediyindən daha dönməyəcək. Üç gün bundan sonra qəssab Əli də bir haya bənddir, kəndir-bıçağını götürüb Nazəni arvadgilə gəlir. Tövləni açıb oradakı on üç-on beş kiloqramlıq toğlunu çıxarıb tut ağacının yanındakı çəmənliyə gətirir. Bura həm də kölgəlik idi. Əslində toğlunu kəsəndən sonra tutun aşağıya sallanan budağından asıb soyacaqdı.

Nazəni arvad qəssab Əlini və toğlunu görüb əlində bir-iki ləyən oraya yaxınlaşır. Qəssab Əli də dilini dinc qoymayıb soruşur ki, ay Nazəni xala, bu, nə vaxtın qovurmasıdı? Nazəni arvad da cavab verir ki, sənin dərdinə qalmayıb, heyvanı soy, doğra, bir-iki kilo da götür get. Qəssab Əli də geriyə durmayıb söyləyir ki, bəs elə bundan ötrü gəlmişəm də!

Qəssab Əli toğlunu kəsdi, bir ayağından tutdan asıb soydu və sonra tutun altında sərilmiş böyük bir süfrə üzərində doğramağa başladı. Qəssab Əli öz işini davam etdirir, evin pişiyi ilə oğru pişik də süfrənin iki-üç addımlığında yerə uzanıb matdım-matdım qəssab Əlinin əlinə baxırdı. Bunu görən qəssab Əli toğlunun ikinci hissəsini doğraya-doğraya ətin cındır yerlərindən iki tikə kəsib onlara atdı. Evin pişiyi cəld çevrilib ət tikələrinin dalısınca getdi. Oğru pişiksə getmədi, əksinə bir-iki qarış da irəliyə doğru gəldi. Nazəni arvadın da arxadan səsi eşidildi: “Bu pişikləri qudurtma!” Qəssab Əli cavab vermədi.

Bir az da keçdi. Qəssab Əli toğlunun axırıncı hissəsini doğramağa başladı. Evin pişiyi də gəlib yenə oğru pişiklə yanaşı uzanmışdı. Qəssab Əli yenə ətin cındır yerindən kəsib bir az uzağa tulladı. Evin pişiyi yenə cəld durub ətin dalısınca getdi. Qəssab Əli isə süfrədən sağ tərəfə dönüb əlini və bıçağı su ilə dolu vedrənin içində yumağa başladı. Bu vaxt oğru pişik lap yerdə sürünə-sürünə süfrəyə yaxınlaşdı, qara tikələrdən birini yavaşca götürüb yerə sinə-sinə üzümlüyün içərisinə tərəf yollandı. Oğru pişik əmin idi ki, qəssab Əli onu gördü, amma dillənmədi. Qəssab Əli də niyə dillənmədi? Birincisi, fikirləşdi ki, iki dəfə pişiklərə ət atdı, ikisində də ətin dalısınca evin pişiyi getdi. Yəni oğru pişik heç yerindən də tərpənmədi. İkincisi, qəssab Əlinin bir şakəri vardı ki, ət kəsəndə gərək itin, pişiyin payını verəsən. Bu ənənə qəssab Əliyə atasından, atasına da babasından yadigar qalmışdı.

Pişiyin düz yarısına qədər gün düşürdü, amma pişik tərpənmirdi. Vəziyyət də lap dəyişmişdi. Belə ki, kürəyi üstə uzanan pişik ağzını geniş açır, əsnəyir, sərçə balası da lap aşağıya yenib onun başına, burnunun ucuna qonur və o tərəf-bu tərəfə tullanırdı. Oğru pişiyə nə isti təsir eləyirdi, nə də o, sərçə balasını yemək istəyirdi. Oğru pişiyi dərd götürmüşdü, qəssab Əli onun oğurluğunu görmüşdü.

# RİYAZİYYAT MÜƏLLİMİ

Novruz bayramı bizim məktəbə hay-küylə gələrdi. Şəkərbura, qoğal, rəngbərəng kağızlara bükülmüş konfet əlindən tərpənmək olmazdı. Hərənin cibindən bir nemət çıxırdı, uşaqların çantalarının böyür-başı qozla, fındıqla dolu olardı. İçinə lobya qoyulub təndirdə bişirilən kətələrdən doymaq olmazdı. Uşaqlı-böyüklü hamı bir-birini təbrik edər, adamların üzündən gülüş əskik olmazdı. Şagirdləri sevindirən bir də o idi ki, Novruz bayramı ilə on günlük tətil başlayardı.

Məktəbimizin riyaziyyat müəllimi – İsmayıl müəllim üçün isə Novruz bayramının tamam başqa bir özəlliyi vardı. O, tətilə çıxan kimi saçını dibdən qırxdırardı. Özü qalsın bir tərəfə, bunu yuxarı sinifdə oxuyanlardan da tələb edərdi. Doqquzuncu, onuncu sinif şagirdləri üçün bu tələb nə qədər xoşagəlməz olsa da, oğlanların əksəriyyəti riyaziyyat müəlliminin həmin tapşırığına əməl edərdi. Amma narazı qalanlar da var idi. Hətta bir dəfə Niyazın 70-75 yaşlı nənəsi ayağını yerə basa-basa məktəbə gəlib müəllimlər otağında hay-həşir salmışdı. Onda məktəb direktoru İsmayıl müəllimi dərsdən çıxartdırıb demişdi ki, indi get, cavabını ver. İsmayıl müəllim də dinməz-söyləməz müəllimlər otağına gəlmiş, içəri daxil olan kimi Niyazın nənəsini əzizləyə-əzizləyə, öpə-öpə demişdi:

– Ay Dilbər xala, sənin üzünü görək, sən xoş gəlmisən, beş gəlmisən, bayramın mübarək! Səni görüm yüz yaşayasan!

Dilbər xala da İsmayıl müəllimin boynunu qucaqlayıb, o üzündən, bu üzündən öpmüş, bir az da ağlamsına-ağlamsına demişdi:

– Ay İsmayıl, başına dönüm, mən səni nə vaxtdır görmürəm, barı bir bizim tərəflərə də gəl, bu qoca qarıdan hal-əhval tut, axı ölüm-itim dünyasıdır!

Onlar yenə bir-birlərini tumarlayıb, bir-birlərinə xoş sözlər deyir, dedikləri sözlərin çoxusu bəzən eşidilmirdi. Bu istiliyin bir səbəbi vardı ki, onu müəllimlərin hamısı yaxşı bilirdi. Vaxtilə İsmayıl müəllim özü ilə bir sinifdə oxuyan Dilbər xalanın qızını istəmişdi və bu qızı da Dilbər xala ona yox, qohumlarından birinə ərə vermişdi. Bax, bu Niyaz da Dilbər xalanın həmin qızından olan nəvəsi idi.

Hal-əhval qurtardıqdan sonra İsmayıl müəllim Dilbər xala ilə üz-üzə oturdu. Handan-hana Dilbər xala dilləndi:

– Ay İsmayıl, sənin dərs verib adam elədiyin o riyaziyyat müəllimi kimdi ki, bu, uşaqların başına olmazın oyununu açır. Balam, onu qandırın ki, gedib öz işləri ilə məşğul olsun. Yoxsa, riyaziyyat hara, baş qırxmaq hara?

– Nə olub ki, a Dilbər xala! – bu sözləri İsmayıl müəllim dedi.

Dilbər xala ərk eləyirmiş kimi səsini qaldırdı:

– Məktəbdə ola-ola eşitməmisən? Sənin adam eləyib adamlar içinə çıxardığın o cavan riyaziyyat müəllimi uşaqlara deyir ki, gedin saçınızı ülgüclə qırxdırın! A balam, bu uşaqlar cavandırlar, beyinləri qandır, hərəsinin bir istəyi, bir arzusu var. Gördün biri qanmayıb üzə qayıtdı, səni bihörmət elədi. Sonra gəl bunun altından çıx görək, necə çıxırsan?

– Bihörmət eləməzlər, bizim məktəbin uşaqları ağıllı uşaqlardır, ata-ana, müəllim sözünə baxandırlar, – bunları İsmayıl müəllim dedi və sonra əlavə etdi:

– Yaz gəlir, havalar istiləşir. Saç qırxdırmaq da bir təmizlikdir.

Dilbər xala gör-götür dünyasının adamı idi və İsmayıl müəllimin qırımını hiss edib bir azca yumuşaldı:

– Olar, eey, ay İsmayıl, olar! Axı ucdantutma hamının saçını qırxdırmaq da düz deyil.

İsmayıl müəllim Dilbər xalanın sakitləşdiyini hiss edib yavaşca dedi:

– Yaxşı, Dilbər xala, sən deyən olsun, bundan sonra tapşıraram ki, kim saçını könüllü olaraq qırxdırmaq istəyirsə, o qırxdırsın.

– Yox, ay bala, sən niyə öz üzərinə götürürsən, o cavan müəllim kimdirsə, ona tapşır.

– Ay Dilbər xala, o cavan elə mən özüməm!

– Başına dönüm, İsmayıl, mən heç bilməmişəm ki, sən deyibsən, bilsəydim, heç buraya ayaq basmazdım. O şümür oğlu, şümürü görürsən, adamı heç düz əməlli başa da sala bilmir!

Dilbər xala bu axırıncı sözləri Niyaz haqqında deyirdi. Bundan sonra Dilbər xala heç bir söz demədən ağır-ağır yerindən qalxdı, İsmayıl müəllim də onu məktəbin həyətindən evlərinə yola saldı. Ayrılanda Dilbər xala İsmayıl müəllimə bir də dedi ki, hərdən bizim tərəflərə də baş çək, bu qarını unutma!

İsmayıl müəllim sinfə qayıtdı. Sinifdə oxuyan Ayaz, Həmid və Elxanı İsmayıl müəllim gözünün işığı hesab edirdi, hətta onların gələcəkdə yaxşı riyaziyyat müəllimi olacağını deyirdi. Bəzən elə olurdu ki, onlardan yuxarıdakı sinifdə oxuyan şagirdlər bir məsələni, misalı həll eləyə bilməyəndə İsmayıl müəllim bu uşaqlardan birini həmin sinfə çağırtdırardı. Gələn uşaq da məsələni, yaxud misalı gözüyumulu həll edəndən sonra İsmayıl müəllimin səsi bütün sinfi bürüyərdi. Sinifdəki uşaqları o ki, var danlayıb deyərdi ki, atanızın verdiyi çörək haramınız olsun, burnunuzdan gəlsin. Uşaqların da heç birinin cınqırı çıxmazdı.

Ayaz, Həmid və Elxanın riyaziyyatı yaxşı öyrənmələrinə söz ola bilməzdi. Gecəni gündüzə qatıb oxuyardılar. Müəllim evə 4-5 misal verəndə onlar kitabdakı 30-35 misalın hamısını həll edərdilər.

Günlərin bir günü aydın oldu ki, ev tapşırığına aid məsələlərdən biri çox çətin olub. Dərsdən əvvəl hamı bir-birindən so-

ruşdu ki, həmin məsələnin cavabını tapan var, ya yox? Sualın müqabilində heç kəsdən səs çıxmadı. Riyaziyyat dərsi başlayanda İsmayıl müəllim asta addımlarla sinfə daxil olub salam verdi. Jurnalı stolun üstünə qoyub kimin gəlib-gəlmədiyini yoxlamadan üzünü uşaqlara tutub birbaşa soruşdu:

– Bütün məsələləri həll etmisinizmi?

Bu sualdan adama elə gəlirdi ki, müəllim evə tapşırılmış bir məsələnin çətinliyini bilir və onu kiminsə həll edəcəyinə inanmır. Hər halda uşaqlar belə bir sualı ilk dəfə eşidirdilər. Yerdən onlar xorla cavab verdilər:

– Yox, müəllim!

Bu "yox" sözünü zəif oxuyan, xüsusən də riyaziyyatdan zorla "üç" alan uşaqlar daha ürəklə dedilər.

İsmayıl müəllim əvvəlcə Ayaza üz tutdu:

– Niyə eləyə bilməmisən?

Ayaz da ayağa qalxıb tez cavab verdi:

– Müəllim, o cür məsələ ilə birinci dəfədir rastlaşıram.

– Yaxşı, aydındır, əyləş!

Müəllim sonra üzünü Ayazla yanaşı oturan Elxana tutdu:

– Bəs sən niyə etməmisən?

Elxan da ayağa qalxıb cavab verdi:

– Çətindi, müəllim, çox çətindi!

– Baş sındırdın, yoxsa elə-belə deyirsən?

–Yox, müəllim, nə qədər çalışdım, cavabı tapa bilmədim. Bax, bu da qaralama dəftərim.

Elxan stolun üstündəki dəftərlərdən birini qaldırıb müəllimə göstərdi. Müəllim ona əhəmiyyət vermədi. Sonra qapıya tərəf gəlib qabaq partada oturan Həmidlə üz-üzə dayandı:

– Bəs sən?

Həmid ayağa qalxıb şəstlə dedi:

– Müəllim, mən eləmişəm!

Bütün sinfi təəccüb götürdü. Müəllimin qaşları çatıldı və asta səslə soruşdu:

– Sən həll etmisən?

– Bəli!

– Yazı taxtasında həll edə bilərsənmi?

– Bəli!

Müəllim şəhadət barmağı ilə yazı taxtasını göstərdi. Yəni demək istəyirdi ki, buyur, elə, baxaq. Həmid də riyaziyyat kitabını götürüb özünü çəkə-çəkə yazı taxtasının qarşısına çıxdı. Əvvəlcə məsələni oxudu, sonra isə tabaşirlə yazı taxtasında həll etməyə başladı. O, məsələni danışa-danışa həll edirdi. Başqa uşaqlar da bu vərdişə yiyələnmişdilər. Əslində bütün şagirdlər bunu İsmayıl müəllimdən öyrənmişdilər. İsmayıl müəllim isə uşaqların danışa-danışa misal, məsələ həll etməyinə qətiyyən etiraz etmirdi, çünki özünün xoşu gəlirdi.

Həmid məsələni həll edib qurtarandan sonra İsmayıl müəllimin səsi eşidildi:

– Afərin, keç, əyləş!

Sonra da uşaqlara üzünü tutub əlavə etdi:

– Dəftərlərinizi açıb hamınız köçürün!

İsmayıl müəllim keçib öz yerində oturdu. Jurnalda nəsə yazmağa başladı. Onun xəyalına Xanlar gəldi. Xanlar İsmayıl müəllimin şagird yoldaşı olmuşdu, İsmayıl müəllim başqa kənddə yaşasa da, onlar elə bu məktəbdə bir sinifdə oxumuşdular. Xanlar da riyaziyyatı çox gözəl bilirdi və ali təhsil alıb riyaziyyat müəllimi olmuşdu. Amma kəndə qayıtmayıb, Əli Bayramlıya getmişdi. Əslində Xanlar İsmayıl müəllimin yadına ona görə düşmüşdü ki, o, Həmidin dayısı idi.

Uşaqlar səssiz-səmirsiz yazı taxtasında yazılanları köçürürdülər. Arxada oturan bəzi uşaqlar yazı taxtasındakıları aydın görə bilmədiklərinə görə ayağa qalxır, diqqətlə baxır, sonra yazmağa davam edirdilər. Başa düşülməyəni yanındakı şagird

yoldaşından soruşanlar da olurdu. Elə bu vaxt bir yumurta partaların arası ilə dığırlana-dığırlana gəlib düz yazı taxtasının altında dayandı. Qıpqırmızı yumurta idi. Hamının diqqəti yazı taxtasından ayrılıb yumurtaya dikilmişdi. İsmayıl müəllim də başını yavaşca sol tərəfə döndərib yumurtaya baxmağa başladı. Yumurta İsmayıl müəllimin gözünə bir təhər gəlirdi. Elə bil heç indiyə qədər boyanmış yumurta görməmişdi.

İsmayıl müəllim gözündən eynəyini yavaşca çıxarıb yenə diqqətlə baxmağa başladı. Bu dəfə adama elə gəlirdi ki, İsmayıl müəllim onun yumurta olduğuna inanmırdı. İnanmamağının başlıca səbəbi bu idi ki, İsmayıl müəllimin dərsində belə hadisələr ola bilməzdi. Adətən, bu cür əhvalatlar Habil müəllimin dərsində baş verirdi. O Habil müəllimin ki, dərs keçməklə arası olmazdı və həmişə İsmayıl müəllimə deyərdi ki, bu uşaqlara riyaziyyatı az öyrət, axırda hamısı gəlib riyaziyyat müəllimi olacaq və dərslərini əlindən alacaqlar. Sonra da gülə-gülə əlavə edərdi ki, suyu süzülə-süzülə də çıxıb kəndinizə gedəcəksən.

İndi bunlar dursun bir tərəfə, hamı vəziyyətin kəskinləşdiyini əməlli-başlı hiss edirdi. Bəzilərinin düşüncəsi belə idi ki, hətta məktəb direktoru da sinfə gələ bilər. Məktəb direktoru da sinfə gəlsə, deməli, valideynlər də çağrılacaq. Bəziləri də İsmayıl müəllimin qəzəbini gözləri qarşısına gətirirdilər. İndi bir azdan İsmayıl müəllim ayağa qalxacaq, yumurtanı kimin dığırlatdığını soruşacaq, cavab almasa, uşaqlara itin sözünü deyəcəkdi. Hamı bilirdi ki, əlinə bir çubuq götürüb onları döymək itin sözündən min dəfə yaxşı idi.

Elə belə də oldu. İsmayıl müəllim yavaşca ayağa qalxıb düz yumurtanın yanına gəldi. Ayağının ucu ilə yumurtaya toxunub, onun doğrudan yumurta olmasına inanmaq istəyirdi. İnandı, həqiqətən, yumurta idi.

Sonra üzünü uşaqlara tərəf çevirdi və uşaqların qarşısında gəzməyə başladı. İsmayıl müəllim özü də bilmədən şagirdlərin

yazı taxtasında yazılarını köçürmələrinə mane olurdu. Bir az da vaxt keçəndən sonra yenə yumurtanın yanında gəlib dayandı və çox təmkinli səslə dedi:

– Yumurtanı kim atıbsa, gəlib götürsün.

“Ay-hay! Onu atan gəlib götürərdimi? Əgər götürəcəkdisə, niyə atırdı?” Bunları müəllim ürəyində fikirləşirdi, amma eyni zamanda düşünürdü ki, Novruz bayramı ərəfəsində Dilbər xalanın xatasından qurtardığı kimi, bu xatadan da birtəhər qurtarsa yaxşı olar. Ona görə də məsələni asanlıqla həll etmək istəyirdi. Amma xəyalına o da gəlirdi ki, bu məsələ Həmidin elədiyi məsələdən çox çətin olacaq. Hər halda bir də sınaqdan keçirmək istədi. Bu dəfə yumurtanı yerdən götürüb uşaqlara müraciət elədi:

– Yumurtanı kim atıbsa, etiraf eləsin, bununla da bu işi bitmiş hesab edək!

Lap arxada oturan Nəbi azca qımıldanaraq ürəyində düşünürdü: “Sən dedin, biz də inandıq. Bunun sonrası məktəb direktorunun yanına getməkdir. Hələ valideynin də məktəbə çağırılması olacaq”.

Nəbi düz fikirləşirdi. Cınqırını çıxaran olmadı. Hadisələrin haraya gedəcəyini heç kəs bilmirdi. Qəfildən Elxan ayağa qalxıb ucadan dedi:

– Müəllim, yumurtanı Samirə atıb!

Hamı sus-pus oldu. Müəllim inandı, çünki bir dəfə dərsdə Samirənin Həmidə bükülü bir kağız göndərdiyini öz gözləri ilə görmüşdü. Heç bir söz deməyib yerində oturdu.

Zəng vurulanda İsmayıl müəllim bir əlində jurnal, bir əlində isə yumurta sinifdən çıxdı. O, dərs deyib evdə hazırlaşdırdığı və indi də məktəbdə riyaziyyat müəllimi işləyən Şəmsəddin müəllimlə rastlaşdı. Mehriban bir səslə ondan soruşdu:

– Dərslərin yaxşı gedirmi?

O da cavab verdi:

– Yaxşıdır, qaydasına düşür. Sağ olun, İsmayıl müəllim, siz olmasaydınız, biz hardan müəllim ola bilərdik. Tükəz də siz-dən çox razıdır.

– Bəs o biri uşaqlardan nə xəbər?

– Ariflə Zöhrə bu il qurtarırlar, həm də nişanlanıblar. Məktəbə işə düzələn kimi toy edəcəklər, yəqin sizi də çağıracaq-lar.

Payızda Ariflə Zöhrənin toyu oldu. İsmayıl müəllimi toyda görmədim. Bilmədim ki, onu toya çağırıblar, ya çağırmayıblar. Amma riyaziyyatdan bütün müəllimlərə dərs saatı çatmadığına görə İsmayıl müəllim məktəbdən çıxıb öz kəndlərinə getmişdi.

# MARKESİN ÖLÜMÜ

– Oğul, bala, and olsun Allaha, bu dünyanın elə işləri var ki, o işdən Allahdan başqa heç kəsin başı çıxmaz. İstədim deyəm ki, heç Allahın da başı çıxmaz, amma qorxdum, Allahın özündən qorxdum. Heç uşaqlığın yadına düşürmü? Bilirsən, nəyi deyirəm? Sənin iki-üç yaşında bir kiçik qardaşın vardı. Uşağa da sənin babanın adını qoymuşduq: Baftalı Salah. Yox, elə beləcə Salah! Bir gün uşaq bərk xəstələndi və ananla bir yerdə onu rayon mərkəzindəki xəstəxanaya apardıq. Onsuz da kənd yerində həkim tapmaq çətindir. Olanlar da köçüb rayon mərkəzində yaşayırlar: həm xəstəxanaya yaxın, həm də üst-başları tər-təmiz. Sabir həkimi tanıyırsanmı? Dayın Qəşəmin uşaqlarını sünnət eləyən həkimi deyirəm. Çətin tanıyarsan, tanısan da beynində yəqin o qalıb ki, Sabir həkim sünnət həkimidi. Yox, bala! Gözünü aç, yan-yörənə diqqətlə bax! Oturub-durduğun, salam verdiyin adamları yaxşı-yaxşı tanı. Tanı ki, sabah sənə xeyirləri olmasa da, ziyanları da dəyməsin. Hə, Sabir həkimi deyirdim, Sabir həkim sünnət həkimi deyil, cərrahdı, cərrah! Hələ arvadı da həkimdi, oğlu da həkimdi, qızı da həkimdi. Hərdən dostlarınla Mustafa kirvənin uşaqlarının düz rayonun mərkəzində yerləşən pasyolkadakı çayçısına gedəndə bir dön sol tərəfə də bax. Soldakı yaraşıqlı bina Sabir həkimin şəxsi xəstəxanasıdır. Leyla Şıxlinskayanın Bakıdakı xəstəxanası kimi o da rayon mərkəzində özəl bir xəstəxana açıb. İndi ürəyində fikirləşirsən ki, atam bunları niyə mənə deyir? Əslində elə mən özüm də fikirləşirəm ki, bunları sənə niyə deyirəm?

O, bir az fasilə verdi və sonra mətləb üstünə qayıtdı:

– Kənddə həkim yox idi, ona görə də kiçik qardaşını rayon mərkəzindəki xəstəxanaya aparmışdıq. Bilirsənmi o uşaq dünyaya niyə gəlmişdi? Bilmirsən, indi deyim, heç olmazsa, bundan sonra bil. Sənin dörd bacın var. Matdım-matdım mənim üzümə baxıb fikirləşirsən ki, bu kişinin, yəni atamın, deyəsən, ağlı

çaşıb, başı xarab olub. Mən dörd bacımın olduğunu niyə bilmirəm, ya saymağı bacarmıram? Bəlkə, məktəb-zad görməmişəm. Elə bilirsən, birinci sinifdə oxuyanda saymaq üstündə Şahhüseyn müəllimin başımızda qoz sındırdığı yadımdan çıxıb? Hələ o da yadımdadır ki, Matı xalanın evində dərs keçəndə Şahhüseyn müəllim saymaq üstündə çəliklə vurub uşaqlardan birinin başını da yarmışdı, uşağın başının qanını saxlamaq olmurdu. Oğul, bala, sus-pus dayanmağından başa düşürəm ki, bacılarının sayının dörd olduğunu bilirsən.

Mən özüm tək oğlan olmuşam, baban da tək olub, indi sən də tək oğlansan. Təkliyin də öz aləmi var. Məsələn, Tutu nənə səni görəndə həmişə başını sığallayıb deyərdi ki, Allah da təkdir. Elə əslinə qalsa, bu sözləri uşaq vaxtı mənə də deyiblər. Baban rəhmətlik söyləyərdi ki, o da Novruz bayramında qapı-qapı gəzib bayramçalıq yığanda ağbirçək arvadlardan onun arxasınca söylədikləri "Allah da təkdir" sözlərini eşidərdi. Rəhmətlik babanı, səni deyə bilmərəm, amma məndə belə bir fikir var ki, iki qardaş olmağın bəzi problemləri də olur. Nəcəfalının uşaqlarını tanıyırsan da, ikisi də saf və təmiz uşaqlardır. Amma neçə ildir ki, bir-birlərini qırırlar. Nəyin üstə? Torpaq üstə, su üstə, yol üstə. Bilirsənmi onun səbəbi nədir? Səbəb odur ki, hərəsi gedib bir tərəfdən qız alıb gətirib. Ay balam, bizim kənddə qız tapılmırdı?! Yəni bizim kənddə qız belə qəhət olub?

Əvvəl başlayım Nəcəfalının o sarıbaş oğlundan. Şirzadı deyirəm də! Eşitməmisən, Nəcəfalının arvadı qonşunun arvadı ilə dalaşanda qonşunun arvadı Elmira bacı bilirsən nə deyib? Deyib ki, get o sarı murquzunun dərdini çək. Nəcəfalının arvadı da əllərini belinə qoyub hirsli-hirsli soruşub ki, nə olub mənim oğluma? Yarı-yaraşığı, boyu-buxunu, geyim-keçimi – hər şeyi yerindədir, ay külbaş. Elmira bacı da cavab verib ki, elə külbaş sənin özünsən. Sarı murquzun çayın o tərəfindən gətirdiyi arvadı sənin başına kül ələyir, onun da başında qoz sındırır. Mən demi-

rəm, o biri gəlinin hay salıb ki, Şirzad şalvarlarını da özü ütüləyir, hələ corablarını da özü yuyur. Daha bundan artıq nə olacaq ki?! Bir azdan Şirzadın arvadı öz corablarını da ona yudurdacaq.

Onun sözlərinin qabağında Nəcəfalının arvadının matı-qutu quruyub, gözləri bərələ qalıb və yavaşca geri dönərək evlərinə gəlib. Orada da duruş gətirə bilməyərək çəpərin balaca qapısından Şirzadın həyətinə keçib. Şirzadın çayın o tərəfindən alıb gətirdiyi arvadı da pilləkənin yanında durubmuş. Belə məlum olub ki, Şirzadın arvadı Elmira bacının sözlərini eşidib. Nəcəfalının arvadı yavaş-yavaş, dinməz-söyləməz gəlinə yaxınlaşıb. Gəlin də dinməz-söyləməz dayanıb və ona baxıb, həm də bu işin axırının yaxşı olmayacağını xəyalından keçirib. Nəcəfalının arvadı ilk dəfə sezib ki, gəlində bir peşmançılıq hissi var. Amma sezdiyi bu peşmançılıq hissi Nəcəfalının arvadının hirsini soyutmayıb. O lap gəlinə yaxınlaşıb, gəlinin saçlarını əlinə dolayıb, yerdə sürüyə-sürüyə deyib ki, ay ləçər, sənin ananı ağlar qoyacağam.

Bax, görürsən, o sözlər var ki, Elmira bacı deyirdi, onlar Şirzadın qardaşı arvadının dilindən çıxmasaydı, həmin hadisələr də baş verməzdi. İndi yadında saxla ki, ailədə tək oğlan uşağı olmağın da öz faydası var. Həmçinin bizim tərəflərdə hamı oğlan uşağının həsrətini çəkir. Bir evdə oğlan doğulmayanda gecə-gündüz Allaha dua eyləyir ki, Allah onlara bir oğlan uşağı bəxş etsin. Bəzən də sonuncu qızlarına Bəsti, Kifayət, Yetər kimi adlar qoyurlar ki, daha qızları olmasın. Düzünü desəm, bizim tərəflərdə ancaq Bəsti adına rast gəlmək olar. Hətta Bəsti adlı bir qızın atasına bir dəfə deyiblər ki, bəs sənin üç oğlun, iki qızın var, niyə o qıza Bəsti adını vermisən, o da tövrünü pozmadan cavab verib ki, mən uşağın adını Bəsti Bağırovaya görə qoymuşam. Oğul, bala, Bəsti Bağırova sovet dövründə əmək qəhrəmanı idi, bir gündə əl ilə 160 kiloqram pambıq yığırdı. İndi onu da tanıdınmı?

O, axırıncı sualı yüksək tonla deyərək şəstlə oğlunun üzünə baxdı və davam etdi:

– Yaxşı, indi deyəcəksən ki, Salahın dünyaya gəlməsinin bu məsələyə nə dəxli var, ona görə ki, biz dörd bacı və bir qardaş olmuşuq, yəni dörd bacı və mən. Bəli, dəxli yoxdur, amma bəzən olurdu ki, bir oğlu olan ikincisini də istəyirdi. Məsələn, yadıma gəlir ki, kəndimizdəki Hacılar məhəlləsindən bir uşaq Kamçatkaya hərbi xidmətə getmişdi. O da dörd bacının bir qardaşıydı. Bir gün xəbər çatdı ki, uşaq Kamçatkada ölüb, gəlin aparın. Heç kəs getmədi, çünki imkanları yox idi. On beş gündən sonra uşağın ölüsü gəlib çıxdı. Gəlib çıxana qədər də onların evində hər gün yas məclisi quruldu. Həmin vaxtlar SSRİ ilə Kitay arasında yüngülvarı dava olmuşdu və ölənlər də var idi. Bunu bilən ölmüş əsgərin atası elə il boyu deyinirdi ki, yalan danışırlar, mənim oğlumu Kitay davasında öldürüblər. Niyə deyinirdi, nə üçün deyinirdi, vallah, axıra qədər heç kəs bilmədi. Amma anası ağlayıb-sızlayırdı ki, kaş bir oğul da doğaydım. Bundan sonra kənddə bütün arvadlar iki-üç oğlan uşağı doğmağa başladılar və uşaqların da sayı səkkiz-doqquza çatdı, çünki uşağın oğlan-qız olmağı o vaxtlar bilinmirdi. Hətta qonşumuzdakı arvad on uşağı ötdü və qəhrəman ana oldu. Bax, görürsən, ikinci oğul doğmağın da belə sirləri var. Amma sənin qardaşın Salahın dünyaya gəlməsinin bu məsələlərlə heç bir əlaqəsi yoxdur. Bir sözlə, o uşağın dünyaya gəlməsinin səbəbini bilmirsən. İndi danışım, sən də qulaq as.

Əvvəl-əvvəl başı boş əminin ogünkü söhbətini tamam yadından çıxart. Əminin şirin-şirin danışdığı Tormoz Hüseynin uşaq istəməsi əhvalatını deyirəm. Yadından çıxıb, yoxsa özünü avamlığa qoyursan? Bəs o gün əmin demədi ki, Tormoz Hüseyn bir gecə bayırda kətildə yatdığı yerdə hansı yuxunu görüb-görmədiyini bilmirəm, amma o başdan şalvarını çəkib əyninə düz briqadir Həsəngilə yollanıb. Həsən də xeyli təəccüblənib ki,

səhər o başdan – qancıq tayadan düşməmiş Tormoz Hüseynin onların həyətində nə işi var? Tormoz Hüseyn də onu ədəb-ərkanla çəkib tövlənin dalına və deyib ki, mənə də artıq üzüm yaz, aldığımı da səninlə yarı böləcəyəm. Həsən də cavabında deyib ki, a kişi, çox gecikibsən. Əgər doğrudan istəyirsənsə, gərək arvadını dekretə çıxardasan. Arvadın da dekretə çıxması üçün uşaq olmalıdır. O da qayıdıb evə, düşüb arvadın üstünə və deyib ki, hökmən uşaq doğmalısan. Tormoz Hüseynin arvadı uşaq doğdu da, Tormoz Hüseyn arvadını dekretə çıxarıb pul aldı da, onu briqadir Həsənlə böldü də. Həmin uşaq indi Moskvadadır, yaxşı pul qazanır. Bunları təkrar edib demək istəyirəm ki, sənin kiçik qardaşın Salah dekretə görə də doğulmayıb.

Yenə fasilə yarandı, yenə o, oğlunun üzünə diqqətlə baxıb davam elədi:

– Oğul, bala, bizim nəslin ən böyük dərdi-məlalı dayın Qəşəmin uşaqlarının olmaması idi. Elə bilirsən, indiki dövrdür, uşağı olmayanın çarəsi bir içim su kimidir. Xəstəxanaya gedirsən, ərizəni yazırsan, razılığını verirsən, o nədir eey, köçürürlər qadına, qurtardı getdi. Bu, o qədər də vaxt aparmır, qadın olur hamilə. Vəssalam. Lap istəyirsən, əkiz uşağın olsun, bu da həkimlərin əlindədir. Bəs o vaxtlar? O vaxtlar qızı ki ərə verdilər, üstündən heç bir ay keçməmiş, anasından, qayınanasından yavaşca soruşardılar ki, nə var, nə yox? Elə ki başlar bulandı, pıçhapıçların əl-ayağını yığışdırmaq mümkün olmazdı. Sən onda qızın anası ilə qayınanasının halına baxaydın, az qalırdılar kənddən baş götürüb qaçsınlar. Bəs indi? İndi elə şeylər eşidirsən ki, adamın əli üzündə qalır. Vallah, utanmasan oynamağa nə var? İki-üç gün bundan əvvəl bir televiziya aparıcısı başqa bir televiziya kanalının verilişində iştirak eləyirdi. Əvvəla, ondan soruşan lazımdır ki, ay qızım, ay bala, öz televiziyanda çıxış eləməyin bəs deyil, nə düşmüsən qapı-qapı gəzirsən? Sözün varsa, elə öz televiziyanda de də! Daha buraya gəlib başqa birisinin

yerini tutmaq nəyə lazımdır? Yaxşı, tutalım, bunu bağışladıq getdi. İkincisi və ən əsası, bu qız o televiziya ekranından bilirsən nə deyirdi? Deyirdi ki, mən yoldaşımla razılaşmışam, hələ iki il uşağımız olmayacaq. Tutu nənə sağ olsaydı və o sözləri eşitsəydi, dişinin dibindən çıxanı söyləyərdi, bəkə də, televizorun üzünə tüpürərdi. A qardaş, vallah, daha böyük-kiçik qalmayıb!

Bəli, dayın Qəşəmin vəziyyəti çox çətin idi. Çünki Qəşəm çayxanaya gələndə, toyda-yasda görünəndə hamı onu gözaltı süzərdi. Bir də adam nə qədər maymaq olsa belə həmin eyhamlı baxışları az-çox başa düşür, necə ki, Qəşəm də başa düşürdü. Hələ o tərəfini demirəm ki, Qəşəmin anası ilə qayınanası camaatın arasında olanda gizlənməyə yer axtarırdılar, amma tapa bilmirdilər. İndi sən bax, televizordakı o qız hara, Qəşəmin arvadı hara? Qəşəmin arvadının bircə dəfə cəsarəti çatmadı ki, durub el arasında, lap elə el arası qalsın bir tərəfə, qonşusunun yanında desin ki, mən özüm hələ doğmaq istəmirəm. Yaxud da bu zəhrimarı atsın Qəşəmin üstünə, söyləsin ki, Qəşəm hələ uşaq istəmir. Deyir ki, Bakıda ev alandan sonra uşağımız olacaq. Ay gidi dünya, birinin ağzını çuval kimi açırsan, o birinin də ağzına möhür vurursan.

Xülasə, Qəşəmin arvadını ocaq-ocaq, pir-pir gəzdirdilər. Ətək-ətək pul tökdülər, mal tökdülər, faydası olmadı ki, olmadı. Onda da Qəşəmin arvadı baş götürüb qaçmaq istəyirdi. Özü də bir sinif yoldaşı vardı – Şərəbanı, ürəyini həmişə ona açardı, onu yolda-izdə tutub xısın-xısın deyərdi ki, ölüm istəyirəm, Şərəbanı, ölüm, kim məni belə qarğıdı? Mən kimə pislik eləmişəm ki! Dədəmin, anamın da heç kəslə işi yoxdur, öz evləri, öz içləridir. Atam heç kəsin toyuğuna bir daş atmayıb, anam heç kəsin sözünü danışmayıb. Uşaq vaxtı Novruz bayramı günü qonşunun qızı ilə odun üstündən tullananda qız qəflətən oda düşdü, qıçları yandı, vallah mənim günahım yox idi, elə bil qızın ayağı nəyəsə ilişdi, yıxıldı, indi də uzun paltar geyinməsə, baldırlarındakı ya-

nıq əməlli-başlı bilinir, bəlkə, ona görə bu əziyyəti çəkirəm. Şərəbanı da yanımcıl bir qız idi və Qəşəmin arvadının o üzündən-bu üzündən öpüb yazıq-yazıq deyirdi ki, səbir elə, Güldəstə, səbir elə, hər şey yaxşı olacaq. Bəndədən bir şey çıxmaz, Allahın ətəyindən yapış. Allah qadir Allahdır.

Günlərin bir günü də Qəşəmlə Güldəstə həyətlərinin yanından axan çayın kənarına palaz sərib üstündə oturmuşdular. Onlar hər yayı isti adamın gözünə görünüb buxar kimi havaya qalxanda qaralmış-qartımış iydə ağacının altında özlərinə istirahət yeri düzəldərdilər. Dədə-babadan qalmış samovarlarını da palazın düz yanına qoyardılar. Güldəstə də hərdənbir soyumasın deyə samovarın odluğuna ağac kömürü atardı. Qəşəmlə Güldəstə günün ən qızmar çağını burada keçirərdilər. Deməsəm, düz olmaz, kənddə hamı buna vərdiş eləmişdi. Amma Qəşəmlə Güldəstənin bu yay istirahətində başqalarından fərqli bir məqam vardı. Məsələn, Həşim bir tikə çörək yiyən kimi başını yastığın üstünə atıb yatmaq istəyəndə elə o dəqiqə yuxuya gedərdi. Salatının bəh-bəhlə süzdüyü çayı da içə bilməzdi, çay stəkanda qalıb bumbuz olardı. Belə vaxtlar Nəcəfalının arvadının günü qara gələrdi. Öyrədən var idi, öyrədən yox idi, bilmirəm, amma Nəcəfalı bir xortum siqaret çəkərdi, bir nəfəs də arvadını söyərdi. Arvadı da nə ağ dinərdi, nə də qara, çünki ərinin söyüşlərinə öyrəşmişdi. Oğul, bala, indi gözlərini bərəldib məndən soruşmaq istəyirsən ki, bəs Qəşəmlə Güldəstə o palazın üstə nə ilə məşğul olardılar? Ağlına başqa-başqa şeylər gəlməsin, Qəşəmlə Güldəstə orada iki-üç saat söhbət eyləyirdilər. Hamı da bunu bilirdi və hamı da təəccüblənərdi ki, Qəşəmlə Güldəstə hər gün iki-üç saat nədən danışardılar və bu danışdıqları mövzunu haradan tapardılar?

Bəli, elə həmin günlərin biriydi və Qəşəmlə Güldəstənin danışdıqlarını sənin anan açıq-aydın eşidirmiş. Güldəstə Qəşəmə danışırmış ki, axşam yuxu görmüşəm və mənim indiyə qədər

ömrümdə belə yuxum olmayıb. Görmüşəm ki, yanımızdan axan çaya düşüb qışqırıram, sən də gəlib məni xilas etmək istəyirsən, amma ikimiz də boğuluruq. Bu zaman onların arxasında dayanan anan ucadan deyir ki, su aydınlıqdır, Güldəstə. Durub görüşürlər, öpüşürlər, Güldəstə elə ayaqüstəcə deyir ki, aydınlıq olmağına qoy aydınlıq olsun, amma məni təəccübləndirən budur ki, bu çayın nə suyu var, biz də düşüb orada boğulaq, heç körpə uşaq da burada batmaz. Otururlar və bir az həşdən-küşdən danışandan sonra anan üzünü qardaşı Qəşəmə tutub deyir ki, ay qardaş, belə qərara gəlmişik ki, bir uşaq doğub onu saxlamaq üçün sizə verək. Yaşınız ötür, bir müddət sonra qocalığınız var, ahıl vaxtlarınızda sizə bir baxan olmalıdır, ya yox! Onlar çətinliklə də olsa, razılaşırlar, amma ölüm-itim dünyasıdır, onu deməliyəm ki, anan o söhbəti açanda mənimlə bir kəlmə də danışmamışdı, axşam anan bu əhvalatı mənə dedi, mən də etiraz etmədim. Bəs sonra nə oldu? Dörd-beş ay keçməmiş, Güldəstənin boyuna uşaq düşdü. Bizim uşağımız da özümüzə qaldı. Bax, sənin Salah qardaşın belə dünyaya gəlib. Sonra da Salah xəstələnib öldü. İndi bildin, həmin uşaq dünyaya niyə gəlmişdi?

O, qəfil söhbəti dayandırdı, gözünü divarın yuxarısına zillədi və qulağını bir az irəli verdi, sonra ucadan qışqırdı:

– Ay uşaq, ay uşaq mətbəxdəki radionun səsini qaldır. Dayan, dayan, gör nə danışır? Nəəə? Markes ölüb? Düz eşitdim?

Bəli, radio Markesin ölümü barədəki xəbəri dünyaya yayırdı.

***01.06.2014***

# ASPİRANTURAYA QƏBUL

*Akademik Həsən Abdullayevin əziz xatirəsinə*

Soyuğun insanların canına üşütmə saldığı payız aylarından biri idi. Bu vaxtlar kənddə canıdildən qışa hazırlıq görülürdü. Kimi dəyirmanda əməkgününə düşən taxılı üyüdüb gətirir, kimi bəslədiyi heyvanlardan ən gözəgəlimlisini kəsib qovurma hazırlayır, kimi od-alovlu təndirin başında lavaş tədarükü görür, kimi də dava-dalaşla dəmiryol stansiyasından aldığı daş kömürü yağış-qar dəyməsin deyə örtülü yerə yığırdı. Mən də qış tədarükü ilə bağlı görəcəyim vacib işləri qurtarıb aspiranturaya imtahan vermək üçün Bakıya yollandım.

Düzü, aspirantura məsələsi beynimdən elə-belə keçməmişdi. Birincisi, bunu məndən də çox atam – İmran Salahoğlu istəyirdi. Bizim kəndimizdə hamının ayaması vardı – Cücə Cəfər, Kal Qasım, Astar Həmid, Tıntın Kərim... Amma mənim atamın ayaması yox idi, onu öz atasının adı ilə “Salahoğlu” – deyə çağırırdılar. Məsələ bunda deyil, əsas odur ki, mənim aspiranturada oxumağım atamın ağlına haradan gəlmişdi, bilmirəm. İnan ki, bu barədə bir dəfə də olsun ondan soruşmamışam. İkincisi də bu fikir yavaş-yavaş özümdə yaranmışdı. Belə ki, kəndimizdən 9-10 kilometr uzaqda yerləşən bir məktəbdə işləyirdim. Oraya gedib-gəlmək o qədər də asan deyildi, çünki kəndimizə avtobus işləmirdi. Səhərlər kolxozun üstüaçıq QAZ-51 maşınları ilə yolun bir hissəsini aşırmaq olurdu, qalanını da on bir nömrəli tramvayla ötüşdürmək məcburiyyətində qalırdım. Məktəbdən çıxıb evə gəlmək isə əməlli-başlı müşkül məsələydi. Belə ki, yolun yarısına qədər maşın düşərdi, ya düşməzdi, maşın düşmədisə, deməli 9-10 kilometri piyada başa vurmalı idin. Hələ mənim bəxtim gətirmişdi ki, o vaxtlar KAMAZ maşınlar bizim kəndimizin yaxınlığında Arazın yarğanı döyəclədiyi yerə sal daşlar daşıyıb tökürdülər. Hamı qorxurdu ki, həmin yarğan uçsa, kəndi

Araz aparacaq, necə ki, neçə illər qabaq Araz yazda daşanda köhnə kəndin bir hissəsini yuyub aparmışdı, əlavə bir yataq yaranmışdı. Uşaq vaxtı həmin yataqdan rahatca balıq tutmaq olurdu. O da yadımdan çıxmamış deyim ki, qızılgüllər açılan vaxtı Arazın nəriltisi dünyanı götürürdü. Hələ iri-iri ağacları kökündən çıxarıb diyirlədə-diyirlədə sürüməyi bir yana qalsın, gözlərimizin qarşısında yekə-yekə camışları bürmələyib suyun üzündə çayaşağı aparırdı. Mən bəzən həmin KAMAZ maşınlarla gəlib kəndin bir-iki kilametrliyində düşür, oradan da toza-torpağa, para-palçığa bata-bata evimizə gəlirdim. Əslində bu çətinliklər də bir tərəfdən məni aspiranturaya getməyə məcbur edirdi.

Mən aspiranturaya imtahan verməyə gələndə atam demişdi ki, sənədlərini qiyabi verərsən və aspirantura məsələsində mənimlə atam arasındakı fikir ayrılığı yalnız bunda idi, mən isə əyani oxumaq istəyirdim.

İxtisas imtahanı verəcəyimiz gün, səhər-səhər direktorun otağının qabağına toplanmışdıq. Yeddi nəfər idik. Əyaniyə bir yer ayrılmışdı. İmtahan verəcəyimizə baxmayaraq, əhvali-ruhiyyəmiz çox yaxşıydı. Vaxtımız maraqlı keçsin deyə bir-birimizə yüngülvari suallar da verirdik. Bizim aramızda səhv etmirəmsə, Afət adında bir akademik qızı da var idi. Oraya toplanmağımızdan yarım saat keçərdi ki, birdən Afət sıramızdan ayrılıb qapısı açıq olan elmi katibliyə doğru getdi. Az sonra əlində qovluq geri qayıtdı və: “Uşaqlar, mən sənədlərimi geri götürdüm, sizə uğurlar arzulayıram”, – deyib uzaqlaşdı. Rəqiblərimizdən birinin azalmasına baxmayaraq, hamımız təəssüf hissi keçirdik.

İxtisas imtahanı çox gərgin oldu. Komissiyanın üzvləri elə bil boş-bekar idilər. Adama nə qədər sual vermək olar?! Düzü, indi biletimdə yazılan və əlavə verilən sualların əksəriyyəti yadımdan çıxıb. Bir onu xatırlayıram ki, suallardan hansınasa cavab verərkən Çingiz Aytmatovun “Voprosı literatura” jurnalında

dərc edilmiş müsahibəsindən bir sitat gətirdim. Sitat gətirərkən jurnalın adı ilə bərabər, Çingizin atasının adını da dedim, əslində jurnalda elə yazılmışdı: "Çingiz Terequloviç Aytmatov". Məqsədim "Voprosı literatura" jurnalını kənddə ikən oxuduğumu nəzərə çarpdırmaq idi. Jurnala, həqiqətən, abunə yazılmışdım. Hər halda bu da mənim xeyrimə oldu. Cavablarıma "beş" yazdılar. Məndən başqa bir nəfər "beş", bir nəfər isə "dörd" qiymət aldı. Qalanları növbəti imtahanlara buraxılmadılar.

Partiya tarixindən imtahan vermək mənim üçün o qədər də çətin deyildi. Universitetdə yaxşı oxumuşdum, həm də neçə ay idi ki, hazırlaşmışdım. Hətta yadımdadır ki, universitetdə oxuyanda tarix müəllimimiz iki qrupda yalnız mənə "beş" vermişdi. Özü də deyirdi ki, neçə illər qabaq bir dəfə də belə olmuşdu, onda da yalnız Bəkir Nəbiyevə "əla" yazmışdım. Sözümün qaravəllisi odur ki, partiya tarixindən "beş" və ya "dörd" almaq mənim üçün problem olmamalıydı. Amma mənə "üç" yazdılar, aspiranturaya qəbul olmaq şansımı xeyli itirdim. Ona görə ki, mənimlə imtahan verənlərdən birinin 9, digərinin 10, mənim isə 8 balım vardı. Yalnız möcüzə məni bu vəziyyətdən qurtara bilərdi və qarşıda fransız dilindən imtahan qalırdı.

Partiya tarixi imtahanından sonra xeyli gözlədim. Akademiyanın birinci mərtəbəsindəki dar pəncərədən bayırı seyr edirdim. Gözlərimin qarşısına yenə kənd, yenə 9-10 kilometrlik yol, yenə sal daşları daşıyan KAMAZ maşınları gəlirdi. Dəqiq bilirdim ki, aspiranturaya qəbul olmasam, həyatımı heç cür dəyişdirə bilməyəcəyəm. Düzü, rayonda əməlli-başlı hörmətim vardı və yaxşı müəllim kimi tanınırdım. Məsələn, heç bir müəllimin dərsinə gəlməyən Utaridə adlı bir qız yalnız mənim dərsimdə olurdu. Hətta pedaqoji şuraların birində həmkarlar təşkilatının sədri məni ittiham etdi ki, sən məktəbə gəlməyən uşağa qiymət yazırsan, özü də vaxt itirmədən Utaridənin adını çəkib nümunə göstərdi. Mən də sakitcə ona cavab verdim ki, Utaridə

ədəbiyyat dərsinə gəlir. O biri müəllimlər mat-məəttəl qalmışdılar, fikirləşirdilər ki, axı Utaridə onların da dərsində iştirak etmir. Növbəti rübdə direktorun müşahidəsindən sonra aydın oldu ki, Utaridə məhz mənim dərsimə gəlirmiş. Rayonda hörmət qazanmağımın bir səbəbi də o idi ki, imtahan verdiyim il məni rayon komsomol komitəsinin birinci katibi seçmək istəyirdilər. Nədənsə, bu iş baş tutmadı.

Akademiyanın dar pəncərəsindən bayırdakı iri sütunlara baxa-baxa həm də maaş məsələsini düşünürdüm. Çünki rayon maarif şöbəsinin baş inspektoru Murtuz müəllim demişdi ki, imtahanlardan kəsilsən sənin bir aylıq maaşını verməyəcəyik, yox, hamısından qiymət alıb müsabiqədən keçə bilməsən, maaşını tam alacaqsan. Buna görə də aspiranturaya qəbul olub-olmamağımdan asılı olmayaraq, fransız dili imtahanını verməliydim.

Partiya tarixi imtahanı qurtarmışdı. Mən birinci mərtəbədə gəzişir, narahat-narahat beynimə gələn hər bir şey haqqında düşünürdüm. Hava da əməlli-başlı qaranlıqlaşırdı. Elə havanın qaralması haqqında düşünürdüm ki, Səttar müəllim əlində çanta imtahan olan otaqdan çıxdı. Dəhlizdə yalnız ikimiz idik. Mən ona yaxınlaşdım, o, məni görüb dayandı. Birbaşa sual verdim ki, axı mən “üç” almamalıydım, siz mənə niyə “üç” verdiniz. O isə bu sualı gözləyirmiş kimi birbaşa cavab verdi: “Oldu da, ay bala, gərək olmayaydı”. Bu, müəllimin etirafı idi, mən isə bununla kifayətlənib heç bir söz demədən uzaqlaşdım. Görünür, mənim müəllimliyim Səttar müəllimin də xeyrinə işlədi. Amma burada nəsə bir əmmanın olduğunu da anladım.

Qarşıda fransız dili imtahanı vardı. Fransız dilini az-çox bilirdim, amma alacağım hər hansı bir qiymətin mənə xeyiri olmayacağını düşünüb bu imtahana xüsusilə əhəmiyyət vermək istəmirdim. Yalnız məni maaş düşündürürdü və fransız dili imtahanından hər hansı bir müsbət qiymət ala biləcəyimə də heç bir şübhəm yox idi. Özüm üçün daxilən yaratdığım bu rahatlığa

baxmayaraq, imtahan çox gərgin keçdi. İmtahanın mənim üçün o qədər də həlledici olmadığını bildiyim üçün müəllimə təklif etdim ki, mən maksimum proqramla imtahan vermək istəyirəm. Özümlə fransız dilində kitab aparmamışdım, kafedrada da ədəbiyyatşünaslığa aid belə bir kitab yox idi. Açığı bununla bağlı sonralar xeyli peşmançılıq çəkdim və indi də onu xatırlayanda birtəhər oluram. Ona görə ki, kitab olmadığından kafedra müdiri cavan fransız dili müəlliməsini xeyli danladı. Sonralar müəllimədən üzrxahlıq etmək üçün ona bir şeir yazdım. İndi deyim ki, heç şeiri də müəlliməyə vermədim. Sonra fransız dili müəlliməsi minimum proqramla imtahan verməyimə şərait yaratdı və biletdəki suallara insafla yaxşı cavab verdim. Müəllimə mənə yavaşca dedi ki, bayaqkı hay-küy olmasaydı, elə sənə "dörd" qiyməti də vermək olardı, amma "üç" yazıram. Mən də yavaşca dedim ki, "üç" bəsimdir, istədim maaşımı alacağım barədə ona nəsə danışım, amma vaz keçdim.

Sənədlərimi götürüb rayona getmək üçün liftlə instituta qalxdım, institut 5-ci mərtəbədə yerləşirdi. Liftin qarşısında direktorla rastlaşdım. Direktor dedi ki, fasiləyə gedirəm, məni gözlə, sən aspiranturaya qəbul olmusan. Öz-özümə düşündüm ki, bu nədir, möcüzəmi baş verir? Direktordan heç nə soruşa bilmədim, o, liftlə aşağı düşdü. Qapısı açıq olan elmi katibliyə getdim. İçəri girən kimi elmi katib uca səslə dedi ki, təbrik edirəm, qəbul olubsan. Mən də soruşdum ki, bu necə baş verdi? Elmi katib bildirdi ki, akademik Həmid Araslı imtahan verəcək iki nəfərdən fars dilindən imtahan götürəcəkdi. Onların cavablarını dinləyəndən sonra birinə üzünü tutaraq deyib ki, sən mənə xahiş elətdirmişdin ki, ona "iki" yazım. Sənin arzunu yerinə yetirirəm. Sonra da üzünü o birinə tutaraq deyib ki, oğul, sən də xahiş etdirmişdin ki, buna "iki" yazım, sənin də arzunu yerinə yetirirəm. Vəssalam! Onların hər ikisi xarici dildən "iki" aldıqları

üçün sən qəbul olursan. Ürəyimdə Səttar müəllimin sözlərini təkrar etdim: "Oldu da, ay bala, gərək olmayaydı".

Amma aspiranturaya qəbul bununla qurtarmırdı. Bir mərhələ də vardı ki, ona "rəyasət heyəti" mərhələsi deyirdilər. O mərhələdə QB bütün aspirantları bir-bir dinləyir, onlara ixtisasları ilə bağlı suallar verir, müəyyən nəticəyə gəlirdi. QB, yəni Qasan Baqirovuç, yəni Həsən Abdullayev, o, Akademiyanın prezidenti idi.

Hamı – institut direktorları, müavinlər, şöbə müdirləri, elmi rəhbərlər, aspiranturaya imtahan verənlər dairəvi zala toplaşmışdılar. Kimin adı çəkilirdisə irəliyə çıxır, onun üçün nəzərdə tutulmuş kürsüyə yaxınlaşır. Ondan bir az kənarda isə direktor başqa bir kürsünün qarşısında dayanır. QB rəyasət heyətində bəzən əyləşərək, bəzən də ayaqüstə duraraq suallar verir, – öz aramızdır, daha çox ayaq üstə dayanırdı, – vəziyyətlə tanış olurdu. Kimya ixtisası üzrə aspiranturaya daxil olan Namiqə belə bir sual verdi: "Suyun neçə formulu var?" Namiq isə bir an belə gözləmədən söylədi ki, doqquz. Zalın bir tərəfindən gülüşmə səsi eşidildi, – yəqin onlar kimyaçı idilər, – zaldakıların əksəriyyəti də onlara baxıb gülüşdülər. Gülüşmək səngiyəndən sonra tam sakitlik yarandı. QB xeyli pauza verdi. Hamı nəsə olacağını gözləyirdi. Doğrudan da, oldu, QB gülüşün başladığı tərəfə üzünü tutub dedi: "Ayıb olsun sizə, suyun 9 formulu var". Zalda ağır bir sükut və təəccüb yarandı, hiss olunurdu ki, çoxları suyun 9 formulunun olmasını bilməməkdən başqa, heç ona inanmırdılar. Bu zaman QB Namiqə tərəf dönüb: "Qəbul olursan, gedə bilərsən", – dedi.

Universiteti fərqlənmə diplomu ilə təzəcə qurtarmış Nazilə ilə, – o, sonralar bizimlə qonşuluqda qalan Barat Nuriyevin həyat yoldaşıdır, – sual-cavab da maraqlı oldu. QB bir məsələ söyləyib ondan həllini soruşdu. Nazilə barmağı ilə havada nəsə yazmağa başladı. Onun havada yazı yazmağına hamı heyrətlə

baxırdı. Bir dəqiqə keçməmiş Nazilə cavabı dedi. Zalda yenə sükut yarandı. Əslində QB də xeyli fasilə verdi. Sonra direktora üzünü tutub dedi ki, xatırlayırsan, mən bu məsələni bir nəfər şöbə müdiri keçərkən ona vermişdim, həmin adam da bu məsələni həll edə bilmədi. Düşünürəm ki, bu qız ilyarıma, iki ilə dissertasiya müdafiə edəcəkdir. Direktor başını yuxarı-aşağı hərəkət etdirib "bəli, bəli" dedi. QB azca fasilə verib birdən səsini yuxarı qaldırdı: – "Yox, müdafiə eləyə bilməyəcək. Ona görə ki, siz və o şöbə müdiri qoymayacaqsınız". Zalın üstünə elə bil su əlēdilər, heç kəsin cınqırı çıxmadı. Həm də insanların üzündə bir heyrət var idi. Sükutu yenə QB pozdu: "Gedə bilərsən, sən qəbul olursan".

Biologiya ixtisası üzrə aspiranturaya imtahan verən bir qızla bağlı isə qəribə hadisə baş verdi. Buna maraqlı, qeyri-adi, ya da tarixi hadisə demək olardı. Amma dəqiq hansını demək olardı, düzü onu bilmirəm. Gənc qız 15 bal toplamışdı, yəni hər üç imtahandan "beş" almışdı. QB qızın adının və familiyasının təkrarlanmasını istədi. Təkrardan sonra ona da, zalda əyləşənlərə də açıq-aydın bəlli oldu ki, həmin qız nazirlərdən birinin övladıdır və üç "beş" alması da yəqin təbiidir. QB soruşdu ki, onun konkurenti olubmu? Dedilər ki, olub. Yenə soruşdu ki, konkurenti neçə bal yığıb? Dedilər ki, 14 bal. Xeyli düşündü və soruşdu ki, həmin qız harada yaşayır? Dedilər ki, Razin qəsəbəsində. Birbaşa göstəriş verdi ki, mənim maşınımla gedib onu evindən buraya gətirin. Hamı həmin qıza əlavə yer ayrılacağını düşünürdü. Təxminən bir-iki saatdan sonra məlumat verdilər ki, qızı gətirmişik. Qızı kürsüyə dəvət etdi və soruşdu ki, imtahandan neçə almısan? O da hansı fəndən neçə aldığını rus dilində dedi. Sonra soruşdu ki, adın, familiyan necədir? Səhv etmirəmsə, o da Olqa Timofeyevna, yaxud Timofayeva dedi. QB bir az düşündü, sonra: "Qiymətlərin yaxşıdır, sən də qəbul olursan", – söylədi.

Zaldakı sükutu mənim ad-familiyamın çəkilməsi pozdu. Hamı kimi mən də aspirantlara aid olan kürsüyə yaxınlaşdım. QB-nin ilk sualı bu oldu ki, Cəfər Cabbarlıdan bir şeir de. Düzü, mən də çaşıb qaldım. Ağlıma gəldi ki, bəlkə, monoloq demək istəyir, axı Cabbarlı dramaturqdur. Ürəyimdən keçəni hiss edirmiş kimi direktor birdən yavaşca mənə pıçıldadı ki, "Şiş ucları buludlarla döyüşən, Dağlarında buzları var ölkəmin". O dəqiqə başa düşdüm ki, bu misralar Cabbarlının "Ölkəm" şeirindəndir və Azəf Zeynallı ona eyni adlı romans da yazıb. Bu barədə fikirləşirdim ki, birdən Cabbarlının "Ana" şeiri yadıma düşdü və qəribədir ki, həmin şeirdən yalnız bir bənd bilirdim:

Ana, ana, o adın qarşısında bir qultək,
Həmişə səcdədə olmaq mənə fəxarətdir.
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

Son dərəcə ağır ahənglə həmin bəndi söylədim. Ona görə ağır ahənglə ki, vaxt getsin və digər bəndləri məndən soruşmasın. Bənd qurtaran kimi QB yavaşca əl çaldı, zal da ona qoşuldu. Bu alqışdan sonra öz-özümə fikirləşdim ki, daha mənimlə işi olmayacaq. Elə bu dəm mənə dedi ki, evimizi təmir elətdirirdim. Bir də gəlib gördüm ki, ustalar bütün kitablarımı alt-üst eləyiblər. Elə qarışdırıblar ki, heç nə tapmaq olmur. İndi evimiz təmirdən yenicə çıxıb, evə təzə kitab rəfi almışam. Səni bizə aparacağam. Kitabların arasındakı romanlardan yuxarıdan aşağıya doğru hansını birinci, hansını ikinci, hansını üçüncü gözdə yerləşdirəcəksən. Artıq sual mənə aydın idi. Əvvəlcə, elə düşünürdüm ki, məni evlərinə işləməyə aparacaq, sonra gördüm ki, yox, sual ciddi sualdır. Mən üç əsər seçib o dediyi qaydaya uyğun düzdüm. İndi xatırlayıram ki, axırıncı əsər povest idi. Ardınca başqa sual gəldi: "Bəs "Qılınc və qələm"i hara qoyacaqsan?" Məsələ xeyli ciddiləşdi. Qəfil ağlıma gələn fikri cəsarətlə dedim: "Həsən müəllim, mən rəfə müasir romanları düzmüşəm, əgər tarixi

romanlardan söhbət gedirsə, onda “Qılınc və qələm”i rəfin lap üstünə qoyaram”. O, yüngülvari gülümsədi və dedi: “Qəbul olursan, gedə bilərsən”.

Bundan sonra həyatımın aspirantura illəri başladı. Həə, o da yadıma düşdü ki, bir il sonra kimyaçı Qafur aspirantura təhsilini yarımçıq qoyub öz rayonlarına – Astaraya getdi. İndi ondan heç bir xəbər yoxdur.

# MƏN DƏLİ DEYİLƏM

O, son dərəcə ehtiyatla qapını açıb heç kəsin hiss edə bilməyəcəyi bir tərzdə – ayaqlarının ucu ilə içəriyə daxil oldu. Sonra ürəyinə qorxu düşən adamların cəldliyinə bənzər bir hərəkətlə qapını örtüb dəstəyin yanında özünə yer eləmiş quyruğu sallaq açarla qapını arxadan bağladı. Geriyə çevrilib çox böyük bir məmnunluqla otağın sol divarına paralel qoyulmuş çəhrayı rəngli uzun stolun arxasında oturan həkimə baxdı. Həkim deyəndə ki, o, rezidenturada oxuyurdu, təcrübə üçün bu xəstəxanaya göndərilmişdi. Hər gün səhər-səhər işə gələndə şəbəkələrlə örtülmüş pəncərənin açılmış tağından "Ey qaşı, gözü qara qız" nəğməsi ilə salamlanan həkimin rəngi ağappaq ağardı, onun sifətində bir damla belə qan əlaməti yox idi. Həyəcan keçirən Rezident bu vəziyyətdə hamının eyni halı yaşayacağını beynindən keçirib ani olaraq düşündü ki, içəriyə girən qadın imkan tapan kimi onu vuracaq. Bu əhvali-ruhiyyənin təsiri ilə stolun üstündəki qırmızı rəngli noutbukun qapağını örtüb onu sol tərəfə itələdi. Kiminləsə dalaşmağa hazırlaşan adamlar kimi özünü toparladı. İçəri girən qadın Rezidentin qorxduğunu hiss etdi və təslimçilik nişanəsi olaraq əllərini yuxarı qaldırıb yavaşca dedi:

– Qorxma, qorxma! Səni vurmayacağam.

Qadın Rezidentin qarşısındakı çəhrayı rəngli uzun stolun əks tərəfində həkimin yanına gələnlərin oturması üçün qoyulmuş stola yaxınlaşdı. Resident ilan çalmış adamlar kimi cəld ayağa qalxdı, daxilən özünü müdafiə mövqeyinə gətirdi. Qadın onun bu vəziyyətini yaxşı başa düşdüyü üçün əlini stula yaxınlaşdıra-yaxınlaşdıra danışırdı:

– Qorxma, qorxma! Səni vurmayacağam. Bax, stulu kənara çəkirəm ki, narahat olmayasan.

Bunları deyə-deyə qadın stulu iki metrəcən kənara çəkib stulun arxasını üzərinə qarmaqarışıq bir plakat vurulmuş sağ di-

vara – plakatın aşağısına söykədi. Özü də yavaşca stulda oturdu, son dərəcə diqqətli, həm də mənalı baxışlarını ondan ayırmadan əlavə etdi:

– Qorxma, qorxma! Əyləş, sənə sözüm var.

Rezident təhlükənin bir az sovuşduğunu hiss edib yavaşca stula çökdü. Amma fikri əməlli-başlı qarışıq idi. Ona görə ki, baş həkim hər iclasda hamıdan, xüsusilə rezidentlərdən xəstələrlə ehtiyatlı olmağı tələb edirdi. Hətta yeri düşdükcə bəzi faktları da xatırladırdı. Lap elə son iclasda söyləmişdi ki, ötən il bizim xəstəxanada çoxdan yatan dəlilərdən biri günün günorta çağı sakit addımlarla həkimin kabinetinə daxil olur. Həkimi arxayın salmaq üçün onun yaxınlığındakı stulu özünə tərəf çəkib azca kənarda oturur, xüsusi bir nəzakət göstərir. Həkim xəstənin səmimiyyətinə inanır. Amma xəstə qəfildən oturduğu stulu qaldırıb həkimin başına çırpır və həkimin başını qan aparır. Yaxşı ki, xəstə qapını bağlamayıbmış, hay-küyə adamlar içəri doluşur və həkimi xəstənin əlindən alırlar. İndi qadının stulu kənara çəkib oturması, baş həkimin danışdığı həmin əhvalatı xatırladırdı. Bu da Rezidentin narahat olmasının əsas səbəblərindən biri idi. Rezidentin yadından çıxmadığı və onu daha da narahat edən səbəblərdən digəri qapının arxadan bağlanması idi. Yəni təhlükənin tam sovuşduğu barədə qəti qərar vermək düzgün olmazdı. Amma Rezident bunları düşünə-düşünə baş həkimin danışdığı başqa bir lətifəni də kino lenti kimi öz beynindən keçirirdi. Baş həkim söyləyirdi ki, bir dəfə səhər çağı dəlilər çay içəndə qəndin olmamasından dilxor olurlar və nə edəcəklərini bilmirlər. Nəhayət, haradansa bir tikə qənd tapıb iplə göydən asırlar və deyirlər ki, hamı qəndə baxıb dişdəmə çay içsin. Dəlilərdən biri görür ki, qarşısındakı cavan oğlan gözünü qənddən çəkmir. Bu zaman həmin dəli cəld ayağa durub cavan oğlana möhkəm bir şillə vurur. Hamının ona sual dolu nəzərlərlə baxdığını görüb hirslə

deyir ki, görürsünüz, bu adam gözünü qənddən çəkməyib dişdəmə çay əvəzinə şirin çay içir.

Amma Rezident lent kimi gəlib keçən bu əhvalata gülmək istəsə də, gülə bilmirdi. Qorxu içindəydi və gözünü bir an belə qadından çəkmirdi. Elə bu dəm qadın dilləndi:

– Vallah, səninlə işim yoxdur, səninlə söhbət eləməyə gəlmişəm.

Bunları deyib dayandı, elə bil Rezidentdən cavab gözləyirdi. Rezident danışmadı, amma gözləri ilə yavaşca qapıya tərəf baxdı, qadın da bunu o dəqiqə hiss edib dedi:

– Yox, yox! Qapını səni vurmaq üçün bağlamamışam, istəyirəm ki, başqa adamlar gəlib bizim söhbətimizə qulaq asmasınlar.

Qadın yenə fasilə verdi, Rezidentin də fikri bir az dəyişdi. Səbəbi də bu idi ki, qadın onun qapıya tərəf yönələn baxışının mənasını düzgün hiss etmişdi. Hətta Rezident düşünürdü ki, əgər qadın onun bağlı qapıya yönələn narahat baxışının mənasını başa düşübsə, ona heç vaxt dəli demək olmaz. Hər halda bundan sonra Rezidentin qəlbinə çökmüş təhlükə xeyli sovuşub getdi. Amma baş həkimin bir məsləhəti yenə də haradansa fırlana-fırlana gəlib onun beyninə doldu. O deyirdi ki, ehtiyatı heç vaxt əldən buraxmayın. Xəstələr burada böyük məktəb keçiblər və həkimləri arxayın salmağı bacarırlar. Rezident fikirləşdi ki, bəlkə, bu da həmin variantdır, məni özünə inandırmaq istəyir, sonra hücuma keçəcək?! Qadın dilləndi:

–Mən istəyirəm ki, sən burada işləməyəsən.

Bundan sonra daha danışmadı. Rezidenti fikir götürdü ki, qadın niyə bu qərara gəlmişdi? Mənim yaxşılığımamı çalışır, yoxsa öz niyyətini həyata keçirmək üçün yol axtarır? Məni tanımayan adam mənim nə yaxşılığıma çalışacaq ki! Bəlkə, tanıyır, bəlkə, mən də onu tanıyıram, kim olduğu yadımdan çıxıb!? Bəlkə, bu xəstəxana onu elə dəyişdirib ki, mənim üçün

tanınmaz olub!? Bir az da şübhələnmişəm ki, xalamgilin qonşusuna oxşayır, amma gözləri həmin gözlər deyil. Axı, adamı gözlərindən daha yaxşı tanımaq olur! Xeyr, ola bilməz. Yenə baş həkimin danışdığı bir əhvəlat beynindən gəlib keçdi. Baş həkim deyirdi ki, dəlilərdən birisi mıxçanı götürüb divara çalmaq istəyir, amma mismarın başını divara dayayıb daşla uc hissəsini döyəcləyir. Bunu görən başqa bir dəli ona yaxınlaşıb mismarı onun əlindən alır və ucunu əks tərəfdəki divara dayayır. Deyir ki, mismar bu biri divarındır. Rezident bu əhvalatı xatırlaya-xatırlaya gülmək istəyir, amma gülə bilmir, çünki fikri qadının yanındadır. Düşünür ki, onu arxayın salıb stulla vuracaqdır. Onun dalısıca da düşüncələrinə əlavə edir ki, axı mən bu qadına nə pislik etmişəm ki!? Qadın yenə eyni sözləri dedi:

– Mən istəmirəm ki, sən burada həkim işləyəsən.

Sonra danışmadı, gözlərini Rezidentin üzünə zillədi. Çox ciddi görkəm almışdı. Yəqin Rezidentin ona inanmasını gözləyirdi. Rezident isə heç bir cavab vermirdi. Fikri qadını tanımağa yönəlmişdi. Xəyalından bəzi adamlar sürətlə gəlib keçirdi. Böyük qardaşının baldızını – gəlinlərinin bacısını xatırladı. Alnının sol tərəfindəki xalı həmin müəlliməni yada salırdı. Qardaşının baldızı ingilis dili müəlliməsi idi. Abituriyent hazırlaşdırırdı, hazırlığa gələn çoxlu uşaqları olurdu. Müəllimənin dərs deməsi üçün bir ildən qabaq növbəyə yazılırdılar. İstəyirdi soruşsun ki, ingilis dilini bilirsən, tez də bu sualın üstündən vaz keçdi. Elə bu vaxt qadın dilləndi:

– Mən sənin tanışın deyiləm.

Rezidenti heyrət bürüdü. Qadın onun fikirləşdiklərini haradan bildi? O ki, adamın ürəyini oxuyur, belə də dəli olar? Xeyr, qadın təsadüfən bunu dedi. Ağlına elə-belə gəldi. Amma hər halda ona dəli demək olmaz. Qadın amiranə bir görkəm alıb dilləndi:

– Niyə mənim sözlərimə cavab vermirsən? Mən istəyirəm ki, sən burada həkim işləməyəsən!

Rezident səbəbini yenə soruşmadı. O, bir şeyi bilirdi ki, qadınla ünsiyyətə girmək olmaz, bunu da baş həkim tapşırmışdı. Baş həkim deyirdi ki, siz dəlilərlə söhbətə başlayan kimi onlar sizi aldadacaqlar. Çünki elə ağıllı danışırlar ki, dəli olmaqlarına inanmırsan. Gördülər ki, sən söhbətə girişdin, bir az da maraqlı əhvalatlar danışıb səni aldadacaqlar və sonra da əllərinə nə keçdisə təpənə vuracaqlar. Ona görə də Rezident dəlilərlə heç bir ünsiyyətə girməməlidir, çalışmalıdır ki, o, özü səndən uzaqlaşsın. Rezident bu düşüncələrin içindəydi ki, qadın dilləndi:

– Gəl sənə lətifə danışım. Dəlilərdən biri baş həkimin otağına girir və şəstlə deyir ki, doxtur, məni burax evə gedim, mən evlənmək istəyirəm. Baş həkim xeyli təəccüblənir, üz-gözünü turşudur, istər-istəməz ona yer göstərir. Sonra soruşur ki, bəs necə evlənəcəksən? Dəli də deyir ki, qonşumuzdakı qıza elçi göndərəcəyəm, mən o qızı çoxdan tanıyıram, atamgil gedib onu mənə nişanlayacaqlar. Baş həkim soruşur: “Bəs sonra?” Sonra qızla bir yerdə toyumuz olacaq. Anamgilin də qohumlarını toya çağıracağıq. Bilirsən niyə? Baş həkim soruşur ki, niyə? Dəli də cavab verir ki, bəs atam anamgilin qohumları ilə küsülüdür. Amma mənim toyumda barışacaqlar. Baş həkim də əhvalatın bu yerini eşidəndə lap arxayın olur ki, artıq bu adam dəli deyil. Elə Rezident də düşünür ki, əgər bu qadın belə bir əhvalat danışırsa, demək, o, dəli deyil.

Qadın söhbətini davam etdirir:

– Dəli baş həkimə deyir ki, mən də düşüb oynayacağam. Mənim başıma çoxlu pul səpəcəklər. Bilirsən kim səpəcək?

Baş həkim soruşur:

– Kim?

O da cavab verir ki, mənim Rusetdə tələbə yoldaşım var, çağıracam toya gələcək. Mənə söz verib. Pulu da mənim başıma o səpəcək.

Baş həkim soruşur:

– Sonra nə edəcəksən?

O da cavab verir ki, toy qurtaracaq, gəlini götürüb evimizə aparacağam.

Baş həkim soruşur:

– Sonra?

O da deyir ki, sonra da soyunduracağam.

Baş həkimi lap maraq götürür:

–Bəs sonra?

O da cavab verir ki, sonra da alt paltarının rezinini çıxardıb, qurşatan qayıracağam, gətirib bu həyətdəki quşları vuracağam.

Bu sözdən sonra baş həkim əlləri ilə başını döyəcləyərək ucadan deyir:

– Ay Allah, ay Allah, sən məni öldür! Ay Allah, ay Allah, sən məni öldür!

Baş həkimin gülməyi ilə ağlamağı bilinmir. Adamlar onun səsinə tez içəri dolurlar. Görürlər ki, baş həkim əlləri ilə başını döyəcləyir və başını döyəcləyə-döyəcləyə "Ay Allah, ay Allah, sən məni öldür!" sözlərini də təkrar edir. Dəli də matdım-matdım ona baxır, az qalır deyə ki, həkim dəli olub. Əgər həkim əlləri ilə dəlinin aparılmasına işarə verməkdə bir az geciksəydi, yəqin ki, həkimi aparıb ayrı bir otağa salacaqdılar, deyəcəkdilər ki, baş həkim, doğrudan da, dəli olub.

Qadın bu yerdə gülməyə başlayır. Elə Rezidentin də dodaqları qaçır, amma o, sayıqlığını itirmir, bu danışılan əhvalatın onu arxayın salmaq üçün sınanmış priyom olduğunu düşünür.

Qadın söhbətin səmtini dəyişir:

–Mən ingilis dili müəllimısiyəm.

Bu sözlərdən sonra Rezidenti elə bil ildırım vurdu. Öz-özünə fikirləşdi ki, bu, elə həmin qadındı! Xəyalı o illərə gedib çıxdı ki, tibb universitetinə qəbul olanda gəlinlərinin baldızı ona güllü bir yelpik bağışlamışdı. Dalısını çox da fikirləşmək mümkün olmadı. Qadın onu xəyaldan ayırdı:

– Mənim çoxlu tələbələrim olardı. Öz zəhmətimlə pul qazanardım. Qazandıqca da qardaşlarıma verərdim ki, mal-mülk alsınlar. Çoxlu evlərimiz var, kirayə vermişik. Mən də, qardaşlarım da, onların ailəsi, uşaqları da bu mülkləri satıb nə qədər yesələr qurtarmaz.  Bir gün məlum oldu ki, qardaşımgil ata evini satmaq istəyirlər. Necə oldusa, dedim ki, həmin mülkdən mənə də pay düşür. Bunu eşidən böyük qardaşım bir mənə baxdı, bir qardaşlarıma baxdı, bir də arvadlarına baxdı və sonra da əlini yelləyib gülə-gülə dedi ki, sən dəli olubsan, səni səhər həkimə aparacağam. Doğrudan da, sabahısı gün qardaşlarım arvadları ilə birgə məni bəh-bəhlə həkimə apardılar, həkimdən bir kağız alıb buraya gətirdilər. İndi buradan çıxa bilmirəm, heç yerə də əlim çatmır. Bibim Basin küçəsində yaşayır. Sənə ünvanı verəcəyəm ki, gedib onları tapasan. Məni buradan qurtarsa, yalnız bibim qurtara bilər.

O, stuldan durub mənə tərəf yaxınlaşdı. Məni vuracağı tamam yadımdan çıxmışdı. Qadın elə bil məni ofsunlamışdı. Bax, baş həkim bunu deyirdi, deyirdi ki, bunlar böyük məktəb keçiblər. Danışa-danışa sizi elə arxayın salırlar ki, nə vaxt vurduqlarından da xəbərimiz olmur. Düzü, qadının stola yaxınlaşmasından heç mənim də xəbərim olmadı, bunu xeyli sonra anladım. Bəli, yerimdən tərpənmirdim, ürəyimdə heç qorxu-filan da yox idi. Mən xəyaldan onda ayıldım ki, qadın artıq stolun üstündən qələm-kağız götürüb ünvanı yazır, yazıb qurtardı və mənə uzatdı. Sonra da qapıya tərəf gedib dayandı, üzünü mənə tərəf çevirib dedi:

– Mən dəli deyiləm.

Qadın qapını açıb otaqdan çıxdı. Mən ünvanı çantamın cibinə qoydum. Axşam işdən çıxıb fikirli-fikirli avtobusla evə dönürdüm. Evimizə çatanda birdən ağlıma gəldi ki, Basin küçəsi çoxdan sökülüb, mən qadının bibisini tapa bilməyəcəyəm.

Sabahısı işə getmədim. İşdən çıxmaq barədə ərizəmi yazıb baş həkimə göndərdim. Başqa ixtisas üzrə rezidenturaya hazırlaşmağa başladım.

***14.08.2018***

# QOCALAR EVİ

Çətinliklə olsa da, tikintiyə razılıq alındı. Qocalar evi kəndin girəcəyi hesab edilən köhnə məktəbin həyətində tikiləcəkdi. Köhnə məktəbin özü uçulub dağılmaq üzrə olsa da, həyat-bacası baxımlı vəziyyətdə idi, hətta həyətin dörd tərəfinə əkilmiş ağaclar da əvvəlki kimi yerində idi. Yalnız 2-3 dənəsini məktəbin qonşuluğunda yaşayan yetim Zəfər kəsib dam ağacı kimi təzə tikdiyi evin üstünə atmışdı. Xeyli vaxt bundan qabaq həmin məktəbin icazəsini Zeynal müəllim almışdı. Demişdi ki, yuxarı siniflərə keçən uşaqlar oxumaq üçün qonşu kəndlərə gedib əziyyət çəkməsinlər. Məktəb açıldı, amma ilk illər məktəbdə müəllim qıtlığı vardı. Bəzi fənn müəllimləri qonşu kəndlərdən gəlib burada dərs deyirdilər. Bir az sonra kəndin cavanları qonşu kəndlərdən olan, universiteti yenicə bitirib məktəbdə işləməyə gələn müəllimələrlə evlənməyə başladılar. Oğlanlardan biri də özü ilə universitetdə oxuyan burmasaç qızla evlənib onu qiyabi şöbəyə keçirdi və o qız da kəndə gəlin gələn kimi məktəbdə işləməyə başladı. Ən maraqlısı bu idi ki, cavanlar elə bil əvvəldən fikirləşib məktəbə ehtiyac olan fənn müəllimələri ilə evlənirdilər.

Zeynal Bakıda yaşayırdı. Kəndin xeyirindən-şərindən qalmazdı. Müəllimlərini çox sevərdi, kəndə gələndə həmişə onlara baş çəkərdi. Ən çox hörmət bəslədiyi Fatma müəllimə idi. Fatma müəllimə ona ibtidai siniflərdə dərs demişdi. Zeynal müəlliməsi haqqında ağızdolusu danışardı. Deyərdi ki, biz Fatma müəllimədən çox şey öyrənmişik. Tez-tez təkrar edərdi ki, Bismark Almaniyanı birləşdirməkdə ibtidai sinif müəllimlərinə borclu olduğunu söyləmişdi. Kənddə səkkizillik məktəbin tikintisinə icazə alan Zeynal indi də yeni binaya köçürülmüş köhnə məktəbin həyətində qocalar evi tikdirmək istəyirdi, onu öz hesabına edəcəkdi. Bunu eşidən gündən qocalar evinin tikilməsinə hamı

təəccüblə baxırdı. Deyirdilər ki, kənddə kim gətirib anasını qocalar evinə qoyacaq?!

Qocalar evinin tikintisi məsələsi kəndi bir-birinə vurmuşdu. Ən əvvəl aşpazın kim olacağı məsələsi sürətlə yayılmışdı. Hərə bir adamdan danışırdı, amma daha çox Şövkət xalanın üstündə dayanırdılar. Bunun da əsas səbəbi o idi ki, Şövkət xala kəndin xeyrində-şərində ocağın başında olardı. Əli də çox dadlıydı. Hər toy məclisindən sonra Şövkət xalanı görən ona ürəkdən "sağ ol" deyərdi. Elə bu "sağ ol" da Şövkət xalanın bəsiydi. Ən azı ona görə ki, növbəti məclisdə də onu çağıracaqdılar. Amma son illərdə Şövkət xalanın rəqibi çıxmışdı. Bu da Qəssəb Əlinin nəvəsi Mələk idi. Kiçik məclislərə Mələyi aparırdılar. Dilbər arvadın nəvəsi əsgərliyə gedəndə onun məclisinin xörəyini Mələk bişirmişdi, hamı da ondan razı qalmışdı. Deyirlər ki, qocalar evində 5-6 arvad olacaq, onların xörəyini bişirmək Mələyin əlində su icmək kimi bir şeydir. Mələyin tərəfində duranlardan biri də elə Dilbər arvadın özü idi. Harada olsaydı, orada qocalar evindən söhbət salar, Mələyin xörək bişirməyini tərifləyərdi. Dilbər arvadın qorxusundan hamı yalandan "bəli, bəli" deyərdi. Aşpaz məsələsində kənd yavaş-yavaş ikiyə bölünürdü, Mələk də yavaş-yavaş Şövkət xalanı üstələyirdi.

Qocalar evinin mudirinin kim olacağı barədə heç kəs danışmırdı. Çünki Zeynal demişdi ki, müdir məsələsini gəlib özüm həll edəcəm. Amma Şərəbanı arvad hərdən astaca deyirdi ki, qocalar evinin müdiri mən olacağam. Şərəbanı arvadın bu sözlərinə çoxları inanırdı, çünki o, Zeynalın bibisi idi. Şərəbanı arvadın əsas peşəsi mühasiblik olduğu üçün kənddə ona iş tapılmırdı.

Bunların hamısı bir tərəfdə qalsın, ən çətin məsələ kimin qocalar evində qalmasıydı. Zeynal bildirmişdi ki, mən qoçalar evini tikdirəcəm, içini qaydaya salaçam, neçə ki, canımda can var, işçilərin məvacibini də verəcəm. Amma bir şərtlə ki, orada

qalanlar təqaüd kartlarını müdirə versinlər, onların yeməyi, digər təlabatları həmin pullarla ödəniləcək.

Bundan sonra təqaüd kartları kənddə ciddi müzakirəyə çevrilmişdi. Səbəbi də o idi ki, kartlar kənddə əməlli-başlı dəbdə idi. Solmaz arvadın pensiya pulunu Bakıda universitetdə oxuyan nəvəsinə göndərirdilər. Çünki hələ Güllü universitetə qəbul olmamışdan xeyli qabaq Solmaz arvad həmişə deyərdi ki, Güllü qəbul olsun, mən pensiyamın hamısını ona göndərəcəm. Heç bunu deməsəydi də, yenə onun təqaüdünü Güllüyə verməliydilər. Çünki evin nəqd pul gəliri elə bu idi. Güllü də kəndə gələndə nənəsini qucaqlayıb oxuyardı:

Nənə, nənə, ay nənə,
Qurban olum mən sənə.
Kartını da ver mənə,
Qurban olum mən sənə.

Doğrudur, Şəmilin yaxşı təsərrüfatı, bir neçə inəyi vardır, qatığı, südü, pendiri həmişə olardı. Amma onları satıb pula çevirmək çox çətin idi, ona görə ki, qonşuların hamısı mal-heyvan saxlayırdı və heç kəsin evindən qatıq-süd əskik olmazdı. Əvvəllər alverçilər yığılan pendiri gəlib alardılar, indi pendir alan da yoxdu. Şəmilin ümidi yenə anasının pensiya kartı və bəslədiyi danaları idi. Ona görə də Şəmilin anasını aparıb qocalar evinə qoyması ağlabatan deyildi.

Abbas da hay-həşir salmışdi ki, nə qocalar evi? Niyə biz ölmüşük ki, analarımızı aparıb qocalar evinə ataq? Həqiqətən, Abbas ailəcanlı bir adam idi. Ata-anasına, ailəsinə, uşaqlara, həmişə canıyananlıq edərdi. Əvvəllər onun evi həyətin bir başında, ata-anasının evi isə həyətin o biri başında idi. Aralarında 70-80 addım məsafə olardı. Abbas axşam yeməyini yeyəndən sonra hər gün onlara baş çəkərdi. Hal-əhval tutar, nəyə ehtiyacları olduğunu soruşardı. Onlar Abbasdan çox razı idilər. Çünki qızlar ərə getmiş, başqa yerə köçmüşdülər, böyük oğlan da Bakıda ya-

şayırdı. Atası canını tapşıranda Abbasa demişdi ki, Allah sənin ömrünü duz dağına döndərsin, sən bizə yaxşı oğul oldun. Sonra tək qalmasın deyə anasını yanına gətirmişdi. Evdə də anasına gözün üstə qaşın var deyən olmazdı. Amma bir məsələ var ki, Abbasın ali məktəbdə oxuyan uşağı olmasa da, Şəmilgil kimi onun da evinə gələn pul anasının təqaüd kartında olan pul idi.

Abbas yüngülvari alverlə məşğul olurdu. Ordan-burdan alıb gətirdiyi ucuz pal-paltarı arvadı qonum-qonşuya satırdı. Amma onların pulunu yığmaq çox çətin idi. O pulların coxusu nisyə dəftərində əyri-üyrü hərflərdə qalmışdı.

Kənddə ən mürəkkəb vəziyyət Dəstəgül xalagildə idi. Dəstəgül xalanın iki oğlu, iki qızı vardı. Hamısı kənddə yaşayırdı. Qızlarının birini qardaşı oğluna, digərini isə qayınının oğluna vermişdi. Bir vaxtlar qızlar yetkinlik yaşına çatanda Dəstəgül xala kənddəki məclislərin birində açıq-açıgına, özü də ucadan demişdi ki, heç kim mənim qızlarıma elçi düşməsin. Mən bu kənddən gördüyümü görmüşəm, qızlarımı öz qohumlarıma verəcəm. Dəstəgül xala dediyi kimi elədi. Oğlanlarına gəldikdə isə birinə baçısının qızını, o birinə isə baldızının qızını almışdı. Baldızının qızını aldığı oğluna dava-dalaşla kəndin girəcəyində-qocalar evinin tikiləcəyi yerin yanında ev tikmiş, ailəni ora köçürmüşdü. Bacısının qızını aldığı oğlunu isə yanında saxlamışdı. Bunun da mənasını hamı bilirdi ki, Dəstəgül xala bacısı qızına görə onu yanında saxlamışdı, yəni qocalanda ona bacısının qızı baxsın. Amma vəziyyət bambaşqa idi.

Dəstəgül xala yaşlaşdıqca məsələlər çətinləşirdi. Çətinliyin biri də onda idi ki, yanında qalan oğlu çox vaxt araq içir, evə sərxoş halda gəlirdi. Bu, Dəstəgül xalanı çox narahat edirdi ki, vəziyyət mürəkkəbləşər və oğlu ilə bacısı qızı arasında münasibətlər pozular. Amma bacısının qızı çox usta tərpənirdi. Xalasından fərqli olaraq içki üstündə ərinə heç bir söz demirdi. Günlərin biri isə vəziyyət lap gərginləşdi, oğlu hirsli-hirsli Dəstəgül

xalaya dedi ki, uşaqların hərəsinin evində üç ay qalarsan, qoy o biri oğlanların, qızların da əziyyətini çəksin. Doğrudan da, belə oldu. Amma Dəstəgül xalanın tez-tez yatdığı yeri dəyişməsi ona baha başa gəlirdi, günlərlə yata bilmirdi. Hərdən deyirdi ki, gedib qocalar evində qalacağam. İndi Zeynalın kənddə qoçalar evi tikdirməsi onun ürəyinə yatırdı. Uşaqlar da, kənd camaatı da düşünürdülər ki, qocalar evinə əsas namizədlərdən biri Dəstəgül xala olaçaq.

Qocalar evinin bir namizədi də Şirin xala idi. Buna kənddə heç kəs şəkk-şübhə etmirdi. Səbəbi bu idi ki, Şirin xala öz evində tək-tənha qalmışdı. Bizim kəndlərdə belə şeylər çox olurdu. Uzun müddət tək qalan qocalara qonşular yardım göstərirdilər. Çalışırdılar ki, çox da sıxıntı keçirməsinlər. Hərdən məktəbli uşaqlar həmən qocalara baş çəkər, kömək edər, darıxmağa qoymazdılar.

Şirin xala tək qalmışdı. Şirin xalanın üç oğlu vardı, üçü də Bakıda yaşayırdı. Yalnız bayramlarda gəlib ona baş çəkərdilər. Amma Bakıya aparmağa heç vaxt cəhd göstərməzdilər. Şirin xala oğlanlarından gileylənməzdi. Həmişə deyərdi ki, mən öz evimdə qalmaq istəyirəm. Bu evin torpağını, kərpiçini əlimlə daşımışam. Bu həyətin hər addımı mənə əzizdir, onun hər qarışını daşdan, çınqıldan təmizləyə-təmizləyə torpaq halına gətirmişəm.

Qocalar evinin başqa bir namizədi Pəri xala idi. Çünki o, hal-hərəkətdən düşmüşdü. Hamı tam əmin idi ki, Pəri xala qocalar evinə birinci gedəcək. Fatma müəllimə deyirdi ki, Pəri xalanın özü istəməsə də, onu bir təhər dilə tutub qocalar evinə aparmaq lazımdır, ölüb eləyər, bilmərik, sonra biabırçılıq olar.

Qocalar evinin tikintisi çox çəkmədi, cəmisi 3-4 aya başa gəldi. Ev hər birində iki nəfərin qalacağı beş otaqdan, uzun və enli şüşəbənddən ibarət idi. Şüşəbəndin bir tərəfində mətbəx, digər tərəfində hamam və tualet tikilmişdi. Otaqlara təp-təzə, rahat

mebellər qoyulmuşdu. Şüşəbənddə stol, stullar, divan, kreslo və divardan asılmış geniş ekranlı televizor var idi. Görənlər bəh-bəhlə danışırdılar. Deyirdilər ki, qocalar evinə gəlmək istəmə-yənlər də buranı görəndən sonra oynaya-oynaya gələcəklər. Gül-dəstə xalanın nəyinə lazımdı ki, öz qohumları ilə üz-üzə gəlsin. Gəlib burada oturacaq, həmyaşıdları ilə şirin-şirin söhbət edə-cək, rahat da yatacaq. Ya elə Şirin xalanın tək tənha yaşamağın-dandısa, keçmişdən-gələçəkdən danışıb qayğısız-qayğısız gün keçirməyi daha yaxşıdı. Hətta Şəmillə Abbasın da kürkünə birə düşmüşdü ki, ordakı şəraitin yaxşılığı analarını əllərindən ala bilər.

Qocalar evinin açılışına bir neçə gün qalırdı. Zeynal müəl-lim də zəng vurub demişdi ki, mən xaricdə olacağam, gələ bil-məyəcəm, açılışı eləyin və Fatma müəllimə də mudir olsun. Özü də bunu bibisi Şərəbanıya demişdi.

Qocalar evinin açılışı oldu. Elə səhərisi gün bir xəbər ha-mını heyrətə gətirdi. İldırım kimi kəndə yayılan xəbər bu idi ki, Pəri xalanın oğlu kəndə gəlib anasını götürüb Bakıya aparmışdı.

İndi qocalar evi yerindədi, amma boş deyil. Fatma müəl-limə orada birinci sinfə getmək istəyənlərə hazırliq dərsi keçir.

***04.09.2018***

# YORĞA ATIN QAÇIŞI

At bazarı ayrıydı; meyvə-tərəvəz satılan yerdən, hətta mal-heyvan bazarından da uzaqda yerləşirdi. Demirəm ki, bunların arasında kilometrlərlə məsafə vardı, yox, hər halda bir-birindən xeyli aralıdaydı. Mal-heyvan bazarı meyvə-tərəvəz bazarına qismən yaxın olsa da, oralardan at bazarının izi-tozu görünmürdü. Mənə sual versələr ki, həmin bazarları niyə bir-birindən ayırmışdılar, düzü, çəkinmədən cavab verərəm ki, bilmirəm. Elə indi də deyirəm ki, bilmirəm. Amma öz-özümə güman eləyirəm ki, at bazarının rayon mərkəzindən xeyli kənarda yerləşməsi bu məkanın yan-yörəsində ucu-bucağı görünməyən uzun-uzadı torpaq sahələrinin olması ilə bağlıdır. Yəni buraya gətirilən boz, qonur atların cövlan eləməyinə imkan yaradılmışdır. Doğrusu, bundan başqa bir şey ağlıma gəlmir.

Orası da var ki, bazarların ayrı-ayrı olması alıb-satanlar üçün dəqiq ünvan demək idi, bir az da vaxt itirməmək anlamına gəlirdi. Yəni at alan at bazarına, mal-heyvan alan mal bazarına, meyvə-tərəvəz almaq istəyən də meyvə-tərəvəz satılan yerə gedərdi. Nə müştərilər baş aparardı, nə də satanlar boş-boşuna danışardılar. Maşın bazarını xatırlayırsız? Sumqayıtdakı, Bakıdakı maşın bazarını deyirəm, rayonda maşın bazarı olmur, maşını yolda-izdə qoyub satırlar. Sumqayıtda, Bakıda bir maşının qiymətini əlli dəfə soruşurlar. Hələ onu demirəm ki, dil boğaza qoymayıb maşının keçmişini öyrənməyə çalışırlar: İli neçədir, motoru neçə at gücündədir (bağışlayın, at gücünü dilə gətirmirlər, elə “motoru neçədir” sualını verirlər), nə qədər yol gedib, maşını hansı peşə sahibi sürüb və sair. Alanlar daha çox çalışırlar ki, həkimlərin maşınını alsınlar, çünki həkimlərin qazancı yaxşı olduğuna görə xaltura-filan fikirləşmirlər, heç bunu özlərinə də sığışdırmırlar. Soruşurlar, soruşurlar, bəzən görürsən, axırda da heç alan olmur. Satana elə ağzının ağrımağı qalır.

At bazarına həmişə atı tanıyan adam gələrdi, atdan başı çıxmayanların burada elə bir işi olmazdı. Alanın özü ata nabələd olsaydı, yanında hökmən atdan başı çıxan bir adam gətirərdi. Aldı-almadı ona da bir günorta qonaqlığı verərdi, qonaqlığın ağırlığı-yüngüllüyü də, şübhəsiz, atın alınıb-alınmamasından asılı olardı.

Vəli kişi at bazarına naxırçı yoldaşı İbişlə gəlmişdi. Bu əngi əyri İbiş gecə vaxtı arvadının arzusu ilə yanan lampanı söndürə bilməyən adam deyildi. Ona at məsələlərindən başı yaxşı çıxan birisi də demək olmazdı, Vəli kişi onu yanına salıb at bazarına gətirmişdi. Başqa şeyləri demirəm, Vəli kişi at məsələsində sərraf idi. İbiş isə dədə-babadan mal-heyvanla, tövlə işləri ilə, mehtərçiliklə məşğul olardı. İbişə də elə-belə baxmayın, onun bildiyi bir şey var idi ki, onu kənddə heç kəs bacarmazdı: kimin atı doğsaydı, həmin gecə İbiş atın yanında olmalıydı, yəni İbişsiz atın doğması müşkül məsələ idi.

İbişin əsl adı İbrahimdir və İbrahim sözünün qol-qabırğasını sındırıb uşaqlıqdan elə ona İbiş adını yapışdıran öz bibisi olmuşdu. Hamının qabağında nər-nər nərildəyən bibisi də açıqca demişdi ki, "İbrahim" peyğəmbərin adıdı, əgər o, böyüyəndə peyğəmbərin adına layiq olsa, əməliylə ad çıxarsa, qoy onda camaat bu yetimçəyə İbrahim desin, peyğəmbərin adı da ona halal olsun. O vaxt mənim də könlüm şad olar, bilərəm ki, bizim də nəsildə o müqəddəslərin adına layiq bir oğul var. Əslində camaatın ona İbiş deməyinə baxmayın, kənd əhli başqa bir işinə görə də onu çox istəyirdi, ona əməlli-başlı hörmətlə yanaşırdı. Bu hörmət kim İbişi haraya buyururdusa, oraya getməyi ilə qazanılmışdı.

Vəli kişinin at bazarına gəlməsinin əsas səbəbi İbişə yox, özünə at almağı ilə bağlıdır. Düzünə qalsa, bir az da qocalmış atını İbişə verib özünə təpərli at almaq istəyirdi. Razılaşmışdılar ki, bunun əvəzində İbiş bir-iki qoyun satıb onların pulunu Vəli

kişiyə versin. Belə bir sevda baş tutsaydı, yəqin gələn həftə Vəli kişi ilə İbiş həmin qoyunları satmaq üçün mal-heyvan bazarına gələcəkdilər, İbiş də daha bundan sonra çöl-biyabana Vəli kişinin atının tərkində getməyəcəkdi.

Bu gün bazar əməlli-başlı bazar idi. Bazarda, bəlkə, 50-60 yaraşıqlı at vardı. Amma qəribədir, heç birinin səsi çıxmırdı. Səhər-səhər idimi, satılmaq üçün gətirildiklərinə görə idimi? – demək çətindi. Hər halda Vəli kişinin beynindən bir fikir keçdi ki, bu qədər atın içərisindən yaxşı at seçmək mümkün olacaq.

Vəli kişi İbişlə minib gəldikləri yorğa atı bazarın kənarındakı söyüd ağacının altında saxladı, Vəli kişi atdan düşüb cilovu ağacın budağına ilişdirdi. Əslində buna o qədər də ehtiyac yox idi, çünki at Vəli kişisiz heç yana tərpənməyəcəkdi. At elə öyrəşmişdi ki, başqa birisi ona minəndə, nə illah eləsə də, yerindən tərpənməzdi. Buna görə də Vəli kişi illər boyu atı istənilən yerə hörükləyib rahatca evinə gələrdi, əmin idi ki, kimsə onun atını minib heç yerə apara bilməz. Başqa birisinin yorğa ata minib harayasa getməsi üçün gərək Vəli kişi ata bir qamçı vuraydı, yoxsa, öldürsəydin də at yerindən tərpənməzdi, bu da Vəli kişinin öz atının dilini yaxşı bilməsi demək idi.

Vəli kişi ilə İbiş əvvəlcə bazarın hər tərəfini gəzib dolaşdılar. Onlar gözlərinin biri ilə atlara, biri ilə də satanlara baxa-baxa gedirdilər, Vəli kişinin atı da gözucu onlara baxırdı. Satanların xeylisi Vəli kişiyə tanış idi. Bunu salam-kəlamlarından rahatca bilmək olardı. Vəli kişi İbişə yavaşca dedi ki, çalışmalıyıq aldığımız oğurluq at olmasın. Bəzən qonşu rayonlardan oğurluq at gətirib satırlar. Sonra da onun əngəli çıxır. Yiyəsi gəlib atı tapanda bilmirsən atı yiyəsinə təhvil verəsən, yoxsa yiyəsinə deyəsən ki, get satanı tap gətir, mənim pulumu qaytarsın. İbiş də soruşdu ki, bəs onu necə tanıyacaqsan? Vəli kişi yenə də astaca dedi ki, onu atdan da, atı satandan da bilmək çətin deyil. O cür atlar həmişə ürkək olur, çünki atı satmağa gətirən onun

yiyəsi deyil. Satanın isə bir gözü həmişə arxada qalır, qorxur ki, yiyəsi gəlib çıxar. Bazarda o qədər belə hadisələr olub ki! Oğurluq atı satan yerdə yiyəsi bazara gəlib çıxıb. İbiş bunu heç vaxt eşitməmişdi. Elə beləcə də Vəli kişiyə dedi, Vəli kişi də yavaşca bildirdi ki, ay yazıq, bu dünyada nə görübsən ki, nə biləsən?

Gəzişmə davam edirdi. Yorğa at da onları gözdən qoymayıb on il bundan qabaq bu bazardan alındığını beyninə gətirirdi. Satılan gün o qədər adam yaxınlaşıb ona baxmışdı ki, atın öz yiyəsinə yazığı gəlməyə başlamışdı, çünki atı alan yox idi. Hələ biri gəlib onun quyruğunu əli ilə oynatmışdı və quyruğunu oynada-oynada nə fikirləşdiyini yorğa at da bilməmişdi. Vəli kişi isə o zaman ata yaxınlaşanda yalmanını sığallamışdı. Onda Vəli kişinin də nə düşündüyünü demək çətin idi, amma bu sığal atın ürəyinə yağ kimi yayılmışdı.

Vəli kişi yorğa atla üz-üzə dayanan və ondan cəmisi on addım aralıda olan bir qonur ata yaxınlaşdı. Atın o tərəf bu tərəfinə keçib ehmalca quyruğunu tumarladı. Yorğa at satıldığı il bir kişinin onun quyruğuna əl vurmasını beyninə gətirdi və fınxırdı. Fınxırtı səsi tanış gəldi və Vəli kişi də, İbiş də başını qaldırıb cilovu söyüd ağacının budağından sallanan ata tərəf baxdılar, çünki onlar yorğa atın fınxırmağını çox eşitmişdilər. İbiş zəndlə gözlərini Vəli kişinin üzünə dikdi, Vəli kişi də başını tərpətməklə "heç nə olmaz" işarəsini verdi. Amma Vəli kişidən çox İbiş narahat olmağa başladı, çünki İbiş bir dəfə yayın qızmar çağlarında atın ilan görəndə bu cür fınxırmağının şahidi olmuşdu. Amma adamların bol olduğu bu düzəngahda ilanın üzə çıxması müşgül məsələ idi. Hətta o da İbişin yaddaşını deşik-deşik eləməyə başladı ki, bir dəfə yorğa at o cür fınxıra-fınxıra ayağı ilə ilanı tapdalayıb öldürmüşdü.

Vəli kişi buradan uzaqlaşıb başqa atın yanına yaxınlaşdı. İbiş də naəlac qalıb onun dalısıyca getdi. Yorğa at da gözünü onlardan bir an belə çəkmirdi və yenə o günləri beynindən

keçirirdi ki, çöldə nə qədər buzov doğulsaydı, onların hamısını yorğa atın belinə yükləyib kəndə gətirərdilər. Həm də yorğa at heyvan sürüsünün yanında gedən və belindəki xurcunda 4-5 quzu daşıyan boz eşşəyi xatırlayıb özünə şükür edirdi. Hətta o da vardı ki, iki buzov doğulanda geri qayıdıb ikincisini də gətirərdi.

Vəli kişi çəhrayı rəngli bir atın yanında dayandı, bu, təpərli ata oxşayırdı. Vəli kişi sahibindən soruşdu ki, yorğa yerişi varmı? O da cavab verdi ki, yorğa yerişi var, amma gec işə düşür. Vəli kişi atın ağzını aralayıb dişlərinə baxmaq istədi. Bunu uzaqdan hiss edən yorğa at ayaqlarını yerə döyüb başını söyüd ağacına sürtməyə başladı. Vəli kişi də, İbiş də heç geri qanrılıb baxmadan atın təpiyini yerə döyməsindən bildilər ki, o, yorğa atdır. İbiş yenə narahatlığını hiss etdirdi. Vəli kişi də eynən bayaqkı kimi başının hərəkəti ilə işarə verdi ki, narahat olma, sonra da güc vurub yanındakı atın ağzını araladı, dişlərinə baxdı. Heç bir söz demədi. Vəli kişinin gözləri atın gözlərinə sataşdı və atın gözlərində kədər göründü, tez də sahibindən soruşdu ki, bunun balaları haradadır? Sahibi də gözləmədən cavab verdi ki, Allahdan gizlin deyil, bəndədən nə gizlədim, atın heç bir balası sağ qalmayıb, doğulan kimi ölüblər. Vəli kişi də "at körpə vaxtı boğulan zaman bərk qorxub", – deyərək uzaqlaşdı.

Yorğa at beynindən Arazın daşıb kəndi sel aparan günü gəlib keçdi. O zaman sel qoyunu, quzunu, keçini, çəpişi qabağına qatıb daşın, divarın, çəpərin, təpənin, yerdən bir boy qalxan ulğunların dibinə sürükləmişdi. Həmin vaxt onların hamısını yorğa atın gücünə yığıb-yığışdırmışdılar. Onda Nazəni arvad hamının əvəzindən atın üz-gözündən öpüb bayatı deyirdi. Elə atın da gözlərindən yaş axırdı.Vəli kişinin qaşqa atın yanında dayanmağı ilə kəndi sel aparan gün yorğa atın yadından çıxdı. Yorğa at canavar görmüş kimi gözləri bərələ-bərələ həm Vəli

kişiyə, həm İbişə, həm də daha çox qaşqa ata baxırdı. Hələ yönünü də dəyişmişdi və az qalırdı cilovunu dartılıb qırsın.

Vəli kişi atın həndəvərinə dolandı. Hər tərəfini diqqətlə nəzərdən keçirdi. Onun nə axtardığını satan da, İbiş də başa düşmədi. Amma Vəli kişi atın başına elə-belə dolanmazdı. Sonra sahibindən soruşdu ki, hansı tərəfdən gətiribsən? O da cavab verdi ki, bulaq başından. Vəli kişi bilirdi ki, bulaq başının atları qıvraq olurlar, qoşquya da çox yararlı idilər. Ürəyindən keçdi ki, pulun ola, bunu alıb kəndə aparasan, kəndin işini təkcanına görüb qurtarar. Ələlxüsus da tənbəki qırımı vaxtı camaatın əlindən tutar. Ona görə ki, qırılmış tənbəkini daşımaq üçün maşın gün günorta olanda gəlib çıxırdı. Amma ata bir araba qoşub camaatın işini səhər erkəndən görmək olardı. Vəli kişi qəfildən ağlına gələnləri unudub yenə atın sahibindən soruşdu ki, bu atla nə iş görübsünüz? O, “elə-belə”, – deyib bir az da qımışdı. Vəli kişi: “xeyirli olsun”, – söyləyib oradan uzaqlaşdı.

Yenə atların arasıyla dolaşa-dolaşa gəzməyə davam etdilər. Atlar yavaş-yavaş hərəkətə gəlmişdilər. Əvvəlki sakitlikdən əsər-əlamət qalmamışdı. Hətta bir-birinə təpik atanları da var idi. Bəzilərinin də qabağına bazarın yanından pulla aldıqları saman tökmüşdülər.

Vəli kişi bazardan bir az kənara çıxdı. Göz işlədikcə uzanan zəmini seyr etməyə başladı. Bu il bol taxıl olacaqdı. Atları yemdən korluq çəkməyəcəkdilər. Xəyalı həyətlərindəki samanlığa gedib çıxdı. Keçən il topladığı samandan xeyli qalmışdı. Amma hökmən əlavə yem yığmaq lazım idi. Qışı bilmək olmurdu. Bəzən qış elə sərt gələrdi ki, at da, mal-qara da bayıra çıxa bilmirdi.

Vəli kişi yenə ucu-bucağı görünməyən zəmiyə göz gəzdirib üzünü İbişə tərəf çevirdi:

– Yorğa atı sən saxlaya biləcəksən? – soruşdu. İbiş də tez cavab verdi.

– Niyə saxlamıram. Onu göz bəbəyi kimi qoruyacağam.

İbiş bu sözləri çox böyük inamla dedi. Həm də ürəyində qorxurdu ki, Vəli kişi birdən yorğa atı ona verməz, başqasına satar. Elə bu indi bazarın içinə çəksə, beş dəqiqəyə satacaq.

Vəli kişi yenə dilləndi:

– Bilirsən niyə deyirəm? Qorxuram ki, at sənə yovuşmaya.

–Yox, yox! At məni tanıyır, mən də onu. Heç bir şey olmaz.

Vəli kişi qəribə bir baxışla gözünü İbişə zilləyib dedi:

– Bax, səhərdən fikir vermirsən? Bayaqdan hay-həşir salıb. Gah fınxırır, gah təpiyini yerə döyür, gah da başını söyüd ağacına sürtür.

İbiş mat-məəttəl qaldı. Heç ağlına gəlməzdi ki, yorğa at nəsə deməyə başlayıb.

Vəli kişi: “Ya Allah!” – deyib əvvəlcə baxdığı və yorğa atla üz-üzə dayanan qonur ata tərəf addımladı. Gəlib düz onun qabağında dayandı. Bütün nəzərlərini ata tərəf yönəltdi. Bu zaman yorğa at təhlükə duyan kimi qulaqlarını şəkləyib Vəli kişiyə və qonur ata tərəf baxırdı.Yorğa atın içinə elə bil üşütmə düşmüşdü.

Vəli kişi sahibinə pıçıldadı ki, onun yaxşı at olduğunu bilirəm. Özü də az minilib, bəlkə, heç çapılmayıb. Satan dedi ki, düzdür, bu atı qardaşım göz bəbəyi kimi qoruyub. Qardaşım müəllimdir, qonşu kənddə işləyirdi. Oraya getmək, evə qayıtmaq çox çətin idi. Bu atı ancaq məktəbə getmək üçün almışdı. İndi təqaüdə çıxıb. Altı-yeddi ay da elə-belə saxladıq, dedik, bəlkə, lazım olar. İndi görürük ki, yox, bizə ehtiyac deyil. Ona görə satırıq.

Vəli kişi atın yalmanını sığallamağa başladı, boynunu tumarladı, əlini sevə-sevə üzündə gəzdirdi. Yorğa atın kişnərtisi eşidildi. Beynindən keçdi ki, Vəli kişi onu alanda da beləcə yal-

manını sığallamışdı, boynunu tumarlamışdı, üzünə əl gəzdirə-gəzdirə əzizləmişdi.

Vəli kişinin bir gözü də yorğa atda idi. O, yorğa atın nə edəcəyini hələ təsəvvür eləmirdi, ya da təsəvvür eləmək istəmirdi.

Vəli kişi qonur atın yiyəsinə pul verib onunla halallaşandan sonra atın cilovundan tutub yorğa ata tərəf getməyə başladı. Bunu görən yorğa atın ayaqlarını yerə döyməsi, kişnərtisi bazarı vəlvələyə saldı. Hamı yorğa ata tərəf baxırdı. Qonur at ona lap yaxınlaşırdı ki, yorğa at cilovu dartıb qırdı və yaşıl zəmi boyu dağlara tərəf üz tutdu. Yorğa atın qaçışı canavardan qorxub qaçan atın qaçışına oxşayırdı və Vəli kişi əmin idi ki, İbiş atsız qalacaq..

***Ankara, 25.10.2018***

# POLE ÇUDES OYUNU

Otağa gözlənilmədən ağır bir sükut çökmüşdü. Onların hər ikisi gözlərini bir-birinin üzünə zilləmişdi. Əvvəlki söhbətə qulaq asanlar, bəlkə də, fikirləşirdilər ki, elə bu dəqiqə dava-dalaş yenidən başlayacaq. Ata öz oğluna ağzından çıxanı söyləyəcək, lap elə böyük-kiçik sərhədi gözləməyəcək. Hətta oğlunu uşaq yerinə qoyub əməlli-başlı əzişdirəcək, anası gəlib əlindən alsa da, ona məhəl qoymayacaq. Amma, nədənsə, danışmaq istəmirdilər. Danışmaq deyəndə ki, oğlan hələ ağzını açıb bir kəlmə də söyləməmişdi. Elə bil onun vəzifəsi sus-pus oturub qulaq asmaq idi. Oğlanın hərəkətləri bir az da ədəb-ərkan gözləməyə oxşayırdı. O ki qaldı insaf məsələsinə, insaf üçün oğul gərək atasının bəzi sualına cavab verə idi, çünki onlar elə də çətin suallar deyildi. Amma cavab vermirdi. Bəli, atasının xasiyyətinə yaxşı bələd idi. Bilirdi ki, atası vaxt keçirmək üçün elə-belə sual verir, ondan cavab almaq niyyətində deyil. Yoxsa, elə dirəşərdi, hirsini boğa-boğa elə qışqırardı ki, oğulun ağzı nədi onun suallarına cavab verməsin.

Sükutu yenə də ata pozdu, amma bu dəfə o, gülümsəyə-gülümsəyə danışmağa başladı:

– Ə, Şahqulunun nəvəsi, bəlkə, səndən bir-iki vacib söz soruşum, yəqin onlara cavab verərsən?

Yenə sükut yarandı. Bayırdan da, evin içərisindən də bir səs belə eşidilmirdi. Bu dəfə az qalırdı ki, sükutun bağrı çatlaya. “Di soruş da, niyə dayanmısan! Özün demədin ki, söz soruşum? Bəlkə, nə soruşacağın yadından çıxdı. Yox, yox, çıxıb eləməyib. Ona görə ki, bığaltı gülümsəyirsən”. Ata oğlunun onun haqqında məhz belə düşündüyünü ağlına gətirib dilləndi:

– Həə, soruşum? Mənim suallarıma cavab verməyə hazırsan? Yaxşı düşün, əgər istəmirsənsə, heç sual verməyim? Dünya dağılmayacaq ki?! Guya mənim suallarım olmasa, dünyanın işi keçməyəcək?

O, yenə gülümsəməyə başladı, yenə oğlunun lal-kar dayanmasına diqqətlə baxdı. Birdən atanın dodaqlarından gülüş dinməz-söyləməz yoxa çıxdı. O, xeyli ciddi bir görkəm aldı:

– Ə, Şahqulunun nəvəsi, niyə dinmirsən? Dilini kökündən çıxarıblar? Bəlkə, ağzını açasan, baxım görüm dilin yerindədir, ya yox?! Elə bil sükut orucu tutub, zalım oğlu zalım.

Oğlan yenə dillənmədi. Elə o da hövsələsini bir az gen tutub dərinə getmədi. Amma bu dəfə sükut da çox sürmədi. O, uzandığı çarpayıda o tərəf-bu tərəfə qurcalanıb bir az dikəlmək istədi. Oğlan cəld yerindən qalxıb başqa bir kiçik balıncı onun kürəyinin arxasına qoydu. Sonra da gəlib yavaşca yerində oturdu.

Ata dilləndi:

– İndi səninlə pole çudes oynayacağam. Bir sualı bilsən yarımfinala çıxırsan, ikinci sualı bilsən finala çıxırsan, ən çətin sualı isə finalda verəcəyəm. Əgər qalib gəlsən, mükafat alacaqsan? Həə, mükafatın nədən ibarət olduğunu bəri başdan deyə bilmərəm, bu, ağzı açılmayan bir sirdir.

O, bir anlıq nəfəsini dərdi və sonra dedi:

– Başladıq. Çox əvvəllər yay aylarında kəndimizdə əkintikini suvarmaq üçün hamı suya tamarzı qalmışdı, sudan ötrü qonşu qonşunun, qardaş qardaşın vurub başını yarırdı. Bir vaxtlar insafa gəlib Araz çayının kənarında su nasosları quraşdırdılar və suyu nasoslarla Arazdan çəkib enli və uca arxa vururdular ki, hamı o sudan istifadə etsin; həm kolxozun, həm də camaatın əkib becərdikləri yanıb külə dönməsin. Həmin su gələn arxa da uşaqdan-böyüyə hamı Motor arxı deyirdi. Əslində kəndimizdə içməli su da yox idi. İçməli suyu da ilboyu Arazdan gətirirdilər, həftənin bazar günündən başqa hər gün qız-gəlini, cavan oğlanları soldatlar tikanlı məftillərin əhatəsində olan qapıdan Araza tərəf buraxardılar. Çayın yatağı çox aşağı olduğu üçün 20-25 pilləkən aşağı enmək lazım gəlirdi. Günlərin bir günü kəndimi-

zin gözəl-göyçək gəlini Səhnə su götürəndə ayağı sürüşüb Araza düşdü və hamının gözü qarşısında boğuldu. Birinci sual belədi: Arazdan su götürərkən kim Səhnəni itələyib Araza salmışdı?

Sonra da əlavə etdi ki, vaxt gedir.

Yenə də araya sükut çökdü. Onlar matdım-matdım bir-birlərinin üzünə baxmağa başladılar. Sanki neçə illərdir ki, görüşmürlər. Elə bu zaman fikir atanı uzaq illərə apardı. "Yazıq Səhnə kəndin sayılan-seçilən abırlı-həyalı gəlinlərindən idi. Hamının işinə yarayardı, hamıya kömək əli uzadardı, nə desəydin "gözüm üstə" sözündən başqa sözü olmazdı. Qonşular üçün təndirə çörək yapardı, yaşlı adamların əkin-tikininə kömək edərdi, bəzən ev işlərinə də əl atardı. Doğrudur, kasıblığın üzü qara olsun, kasıblıq çox kəmfürsətdir, adamın belini bükür. Amma işləyib pul qazanmaq heç də qəbahət deyil. Kimdənsə borc pul almaq üçün adamda üz lazımdır, amma zəhmətinlə çörək qazanmağa ağız büzən olmaz. Yazıq Səhnə, heç nəyin güdazına getdi".

O, birdən yuxudan ayılan kimi oldu və evdəkilərin eşidəcəyi uca səslə dedi:

– Həə, bir dəqiqə bitdi, cavab?

Cavab gəlmədi. Oğlan matdım-matdım atasının üzünə baxırdı. Hələ fikirləşirdi ki, atası bu sualı ona nəyə görə verib? Fikirləşə-fikirləşə ağlına iki məsələ gəlmişdi. Birincisi bu idi ki, Səhnənin ölümü kəndin ən böyük faciəsi hesab olunduğuna görə atası bu sualı vermişdi. Səhnə boğulanda uşaqlı-böyüklü bütün kənd adamları Arazın kənarına tökülüşüb yana-yana, ağlaya-ağlaya Səhnənin ölüsünü axtarırdılar. Bir də oğlanın ağlına gəldi ki, verilən sualda Səhnənin ölümü əsas ola bilməz. Olsa-olsa sual ikinci məsələ ilə bağlıdır. Bu da ondan ibarətdir ki, o, Səhnənin qızını istəmişdi. Yəqin atası bunu bildiyi üçün oğluna belə bir sual vermişdi. Amma nə düşünürsən düşün, nə fikirləşirsən

fikirləş, bu sualın verilməsinin əsl səbəbini, şübhəsiz, atasından başqa heç kəs bilə bilməzdi.

– Ə, Şahqulunun nəvəsi niyə cavab vermirsən? Mən bilən bu sualın cavabını söyləmək sənin üçün o qədər çətin olmamalıdır.

Atasının bu sözlərindən sonra oğlanın ağlına gəldi ki, həə, elə düşündüyüm kimidir, atası eyhamla danışıb məhz axırı yaxşı qurtarmayan həmin məsələyə işarə vurur.

Atasının da qəfildən ağlına gəldi ki, uşaq elə həmin məsələni xəyalına gətirə bilər. Sonra da ürəyində dedi ki, deyəsən, uşağın xətrinə dəydim. Bunu fikirləşərkən halı əməlli-başlı dəyişdi. Bayaq oğlunun kürəyinin altına qoyduğu balıncı götürmək istədi. Oğlan cəld yerindən qalxıb atasına kömək elədi və balıncı götürəndən sonra atasını yavaşca çarpayının üzərinə uzatdı. Yanındakı stolun üstündə qoyulmuş qrafindən stəkana su süzüb atasına uzatdı. Atası da suyu alıb bir-iki qurtum içdi.

Fasilə yarandı. Amma bu fasilə də uzun çəkmədi. Atasının rəngi özünə qayıtdı. Sualını bir az da ört-basdır etmək, uşağın xətrinə dəyməmək üçün belə bir cümlə işlətdi:

– Axı sən Səhnənin oğlu ilə dostluq edirdin! Hər halda sənə bu barədə nəsə deməmiş olmaz. Bilirəm, özün cavab vermək istəmirsən. Onsuz da hamı kimi sən də bilirsən ki, Səhnəni Nəcəfalının gədəsi itələyib Araza salmışdı. Həə, bu sualın cavabını bildin. Keçək yarımfinalın sualına. Bu sual əvvəlkindən azca çətin olacaq.

O, yenə dikəlmək istədi. Bunu hiss edən oğlan yerindən tez qalxıb atasına kömək elədi və balıncı yenidən onun kürəyinin altına qoydu. Bu dəfə, deyəsən, bədəni bayaqkından bir az da yuxarı qalxmış oldu. Dərindən nəfəs alıb dilləndi:

– Həə, hazırsan? İkinci sual bir az çətindir. Axı, yarımfinal sualıdır.

Oğlan yenə matdım-matdım atasının üzünə baxdı. Atası nəsə yadına düşmüş kimi gülümsəmək istədi, dodaqları qaçdı, amma gülümsəmədi.

– Yəqin ki, Məşədi Vəli kişini yaxşı tanıyırsan, o, öləndə sən elə də uşaq deyildin. Yas yerində köməklik edirdin, çay gətirirdin, stəkan aparırdın. O, məzəli-məzəli söhbətlər edərdi, hər deyilənə bənd olmazdı, amma ürəyində çox sirlər vardı. Dediyi hər söz ildırım sürəti ilə kəndə yayılardı.

Bir dəfə kürəyini məktəbin divarına dayayıb dincələndə görür ki, Baftalı Salahın nəvəsi yol ilə gəlir. Baftalı Salahın nəvəsi o vaxtlar böyümüşdü, institut qurtarmışdı. Əli ilə onu yanına çağırır və deyir ki, biz uşaq olanda gizlənqaç oynayardıq və Ağoşla Zeynəb elə yerdə gizlənərdilər ki, biz onları tapa bilməzdik. Sonra da söyləyir ki, onların yerini indi tapmışam. Qulağını yaxın gətir, sənə deyim və demişdi. Məşədi Vəli kişi yetmiş ildən sonra gizlənqaç oynadıqları zaman Ağoşla Zeynəbin gizləndiyi yeri tapmışdı. İndi sual belədir: Ağoşla Zeynəbin gizləndiyi yer haradır?

Oğlan gözlərini döyməyə başladı, hələ bir gülümsəmək də istədi, amma gülümsəmədi. Suala məəttəl qalmışdı. İstədi deyə ki, ay ata, mən Ağoşla Zeynəbin yanında olsaydım bilərdim. Amma demədi. Fikir onu öz uşaqlıq illərinə apardı. Onlar da gizlənqaç oynayardılar. Biri gözlərini yumardı, o birilər də ağacların dalında gizlənərdilər. Orada gizlənmək üçün ağaclardan başqa yer yox idi. Yalnız bircə dəfə Səhnənin qızı anamın arxasında gizlənmişdi və anam da heç kəsə ona əl vurmağa imkan verməmişdi. Bircə mən gələndə imkan yaratdı ki, mən onun əlindən tutum. Belə-belə şeyləri fikirləşirdi ki, atası dilləndi:

– Nə yaman çorta getmisən? Sualın cavabını bilmirsən? Bəlkə, dosta zəng edək?

Bu sözlərdən sonra azca qımışdı. Oğulunun da könlündən qımışmaq keçdi, amma bacarmadı.

– Həə, bir neçə variant deyim, onlar haqqında fikirləş. Məsələn, mal tövləsi, Hacı Muradın ot tayası, arxın içi.

Oğlandan yenə səs çıxmadı. Qəribədir ki, birdən mal tövləsində kinoya baxmaqları onun yadına düşdü. Bu, “Leyli və Məcnun” kinosu idi. Demək olar ki, bütün kənd bu kinoya gəlmişdi.

Atası bir az da gözləyib, sonra davam etdi:

– Ə, Şahqulunun nəvəsi, el-aləm bunu bilir, sən bilmirsən? Başa düşdüm, özün demək istəmirsən. Cavab Hacı Muradın ot tayasıdır.

Ata bir az dikəlmək istədi. Oğlan ona kömək elədi. İndi artıq çarpayıda oturan kimi idi.

– Həə, gəldik çıxdıq finala. Şübhəsiz, bu sual xeyli çətin olacaq, axı finaldı, özü də finalın sualına bir anda cavab verməlisən. Amma bir şeyi bilirəm ki, nə qədər pul təklif eləsəm, götürməyəcəksən, final oyununa gedəcəksən. Deynən haradan bilirsən? Oradan bilirəm ki, sən altıncı, ya yeddinci sinifdə oxuyurdun. Novruz bayramı günü kəndin ortasında yumurta döyüşürdülər. Ən maraqlısı bu idi ki, yumurtadan qatar düzəltmişdilər. Uduzan adam sındırılmış yumurtanı ortaya qoyub kənara çəkilirdi. Axıra səninlə Abasqulunun oğlu qaldı. Abasqulunun oğlu təklif elədi ki, gəl döyüşməyib yumurtaları yarı bölək. Yadımdadır, sən də bununla razılaşmayıb yumurtaları döyüşdürdünüz. Nəticədə də uduzdun. Mən elə o vaxtdan bilirəm ki, sən uduzsan da, geri çəkilən deyilsən. Həə, sual belədir: Çauşevskini kim ödürüb?

Oğlan mat qaldı. Öz-özünə düşündü ki, bu sual haradan çıxdı. Çauşevski hara, mən hara. Bir az vaxt keçəndən sonra ata dilləndi:

– Gözləmirdin sualı? Axı finaldı! Mən sənə asan sual verə bilməzdim. Cavabı tapa bilmədin, bəlkə, fikirləşirsən ki, atam da bilmir, elə-belə ağzına gəldi, sual verdi.

Fasilə yarandı. Atası başını yırğalayıb dedi:

– Çauşevski hakimiyyətə gələndə dekret verib abortu qadağan eləmişdi. Qadağan olunmuş abortdan doğulan uşaqlar böyüyüb Çauşevskini öldürdülər. Ha-ha-ha! Ə, sən heç bir şey bilmirsənmiş ki! Yox-yox, səhv elədim, yenə özün demədin. Sən qalib gəlirsən.

Onu öskürək tutdu. Öskürək ara verəndən sonra dedi:

– Həə, mükafat barədə düşünərəm.

Yenə onu öskürək tutdu:

– Öhöö, öhöö, öhöö!

***Yessentuki, 09.08.2018***

## ŞEİR DƏRSİ

– Mən indi sizin gələcəyiniz haqqında, sənin və bacılarının taleyi barədə düşünürəm. Düşündükcə də özümü narahat hiss eləyirəm. Elə  bil dünya başıma fırlanır. Bilirsən niyə, nə üçün? Mənim özümə də çox qaranlıqdır ki, bir neçə ildən sonra sizin dolanışığınız necə olacaq? Özünüzə bir iş tapa biləcəksinizmi, adam balası kimi yaşayacaqsınızmı, yoxsa, yox? Sənə də, anana da, bacılarına da yaxşı bəllidir ki, başqaları kimi sizin üçün ev, torpaq, obyekt, maşın, nə bilim, nələr, nələr düzəldə bilməmişəm. Həmişə fikirləşmişəm ki, ağılsız oğul neynəyir ata malını, onsuz da vurub dağıdacaq, kül eyləyəcək; ağıllı oğul neynəyir ata malını, onsuz da diribaşlığı ilə özü qazanacaq, hələ başqalarına da əl tutacaq. Məndən bu dünyada sizə heç nə qalmasa da, bir təsəllim var, təsəllim odur ki, adınızı mən qoymuşam. Siz də həmişə adınıza layiq olmusunuz və olacaqsınız. Bilirəm ki, bu adlar hərdən də olsa, məni sizə xatırladacaq. Doğrudur, universitet qurtarmısan, onu da bilirəm ki, çox yaxşı oxumusan, əlaçı olmusan. Sən qırmızı diplom alıb evə gələndə sevincimin həddi-hüdudu yox idi. Bu cür sevinməyim bir də özüm universiteti qurtarıb qırmızı diplom alanda olmuşdu. Yadıma gəlir, bir dəfə sənin riyaziyyat müəlliminlə rastlaşmışdım, əvvəl hal-əhval tutduq, sonra keçmiş günləri xatırladıq. Bir vaxtlar o da mənimlə eyni universitetdə oxumuşdu, amma fakültələrimiz ayrı idi. Səndən danışanda çox böyük razılıq hissi ilə üz-gözü gülürdü. Deyirdi ki, oğlunuzun tayı-bərabəri yoxdu, nadir uşaqlardandır. Riyaziyyatı çox gözəl bilir, yaxşı başı var. Mən də fürsət tapıb gileyləndim ki, indi uşaqları əvvəlki kimi öyrətmirlər, biz məktəbdə oxuyanda müəllimlərimiz dəridən-qabıqdan çıxırdılar. İndi isə çoxları testlərin cavabını əzbərlədib yola salırlar. Hansı uşaqdan soruşuram ki, $\pi$ nəyə bərabərdir, onların əksəriyyəti $\pi$-nin qiymətini söyləyirlər, deyirlər ki, 3,14-dür. Bir də sual veri-

rəm ki, $\pi$ nəyi bildirir, heç kəsdən cavab gəlmir. Ay balam, çevrənin uzunluğunun diametrə nisbətini demək və bunu uşağa öyrətmək yəni o qədər çətindir? Bax, onda bilirəm ki, müəllimlərin çox da dərinə getmək fikirləri yoxdur. Həə, riyaziyyat müəllimin bir də onu dedi ki, oğlun savadına görə həyatda yaxşı yer tutacaq, yaxşı mövqe qazanacaq. Kaş Allah bu sözləri həmin müəllimin ağzından eşidəydi.

Bu vaxt onu möhkəm öskürək tutdu. Oğlu yerindən qalxıb su ilə dolu stəkanı ona uzatdı ki, bir az içib rahatlansın. Amma nə qədər elədi, suyu içmədi. Elə bil adət eləmişdi, bilirdi ki, bir azdan sakitləşəcək. Belə də oldu. Sakitləşəndən sonra söhbətinə aram-aram davam elədi:

– Oğul bala, bilirsən, həyatda mövqe tutmaq çox çətindir. Eşitmişdim, dayın oğlu deyirdi ki, mən İqtisad Universitetini qurtarıb biznesmen olacağam. İqtisad Universitetini qurtarmaqla adam elə o dəqiqə biznesmen olmur ki!? Dayın oğlu fikirləşir ki, kimsə gətirib ona pul verəcək, o da həmin pullarla həm özü üçün, həm də pulun sahibi üçün qazanacaq. Ay-hay! Pulu olan onu gətirib sənə niyə verir? Elə öz puluyla özü qazanar da. Sənin yadına gəlməz, onda sən uşaq idin. Türkiyədən ustalar gəlib Bakıda novostroyka tikirdilər. Özü də ilk novostroykaların harada olduğunu bilməmiş olmazsan? Teleteatrın yanında üzü yuxarı sırayla düzülən evləri deyirəm. Sonra bir neçəsini də 8-ci mikrorayonda ucaltdılar. Özləri də xəyal eyləyirdilər ki, Bakıdakı bütün novostroykaları bunlar tikəcək, yaxşıca qazanacaqlar. Bəs sonra nə oldu? Bizimkilər onlardan öyrənən kimi türklərə “xudahafiz” dedilər. Özləri elə binalar tikdilər ki, türkləri əməllibaşlı mat qoydular. Ona görə həmişə deyirəm ki, biz istedadlı millətik. Bilirsən, nə fikirləşirəm? Fikirləşirəm ki, aldığın ixtisasdan o qədər də gözüm su içmir. Gəl sənə şeir yazmağı öyrədim, bəlkə, onunla gələcəkdə bir şey qazana bildin. Bilirsən, bir vaxtlar şeirlə nə pul qazanırdılar!? Şeirin hər misrasına bir

manatdan üç manata qədər qonorar verirdilər. Bu da xeyli pul eyləyirdi. Əslində sərbəst şeir də elə bunun hesabına yaranmışdı. Hətta çap olunan bir kitabın pulu ilə gizlin-gizlin ya şəhərdə təzə ev almaq olardı, ya da kənddə ikimərtəbəli mülk tikmək mümkün idi.

Həə, bu şeir yazmaq məsələsi ciddi məsələdir. Bax, əvvəlcə səndən soruşum, Aşıq Ələsgərin şeirlərindən bilirsən? Heç bir-iki misrası yadında qalıb? Məsələn:

Çərşənbə günündə çeşmə başında,
Gözüm bir alagöz xanıma düşdü.

Niyə çərşənbə günündə? Məgər başqa gün olmaz? Götürək elə cümə gününü, müqəddəs gündür. Doğrudur, "çərşənbə" yerinə "cümə" sözünü yazsaq bir heca çatışmayacaq. Onda elə "bir" sözünü də onun əvvəlinə əlavə edirsən, əməlli-başlı misra alınar: "Bir cümə günündə çeşmə başında". Hecası da, bölgüsü də tam yerindədir. Həə, necədir? Allah sənə rəhmət eləsin, ay Aşıq! Misralarını necə söküb-tökürük eey!

Amma məsələ burasındadır ki, "çeşmə" sözünə "çərşənbə" sözü daha çox yaraşır, çünki hər ikisi eyni hərflə başlayır və assosiasiya yaradır. Necə ki "Boyu uzun Burla xatun", yaxud "Sarı donlu Selcan xatun". İndi Aşıq Ələsgərin məhəbbətinin sirrini başa düşdün? Yəqin bilirsən, özün demirsən. Belə şeyləri səndən soruşanda, qorxma, ürəkli ol, utanmadan, çəkinmədən de, danış! Bilirsən niyə? Ona görə ki, bizim əsas dərdimiz elə məhəbbət dərdidir.

Söhrab Tahir isə belə yazır:

İki bölünməkdən elə qorxmuşam,
Çöpü də ikiyə bölə bilmərəm.

Niyə çöpü? Niyə ağacı, budağı, yarpağı, kağızı yox!? Əslində bu sözləri də işlətmək olardı, amma şair "çöp" sözünə üstünlük verib. Birincisi, çöp kiçik olduğuna görə onu seçib, yəni demək istəyir ki, ən kiçik olanı da yarıya bölə bilmərəm. Şair

bu kiçiklik anlamı ilə təzad yaradıb dərdin böyüklüyünü ifadə etməyə nail olub. Amma ikinci bir cəhət də var, bu da ondan ibarətdir ki, "çöpü" sözündəki saitlər incədir və həmin misrada olan bütün saitlər incədir. Bununla da şair ciddi bir harmoniya yaradıb. Həə, necədi sənin üçün? Oğul bala onu da yadında saxla ki, hər adam bunları bilməz. Bunları sənin gələcəyin üçün öyrədirəm, sonralar mənə rəhmət oxuyacaqsan.

Atanı bir dəli gülmək tutdu, öz-özünə gülməyə başladı. Güldü-güldü və oğluna baxıb dilləndi:

– Allah sənə rəhmət eləsin, a Söhrab Tahir! Bəlkə, bu, heç onun ağlına da gəlməyib, amma neynək, indi boynuna qoyarıq.

Qoy birini də deyim, sonra keçək məsələnin o biri tərəfinə. Süleyman Rüstəmin müharibə dövründə yazdığı bir şeiri var: "Ana və poçtalyon". Öz aramızdır, əməlli-başlı şeirdi haa! Bizim ədəbiyyat müəllimimiz onu əzbərdən söyləyərdi, hələ bizə də əzbərlətmişdi. Bilirsən, mənim ədəbiyyat müəllimim necə savadlı idi? Allah rəhmət eləsin! Biz inşanı kitab-dəftərə baxmadan özümüz yazardıq. Bir dəfə yoxlama işində bir sözü səhv yazmışdım, cəzalandırmaq üçün məni yazı taxtasının qarşısına çıxartdı və yazı taxtası dolana qədər həmin sözü təkrar-təkrar mənə yazdırdı. Çox əvvəllərin söhbətidi, səhər-səhər televizorda jurnalist qız məndən müsahibə götürürdü və veriliş canlı yayımlanırdı. Tamaşaçılardan biri mənə sual verdi ki, bəs sən orta məktəb müəllimlərini necə qiymətləndirirsən? Mən də tərəddüd etmədən cavab verdim ki, mənim orta məktəb müəllimlərim əsl kənd professorları idilər. Bir neçə gün sonra mənimlə bir yerdə işləyən və onun qonşuluğunda yaşayan cavan oğlan mənə xəbər gətirdi ki, sənin sözlərini eşidən ədəbiyyat müəllimi deyib ki, bundan sonra ölsəm də, bu dünyadan heç bir umacağım yoxdur. Doğrudur, bir neçə ay sonra ədəbiyyat müəllimim rəhmətə getdi. Amma rahat getdi. Həə, sözü çox uzatmayıb yenə qayıdıram "Ana və poçtalyon" şeirinə. Şeirdə belə bir misra var:

Dörd ay vardı ananın gözləri yol çəkirdi,
Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.

Niyə dörd ay? "Dörd" sözünün yerinə "bir", "üç", "beş", "on" sözlərini də yazmaq olardı və heç bir heca problemi də olmazdı. Əvvələn, "dörd" sözü ikinci misrada olan və bir neçə dəfə təkrar edilən "dərd" sözü ilə həmahəng səslənir. İkincisi, daha mühümdür. Belə ki, şeirin başqa bir yerində "anamın gözləri dörd oldu" sözləri işlənib. "Dörd" sözü ilə "gözün dörd olması" başqa-başqa məzmundadır, amma birgə poetik harmoniya yaradır. Gorun çatdamasın, ay Süleyman Rüstəm, gör səni necə əzizləyirik.

Yenə fasilə yarandı. Amma çox çəkmədi:

– Həə, gördün necə maraqlıdır? Bax, şeirin ləzzəti də elə bunlardadır. Amma, düzü, şeir yazmaq çox çətindir. Onun bəzi sirlərini sənə öyrətdim, bəzilərini də indi öyrədəcəyəm və bu barədə heç kəsə demə, ömürlük sirr saxla. Gördün ki, öz ixtisasınla dolana bilmirsən, taksi-zad sürüb eləmə. Şeir yaz, pul qazan. Baxma ki, şeirə indi qiymət vermirlər, bir azdan sonra verəcəklər. Həə, başlayaq ondan ki, şeir yazmaq üçün birinci mövzudur. Mövzu deyəndə ki, bu, o qədər çətin deyil. Hər şeydən şeir yazmaq olar: ağacdan, dağdan, bağdan, aydan, çəməndən, çaydan, bahardan, yaydan, qonşudan, soydan və sair və ilaxır. Görmürsən, şairlərin hamısı belə-belə şeylərdən yazır. Sənə deyim ki, taksidən, avtobusdan, metrodan, tramvaydan da yazmaq olar. Yox-yox, tramvaydan yazma, deyərlər ki, olmayan şeydən nə yazırsan? Sonra da vedrə qoşacaqlar ki, bu adam olmayan şeylərdən yazır, ha özünü öldür ki, vaxtilə bizim küçədə tramvay xətti var idi və tramvaylar gəlib-gedirdi, ona görə yazıram. Dəxli yoxdu, yenə də səni hoydu-hoyduya götürəcəklər. Əşi, başqa mövzu başına qəhətdir, olan şeydən yaz da. Qoy sənə vedrə bağlamasınlar. Həm də yadında saxla ki, bir mövzuda bir neçə

şeir yaza bilərsən. Bu, yaxşı olar, deyərlər ki, kişinin oğlu serial şeirlər yazır, potensialı çox güclüdür.

Həə, birinci məsələ bitdi. İkinci əsas məsələ qafiyə tapmaq məsələsidir. Yəni ki, qafiyələri mövzuya uyğun müəyyənləşdirməlisən. Bu da çox asandır, belə ki, qafiyə tapmaq məsələsində lüğətdən istifadə edirsən. Mənim sözümə gülmə, çoxları bu üsuldan istifadə edirlər, yəni əvvəlcə bəndlərin qafiyələrini düzürlər, sonra başlayırlar quraşdırmağa. Odu eey, bir tanışımız var, yazdıqları elə-belə şeirlərdir. Amma di gəl ki, bunu ona başa salmaq olmur. Həmişə də deyir ki, mənim şeirlərimdən bir məqalə yaz, mən də deyə bilmirəm ki, axı sənin şeirlərindən necə yazım, hamısı elə bil inkubatordan çıxıb. Xülasə, sözü çox uzatmayaq, qafiyə mühüm şərtdir. Həə, qaldı üçüncü, üçüncü ondan ibarətdir ki, gərək sənin bir misran lap güclü ola. Yəni ki, axırıncı bənddə güclü bir fikir deyəsən. Bu da asandır, onun fikrini çox çəkmə. Şeiri yazıb qurtarandan sonra gördün ki, güclü misra hansı bənddədirsə, həmin bəndi axıra salarsan. Vəssalam-şüttamam.

Yenə fasilə yarandı. Heç biri dinib danışmadı. Hərə öz ürəyində nəsə düşünürdü. O, birdən yenə qızışdı:

– Həə, gəl indi mövzunu müəyyənləşdirək. Elə payızdan yazaq. Yadımdan çıxmamış bir şey də deyim ki, şeir yazanda həmişə siyasətdən uzaq ol. Ədəbiyyatı siyasətə qarışdırmaq olmaz. Yazıçıdan da siyasətçi çıxmaz. Biri var idi eey, həmişə kəndlərindən yazırdı, siyasətçi olmaq istəyəndə bütün qazandıqlarını itirdi. Ona bir deyən olmadı ki, a bala, siyasət sənin işin deyil, get, yazını yaz.

Həə, payızdan yazmaq üçün əvvəlcə payızın əlamətlərinə uyğun sözləri seçib onların qafiyələrini tapmaq lazımdır. Yaxşı bilirsən ki, payızın birinci əlaməti yarpaqların saralmasıdır. Onda “yarpaq” sözünə qafiyələr tapılmalıdır. Yarpaq, yaraq, qıraq, araq, yox-yox “araq” lazım deyil, quraq, qalaq!..

Ağır nəfəs alır saralmış yarpaq,
Yerdəki xəzəllər qalaqbaqalaq,
Heç yerə getməyək, gəl burda qalaq,
Payızın xətrinə, sənin xətrinə.

Görürsən, şeirdə "qalaq" sözünü həm isim kimi, həm də feil kimi işlətdik. Əslində bayaq onu isim kimi nəzərdə tutmuşduq. Üçüncü misrada "qalaq" sözünün feil kimi işlənməsi artıq istedadın nəticəsidir və yazı onunla xeyli tanınacaqdır.

Payızın başqa bir əlaməti havaların soyumasıdır. Onda "soyuq" sözünə qafiyə tapmalıyıq. Soyuq, oyuq, ayıq, qayıq, sayıq, dayaq. Buradan üç sözü götürək: soyuq, oyuq, dayaq.

Gizlicə-gizlicə dolaşır soyuq,
Quşlara yuvadır hər kiçik oyuq,
Üşüyən otlara gəl duraq dayaq,
Payızın xətrinə, sənin xətrinə.

Görürsən, nə gözəl alındı. Şeirdə payız təbiəti əməlli-başlı hiss edilir.

İndi məsələ burasındadır ki, bu bəndlərdə payız bir soyuq fəsil kimi yaddaşlara köçür. Ona görə də çalışmaq lazımdır ki, şeirə bir az hərarət gəlsin və şeiri oxuyan oxucu üşüməsin. Həm də həmin bənddə soyuqla istinin təzadı yaranacaq ki, belə bir məqam poeziya baxımından xeyli cəlbedici olacaqdır. Bu məsələlər üçün də yeni qafiyələr tapmaq lazımdır. Şeiri doğmalaşdırmaqdan ötrü "nəfəs" sözündən istifadə etmək olar. Nəfəs, həvəs, bəs, səs, əs – yox-yox, "əs" olmaz, o, soyuqluq gətirir.

Uzaqdan kükrəyir alovlu bir səs,
Qəlbimi bürüyür isti bir nəfəs.
İçimdə göyərir təzə bir həvəs,
Payızın xətrinə, sənin xətrinə.

Bəh-bəh-bəh! Məktəbdə öyrəndiyin şeirlərin hansından pisdir? Onların birini əzbər deyə bilərsənmi? Hər halda sənin əzbər bildiyin şeir olmaz, onda elə bunu əzbərləsən bəsindir. Məc-

lislərdə sənə danışmaq üçün söz versələr, bu şeiri ucadan de, qoy əl çalsınlar.

Bir də yadıma düşdü, sən özünə bir təxəllüs də götürməlisən, təxəllüssüz şair olmaz. Dağla bağlı yaxşı təxəllüslər var. Məsələn, Dağbəyi, Dağdələn, Dağyunus. Amma bizim kənddə dağ yoxdu, ona görə də çayla bağlı təxəllüs götür. Arazçaylı, Kürçaylı, Qudyalçaylı kimi təxəllüslər bizdə moddur. Həm də hər kənddə çay olduğu üçün oxucular çaya öyrəşiblər, ona görə də sənin şeirlərini görən kimi oxuyacaqlar və sən də məşhurlaşacaqsan. Bizim kəndin aşağısında sısqa bir çay axır, adı da Dərəçaydır. Nə olar ki, suyu azdı, vaxtilə çox gur axıb. Qorxma, elə onu özünə təxəllüs götür: Dərəçaylı. Ha-ha-ha! Necə də yaraşır!

Onu yenə də öskürək tutdu...

***12.08.2018***

# POVESTLƏR

# YALQUZAQ

## PROLOQ ƏVƏZI

– Ay Məşədi Vəli kişi, bu nədi eey? Gecə səhərə qədər yata bilməmişəm.

– Nə olub, ay Baftalı Salahın nəvəsi?

– Gecə heç nə eşitmədiniz? Ağıl üstündəki yalquzaq bütün gecəni ulayıb! Səsi indi də qulaqlarımdan getmir.

Məşədi Vəli kişi gözünü Baftalı Salahın nəvəsinin gözünə dikib dilləndi:

– Deyirlər, bir zamanlar səhər – səhər əli kərənti tutan Ağıl üstünə ot çalmağa gedirmiş. Bir də görürlər ki, Ağıl üstündəki iri bir çala doludu ilanla. İlanlar gecənin bir vaxtına qədər iki dəstə olub bir-birləri ilə o qədər vuruşublar ki, halsız-halsız hamısı böyrü üstü düşüb çalaya. Bir nataraz oğlu nataraz da tənbəllik eləməyib nəfit gətirib onların üstünə töküb, od vurub! İlanların naləsi göyə qalxıb! Sonra da hamısını çalaya doldurub üstünü basdırıblar.

– Axı nə olsun ki, ay Məşədi Vəli kişi?

– O olsun ki, həmin əhvalatdan sonra yalquzağın babası da, dədəsi də Ağıl üstündə ulayarmış! Bu yalquzaq da hələ çox ulayacaq! Bildin, ay Baftalı Salahın nəvəsi?!

Baftalı Salahın nəvəsi gözünü Məşədi Vəli kişinin gözünə dikib dillənmədi.

### 1.

Hacı Muradın Düyərli kəndinin ortasında yan-yana düzülən ot tayalarının başı göy üzünə dəyirdi. Bütün yayı araba-araba daşınıb gətirilən ot-ələfin hamısı Ənnağı kişinin yabasının ucun-

dan keçib taya olmuşdu. İndi bu ot tayalarına baxdıqca, Ənnağı kişinin səliqəsinə adam mat qalırdı.

Tək söyüdün kölgəsində kövşək vura-vura dincələn öküzlər də hərdən gözlərini ot tayasına dikir, hərdən fınxırır, hərdən də özlərindən razı-razı mürgüləyirdilər. Bu qədər otu Ağıl üstündən elə bil onlar arabada çəkib buraya gətirməmişdilər. Ya da öküzlər Ənnağı kişinin işinə heyran qalmışdılar.

Hacı Murad da çox insaflı adamıydı. Öküzləri yeri gəldi-gəlmədi hər ağır işə qoşmazdı. Kotana, xışa ayrı öküzləri qoşdurardı, samana, ota başqa öküzləri yollayardı. Yalnız möhrəlik palçıq qarışdırılanda öküzlər hamısı bir yerdə işləyərdi. Özü də elə canla-başla işləyərdilər ki, sanki Hacı Muradın öküzləri adam kimi dil qanırdılar.

Axşamın sərini kəndin hər tərəfini bürüyürdü. Kişilər həyətlərindəki ağacların altından küçəyə açılan darvazalarının qabağına çıxırdılar. Onlar darvazalarının yanında iki daşın üstünə taxta uzatmışdılar ki, axşamüstü orada oturub dincəlsinlər.

Yavaş-yavaş həmin oturacaqların üstündə adamlar bitərdi. Kiminin əlində ağac, kiminin əlində çomaq, kiminin əlində çəlik, kiminin əlində təsbeh. Kənddə kişilərin axşamı belə başlayardı.

Bu vaxtlar kəndin arvadları əllərində vedrə, səhəng Araza tərəf yollanardılar. Qadınlar gündə Arazdan bircə dəfə su gətirmək üçün Ağıl üstünə gedər və təpədən suya əl çatana qədər enən pillələri aşağı düşər, qab-qacaqları su ilə doldurub geri qayıdardılar. Qadınların da axşamı belə başlayardı.

Söyüdlərin kölgəsi bir az da uzandı. Salatın çiynində yekə səhəng darvazadan küçəyə çıxdı. Darvazanın yanındakı oturacaqda bitən əri Həşimə üzünü tutub deyinməyə başladı:

– Səninki elə budu, baax! Çomağı qıçlarına dayayasan, papirosu da əlindən ötürməyəsən! Daha nə iş görəcəksən? Qıç da məşğul, əl də məşğul!

Həşim də gözünü Salatının üzündən ayırmadan əlini kəndin lap yaxınlığından axan Araza tərəf uzadıb guya hirslənirmiş kimi ucadan dedi:

– Beş addımlıqdan bir ovuc su gətirəcəksən, onu da bu axşam-axşam başıma qaxmasan olmaz? Arvadın ulğumu var ki, dili də dinc dursun! Yeri! Yeri! Boyuna qamış ölçüm!

Həşimin bu sözlərindən sonra Salatın dinməz-söyləməz Araza tərəf yola düzəldi.

Həşim peşmanladı ki, nə yaman pis dedim. Hardan dilimə gəldi: "Boyuna qamış ölçüm!" Yazıq Salatının bir əməlli-başlı günü-dirriyi də yoxdu. Səhərdən axşama qədər işləməkdən gözü açılmır. Hələ bunlar bir tərəfə qalsın, onsuz da iş-güc qurtaran deyil! Yazıq Salatın qalıb o iki yetimlə bu iki uşağın arasında. O yetimlərlə bu uşaqlar da bir-birləri ilə yola gedən zibil deyillər.

Mən Salatını alanda uşaq-zad istəmirdim. Güman eyləyirdim ki, Naznazın yetimlərinin əlindən tutub böyüdər, mənə də qulaq yoldaşı olar. Nə eləməli? Vurdu Salatın da bu tərəfdən iki uşaq doğdu. Bu da Allahın işidi. Qurbanı olduğumun yazısına pozu yoxdu!

Yaxşı, Salatının nə günahı var idi ki, boyuna qamış ölçdüm?! Bu qədər Salatının üstünə qışqırmışam, onu söymüşəm, döymüşəm, amma belə ağır söz deməmişəm. Deyəsən, dəli şeytan ağlımı da yavaş-yavaş əlimdən alır.

Həşim yenə Salatının dalısınca baxdı. Salatın uzaqdakı dənkəni burulub görünməz oldu.

Həşim fikirləşdi ki, bu Salatın da onun bəxtiydi. Bir-iki adam istəmişdi, Salatın da heç birini yaxın buraxmamışdı. Sonra da daha istəyən olmamışdı. Yaşının ötməsinə baxmayaraq, vallah, Salatın mənə qır verməyəcəkdi.

Hələ Naznaz sağ olanda, eşitmişdim ki, Naznazı qınayırmış ki, o təpərsiz kişini hardan tapmısan? Bunu da Naznaz ağzında saxlaya bilməyib mənə demişdi. Ona görə düzdü ki, arva-

dın ulğumu olmaz, o da ağlına gələni yox, ağzına gələni danışar. Mən də indiyə qədər bu sözü Salatının üzünə vurmamışam. Nə olar? Deyib, deməmiş olsun!

Həşim beynində çox şeyi fırlatmaq istəyirdi ki, yenə qamış gəldi girdi beyninə. Düşündü ki, vallah, bu Salatın boyuna qamış ölçüləsi arvad deyil!

Həşim şapqasını başından götürüb dizinə keçirdi. Yenə fikrə getdi. Həşimi fikirdən uşaqların səs-küyü ayırdı.

Elə bil bu işlərə bənd olan uşaqlar azadlığa çıxdılar. Beş-altısı bir yerə yığılıb Hacı Muradın tayalarının yanında hər gün olduğu kimi indi də gizlənqaç oynamağa başladılar.

Kənddəki axşamçağının sakitliyini təkcə uşaqların hay-küyü pozurdu.

Qəflətən Araz tərəfdən vay-şivən qopdu. Ağız deyəni qulaq eşitmədi. Uşaqlı-böyüklü hamı Araza tərəf qaçmağa başladı. Hay-küyə itlərin də səsi qarışdı. Handan-hana bir uşağın bağırtısı aydın eşidildi:

Salatın xalanı Araz apardı!

Kəndin adamları bir-birinə dəydi. Həşim arvadların Araza düşüb su götürdükləri yerə çatanda Salatının suyun üzündə qalan çılpaq qarnını gördü. Şapqasını başından götürüb yerə çırpdı:

Camaat içində biyabır olduq!

## 2.

Salatın Həşimin ikinci arvadıydı. Birinci arvadı Naznaz uşaq üstündə ölmüşdü. Cənazəni xəstəxanadan gətirəndə qonşu kənddə at arabasının qabağını qardaşları kəsib saxlamışdılar. Demişdilər ki, bacımızı öz kəndimizdə basdıracağıq. Orada çayçının qabağında iki kəndin adamları üz-üzə dayanmışdılar. Bu vaxt haradansa Hacı Murad peyda olmuşdu:

Ay bala, çəkilin görüm! Heç nə elədiyinizi bilirsiniz?

Hamı susmuşdu. Arabanın qabağından geri çəkilmişdilər. Hacı Murad yenə səsini qaldırmışdı:

-Ay camaat, ölüyə əziyyət verməzlər. Belə iş heç Allaha da xoş getməz.

Sonra da üzünü Qəhrəman kişiyə tutmuşdu:

Ay ağsaqqal, sizin kəndin camaatı qamışlıqdan-zaddan çıxıb? Gəlin aparırsan, qabağını kəsirlər. Ot daşıyırsan, arabanı saxlayırlar. Ölü gətirirsən, onun da qibləsinə daş diyirlədirlər.

Təzəcə hər şey yat-yüt olmuşdu ki, iki qadın tindən çıxıb, əllərində yaylıqları, üzlərini cıra-cıra at arabasına tərəf cumdular:

Verin ölümüzü! Ölümüzü heç kəsə verməyəcəyik!

Camaatın halı bir az da qarışdı. Qardaşlar təzədən qabağa yeridilər. Hacı Murad gördü ki, Qəhrəman kişidən bir səs çıxmır. Üzünü cavanlara tutub qışqırdı:

O arvadları da basın arabaya, arabanı da sürün kəndə! Deyəsən, bu köpək uşağı ölüynən-dirinin nə olduğunu hələ bilmir.

Arvadlar özlərini ölünün üstünə saldılar, araba da kəndə yol aldı.

Bu əhvalat bir anda Həşimin xəyalından keçdi və gözləri Hacı Muradı axtardı. Axtaran kimi də Hacı Muradı gözünün qabağında at belində gördü. Hacı Muradın birinci sözü bu oldu:

Papağın boş qalsın, ay Həşim!

Həşim oradaca yerə çöməldi. Taqətsiz-taqətsiz bir ah çəkdi. "İndi mən dörd uşağnan nə təhər dolanacağam. Haranın külünü başıma ələyim ki, Allaha xoş getsin!"

Həşim camaata üz tutanda gözü qaraldı: "Nə yaxşı ki, Hacı Murad vaxtında çatdı. Salatının meyidini Hacı Muraddan başqa heç kəs o Arazdan çıxara bilməz! Təvəkkül Allaha!"

Bu vaxt Hacı Muradın səsi ucaldı:

Ay cavanlar, özünüzü Ağıl üstünün aşağısına yetirin! Orada Arazın dayaz yeri var. Çıxın daşların üstünə gözləyin!

On-on beş cavan oğlan kəsə yolla qaçmağa başladı.

Hacı Murad üzünü kişilərə tutub dedi:

Siz niyə dayanmısınız! Axşama hələ çox var, yeriyin qəbri qazın! Meyidi saxlamaq olmaz! Gün uzundu, dəfn edəcəyik! Özü də qəbri Naznazın ayaqlarının altına salın!

Bir də geriyə dönüb Hətəmi çağırdı:

Ay Hətəm, sən də tez ol, öküzləri qoş arabaya. Ağıl üstünə gətir.

Sonra özü də atı dəhmərləyib xırmana tərəf üz tutdu.

## 3.

Bu gün səhər-səhər Hacı Murad xırmana gələn kimi səsini başına atmışdı. Hacı Muradı indiyə qədər belə qəzəbli görməmişdilər:

Ə şil oğlu şil, gecə səhərə qədər xorhaxor yatırsan! Gecələr bir-iki dəfə durub xırmanın həndəvərinə fırlana bilmirsən? Sən də arvadsan, qorxursan yalquzaq gəlib səni yeyər?

Hacı Murad bu sözləri Nəcəfalının böyük oğlu Sadığa dedi.

Sadıq da dinməz-söyləməz gəldi Hacı Muradın yanına:

– Nə olub, Hacı Murad əmi?

Canına dərd olub, bir də azzar! Xırman sovulandan sonra taxılı tay-tay götürüb aparacaqsan, yığacaqsan evin bir küncünə. Qışda da arvadınla ayaqlarını sallayacaqsan kürsünün altına, aşağıdan isti vuracaq, siz də mazaqlaşacaqsınız. Ununuz bol, odununuz bol, sizə nə lazımdır daha?! Nəcəfalının hesabına kef çəkirsiniz, o başını yerə qoyandan sonra nə eyləyəcəksiniz?

Nə olub, ay Hacı Murad əmi?

Sizi yüz kərə başa salmışam ki, kişi səhərə kimi yatmaz! Yatacaqsınız da! Torpağın altında o qədər yatacaqsınız ki, çabalasanız da çıxa bilməyəcəksiniz! Odu eey, Əlirzanın da bir gözü həmişə sizə baxır! Gözləyir ki, birinizin canı çıxa, o dəqiqə basa qəbrə, üstünüzü də torpaqlaya. Eşitməmisiniz, özü də oturub-durub deyir ki, insan belədi ki, canını tapşırdı, o saat gərək qoyasan qəbrə, yoxsa bir az qaldı, üfunəti hər yeri bürüyəcək.

Sadıq bu dəfə heç nə demədi. Çənəsini dayadı əlindəki yabaya, başladı matdım-matdım Hacı Murada baxmağa. Hacı Murad yumşaldı:

Bala, əmanətə xəyanət olmaz! Kişi olan bəndənin malına kəm baxmazlar. Odu eey, məndə neçəsinin əmanəti var, nə vaxt gəldilər götürüb aparacaqlar. Bir də sizin nəyiniz var axı?! Quru çöpünüz də yoxdur ki, biləsiniz mal nədi, əmanət nədi?

Bu dəfə Sadıq da yavaşca dilləndi:

– Nə günahım var, Hacı Murad əmi?

– Gözün kordu, taxılı yarılayıblar!

Sadıq diksinən kimi oldu, tez yeridi taxıla tərəf. Doğrudan da, taxıldan beş-on kisə götürülmüşdü. Sadıq ayaq üstə dura bilməyib yerə çöməldi. Gözləri bir addımlıqdakı taxılı seçə bilmirdi.

Qalx ayağa, qalx! Ağzınızdan hələ süd iyi gəlir!

Sadıq ac adamlar kimi Hacı Muradın gözlərinin içinə baxdı. Sadığa qəfil elə gəldi ki, Hacı Muradın gözləri yalquzağın gözləridi. Yavaşca dilləndi:

Hacı Murad əmi, bu, Ağköynəklinin işidi. Axşam xırmanın başına fırlanırdı. Vallah, gecə yarısına qədər kiçik qardaşım da mənim yanımda olub. Durub evə gedəndə taxıla özüm baxmışam. Vallah-billah Ağköynəklinin işidi!

Ağköynəklidi, qaraköynəklidi bilmirəm. Kişinin malını kişi kimi qoruyarlar! Amma bu barədə heç kəsə bir söz demə! Bir daş altda, bir daş üstdə!

Hacı Murad atını dəhmərləyib Ağıl üstünə tərəf yol aldı.

Sadıq özü də bilmədi ki, nə eləsin, başına nə çarə qılsın.

Sadıq neçə illər idi ki, Hacı Muradın xırmanının keşiyini çəkərdi. Taxıl biçimi başlayanda, Sadıq da dinməz-söyləməz yabasını, belini, bir də kərəntisini götürüb xırmana yollanardı. Əvvəlcə kərəntiylə süpürgə kollarına toxunmadan otları, tikanları biçərdi, yabayla daşıyıb onları xırmanın qurtaracağında üst-üstə yığardı. Sonra da bellə çala-çuxurları düzəldərdi. Mal təzəklərini götürüb bir tərəfə atardı. Xırmanı əl içi kimi təmizləyərdi.

Sadığın gördüyü bu iş iki günə başa çatardı. Üçüncü günü Sadıq oraq, balta və mıxça gətirərdi. Başlayardı oraqla süpürgə kollarını bir-bir dibindən biçməyə. Sadıq ehmalca və elə səliqə ilə biçərdi ki, süpürgə kollarının ruhu da inciməzdi. Sonra süpürgələri dəstələyib ayrı-ayrı yığardı. Sadıq yaxşı bilirdi ki, bu süpürgələr ilboyu onları görəcək. Hələ qonum-qonşuya da hərdən pay göndərəcək. Düzü, Sadığın süpürgəsinin həsrətini çəkənlər az deyildi.

Sadıq bu il süpürgələri bağlayanda Hacı Murad gəlib xırmana çıxmışdı. Atla xırmanın o tərəf-bu tərəfini gəzmiş, sonra da atını sürüb xırmandan uzaqlaşmışdı. Bu məqamda Sadıq da öz-özünə fikirləşmişdi ki, Hacı Murad olasan, bir kəlmə söz deməyib gedəsən, görünməmiş işdi.

Hacı Murad hər il bu vaxt xırmana gələndə hər şeyi yerli-yerində görmək istəyər və yüz cürə tapşırıq verərdi. İndi Hacı Murad heç bir söz demədən səssiz-ünsüz Ağıl üstünə tərəf yollanırdı. Elə Sadıq bunları fikirləşirdi ki, Hacı Murad atını geri döndərib təzədən Sadığın yanına qayıtdı:

Bu xırmanda o qədər süpürgə bağladın ki, indi də Hacı Muradın dalınca süpürgə bağlayırlar!

Hacı Murad bu sözlərdən başqa heç nə deməyib, yenidən yoluna düzəldi.

Sadığı təzədən fikir götürdü. Nə qədər fikirləşdi, tapa bilmədi ki, Hacı Muradın əhvalı niyə pozulub?

Görəsən, Hacı Muradın qanını kim qaraldıb?

Bu sözləri də Sadıq səsini içəri çəkərək öz-özünə ucadan dedi.

Sonra da Sadıq başladı işinə davam eləməyə. Baltanı və mıxçaları götürüb çardağa tərəf getdi. Əvvəlcə əliylə çardağın ayaqlarını yoxladı. Möhkəm idilər. Taxtalara bir-bir əl atıb silkələdi. Sonra hərəsinə köhnə, paslı mıxçaların yanından par-par parıldayan təzə bir mıxça çalmağa başladı.

"Sabah gedib qamış biçib gətirmək lazımdır. Qar, külək çardaqdakı qamışları tamam korlayıb. Daldalanmağa yaramaz. Gün adamın başına elə vurar ki, xırmandan meyidi çıxar".

Sadıq əzilmiş, qırılmış qamışları yerə tulladı. Çardağın üstü və yanları açıq qaldı. Çardaq lüt-üryan olandan sonra bir də ona tamaşa elədi. "Bu çardaq hara, Əsgər kişininki hara? Əsgər kişinin çardağı amanata bənddi. Amma bu çardaq neçə illərdi ki, qışı-yayı burada dözür. Əsgər kişi elə doğru deyir ki, onun çardağı təndirlikdi".

İndi bütün bunlar Sadığın xəyalından keçdi və Hacı Muradın o vaxtkı sözü bir də yadına düşdü: "Bu xırmanda o qədər süpürgə bağladın ki, indi də Hacı Muradın dalınca süpürgə bağlayırlar!"

Bu süpürgə məsələsi axşamüstünə qədər Sadığın yadından çıxmadı və Sadıq yaxşı bilirdi ki, bu taxılın oğurlanmasının ona heç bir dəxli yoxdu.

Axşamüstü birdən Sadığı fikir götürdü: "Bu necə olan işdi, kəndin o başındakı bostanda qurulan çardağın yanında adam vurulur, bu başındakı xırmanda qurulan çardağın yanında taxıl oğurlanır?"

Sadıq ha eşələndi, bu sualın cavabını tapa bilmədi. Amma sual onu yaman tutmuşdu.

Birdən Hacı Muradın atının səsi eşidildi. Sadıq tez-tələsik çardaqdan yerə düşdü. "Yəqin oğrunu tapıb! Yoxsa Hacı Murad bir gündə iki dəfə xırmana gəlməz!"

Hacı Murad atının cilovunu çəkib ucadan dedi:

O südəmər qardaşını tap, gəlsin xırmandan muğayat olsun! Özün də tərpən Sulutəpəyə! Mollanı götür gəl! Mollaya deynən sidr-kafir yaddan çıxmasın. Özü də Sultan kişini gətir, deynən Hacı Murad tapşırıb. O mirzəliyi atıb mollalıq eyləyən zatı qırıq oğlu zatı qırıqdan bir kar aşmaz. Keçən dəfə görmədin, ölü qaldı bir tərəfdə, elə bütün yasda ikiarvadlılıqdan danışdı.

Kim ölüb, ay Hacı Murad əmi?

Tifağı dağılmış bibini, Salatını Araz aparıb!

Bundan sonra Hacı Murad Sadığın üzünə baxmadan atını Ağıl üstünə tərəf dəhmərlədi.

## 4.

Sadıq heç nəyə əl vurmadı. Tez-tələsik çardağın kölgə tərəfinə qoyduğu bardağı götürdü. Bürmələyib bardağın ağzına basdığı tut yarpaqlarını çıxartdı və bardağı başına qaldırdı. Bardaqda bir içimlik su qalmışdı, onun da hamısını içdi. Sol əlində bürmələnmiş tut yarpaqlarını yerə atdı, bardağı da götürdü və kəndə tərəf yola düzəldi ki, gedib paltarını dəyişsin.

Yolda onu fikir götürmüşdü ki, bibisinin ölümünü atasına necə deyəcək? Kişi də yaman əziyyət çəkir, nə sağalan kimi sağalır, nə də... Sadıq "ölüm" sözünü dilinə gətirmədi. Bir də fikirləşdi ki, atam kiminsə qarğışına tuş gəlib. Yoxsa bu kənddə bir kişi, bir arvad indiyə qədər şil olub, yorğan-döşəkdə yatmayıb, cümə axşamı, orucluq bayramı, nə bilim hansısa xoş gündə canlarını tapşırıblar, mənim atama isə zillət qismət olub.

Sadıq bir az da getmişdi ki, qəfil ilan vurmuş adam kimi diksindi. Uşaqlığını xatırladı və atası ilə anasının dalaşması yadına düşdü. O vaxt nə üstündə dalaşdıqlarını Sadıq sonralar nə atasından, nə də anasından soruşmuşdu.

Sadıq gözlərini yolun ortasına dikib yeriyə-yeriyə həmən dalaşmanı xatırladı. O vaxt anası oturduğu döşəkçənin üstündən qalxıb qəzəblə atasına "səni görüm şil olub yerdə qalasan" dedi və orağını götürməyə getdi. Atası da onun arxasınca qışqırdı: "Arxayın ol, səni öldürüb basdırmayınca, ölməyəcəyəm".

Sadığa əyan oldu ki, atası dediyi kimi anasını çərlədib öldürdü, anasının da qarğışı atasını tutdu.

Sadıq yolunun səmtini dəyişib kənddəki kiçik arxlara suyun bölündüyü yerə – Suvata tərəf üz qoydu. Suvat kəndin lap girəcəyindəydi, kiçik qardaşının da evi oradaydı. Fikirləşdi ki, kiçik qardaşıgildən bir paltar tapıb əyninə geyər, həm də Suvatdan Sulutəpəyə yaxındır. Elə ordan da birbaşa Sultan kişinin dalısınca gedər, atasına da yalan deməz.

Sadıq kiçik qardaşıgilə çatanda gördü ki, qapı-baca bağlıdır, həyətdə də heç kəs yoxdur. Bildi ki, hamı Həşimgilə gedib. Bardağı qapının yanına qoydu. Qonşu Mustafanın həyətinə keçdi.

Mustafa it damının yanında öz-özünə danışır, nəsə qurdalanırdı. Sadıq Mustafanın başının qarışdığını görüb ona yaxınlaşdı. Mustafanın atı da çayın başındaydı. Sadıq fikirləşdi ki, Mustafa nə əcəb atı həyətdə saxlayıb, aparıb çöldə hörükləməyib?

Sadıq it damının yanına çatdı, "salaməleyk"dən sonra Mustafa da ayağa qalxdı və Sadıqdan qabaq dilləndi:

Bilirəm, ay Sadıq! Allah rəhmət eləsin! Nəcəfalıya nə təhər dediniz?

Sadıq cavab verdi ki, atama deyən olmayıb, xəbəri yoxdur. Mən də ürək eləmədim evə gedəm. Elə xırmandan birbaşa bu-

raya gəlmişəm ki, Sulutəpəyə Sultan kişinin dalısınca gedəm. Sadıq sonra da it damının içindən mırıltını eşitdi və damın qabağındakı küçüklərə baxdı:

Bu qancıq nə vaxt küçükləyib?

Salatının ölümü elə bil tamam yaddan çıxmışdı. Mustafa başladı şirin-şirin danışmağa:

Ay Sadıq, axırıncı dəfə nə vaxt yuxu görmüşəmsə, tamam yadımdan çıxıb. Mən lap gec-gec yuxu görürəm. Amma gecə yuxumu əməlli-başlı qarışdırmışam. Görürəm ki, atı bağlamışam Hacı Muradın tayalarının yanına. At da elə bil aclıqdan çıxıbmış kimi tayaları söküb dağıdır. Mən də on-on beş metr kənarda oturmuşam tut kötüyünün üstündə. Birdən yalquzaq çiynimin üstündən şığıdı ata tərəf. Başladı atı daldan parçalamağa. Qışqırdım, qışqırığıma da özüm oyandım. Tez-tələsik geyinib bayıra çıxdım. Gördüm ki, at yerindədir. Bir az toxdadım. Sonra qancığın zingiltisi qulağıma dəydi. Elə zarıyırdı – elə zarıyırdı ki, hələ bu itin belə zarıldadığını eşitməmişdim. Tez gəldim itin yanına. Ay işığıydı. Damın qabağında üç dənə küçük gördüm. Bir az da yaxınlaşıb baxdım ki, üçü də ağappaq, anası kimidi. İtin zarıltısından bildim ki, qarnında yenə küçük var. Zəncirindən yapışıb onu bayıra çəkdim. Dördüncü küçüyü də mən zorla itin qarnından dartıb çıxardım. İnan ki, yuxudan durmasaydım, bu küçük elə qarnındaykən anasını çatdadacaqdı. Özü də bax, axırıncı o qara küçükdür!

Sonra əlavə etdi:

Atı da elə yuxuma görə aparıb çölə hörükləməmişəm. Demə bu da sənin bəxtin imiş! Yeri yəhərlə, min get! Sulutəpəyə piyada getməyəcəksən ki?! Mən də gedirəm qəbir qazmağa.

Sadıq dinməz-söyləməz ata tərəf getdi, Mustafa da təzədən əyilib küçüklərə yal verməyə başladı.

Sadıq çoxdan kənddən uzaqlaşmışdı. Küçüklər də yalı yeyib qurtarırdılar. Suvat tərəfdən səs gəldi:

Ay Mustafa! Ay Mustafa!

Həyətə gəl, buradayam!

Mustafa yenə başını aşağı saldı. Bir də başını qaldıranda gördü ki, ağ köynəkli kişi at belində yanında durub, gözü də qara küçükdədir. Ağköynəkli kişi Mustafaya aman vermədi:

Ə, Misto, bəs sənə deməmişəm ki, qancıq küçükləyəndə mənə de, küçüklərin birini seçib mən götürəcəyəm?

Vallah, gecə küçükləyib, səhər də kimdən soruşdum, dedilər vayenkomata getmisən!

Bax, o qara küçük var haa, mənimdi! Bir-iki həftədən sonra gətirərsən bizə! Qulaqlarını da özüm kəsəcəyəm ki, əlimin dadını indidən bilsin, özü də qırımından görünür ki, qancıq deyil, köpəkdi.

Hə, köpəkdi!

Ağköynəkli kişi bir də qara küçüyə göz yetirdi, sonra yenə üzünü Mustafaya tutdu:

Kənddə kim ölübdü? Deyəsən, qəbir qazmağa gedirlər!

Nəcəfalının bacısı Salatını Araz aparıb!

Onlar da bir nəsil deyil! Hamısı giriblər Hacı Muradın qoltuğunun altına. Hacı Muradın qoltuğunun altından çıxmaq da hər kişinin işi deyil! Nəcəfalının da nəslini yaxşı tanıyırıq. Onların arasında bircə qeyrətlisi varsa, o da kiçik oğludur. O kiçik oğlu hələ bu küçük boyda olandan demişdim ki, bundan bir şey çıxacaq!

Mustafa dillənmədi. Ağköynəkli kişi yenə soruşdu:

Sənin atını minib Sulutəpəyə gedən kim idi? Uzaqdan görüb tanımadım.

Nəcəfalının böyük oğlu Sultan kişinin dalısıca getdi.

Yenə bu Hacı Murad ikiarvadlının işidi, bax! Keçən dəfəki yasda hamıya demişəm ki, daha bu kəndə ölü götürməyə Sultan kişi gəlməyəcək! Nə olubdu təzə mollaya? Dünənə qədər mirzəlik eyləyirdi, hamınız da məktubunuzu aparıb ona oxutdurur-

dunuz! İndi də mirzəliyi yerə qoyub mollalıq eyləyir. Nə olub balam, məktubunuzu oxuyanda əl çəkmirdiniz, ölülərinizə Quran oxumağa başlayandan bəyənmirsiniz? Yaxşı, Hacı Murad, Sultan kişiylə görüşün axırıncı olar! Mən getdim qəbiristanlığa, sən də belini götür, gəl ora!

Ağköynəkli kişi qəzəblə atına bir qamçı çəkdi. Atı sürə-sürə bir də Mustafaya tərəf dönüb ucadan dedi:

Ay Misto, yadında yaxşı saxla, o yalquzaq var haa, onun qənimi bu qara köpək olacaq!..

## 5.

Sadıq az qalırdı Sulutəpəyə yetişə, Ağköynəkli kişi də qəbiristanlığın girəcəyinə çatmışdı. Amma arvadlar Arazın qırağında qalmışdılar. Hələ kənddən də nə qədər adam axışıb bura gəlmişdi.

Gizlənqaç oynayan uşaqlar Arazın dəhşətini indi görürdülər. Onların çoxusu barmaqlarını ağızlarına basıb ufulduyurdular. Elə bilirdilər ki, Arazda boğulan Salatın deyil, onların özləridi.

Bir xeyli də keçdi. Arvadlar gördülər ki, burada dayanmaqla heç bir şey aşmaz. Ona görə də bir-birlərinə təsəlli verə-verə kəndə tərəf dönməyə başladılar.

Səhəngini, vedrəsini dolduran – doldurmayan qadınlar da onlara qoşuldular.

Kənddəki birinci evə çatan kimi pota arvad bir qızın üstünə qışqırdı:

Nə dayanmısın, yeri Tutu nənəni çağır gəlsin!

Tutu nənənin evi kəndin o başındaydı. Qocalmağı bir yana qalsın, ayağı da möhkəm ağrıyırdı.

Ötən yay zəmilərdən taxıl təzəcə biçilib qurtarmışdı. Kiçikli – böyüklü hamı başşağa getmişdi. Onlar zəmilərin kənarındakı arxların yanında yerə tökülmüş sünbülləri bir-bir yığıb, torbalara doldururdular. Günorta çağı hamı evə qayıdanda Tutu nənə də arxada qalıb yavaş-yavaş gəlirdi. Səhəri gördülər ki, Tutu nənənin bir qıçı yerimir. Özü dedi: “Dünən başşaqdan gələndə qıçım burxulub yerə yıxılmışam!” Tutu nənənin sol ayağı hələ də ağrıyırdı.

“Yer qulaqlı olar”, – deyərlər. Qız uşağı Tutu nənə ilə yolda rastlaşdı. Uşaq tövşüyə-tövşüyə dedi:

Tutu nənə, Salatın xalanı Araz apardı! Anam deyir ki, tez Həşim əmigilə gəlsin!

Bilirəm bala, Allah dalısından saxlasın! Bu Həşimin başında nə qada varsa, o evdə bir arvad da salamat qalmır.

Tutu nənə əllərini dizlərinə qoyub daşın üstündə oturdu. Qonşunun tövləsinin arxa divarı daşın üstünə kölgə salırdı.

“Dünən gecə Məşədi Cəfərin nəvəsi gəlmişdi. Necə yaxşı uşaqdı. Burnu yernən gedirdi. Naxır gələndə biliblər ki, inəkləri ayrılıb Ağıl üstündə qalıb. Yalvarıb-yaxardı ki, sən Allah, Tutu nənə, qurdun ağzını bağla! Varımız-yoxumuz bir inəkdi, onu da qurd yesə, uşaqların üzünə necə baxacam! Evdə də ağartı olmadı, vay halımıza. Mən də qurdun ağzını bağladım. Səhərisi qaça-qaça gəldi ki, bəs inək kəndin aşağısında bulağın yanındakı ağacın altında yatıb. Sağ-salamatdır! Ovcuma da bir şey basdı.

Ay evin yıxılsın, Həşim! Dünən sən də gələydin, Salatının da əlacın qılaydım. İndi görərsən, Abbasəlinin keçi məsələsi də çin olacaq!”

Ay Tutu nənə, çox oturma, qalx gedək! Həşimin evi yıxıldı!

Tutu nənə səsdən ayılan kimi oldu. Qalxıb Süleymanın gəlininin qoluna girdi və yola düzəldi. Bu vaxt Abbasəlinin qızını görüb dedi:

Tez ol, get anana de ki, gəlsin Salatının suyunu qaynadaq!

**6.**

Cahangirin yerində bu il bir qovun-qarpız əmələ gəlmişdi ki, gəl görəsən! Qoyun-quzu döş-döşə yatan kimi iri-iri qarpızlar da baş-başa vermişdilər. Ahıllar deyirdilər ki, hələ indiyə kimi bu kəndin bostanlarında belə nemət görünməmişdi. Kəsib yeməklə, yığıb daşımaqla qurtarmırdı ki, qurtarmırdı.

Yay girəndən Əsgər kişinin dili ağzına sığmırdı. Yoldan ötənlər, bostanın həndəvərinə dolananlar buradan əliboş getməzdilər. Əsgər kişi hərənin qoltuğuna qovundan, qarpızdan verib evə göndərərdi. Sonra da deyərdi:

– Gözünüz doyunca yeyin, goruma aparmayacağam ki?! Hamınızın halal xoşu olsun!

Əsgər kişi düz bostanın ortasında böyük bir çardaq qurmuşdu. Gecələri də bu çardaqda yatardı. Yatmaq nə yatmaq? Heç gözlərinə yuxu gələrdimi?

"Yazıq Şahlar! Baş alıb bu kənddən çıxıb getdi! Allah baisin evini yıxsın! Qoydular ki, Şahlar dədə-ana üzü görsün! Hərə bir tərəfdən dedi ki, elə Şahlar yaxşı oğlandı, mənim qızımı alacaq. Başqa bir qurumsaq da səsini ucaldardı ki, qundaqda ikən Şahlarla qızımın kəbinini göbəkkəsmə eləmişik. Əttövbə, Əsgərin bu işdən xəbəri varsa! Yalandan elə şeylər toxuyurlar ki, adamın əli üzündə qalır. Bilmirsən nəyə inanasan, kimə pənah aparasan!

Odu eey, baş alıb kənddən getdi. heç bilmədim kimin qızını aldı. Dədəsini tanımıram, babasını tanımıram. İndi mən də qalmışam arvadla tək-tənha. Az qalır ağzımıza qurd düşə. Günümüz də həyətdəki tək tutun altında keçər! Bu tərəflərə bir dəfə

də üzükmür ki, barı boyuna-buxununa baxım. Yazıq Şahlar! Yəqin o da naçar qalıb".

Əsgər kişi gecə qaranlığında hövsələsinə səbir diləyə-diləyə bilməzdi haranın daşını başına salsın. Hey əlac axtarardı, əlac da ki, qəhət olub göyə çəkilərdi.

Dünən gecə də əl-ayaq çəkiləndən sonra çardağa qalxdı. Döşəyi rahlayıb, balıncı bir neçə dəfə çırpıb yerinə qoydu. Ağlına nə gəldisə, çardaqdan aşağı endi. Əl fanarının işığında bostanı gəzməyə başladı. İri qarpızların üstünə nişana qoya-qoya arxın o tərəf-bu tərəfinə keçdi. "Oğru-moğru girməz bu bostana. Heç kimə pisliyim keçməyib, heç kimi də boş qaytarmamışam. Kimin də xeyir işi olub, kisə-kisə qovun-qarpız göndərmişəm. Hələ göndərəcəyəm də! İnşallah, bostan pozulanda da hər evin öz payını verəcəyəm. Qoy atama rəhmət oxusunlar. Bəs Şahlara xeyir-dua? Bilmirəm verəcəklər, ya verməyəcəklər.

Bu Şahlar hardan daş olub bunların başına düşdü. Yazıq uşaq, məktəbdə elə yaxşı oxuyardı ki, müəllimlərin hamısı razılıq eləyərdi. Hesab müəllimi var idi eey, Novruz müəllim, məni hər görəndə "sağ ol, Əsgər əmi, Şahlar kimi oğul yoxdur", – deyərdi. Şahlar da iksi-miksi elə gözəl bilirdi ki, bir dənəsini boş buraxmazdı, hamısını eləyərdi.

Odur eey, nəvəm Şahların dəftərindən indi də istifadə edir. Nəvəmi də müəllim yaxşı tərifləyir. Deyəsən, ondan yaxşı oxuyan olacaq".

Əsgər kişi əl fanarı ilə yenə çardağın yanına döndü. Əlini atıb çardaqdan bir kağız götürdü. Ovcunda bürmələyə-bürmələyə çardaqdan beş-on addım uzaqlaşdı və çöməldi.

"Köpək uşaqlarına dedim ki, aftafanı suynan doldurun, gətirin qoyun bura! Hərəsi bir tərəfə əkildi. İndi səhər üzü olsun, hamısı bostana cumacaq. Ay verdim haa! Sabah heç birinə yer-yemiş verməyəcəyəm! Qoy canları çıxsın!"

Əsgər kişi yenə çardağa tərəf döndü. Başladı çardağın başına fırlanmağa. O ayağına baxdı – bu ayağına baxdı. Çardağın ağac ayaqlarından birini təpiklə vurdu. "Yox, möhkəmdi! Şeh düşənə qədər dözər. Sonra da uçurub evə daşıtdıracağam. Beş-altı təndirlik odun var burda. Arvad qışda təndirə salıb yandırar".

Təzədən çardağa qalxdı. Ayaqqabılarını çıxarıb cütlədi və düz pilləkənin başına qoydu. Şalvarını çıxarıb qatladı və balıncının altına itələdi. "Kəmərin də dəridən olması bir bəladı. Gördün ki, azmış itlərdən biri iyləyə-iyləyə gəlib kəmər qarışıq şalvarı da apardı. Onda səhər adamların üzünə çıx görüm, necə çıxırsan?"

Sonra əl atıb çardağın yuxarısında gizlətdiyi tüfəngi götürdü. Bu "dayandoldurum" tüfəng Əsgər kişiyə babasından qalmışdı. O tərəf – bu tərəfinə baxdı, sonra döşəyin yanına qoydu. Özü də uzanıb başını əllərinin arasına aldı.

"Ay Allah, Şahların bəxti niyə belə oldu? Kim idi bizi qarğıyan! Allah qarğıyanın evini yıxsın! Ta baxıcı, falçı qalmayıb, arvad baxtırmasın. Hamı deyir ki, sağ-salamatdır, amma kəndə gəlməyəcək. Bəs o kəndə gəlməyəcəksə, neynirəm bu ev-eşiyi! Goruma aparacağam? Bəs o dolu sandığı neynəyəcəyəm?"

Bu zaman Ağıl üstündən yalquzağın səsi eşidilməyə başladı. Elə bil acından ölürdü yalquzaq.

Yalquzaq ulaya-ulaya qaldı. Əsgər kişi onun ulamasına məhəl qoymadan mürgüləməyə başladı.

Bir çimir almamışdı ki, şaqqıltı səsi gəldi. Əsgər kişi sayıq yatırdı. Elə o dəqiqə oyandı. Əlini tez tüfəngə atdı. "Çaqqallarla dovşanlar bostanda dirrik qoymayacaqlar". Elə çardağın üstündən tüfəngi şaqqıltı gələn tərəfə tuşladı və tətiyi çəkdi. Tüfəngin açılması ilə adam hayqırtısı bir eşidildi.

Vay, köpək oğlu, burda neynəyirsən gecə vaxtı? Güllə adama dəydi!

Əsgər kişi tez tələsik şalvarı əyninə çəkib səs gələn tərəfə qaçdı. Çatanda gördü ki, bir nəfər yerə uzanıb ufuldayır. Qoluna girib qaldırdı və çardağa tərəf sürüdü.

De görüm, hansı qudurmuşun oğlusan? Niyə özün gəlib qarpız istəyə bilmirdin? Mən kimə qarpız verməmişəm?

Adamdan səs çıxmırdı. Əl fanarını adamın üzünə saldı, gördü ki, tanımır. Əlini adamın buduna vurdu, əli qana bulaşdı. Adamı qan aparırdı. Başını qaldırıb üzünü kəndə tərəf tutdu:

Yetiim, ay Yetiim! Tez ol bura gəl!

Sonra çevrilib yaralı adamın şalvarını aşağı çəkdi. Adam halsız idi. Əsgər kişi əynindəki alt köynəyini çıxarıb cırdı. Yenə qışqırdı:

Yetiim, ay Yetiim!

Əyilib qan axan yeri tutdu və köynəyin cırılmış hissəsini yaraya sarımağa başladı

Bu vaxt Yetimin səsi gəldi:

Ay Əsgər əmi, nə olub? Gəlirəm!

Əsgər kişi Yetimin səsinə əhəmiyyət verməyib yenə üzünü adama tutdu:

Ə, de görüm kimin küçüyüsən?

Adamdan səs çıxmırdı. Elə bil huşunu itirmişdi.

Tez əl atıb bardağı götürdü və adamın ağzına dayadı:

İç görüm, binamus!

Adam suyu lokkuldatdı.

Yetim özünü yetirdi:

Əsgər əmi, nə olub?

Görmürsən, şərəfsiz oğlunu? Gecə oğurluğa gəlib, mən də elə bildim çaqqaldı, gülləni çaxdım. Demə bu imiş.

Əsgər əmi, bu saldatdı!

Saldatdı? Nə iti azıb burda! Svoluç!

...Gecə at arabasında xəstəxanaya gedənlər indi qayıdırdılar. Kənddəki hay-həşir hamının başını elə qatmışdı ki, soldatın halını soruşan da olmadı.

Yetim arabadan düşüb tez evlərinə tərəf getdi. Belini götürüb qəbirstanlığa yollandı.

## 7.

Tutu nənəylə Süleymanın gəlini Zübeyda xalagilin evinin tininə çatdılar. Bu vaxt Zübeyda xala divarın uçuq yerindən keçib onlara yaxınlaşdı. Elə yanlarına çatan kimi yavaşca pıçıldadı:

Tutu nənə, bilirsən nə olub?

Bilirəm, ay Zübeyda! Salatını Araz aparıb! Həşimin çırağı sönüb!

Yox eey, ayrı şey var. Qadoşu qaçırıblar!

Aaaz kəs! Biyabır olduq. Səsini çıxartma!..

Qadoş Naftalin Kərəmin qızıydı. Amma kənddə tayı-bərabəri yox idi. Onun bir çörək yapmağı var idi ki, gəl görəsən. Kənddə elə xeyir iş olmazdı ki, bu xeyir işin çörəyini Qadoş yapmasın. Qız olasan, belə sərələnəsən təndirin başına? Qızı ərlik olan arvadlar heç onun kimi təndirin başına sərələnib, rəfətəni qarsıyan təndirin badına vura bilməzdilər. Qadoşu elə bil Allah təndirə lavaş yapmaq üçün yaratmışdı.

Bir dəfə Zübeyda xalanın oğlunun toyu idi. Qadoş da təndirin başında çörək yapmağa hazırlaşırdı. Arvadlar hay salmışdılar ki, İsmayıl gəlsin, yoxsa təndirdən çörək çıxmır. Axır İsmayılı tapıb gətirdilər. İsmayıl da cibində nə qəpik-quruşu varıydı, çıxarıb təndirin başına tökdü və ucadan dedi: “Allah qolunuza qüvvət versin!” Qadoş da dilində “sağ ol” pıçıldayıb ürəyində başqa şey fikirləşdi: “Kül başına belə oğul! Niyə kənddə qız yox

idi? Gedib Sulutəpənin gözünü çıxartdın? Niyə sənin aldığın bizimkilərdən şirin oldu? Lap elə mən. Neçə ildir gözünün qabağındayam. Çörəyinizi yapacaqdım, inəyinizi sağacaqdım, otunuzu gətirəcəkdim. Vallah, bu İsmayılın gözü kordu”.

Elə bu vaxt Zübeyda xala gəldi. Səsi təndirəsəri başına götürdü:

Allah qolunuza qüvvət versin! Gün o gün olsun ki, sizin evdə xeyir işə yığışaq, mən də belimi bağlayıb səhərdən axşama çörək yapım!

– Sağ ol, ay Zübeyda xala, sağ ol! – Hamı bir ağızdan dedi.

– Qadoş, Allah sənin də bəxtini açsın. Gör toyunda necə sındıracağam!

Qadoş dillənmədi. Ürəyində fikirləşdi: “Bəxtim budu eey, sənin oğlun İsmayıl. Həftədə bir, on gündə bir təndirinizin başında çörək yapmışam. Görmürdün məni? Sulutəpənin evdə qalmışları daddı oldu? Yoxsa dədəm xoşuza gəlmədi? Bəlkə Naftalin Kərəm işizə yaramayıb. Yəqin “Naftalin” adından xoşunuz gəlmir. O adı da siz qoyubsunuz. Kimin qoyunu xəstələnərdi səsi aləmi götürərdi ki, ay Kərəm, naftalin gətir, bu qoyunları naftalinlə! Nə oldu, balam çörəyizi yapanda yaxşıyıq, qoyunlarızı naftalinləyəndə yaxşıyıq, amma gəlin olmağa yaramırıq?”

Qadoş təndirin ilk çörəklərini çıxarıb bir tərəfə qoydu. Adətən, ilk çörəkləri adamlar yeməzdi, it-pişiyə verərdilər.

Qadoş yenə fikrə getdi: “Bu olmasın, Zəhra xalanın oğlu olsun. Gözləri kor idi, görmürdülər məni? Zəhra xala ün təpdi ki, oğluma bacımın qızını alacağam. Elə bil bu kənddə onlara tay adam yoxdu. Elə bil göydən gəliblər. Nə olub, balam, özün kağ kağlayansan, ərin də ot biçən. Əynindəki paltarlara baxanda adam iyrənir. Nə oldu, burada oğul evləndirməyə qız tapmadın? Bacın qızını Yelbabadan gətirdin oğluna arvad elədin. Əlindən bir şey də gəlmir. Bacın qızını gəlin eləyəndən sonra yenə sıs-

qaya-sısqaya gəlmişdin ki, ay Qadoş, bu gəlin heç nə bacarmır, barı gəl bir təndirə çörək yap. Getdim haa! Canın çıxsın, indi özün yap”.

Arvadlardan biri dilləndi:

– Qadoş, çörəyin vaxtını ötürmə, yanar!

“Elə biri də budu baax, gözümün qabağında. Səni də çörək kimi təndirə basıb, nə yaparam. Elə bilir yadımdan çıxıb. Uşaq olanda məni öpüb, başımı sığallayıb, “sənə qızıl üzük alacam” deyərdi. Mən də onların həyətlərinə boylanıb, deyərdim, qoy arvad olum, bu evdə bir səliqə-səhman düzəldəcəyəm ki, iki göz tamaşaya duracaq. Mən sənin gəlinin olsaydım, heç qoyardım gəlib burda kündə açasan. Xanım-xatın bir arvad olub, əlin belində qonşuları gəzib, qiybət eləyəcəkdin. Nə oldu, Qızıl torpağın toyda oynayanı bizdən artıq çıxdı? Nədi-nədi ki, oğlu bir dəfə Qızıl torpaqdakı dəyirmana dən üyütməyə gedib, orada gecəyə qalıbdır. Dəyirmanın yanındakı evdə də toy çalınırmış. Gediblər toya baxmağa, toyda oynayan bir qızı gözü tutub. Başladı ki, oğlum istəyib, o qızı alacağam. Nə oldu bəs mənə aldığın qızıl üzük, ay tünbətün? İndi basım təndirə alovun qalxsın?!”

Ay Qadoş, sənə nə olub? Az fikrə get, çörəkləri yandırarsan, qonaq-qara yanında biabır olarıq. – Bu sözlər də Qadoşun əmisi arvadının sözləriydi.

Qadoş tez-tələsik çörəkləri çıxarıb, gözlərini əmisi arvadından ayırmadı. “Bu da əmim arvadı. Şalanı şahbaz eylədi, küllüyü də meydan. Anam nə qədər yalvardı ki, gəl bu qızı al, göz qabağında böyüyüb, dedi ki, yox, biz onsuz da qohumuq. Ay dolandı, il keçdi, gedib Ocaqlıdan qardaşının qızına nişan taxdı. Əmim olan bəndə bircə dəfə də dillənmədi ki, bəs mənim qardaşımın qızını almırsan, öz qardaşının qızı mətah oldu? Lənət şeytana! Ağıl üstündəki yalquzaq bir gəlib məni yesəydi, canım qurtarardı”.

Bu dəfə Qadoş səsini qaldırdı:

Kündəni bir az nazik yayın! Qoy çörək yaxşı bişsin!

Əslində Qadoş o qədər də yamangünlü deyildi. Onu da istəyən var idi. Dayısı oğlu Nəcəf Qadoşdan ötrü sinov gedirdi. Amma Naftalin Kərəm daş atıb başını tuturdu. Bir dəfə arvadı Naftalin Kərəmə üz tutub demişdi:

– Ay Kərəm, bu qızın da vaxtı ötür. Nəcəf də əl-ayaqdan gedib. Bircə dəfə “hə” desən, sifariş göndərərəm gəlib nişan taxarlar. Bu tifil də gedib ev-eşik yiyəsi olar.

Naftalin Kərəm bu sözləri eşitcək güllə kimi açıldı:

– Yüz dənə lal qızım ola, evdə qala, birini də qoymaram sənin qardaşına gəlin ola. Onsuz da sümüyümü it sümüyünə calamışam, hələ bir də səhv eləyim?

Bu dəfə arvad dil boğaza qoymadı. Yenə dilləndi:

– Ay Kərəm, sənin qardaşımla söz-sovun olub, bunun Qadoşa nə dəxli? Nəcəf də pis uşaq deyil. Axırı bir yönlük olub özlərinə ev-eşik quracaqlar.

Naftalin Kərəm lap hirsləndi:

– Sənə deyirəm, bu sözü bir də ağzına alıb danışma. Qadoş Nəcəfin tayı deyil. Bir də bu yanlara gəlib eləsələr, denən ki, gedib taylarını tapsınlar. Qadoşu sənin qardaşının qapısına atmaqdansa, bir gecə əli-qolu bağlı aparıb Ağıl üstündəki yalquzağın qabağına ataram yeyər, barı yalquzağın da səsi kəsilər.

Bununla da söz-söhbət bitdi.

Həmin söz-söhbəti Qadoş yaxşı bilirdi. Arazın Salatını aparmasını eşidəndə Qadoş tut ağacının altında oturmuşdu. İstədi ki, o da durub qaçsın, amma anası qoymadı:

Ay Qadoş, həyət-bacanı başsız qoyma! Sən qal evdə, mən gedirəm.

Bir az keçmişdi ki, küçə tərəfdən at üzəngisinin səsi eşidildi. Qadoş evin dalanına buruldu. Gördü ki, dayısı oğlu Nəcəfdi gələn.

– Ay Nəcəf, xeyir ola?

– Xeyirdir, Qadoş!

Nəcəf atdan düşdü. Atın cilovunu tut ağacının budağına bağladı. Sonra keçib kəsilmiş kötüyün üstündə oturdu.

Qadoş yenə dilləndi:

– Ay Nəcəf, xeyir ola? Ölüm-itim yoxdu ki?

– Yox, hər şey öz qaydasındadı. Ay Qadoş, kənddə nə hay-həşirdi?

– Salatın xalanı Araz aparıb. Bilirsən necə yaxşı arvad idi? Bizim kənddəkilərin mininə dəyərdi. Allah həmişə yaxşıları aparır. Mən də istədim gedəm, anam qoymadı ki, qapı-baca boş qalmasın.

Nəcəf ayağa qalxdı. Atın cilovunu açdı.

– Nəcəf, hara gedirsən?

– Gedirəm Araz tərəfə. Yaxşı deyil, eşidib qınayarlar.

– Bəlkə, mən də səninlə gedim.

– Onda tez ol, gəl atın tərkinə qalx!

Qadoşun elə bil ağlını əlindən almışdılar. Yaxınlaşıb sol ayağını üzəngiyə qoydu. Nəcəf onun qolundan yapışıb atın belinə qaldırdı. Sonra da özü yəhərə qalxdı. Yorğun at təzədən fınxırmağa başladı.

Nəcəf atı həyətin ortasıyla çöllüyə tərəf sürdü. İki qolu ilə Nəcəfə sarmaşan Qadoş dilləndi:

– Hansı tərəfə gedirsən, Nəcəf?

– Ağıl üstündən keçmək olmaz, orada yalquzaq var, Qadoş! Atı kəsə yolla sürəcəyəm.

– Qurbanın olum, Nəcəf, kəsə yolla sür, qoy tez çataq!

Kəsə yol Nəcəfgilin kəndinə gedirdi...

...Tutu nənə Zibeydə xalaya üz tutdu:

– Aaaz kim qaçırıb?

– Dayısı oğlu Nəcəf qaçırıb, Salatını Araz aparandan bir az sonra.

– Kəəs! Biyabır olduq! Cınqırını çıxarma!

Sonra Tutu nənə ürəyində danışdı: "Biri ölməsə, biri dirilməz".

## 8.

Nəcəfalı kişinin səsi zorla gəlirdi:

– Ay uşaq, nə olub?

Səs verən yox idi. Sükutdan Nəcəfalı kişinin az qala qulağı batırdı. Tarma üzümün kölgəsində taxta çarpayısında Nəcəfalı kişi tək-tənha qalmışdı. Bir neçə il bundan qabaq onu iflic vurmuşdu. Uşaqları onu əl ilə götürüb qoyurdular. Nə bir əlini tərpədə bilirdi, nə də bir ayağını. Azar-bezar tutmuşdu Nəcəfalı kişini.

"Gör axırım hara yetdi. O kaftarın bəxtinə bax! Yetənə yetirdi, yetməyənə də bir daş atırdı. Bircə adamın yanında hörməti qalmamışdı. Qızları, oğlanları da son günlər üzünə tüpürürdülər. Elə bil o kaftarın belindən gəlməmişdilər. Axırı nə oldu? Kef çəkdi. Xoşhalına, günlərin birində yatdığı yerdən durmadı. Hanı o xoşbəxt ölüm? Bəs mənim üçün niyə gəlmir? Nə qədər bu taxta çarpayıda beli üstə yatacağam?"

– Ay uşaq, nə olub?

Yenə səs verən yox idi.

"Bu köpək uşağının hamısı birdən yoxa çıxıb. Elə bil kəndə sel gəlib, adamları da alıb ağzına, töküb Araza. Özgə vaxtı yanımdan əl çəkməzdi bu qor-qoduq. Biri qolumu dartardı, biri də ayağımı qıdıqlayardı. O biri də gəlib deyərdi ki, sən yaxşı nağıl bilirsən, danış görək. Dinc qoymazdılar məni. İndi elə bil göyə çəkiliblər. Bəlkə bir qurtum çay içmək istədim, kim verəcək? Onlarda günah yoxdu. Görünür, mən nanəcib adam olmuşam.

İndi də bu nanəciblik oğul-uşaqdan, nəvə-nəticədən öz qabağıma çıxır”.

– Ay uşaq, nə olub?

Cavab gəlmədi.

Elə bil hamının qulağı kar olub. Sizin hamınızı kar qulaq görüm. Heç ömrünüzün axırına kimi qulağınız səs eşitməsin.

“Bu Salatın harda itib-batıb? Neçə gündü ki, o da gəlib mənə baş çəkmir. Gələn kimi də ufuldayır ki, bacın ölsün, niyə bu günə düşdün?

Bəs Salatının küçükləri haradadı? Yenə bu tərəflərə gələndə ürəyim sakit olur. Binəva Salatın o qor-qoduğun əlində qalıb! Yazıq bir gün görmədi. Bəxti açılmadı ki, açılmadı. Axırda da başı batmış Həşimə arvad oldu. Uşaq doğmamış yetim saxlamağa başladı.

Həşim də ki, yenə bir Həşim ola. Ağzından vaxt-bivaxt horra tökülür. Oturduğu yerdən də tərpənməklə arası yoxdu. Əlindən də bir qəpiklik iş gəlmir. Yazıq Salatın qalıb çöl ilə evin arasında. Abrından səsini də çıxarmır. İçindəkiləri mənə də demir ki, bir az rahat ola. Təkcə mən bilirəm ki, Salatın Həşimin əlindən nələr çəkir”.

Nəcəfalı kişi gözlərini qaldırıb talvara baxdı. Üzüm yarpaqlarının arasından işıq süzülürdü. Gözüylə bir xeyli işıqları seyr etdi. İstədi uşaq kimi əl atıb işıqları tutsun. Gördü ki, o halda deyil.

Sonra da gözünü üzüm gilələrinə dikdi. Orda-burda görünən salxımlar taxta çarpayının üstünə sallanırdı. Gilələrin bəziləri dəymişdi. Tam yetişməyə az qalırdı. Salxımlarında təzə-təzə arılar gəzirdi. Amma o arıların heç birinin Nəcəfalı kişiylə işi olmazdı. Bir dəfə də olsun, qoluna-qıçına qonmamışdılar. Deyəsən, arıların da sancmaqla arası yox idi.

Nəcəfalı kişi üzüm tənəyinin gövdəsinə baxdı. Əməlli-başlı yoğunlamışdı. Kəssəydin bir-iki təndirlik odun çıxardı. Yadına

düşdü ki, on-on beş il əvvəl bu tənəyi özü yerə basdırmışdı. Onda heç ağlına da gəlməzdi ki, bir zamanlar onun kölgəsi özünə qismət olacaq.

– Ay uşaq, nə olub?

“Hey” deyən olmadı.

Kərbəlayinin qızından olmazdı. Arvad öləndən sonra elə bil yetim qalmışam. Bəlkə də onun ölümü saldı məni. Oğlanlarıma him-cim elədim ki, məni evləndirin. Səsləri çıxmadı. Qızlarıma başa saldım ki, arvadsız mənə çətindi. Dedilər ki, saçımızı yolub yelə verərik.

Qorxdular ki, evlənərəm, zürriyyətim-zadım olar, köhnə həyət də, dam-daş da onlara qalar. İnsanın gözü torpaqdan-daşdan doymur ki, doymur.

İndi də qalmışam belə. Səsimə hay verən yoxdur. Bəs hardasınız, niyə gəlmirsiniz? Bəlkə qəfil öldüm, çənəmi kim çəkəcək, üzümü qibləyə kim tutacaq? Ölməzsən, Nəcəfalı, ölməzsən hələ. Hələ sən çox əzab-əziyyətləri görməlisən”.

– Ay uşaq, nə olub?

Səs-səmir gəlmədi.

“Bu kəndin əsl ağsaqqalı Hacı Muraddır. Hacı Murad camaata ağalıq eləməyib, el-obaya ağsaqqal olub. Çox kəndləri gəzib görmüşük. Hacı Muradın tayları zülmdən ləzzət alır. Onların səsindən itlər də qorxub yuvalarına girirlər. Qarağatdıda görmüşəm ki, Hacı Muradın tayı xış sürən ahıla nə zülm eylədi. Anaların gözü çıxsın, o zülmü görməsin.

Yazıq Hacı Murad, elə bil bu kəndin ağası o deyil. Bir başı papaqlını, bir başı yaylıqlını onu söyən görməmişəm. Elə Hacı Murad olmasaydı, Həşimlə Salatının da evi yıxılacaqdı. Aradabərədə əlinə keçəndən Həşimgilə göndərib, arxasınca da deyinər: “Görüm Nəcəfalının azar-bezarı bunlara gəlsin”.

Amma deyəsən Hacı Muradı da Allah bu kəndə çox görməyə başlayıb. Var-yox əlindən alınandan sonra o, at belində

gəzən Ağköynəkli daha da qudurub. Qudurasan qurbağa, gör kimin törəməsi at belinə qalxıb. Dədəsi bilinməyən qurumsaq indi atını Hacı Muradın atının yanına çəkmək istəyir. Bir yalquzaq bu kəndə bəs deyildi, indi biri də peyda olur”.

– Ay baba, ağ köynək kişi qəbiristanlıqda dava salıb. Deyir ki, Salatının qəbrini Naznazın ayaq ucunda qazmaq olmaz. Qəbirlər sırayla qazılmalıdı.

– Ay bala, nə olub? Nə qəbir, nə Salatın?

– Həə, bilmirsən? Salatın bibimi Araz aparıb!

– Kəs səsini, nə yalan danışırsan?

– Yox, baba, Hacı Murad əmim adamları çəkib apardı Salatın bibimi Arazdan çıxarmağa.

Nəcəfalı kişinin matı-qutu qurudu.

## 9.

Yetim qəbiristanlığa çatan kimi Əlirza onu qəzəblə qarşıladı:

Burda adam çoxdu. Beli at yerə, get Həsənqulunu axtar. Bir qamış tapıb rəhmətliyin boyunu ölçün, sonra da qamışı götürüb gəlin.

Yetim səssiz-səmirsiz beli yerə atdı və dönüb getdi...

Həsənqulunun yaxşı kərənti dəyməyi var idi. Kənddə bir tut ağacı kəsiləndə Qəssab Əli ilə davaya çıxardılar. Qəssab Əli dayanardı tutun bir tərəfində, Həsənqulu da o biri tərəfində. Qəssab Əli deyərdi:

– Gövdəsinin təmiz yerindən kötük çıxardın ki, ət baltasının altında dözsün.

Həsənqulu da ona aman verməzdi:

– Elə edin bir düz-əməlli kötük olsun ki, çəkiclə zindana tab gətirsin.

Qəssab Əli Həsənqulunun üstünə çəmkirərdi:

– Ə, bəsdi də! Yaydan-yaya iki dənə kərənti döyəcəksən, camaat da il boyu ətinə ağac ovuntusu qatışdırıb yeyəcək?

Amma sakitləşdirərdilər onları. Hərəsinə bir şümşad kötük verib yola salardılar.

Həsənqulu da evə gələn kimi bir yaş əski götürüb tut kötüyünün o tərəf-bu tərəfini yaxşı-yaxşı silərdi. Xeyli yuxarısına-aşağısına baxıb, həyətlərindəki tut ağacının altında onun üçün yer salardı. Qonşu kənddəki dükançı Hüseynquludan alıb gətirdiyi təzə zindanlardan birini çalardı düz kötüyün ortasına. Sonra da çəkici qoyardı zindanın yanına və üstünü örtərdi.

Bir dəfə axşamçağı Salatın xala bir əlində iri bir qarpız, bir əlində kərənti gəldi Həsənqulunun yanına. Həsənqulu da qarpıza gözucu baxmayıb, kərəntini aldı əlinə, sağını çevirdi, solunu çevirdi, baş barmağını sürtdü ağzına:

– Ay Kərbəlayinin qızı, bu kərəntiylə ot-yonca biçirsiniz, yoxsa daş-kəsək? Kim işlədibsə bilmirəm, amma düşmən malı kimi baxıb kərəntiyə.

– Ay Həsənqulu, kərəntini özüm çəkəndə bircə dəfə daşı ağzına sürtürəm, həmən itilənir. Elə ki, Həşim əlinə alır, kərəntinin ağzı düyün-düyün olur.

Əşi, mənə tanıdacaqsan Həşimi? Gönünə dabbaqda bələdəm. Yeri get, bacılığınla bir az söhbət elə, sonra gəlib apararsan.

Həsənqulu sol dizini qatlayıb yerə qoydu, sağ ayağını da qabağa uzatdı. Kərəntinin ağzını qoydu zindanın üstünə, sapını da sağ ayağının üstünə yapışdırdı. İki ovcunu ağzına yaxınlaşdırıb tüpürdü və çəkici aldı əlinə:

– Ya Allah!

Çəkicin səsinə tut ağacının başındakı sığırçınlar qıy vurub göyə çəkildilər.

“Dünən qurd düşmüş bir qovun gətirdilər, bu gün də gün vurmuş qarpız. Deyəsən, bu çəkic-zindanın da zibili çıxıb. İndi hərə həyətindən bir qozbel kötük götürüb uzadır evinin qabağına, üstünə də bir zindan vurur, başlayırlar kərənti döyməyə. Hamı olub usta. Qanan da kərənti döyür, qanmayan da. Deyəsən, şornan yağın bilinməyən vaxtı gəlib”.

– Ay qız, sərin su gətir!

“Biri budu, qonşumuzun uşağı. Yaz çağı yoncanın birinci biçiminə az qalanda, götürdü kərəntini, başladı döyməyə. Çəkici vurdu baş barmağına, o dəqiqə də sədəfi oldu qapqara. Ufuldusu göyə çəkildi. Heç bir həftə keçməmiş, sədəfi düşdü. Ay şor satanın balası şor satan, sən kərənti döyənsən? Get şorunu sat, çörəyini qazan. Dədəsinə də deyirəm ki, axı bu, uşaq işi deyil! Nə desə yaxşıdı: “Heç kəs anasının qarnında öyrənməyib”. Anasının qarnına şiş batsın, anası şorsatan doğub da, kərənti döyən yox ki!”

– Ay sağ ol, indi bu sərin su ürəyimi şaxladacaq.

“O günü getmişəm bazara, görürəm ki, Məşədi Qafarın nəvəsi durub Kor Mustafanın zindanlarının yanında, zindan almaq istəyir. Birini götürüb, birini qoyur. Mən də kənardan tamaşa eləyirəm. Ay başınıza dönüm, Məşədi Qafar hara, zindan hara, nəvəsi də bilə ki, zindan nədir? Axırı da səbrim tükəndi, dedim: “ay Məşədi Qafarın nəvəsi, baban zindan görüb ki, sən də biləsən zindan nədi? Niyə gedib südünüzü satmırsınız, ay bala?” Mənə qayıdıb nə desə yaxşıdı: “Özüm bilərəm, Həsənqulu əmi!» İndi gəl bu camaatnan dolan görüm, necə dolanırsan?”

Qəflətən çəkic Həsənqulunun barmağına dəydi. “Yaxşı qurtardıq. Yüngüldü, əzilib-eləməyib. Ağır olsaydı, kəndin içinə çıxa bilməyəcəkdim. Hərə bir tərəfdən qəmiş uzadacağıdı. İllah da Həşim!”

– Ay Salatın, gəl apar!

Elə bil Salatın Həsənqulunun yanında hazır idi:

– Sağ ol, Həsənqulu! Allah balalarını saxlasın!

Salatın bunları deyib, həyətdən dabanqırma çıxdı. Həsənqulu evə keçdi. Evdə heç kəs yox idi. Arvad-uşaq qapı-bacaya dağılmışdı. Hərə bir iş görürdü. Həsənqulu sandığın qapağını qaldırdı. Oradan bir boxça götürüb yastığın üstündə oturdu. Boğçanın ağzını açdı. Yavaşca yerə sərdi. Dolu gilizləri bir-bir yoxladı. Beş-altısını kənara çəkdi. Sonra boğçanı bağlayıb sandığa qoydu və qapağını örtdü.

Divardakı kilimin üstündən asılmış qoşalüləyə əl atdı. Yavaşca onu yendirdi və çiyninə asdı. Gilizləri bir-bir götürüb yoxladı. Gilizləri də gödəkçəsinin cibinə qoyub bayıra çıxdı. Elə qapıda arvadıyla qarşılaşdı:

– Ay Qulu, belə axşam-axşam hara gedirsən?

– Gedib o yalquzağı qanına qəltan eyləyəcəyəm! Bu kəndin canını boğazına yığıb.

Daha arvadı heç bir söz demədi. Salatının gətirib quyunun başına qoyduğu qarpızı götürməyə getdi, Həsənqulu da darvazadan çıxdı.

Həsənqulu bir xeyli gedib Hacı Muradın tayalarının yanından keçəndə, gördü ki, uşaqlar gizlənqaç oynayırlar. Uşaqlar da Həsənqulunu qoşalüləynən görəndə qorxub dayandılar. Biri soruşdu:

– Ay Həsənqulu əmi, hara gedirsən?

– Gedirəm yalquzağı öldürməyə!

Uşaqlar:

– Ay can, ay can, Həsənqulu əmi yalquzağı öldürəcək, – deyə qışqırıb oynamağa başladılar.

Amma Həsənqulu Ağıl üstünə tərəf getmirdi, Qazlı gölə tərəf üz tutmuşdu.

Elə o vaxtdan Həsənqulu ya hər gün, ya da günaşırı Qazlı gölün yan-yörəsinə yollanıb, ov ovlayardı. Qışda qar yağanda işi yaxşı gətirərdi. hər gün olmasaydı da, iki-üç gündən bir dovşan

vurardı. Dovşanın da ayaqlarından ip bağlayıb ipi iki çiyninə keçirər, dovşan da kürəyində sallanıb qalar və beləcə kəndə gətirərdi. Dovşandan pay vermək qalardı Həsənqulunun öz insafına.

Yayda isə Qazlı gölün qırağından əl çəkməzdi. Gölün yanındakı arxlarda çoxlu su ördəyi olardı. Hərdən də kəklik tuş gələrdi Həsənqulunun gülləsinə.

... Yetim yaxşı bilirdi ki, Həsənqulu indi Qazlı gölün həndəvərindədir. Heç kəsdən bir şey soruşmadan oraya üz tutdu. Elə "motor arxı"nın üstündən keçib təpəni aşmışdı ki, Həsənqulu ilə üz-üzə gəldi. Həsənqulunun torbasından iki-üç su ördəyinin başı görünürdü. Əvvəl Həsənqulu dilləndi:

– Nə olub, ay Yetim, könlünə ördək düşüb?

– Yox ey, Həsənqulu əmi, Salatın xalanı Araz aparıb. Qəbir qazırlar.

– Vaay, gorun çatlasın, Kərbəlayi! Boyuna qamış ölçülməli Həşim idi, Salatın yox!..

## 10.

Hacı Murad xırmandan qayıdıb atı yorğa-yorğa sürərək Ağıl üstündən keçirdi. Ağıl üstündəki ot zəmilərinin sonuncu biçininə az qalmışdı. Elə zəmilərə axırıncı su da verilmişdi. Hiss olunurdu ki, atın ayağı hərdən palçığa batır.

"Bu il yaman ot-ələf oldu. İndiyəcən bu yerlərdə belə ot bitməmişdi. Camaat da yaxşı işlədi. Deynən Hacı Murad olan bəndə, yaz açılandan bir adama dedin ki, çölə çıx! Kərəntisini, yabasını götürən gün doğmamış zəmidə peyda olurdu. Düz axşama qədər ağzına bir damcı su, dilinə bir tikə çörək dəydi-dəymədi qızmar günün altında işləyirdilər. Axı, mən bu kəndin adamlarına nə pislik eləmişəm ki, üzümə yaman olalar? Xeyir işləri olub əl tutmuşam, yasları düşüb çiynimi qabağa vermişəm.

Odu eey, bu köpəkoğlu Həşimin Naznaz arvadı öləndə naxırdan bir yekə cöngə ayırdım, dedim, halal xoşu olsun. Qırxında da iki erkək kəsdirdim. Sabah da bir cöngə kəsdirəcəyəm. Salatının da halal xoşu olsun. Qardaşı Nəcəfalı da pis adam deyil. Rəhmətlik atası Kərbəlayi atamla dost idi”.

Hacı Murad tək armuda çatanda qanrılıb geriyə baxdı və atın cilovunu çəkdi. Gördü ki, cavanlar Ağıl üstünün altındakı cığırla qaça-qaça gedirlər.

Hacı Murad atdan düşdü. Atın cilovunu buraxdı. At armudun kölgəsində yenicə göyərmiş kalışları yeməyə başladı. At da elə bil duyuq düşmüşdü: bir ağız kalışdan qoparır, sonra başını yuxarı qaldırıb yan-yörəsinə baxırdı.

Hacı Murad iri kötüyün üstündə oturub kürəyini armud ağacına dayadı.

“Bu cır armud olmasaydı, Ağıl üstündə işləyənlər harada dincələrdi. Yazıq Salatın, eşşək arabasını gətirib həmişə burada saxlayardı. Arxın kənarlarındakı kol-kosdan biçib arabanın bir küncünə atar, məni də görəndə həmişə deyərdi: “İnək axşam evə qayıdanda qabağına bir çəngə ot atmasan, süd vermir ki, vermir”. Mən də deyərdim: “Apar at inəyin qabağına südü çox olsun, balaların doyunca yesin, ay Salatın!” sonra da səsimi ucaldardım: “O köpəkoğlu Həşimi bit basıb, niyə buralara üzükmür”. Salatın da başını bulaya-bulaya gedər, dilinə bir söz alıb danışmazdı. İndi Həşim, görüm bundan sonra necə dolanacaqsan?”

Hacı Murad ayağa qalxdı. Baxdı ki, cavanlar hələ də Ağıl üstünün axırına çatmayıblar. Bir də kəndə tərəf boylandı. Uzaqdan öküz arabasının qaraltısı gəlirdi. Yenə kötüyün üstündə oturdu.

“Bu Nəcəfalının kiçik oğlu nə qanmaz adamdı. Bir-iki ay olar ki, uşaqları olub. O günü yolda tutub deyirəm ki, ay bala, axşamlar gəl bizə, bir qab süd doldur apar. Anasının südü çat-

maz, uşaq sısqa böyüyər. Nə desə yaxşıdır: “Bizə süd-zad lazım deyil!” Yediklərin burnundan gəlsin, bəs sən mənim inəklərimin südü ilə böyüməmisən? Bəlkə qardaşların, bacıların sənin ananın südüylə böyüyüblər? Rəhmətlik Salatın bibinin uşaqlarına göndərdiyim süddən bəlkə dadmamısan?

Hələ bu harasıdır? Mən soruşan günü gedər evə və Yetimin bacısını o ki var dəyər. Utanmaz-utanmaz da deyər ki, qancıq qızı qancıq, Hacı Murad hardan bilir sənin döşünə süd gəlmir? Gorun çatlasın, Məşədi Salman, gör oğlun nə günə qalıb?”

Birdən at şahə qalxıb fınxırdı, döndü Hacı Murada tərəf. Hacı Murad da tez başını sola çevirdi, qamışlığa tərəf baxdı. Qamışların arasından yalquzağın gözləri görünürdü. Yalquzaq az qalırdı gözləri ilə adamı yesin. Hacı Murad da gözlərini dikdi yalquzağın gözlərinə, Hacı Muradın bədəni soyudu, tükləri biz-biz oldu. Gözünə qaranlıq çökdü. “Hələ yalquzağı bu qədər yaxından görməmişdim”.

Yalquzaq gözlərini Hacı Muraddan yenə çəkmirdi. Elə bil bu an Hacı Muradın üstünə cumacaqdı. Hacı Murad da gözlərini yalquzağın gözlərindən ayırmırdı. “Deyəsən, axırındı, Hacı Murad”.

Yalquzaq gözlərini Hacı Muraddan çəkib yavaşca qamışlığın arasına girdi. Hacı Muradın donu açıldı. Ayağa qalxdı. At da elə bil donmuşdu. “Nə yaxşı ki, fınxırıb qaçmadı, yoxsa göz qırpımında parçalayacaqdı atı”.

Hacı Murad atın cilovundan yapışdı və ayağını üzəngiyə qoyub yəhərə qalxdı. “Cavanlar deyəsən Araza çatırlar”.

Hacı Murad atı dəhmərləyib yola düzəldi.

“Yaman yalquzaq imiş, bu yalquzaq! Mal-heyvan bunun əlinə düşsə, diri qurtarmaz. Görəsən, doğrudan Tutu nənə bu yalquzağın ağzını bağlaya bilər. Daha inanmaram... Tutu nənənin bağladığı qurd ağzı başqa ağızdı. Buna Tutu nənənin duası

kar eləməz. Qəssab Əlinin yekə-yekə malları yerə yıxıb başını kəsməyinə baxmayın, heç Qəssab Əlinin də buna gücü çatmaz.

Bu yalquzağın əsl yemi Səttardı. Atasan qabağına, leşini tökə, sən də kənardan baxasan. Zalımın balası, özünü incinar kimi aparır, nədi-nədi Gümüşlüdə fəhlə işləyir, kəndə gələndə də qalstuk taxır. Böyük adamdı, ayda iki dəfə məvacib alır. Zatı qırıq oğlu zatı qırıq, heç o məvacibin südünə, qatığına, pendirinə, yağına, bir də yoluna çatar? Evdə də ağzına çullu dovşan sığışmır: "Dədə, bundan sonra naxıra getməyəcəksən. Anam da getməyini tullasın bir tərəfə. Daha özüm dolandıracağam sizi. Balaca qardaşımı da göndərəcəyəm oxumağa. Hacı Murada işlədiyimiz bəsdi".

– Tünbətün oğlu tünbətün, Hacı Murada işləmisiniz? Özünüzə işləyib özünüz də yeyibsiniz. Ağköynəkli də gələndən sonra bir sürü mal-heyvanımı aranızda böldü. Qazandığınızı da götürdünüz, daha Hacı Muraddan nə istəyirsiniz?"

Hacı Murad Arazın dayaz yerinə çatdı. Cavanlar səpələnib çayın içində daşların üstündə durmuşdular. Salatının meyidi görünmürdü.

"Çayın ortasındakı cüllütboyun qanmaza bax, Səttarın kiçik qardaşıdı. Cüllüt kimi də başını üzüb atasan Araza, kəndin canı qurtara. Ağköynəkli əmilərinə dil verəndi bunlar. Aqibətləri onsuz da elə olacaq. hərdən altdan-altdan fikir verib görürəm ki, cüllüt boynuynan oğru pişik kimi gəlinlərə, qızlara miyoldayır. Zatınıza tula bağlayım, bu kənddə indiyə qədər gəlinə, qıza yanakı baxan olub? Qoy Ağköynəkli atını dördnala çapsın, onda görəcəyəm bu kəndin dirriyini, bu kəndin namusunu".

Hacı Murad gördü ki, daha səbri çatmır, atını Araz yuxarı sürməyə başladı.

## 11.

Abbasəli həyət çəpərindən keçib atının hörüyünü dəyişməyə gedirdi. Üç gün idi ki, hövsələsi özünə gəlməmişdi. Axşamlar arvadıyla diz-dizə oturur, ha dərdləşirdilərsə də, bir şey çıxmırdı. Abbasəlinin fikri yenə keçinin yanında qalmışdı.

"Əşi, bizdən qoyun-keçi yiyəsi çıxar? Yazıq Hacı Muradın sürüsünü yarılayıb camaata payladılar ki, sizin də var-dövlətiniz olmalıdır. Ay tifağı dağılmışlar, bizdən var-dövlət yiyəsi olar? Budu bax, hərəsinin əlinə bir-iki qoyun-keçi düşdü, başladılar ki, "heyvanları otarmağa növbəylə gedəcəyik. Nökərçilik qurtardı, bundan sonra heç kəs naxır otarmağa getməyəcək". Növbə mənə çatdı, apardım qoyun-quzunu otarmağa, yazıq qonşunun da keçisi yoxa çıxdı. Adamın üstündə Allah var, qonşu da bir söz demir. Amma Ağköynəkli kişi gündə kəsir həyətimizi. Ağzını Allah yoluna qoyub qışqırır: "Ya keçini verməlisən, ya da baratasın! Bundan sonra qayda belədir".

Ay başınıza dönüm, əvvələn keçinin yiyəsi Hacı Muraddı, sonra da qonşu. Bunlardan heç birisi dillənmir. Yiyələr qalıb bir tərəfdə, yiyəsiz at oynadır. İndi başımıza haranın daşını salaq?"

Abbasəli atın yanına çatdı. Mıxı çıxardıb atı çəkdi arxa tərəf. At özünü vurdu arxın içinə, başını saldı aşağı, başladı çayın suyunu sümürməyə. Abbasəliyə elə gəldi ki, bu dəqiqə çayda bir damla su qalmayacaq.

"Binəva necə də yanıb eey! Bir az da gec gəlsəydim, ciyərləri kabab olacaqdı. Bu anasından əzən, dədəsindən təzənlərə də deyirəm ki, hərdən gedin o atın hörüyünü dəyişin, qabağına bir vedrə su qoyun, dolanışığımız ondandı. Kimə deyirsən? Kar mənəm, eşitməyən bunlar».

Abbasəli atı çəkib arxdan çıxartdı. At da dinməz-söyləməz başladı onun dalıyca getməyə. Birdən fınxırıb geri çəkildi. Abbasəli gördü ki, xallı bir ilan sürüşüb atla onun arasından keçdi.

"Yazıq uşaqları elə hey qınayıram. Onlar da qışqırırlar ki, bəs biz qorxuruq, atı hörüklədiyin yerdə ilan var. Biçarələr doğru deyirmişlər. Bura gəlib-eləsələr ilan sancar, qalarıq dizimizə döyə-döyə. Yox, bundan sonra uşaqları qoymaram. Həmişə özüm gələcəyəm".

Abbasəli atın mıxını başqa yerə sancdı. Yerdən götürdüyü yekə daşla da üstündən bərk-bərk vurmağa başladı. Sonra əli ilə o tərəf-bu tərəfə tərpətdi, gördü ki, at dartıb çıxara bilməz. Daşı mıxın dibinə tulladı, belini düzəltdi və ayağa qalxıb, evə tərəf getməyə başladı.

"Bu keçi məni lap zinhar eyləyəcək. Belə də iş olar? Nə öldüsü var, nə də qaldısı. Bəlkə yalquzaq yeyib? Onda baratası hanı? Üç gündür ki, "gördüm" deyən yoxdur.

Yoox! Qurd yeyə bilməz keçini! Elə həmin gün Tutu nənəyə ağzını bağlatmışam. Dünən getmişdim, dedim ki, ay Tutu nənə, bəlkə bir çarə qılasan? Dedi ki, narahat olma, get əlini qoy ürəyinin başına, rahat yat! Keçidən xəbər çıxacaq.

Hanı bə xəbər? Bu gün də səs-səmir olmasa, balası yanında olan keçini zorla aparıb qatacağam qonşunun tövləsinə".

Abbasəli evə çatanda gördü ki, arvadı çaydan su daşıyıb tökür palçığın üstünə. Abbasəli vedrəni arvadının əlindən aldı:

– Vedrəni ver, mən su daşıyım, sən get saman gətir!

Arvadı ucadan qışqırıb nəsə deməyə ərindi, vedrəni verdi, özü də saman dalısınca getdi.

Arvad tayanın bir tərəfinə tələnmiş samandan götürmək istəyirdi ki, gözü fala sataşdı. Samanı bir az da itələyəndə falın yanında dörd-beş təzə yumurta gördü. "Mən də deyirəm, bu qıran qırmış azıb harda yumurtdayır? Demə, özünü veribmiş samanlığın üstünə. Yaxşı ki, pişiyə urcah olmayıb. Yoxsa, biri də qalmazdı! Nə yaxşı ki, çaqqal da neçə gündü bu tərəfə üzükməyib. Bu çaqqallar da əllərinə keçəndə toyuq-cücə aparardılar, indi də yumurtalarına dadanıblar".

Yumurtaları götürüb bir tərəfə qoydu. Abbasəliyə bir söz də demədi. Abbasəliyə demək üçün gərək ucadan çığıraydı. Hövsələsi çatmadı. Sonra bir tabaq saman götürüb palçığın yanına gəldi. Samanı əliylə palçığın üstünə səpdi. Elə ki səpib qurtardı, ayaqqabılarını çıxarıb düşdü palçığın içinə. Başladı samanı palçığa qatmağa.

Abbasəli dilləndi:

Yavaş ayaqla, ayağına çöp-zad batar!

Arvad yenə bir söz demədi.

"Mənimki daha çöpdən-zaddan keçib. Bu işi hər il görməliyəm. Yayda suvaq düzəldib ora-buranı suvamasam, qışda heç biri ələ gəlməz. Görmürsən, təndirəsərin bir divarının suvağı tamam sökülüb tökülüb. İndi o divara suvaq çəkməsən, qışda onun içində çörək yapmaq olar? Yel vurar, yengələr oynayar. Hərdən Qadoş da gəlib kömək eyləyir. Yazığın nə canı var, sətəlcəm olub getsin? Uşaqlarım Qadoşdan balacadırlar, yoxsa elə onu uşaqlardan birinə gəlin eyləyərdim. Ev damının da qabaq divarı o gündədi. Uçub dağılar, sonra evimiz yıxılar. Yenə artıq şey-şüyü ora yığırıq".

Abbasəli yenə dilləndi:

– Bu keçi məsələsinin axırı necə olacaq?

Arvad cavab verməyib, çiynini çəkdi.

"Gör mən nə haydayam, bu nə haydadı. Cəhənnəmə olsun keçi də, yiyəsi də".

Suvaq hazır oldu. Başladılar təndirəsərin divarını suvamağa.

Xeyli keçdi. Birdən Abbasəli dilləndi:

– Ay arvad, danışmırsan, bəs bu keçinin məsələsini neyləyək?

Bu dəfə arvad ucadan qışqırdı:

– Axşam apar öz keçimizi bağla qapılarına, neynəyəcəksən? Gor qonşusuyuq, düşmən olmalıyıq?

Bu zaman uşaq qaça-qaça gəlib çıxdı və töyşüyə-töyşüyə dedi:

– Ay ana, Tutu nənə deyir ki, tez olsun gəlsin! Salatın xalaya su qoyuruq.

– Salatına nə olub ki?

– Bəs eşitməmisiniz, Salatın xalanı Araz aparıb.

Abbasəli ucadan qışqırdı:

– Anan kardı da, kar. Burdan bura kənd köçür, heç nədən xəbəri yoxdu.

Arvad öz-özünə dedi: "Karın könlündəki".

Abbasəliylə arvadı əllərindəki işi yarımçıq qoydular. Abbasəli uşağa tərəf çevrilib dedi:

– Barı sən yeri atı götür gəl! Başımız qarışar, at çöldə qalar, yalquzaq gəlib dağıdar. Tez gedək, görək nə kömək eyləyirik.

Uşaq qaça-qaça atın dalısınca getdi. Abbasəli əl-ayağını yuyub evə keçdi ki, paltarlarını dəyişsin. Arvad başladı çayın kənarındakı daşın üstə durub ayaqlarını yumağa. Bu vaxt uşağın çığırtısı eşidildi:

– Ay dədəəə! Ay anaaa!

Arvad tez durub Abbasəlini çağırdı ki, bəs uşaq qışqırır. Abbasəlinin ürəyinə pis şey gəldi:

– Uşağı ilan çaldı!

Hər ikisi çölə tərəf qaçmağa başladı. Bir az qaçmışdılar ki, uşağın səsi aydın eşidilməyə başladı:

– Keçini tapmışaam! Keçini tapmışaam!

Arvad ayaq saxladı və qışqırdı:

– Abbasəli, Abbasəli, qaçma!

Abbasəli dayandı:

– Nə olub?

– Uşaq keçini tapıb!

Abbasəli qurudu. “Ay balam, mən neçə gündür atı aparıb oraya hörükləyirəm. Niyə mən görmədim onu? Yalquzaqdan bu təhər salamat qalıb?”

Uşağa çatdılar. Arvad soruşdu:

– Keçi hanı?

– Budu eey, quyuda! Mələrtisi dünyanı yıxırdı.

Abbasəli ilə arvadı gözlərinə inanmadılar. Köhnə quyuya düşmüş keçi sağ-salamat idi. Abbasəli əyilib keçinin buynuzundan tutub bayıra çıxartdı. Keçinin əti sümüyünə yapışmışdı.

Abbasəli ürəyində dedi: “Allah sənə yüz il ömür versin, ay Tutu nənə!”

Arvad da ürəyində dedi: “Allah sənə rəhmət eləsin, Salatın!”

Abbasəli yenə ürəyində dedi: “Ağköynəklidən canım qurtardı”.

Arvad da yenə ürəyində dedi: “Hacı Murad yerində deyir ki, bu Abbasəli kar oğlu kardı”.

## 12.

Tutu nənə, Süleymanın gəlini, bir də Zübeyda xala Həşimgilin darvazasının qabağına çatdılar. Gördülər ki, Abbasəli ilə arvadı da Hacı Muradın tayalarının yanından burulub gəlirlər. Tayaların bu başına çatanda Abbasəli ucadan qışqırdı:

– Ay uşaq, bəsdirin, gizlənqaç oynayıb yorulmadınız?

Uşaqlar bu səsi eşidib, tayaların o biri tərəfinə keçdilər. Abbasəlinin səsi çətin kar eyləyərdi.

Abbasəli ilə arvadı da Həşimin darvazasının yanına çatdılar:

– Allah rəhmət eləsin!

– Allah rəhmət eləsin! Birinci Tutu nənə dilləndi:

– Ay Abbasəli, bu nə bəlaydı Həşimi tutdu?

Abbasəlinin arvadı ucadan dedi:

– Deyir ki, bu nə bəlaydı Həşimi tutdu?

Abbasəli dilləndi:

– Nə bəla olacaq, Allahın işidi!

– Yoox, bu Allah işi deyil, kiminsə qarğışıdı!

Abbasəlinin arvadı ucadan dedi:

– Deyir ki, bu Allah işi deyil, kiminsə qarğışıdı!

Abbasəli dilləndi:

– Qarğış olsa da Allahın əmrindən qaçmaq olmaz! Sonra da sevincək əlavə etdi:

– Tutu nənə, Allah canını sağ eləsin! Keçi tapıldı!

– Nə danışırsan? Gördün, mən demişdim tapılacaq!

Abbasəlinin arvadı ucadan dedi:

– Deyir ki, gördün, mən demişdim tapılacaq!

Abbasəli yenə dilləndi:

– Sənə ağır bir xələt göndərəcəm!

Bundan sonra heç kəs danışmadı. Darvazadan içəri keçdilər. On-on beş kişi, arvad yığılıb həyətdə ayaq üstə dayanmışdılar. Həşim də, uşaqları da gözə dəymirdilər. Tutu nənə Abbasəliyə üz tutdu:

– Yeri o kötüyü gətir, divarın dibinə qoy, mən oturum!

Abbasəlinin arvadı ucadan dedi:

– Deyir ki, yeri o kötüyü gətir, divarın dibinə qoy, mən oturum!

Abbasəli ədəb-ərkanla həyətə su gedən ot basmış arxın yanındakı kötüyü götürdü və gətirib divarın yanına qoydu. Süleymanın gəlini Tutu nənənin qolundan yapışıb, onu ehmalca kötüyün üstündə oturtdu. Tutu nənə rahat nəfəs aldı:

– Sağ ol, ay Abbasəli, səni görüm yüz yaşayasan!

Abbasəlinin arvadı heç nə demədi.

Bu zaman evin qapısı açıldı. Əvvəlcə Həşim, sonra da uşaqları bayıra çıxdılar. Hamısının gözü qızarmışdı. Həyətdəkilər elə bil bir səslə dedilər:

– Allah rəhmət eləsin!

Həşim heç bir söz demədi, evin pəncərəsinin altında çöməlib, kürəyini divara dayadı. Heç kəs danışmırdı. Birdən Tutu nənə dilləndi:

– Ay Zübeyda, nəyə dayanmısan? Beş-altı iri daş tapıb gətirin. Düzün divarın dibinə!

Heç beş dəqiqə çəkmədi, divarın dibinə yeddi-səkkiz iri daş yığıldı. Tutu nənə dilləndi:

– Daşların hamar tərəfini yuxarı qoyun! Elə eləyin ki, iki daşın üstündə bir yekə qazan otura bilsin. Üç qazanlıq ocaq düzəltsəniz bəsdi.

Bu işi də görüb qurtardılar. Tutu nənə yavaşca ayağa qalxıb daşlara tərəf gəldi. Əlindəki ağacla daşların başına vurub taqqıldatdı. Yavaşca mızıldandı:

– Allah səni nə tez apardı, Salatın! Həmişə zarafatla deyərdin ki, Tutu nənə, sənin suyunu özüm qaynadacağam, özüm də səni yuyacağam.

Tutu nənə əli ilə gözlərini sıxdı və öz-özünə yavaşca dedi: “İndi öləndə məni kim yuyacaq?” Bu sözləri Tutu nənənin özündən başqa heç kəs eşitmədi.

Bir azdan Həşimin bacıları darvazadan içəri girdilər. Özlərini atdılar Həşimin üstünə. Elə bil ölən Salatın deyildi, Həşim idi. Böyük bacısı ağı deyə-deyə dizlərinə çırpırdı. Kiçik bacısı da Həşimi qucaqlayıb ağlayırdı. Amma böyük bacısı kimi hay-həşir salmamışdı.

Onlar da ağlayıb sakitləşdilər. Sonra evə keçib yır-yığış eləməyə başladılar.

Tutu nənənin səsi gəldi:

– Gedin qonşulardan iri qazan alıb gətirin, ay Zübeyda! Vedrələri də götürün, su daşıyın!

Zübeyda xala da üzünü Süleymanın gəlininə tutdu:

– Sən qızları da çağır, su daşıyın! Mən də qazanların dalınca gedim.

Bu vaxt qəbiristanlıqdan gələn Ağköynəkli kişi də darvazadan həyətə girdi. Heç salam da vermədi. Həyətdə o yan-bu yana getdi, gördü ki, hamı öz işiylə məşğuldur. Gəldi Həşimin qarşısında dayandı. Həşim çöməldiyi yerdən ayağa qalxdı. Üz-üzə durdular. Ağköynəkli kişi nəsə demək istəyirdi, amma dillənmədi. Qayıdıb darvazaya tərəf getdi. Darvazaya çatanda üzünü Abbasəliyə tutub lap ucadan dedi:

– Abbasəli, Müstəcəbi çağırın gəlsin, mağarı həyətdə qursun! Bundan sonra küçədə mağar qurulmayacaq!

Bu sözü Həşim də, Tutu nənə də, Süleymanın gəlini də, Zübeyda xala da – hamı eşitdi. Elə Abbasəli də eşitmişdi. Ona görə də, Abbasəlinin arvadı heç nə demədi.

Bir az da keçmişdi ki, Həsənqulu əlində bir uzun qamış darvazadan həyətə daxil oldu. Tutu nənəni görüb qamışı yavaşca onun yanına qoydu ki, barı Həşim görməsin. Amma Həşim görmüşdü. Elə Həşim də buna bənd idi ki, cəld ayağa qalxıb Həsənqulunun üstünə şığıdı:

– Adını Həsənqulu qoymusan, bir yalquzağı da öldürə bilmirsən! O yalquzaqdı bizim evə bədbəxtlik gətirən!

– Naznazı da onun səsi öldürdü. Sabah özüm gedib o yalquzağı gəbərdəcəyəm!

Həşimi sakitləşdirdilər. Daha heç kəs dillənmirdi.

## 13.

Hacı Murad Araz yuxarı xeyli getmişdi ki, gözü çayın ortasında Salatının meyidinə sataşdı. Çay şaqqıldaya-şaqqıldaya Salatının meyidini üzüaşağı aparırdı.

Hacı Murad atı saxladı. At yaman susamışdı, özünü az qalırdı Araza vursun. Amma bura yarğan idi, at su içə bilməzdi. Hacı Murad atın başını Araz aşağı döndərib, sağ ayağını qoyduğu üzəngini bərkdən atın qarnına vurdu. Arazın sol sahilində Hacı Murad at üstündə gedirdi, Arazın ortasında isə Salatın suların qucağında.

Hacı Murad bir xeyli gözlərini Salatından ayırmadı. Amma nə iş idisə, Hacı Muradın gözlərinə Salatın Həşimlə birgə görünürdü. Düşündü ki, bəlkə Həşimlə Salatın Arazda çimirlər. Həşim də baş vurub suyun altına, indi hardansa çıxıb Salatını qucağına alacaq. Bir də düşündü ki, yox, bu həna o hənadan deyil! Həşim buralarda nə gəzir. Həşimin Salatınla çimmək vaxtı çoxdan keçib!

Hacı Murad gözünü Arazdan çəkdi. Əlini qoydu atın yalına. At əməlli-başlı tərləmişdi. Susuzluq da onu lap əldən salmışdı.

Birdən Hacı Muradın ağlına gəldi ki, Arazda axan Salatın olmasaydı, onun arvadı Pakizə olsaydı, görəsən, onda da belə soyuqqanlı tərpənərdi?! Onda da Sadığa deyə bilərdimi ki, get Sultan kişini gətir! Onda da Hətəmi çığırardımı ki, öküzləri qoş, arabanı Ağıl üstünə apar!

Onda da ata minib Arazın kənarı ilə Pakizənin meyidinə baxa-baxa atı sürə bilərdimi?

Yenə Hacı Murad fikirləşdi ki, bəs bunlar hardan onun yadına düşdü? Yazıq Pakizə neçə illərdir ki, xəstəhaldır. Yediyi süd, qatıq, pendirdi. Kefi durulanda da Hacı Murada zarafatla

deyir ki, bu naxırı sən elə məndən ötəri saxlayırsan. Hacı Murad da gülər, cavab verməzdi.

Hacı Murad bu qara fikirləri özündən qovmaq istəyirdi, amma bu fikirlər də ondan əl çəkmirdi. Birdən ucadan dedi:

– Lənət şeytana!

At bu səsdən hürkən kimi oldu, Hacı Muradın da yadından Pakizə çıxdı.

Amma nə faydası! Heç bircə an keçməmişdi ki, Hacı Muradın ağlına gəldi ki, bəlkə Arazda axan Salatın olmayaydı, ikinci arvadı Güllü olaydı. Hacı Murad həmən düşündü ki, Güllü olsaydı, qardaş-bacıları tökülüb gələcəkdi, hamısı da üzünü Hacı Murada tutub deyəcəkdilər:

Ə, sən nə kişisən ki, arvadını buraxasan Arazdan su gətirməyə gedə, Araz da onu apara!

Hacı Murad atın Araza yenə biləcəyini gördü və hər şeyi unutdu. Atın başını döndərdi Araza tərəf. At da buna bənd idi ki, Arazın qırağına çatan kimi iki qabaq dizini yerə vurdu, başladı Arazın suyundan içməyə. Bir az içmişdi ki, Salatının meyidini gördümü, yoxsa nədən duyuq düşdüsə, başını sudan çəkib qabaq dizlərini qaldırdı. Hacı Murad nə illah elədi, at daha su içmədi ki, içmədi.

Yenə Hacı Murad atı Araz aşağı sürməyə başladı. Yadına xırmandan taxılın oğurlanması düşdü. Fikrinə gəldi ki, bəlkə Sadıq yalan danışır, özü götürüb aparıb evə. Yenə düşündü ki, bu, olan iş deyil. Neçə illərdi ki, Sadıq xırmandadır, oradan bir vedrə də taxıl oğurlanmayıb. Kimə də lazım olub, taxıl əsirgəməmişəm. Sadığın da ehtiyacını həmişə ödəmişəm. Bir də düşündü ki, Sadıq demişkən, Ağköynəkli özünə yaraşdırarmı gecə qaranlıqda gəlib kisə-kisə taxıl oğurlasın. Sonra da öz-özünə dedi: "yoox, imanımı yandıra bilmərəm, çox da ki, mal-qaramın parasını aldı, torpaqlarımı bölüşdürdü, amma indiyə kimi taxıldan bir söz deməyib hələ. Hər halda insaf-mürvət yaxşı şeydir.

Ağköynəklinin də vicdanı yəqin ona deyir ki, çox da ağ eləmək olmaz. Hacı Murad da insandı axı, o da əziyyət çəkib, bu kəndi çörək yiyəsi eləyib. Nə deyim, iman bir tərəfə gedir, güman bir tərəfə.

Bəlkə Nəcəfalının südəmərinin işidi. Axı, o, xırmana az-az gəlir. Bir də "Bizə süd-zad lazım deyil! – deyənin Hacı Muradın xırmanında nə işi var? Vallah, Nəcəfalının südəmərinin də bu əməldən xəbəri yoxdur. O südəmər elə bir iş tutsa və Nəcəfalı eşidib-bilsə, iflic-iflic yerindən qalxıb onun dərisinə saman təpər və itqusdu sürüyüb evdən bayıra atar".

Hacı Murad yenə Araza tərəf baxdı. Salatının meyidi onun bərabərliyində üzüaşağı gedirdi.

Birdən Hacı Muradın gözlərinin qabağında yalquzağın gözləri dayandı. Öz-özünə dedi ki, görəsən, bu yalquzaq haradan azıb ona tuş gəldi? Gör indiyə qədər bir adamın qabağına çıxıb? Heç kənddə "yalquzağı gördüm" deyən var? Vallah bu yalquzaq sirri-Xudadır!..

## 14.

Müstəcəb günortadan bir az keçmiş qonşunun on-on iki yaşlı oğlan uşağını da götürüb Sulutəpəyə getmişdi. Hacı Muradın ot gətirən arabası tayaların yanına çatanda gizlənqaç oynayan uşaqlar qaçıb minmişdilər arabadakı otun üstünə. Birdən qonşunun uşağı otun üstündən yıxılmışdı yerə və sol qolu yerindən çıxmışdı. Qonşu ilə də sınıqçı Hacının arasında xeyli vaxt olardı ki, umu-küsü var idi. Ona görə də Müstəcəbi çağırıb demişdi ki, uşağı sən apar Sınıqçı Hacıya. Mən aparsam, uşağın qolunu salmayacaq, başlayacağıq savaşmağa.

Müstəcəb də heç bir söz demədən atı minib, uşağı götürüb Sulutəpəyə Sınıqçı Hacının yanına getmişdi. Kəndin ortasından keçəndə Hacı Muradla qarşılaşmışdı, Hacı Murad əhvalatdan

xəbər tutub demişdi ki, Sınıqçı Hacıya məndən salam söyləyərsən!

Müstəcəb Sınıqçı Hacının həyətinə çatanda mıxda bağlanmış camışı gördü. Camışın da qabağında bir təl ot var idi, amma camış dəli kimiydi. Hiss elədi ki, camış istinin altında susuz qalıb, ona görə anqırır. Ağlına gəldi, bəlkə camış yetirib doğacaqdı. Evdə saxlayıblar ki, barı həyətdə doğsun. Amma qarnı-qarnına yapışırdı, camışın doğmağından keçmişdi. Bu fikirlərlə uşağı atdan yavaşca düşürdü, özü də atdan enib cilovunu bağladı camışın yanındakı boş mıxa. Sonra da ufuldayan uşağı qucağına alıb, həyətin o başındakı arxın yanına getdi. Gördü ki, arxın o tərəfindəki tutun altında sərilmiş palazın üstündə Sınıqçı Hacıyla ikinci arvadı Şeyda oturub çay içirlər. Şeydanın gözü tez aldı:

– Ay Müstəcəb, körpüdən keçin bu tərəfə. Müstəcəb qucağında uşaq körpüdən keçib onlara tərəf yaxınlaşdı. Sınıqçı Hacı da dirsəkləndiyi yastıqdan qalxıb qəddini düzəltdi. Salam-kəlamdan sonra Müstəcəblə uşaq durdular palazın kənarında. Müstəcəb öz-özünə fikirləşdi: "Ayağımı soyunub oturaram palazın üstə, Sınıqçı Hacı da ordan-burdan məni suala tutar, bilər ki, bu uşaq kimindi. Biləndən sonra da uşağın qolunu salmaz, di onda qanıqara qayıt kəndə, görüm necə qayıdırsan?"

Ay Müstəcəb, bu kimin uşağıdı?

Qardaşımın uşağıdı, Hacı!

Müstəcəb fikirləşdi ki, Sınıqçı Hacı uşağı tanısa, biabır oldum. Birincisi, yalan danışmağım məni xəcalətli qoyar, ikincisi də yalanım cəhənnəmə, uşağın qolunu salmaz, kəndə kor-peşman qayıdaram. Sınıqçı Hacı yenə soruşdu:

Ay Müstəcəb, bu uşaq sizin tayfadakılara oxşamır, axı?!

Şeyda arvad məsələdən duyuq düşmüşdü. Müstəcəb bu dəfə nəsə demək istəyirdi ki, Şeyda arvad dilləndi:

Ay Hacı, nə uşaq-uşaq salmısan? Hər kimin uşağıdı, görmürsən zarıldayır, qolunu yerinə sal, bəlkə ağrısı kəsə!

Şeyda arvad Sınıqçı Hacıdan cavab gözləməmiş, uşağı çağırdı yanına. Uşağın qoluna və boynuna bağlanmış yaylığı açdı. Sonra da Hacıya tərəf itələdi.

Sınıqçı Hacı da əlini uşağın qolunda gəzdirə-gəzdirə gözünü onun sifətinə dikmişdi. Bunu kənardan Müstəcəb də yaxşıca görürdü. Birdən Müstəcəb dilləndi:

– Mən gələndə Hacı Muradı gördüm. Hacı Murad sənə salam göndərirdi.

Sınıqçı Hacı olan bəndə, elə bil heç nə eşitmədi.

Qəfil şaqqıltı gəldi. Uşağın səsi göyə ucaldı. Sınıqçı Hacı qənddandan bir qənd götürüb uşağa verdi:

– Al bu qəndi görüm!

Uşaq bir əli ilə gözünün yaşını silib, o biri əliylə qəndi aldı.

– Apar ağzına görüm!

Uşaq qəndi ağzına apardı. Sınıqçı Hacı indi də Müstəcəbə üzünü tutdu:

– Otur bir çay iç!

Müstəcəb fikirləşdi ki, indi oturub çay içmək olar. Şeyda arvad stəkan gətirmək üçün evə keçdi. Müstəcəb soruşdu:

– Ay Hacı, bu camışa niyə su vermirsən?

Sınıqçı Hacı gözü uşağın sifətində ola-ola cavab verdi:

– Bir arvadın ayağı ombadan çıxıb. Axşamüstü gətirəcəklər onu salam. Burada olsan, görərsən, nə dəstgah olacaq! Arvadı mindirəcəyəm camışın üstünə, ayaqlarını da camışın qarnının altından bağlayacağam. Sonra deyəcəyəm camışa vedrə-vedrə su daşıyın. Camış da on-on beş vedrə içəcək, qarnı şişəcək. Arvadın ayağı düşəcək yerinə.

Şeyda arvad gəlib Müstəcəbə də, uşağa da çay süzdü. Sonra da başladı bir-bir kənddəkiləri soruşmağa. Söhbət xeyli uzandı. Bütün söhbət boyu sınıqçı Hacı gözünü uşağın sifətindən çəkmədi. Axırda Müstəcəb dilləndi:

Axşamın sərini düşür, durub yavaş-yavaş tərpənək. Müstəcəb ayağa qalxıb sağollaşdı, uşağın əlindən yapışıb arxın üstündəki körpünü keçdi. Arxadan Sınıqçı Hacının səsi gəldi:

– Hacı Murada məndən salam de!

– Salam göndərən sağ olsun!

Müstəcəb Sulutəpədən uzaqlaşıb kəndə tərəf gəlirdi. Tək söyüdün altında Sadıqla qarşılaşdı:

– Sadıq, bu axşamüstü hara belə?

– Bibimi Araz aparıb, gedirəm Sultan kişini gətirməyə!

– Vay, belin qırılsın, Həşim! Nə bədniyyətliymişsən! Tez ol, mən də gedim mağarı qurum.

Müstəcəb ata bir qamçı çəkdi. At sürətini artırdı. Elə bu vaxt uşaq dilləndi:

– Ay Müstəcəb əmi, bəlkə Sadıq yalan deyir?

– Nəyi yalan deyir, ay bala?

– Bəlkə Salatın xalanı Araz aparmayıb, yalquzaq yeyib?

Müstəcəb heç bir cavab vermədi, ata yenidən bir qamçı çəkdi...

Tutu nənənin bir kəlmə sözü ilə Bikəxanım darvazadan dabanqırma çıxdı. Darvazanın ağzında az qala əri Müstəcəblə toqquşacaqdı. Müstəcəb dilləndi:

– İmanın yansın, hara tələsirsən?

Bikəxanım da ərinin sualına cavab verməmiş güllə kimi açıldı:

– Bəs harda itib-batmısan? Sulutəpəyə gedib-gəlmək bir suiçimlikdi də? Gedirəm dükandan kəfənlik ağ alıb gətirəm.

Müstəcəb yenə dilləndi:

– Salatın öldü, canı qurtardı! Yazıq Həşim yaman günə qaldı!

– Bu kişilər də elə öz canlarının hayındadı! Yeri, yeri içəri, mağarı qur! Hamı səni gözləyir!

Müstəcəb darvazadan həyətə keçdi, Bikəxanım da dükana tərəf üz qoydu. Bikəxanım bir xeyli getmişdi ki, Şahqulunun arvadını həyətlərindən çıxan gördü. Bir az ayağını sürütlədi ki, Şahqulunun arvadı ilə üz-üzə gəlsin. Üz-üzə gələn kimi də soruşdu:

– Ay pinəçinin qızı, bəs səhərdən hardasan? Elə bil bu kənddə yaşayıb eləmirsən? Ya da təzə duvaqlı gəlinsən, hələ duvağını qaldırmayıbsan!

Şahqulunun arvadı da söz altında qalmadı:

– Ay qəssabın qızı, Müstəcəbin gözəlçəsi, sən səhərdən Həşimgildə olub nə qayırıbsan? Yoxsa Salatını Arazdan çıxarıb gətirən kimi dirildəcəksən?

Bikəxanım bir az yumşaldı:

– Yoox, deyirəm ki, səhərdən gəlsəydin, bir işin də qulpundan sən yapışardın! Axı, Salatın bu kənddə heç kəsə pis olmayıb! Hamının xeyrində-şərində qabaqda gedib!

Şahqulunun arvadı da bir az səsini aşağı saldı:

– Gecə ölürdüm, ay Bikəxanım! Yayın bu qızmarında elə sətəlcəm olmuşdum ki, kürəyimə küpə qoymasaydılar, səhərə salamat çıxmayacaqdım. Kürəyimi qaldırıb baxsan, dəli olarsan! Qapqaradır, kömür kimi!

O günü mən də eləydim. Üç gün ağzı üstə yatdım. Bir qapını açıb soruşan da olmadı ki, ay Bikəxanım, qalırsan, ölürsən?

Vallah, bu yay kəndi dərd götürüb başına! Bu qədər yaşın var, heç eşitmisən ki, yayda bu kənddə kimsə sətəlcəm olsun?

Bikəxanım keçdi zarafata və dedi:

– Aaz, bilmirsən, indiyə qədər arvadlar kişilərindən qorxurdu, indi də yalquzaqdan qorxurlar, ona görə sətəlcəm olurlar.

Zarafatı qoy bir yana görüm eey! Niyə belə oldu, bu Salatın biçarə? Nə olacaq? Camaatnan Araza suya gedib, pilləkənləri də birinci o aşağı düşüb. Deyirlər axırıncı pilləkən palçıq imiş, səhəngi suya basan kimi ayağı sürüşüb düşüb çaya.

Ay Bikəxanım, mən bu qədər Araza suya getmişəm, bir dəfə də o axırıncı pilləkəni palçıq olan görməmişəm. Qızılgül açılanda, Araz daşanda da axırıncı pilləkən həmişə quru olub. Yadındadı, Hacı Murad da həmişə deyərdi ki, Araza düşən pilləkəni elə yerdən düzəltmişəm, heç vaxt oraya su qalxmaz!

– Həə, yadımdadı, ay pinəçinin qızı! Mən də səhərdən fikirləşirəm, ağlıma heç nə gəlmir.

Pinəçinin qızı, Şahqulunun arvadı ağzını qəssabın qızının, Müstəcəbin arvadının qulağına dayayıb pıçıltı ilə nəsə dedi.

– Booy, biyabır olduq! Qulaqlara qurğuşun! Səsini çıxartma, yeri-yeri, mən də dükandan kəfənlik ağ alıb gəlirəm!

Şahqulunun arvadı bir tərəfə, Müstəcəbin arvadı da o biri tərəfə üz qoydu.

Bikəxanım xeyli getdi və dükana az qalırdı çatsın ki, Qızbəslə qarşılaşdı. Qara paltarını geymiş Qızbəsin əlində tutduğu dəsmalın ucu görünürdü. Bikəxanım dilləndi:

– İndi yasa gedib gözünün qorasını tökəcəksən! Allah səni elə bil ölü yeri üçün yaradıb! Gəl gedək dükandan kəfənlik ağ alım, bir yerdə qayıdaq!

Qızbəs də heç bir söz deməyib, düşdü Bikəxanımın yanına, başladılar dükana tərəf getməyə! Bir-iki addım atmışdılar ki, yenə Bikəxanım dilləndi:

– Bu nə vırğın idi Salatını vurdu?

Qızbəsin yadına qardaşının ölümü düşmüşdü. Fikrində o idi ki, tez ölü yerinə çatıb ağılarını başlasın. Bikəxanım da bilirdi ki, Qızbəs bu axşam-axşam camaata qan ağladacaq!

Bikəxanım bir də dilləndi:

– Bu ölüm hardan tapdı Salatını?

Qızbəsdən yenə səs çıxmadı. Qızbəs ürəyində ağılarını dal-dala düzürdü.

Bikəxanım üçüncü dəfə dilləndi:

– Bu Salatın Əzrayilə neynəmişdi ki?

Elə bu vaxt Qızbəs də Əzrayıl barəsində düşünürdü. Bikəxanım da gördü ki, Qızbəs yaman doluxub. Özü də gözləri dolub, ağlamaq istəyir. Dükanın da lap yanına çatıblar. Ağzını dayayıb Qızbəsin qulağına Şahqulunun arvadının dediyini pıçıltıyla ona dedi. Qızbəs qorxan kimi oldu və səsi çıxdı:

– Booy, biyabır olduq! Qulaqlara qurğuşun! Səsini çıxarma, dükandan kəfənlik ağ alıb qayıdaq yasa!

Bikəxanımla Qızbəs dükana girdilər. Gördülər ki, dükançı oturub tut kötüyünün üstündə, kəfənlik ağı da ölçüb-biçib qoyub tərəzinin bir gözünün üstünə. Bikəxanım səs-səmirsiz əl atıb kəfənlik ağı götürdü:

– Yaz nisyə dəftərinə, Həşim gəlib sonra pulunu verər.

Bikəxanımla Qızbəs dükandan çıxırdılar ki, arxadan dükançının səsini eşitdilər:

– Naznazın da kəfənliyinin pulunu nisyə dəftərinə yazmışam. Həşim hələ də bu tərəflərə üzükmür. Siqaret, qənd lazım olanda uşaqlarını göndərir.

Sonra da ayağa qalxıb yır-yığış eylədi ki, o da Həşimgilə getsin. Dükanın qapısını bağlayanda öz-özünə deyindi: "Yalquzağın ulamağı qurtaranda Həşim də gətirib borcunu verəcək".

## 15.

Günəş az qalırdı Ağrı dağının başına sancıla. Salatının cənazəsini darvazadan küçəyə çıxardılar. Getdikcə qadınların ağlamağı kişilərdən uzaqlaşırdı. Bir az da ötəndən sonra arvadların ağlamağı kəsildi. Cənazəni sürətlə aparırdılar. Cavanlar da tez-tez bir-birini əvəz edir, qoymurdular kimsə cənazənin altında yorula. Bu dəfə hamını bir şey təəccübləndirirdi: Həmişə camaatın yanında at belində Hacı Murad gedərdi. İndi cavan-qoca Ağköynəkli kişini at belində görürdülər. Hacı Murad cənazənin da-

lınca piyada gedirdi. Hərdən də əl atıb cənazədən yapışır, çiynini cənazənin altına verirdi.

Hacı Murad da at belində olan Ağköynəklini görür, öz-özünə düşünürdü: “Qoy camaat görsün ki, Hacı Murad necə kişidi? Şərt o deyil ki, ona-buna buyruq buyurasan. Şərt odur ki, bir yazığın, binəvanın cənazəsinin altına girəsən! Ellə bir olsan, el də sənə hörmət qoyacaq. Yoox, burnunu göyə tutsan, ona-buna dirsək göstərsən, bir gün sənə də dirsək göstərəcəklər”.

Camaat bir qədər gedəndən sonra Hacı Murad yorulub camaatdan bir az dala qaldı. Bir də, çox piyada getməmişdi ki, camaatla ayaqlaşa bilə. Hacı Muradın tuşunda, Hacı Muraddan iki-üç addım o tərəfdə Ağköynəkli kişi at belində gedirdi. Hacı Murad yenə də öz-özünə dedi: “Bir bunun tipinə-fasonuna bax! Ə, sənin dədən-baban at görüb ki, sən də indi at belinə qalxasan? Sən bu kəndin hansı xeyrinə-şərinə yarayıbsan ki, indi də özünü camaatdan çəkib kənara qoymusan? Arx çəkdiribsən, yol saldırıbsan? Hansı əməlinlə qalxmısan o atın belinə? Axı bir gün bu kənddən bir namuslu-qeyrətli oğlan çıxıb səndən soruşacaq ki, hansı yaralı barmağa... Lənət şeytana!”

Az qalırdılar ki, qəbrin yanına çatalar. Hacı Muradı yenə fikir apardı: “Bu Salatın niyə bu günə qaldı? Həmişə mənə deyərdi ki, sağ ol, ay Hacı Murad, sən olmasaydın, bu uşaqları necə dolandıracaqdım? Axı Salatın qıs-qıvraq idi, necə oldu ki, sürüşüb Araza düşdü? Bəlkə fikirli olub? Bəlkə yenə o papağı boş qalmış Həşimlə dilləşib gedib Araza”.

Kimsə dedi ki, çatdıq! Hacı Murad diksinən kimi oldu. Öz-özünə düşündü ki, necə yəni çatdıq? Axı, Naznazın qəbri qəbiristanlığın o başındadı?

Hacı Murad irəli yeridi. Gördü ki, Salatının qəbrini Naznazın qəbrinin ayaq tərəfində qazmayıblar. Hirs vurdu təpəsinə! Bildi ki, Ağköynəklinin işidir! Bir az da yeriyib qəbrin düz içinə baxdı. Qəbrin içindən gözlərinə yalquzağın gözləri göründü.

Bir söz deməyib, geri çəkildi, qəzəblə Ağköynəkli kişiyə baxdı.

Gecədən xeyli keçmişdi. Adamlar yavaş-yavaş Həşimgildən evlərinə qayıdırdılar. Hacı Murad da əvvəlcə tayalarının başına fırlandı. Sonra ata baş çəkdi. Evə girəndə gördü ki, nə Pakizə yatıb, nə də Güllü. Dinməz-söyləməz qalxdı taxta çarpayının üstünə. Salatının öz əli ilə düzəldib bayramda pay göndərdiyi yastığı çəkdi qolunun altına.

Güllü tez qalxıb, samovardan isti çay süzdü və gətirib taxta çarpayının üstündə Hacı Muradın qarşısına qoydu. Bir xeyli heç birisi dinib danışmadı. Elə bil Salatının ölümündən Həşimdən çox Hacı Muradla arvadları yasa batmışdı. Handan-hana Güllü dilləndi:

– Arvadlar danışırdılar ki...

Güllü dalısını gətirmədi. Hacı Murad da qımıldanıb heç Güllüyə tərəf baxmadı. Yenə heç kəs danışmadı.

Bu dəfə Pakizə dilləndi:

– Ay Hacı, bir qulaq as gör, Güllü nə deyir?

Hacı Murad dilə gəldi:

– Güllü dediyini deyir ki, mən də eşidəm?

Güllü yenə dilləndi:

– Arvadlar danışırdılar ki, Salatın Arazın axırıncı pilləkəninə enəndə onun arxasında Ağköynəklinin qardaşı qızı-Səttarın bacısı dayanıbmış!

Hacı Murad dik qalxdı:

– Vay, köpək oğlu, kənddə ikitirəlik saldı!

Sonra da əlavə etdi:

– Durun yerləri düzəldin, döşəkləri açın!

Hacı Murad bayıra çıxdı. Ay hər tərəfi süd kimi işıqlandırmışdı. Bir aya baxdı, bir də uzaqda görünən atına. İrəli yeriyib həyətdə qoyulan taxta çarpayının üstündə oturdu. Başladı keçmişləri fikirləşməyə. Atası Məşədi Salmanın bir sözü yadına

düşdü: “Bu kəndə gəlmələr var haa, həmişə o tayfadan ehtiyatlı ol, hamısı şər-şəmatadır!”

Sonra nə qədər fikirləşdisə, atasının başqa sözü yadına düşmədi. Bir də ağlına gəldi ki, gedib yatsa, gəlib atının quyruğunu kəsərlər! Səhər kənd içinə çıxa bilməz!

Hacı Murad özünə gələndə, baxdı ki, gecə yarıdan keçib. Ayağa durdu, gəldi yavaş-yavaş atın yanına. At sağ ayağı ilə yeri eşdi. Hacı Murad yaxınlaşıb atın yalını sığalladı. Sonra da cilovunu açıb arabaya tərəf apardı. Hacı Murad ömründə bu atı arabaya qoşmamışdı, amma indi qoşdu.

Hacı Murad qayıdıb evə girdi. Cibindən kibriti çıxarıb taxçaya qoyulmuş lampanı yandırdı. Sonra da üzünü arvadlarına tutub bir az uca səslə dedi:

– Qalxın ayağa!

Arvadların da heç birisi yatmamışdı. İkisi də hövlnak qalxıb, bir səslə dilləndilər:

– Nə olub Hacı?

– Heç bir şey, qalxın geyinin!

Arvadlar tez qalxıb başladılar geyinməyə. Hacı Murad yenə dilləndi:

– Mənə verilən amanatları, bir də hərəniz üçün ayırdığım qızılları götürün! Qızıl kəməri də verin mənə. Bağlayacağam belimə!

Arvadlar yır-yığış eyləyir, qorxularından da dillənmirdilər. İllah da ki, Güllünün ürəyi əsirdi.

Hacı Murad “gəlin dalımca” – deyib qapının yanında asılmış tüfəngi də götürdü və qapıdan çıxdı.

Hacı Murad arvadları arabada oturdub, özü də atın cilovundan yapışıb başladı getməyə. Elə bil atı da, arabanı da, arabanın üstündəki arvadlarını da Hacı Murad çəkib aparırdı.

Kəndi çıxıb Araza tərəf yol alanda arvadlar hali oldu ki, Hacı Murad Arazı keçmək istəyir. Bu vaxt Güllü dilləndi:

– Hacı, mən getmək istəmirəm! Məni apar qoy qardaşlarımın evinə, sonra siz gedin!

Hacı Murad fikrə getmişdi. Elə bil bu sözləri eşitmirdi. “Allahın qəzəbinə düçar olmuşam. Bu qədər qur-yarat, biç-tök, onlar da qalsın it uşağına! Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş. Vallah, dədə-babadan bizlərdə belə söz olmayıb. Bu sözü kəndə gəlmələr özlərilə birgə gətiriblər. Deyirəm, Hacı Murad, sən saydığını say, gör fələk nə sayır? Bax, bu, bizim öz sözümüzdür!”

Ağıl üstünə çatdılar. Hacı Muradı yenə fikir götürdü: “Həmişə Salatınla buralarda qarşılaşardıq. Yazığın vaxt tapıb oturmağı yox idi. Görəsən, ayırdığım cöngəni sabah aparıb Salatının məclisində kəsəcəklərmi? Ağköynəkliyə qalsa, çətin! Acgözün biridi! Bu mürvətsiz oğlu mürvətsizin heç nədən gözü doyan deyil! Dədə-babadan nəyin sahibidirlər ki, indi də gözləri doya! Gorları olub ki, kəfənləri də ola!”

Yalquzağın ulaması Hacı Muradı fikirdən ayırdı. Hacı Murad səsə başını qaldırdı ki, tək armuda çatırlar. Ay işığında aydınca görünürdü ki, yalquzaq iki qabaq ayaqlarını qaldırıb, armud ağacını didib tökmək istəyir. Özü də elə ulayır ki, elə bil balası ölüb.

Hacı Muradın arvadları qorxudan bir-birlərinə sığındılar. Bu günübacılar bir-birlərinə hələ belə məhəbbətlə sığınmamışdılar. At da bir az fınxırdı. Amma Hacı Muradın heç vecinə də deyildi. Cilovu çəkib Araza tərəf gedirdi.

Bu vaxt Güllü yenə dilləndi:

– Hacı, mən getmək istəmirəm! Məni at, bu yalquzaq didib yesin!

Hacı Murad fikrə getmişdi. Elə bil bu sözləri də eşitmirdi: “Gorun çatlasın, ay Məşədi Salman! Bu Ağıl üstünü torpaq həddinə gətirmək üçün sən nə qədər çalışmışdınsa, mən də bir o qədər tər tökdüm. Bizim alnımızın təriydi bu torpağı hala gətirən.

Amma nə olsun ki, Ağıl üstü bizim alnımızın yazısı deyilmiş! Ağ köynəklinin təpərinə bələdəm. Bundan sonra Ağıl üstündə siçanlar yuva quracaq, çaqqallar oynaşacaqlar! İndiyə qədər Hacı Muradın qorxusundan buraya bir çaqqal üzükə bilərdi?"

Bir xeyli də gedəndən sonra Arazın dayaz yerinə gəlib çatdılar. Hacı Murad atı saxladı. Arvadlarına dedi ki, arabadan düşün!

Əvvəlcə Pakizə, sonra da Güllü arabadan düşdü. Güllü düşən kimi dilləndi:

– Ay Hacı, qoy mən qalım, getməyim!

Hacı Murad yenə Güllüyə cavab verməyib, üzünü Pakizəyə tutdu:

– Salatının meyidini uşaqlar Arazın bu yerində tutub çıxartdılar. Qorxmayın, dayazdı! Rahat keçəcəyik! Gündüz diqqətlə baxmışam.

Sonra da Güllüyə tərəf üz tutdu:

– Sən harada qalmaq istəyirsən? Səni o Ağköynəklinin ümidinə qoyum?

– Hacı, mən qocalmışam, mənə kimdi tamah salan?

– O Ağköynəkli köpəkoğlu var haa, hamıya tamah salar! O da ola Hacı Muradın arvadı! Deyəcək, qoy Hacı Muradı binamus eyləyim!

Hacı Murad əvvəlcə Pakizənin qızıl torbasını əlinə götürdü və Pakizəni yavaş-yavaş Arazın o tayına keçirtməyə başladı.

Bir azdan sonra Hacı Murad geri qayıtdı. İndi də tüfəngini götürüb atı çəkə-çəkə apardı.

Bir azdan yenə qayıtdı və ay işığında Güllüyə dedi:

– İndi də növbə sənindir. Qızıl torbanı as boynundan! Əlini də ver keçək!

Güllü torbanın ipini saldı boğazına. Əlini də könülsüz-könülsüz Hacı Murada tərəf uzatdı. Hacı Murad yavaş-yavaş Arazı

keçməyə başladı. Arazın ortasında enli, hündür daşın üstündə durub nəfəslərini alanda Güllü yenə dilləndi:

– Hacı, qoy mən qalım, bəlkə sənin ordakı var-dövlətinə sahiblik eyləyə bildim.

Hacı Murad bu dəfə qəzəblə qışqırdı:

– Hacı Muradın yiyəlik eləyə bilmədiyi var-dövlətə sən heç vaxt yiyəlik eləyə bilməzsən. Sənə çatacaq var-dövlət o boynundakı qızıldı, indi onu da götür apar.

Hacı Muradın sözünün ağzından qurtarması ilə Güllünün Arazın ortasına gumbuldaması bir oldu.

Hacı Murad Arazın o tayına keçib geriyə döndü. Gözlərinə inanmadı. Yalquzaq arabanın qabağında atın yerində durmuşdu. Elə bil arabaya qoşulmaq istəyirdi, gözləri də par-par yanırdı.

Hacı Muradın ürəyindən bir sızıltı keçdi: "Kənddə hamı bilirdi ki, Hacı Murad Salatını iki arvadından da çox istəyir".

Hacı Murad sonra Pakizəni oturduğu yerdən durquzub atın belinə qaldırdı və yola düzəldi.

Yalquzaq elə uladı ki, bəlkə indiyəcən belə ulamamışdı. Elə bil ətini kəsirdilər yalquzağın!

## EPİLOQ ƏVƏZİ

– Ay Baftalı Salahın nəvəsi, bir yaxına gəl, gör nə tapmışam.

– Nə tapmısan, ay Məşədi Vəli kişi!

– Uşaq vaxtı Hacı Muradın tayalarının yanında gizlənqaç oynayardıq. Ağoşnan Səhnə gedib elə yerdə gizlənərdilər ki, hey axtarardıq onları, tapa bilməzdik. İndi tapmışam. Onlar gedib Hacı Muradın tayasının altında gizlənərmişlər.

– Ay Məşədi Vəli kişi, doxsan yaşında məni yaman güldürdün, səni yüz yaşayasan! Onu da tapa bilibsənmi ki, bu yalquzaq nə vaxta qədər ulayacaq?

– O mənlik deyil, o Allahın işidir, ay Baftalı Salahın nəvəsi!

***Nabran, iyul-avqust 1996***

# QARA KÖPƏK

## 1.

– Kəs səsini, it küçüyü it! Hələ sənin böyüklük eləməyinə çox var! Bir də, ay yazıq, sən nə görmüsən, nə eşitmisən və haradan biləsən ki, tez banlayan xoruzun elə o dəqiqə başını kəsirlər. Necə ki, bir vaxtlar Tutu nənə kürt yatmaq istəyən hinduşkanın altına toyuq yumurtası qoymuşdu və təzəcə çırtdayıb çıxan xoruzlardan birini ədəb-ərkanla nişanlayıb orucluq bayramına saxlamışdı. Amma ikicə ay keçməmiş xoruz banlamağa başlamışdı və bunu eşidən Tutu nənə yayın o cırhacırında qonşunun bir-iki ay əvvəl sünnət olunmuş oğlunu çağırıb təzəcə popullanan xoruzun başını üzdürmüşdü. Əslində xoruzda da elə bir günah yox idi, çünki Tutu nənə onun dənini, suyunu elə bol eyləmişdi ki, o boyda yeməyi kimə versəydin, oturduğu yerdə banlayardı və nəinki banlayarda, hətta o tərəfə də keçərdi.

Ağköynəkli tut kötüyünün üstündə oturdu. Əlindəki qamçını yerə qoydu və qamçını yerə qoymağı ilə yerdən qol boyda çubuq götürməyi bir oldu. Əvvəlcə, çubuğun o tərəf-bu tərəfinə baxdı və əməlli-başlı tanıdı. Keçən il qol-budağını doğradığı gilas ağacının nazik, hamar şivlərindən biri idi. Əli ilə çubuğun toz-torpağını sildi, o baş-bu başına diqqətlə nəzər yetirdi. Kor adamlar kimi barmağının ucunu çubuğun yoğun tərəfinin arxa hissəsinə sürtdü və qəti əmin oldu ki, onu baltayla elə bircə dəfə vurub yerə sərib.

Ağköynəkli çubuğun ucu ilə torpağın üstündə lap aydınca görünən bir neçə cızıq çəkdi. Çəkilmiş cızıqlardan ikisi uzununa, ikisi də eninə idi. Eninə çəkilmiş cızıqlar uzununa çəkilmiş cızıqların başını və ayağını kəsib keçirdi. Ağköynəkli bir az da diqqətlə baxandan sonra uzununa çəkilən cızıqların ortasından bir cızıq da çəkdi. Nərdivana oxşar bir şəkil alındı. Ağköynəkli bu şəklə xeyli tamaşa elədi və birdən xətlərin arasında Salatınla

Güllünün qəbrini gördü. O, tez-tələsik ayağı ilə çəkdiklərinin hamısını pozdu, torpağın üstünü tərtəmiz hamarladı. Sonra isə çubuğun ucu ilə dörd cızıq uzununa, iki cızıq isə eninə çəkdi. Alınmış fiqurların hər birinin içində səliqə ilə dairə cızdı. Dairələrin də düz ortasına yekə bir nöqtə qoydu. Baxdı, baxdı və birdən bu şəkli də pozdu.

Ağköynəkli qarşıdakı tut kötüyünü çubuqla döyəcləməyə başladı. Bu döyəcləmə qoca arvadların çırpmağına da, özünün hirslə atı qamçılamağına da oxşayırdı. Deyəsən, onun ürəyindən çubuğu qırmaq keçirdə, amma nə qədər elədisə də, çubuq qırılmadı, çünki hələ canı sulu idi. Çubuğun qırılmadığını görüb bu dəfə onu əli ilə sındırmaq istədi. Sındırdı, yeddi-səkkiz xırda çubuq əmələ gəldi və o, xırda çubuqları bir ovcunun içində sıxıb, sonra da gücü çatana qədər irəliyə tulladı, hərəsi bir tərəfə düşdü.

– Bu küçüklər başa düşmürlər ki, düşmürlər. Nə həs bilirlər, nə də hüs! Qoyursan qabağına, danlayırsan, məsləhət verirsən, kar eləmir, elə bil torpağa, daşa deyirsən. Dədə-babadan görmüşük ki, birinə yol göstərəndə səssiz-səmirsiz düşüb o yolnan gedər. Bu azqanmışların əlindən tutursan, yanına çəkirsən, başını tumarlayırsan, səhərisi görürsən yenə mozalan sancan qoduq kimi soncuqlayır. Hələ bu qoduqlar qalsın bir yana, dünən getmişəm Nəcəfalının yanına. Bir torba da əlimə keçən pay-puş aparmışam, neçə ildi iflic vurub yorğan-döşəkdə qalıb. Fikirləşmişəm ki, baş çəksəm, xətri xoş olar. Dura bilmir, yeriyə bilmir, neçə ildir kənd içinə çıxmağa gücü çatmır. Arada da deyirəm ki, ay Nəcəfalı, bu Hacı Murad gözünü açandan Düyərliyə turp əkdi, sonra çıxıb getdi. Bu kəndin yazıq, biçarə adamları Hacı Murad sola deyəndə sola dönüblər, sağa deyəndə sağa dönüblər. Az qalıb kəndin qız-gəlinini də qapısında işlətsin, qarabaş eləsin. Nə desə yaxşıdı? Dedi ki, Hacı Murad əsilli-nəsilli adamdı. Onun dədəsi də, özü də çörək verəndi. O qədər mal-mülk başqa

adamın əlində olsaydı, dərisinə sığışmazdı. Sulutəpədəki Haqverdi uşağından xəbər bilməmiş olmazsan. Onların varı-karı Hacı Muradınkının heç yarısı qədər deyil. Amma bilirsən o kəndə nə toy tuturlar?! Elə toy tuturlar ki, camaat övlad-uşağına toy eləməkdən də qorxur. Bunlarla işim yox, axırda da qayıdıb mənə deyəsən ki, bala, sən hələ uşaqsan! Lap cızdağım çıxdı. Başa düşdüm ki, o, mənə uşaq demir, uşaq desə nə dərdimə, məndən iki-üç dəfə böyükdü. Nəcəfalı məni küçük hesab elədi. O sözü deyəndə istədim üzünə bir batman tüpürüb həyətdən çıxım, xəstəliyi kəsdi qabağımı. Amma nə demişəm Səttara! Elə bil Səttar bu Nəcəfalının oğlu deyil. Vallah, tir-tipindən də heç Nəcəfalıya oxşamır. Əlifi də bilir, gilifi də, himi də bilir, cimi də, elmi də var, helmi də. Lap mat-məəttəl qalmışam. Düyərlidə hansı uşağa baxsan, dədəsindən bir nişanə taparsan. Görürsən ki, dədəsi də çiynini atır, balası da, dədəsi də burnunu çəkir, balası da, dədəsi də qolunu qısır, balası da. Hələ bu, harasıdır? Məşədi Vəli kişi çox uşağın səsindən, duruşundan hələ dədəsi dursun bar yana, babasını da tanıyır. Amma bu Səttar kimə oxşayıb tək Allah bilir. Tutu nənənin də qulağı çalmamış olmaz: gərək bir gün özümü verəm Tutu nənənin yanına, girəm qılığına, onun bilmədiyinə qurd düşər.

Ağköynəkli atı bağladığı söyüd ağacıyla Nikolaydan qalma it damının arasında var-gəl etməyə başladı. Ayaqlarını elə gen-gen atırdı ki, öz aləmində yer ölçürdü. Onun bu var-gəlini kənardan görən olsaydı, deyərdi ki, Ağköynəkli əməlli-başlı dəli olub. Amma Ağköynəklinin heç vecinə deyildi və burada dik-dik gəzməsi göstərirdi ki, Bağdadda kor xəlifəni də saya salmır. Birdən o gəlib it damının lap yaxınlığında durdu və əriyə-əriyə aşağı çömbəldi. Hiss olundu ki, əvvəlki Ağköynəklidən əsər-əlamət qalmayıb və qarşısındakı on beş günlük küçük kimi bapbalaca olmaq istəyir. Sonra da sağ əli ilə küçüyün başını tumarladı:

– Yoox! Sən it küçüyü deyilsən! Sənə küçük deyənin dərisini boğazından çıxardaram, yeddi arxa dönənini kürəyinə şələləyib sonra da dalından bir təpik vurub Arazda axıdaram. Heç cınqırını çıxarda bilməz. Lap Hacı Muradın özü Arazın o tayından gəlib sənə küçük desə, onun başına bir oyun açaram ki, adı da yadından çıxar, dədəsi də. Sən mənə hava kimi, su kimi lazımsan, əlimə düşən qara tikələri, bütün şəhrələri – ən ləziz xörəkləri sənə yedirdəcəyəm. Qoy bu kənd sənin boy-buxununa tamaşaya dursun. Elə bilirsən səni görməyə gəlməyəcəklər? Durub gələcəklər! Oynaya-oynaya gələcəklər! Biri səndən qorxub gələcək, biri də sənə hörmət eləməsə, arxanda duran yiyəndən çəkinib səni görmək üçün bu həyətə ayaq basacaq.

Yoox! Sən it küçüyü deyilsən! Mən səni ovcumun içində böyüdəcəyəm. Elə bilmə ki, mən istəyirəm böyüyüb ayağımın altında yatasan, ayaqqabılarımı yalayıb quyruğunu bulayasan, ədəb-ərkanlı bir tula olasan. Əgər sən sabah tula olsan, elə bu gün başına güllə çaxaram, meyidini də atın quyruğuna bağlayıb küçəbəküçə sürüyərəm. Tula olmağa o qədər adam var ki! Bax, o Nəcəfalı kişi indiyə qədər Hacı Muradın tulasıydı, bir azdan sonra da mənim tulam olacaq. Həşimi də elə anası doğanda tula doğub.

Bəlkə elə bilirsən səni yekəldib, kürəklərini enləndirib çoban iti eyləyəcəyəm? Sürünün böyrünə salıb dağı-aranı dolandıracağam? Gecə sürüyə oğrular gələndə onların üstünə qısqırdacağam? Arıq-uruq heyvanları kəsib qabağına atacağam ki, düp deyincə yeyib çadırın qabağında mənə həyan olasan? Yox! Çoban itinin hürməyinə baxma, həmişə qorxaq olar, canavar görəndə dala-dala çəkilib özünü qoruyar.

Yaxud elə düşünürsən ki, Düyərlinin başqa kişiləri kimi həyətin bu başından o başına çatana qədər yerə bir məftil bərkidib zəncirini də həmin məftilə keçirib səni özümə keşikçi böyüdəcəyəm? O tərəf-bu tərəfə gedib hər qaraltıya hürəcəksən, məni

də yatmağa qoymayacaqsan? Bundan da gözünü çək! Bil və agah ol ki, mənim həyətimə ins-cins gələ bilməz.

Küçük dinməz-söyləməz qabaq ayaqlarını irəliyə uzadıb başını ayaqlarının üstünə qoymuşdu. Gözlərini də söyüd ağacının altında dayanan ata dikmişdi. Ağköynəklinin mehribanlığından sanki məst olmuşdu. Ancaq onu nə gözlədiyini heç cür anlaya bilmirdi.

Ağköynəkli yavaşca ayağa qalxdı. Balaca ağ dəmirini qayışına keçirdiyi bıçağı qayışdan çıxardı. Taxta üzlü bıçağın ağzını açdı, baş barmağı ilə itiliyini yoxladı. Ağu kimi idi, nəyə vursaydın, o dəqiqə kəsərdi. Ağköynəklinin cuvar babasından qalan bıçaq həmişə belə iti olardı.

O, yenə aşağı çömbəldi. Yenə küçüyün başını tumarladı. Sol əlini onun qulağına tərəf gətirib bərk-bərk ucundan tutdu və sağ əlindəki bıçaqla qulağı dibindən cəld hərəkətlə kəsdi. Qan qabağa sıçradı və küçük bərkdən zarıyıb ayağa durdu. Küçüyün zarıltısına at da başını qaldırıb küçüyə tərəf baxdı. Küçük it damının qabağında fırlana-fırlana sağ ayağı ilə qulağının kəsilən yerini döyəcləyirdi. Nəhayət, yorulub yenidən uzandı. Amma bu dəfə Ağköynəklidən xeyli kənarda uzanmışdı və indi ata yox, Ağköynəkliyə baxırdı.

Ağköynəkli bu mənzərəni seyr edə-edə dəvədabanı yarpağı ilə bıçağın qanını təmizləyirdi. Təmizləyib qurtarandan sonra dərindən köks ötürüb küçüyə tərəf yeridi. Küçük ondan qorxub it damına girmək istədi, amma damın qapısı örtülü idi. İstədi ki, boynundakı ipi qırıb qaçsın, ona da gücü çatmadı. Ağköynəkli küçüyə yaxınlaşıb ona bir təpik vurdu və bu təpikdən küçüyün zarıltısı daha da artdı. Ağköynəkli yenə bir az irəli yeriyib ayağı ilə küçüyü sağ böyrü üstə yıxdı və ayağını bərk-bərk onun sol böyrünə qoydu. Küçüyün ayaqlarını belə atmağa halı qalmadı. Yenə sol əli ilə küçüyün o biri qulağının ucundan tutub bu

qulağını da dibdən kəsdi. Küçük zarıya-zarıya başını və qabaq ayaqlarını torpağa döyəcləməyə başladı.

Ağköynəkli geriyə dönüb yenə tut ağacının üstündə oturdu. Əlindəki bıçağın qanını təmizləyə-təmizləyə başa düşürdü ki, artıq küçüyün taqəti qalmayıb. Doğrudan da, bir azdan sonra o səndərləyib yerə yıxıldı. Əvvəlki zarıltı da hiss edilməz oldu. Elə bu vaxt uzaqdan–həyətin o başından Ağköynəklinin anasının səsi eşidildi:

– A bala, orada nə olub?

Ağköynəkli cavab vermədi. Daha bundan sonra anası da heç nə soruşmadı.

Ağköynəkli bıçağı qatlayıb yenə əvvəlki kimi qayışından asdı. Uşaq vaxtı Hacı Muradın tayalarının yanında qayışagirmə oynamaqları yadına düşdü. Onda kəndin yekə-yekə kişiləri yığışıb ləzzətlə bu oyuna tamaşa edərdilər. Ağköynəklinin belinə bağladığı qayış da elə o vaxtlarkı qayış idi, nə rəngi solmuşdu, nə də təzəliyini itirmişdi.

Ağköynəkli gözlərini lap uzaqlara zillədi. Motor arxının üstündə gözünə bir qaraltı dəydi. Bu qaraltı Sulutəpədəki cuvarın qatırına oxşayırdı.

Birdən Ağköynəklinin küçüyə yazığı gəldi. O durub yavaş-yavaş küçüyə yaxınlaşdı. Bu dəfə küçük ondan qorxub geriyə çəkilmədi, yəqin bilirdi ki, daha kəsilməyə qulağı yoxdu. Ağköynəkli yenə gözlərini ona dikən küçüyün qabağında çöməldi.

– Ay qanmaz, mən bunun hamısını sənin üçün eyləyirəm. Eyləyirəm ki, bir şaqqıltı gələndə tez eşidəsən. Yoxsa gecənin bir qaranlığında yalquzaq başının üstünü alsa, səhərə bir tikən də qalmaz. Sən elə bir qara köpək olacaqsan ki, bu kəndi zinhara gətirən, barmağına dolayan o yalquzağı qanına qəltan eyləyəcəksən.

Ağköynəkli rahat-rahat ayağa qalxıb həyətə tərəf üz tutdu:

– Ay ana, bu küçüyə yal hazırla gətir!

**2.**

Hacı Muradın Arazı keçdiyi gecənin səhərisi gün kənd dəymişdi bir-birinə. Uzun illər Hacı Muradın səsinə, üz-gözünə, lap elə hərdən yüngülvari söyüşünə öyrəşmiş adamlar mat-məəttəl qalmışdılar. Çoxları bundan sonra nə edəcəklərini düşünüb tapa bilmirdilər. Düyərliyə elə bir ağır sükut çökmüşdü ki, hətta yalquzaq da yaddan çıxmışdı.

Gecə adamlar Salatının yasından dağılışandan sonra – Hacı Muradın arvadlarını at arabasına mindirib Ağıl üsütü ilə Araza tərəf getdiyi bir vaxtda ən böyük qalmaqal Naftalin Kərəmin evində başlamışdı. Naftalin Kərəm yasdan evə qayıdıb gələndə qızı Qadoşun qoşulub qaçmağından xəbər tutmuş və arvadının üstünə yüyürərək gözünü yumub ağzını açmışdı:

– Böyütdüyün küçük bu deyil? O qancıq qızı qancığa sən necə öyüd-nəsihət vermisən? Yanında oturdub dünyanın get-gəlindən heç ona danışmamısan? Bəs sən necə anasan ki, ağzından süd iyi gələn o küçük sənin dediklərini saya salmayıb başqa bir küçüyə qoşulub qaçıb? Bəlkə sən özün öyrədib yola salmısan?

Naftalin Kərəm deyirdi, arvadı eşidirdi. Ancaq Naftalin Kərəm buraya çatanda arvad özündə güc tapıb yazıq-yazıq dilləndi:

– Dədəmin gorüna, anamın görüna and olsun, Kərəm, mənim heç nədən xəbərim yoxdur!

Naftalin Kərəm yenə qızışdı:

– Necə xəbərin yoxdur? Sən deyildin iki gündən bir qulağımı doldurub deyən ki, gəl bu uşağı qardaşımın oğluna verək? Tərbiyəli, qanacaqlı oğlandı, sözə baxandı, başı aşağıdı. Dindirməsən, danışdırmasan lal olub bir tərəfdə duracaq. Haradan ta-

pacağıq belə sakit ev adamını? Bəs hara getdi sənin qardaşın oğlundakı o tərbiyə, qanacaq? Sözə baxan, utandığından başını aşağı dikən, dindirməsən, danışdırmasan lal olub bir tərəfdə duran köpəkoğlu da belə qələt eyləyir?

Arvad bu dəfə heç nə demədi. Naftalin Kərəmin düz üzünə baxdı. Naftalin Kərəm də gözünü zillədi onun gözünün içinə. Sonra da arxasını arvadına tərəf çevirib tut ağacına tərəf yeridi. Gözləri tut ağacının budaqlarından asılmış və ay işığında parıldayan naftalin butulkalarına sataşdı. Ürəyindən keçdi ki, butulkaları o budaqdan bir-bir qoparıb arvadının başına çırpsın, bəlkə ürəyi soyuyar. Sonra da nə fikirləşdisə, geriyə dönüb kövrələ-kövrələ dedi:

– Bəs sən bilmirdin ki, gündə onun-bunun təndirinin başında oturan, adam içinə çıxa bilməyən arvadların hərəsindən bir söz öyrənən qızın axırı belə olar? O yazığın çörək açmadığı, çörək yapmadığı qapı qalmadı. Bəs o binəvanı hər ay çörəyini bişirdiyi arvadlardan biri niyə oğluna almadı?

İndiyə kimi deyilən sözlər Naftalin Kərəmin arvadına o qədər də kar eləməmişdi. Amma bu sonuncu sual arvadın beyninə işlədi, arvad elə o dəqiqə halsızlaşdı. Yanındakı boş vedrəni ağzı üstə çevirib üstündə oturdu. Naftalin Kərəm gördü ki, arvadın halı xeyli pisləşib, daha səsinin çıxartmadı və o da yavaşca vedrədən iki-üç metr aralıda olan tut kötüyünün üstündə oturdu. Xeyli vaxt dinib danışmadılar. Ortaya elə bir sakitlik çökdü ki, əgər onlar diqqətlə qulaq versəydilər, Hacı Muradın Ağıl üstünə yan alan at arabasının cırıltısını əməlli-başlı eşidə bilərdilər. Bu vaxt qorxularından evdə gizlənmiş uşaqların da həyəcanı bir az dağıldı. Sözə Naftalin Kərəmin arvadı başladı:

– Ay Kərəm, içimizi yandıran od-alov nə tez yadından çıxdı? Gecə səhərə qədər bu qızın dərdini çəkməkdən sən də taqətdən düşübsən, mənim də qarnımın içi göynəyir. O, söz verdi,

aldatdı. Bu, söz verdi, aldatdı. Salamat bir adam elçi gəldi, vermədik?

Naftalin Kərəmin arvadı ağlamsına-ağlamsına danışırdı. Onun gözlərindən gilə-gilə yaş damcılayırdı. Ancaq alaqaranlıq olduğuna görə yaş gilələri o qədər də görünmürdü. Naftalin Kərəmin arvadının gözündən süzülən yaş yanağını yalaya-yalaya dizinə bərk-bərk sıxdığı əlinin üstünə damcılayırdı.

Naftalin Kərəm heç nə demirdi. Arvad yenə dilləndi:

– Sənin xəbərin yoxdu. Neçə dəfə qızı gizlin-gizlin aparıb Motor arxının dalında eşşəyə mindirmişəm. Neçə ay Qadoşun sağ budunu tutub ufuldaya-ufuldaya gəzdiyi yadından çıxıb? Özü də deyirdi ki, mala ot biçib evə gələndə yekə bir daşın üstünə yıxılıb, ayağını əzib. Amma o vaxt eşşək təpiknən vurmuşdu onu. Bu kəndin arvadlarından hansı biri qızını aparıb Motor arxının dalında eşşəyə mindirir, səhərisi qapılarından elçi əksik olmur. Elə bil Motor arxının dalı bu kəndin adamlarının hamısına açıqdı, bizə gələndə isə hər yer quruyur.

Bu sözlərdən sonra Naftalin Kərəmin hirsi tamamilə soyumuşdu. Nəinki hirsi soyumuşdu, hətta eşşək məsələsini eşidəndən bədəninə yavaş-yavaş tər gəlirdi.

Naftalin Kərəmin arvadı əlinin dalı ilə gözünün altını silib yenə başladı:

– Ay Kərəm, sənin öz yadında deyil, bu qızdan ötrü neçə dəfə ocağın közünə gizli-gizli qıfıl basdırmışıq. Qıfılın tapılmayan vaxtı kəndbəkənd dolandığını nə tez unutdun? Aldığın qıfılları da qoltuğunun altına soxub gətirdin ki, heç kəs görməsin. Qorxurdun, görüb soruşarlar ki, bu qədər qıfılı alıb neynirsən? O çətin, ağır günlər heç vaxt gözümün qabağından çəkilib getmir. Amma axırı nə oldu? Tutu nənənin bu məsləhəti də bir fayda vermədi!

Arvad deyirdi, Naftalin Kərəm eşidirdi. Amma arvadın Naftalin Kərəmə demədiyi bir söz qaldı. Deyilməyən söz Tutu

nənənin yazdığı üçkünc duanın suyunu bir neçə dəfə qardaşı oğluna içirtməsi idi. Arvad çox yaxşı başa düşürdü ki, Naftalin Kərəmə hər şeyi danışmaq mümkün olsa da, yalnız bunu demək çətindir. Desə qan düşər.

Naftalin Kərəmin hay-həşirindən də, Naftalin Kərəmin arvadının sızıltısından da əsər-əlamət qalmamışdı. Daha dinib-danışmırdılar. Bu vaxt onlardan qırx beş-əlli metr uzaqda yerləşən qonşunun ayaqyolunda çömbəlib oturan və bu əhvalata qulaqlarını şəkləyən Tıntın Əsəd də şalvarını yuxarı dartıb ayaqyolundan çıxdı, ehmalca addımlarla evlərinə getməyə başladı. Amma Naftalin Kərəmlə arvadının ayaqyolunda pusquda duran Tıntın Əsəddən qətiyyən xəbərləri yox idi. Naftalin Kərəm bilsəydi ki, Tıntın Əsəd gizli-gizli onların söhbətinə qulaq asır, hələ bir az da ucadan qışqırar, daha çox hay-həşir salardı.

İndi Naftalin Kərəmə bıçaq vursaydın qanı çıxmazdı. Dünya onun başına fırlanırdı. Naftalin Kərəm elə bir qarmaqarışıq yuxu içindəydi ki, bəlkə ömründə belə yuxu görməmişdi. Fikri gah dağa qalxırdı, gah da arana enirdi. Haradan başlayıb, harada qurtaracağını heç özü də bilmirdi. Onun bu dünyada yeganə bildiyi iş gənə düşmüş qoyun-quzuya naftalin sürtmək idi. Əslində bayaq naftalin dolu butulkaları arvadının başında sındırmaqdan vaz keçməsinin səbəbi də elə bir tikə çörəyin qurumsağı olmasındaydı.

Ocağa qıfıl basdırmaq əhvalatı Naftalin Kərəmin içini təzədən oyaladı. O günləri xatırlayıb baş verənləri bir-bir yadına salmaq istədi. Doğrudan da, o vaxtlar iri qıfıl tapmaq əməllibaşlı müşgülə düşmüşdü. Qıfıl da elə mazarrat bir şey idi ki, onu dəmirçiyə sifariş verib düzəltdirmək mümkün deyildi. Naftalin Kərəm bir gün tapılmayan qıfılın sorağını Kəngərli kəndlərindən alıb oraya üz tutmuşdu. Kimsə Naftalin Kərəmə demişdi ki, oralarda az adam mal-qara saxlayır və cəmisi beş-on həyətdə tövlə var. İri qıfılı da çox vaxt tövlə qapısından ötrü alırlar. Ona

görə də Kəngərli kəndlərinin dükanlarında qıfıl tökülüb başına qalıb. Bunu eşidən Naftalin Kərəm bir gün səhər-səhər Kəngərli kəndlərinə yollandı və birinci kəndə çatıb dükana girəndə gözlərinə inanmadı. Dükanın küncündəki sarı kağızın üstündə bir topa qıfıl var idi. Elə bil bu dəqiqə kisənin ağzını açıb qıfılı buraya boşaltmışdılar. Əl boyda iri qıfıllar necə gəldi bir-birinin üstünə tökülmüşdü. Hər birinin də açarı öz boynundan sallanmışdı. Bir anda Naftalin Kərəmin ağlından keçdi ki, bu boyda qıfılı dükanın küncünə töküb paslandırmaqdansa, görəsən, Arazqırağı kəndlərə niyə vermirlər? Vallah, bunları indi bir çuvala doldurub Düyərliyə aparsan, hərə üç-üç, beş-beş alar. Əslində bu da onun ürəyindən keçdi, lakin fikrindən tez daşındı. Naftalin Kərəm ot biçmək üçün bir kərənti, bir də qıfıl alıb Düyərliyə dönəndə kəndin girəcəyində xeyli təəssüfləndi: gərək bu qıfıldan ikisini alaydım, həmişə qıfıla ehtiyac var.

Doğrudan da, heç altı ay keçməmiş yenə qıfıl lazım oldu. Tutu nənənin məsləhətindən sonra arvadı Naftalin Kərəmi qonşu kəndlərə qıfıl dalısınca göndərdi. Bu dəfə Naftalin Kərəm heç kəsdən qıfıl yeri soruşmayıb birbaşa Kəngərlinin həmin kəndinə yollandı. Naftalin Kərəm kəndin dükanına çatıb içəriyə girəndə gözünü birbaşa dükanın küncünə zillədi. Elə o dəqiqə də tüstüsü başından çıxdı. Altı ay bundan qabaq gördüyü qıfıl təpəsindən əsər-əlamət yox idi. Qıfılın hamısı göyə çəkilmişdi. Bir də ağlına gəldi ki, bəlkə dükançı qıfılları yığıb-yığışdırıb ayrı bir yerə qoyub? Bu fikirlə də dükançıya yaxınlaşıb qıfıl istədi. Dükançı onu sifətdən tanıyıb cavab verdi ki, ay evin tikilsin, qıfıl-zad nə qayırır, hamısını Arazqırağı kəndlərin camaatı yığışdırıb aparıb. Sonra da əlavə etdi ki, bizim kəndlərə nisbətən o kəndlərdə qıfıla daha çox ehtiyac olur. Bir də dükanda satılan elə dəmir-dümür var ki, onlar yalnız bir iş görmək üçün yarayır. Məsələn, oraq, yaxud kərənti. Onları bir dəfə alan adam neçə illər dükana girib oraq, kərənti istəmir. Çünki səliqə ilə işlətsən, ucunu ağaca, daşa

vurub sındırmasan, təzəsini almağa ehtiyac yoxdur. Yaxud o zəncirləri görürsən, – əli ilə divardan asılmış növbənöv zəncirlərə işarə edir, – dükana nə vaxt gətirdiyim tamam yadımdan çıxıb. Onları görəndə elə bil ilan görürəm. Gəlib alan yoxdur ki, mənim də canım qurtara, üstəlik dükan da bir rahat nəfəs ala. Amma nal soruşmaqdan camaatın dili qabar olub. Elə mən özüm də cavab verməkdən təngə gəlmişəm. Bəs bu nal niyə tapılmır? Çünki bir qism adam onu atını nallamaq üçün alır, bir qism adam da aparıb darvazasının üstünə, evinin içərisində qapının başına vurur ki, nəzər kəsməsin. Yenə əməlli-başlı tikilən evin divarına aparıb nal vursalar, adamı o qədər də yandırmaz. Vallah, dəb düşüb, biri eləyir, o biri də ona baxıb özünü oda yaxır. Yaxud bu qıfıl məsələsi. Dədə-babadan eşitmişik ki, qıfılı qapıya vurarlar. Vurarlar ki, bir qanmaz gəlib evdən oğurluq eləməsin. Amma son vaxtlar bu araçı arvadlar özlərindən təzə bir iş düzəldiblər. Deyirlər ki, ərə getməyən qızların bəxtini açmaq üçün gərək qıfıl alıb ocaqda közə basdırasan. Ay qardaş, indi de görüm, daha bundan sonra dükanda qıfıl qalar?

Dükançının bu axırıncı sözü Naftalin Kərəmi əməlli-başlı tutmuşdu. Naftalin Kərəmə elə gəlmişdi ki, onun niyyətindən dükançının xəbəri var. O vaxt evə çatana qədər Naftalin Kərəmin halı özünə gəlməmişdi. İndi bu əhvalat Naftalin Kərəmin yadına düşən kimi tamam yalqızlaşdı və üzünü arvadına tutub asta səslə dedi:

– Bunların hamısını yaxşı bilirəm, amma xəcalətimdən sabah mən kənd içinə necə çıxacağam?

Bu xəcalət məsələsi gecə səhərə qədər Naftalin Kərəmlə arvadının beynindən çəkilmədi və onlar bir çimir də olsun gözlərini yuma bilmədilər. Amma səhər tezdən Hacı Muradın Arazın o tayına keçmək xəbəri yayılanda Naftalin Kərəm özündə xeyli yüngüllük hiss etdi.

**3.**

Hacı Muradın kənddən getməsini ən tez bilən Həşim idi. Çünki Həşim alatoran vaxtı yerindən qalxıb mal-qaranın örüşə getməsinə xeyli qalmış Hacı Muradın qapısına yollanmışdı. Fikrində də tutmuşdu ki, əvvəlcə Nazlının yasında kəsdirdiyi cöngələri yada salıb Hacı Murada bir daha öz razılığını bildirəcək. Deyəcək ki, sən olmasaydın, o zaman mənim el içinə çıxmağa üzüm hardaydı? Çünki Nazlının ölümünə qədər getdiyim yas yerlərinin hamısında çörək yemişəm, su içmişəm. Bəs necə ola bilər ki, həyətinə tökülüb gələnlərə çay-çörək verməyəsən? O zaman kəsdirdiyin cöngələr qonaqların hamısına çatdı, hələ artıq da qaldı. İndi Salatının yasını birtəhər yola verməyə kömək üçün üz tutduğum bir adam varsa, o da sənsən. Əl tutmuq Əlidən qalıb. Elədiyin yaxşılıqlar heç vaxt hədər getməyəcək.

Həşim bunları fikirləşə-fikirləşə Hacı Muradın həyətinə ayaq basanda şəklənən kimi oldu. Çünki səhərin bu çağında Hacı Muradın atı ilə arabasının yerində olmaması onun ürəyinə şübhə saldı. Güclə: "Hacı Murad, ay Hacı Murad",–deyə çağırmağa başladı. Cavab gəlmədi. Həşim bu dəfə: "Güllü, ay Güllü", – deyə səsin ucaltdı. Cavab gəlmədi. Üçüncü dəfə: "Sənəm, ay Sənəm", – deyə qışqırdı. Yenə cavab gəlmədi. Bir az da irəliyə yeriyib evin qapısının taybatay açıq olduğunu gördü və əməlli-başlı qorxuya düşdü. Həşim qorxdu ki, Hacı Muradı və arvadlarını gecə anasının əmcəyini kəsənlər gəlib öldürərlər, biabırçılıq olar. Yoxsa bu qədər həngamədən sonra niyə səs verən yoxdur?

Həşim ayağını sürüyə-sürüyə açıq qapıya doğru getdi. Qapının qabağına çatanda gözləri torpaqdan güclə seçilən ağzı qatlama bıçağa sataşdı. Tam əmin oldu ki, bu, Hacı Muradın bıçağıdır. Çünki Hacı Muradın bıçağını kənddə tanımayan yox idi. Həşim əməlli-başlı sarsıldı. Hacı Muradın başında bir qəza olduğuna daha şübhəsi qalmadı.

Birdən dünənki əhvalat – arvadı Salatının Arazda axmağı yadına düşdü. Fikrindən keçdi ki, Hacı Murad olmasaydı, yəqin indi də Salatının meyidini tapıb sudan çıxara bilməmişdilər və elə bu an onun gözünün qabağında Arazda axan Salatının əvəzinə, başında buxara papağı olan Hacı Murad gəlib dayandı. Hacı Muradın heç köynəyi də açılmamışdı və çılpaq qarnı da görünmürdü. Hacı Murad suyun üzündə sağ-salamat olduğu vaxtlardakı kimi dümdüz dayanmışdı. Hacı Muradı Salatının yerində görən Həşimə elə gəldi ki, bu sübh çağı onu qara basır. O, başını yavaş-yavaş geriyə döndərib arxaya nəzər saldı. Bir ins-cins yox idi. Gözləri yenə atla arabanın həmişə durduğu yerə dikildi. Həşim buraya ona görə baxırdı ki, dünya işidi birdən atla araba qayıdıb gələ bilər. Amma nə at var idi, nə də araba. Onların yeri bomboş idi. Həşimin ürəyində nəsə elə bil yenidən çiliklləndi.

Həşim qayıdıb açıq qapıya tərəf göz gəzdirdi. Hələ göz gəzdirməmişdəq qabaq ümid edirdi ki, bəlkə dünya işidir, qapı öz-özünə açılıb. Nə olursa-olsun, Həşim açıq qapı ilə həm üz-üzə, həm də təkbətək qalmışdı. Nə edəcəyini tapa bilmirdi. Fikirləşirdi ki, birbaşa içəri girsə, Hacı Muradın arvadlarını yatdığı yerdə görər və ayıb olar. Əslində Həşim üçün başqa bir çıxış yolu da qalmamışdı. Həşim intizardan qurtarmaq üçün mütləq içəriyə daxil olmalı idi. O, yavaş addımlarla açıq qapıdan evə keçdi. Evin içi başdan-ayağa tör-töküntü idi. Elə bil kimsə Hacı Muradın qəsdinə durmuşdu və əlinə keçənlərin hamısını dağıdıb evlə bir eləmişdi. Amma Həşim görəndə ki, heç bir ölüm-itim yoxdur üstündən elə bir ağır bir yük götürüldü və azca sakitləşdi.

Həşim geriyə döndü. Qapıdan çıxanda əyilib Hacı Muradın bıçağını yerdən götürdü və Hacı Muradın quşu qonduğu tut kötüyünün üstündə oturdu. Əlindəki bıçağı və tut kötüyünə baxıb bir anlıq özünü Hacı Muradın yerində hiss etdi. Ürəyinin lap dərinliyində səsini heç özü də eşitmədiyi, lakin əməlli-başlı

duyduğu ləngərli bir gülüş gəlib keçdi. Həşim tez anladı ki, mən hara, Hacı Murad hara? Mən özümü Hacı Murada tay eyləsəm, Hacı Muradı hörmətdən salaram. Hacı Murad mənim kimi yüz kişiyə bərabərdi. Ağköynəkli kimi dələduzların da minindən üstündü. Dünən Salatını basdırmağa gedəndə lap cızdağım çıxdı. Ağköynəkli atın üstündə oturub özünü padşah kimi aparır, amma Hacı Murad – o boyda ağsaqqal adam piyada gedir. İstədim ölüyə-diriyə baxmadan Ağköynəklinin qolundan tutub atdan düşürəm, sonra da fikirləşdim ki, Ağköynəkli cəhənnəm, səs-küy qopar, Salatının meyidi bihörmət olar.

Həşimin fikri yenə Hacı Muradla arvadlarının yanına qayıtdı. O, bu məsələni heç vaxt düşünməmişdi və indi də nə qədər ölçüb-biçirdisə, heç nə əmələ gəlmirdi. Həşim anlaya bilmirdi ki, Hacı Murad kimi hörmət-izzət sahibi beləcə səssiz-səmirsiz yoxa çıxsın. Bir adama pisliyi keçməyən, hamının xeyrinə-şərinə yarayan, cızığından çıxanı düz yola qaytaran Hacı Murada nə ola bilər? Bəlkə sözünün qabağına söz qoyub Hacı Muradı təbdən çıxaran var? Bir şübhə yerim varsa, o da Ağköynəklidir. Amma Ağköynəkli haranın küçüyüdür ki, Hacı Muradın üstünə hürüsün. Vallah, Hacı Murad bir him eləsə, Ağköynəklini gecə özüm baltalaram, sür-sümüyünü də torbaya doldurub yalquzağın qabağına aparıb ataram.

Həşim sonra düşündü ki, daha bunlardan keçib. İndi quyruğu qapı arasında qalan mən olmuşam. Bir-iki saata Hacı Muradın harada olması bəlli olacaq, amma mən hellətdi bir dana tapa bilməyəcəyəm ki, Salatının yasında kəsib camaatın qabağına çıxım.

Hər tərəf işıqlanırdı. Hacı Muradın evi də, həyəti də, tayaları da Həşimə bomboz görünürdü. Həşim suyu süzülə-süzülə evə qayıdırdı. Amma birdən özü də bilmədən Nəcəfalıgilə üz tutdu. Fikrindən ilk keçən bu oldu ki, həm Hacı Muradın yoxa

çıxmasını Nəcəfalıya desin, həm də yas üçün ət barədə onunla məsləhətləşsin.

Həşim Nəcəfalıgilə çatanda həyətdən heç bir səs-səmir gəlmirdi. Gecə yasdan yorğun gəlib elə yatmışdılar ki, bəlkə kənddən naxır gedənə qədər də durmayacaqdılar. Həşim taxtadan hazırlanmış balaca, ensiz – bir adamın keçə biləcəyi qapının yanından əlini uzadıb qıfıl yerinə əyib düzəldilmiş məftil qarmağı yuxarıya qaldırdı, sonra da itələyib qapını açdı. Suyu Araza gedib tökülən arxın yanında bir sağmal inək, bir də yetmiş-səksən kiloluq erkək dana bağlanmışdı. Həşimin beynindən ildırım sürəti ilə keçdi ki, bəlkə Nəcəfalıdan bu dananı alıb aparıb kəssin. Camaatı yola verəndən sonra Nəcəfalı ilə halallaşar. Amma ağlına yenə qəribə bir fikir gəldi. Düşündü ki, Nəcəfalı bu dananı bəlkə özündən ötrü saxlayır? Çünki yazıq neçə ildir ki, iflic olub, ölümü elə gözünün qabağındadır. Həşim evin arxa pəncərəsinin yanına çatanda ayaq saxladı. Nəcəfalının xəstə olandan bəri həmişə bu pəncərənin altında yatdığı Həşimə yaxşı bəlli idi. Nəcəfalı tez-tez deyərdi ki, elə bil yuxum ərşə çəkilib, bütün gecəni gözümü pəncərəyə dikirəm, səhərin açılmasını gözləyirəm. Həşim ağzını pəncərənin alt küncünə dayayıb yavaşca səsləndi:

– Nəcəfalı, ay Nəcəfalı!

Doğrudan da, Nəcəfalı yatmamışdı. O dəqiqə də cavab verdi:

– Həşim, gəl içəri! Uşaqlar o biri otaqda yatıblar.

Həşim evin başına fırlanıb qapıya yaxınlaşdı. Qapı açıq idi. O, Nəcəfalı ilə salamlaşıb düz onun çarpayısının yanına gəldi və Nəcəfalının ayaq tərəfində çarpayının üstünə sərilmiş döşəyin üstündə oturdu. Birinci Nəcəfalı dilləndi:

– Ay Həşim, belə səhər-səhər xeyir ola?

Həşim birbaşa cavab verdi:

–Hacı Muradla arvadları yoxa çıxıb!

Nəcəfalı "pah atonnan", – deyib xəstəliyini tamamilə yadından çıxarıb çarpayıdan qalxmaq istədi. Amma qalxa bilməzdi. Bunu Həşim də, Nəcəfalı da yaxşı bilirdi. Nəcəfalının qalxıb çarpayıda oturması üçün gərək bir adam əlini onun çiyinlərinin altına salıb qaldıraydı və yastığı da kürəyi ilə çarpayının dəmir başlığının arasına qoyaydı. Həşim qalxıb elə beləcə də elədi və birdən Nəcəfalının başı arxadan çarpayının dəmirinə dəydi. Amma Həşim bilmədi ki, Nəcəfalının başı çarpayının dəmirinə təsadüfən toxundu, yoxsa Nəcəfalı özü başını dəmirə vurdu. Bircə Həşimin ürəyinə yatan o oldu ki, Nəcəfalı yuxarıya çəkiləndən sonra onun oturduğu yer də xeyli genişləndi. Nəcəfalı yenə dilləndi:

– Necə yəni yoxa çıxıb? Heç xəbər bilən yoxdur?

Həşim də cavab verdi ki, Hacı Muradın yoxa çıxmasından Düyərlidə ikimizdən başqa xəbəri olan yoxdur. Səhər alatoranlıq vaxtı Hacı Muradın yanına getmişdim ki, Salatının yası üçün bir dana istəyim. Həyətə girib gördüm ki, lələ köçüb yurdu qalıb. Oradan da birbaşa buraya gəlmişəm.

Nəcəfalını soyuq bir tər basdı. Lap əcəl tərinə oxşayırdı. O, özü də soyuq tərdən əməlli-başlı qorxdu və hətta Hacı Murad da yadından çıxdı. Tərpənmək bir yana qalsın, dinib-danışmağa da taqəti yox idi. Handan-hana özünə gəlib bir cümlə dedi:

– Anasının əmcəyini kəsən Ağköynəklinin işidir!

Xeyli dinib danışmadılar. Onlar bir-birindən xəbərsiz gah Salatının ölümü haqqında, gah da Hacı Muradın qəflətən yoxa çıxması barədə düşünürdülər. Düşündükcə başlarından gözəgörünməyən tüstü çıxırdı.

Bacısı Salatının heç yasına gedə bilməyən Nəcəfalı öz dərdi az imiş kimi dünəndən onun ölümünü də dərd eləyib ürəyinə salmışdı. Əslində Salatından çox–Salatının dirilməyi olan iş deyildi–uşaqlarına yazığı gəlirdi. Həm də gecənin bir yarısı düşünmüşdü ki, Salatının yasına nə kömək olsa, yenə Hacı Murad-

dan olacaq. Hacı Muradın isə birdən yoxa çıxması Nəcəfalının dilini-ağzını tamam bağlamışdı. Birdən Nəcəfalının dili açıldı:

– Bu gün camaatı çayla yola sal, sabah Salatının üçünə həyətdəki dananı aparıb kəsərsiniz. Salatın məndən qabağa düşdü, dana da onun qisməti idi.

Nəcəfalının sözlərindən sonra Həşim xeyli rahatladı. Ona görə də söhbəti yenə Hacı Muradın üstünə gətirdi:

– Ay Nəcəfalı, mən də bayaq fikirləşdim ki, Hacı Murada nə himmə keçibsə, elə Ağköynəklidən keçib. Amma səbəbini tapa bilmədim. Hacı Muradın Ağköynəkli nəslinə bir pisliyini də eşitməmişəm. Şərik malları da yox idi ki, üstündə davaları düşə. Vallah, nə bilim, bu qarışıq zamanada heç nədən baş çıxarmaq olmur.

Nəcəfalı da ürəyində fikirləşdi ki, bir şeydən baş çıxarmaq üçün gərək adamda ağıl ola, o da səndə yoxdur. Onsuz korafəhm olduğunu mən çoxdan bilirdim, amma Salatının un çuvalı kimi evdə qalması mənim qabağımı kəsmişdi. Naəlaclıqdan o rəhmətliyin sənə arvad olmasına razılıq verdim. Nəcəfalı ucadan dedi:

– Bunlar sonranın işidi. Dur get, uşaqları bir yerə yığıb mağarı qaydaya salın. Camaatın oturduğu taxtaların üstünə də palazdan-paltardan sərin. Bir az yumşaq yerdə otursunlar ki, dədəmizin goruna söyməsinlər.

Həşim evlərinə dönəndə yuxudan təzəcə durub həyətlərində var-gəl eyləyənlərdən onu görənlər də oldu. Bu görənlərin bəzilərinin Həşimə yazığı gəlirdi, bəzilərinə də tam əyan olmuşdu ki, Həşim Nəcəfalıgildən evlərinə qayıdır. Amma heç kəs bilmirdi ki, Həşimin ürəyində bir-iki saatdan sonra Düyərlinin bu başından o başına qədər bir alov kimi yayılacaq, hamını heyrətə gətirəcək dəhşətli bir xəbər var.

Həşim həyətlərinə girəndə Sadığı gördü. Sadıq samovarları su ilə doldurub qaynatmaq istəyirdi. Əlində də beş-on xırda

çubuq var idi. Həşim başa düşdü ki, Sadıq bu çubuqları samovarı yandırmaq üçün əlində saxlayıb. Amma bu çubuqlarla samovarın qızışıb çay üçün su qaynatmağına ürək qızdırmadı və ona görə də dedi:

– Ay bala, keç damın dalına oradakı quru otları qaldır, otun altında ağac kömürü olmalıdır. Onları gətirib samovara sal. Yazıq bibin keçən ildən o kömürü hazırlayıb otun altında gizlədib ki, birdən – Nəcəfalı dalısını dilinə gətirmədi – lazım olar.

Sadıq kömür dalısınca getdi. Həşim də ocağın yanındakı tut ağacının üstündə sus-pus oturdu. Hacı Muradın yoxa çıxması barədə Sadığa bir kəlmə də demədi.

Həşimin evə qayıtmasından yarım saat keçmişdi ki, Hacı Muradın gecəynən Arazın o tayına keçməsini eşidən bütün kənd dəymişdi bir-birinə. Uzun illər Hacı Muradın üz-gözünə, qalın səsinə, lap elə söyüşünə öyrəşmiş adamlar mat-məəttəl qalmışdılar. Çoxları bundan sonra nə edəcəkləri barədə düşünürdülər. Düşünürdülər, amma ağılları da bir şey kəsmirdi.

Düyərliyə elə bir ağır sükut çökmüşdü ki, Salatının ölümü də, Qadoşun qoşulub qaçması da, hətta kəndi zinhara gətirən yalquzaq da tamam yaddan çıxmışdı.

Hacı Muradın gecə Arazı keçməsini onun mal-qarasına mehtərlik edən Ələs yaymışdı. Mehtər Ələs (əsl adı Ələsgər idi) tövlədən mal-qaranı çıxardanda bu əhvalatı bilmiş və qabağına çıxanların hamısına demişdi. O, özü isə mal-qaranı xırmana gətirib bir tərəfə toparlamışdı. Xırmanın o biri tərəfinə isə həmişə kənd camaatının mal-qarası yığışardı. Elə buradaca mehtər Ələs Hacı Muradın getməsini bəzəyə-bəzəyə naxırçı Qasıma da söyləmişdi. Naxırçı Qasım isə səhər-səhər naxıra mal-qara gətirən uşağa, böyüyə üz tutub Hacı Muradın Arazı keçməsi xəbərini vermişdi. Onlar da geriyə dönəndə bəziləri evlərindən muştuluq almağa tələsmişdilər, bəziləri də dilləri ağızlarına təpə-təpə da-

nışmışdılar. Bu əhvalat Tutu nənəyə çatanda isə o yavaşca demişdi:

– Allah bu kəndi səhər vaxtı naxır yığışanda yayılan xəbərdən saxlasın!

Bu vaxt kəndin o biri başında kar Abbasəlinin naxıra mal qatıb qayıdan oğlu əlindəki çubuğu fırlaya-fırlaya ocaqda süd bişirən anasına tərəf yüyürərək ucadan və ara vermədən qışqırırdı:

– Hacı Murad qaçıb! Hacı Murad qaçıb!

Bunu eşidən anası uşağın üstünə qışqırıb dedi ki, kəs səsini, küçüyün biri küçük! Yenə nə yalan uydurub səsini atmısan başına! Atan eşitsə, səni təpiyin altına salacaq, ağzı-burnu qanı bir-birinə qatışacaq!

Bunu eşidən uşaq da anasının lap burnunun ucuna yaxınlaşıb and içməyə başladı:

– Ana, vallah mən səni aldatmıram. Dədəmin canına, Hacı Murad gecə qaçıb.

– Hara qaçıb, a bala?

– Arazın o tayına!

– Bunu sənə kim dedi?

– Naxırçı Qasım!

Uşaq anasının başını elə qarışdırdı ki, süd də yaddan çıxdı. Bir zaman ayıldı ki, qazandakı süd daşıb ocağa tökülüb. Üzünü uşağa tərəf tutub yenə qışqırdı:

– Sən də cəhənnəm ol, Hacı Murad da!

Abbasəlinin arvadı qazanı ocağın üstündən cəld götürüb yerə qoydu və yenə uşaqdan soruşdu:

– Bəlkə yalan deyirsən, məni aldadırsan?

– Dədəmin canına yox!

Bu vaxt hay-küydən şübhələnən Abbasəli atın yanından uzaqlaşıb onlara tərəf gəldi və ucadan soruşdu ki, nə olub? Arvadı da lap ucadan ona cavab verdi ki, deyirlər Hacı Murad gecə

Arazı keçib. Kar Abbasəli də birdən qayıdıb nə desə yaxşıdı? Dedi ki, Hacı Muradın qaçacağını mən əvvəlcədən bilirdim.

Arvad Abbasəlinin bir sözünə məhəl qoymayıb süd dolu qazanı yerdən götürdü və qatıq çalmaq üçün evə apardı. Abbasəli isə atının yanına qayıtdı. Elə bu vaxt qonşuluqda yaşayan Mistonu həyətdən çıxan görüb əlini yelləyə-yelləyə onu çağırdı:

– Bir bəri dur!

Misto dinməz-söyləməz sola burulub Abbasəliyə tərəf gəldi. Ürəyində də fikirləşdi ki, Allah bilir nə soruşacaq. İndi səhər-səhər səsini at başına kar Abbasəlini qandır görüm, necə qandıracaqsan? Hiss eləyirəm ki, məni hövsələdən çıxaracaq.

Misto Abbasəlinin yanına çatanda kar Abassəli sakitcə onun üzünə baxıb əvvəlcə heç nə soruşmadı. Əslində Abbasəli Mistonun ona nəsə deyəcəyini gözləyirdi. Misto da kar Abbasəlinin üzünə baxıb niyə çığırdığının səbəbinini bilmək istəyirdi. Amma o heç nə demirdi. Mistoya bir anlıq elə gəldi ki, Abbasəli həm kardır, həm də lal! Handan-hana Mistodan bir şey çıxmayacağını görən kar Abbasəlinin dili açıldı:

– Belə səhər-səhər hara gedirsən?

– Dünən Salatının ölümü başımızı elə qatdı ki, Naftalin Kərəmə baş çəkə bilmədim. Ona ürək-dirək verməyə gedirəm. Kar Abbasəli səsini ucaltdı:

– Qadoşun qoşulub qaçmağı köhnəlib, əziyyət çəkmə!

– Necə köhnəlib, ay Abbasəli? Qızı qaytarıb gətiriblər?

– Yox! Ondan da təzə xəbər var! Gecə Hacı Murad Arazı keçib!

Misto yerindəcə quruyub qaldı. Danışmağa söz tapa bilmədi. Bir anlıq elə bil başı fırlandı. Nə cavab verəcəyi, nə deyəcəyi ağlına gəlmədi. Amma qəribəydi ki, Hacı Muraddan çox Ağköynəkli barədə düşünməyə başladı. Sonra da qayıdıb kar Abbasəlinin arvadına dediyi sözləri kar Abbasəlinin özünə dedi:

– Hacı Muradın qaçacağını mən əvvəlcədən bilirdim.

Kar Abbasəli ilə Misto yenə bir-birlərinin üzlərinə baxdılar. Heç biri danışmadı. Naftalin Kərəmə baş çəkmək Mistonun yadından çıxdı və o, evə qayıtdı. Abbasəli də atının yüyənini çəkə-çəkə çəmənliyə yol aldı.

Abbasəli atı hörükləyib evə qayıtmamış Misto yenə həyətdən çıxdı. Bu dəfə onun qoltuğunda dünən Ağköynəklinin nişan verdiyi qara küçük var idi. Hiss olunurdu ki, Misto bu küçüyü Ağköynəklinin həyətinə aparır. Misto Ağköynəkli ilə Müstəcəbin evinin tinində qarşılaşdı. At belində olan Ağköynəkli Mistonun üstünə qışqırdı:

– Ay evin yıxılsın, indi küçük gətirmək vaxtıdır? Apar it damının qabağına bağla, anama da de ki, küçüyə yemdən-zaddan versin.

Sonra da atı dəhmərləyib getdi. Misto Hacı Muradın qaçması barədə Ağköynəkliyə heç nə demədi. Hiss elədi ki, Ağköynəklinin həmin əhvalatdan xəbəri var.

Ağköynəkli atı birbaşa xırmana çapırdı. O xırmana çatanda gördü ki, Mehtər Ələs Hacı Muradın mal-qarasını səsləyib örüşə aparmaq istəyir. Tez malların qabağını kəsdi və Mehtər Ələsin üstünə qışqırdı:

– Tez ol say görüm burada neçə baş mal var?

Mehtər Ələs səssiz-ünsüz malları sayanda Ağköynəkli ona arxayın olmayıb özü də saymağa başladı. Sayıb qurtarandan sonra mehtər Ələsin üstünə daha bərkdən qışqırdı:

– Axşam bu maldan biri əskik olsa, dərinə saman təpərəm!

Ağköynəkli atı kəndə sürdü. Onun üzü kəndə tərəf dönən kimi naxırçı Qasım Mehtər Ələsin yanına gəldi. İkisi də çənələrini əllərində tutduqları ağaca dayayıb bir-birinə tamaşa etməyə başladılar. Mehtər Ələs naxırçı Qasımın onu daha dərindən süzməsini görüb Ağköynəklinin dalınca deyindi:

– Hacı Murad burada olaydı, onda görüm sən məni necə söyürdün.

Bu sözlərdən sonra naxırçı Qasım onun gözlərinin içinə daha diqqətlə baxaraq dedi:

– Dillənmə, paza keçmişik!

Mehtər Ələslə naxırçı Qasımın burada xısın-xısın söhbət elədikləri vaxt Ağköynəkli atını dördnala çaparaq Hacı Muradın həyətinə doğru gedirdi və Həşimin evindən on-on beş metr o tərəfə çatmışdı. Birdən atı saxlayıb geriyə döndərdi və Həşimin həyətinə yaxınlaşdı. Darvazanın yanına çatanda o qədər də uca olmayan hasarın üstündən həyətə boylandı. Həyətdə beş-altı adam o tərəf-bu tərəfə gedib tədarük görürdü. Ağköynəkli səsinin gur yerinə salıb Həşimi çağırdı. Həşimdən qabaq darvazadan Sadıq çıxdı. Sadığı görər-görməz onun üstünə acıqlandı:

– Mən səni çağırmadım. Yeri Həşimə denən bəri dursun!

Elə bu vaxt Həşim də Sadığın böyründə göründü və Həşim görünən kimi Sadıq içəri keçdi. Ağköynəkli Həşimə üz tutub acıqla dedi:

– Salatının məclisini hansı mollanın aparacağını yaxşı bilirsən. Birdən ağlın çaşar, gedib o Sultan kişini gətirərsən, sonra əlimdən qurtara bilməzsən. Başım qarışıqdı, günortaüsütü özüm də gələcəyəm.

Həşim cavab verdi ki, bilirəm.

Ağköynəkli yoluna davam edəndə Həşim də öz-özünə fikirləşdi ki, Hacı Muraddan qurtardıq, amma Nəcəfalının yanında biyabır olacağam. Çünki Nəcəfalı hər oturub-duranda deyər ki, mən öləndə məclisimi Sultan kişi aparacaq. İndi mən onun bacısının yas yerinə Sultan kişini gətirə bilmirəm.

Ağköynəkli Hacı Muradın həyətinə çatanda gördü ki, buraya xeyli adam yığışıb.  O, atdan düşüb atın yüyənini Hacı Muradın atının durduğu yerdəki tut ağacının budağına bağladı. At başını yuxarı qaldırıb qulaqlarını şəklədi və sonra sakitcə dayandı.

Ağköynəkli Hacı Muradın evinin qabağında toplaşan adamlara yaxınlaşıb salamsız-kəlamsız üzünü onlardan bir az kənarda dayanan Səttara tutub dedi:

– Get o münasib yoldaşlardan birini tapıb şahid kimi gətir. Özün də qələm-kağız götür, gözə dəyən nə varsa, hamısını siyahıya al! Çalış ki, bir çöp də kənarda qalmasın. Mal-qaranın da sayını özün bilirsən. Axşam naxır gələndən sonra bir-bir qulaqlarını damğalayın və kolxozun hesabına keçirin.

Səttar da qayıdıb ona hirsindən boğula-boğula dedi ki, siyahıya almağa heç nə yoxdur! Qızılların hamısını taxçadan-boxçadan yığışdırıb aparıb. Gözə dəyən heç nə qalmayıb.

Bunu eşidən Ağköynəkli üzünü camaata tərəf tutdu:

– Sizə yüz kərə deyirdim ki, Hacı Muraddan Düyərliyə ağsaqqal çıxmaz. Heç kəs  sözümə inanmırdı. İndi özünüz şahid oldunuz ki, Hacı Muradın bir ayağı həmişə qaçaraqda olubmuş. Qaçdı aradan çıxdı, birinizlə də sağollaşmadı. Çünki el-oba qədrini bilən adam deyildi. Hələ bu yaşıma qədər Hacı Murad kimi elin malını yeyib quduran ikinci adam görməmişəm. Bax, görürsünüz, sizin hesabınıza qazandığı var-dövləti də tərtəmiz silib süpürüb, yerində bir çoşa da qoymayıb. Barı bir-iki gözə dəyən şey qalsaydı, siyahı eyləyib adambaşına paylayardıq. İndi gedin barmağınızı sorun.

Ağköynəkli bunları deyə-deyə içindən göynəyirdi. Bayaq siyahı işlərini Səttara tapşıranda, bir münasib adam tapıb gətirməyi Səttara göstəriş verəndə ürəyində fikirləşirdi ki, çax-çux eyləməyə yaxşı imkan var. Amma daha iş işdən keçmişdi. O, üzünü bir də Səttara tutdu:

– Nə varsa, onu da siyahıya alın! Qoy camaat deməsin ki, Hacı Muradın var-dövlətini pay-puş elədilər!

Ağköynəkli camaatdan ayrılıb Hacı Muradın evinin gündüşməz tərəfinə keçdi. O buraya niyə keçdiyini yaxşı bilirdi və gəlib Hacı Muradın hələ dədəsindən qalan quyusunun başın-

da oturdu. Quyunun ağzı taxta qapaqla örtülmüşdü və taxta qapaq quyunun ağzına kip oturmuşdu. Kənddə hamı bilirdi ki, bu quyunun suyu yayda bumbuz olur. Cəmisi bircə dəfə üç-dörd il əvvəl sətəlcəm olmuş Gülliyə baş çəkməyə gələndə bir dolça quyu suyu içən Tutu nənənin o quyunu tərifləməkdən dili ağzına sığışmazdı. Deyərdi ki, dağdakı bulaqlar qələt eyləyir Hacı Muradın quyusunun yanında. Onu da qınamaq olmaz: yazıq arvad nə vaxt dağa çıxıb, nə vaxt bulaq suyu içib? Gərək dağa qalxıb bulaq suyu içəsən ki, sonra Hacı Muradın quyusuna doğru qiymət verəsən.

Nəcəfalının da Hacı Muradın quyusuna "bəh-bəh" deməsi Ağköynəklinin ağlına gəldi və yadına düşdü ki, bir dəfə yayın cırhacırında – taxıl biçini vaxtında Nəcəfalı istidən ciyərləri yanan və dodağı quruyan kəndin mahir kərənti çəkəni Həsənquluya: – Hacı Muradın quyusunun suyu ölü dirildər, – demişdi. Onda Ağköynəklinin ayağı yalın və tumançaq gəzən vaxtı idi, amma nədənsə bu sözlər onun yadından heç vaxt silinməmişdi. İndi Ağköynəkli Nəcəfalının Həsənquluya dediyi həmin sözləri bir də xatırlayıb öz-özünə dedi ki, ay Nəcəfalı əgər Hacı Muradın quyusunun suyu ölü dirildəndirsə, özün niyə içib cana gəlmirsən? Neçə ildir yataqda qalıbsan, yançaqların da əl boyda açılıb!

– Ağköynəkli bunları fikirləşə-fikirləşə ayağının ucu ilə quyunun ağzındakı taxta qapağı yavaşca itələdi və quyunun ağzı yarıdan çox açıldı. O belini əyib quyunun içərisinə göz yetirdi. Üç-dörd metrlikdən görünən dupduru suyun üzünə Ağköynəklinin şəkli düşdü. Ağköynəkli öz şəklinə bir az diqqətlə baxandan sonra asta-asta qəddini düzəltdi. Yenə də ayağı ilə taxta qapağı itələyib quyunun ağzını örtdü.

Ağköynəkli Hacı Muradın evinin qabağında dayanmış adamların yanına döndü. Üzünü yenə Səttara tutub dedi:

– Siyahını axıra qədər yazıb tamamla! Burada olan üç-dörd nəfərə də qol çəkdir! Mən Sulutəpəyə sovetliyə gedirəm. Tez qayıdacağam!

Ağköynəkli yaxınlaşıb ata mindi və həyət qapısından çıxdı.

## 5.

Ağköynəkli Hacı Muradın qaçması barədə Kənd sovetinin sədri ilə xeyli söhbət edib günortanın istisində geri qayıdırdı. O qədər isti idi ki, göydən adamın başına elə bil od ələnirdi. Bəlkə başqalarını günəş o qədər yandırmırdı, amma Ağköynəkli lap ağır-ağır nəfəs alırdı. O, ömründə belə şaqqama isti görmədiyi haqqında düşünürdü. Hələ bir az uzağa baxanda öz-özünə təəccüblənirdi, çünki isti hava duman kimi əməlli-başlı onun gözlərinə görünürdü. Ola bilsin ki, Hacı Muradın qəfil kənddən getməsi, onunla haqq-hesab çəkmək fürsətinin əldən çıxması da Ağköynəklinin hərarətini xeyli artırırdı.

Ağköynəkli birdən-birə hər şeyi unudub səhər-səhər Mistonun gətirdiyi küçük haqqında düşünməyə başladı. Öz-özünə dedi ki, gözüm dünəndən o küçüyü yaman tutub. İndiyə qədər bu kənddə o qədər qancıq balalayıb ki, onların küçüklərinin heç sayını-hesabını yadda saxlayan yoxdur. Hələ yadımdadır, Araz qalxıb kəndin ətrafını basan il həyətlərdəki bütün qancıqlar eyni vaxtda balalamışdı. Onda Məşədi Vəli kişi gerçək-zarafat deyirdi ki, əppək tapıb bu küçüklərin qarnını doydura bilməyəcəyik. Amma heç bir vaxt Düyərlidə Mistonun mənə gətirdiyi küçük kimi qancıq balası görünməyib. Vallah, heç özüm də bilmirəm ki, o küçük məni niyə özünə çəkdi? Boyu o biri küçüklərin boyu kimi, ayaqları o biri küçüklərin ayaqları kimi, qulaqları o biri küçüklərin qulaqları kimi! Bəlkə rəngi gözümü tutub? Doğrudur, rəngi qara pişik rənginə oxşayır, amma axtarsan bu kənddə

qara it də tapmaq olar! Bəs onda səbəbi nədir? Vallah, vallah bilmirəm!

“Hə, yadıma düşdü!” – bu sözləri Ağköynəkli elə ucadan dedi ki, özü də diksinən kimi oldu. Mən lap uşaq olanda Motor arxının yanındakı qumun üstündə – hərdən kənd arvadları burada özlərini quma basdırırdılar – sakitcə evcik-evcik oynayırdıq. Birdən Baftalı Salahın nəvəsini evlərinə çağırdılar. O da könülsüz-könülsüz uşaqlardan ayrılıb getdi. Bir az keçmişdi ki, Baftalı Salahın nəfəsi ilə Əli kişinin – o Baftalı Salahın nəvəsinin ana babası idi – bir iti qabaqlarına qatıb aparmaqlarına uşaqlar tamaşaya durdular. Əslində hamımızın içində böyük bir sevinc var idi. Çünki bu itin əlindən bütün kənd təngə gəlmişdi. O, zəncirini qırıb açılanda həyət-bacada qorxusundan bir nəfər gözə dəyməzdi. Uşaqlı, böyüklü hamı qaçıb özünü evə təpərdi. Hətta tövləyə, dama girənlər də olardı. Bunlar bir yana qalsın, toyuq-cücə də pərən-pərən düşərdi. Çünki nəyə ağzı çatdı onu dağıdardı. İndi zənnim məni aldatmırsa, Mistonun gətirdiyi küçüyün, deyəsən, təkcə o itə oxşarlığı var.

Birdən Ağköynəkli qarşısında Hacı Muradı görürmüş kimi onun üstünə düşdü: Ə, köpəkoğlu, sənin kişiliyin, qeyrətin bu idi? Hər yerdə döşünə döyüb ardan, namusdan danışırsan? O necə namusdur ki, arvadının üstünə bir arvadda gətirib evin içinə soxmuşdun? Səndə günah yoxdur! Günah Güllünün o namussuz qardaşlarında idi? Birinin kişiliyi çatmadı ki, tüfəngi götürüb səni it küçüyü kimi o dünyalıq eyləyə! Qardaşları da ağzına su alıb dayanandan sonra camaatın nə işi var? Bu bir yana qalsın, hələ Salatına da tamah salırdın. Elə bilirsən heç nə qanmıram? Səni bu kənddən Salatının ölümü didərgin saldı.

Sonra da Ağköynəkli Mistonu yamanlamağa başladı: Bu da əməlli-başlı qudurub. Dünən demişəm ki, küçüyü apar bizə, yatıb-yatıb bu gün gətirir. Ay sən öləsən! Bəlkə də özüm görməsəydim, indi çoxdan başını əkmişdi. Səhər tezdən də ona görə

küçüyü gətirirdi ki, daha Hacı Muraddan əli üzülüb, bundan sonra işinin məndən keçəcəyini yaxşı bilir.

Ağköynəkli bütün bunları fikirləşə-fikirləşə Həşimgilin darvazasının yanına çatmışdı. O, atdan yenib atın yüyənini darvazanın yanında sallana-sallana qalan əyri bir məftilə keçirdi. Həyətə girib mağara yaxınlaşdı. Mağarın qabağında işləyənlərə say saldı. Hamı diqqətlə ona baxırdı. Ağköynəkli mağarın içinə keçib salam verdi və düz yuxarı başa – mollanın yanına üz tutdu. Taxtın üstündə oturan molla da özünü yığışdırıb bir tərəfə çəkildi, oturmaq üçün ona yer elədi. Hələ üstəlik altındakı döşəkcəni də Ağköynəkliyə tərəf itələdi.

Mağara sükut çökdü. Heç kəs dinib danışmırdı. Adamların gözü mollaya tərəf dikilmişdi, əslində isə onlar mollaya yox, Ağköynəkliyə tərəf baxırdılar. Hamı gözləyirdi ki, görək Ağköynəkli nə deyəcək? Amma o da mağardakıları əməlli-başlı intizarda qoyurdu, danışmağa hələ həvəsi yox idi. Yanaşı oturanlardan bəziləri öz aralarında heç kəsin eşidə bilmədiyi səslə astadan pıçıldaşırdılar. Bunu görən molla bir dua oxudu. Dua qurtaran kimi Ağköynəkli danışdı:

– Camaat, indi sovetlikdən gəlirəm. Sovet sədri ilə xeyli söhbət etdim. O, Stalin yoldaşın bəzi tapşırıqlarını da mənə çatdırdı. Sovet sədri Hacı Muradın qaçmağından çox narahat oldu. Hacı Muradın elin var-dövlətini yığıb aparmasını ölkəyə dəyən ziyan kimi qiymətləndirdi. Onu da dedi ki, Hacı Muradın qaçmağına kömək edənlərə cinayət işi açılacaq. Bu cür adamlar mütləq öz cəzalarını çəkməlidirlər!

Ağköynəkli burada söhbətinə fasilə verdi. Mağarın aşağısına diqqətlə baxanda həyətdə işləyənlərin də gəlib aşağıda oturduqlarını gördü. Elə bu vaxt molla yenə bir dua verdi. Adətən, duadan sonra oturanların bəziləri qalxıb gedərdilər, amma heç kəs ayağa durmadı. Ağköynəkli sözünə davam etdi:

– Camaat mən belə qərara gəlmişəm ki, kənddə çoxdan hökm sürən və indi kif basmış bəzi qaydalarda dəyişiklik etmək lazımdır. Çünki onların elələri var ki, artıq yeni dövrə uyğun gəlmir. Elə götürək ölənlərin basdırılmasını! Onları qəbiristanlıqda bir-birinin yanında ardıcıl düzmək lazımdır. Yoxsa öləni kiminsə yanında, kiminsə ayağının altında basdırmaq köhnəliyin qalığıdır. Bu dünyada hamı bərabər olduğu kimi, o dünyada da bərabərdir.

Sonra üzünü mollaya tərəf çevirib, “elə deyilmi, ay molla?” sualını verdi. Molladan da dərhal “elədir!” cavabı gəldi. Amma oturanlar başa düşmədilər ki, molla ölənlərin öz qohumunun yanında basdırılmasının köhnəlik qalığı olmasını, yaxud adamların həm bu dünyada, həm də o dünyada bir-birinə bərabər tutulmasını təsdiq etdi.

Ağköynəkli bu məsələdə mollanın ona tərəfdar çıxmasından bir az da ürəklənib səsinə güc verdi:

– Yaxud götürək yas yerlərini! Dədə-babadan bu kənddə birinin evinə yas düşəndə qohum-qonşu yığışıb bacardıqları qədər ona kömək eyləyərdilər. Amma kimin nə elədiyi, necə elədiyi dəqiq bilinmir. Bu da qarmaqarışıqlıq yaradır. Ona görə də bundan sonra yas yerlərində siyahı ilə pul yığmaq vacibdir. Birincisi, yas qəflətən baş verir, ev yiyəsinin hazırlığı olmur. İkincisi də kim yas yerinə nə qədər pul salırsa, açıq-aydın bilinir. Ona görə də Səttara tapşıracağam ki, elə bu gündən siyahı tutsun. Yığılan pulla fermadan dövlət qiymətinə bir cöngə götürüb sabah mərhumun üçünün tədbirini qılmaq lazımdır.

Bu sözdən sonra camaatın içindən bir hənirti keçdi. Hiss olundu ki, Ağköynəklinin dediyinə razı olanlar da, razı olmayanlar da var. Həşimin fikrindən keçdi ki, deyəsən, Nəcəfalının danasının ölən vaxtı deyil. Kimin nə deyəcəyini gözləmədən molla dua verdi. Bu duadan sonra qonşu kəndlərdən gələn bir neçə adam getmək üçün ayağa qalxdı.

Heç bir dəqiqə keçməmişdi ki, bayırda səs-küy düşdü. Mağardakı adamlar da narahat oldu. Elə bu vaxt Sadıq mağara girib düz mollanın yanına keçdi və mollanın qulağına nəsə pıçıldadı. Molla da "mərhumənin ruhuna, cəmi ölənlərin ruhuna salavat çevirin", – dedi. Hamı salavat çevirdi, amma adamlar bu salavatdan çox mollanın nəsə deyəcəyini gözləyirdilər. Salavatdan sonra molla dedi:

– Ay camaat, indi xəbər gəlib ki, mehtər Ələs Araz qırağında Güllünün meyidini görüb.

Mollanın sonra nə söyləcəyini gözləmədən Ağköynəkli dilləndi:

– Üç-dörd nəfər cavan dursun! Kolxozdan da at arabasını götürüb tez meyidi gətirmək lazımdır. Mən özüm də gedirəm. Beş-altı nəfər yaşlı adam da qəbir qazmağa getsin! Qəbri Salatının yanında qazın!

Ağköynəkli mağardan çıxandan sonra adamlar dalbadala düzüldülər. Mağarda molla ilə Həşimdən başqa heç kəs qalmadı.

# ZƏLİ

Onlar üç uşaq idilər. Bunlardan biri Məşədi Qafarın nəvəsiydi, biri Tanrıverdinin oğluydu, biri də Həşimin Salatından olan uşağıydı. Əyinlərinə geydikləri şalvarlarını dizə qədər çirmələyib qamış bitən dərəyə düşmüşdülər. Amma qamışlıqdakı suyun içərisində o tərəf-bu tərəfə çox ehtiyatla gəzirdilər. Qamış kötüklərinin ayaqlarına batacağından qorxurdular. Adətən, kəndin böyük-böyük kişiləri yayda ayaqlarına rezin çəkmə geyib bu qamışlığa girər, saralmış qamışları bir-bir, iki-iki biçib dəstə bağlayar və arabaya yükləyib kəndə gətirərdilər. Kənddə bu qamışları təzə tikilən evlərin damlarının üstünə düzərdilər. Düyərlidə kimin evinə girsəydin, evin tavanında səliqə ilə toxunub düzülmüş qamışlar görünərdi.

Bəzən də biçilmiş qamış artıq qalanda onları qonşu kəndlərdə təzə ev tikənlərə satardılar. Elə bunun özü də bir iş idi ki, qamış biçənlər üçün qəpik-quruş çıxardı, onların evinin dolanışığına kömək olardı. O da yadımdadır ki, Baftalı Salahın nəvəsi birinci sinfə oxumağa gedəndə onun kitab-dəftərini, pal-paltarını satılan qamışların puluna almışdılar. Atası da hərdən zarafatla deyərdi ki, bala, səni oxudan bu qamış oldu. Hətta Düyərlidə biri pul tapmayıb ehtiyac içində boğulanda ona üz tutub hirslə deyərdilər ki, bir oraq götürüb qamış biçə bilmirsən?!

Amma hər biçilən qamışı da evin ağaclarının üstünə düzməzdilər. Elə qamışlar seçilərdi ki, birincisi, onlara qurd düşməsin, ikincisi, uzunluğu dörd-beş ağaca yetsin, üçüncüsü də baş barmaq yoğunluğunda olsun. Qeyri kənddən qamış almağa gələnlərin qamışa qurd düşmək məsələsindən o qədər başları çıxmazdı. Qamışın uzunluğuna da çox fikir verməzdilər. Deyərdilər ki, dörd-beş ağaca çatmasın, üç-dördünə yetsin, nə fərqi var?! Amma bu baş barmaq məsələsi yaman məsələydi. Qamış almağa gələn hər adam, salam-kəlamdan sonra, yəni heç qiymət xəbər

almadan baş barmağını qoyardı qamışın birinin yanına. Elə ki, uyğun gəldi, alış-verişə başlayardı.

Qamışın evin ağaclarının üstünə düzülməsi də xüsusi səliqə və bacarıq tələb edirdi. Hətta cavan-cavan qızlar da qardaşlarının köhnə-möhnə şalvarlarından geyib evin düz kəlləsinə qalxardılar. Dörd-beş nəfərin hərəsi bir ağacın üstündə oturub ayaqlarını aşağı sallayardı. Qamışları bir-bir evin içindən qaldırıb onlara verərdilər. Onların da hər biri həmin qamışa ip keçirib bərk-bərk sıxardı. Beləcə işi başa çatana qədər hamı eyni qaydada işləyərdi.

Düyərlidə adamların yadına gələn o idi ki, yalnız bircə dəfə qamış toxuyan qızlardan ən kiçiyi ağacın üstündən yıxılmışdı. Yıxılan qızın isə ayağı burxulub topuqdan çıxmışdı. Onu Sulutəpəyə Sınıqçı Hacının yanına aparmağa ehtiyac olmamışdı. Çünki Sınıqçı Hacı o vaxt Düyərliyə yas yerinə gəlmişdi. Qızı qucaqlarına alıb kəndin o biri başına yas düşən evə aparmışdılar. Sınıqçı Hacı da bunu bilib dinməz-söyləməz qızın ayağını yerinə salmışdı. Ondan sonra kənddə kiçik uşaqlara evin üstündə qamış toxumağa icazə verməzdilər.

Kəndin oğlan uşaqları həyətlərin kənarında üst-üstə yığılmış qamışlardan seçib ən yaxşısını oğurlayardılar. Uşaqlar həmin qamışın buğumlarından kəsib özlərinə tütək düzəldərdilər. Qamışdan düzələn tütək də əməlli-başlı tütək olardı. Doğrudur, uşaqlar həmin tütəklərdə mahnı çalmağı o qədər də bacarmazdılar. Qurbanın tütək çalmağından isə olmazdı. Qurban hərdən axşamüstü kəndin qadınlarının Araza su götürməyə getdikləri vaxt böyrünü evlərin divarına dayayıb elə tütək çalardı ki, qoca arvadların gözündən yaş gələrdi. Tutu nənə də deyərdi ki, bilirsinizmi Qurban camaatı niyə ağlada bilir? Onda heç kəs cavab verməzdi. Tutu nənə də sonra əlavə edərdi ki, Qurban tütəkdə öz yetimliyini çalır.

Amma Məşədi Qafarın nəvəsinin, Tanrıverdinin oğlunun, Həşimin Salatından olan uşağının dərədəki bu qamışlığa düşməklərinin səbəbi nə qamış biçmək idi, nə də qamış kəsib tütək düzəltmək. Onlar Zəhra arvadın sözü ilə buraya gəlmişdilər. Gəlmişdilər ki, zəli tapıb aparsınlar.

Uşaqların qamışlığın içinə düşdükləri xeyli vaxt olardı. Amma hələ bir dənə də zəli tapa bilməmişdilər. Elə bil Allahın almışlığıydı, zəli də göyə çəkilmişdi.

Bir vaxtlar qamışlığa düşüb zəli axtarmağa heç bir ehtiyac yox idi. Çünki kəndin mal-qarası keçən payıza qədər bu tərəflərdə otlayardı. Günorta olanda inəklər kolluqların yanında uzanıb yatardılar, camışlar isə istidən özlərini qamışlıqdakı suya təpərdilər. Qamışlığa girən camışlar o tərəf-bu tərəfə fırnıxırdı, sonra qamışlıqdakı suyun içində yatardılar. Axşamçağı kəndin naxırçısı o camışları sudan çıxarana qədər canı boğazına yığışardı. Camışlar qamışlıqdan çıxanda isə hərəsinin belində iki-üç zəli olardı. Kənddə kim zəli istəsəydi, gəlib camışların belindən qopardı. Bəzən də naxır axşam kəndə qayıdanda zəlilər elə camışların belində kəndə gələrdi.

Ağköynəkli Düyərlidə at çapmağa başlayandan kənddə çoxlu yeni-yeni qaydalar qoymuşdu. Bunlardan biri də o idi ki, keçən ilin payızından Düyərlinin mal-qarası həmin dərəyə tərəf üzükə bilməzdi. Çünki Ağköynəkli demişdi ki, kəndin naxırı qamışlıqdan qalxan kimi kolxozun əkinini korlayır. Elə o vaxt-bu vaxt zəli tapmaq müşkül məsələyə çevrilmişdi.

Birdən Həşimin Salatından olan uşağı ilan vuran adam kimi qışqırdı. Bu qışqırtı zəli tapıb sevinən adamın qışqırığına oxşamırdı. Onun qorxunc səsindən Məşədi Qafarın nəvəsi də, Tanrıverdinin oğlu da diksindi. Elə bu vaxt Həşimin Salatından olan uşağının yenə səsi gəldi:

– İlan, ilan!

Məşədi Qafarın nəvəsi ilə Tanrıverdinin oğlu səs gələn tərəfə getdilər. Həşimin Salatından olan uşağı yerində donub qalmışdı. Onun lap qabağındakı qamışa yekə bir ilan dolaşmışdı. İlanın başı suyun üzündə idi. Ağzında da iri bir qurbağa vardı. Qurbağa ilanın başından xeyli böyük görünürdü. İlan nə tərpənirdi, nə də qurbağanı udurdu. Elə matdım-matdım Həşimin Salatından olan uşağına baxırdı. Məşədi Qafarın nəvəsi Həşimin Salatından olan uşağının köynəyindən yapışıb yavaş-yavaş geri çəkməyə başladı. O, ehtiyatla bir addım geri çəkildi. Elə bu an ilan tərpəndi. Uşaq yenidən yerində donub qaldı.

Tanrıverdinin oğlu astaca dilləndi:

– Qorxma, geri çəkil! İlan qurbağanı ötürməz!

Məşədi Qafarın nəvəsi də dilləndi:

– Qorxma, geri çəkil!

Həşimin Salatından olan uşağına elə bil təpər gəldi:

– Siz yavaş-yavaş kənara çıxın. Mən birdən qaçacağam.

Məşədi Qafarın nəvəsi tez dedi:

– Yox, yox qaçmaq olmaz! İlan dalımıza düşər.

Həşimin Salatından olan uşağı yenə əlacsız qaldı. Ürəyində bir ümid var idi, o da həmin sözdən sonra qıvrılıb yox oldu.

Bu vaxt Tanrıverdinin oğlu heç kimin ağlına gəlməyən bir söz dedi:

– Gəlin qurbağanı ilanın ağzından çıxaraq!

Məşədi Qafarın nəvəsiylə Həşimin Salatından olan uşağı səs-səsə verib bir ağızdan dedilər:

– Yox, olmaz!

Sonra hansısa əlavə etdi ki, ilan hirslənib bizi çalar.

Bir az da sakit dayandılar. Məşədi Qafarın nəvəsi dedi ki, buraya gələndə yaman səhv eləmişik. Tutu nənəyə deyəydik, ilanın ağzını bağlayaydı. Tanrıverdinin oğlu da tez cavab verdi ki, ay qanmaz, Tutu nənə qurdun ağzını bağlayır. Məşədi Qafarın

nəvəsi də qayıdıb dedi ki, qurdun da ağzını bağlayır, lap ilanın da.

Elə bu söhbətin ortasında ilan başını tərpətdi. Amma irəliyə yox, bir azca geriyə çəkildi. Həşimin Salatından olan uşağı rahat nəfəs almağa başladı. Ürəyindən keçdi ki, deyəsən, ilan qurbağanı götürüb uzaqlaşacaq. Amma əksinə oldu. İlan geri çəkiləndən sonra yavaş-yavaş irəliyə doğru hərəkət eləməyə başladı. Qeyri-ixtiyari Həşimin Salatından olan uşağı çığırdı:

– Tez olun, suyun altına cumun!

Uşaqların üçü də özlərini atdılar suyun altına.

Həşimin Salatından olan oğlu nə vaxtsa eşitmişdi ki, suyun altında ilan adamı çalmır. Onlar nəfəsləri təngiyənə qədər suyun altında qaldılar. Bir xeyli keçəndən sonra qorxa-qorxa başlarını sudan çıxartdılar. O boyda ilan yoxa çıxmışdı.

Uşaqlar paltarlarından su süzülə-süzülə bir az da ayaq üstə durdular. Hər tərəfə göz gəzdirdilər. İlandan əsər-əlamət yox idi. Bir şey müəmmalı qaldı ki, ilan onların üstündən üzüb gedib, yoxsa geri qayıdıb?! Elə bu vaxt Tanrıverdinin oğlu qışqırdı ki, vay, ayağımda nəsə var! Onun dalısınca da Məşədi Qafarın nəvəsi qışqırdı!

– Tez olun, bayıra çıxaq!

Hər üçü qamışların arası ilə suyu şappıldada-şappıldada dərənin kənarına doğru qaçmağa başladılar. Əslində Məşədi Qafarın nəvəsi də, Həşimin Salatından olan uşağı da, düşünürdü ki, Tanrıverdinin oğlunu ilan çalıb. Tanrıverdinin oğlunun özü də elə fikirləşirdi.

Qamışlıqdan çıxan kimi Tanrıverdinin oğlunun ayağına baxmağa başladılar. Birdən Məşədi Qafarın nəvəsini gülmək tutdu.

O, əlini Tanrıverdinin oğlunun baldırına uzadıb gülə-gülə də dedi:

– Zəli!

Sonra o birilər də gülməyə başladılar.

Tanrıverdinin oğlu ağzı üstə dərənin kənarındakı yaşıl otların üzərində uzandı. Məşədi Qafarın nəvəsi ağ torbanın ağzını açıb oradan bir ovuc duz götürdü və zəlinin üstünə tökdü. Heç bircə dəqiqə keçməmiş əlini atıb zəlini Tanrıverdinin oğlunun baldırından qopardı. Həşimin Salatından olan uşağının əlində tutduğu bankaya saldı. Həşimin Salatından olan oğlu da bankanın ağzını bağlayıb kölgə düşən bir yerə qoydu. Sonra üçü də köynəklərini çıxarıb otun üstünə sərdilər və gəlib üzləri qamışlığa tərəf göy otun üstündə yanaşı oturdular.

Günəş Ağrı dağına tərəf əyilmişdi. Onun şüaları qamışlığı qəribə bir rəngə boyamışdı. Bəlkə, yüz il baxsaydın, bu cür rəngi tapmaq mümkün olmayacaqdı. Uşaqlar gah günəşə baxır, gah da qamışlığın rəngini seyr edirdilər. Onlar bir-birlərindən küsən adamlar kimi dinib danışmırdılar.

Həşimin Salatından olan uşağının yadına anası düşmüşdü. Bir zamanlar anası sağ olanda Ağıl üstünə ot biçməyə gedərdilər. Salatın orağı arabanın küncündən götürüb yavaşca yerə çömbələr, sol əli ilə iri otların ortasından yapışar, sağ əlindəki oraqla da onları biçərdi. O isə biçilmiş otları qucaqlayıb arabaya daşıyardı. Anası da hey deyərdi ki, otu az-az götür, qoy yerə tökülməsin. Elə o vaxt Həşimin  Salatından olan uşağı başa düşürdü ki, bu ot biçmək çətin bir işdi.

Salatının ot biçən günlərinin birində Hacı Murad gəlib oraya çıxmışdı. Amma insafən Hacı Murad Salatına baxıb-baxıb heç nə demədən çıxıb getmişdi. Bu baxmaq o deyən şey idi ki, buralardan ot biçmək olmaz. Amma Salatına heç kəs bir söz demədi. Salatının başqa çarəsi də yox idi. Çünki Həşim çölə ot dalısınca getməzdi, elə bir böyük uşağı da yox idi ki, gedib ot biçib gətirsin. Evin hər işi Salatının üstünə düşmüşdü. Hacı Murad da, başqaları da yaxşı bilirdi ki, Salatın ot biçib aparmasa, var-yox

bir inəkləri də süddən quruyacaqdı. İndi gəl ondan sonra uşaqları dolandır görüm, necə dolandıracaqsan?

Həşimin Salatından olan uşağı atası ilə anasının dalaşmağını da xatırladı. Atası oturmuşdu həyətdəki tut ağacının altında günorta çörəyini yemək istəyirdi. Həşim bıçağı almışdı əlinə Salatının təzəcə tağdan qoparıb gətirdiyi xiyarları soyurdu. Özü də asta-asta soyurdu, kənardan baxan deyərdi ki, bu kişidə əsəb deyilən heç nə yoxdu.

Həşim xiyarları soyub bir tərəfə qoydu. Sonra göy-göyərtiyə əl atdı. Yuyulmuş göyərtilərin köklərini və bəzi yarpaqlarını kəsib bir tərəfə qoydu. Arada da təmizlənmiş bir dəstə şüyüdü burnuna yaxınlaşdırıb yaxşı-yaxşı iylədi. Elə bil yazda təzəcə açılmış qızılgül iyləyirdi.

Bu vaxt Salatın evdən dünən çalınmış bir qazan qatığı gətirib Həşimin yanına qoydu. Həşim də elə o dəqiqi qazanın qapağını götürüb qatığı qaşıqla çanağa tökməyə başladı. Bir-iki qaşıq götürüb qazanın bir tərəfini əydi. Gördü ki, qatıq su verir. Həşim də elə buna bənd imiş kimi əsəbiləşib Salatının üstünə qışqırdı:

– Ay ərdəmin tökülsün! Bir qatığı da çala bilmirsən?! Salatın da cavab qaytardı ki, hava istidir, nə eləyirsən elə, qatıq yenə su verəcək.

Həşim bu dəfə daha hirslə dedi ki, dədən evindən çıxanda heç nəyi bacarmırdınsa, barı heç olmazsa, qatıq çalmağı öyrənəydin.

Salatın yenə cavab qaytardı ki, dədəm evində öyrənmədiyimi burada öyrənmişəm. Bax gör, kənddə kimin arvadı ota gedir, ota getməyi də elə sənin evində öyrənmişəm.

Həşim elə bunu eşitmişdi ki, lap ucadan dedi:

– Sən ot biçməyə getmirsən, sülənməyə gedirsən!

Salatın o sözdən sonra dodağının altında “bu da mənim yaxşılığım” deyib evə tərəf getdi.

Həşimin də elə bil birdən-birə hirsi soyudu. Qaşıqla çanaqdakı qatığı çalıb ovduq düzəltməyə başladı.

Həşimin Salatından olan uşağının yadına o da düşdü ki, yayın bir qızmar günündə su daşı qoyulmuş dama girib su içmək istəyirdi. Bu su daşını dayısı Nəcəfalı kişi onlara gətirmişdi. Özü də gülə-gülə demişdi ki, bu su daşı Salatının ən qiymətli cehizidi. Onu yaxşı-yaxşı qoruyarsınız. Arazın suyunu elə-belə içmək olmaz. Bu daşdan süzülən Araz suyunun isə əvəzi yoxdu. Həşimin Salatından olan uşağı da elə əvəzi olmayan o sudan içmək üçün damın içinə girdi. Amma təəccüb onu götürdü. Çünki anası su daşının yanında çömbəlib bir kərpicin üstündə oturmuşdu və için-için ağlayırdı. Salatın oğlunu görəndə də ağlamağını kəsmədi. Elə bil uşağın onun yanına gəlməyindən xəbəri yox idi. Bir azdan Salatın gözünün yaşını silib daşın yanındakı parçı götürdü və parçı daşdan süzülmüş su ilə doldurub ona uzatdı.

– Al, iç! Qoy ürəyin sərinləsin!

Salatın başa düşmüşdü ki, uşaq su içmək istəyir. Amma oğlu heç vaxt bilməmişdi və indi də bilmirdi ki, anası onda niyə ağlayırdı? Bəlkə də, Salatın gecə gördüyü yuxusunu suya danışmaq üçün oraya girmişdi. Özü də fikirləşmişdi ki, yuxunu çaya danışdın, yaxud daşdan süzülən suya, nə fərqi var?

İndi Həşimin Salatından olan uşağının yadına birdən düşdü ki, anası o əhvalatdan bir neçə gün sonra Araza düşüb boğulmuşdu.

Həşimin Salatından olan uşağı xəyaldan ayrılıb gördü ki, Məşədi Qafarın nəvəsi də, Tanrıverdinin oğlu da arxaları üstə göy otun üstünə uzanmışdılar. Məşədi Qafarın nəvəsi əllərini daraqlayıb başının altına qoymuşdu. Tanrıverdinin oğlu isə başını top kimi yumruladığı köynəyinin üstünə qoyub əlləri ilə gözünü örtmüşdü. Əslində gözünü örtməyə elə bir ehtiyac yox idi. Çün-

ki günəş görünmürdü və qamışların kölgəsi onun üstünə düşmüşdü.

Tanrıverdinin oğlu da əlləri gözünün üstə keçmişləri xatırlayırdı. Onun yadına siniflərində oxuyan Tükəz düşmüşdü. Birinci sinfi qurtarmağa az qalmış Əlifba bayramı keçirməyə hazırlaşırdılar. Bayramın keçiriləcəyi gün səhər-səhər uşaqlar hamısı öz yerlərində oturub onlara ilboyu dərs deyən müəllimlərini gözləyirdilər. Tanrıverdinin oğlu da Tükəz ilə həmişəki kimi birinci partada yanaşı oturmuşdular. Tanrıverdinin oğlunun yadına nə düşdüsə, dəftərini açıb onun vərəqlərindən birini cırdı. Tükəzdən gizli vərəqə aşağıdakı cümləni yazdı: "Mən səni sevirəm". Sonra vərəqi səliqə ilə qatlayıb partanın üstü ilə Tükəzə sarı ötürdü. Əlifba bayramına geyinib-keçinmiş, saçına qırmızı lent vurub gəlmiş Tükəz də sevinə-sevinə vərəqi açıb oxumağa başladı. Sonra isə vərəqi hirslə cırıb sinfi ağlaya-ağlaya tərk etdi. Məktəbin həyətində duran müəllimlər Tükəzi birtəhər ovudub güclə geriyə qaytardılar. Tükəz öz müəllimi ilə sinfə girəndə bu dəfə Tanrıverdinin oğlunun yanında oturmadı. Lap arxa partaya keçdi və heç kəsə də bir söz demədi.

Bütün ikinci sinif boyu Tanrıverdinin oğluyla Tükəz bir kəlmə də danışmadı. Yalnız üçüncü sinifdə onların umu-küsüsü qurtardı.

Beşinci sinifdə isə belə bir əhvalat oldu. Novruz bayramı qabağı uşaqlar evdən məktəbə qoz, fındıq, qırmızı yumurta və başqa şirin şeylər gətirmişdilər. Tarix dərsi təzəcə başlamışdı. Dərsin şirin yerində heç kəsin gözləmədiyi halda bir qırmızı yumurta fırlana-fırlana düz gəlib yazı taxtasının qabağında durdu. Hamı təəccüblə yumurtaya baxdı. Tarix müəllimi də bu mənzərəni diqqətlə seyr edəndən sonra bir hərəkətlə ayağa qalxıb qəzəblə dedi:

– Bu yumurta kimindir?

Heç kəs dillənmədi. Müəllim yenə qışqırdı, yenə dillənən olmadı. Müəllim dedi ki, kim evdən nə gətiribsə, partaların üstünə töksün. Uşaqlar evdən gətirdiklərini partaların üstünə tökmək istəyirdilər ki, Tanrıverdinin oğlu ayağa qalxıb dedi:

– Müəllim, niyə özünüzü yorursunuz. İcazə verin mən deyim yumurta kimindir?

Müəllim soruşdu?

– De görüm, kimindir?

Tanrıverdinin oğlu əlini uzadıb Tükəzi göstərdi və dedi:

– Bu yumurta Tükəzindir!

– Hardan bilirsən?

– Çünki o yumurtanı mən özüm səhər-səhər Tükəzə bağışlamışdım.

Tarix müəllimi sorğu-sualı kəsib barmağını Tükəzin üstünə silkələyib uca səslə “tərbiyəsiz” dedi. Sonra da əlavə etdi ki, valideyninə deyərsən, sabah məktəbə gələr!

Tükəz heç bir söz demədən başını partanın üstünə qoyub hıçqıra-hıçqıra xeyli ağladı.

Əslində yumurta doğrudan Tanrıverdinin oğlunun idi və həmin yumurtanı yazı taxtasının qabağına da Tanrıverdinin oğlu diyirlətmişdi. Bunu bir Tükəz bildi, bir də Tanrıverdinin oğlu.

Ondan sonra Tanrıverdinin oğlu ilə Tükəz yenə xeyli vaxt danışmadılar. Bu il isə səkkizinci sinfə keçmiş Tanrıverdinin oğlu ilə Tükəzin bir-birinə münasibəti xeyli yaxşılaşmışdı. Çünki Tanrıverdinin oğlu bütün yay boyu Tükəzgilin quzularını otarırdı.

Tanrıverdinin oğlunun fikrindən o da keçdi ki, Tanrıverdinin atası ilə anası orta məktəbdə on il bir sinifdə oxuyublar. Sonra da Tanrıverdinin atası anasını götürüb qaçırıb.

Məşədi Qafarın nəvəsi isə heç nə fikirləşmirdi. Çünki əməlli-başlı yatmışdı. Amma bu dəm Məşədi Qafarın nəvəsi yuxu görürdü. Görürdü ki, babası dirilib gəlib onların həyətinə.

Ona bir uzun ağac, bir də cırılmış köhnə əski uzadıb deyir ki, bu əskini ağacın başına dolayıb yandır və üzüm tənəyinin üstündəki arı pətəyinə od vur!

Elə bu vaxt qamışlığın o başından uşaq ağlamağına oxşar bir səs eşidildi. Məşədi Qafarın nəvəsi yuxudan dik atıldı. Tanrıverdinin oğlu da, Həşimin Salatından olan uşağı da ayağa qalxdılar. Uşaq ağlamağına oxşar həmin səs yenə eşidildi. Məşədi Qafarın nəvəsi tez dilləndi: narahat olmayın, ağlayan uşaq deyil, çaqqaldır. Sonra da dedi ki, artıq gün əyilir, tez olun, bəlkə, bir-iki zəli də tuta bildik.

Tanrıverdinin oğlu dedi ki, mən daha qamışlığa girmək istəmirəm. Onsuz da zəli payımı tapmışam. Sizin hərəniz də bir zəli tapın, qayıdıb gedək.

Məşədi Qafarın nəvəsi, Həşimin Salatından olan uşağı yenidən şalvarlarının ayağını dizə qədər qatlayıb qamışlığın içinə girməyə başladılar. İndi qamışlıqdakı su əvvəlkindən xeyli istilənmişdi. Elə bircə addım atmışdılar ki, hamıdan qabaqda gedən Həşimin Salatından olan uşağı qəflətən yerində dondu. Məşədi Qafarın nəvəsi də ona baxıb tez dayandı. Ona elə gəldi ki, Həşimin Salatından olan uşağı yenə ilan görüb. Elə bu vaxt dilləndi:

– Sən Allah, bir qamışa bax!

Məşədi Qafarın nəvəsi Həşimin Salatından olan uşağının əli ilə ortasından tutduğu qamışa baxdı. O yenə dilləndi:

– Mən hələ indiyə qədər belə qamış görməmişəm. Bu qamışdan əsl tütək düzəltmək olar. Evə qayıdanda bu qamışı dibindən qırıb Qurban dayıya aparacağam.

Məşədi Qafarın nəvəsi yenə qamışa baxdı, amma bu qamışın o biri qamışlardan nəyə görə fərqləndiyini ayırd edə bilmədi. Həşimin Salatından olan uşağı əlini cibinə salıb oradan qırmızı bir parça çıxardı. Bu qırmızı parça Salatının lap köhnə donunun bir hissəsi idi. Salatın hələ Həşimə ərə gəlməmişdən qabaq həmin qırmızı donu geyib kəndin toylarına gedərdi. Sonralar Sala-

tın bu köhnə donu evin bir küncünə atmışdı. Hərdən ondan bir tikə kəsib orağın dəstəyinə sarıyardı ki, əli qabar atmasın. Həşimin Salatından olan uşağı da neçə gün qabaq həmin dondan bir tikə kəsib cibinə qoymuşdu ki, lazım olar. İndi o, qırmızı parçanın kənarından lent enində cırıb qamışın suya dəyən hissəsindən bir qarış yuxarıya doladı və bərk-bərk bağladı. Həşimin Salatından olan uşağı ona görə belə edirdi ki, qamışlıqdan çıxanda onu başqa qamışlarla dəyişik salmasın.

Artıq Məşədi Qafarın nəvəsi bir neçə addım qamışlığın içinə girmişdi. O, bu dəfə qeyri-ixtiyari olaraq ilanı gördükləri tərəfə deyil, əks tərəfə gedirdi. Əslində hansı tərəfə gedəcəkləri barədə heç məsləhətləşməmişdilər. Görünür, ikisi də səmti dəyişməyi ürəyində fikirləşmişdi.

Onlar qamışları aralayır və qamışların suya dəyən ayaqlarına baxa-baxa qabağa gedirdilər. Həşimin Salatından olan uşağı öz-özünə fikirləşirdi ki, camışlar burada günortalar yatanda zəli əlindən tərpənmək olmurdu. Zalımın balaları indi elə bil yoxa çıxıblar. Hara itdi bu zəlilər? Bəlkə, elə camışların iyinə gəlib çoxalırmışlar? Ya da ki, keçən il payızda Ağköynəkli qamışlığa od vuranda hamısı yanıb qurtarıb? Yox, bu olan iş deyil, qamışa od vurulanda zəlilər suyun altına cumurlar və salamat qalırlar.

Sonra da fikirləşdi ki, Zəhra arvad həmişə deyərdi: “Hər meyvənin öz ili olduğu kimi, zəlinin də ili var. Bir il tapılanda, o biri il göyə çəkilir”. Bəlkə, bu il zəlinin ili deyil?!

Bu zaman Məşədi Qafarın nəvəsi ucadan dedi ki, bura gəl! Həşimin Salatından olan uşağı da elə bildi ki, Məşədi Qafarın nəvəsi zəli tapıb. Onun yadına heç ilan-çayan düşmədi. Məşədi Qafarın nəvəsinə tərəf getdi. Gördü ki, Məşədi Qafarın nəvəsi bir qamışın lap yuxarısını göstərir. Qamışın lap yuxarısında arı pətəyi vardı, üstündə də arılar qıjhaqıj qıjıldaşırdılar. Elə bu vaxt Məşədi Qafarın nəvəsi dilləndi:

– Mən bu arı pətəyini yuxuda görmüşdüm. Ancaq bir fərqi var ki, mənim gördüyüm arı pətəyi qonşunun çəpərinin üstündən bizə tərəf uzanan üzüm tənəyinin üstündəydi.

Zəli tapmaq yaddan çıxdı. Uşaqlar diqqətlə arı pətəyinə baxmağa başladılar. Arılar gah yuxarı qalxır, gah da aşağı enirdilər. Əməlli-başlı duyuq düşmüşdülər. Azca keçmişdi ki, pətəyin üstündəki arılar vızhavız uşaqlara tərəf uçmağa başladılar. Uşaqlar əlləri ilə arıları sağa-sola qovurdular. Məşədi Qafarın nəvəsi dedi ki, gəl pətəyi vurub suya salaq, yoxsa bunlar bizi sitar qoymayacaq. Həşimin Salatından olan uşağı ona cavab verdi:

– Yox, Allahın heyvanıdı, niyə öldürək ki? Keçib başqa tərəfdən zəli axtararıq.

Bu sözdən sonra onlar səmtlərini dəyişib yenə qabağa getməyə başladılar. Azca getmişdilər ki, bir arı şığıyıb Məşədi Qafarın nəvəsinin düz boynundan sancdı. Məşədi Qafarın nəvəsi "vay" deyib əlini boynuna apardı. Qamışlığın kənarından Məşədi Qafarın nəvəsinin havarına Tanrıverdinin oğlu hay verdi:

– Nə oldu? İlan çalmadı ki?

Məşədi Qafarın nəvəsinin heyi yox idi. Əvəzində Həşimin Salatından olan uşağı cavab verdi ki, narahat olma, ilan deyil, arı vurdu. Sonra da iki baş barmağını aparıb arının sancdığı yeri bərk sıxdı. Sıxılan yerdən bir damcı su çıxdı. Aşağı əyilib qamışların dibindən bir azca palçıq götürdü. Onu əlində əvvəlcə yumruladı, sonra da yastılayıb arı sancan yerə qoydu. Soyuq palçıq Məşədi Qafarın nəvəsinə bir az rahatlıq gətirdi. O, azca qımışaraq dedi ki, elə mənim bayaq gördüyüm yuxu çin oldu. Yuxuda arı görmüşdüm, axırı o da gəlib məni sancdı.

Azca keçəndən sonra hər ikisi yenə qabağa doğru irəlilədilər. Məşədi Qafarın nəvəsi dedi ki, əşi, bu nə bəlaydı başımıza açdıq. Bizim də, deyəsən, ağlımız-huşumuz qaçıb. Düşmüşük qamışlığın canına ki, nədi-nədi zəli tapacağıq. Zəhra arvad da bizə ya bir-iki konfet verəcək, ya da kağızını. Dayımgilin üzüm-

lüyünə oğurluğa getsəydik, bundan min qat yaxşı olardı. Həşimin Salatından olan uşağı da dedi ki, mən daha ömrüm boyu oğurluğa getmərəm. Məşədi Qafarın nəvəsi niyəsini soruşdu, o da cavab verdi ki, anam ölən iliydi. Bir də eşitdik ki, qonşunun qızı həyətlərinin yanından axan çaydan iki su ördəyi tutub. Ördəklərin də ayaqlarına ip keçirib aparıb tövlələrindəki axurun yanındakı dirəyə bağlayıb. Qabaqlarına da köhnə bir çanaqda su qoyub. Mən də bilirdim ki, qonşunun uşaqları günorta istidə evə doluşub yatırlar. Eləməyib tənbəllik günorta vaxtı özümü tövləyə saldım. Gördüm ki, çox gözəl su ördəkləridir, baxanda adamın lap ağzının suyu axır. Ayaqlarına keçirilən ipləri yavaşca qırıb ördəkləri götürdüm. Oradan birbaşa dayımgilin üzümlüyünə gəldim. Ördəklərin ayaqlarındakı ipi üzüm tənəklərinin birinə ilişdirdim. Sonra da öz evimizə qayıtdım. Başımı atıb tutun kölgəsində yatdım.

Bundan bir-iki saat keçmişdi ki, qonşunun qızının səsinə oyandım. Qonşunun qızı bizim həyətdə düz atamın qabağında dayanıb ağlaya-ağlaya ona deyirdi ki, sənin oğlun mənim ördəklərimi oğurlayıb. Atam mənə tərs-tərs baxıb yanına çağırdı və hirslə soruşdu ki, ördəkləri harda gizlətmisən? Mən də atamın düz gözlərinin içinə baxıb-baxıb birdən şəstlə cavab verdim ki, ördəkləri dayımgilin üzümlüyünə bağlamışam.

Atam, qonşunun qızı və mən dayımgilin üzümlüyünə sarı yollandıq. Həyətimizdən o qədər də uzaq olmayan üzümlüyə çatanda atam soruşdu ki, ördəklərin yerini göstər. Mən də dinməz-söyləməz qabağa düşüb ördəklərin olduğu yerə getdim. Oraya çatanda atam ördəkləri görüb mənə dedi ki, onları aç, qıza ver. Mən də tövlədə olduğu kimi ördəklərin ayağına bağlanmış ipi qırdım və onları qonşunun qızına uzatdım. Qonşunun qızı ördəkləri alıb onları təzəcə tutmuş kimi sevinə-sevinə qaçdı. Bu vaxt atam yerdən bir çubuq götürüb düşdü mənim üstümə. Gördüm ki, iki-üç çubuqla atamın ürəyi soyumayacaq. Qaçmasam

da, vurub məni şil-küt eyləyəcək. Ona görə də çöllüyə tərəf üz qoydum. Mən qaçdıqca gördüm ki, atam da mənim dalımca gəlir. Onda üzümü döndərdim zəminin kənarındakı qəbiristanlığa. Özümü yetirdim nənəmin qəbrinin üstə və ora-burası sınmış başdaşından bərk-bərk yapışdım. Atam qəbrin yanına çatanda çubuğu əlindən yerə tulladı və mənə qəzəblə dedi ki, bir də oğurluq eləsən səni öldürəcəyəm.

Məşədi Qafarın nəvəsi bu söhbətə qulaq asıb əlini yellədi və dedi ki, qorxub eləmə, atan səni öldürməyəcək. Bu sözdən sonra Məşədi Qafarın nəvəsi ayağını şappıldadıb dayandı. Həşimin Salatından olan uşağı gördü ki, onun gözləri az qalır hədəqəsindən çıxa. Məşədi Qafarın nəvəsi barmağını ayağına tərəf suya uzatdı və "barmaqlarımın ucu yumşaq bir şeyə dəyir", – dedi. Onlar xeyli bir-birlərinin üzünə baxdılar. Həşimin Salatından olan uşağı soruşdu ki, tərpənir, ya tərpənmir. O da başını bulayaraq "yox" işarəsi verdi.

Həşimin Salatından olan uşağı Məşədi Qafarın nəvəsinin yanına gəldi və əlini onun sağ qıçına qoyub qıçının üstü ilə yavaş-yavaş aşağı sürüşdürdü. Suyun içində əlini onun ayaq barmaqlarına tərəf apardı və barmaqları yavaşca yumşaq bir şeyə toxundu. Yumşaq olan bu şey ona xoş gəldi və ürəyindən də keçdi ki, nəsə çox tanış bir şeydi. Amma əli suyun içində olanda nə qədər fikirləşdi, yadına heç nə düşmədi. Sonra Məşədi Qafarın nəvəsinə işarə elədi ki, ayağını geri çək! Məşədi Qafarın nəvəsi də ayağını yavaşca geri çəkdi.

O, barmaqlarını yumşaq şeyin altından salıb bərk-bərk tutdu və yuxarı qaldırmaq istədi. Başa düşdü ki, nədirsə palçığa batıb. Sonra o biri əlini də suyun altına salıb iki əlli tutdu və güc verdi. Onun əlləri suyun üzünə qalxanda altı palçığa batmış və içi su ilə dolu uzunboğaz rezin çəkmə göründü.

Həşimin Salatından olan uşağı uzunboğaz çəkməni ağzı üstə əyib suyunu boşaltdı. Sonra sağ ovcu ilə çəkmənin üstünə

su töküb palçığını yumağa başladı. Tamam yuyub qurtarandan sonra çəkmənin o tərəf-bu tərəfinə diqqətlə baxdı. Əli ilə hər yerini yoxladı. Ağlına gəldi ki, yəqin deşilib su keçirdiyinə görə qamışlığa tullayıblar. Çəkmənin aşağısından başlayıb boğazının ağzına qədər hər yerinə barmağını basa-basa yoxladı. Heç bir cırıq-deşiyə rast gəlmədi. Arxayın olmaq üçün təmizlənmiş çəkmənin içinə su doldurub başı üstünə qaldırdı. Özü diqqətlə baxdı. Məşədi Qafarın nəvəsinə dedi ki, bax gör su tökülürmü? O da çəkməyə xeyli say salıb cavab verdi ki, heç yerindən su damcılamır. Onda Həşimin Salatından olan uşağını əməlli-başlı təəccüb götürdü. Anlaya bilmədi ki, bu təptəzə çəkməni qamışlığa kim və niyə atıb?

Onlar irəliyə hərəkət etdilər. Həşimin Salatından olan uşağı çəkməni suya atmamışdı, sağ əlində saxlamışdı. Elə bu vaxt Məşədi Qafarın nəvəsi dilləndi ki, bəlkə yenidən arı olan tərəfə qayıdaq, deyəsən, buralarda zəli tapmaq müşkül işdi. Həşimin Salatından olan uşağı da ürəyində fikirləşdi ki, niyə ilan gördüyümüz tərəfə yox, arılar uçan tərəfə? Heç bir söz demədi. Amma ona agah oldu ki, Məşədi Qafarın nəvəsi ilandan daha çox qorxub.

Uşaqlar sağa buruldular. Qamışların arasına yavaş-yavaş baxa-baxa yenə zəli axtarmağa başladılar. Məşədi Qafarın nəvəsi ürəyində deyindi ki, bu zəli də qəhət olub yoxa çıxıb. Dil bilmirlər ki, düdüləyib çağırasan, sənə tərəf gələ. Çörəkdən, pendirdən yemirlər ki, bir tikə atasan, başına yığışa. Balıq kimi soxulcana gəlmirlər ki, qazıb bir qutu qurd gətirəsən, qamışdan tilov düzəldib, ucuna bağlayıb bu bataqlığa atasan, özün də adam balası kimi üstü-başı tər-təmiz durasan kənarda.

Həşimin Salatından olan uşağının beynindən isə uzunboğaz çəkmə çıxmırdı ki, çıxmırdı. Fikirləşirdi ki, bu təptəzə çəkmə kimin olar? Axı Düyərlidə heç kəs təptəzə çəkməni suya tullamaz. Bəlkə, kimsə başqasının çəkməsini qəsdlə buraya atıb.

Yox, bu da ola bilməz. Çünki Düyərlidə uzunboğaz rezin çəkməni mal-heyvandan daha çox istəyirlər. Çünki su suvarmağa, ot xorumlamağa, qamış biçməyə uzunboğaz çəkmə lazımdır. Kənddə kimin ki elə bir çəkməsi yoxdur, deməli, yarımcan olub evdə qalmalıdı. Ona görə də hansı adamın çəkməsi yoxa çıxsaydı, elə həmin gün səhər-səhər naxır çölə gedəndə kəndin ortasında vur-həşir qopardı. Amma neçə vaxtdır ki, heç kəs cınqırını çıxartmayıb.

Bəlkə, kiminsə çəkməsinin bir tayı deşilib, o biri tayını da lazımsız bilib buraya gətirib tullayıb. Düyərlidə bu da olan iş deyil, çünki Düyərli camaatını o qədər korafəhm hesab etmək olmaz. Onlar həmişə çəkmənin cırılan tayını atıb, təzəsini ev damının bir küncünə qoyarlar. Bilirlər ki, nə vaxtsa lazım olacaq? Özləri də deyərlər ki, saxla samanı, gələr zamanı.

Birdən Məşədi Qafarın nəvəsi gücü gəldikcə qışqırdı. Bu qışqırıq əvvəlki qışqırıqlara qətiyyən oxşamırdı. Dərənin döşündə oturan Tanrıverdinin oğlu da bu səsə dik atılıb qamışlığa tərəf boylandı.

Həşimin Salatından olan uşağı tez Məşədi Qafarın nəvəsinə yaxınlaşdı. Gördü ki, Məşədi Qafarın nəvəsi sol əli ilə qamışlardan yapışıb, sağ əli ilə də yuxarı qaldırdığı sağ ayağını bərk-bərk tutub. Məşədi Qafarın nəvəsi dedi ki, ayağımın altı kəsilib. Nəydisə ayağımı elə doğradı ki, ağlım başımdan çıxdı.

Həşimin Salatından olan uşağı gördü ki, suyun üzünü qıpqırmızı qan bürüyür. Heç bir söz demədən onun sağ qolunu boynundan aşırıb çiynini qoltuğunun altına dayaq elədi. Onlar yavaş-yavaş qamışlığın kənarına tərəf addımlamağa başladılar. Çətin də olsa, qamışların arasıyla birtəhər yeriyirdilər. Başa düşürdülər ki, qamışlıqdan tez çıxmaq lazımdır, yoxsa qanı saxlamaq olmayacaq.

Onlar qamışlığı çıxhaçıxda Tanrıverdinin oğlu kömək eləmək üçün əlini irəli uzatdı. O, Həşimin Salatından olan uşağı ilə

köməkləşib Məşədi Qafarın nəvəsini göy otun üstündə oturtdu. Sonra sağ ayağının altına baxdılar və gördülər ki, baş barmağın pəncəyə tərəf olan hissəsi əməlli-başlı kəsilib. Əvvəlcə elə zənn etdilər ki, onun ayağını çoxdan biçilmiş qamışların kötüyü kəsib. Buna Düyərlidə "qələm vurmaq" deyərdilər. Amma iş orasındadır ki, çox vaxt ayaq barmaqlarının arasını vurardı. Bu kəsik isə tamam başqa kəsik idi. Əslində qırıq şüşənin kəsməyinə də heç oxşamırdı.

Həşimin Salatından olan uşağının xəyalından keçdi ki, Məşədi Qafarın nəvəsinin ayağını ya bıçaq kəsib, ya da oraq. Sonra da içində təəssüflənməyə başladı. Təəssüfləndi ki, gərək əl atıb suyun içinə baxaydım. Daha gecdir. Bundan sonra həmin yeri tapmaq zəli axtarmaq kimi çətin bir işdi.

Onlar yaranı əllə nə qədər sıxdılarsa, qan dayanmadı. Tanrıverdinin oğlu quru torpaq götürüb kəsilən yerin üstünə tökdü. Heç yarımca dəqiqi keçməmiş qan torpağı yaşardıb üstə qalxdı.

Həşimin Salatından olan uşağı soruşdu ki, kibrit varmı? Tanrıverdinin oğlu da cavab verdi ki, məndə var, səhər ocağı yandıranda yadımdan çıxıb cibimdə qalıb.

Həşimin Salatından olan uşağı köynəyini çıxarıb ətəyindən bir enli zolaq cırdı. Onun da lap kiçik hissəsini dartıb qopardı və içinə zəli saldıqları bankanın qapağının üstünə qoydu. Kibrit çöpünü çəkib onu yandırdı. Yanıb kül olmuş parçanı kəsilən yerə qoydu və qalan parça ilə Məşədi Qafarın nəvəsinin ayağının yarasını bərk-bərk sarıdı. Bir az da durub diqqətlə baxdılar. Qan tamam kəsildi. Yenə də hər üçü rahat nəfəs alıb göy otun üstündə oturdu.

Tanrıverdinin oğlu yavaşca dilləndi:

– Gərək bayaq mənim kimi siz də getməyəydiniz. Elə bilirsiniz ilandan-çayandan qorxuram? Yox! Ürəyimə dammışdı ki, nəsə olacaq!

Məşədi Qafarın nəvəsi də cavab verdi:

– Həmişə babam deyərdi ki, olacağa çarə yoxdur. Buna da şükr eyləmək lazımdır.

Həşimin Salatından olan uşağı dillənmədi. Tanrıverdinin oğlu dedi:

– Zəhra arvadın da elə bil kefi durub. Niyə başqası xəstələnəndə zəli istəmir? Zəlisi olmayanlar ölürlər?

Məşədi Qafarın nəvəsi cavab verdi:

– Nə eləmək olar? Ağbirçək arvaddır, ürəyi istəyir, gərək biz də tapıb aparaq. Həmişə babam deyərdi ki, istəyənin bir üzü qara, verməyənin iki üzü!

Həşimin Salatından olan uşağı dillənmədi. Tanrıverdinin oğlu dedi:

– Yaxşı, indi tutduğumuz bu bir zəlini aparıb Zəhra arvada verdik. Axı bundan nə çıxar? Özü də deyəcək ki, bığ yeri tərləmiş üç adamın tutduğu zəliyə bax!

Məşədi Qafarın nəvəsi cavab verdi:

– İndi neyləyək? Özümüzü öldürməyəcəyik ki?! Babam həmişə deyərdi ki, lənət heçə!

Uşaqlar söhbətlərini kəsib yavaşca uzandılar.

Həşimin Salatından olan uşağı dillənmədi.

O da arxasını verdi yerə. Əllərini daraqlayıb başının altına qoydu, gözlərini də yumdu.

Həşimin Salatından olan uşağı əslində yatıb bir az dincəlmək istəyirdi. Amma özü də bilirdi ki, gözlərinə yuxu getməyəcək. Zəli tutmaq onun yadından tamam çıxmışdı. Fikri-zikri uzunboğaz çəkmə ilə Məşədi Qafarın nəvəsinin ayağının kəsilməsinin yanında qalmışdı. Birdən atasının bir rus soldatından uzunboğaz rezin çəkmə alması onun yadına düşdü.

Bir vaxtlar dükan-bazardan uzunboğaz rezin çəkmə tapmaq yayda qar tapmaq kimi bir şey idi. Biri kənddən qırağa çıxanda üç-dörd nəfər kişi bir ağızdan ona tapşırardı ki, harda çəkmə görsən, bizə də al gətir. Kənddən qırağa çıxan adam da

heç onların ayağının ölçüsünü soruşmazdı. Çünki Düyərlinin bütün başı papaqlıları bir-birlərinin ayağının ölçüsünü əzbər bilərdilər. Hətta kəndin ortasında adamların kefi durub zarafat eyləyəndə bəzən ayaqlarının ölçüləri ilə zarafatlaşardılar.

Uzunboğaz rezin çəkmə tapılmayan vaxtların birində Həşim evdən iki-üç lavaş, azca pendir, göy-göyərti götürüb ədəb-ərkanla qəzetə bükür. Qadınların Araza suya getməsinə xeyli qalmış tikanlı simlər çəkilən sərhədə tərəf gedir. Həmişə axşamüstü iki rus soldatı əvvəlcədən gəlib sərhəddəki bir adamın zorla keçə biləcəyi qapının yanında durardı. Həşim də həmin soldatlara yaxınlaşıb "zdrasti" deyəndən sonra lavaş-pendir, göy-göyərti bükdüyü qəzeti onlara uzadardı. Onlar da alıb Həşimə "spasibo" deyərdilər. Sonra Həşim rusca yalampıştan qırıldada-qırıldada onlara birtəhər başa salardı ki, mənə uzunboğaz rezin çəkmə lazımdır. Onlar da öz aralarında nəsə danışardılar və Həşimə bircə kəlmə deyərdilər:

– Posle zavtra.

Həşim kəndə qayıdar. İki gündən sonra yenə bir qəzet arası pendir-lavaş, göy-göyərti götürüb sərhədə gedər. Görər ki, yenə həmin əsgərlərdir. Bu dəfə də onlar Həşimə bircə kəlmə deyərlər:

– Posle zavtra.

Həşim bu dəfə kəndə dönəndə bir az naümid olur. Fikirləşir ki, deyəsən, düzələn işə oxşamır. Amma iki gündən sonra Həşim bir də tənbəllik eləməyib pendir-lavaş, göy-göyərti götürüb axşamçağı sərhədə yollanır. Əsgərlər Həşimi uzaqdan görən kimi tanıyırlar və ucadan deyirlər:

– İdi syuda!

– İdi syuda!

Həşimin o dəqiqə ürəyinə damır ki, deyəsən, iş düzəlib. Doğrudan da, elə sərhədə çatan kimi əsgərlərin biri qəzetə bərk-bərk bükülmüş uzunboğaz rezin çəkmələri ona uzadır. Neçə gün

əvvəlcədən qatlayıb burun dəsmalının içinə qoyduğu kağız pulu elə həmin əsgərin cibinə basır. Evə gələndə isə Salatına da, uşaqlara da qatı açılmaz bir sirr kimi tapşırır ki, bu məsələdən heç kəs xəbər tutmamalıdır.

Həşimin Salatından olan uşağı həmin əhvalatı xatırlayıb ürəyində öz-özünə dedi ki, bəlkə, elə qamışlıqdan tapılan çəkmə atasının rus əsgərlərindən aldığı həmin uzunboğaz çəkmənin tayıdır? Dalısıca da düşündü ki, ola bilməz! Çünki həmin uzunboğaz rezin çəkmələr hələ də evdə təptəzə durur. Əgər çəkmənin bir tayı cırılsaydı, atam onu mənə verərdi ki, apar tulla. Belə bir əhvalat heç vaxt olmayıb. Yaxud, allah eləməsin çəkmənin başına xoşagəlməz bir iş gəlsəydi, atam səhərdən axşama qədər dayanmadan deyinərdi. Çəkmədən ötrü atamın hövsələdən çıxıb deyinməyi də qətiyyən yadıma düşmür.

Elə bu vaxt onun qulağına yüngül bir xışıltı gəldi. Bir az da diqqət verdi görsün ki, bəlkə elə-belə səsdir. Amma yanılmamışdı. Nə idisə, sürünə-sürünə gəlirdi. Çiynini bir az dikəltdi, düz qabağa baxdı və heç nə görmədi. Sonra yerində oturdu. Birdən gördü ki, ana tısbağa qabaqda, bala tısbağa da arxasınca az qalırlar zəli olan bankanın yanına çatalar. Yavaşca ayağa qalxıb tısbağaların yanına gəldi. Hər iki tısbağa onun gəlişini hiss edib yan-yana dayandılar. O da üzünü ana tısbağaya tutub dedi:

– Ay Allahın heyvanı, sənin burada nə işin var? Olmaya zəlidən ötrü bizlə davaya çıxacaqsan?

Sonra tənbəllik eləməyib ayağı ilə ana tısbağanı arxası üstə çevirdi. Bala tısbağa bunu görüb geriyə döndü və qamışlığa tərəf qaçmağa başladı. O, bala tısbağanın da qabağını kəsdi və ayağı ilə itələyə-itələyə ana tısbağanın yanına gətirdi. Eyni qayda ilə onu da çanağı üstə çevirdi. Hər ikisinə barmağını silkib dedi:

– O çəkmənin kimin olduğunu mənə deməsəniz ikinizi də öldürəcəyəm!

Qeyri-ixtiyari dediyi bu sözlərə özünün də gülməyi tutdu.

Elə bu vaxt Tanrıverdinin oğlu başını qaldırmadan ucadan dedi:

– Durun hazırlaşın, gedəyin. Gün əməlli-başlı əyilib. Quzuların çölə çıxan vaxtıdır.

Həşimin Salatından olan uşağı tez cavab verdi ki, bir az da dincəlin, gedərik.

Həşimin Salatından olan uşağı tısbağaları eləcə qoyub qamışlığın qırağına gəldi. Yavaşca yerə oturdu. Əvvəlcə şalvarının sol qıçını dizə qədər çirmələdi. Sonra da şalvarının sağ qıçına əl atanda gözü yamağa sataşdı. Bu yamaq anasının vurduğu yamaq idi. Araza düşüb boğulmamışdan on-on beş gün qabaq tikmişdi. Əslində bu yamağı yaxından və çox diqqətlə baxmadan seçmək mümkün deyildi. Uşağın ağlından keçdi ki, anam çox səliqəli arvad idi. Atam hərdən anamı lağa qoyub deyərdi ki, Salatının gördüyü işdən gül iyi gəlir. Əslində lağlağısız-filansız, doğrudan da, elə belə idi.

O, şalvarın sağ qıçının yamağına baxa-baxa onu da dizə qədər qatladı. Yamaq tamam görünməz oldu. Sonra ayağa qalxdı və ehtiyatla qamışlığın içinə düşdü. Məşədi Qafarın nəvəsi ilə Tanrıverdinin oğlu durub onu görsəydilər, yəqin, elə bilərdilər ki, Həşimin Salatından olan uşağı qamışlığın içində zəli axtarır. Əslində isə Həşimin Salatından olan uşağı zəli axtarmırdı. O, Məşədi Qafarın nəvəsinin ayağının kəsildiyi yerə tərəf gedirdi. Özü də ürəyində fikirləşirdi ki, görəsən, həmin yeri tapa biləcəyəmmi?

Uşaq xeyli gedib bir topa qamışlığın yanında dayandı. Əvvəlcə sağa-sola baxdı ki, yadında qalan nişanə qamış varmı? Xeyli nəzər yetirdi, amma heç nəyi xatırlaya bilmədi.

O, aşağı əyilib iki əlini də suyun dibinə saldı. Əllərini suyun dibindəki palçığın üstündə gəzdirməyə başladı. O tərəf-bu tərəfə nə qədər hərəkət elətdirdisə, əlinə heç nə dəymədi. Sonra belini düzəltdi. Gördü ki, ətrafdakı su əməlli-başlı bulanıb.

Həşimin Salatından olan uşağı qabağa üç-dörd addım atıb dayandı. Sağa-sola baxdı. Tanış heç nə görmədi. Yenə əllərini suyun altına salıb palçığın üstündə gəzdirdi. Əlinə bir-iki çör-çöpdən başqa heç nə dəymədi.

Əvvəlki kimi belini düzəltdi və gördü ki, burada da su əməlli-başlı bulanıb.

O, bir azca sola göz gəzdirdi. Orada bir neçə qamış ortadan sınmışdı. Ağlına gəldi ki, bəlkə, bayaq Məşədi Qafarın nəvəsi əli ilə qamışları tutanda sındırıb?

Yavaş-yavaş qırılmış qamışların yanına tərəf addımladı. Oraya çatanda əvvəlcə qırıq qamışlara baxdı. Amma ağlı bir şey kəsmədi. Naəlac qalıb yenə əllərini suyun altına salıb palçığın üstündə gəzdirdi. Heç nə tapa bilmədi və belini düzəltdi. Suyun bulanmağından çox, indi onun diqqətini çəkən dizə qədər qatlanmış şalvarının islanması oldu və tezcə də belə qərara gəldi ki, həmin yer bura deyil. Çünki bura əvvəlki yerlərdən dərindir.

Həşimin Salatından olan uşağı qəflətən öz-özünə "cəhənnəm olsun, bir az da zəli axtarım", – dedi. Beş-on qamışın dibinə baxdı, zəli tapa bilmədi. Birdən gözləri qarşıdakı əyilmiş qamışın üstündə oturmuş yamyaşıl qurbağaya sataşdı. Fikirləşdi ki, yaşıl qurbağaya niyə "seyid qurbağası" deyirlər və heç bir cavab tapa bilmədi. Yanında dümdüz suya sancılmış çubuğu götürüb qurbağaya tərəf uzatdı. Çubuğu qurbağaya vurmadan bir-iki dəfə yellətdi. Qurbağa heç vecinə almadı. Yenə matdım-matdım ona baxdı. Qurbağanın gözlərində bir az da yazıqlıq göründü. Birdən ağlına gəldi ki, bəlkə, yaxınlıqda ilan var, ona görə qorxudan tullanıb qamışın üstə oturub. Bu fikirdən narahat olmağa başladı və ətrafına diqqətlə nəzər saldı. Elə bu vaxt qurbağa tullanıb suya düşdü, onun da narahatlığı qurbağanın suya tullanması ilə yoxa çıxdı.

Həşimin Salatından olan uşağı qəflətən qərara gəldi ki, bayaq ilanı gördüyüm yerə gedəcəyəm. O, əlindəki çubuğu atmamışdı və bu çubuq elə bil ona güc verirdi.

Bir neçə addım o istiqamətə irəlilədi. Amma bu dəfə ciddi cəhdlə zəli axtarmağa başladı. Ona elə bir həvəs gəldi ki, özü də məəttəl qaldı. Həm də daxilən inandı ki, mütləq bir neçə zəli tapacaqdır. Gözlərinin qabağına Zəhra arvad gəldi. Xəyalından keçdi ki, zəliləri görən kimi onun boynunu qucaqlayacaq və hamının eşidə biləcəyi gur səslə "sən rəhmətlik Salatının ağıllı balasısan", – deyəcək.

Birdən gözləri qarşıdakı qamışın üstünə qonmuş çəyirtkəyə sataşdı. Çəyirtkə qamışın üstdə başı yuxarı dayanmışdı, arxası isə ona tərəf idi. Amma ən maraqlısı bu idi ki, çəyirtkənin də üstünə qırmızı, yaşıl çilləri olan bir kəpənək qonmuşdu. Ağlına haradan gəldisə, zümzümə eləməyə başladı:

– Ay dili-dili, ay dili-dili Diloşdu.

Çəyirtkə də elə bunu eşidib üzünü ona tərəf döndərmədən qəribə bir səs çıxardı. Kəpənək də bu səsdən heç qorxmayıb onun üstündən uçmadı. O, ürəyində sevindi ki, kəpənək olmasa da, deyəsən, çəyirtkə onu başa düşüb. Bu vaxt astadan bir də zümzümə eləməyə başladı:

– Ay dili-dili, ay dili-dili Diloşdu!

Sonra dayandı. Gözlədi ki, çəyirtkə ona cavab verəcək, ya yox? Elə bir az keçməmiş çəyirtkə yenə həmin səsi çıxartdı və onun başının üstündən tullanıb arxadakı qamışın üzərinə qondu. Kəpənək da uçub uzaqlaşdı. Bir anlığa öz-özünə sual verdi ki, bu qonşunun qızı Diloş haradan onun ağlına gəldi?

Daha çəyirtkəyə fikir vermədi. Yenə də qamışları aralaya-aralaya aşağılara göz gəzdirirdi, Allaha yalvarırdı ki, barı bir-iki zəli tapsın. Zəhra arvadın yanına üzüqara qayıtmasın.

Əlini atıb qamışların birindən yapışdı. Aşağıdan yuxarıya ona göz gəzdirdi. Sonra da yuxarıdan aşağıya diqqətlə süzdü.

Çəyirtkəni deyil, kəpənəyi yadına sala-sala qamışın hər tərəfini əli çatan yerə qədər yumağa başladı. Yuduqca qamış bir az da şümşadlaşır və ona ləzzət verirdi. Amma bu qamışı niyə belə əzizlədiyini heç özü də başa düşmədi.

Sonra qamışı başına buraxıb ayağını irəliyə atdı və o tərəf-bu tərəfə göz gəzdirib zəli axtarmağa davam etdi. Birdən ağlına gəldi ki, onun durduğu bu yer elə bil bayaq ilan olan yerdir. Amma onu da fikirləşdi ki, Məşədi Qafarın nəvəsinin ayağının kəsildiyi yeri tapa bilmirsə, ilan olan yeri necə tapa bilər?

Yenə içindən bir gizilti keçdi. Gizilti ona deyirdi ki, sənin durduğun bu yer məhz elə ilan olan yerdir.

Həşimin Salatından olan uşağı dimdik, özü də tərpənmədən suyun içində, qamışların arasında qamış kimi şax dayandı. Əvvəlki halı yadına düşdü. Xatırladı ki, onda az qalırdı ürəyi dayansın. İndisə az qalır ürəyi partlasın. Burada ki, ilan-filan heç nə yoxdur! Bəs ona nə olub? Bəlkə, durduğu yerdə onu qara basır?

Necə oldusa anası yadına düşdü. Yenə tək armud ağacının yanına ot biçməyə getmişdilər. Anası ot biçməyə başlayanda öz-özünə dedi ki, bu gün gərək o qədər biçəm, sabahı da görsün. Sabah təndir salıb çörək yapmalıyam. Əslində bu sözləri o da eşitdi. Bəlkə də, Salatın bunları uşağa deyirdi. Deyirdi ki, uşaq çox işləyəcəyini əvvəlcədən bilsin!

Doğrudan da, həmin gün Salatın qırğıya dönmüşdü. Nə əlini görmək olurdu, nə də orağı. Salatın uşağa dedi ki, tez-tez daşı ki, qaranlığa qalmayaq. Qaranlığa qalsaq, atan yenə gözünü yumub, ağzını açacaq. Nə qədər gülməşəkər söz var, qabırğama döşəyəcək! Elə silib suvayacaq ki, heç bir tutarlı yerim qalmayacaq.

Həşimin Salatından olan uşağının yadına gəldi ki, qaş qaralmağa başlayırdı, amma anamın biçdiyi ot hələ də arabanın bir küncündə qalmışdı. Anam da arabaya yaxınlaşıb otun az olduğu-

nu görəndə narahatlığını gizlədə bilməyib açıqca dedi ki, iş belə getsə, sabah inək ac qalacaq, südü də quruyacaq!

Sonra Salatın o tərəf-bu tərəfə baxdı. Üzünü kəndə tərəf tutdu və gördü ki, gəlib gedən yoxdur. Heç kəsin görünmədiyinə tam əmin olandan sonra donunun ətəyini sol əlinə yığıb tək armudun yanından keçən su arxının o biri tərəfinə tullandı. Su arxının o biri tərəfi kolxozun yoncalığıydı. Bu il yonca elə gəlmişdi ki, bir az biçsəydin, araba ağzına qədər dolardı. Salatın ürəyində fikirləşdi ki, həyətdə əkirsən, zing qoyub becərirsən, heç belə yonca əmələ gəlmir. Vallah, bu kolxozun yaman bəxti var!

Həşimin Salatından olan uşağının yadına gəldi ki, onda anasının nə düşündüyünü deyə bilməsə də, özünü əməlli-başlı qara basırdı. Həmin gün yoncanı arabaya yığıb üstünü də otla örtüb evə gətirsələr də, çöldəki qarabasma uzun müddət onun ürəyindən çıxmadı.

Həşimin Salatından olan uşağı qamışlığın arasında dayanıb bir də fikirləşdi ki, deyəsən, bu qarabasma elə həmin qarabasmaya oxşayır. Sonra özünü toplayıb bir addım da qabağa atdı. Bu dəfə bağırtılı bir səs eşitdi. Elə bil kimsə onu adı ilə çağırdı: “Fariz!” Sonra hiss elədi ki, bu, deyəsən, onun anasının – Salatının səsiydi. Salatın sanki ona deyirdi: “İrəli getmə! Dayan!”

Yenə yerində dayandı. O tərəf-bu tərəfə baxdı, heç kimi görmədi. Diqqətlə qulaq asdı, daha heç nə eşitmədi. Səs-səmir yox idi. Bəs onda bu səs hardan gəldi? Bəlkə, doğrudan da, onu qara basır!?

Həşimin Salatından olan uşağı bir azca nəfəsini dərib sonra heç nəyə fikir vermədən daha inadla irəliyə getməyə başladı. Onun yadına nə zəli düşürdü, nə qonşunun qızı, nə də anası Salatın. Elə fikri-zikri irəli getmək idi. Getdi. Bir addım, iki addım, üç addım. Birdən ayağı nəyəsə ilişdi və dayandı. Başını

qaldırıb qarşıdakı qamışlara diqqətlə baxdı və tanıdı. O, qəti əmin oldu ki, ilanın durduğu yerdə dayanıb.

Bəs onda ayağına ilişən nəydi? Əvvəlcə ağlına gələn uzunboğaz rezin çəkmə oldu. Elə pıçıltıyla da dedi: “Yəqin, bayaqkı çəkmənin tayıdır”. Sonra da yavaşca əlini suyun altına salıb həmin şeyə toxundu. Tez də ürəyində dedi ki, yox, rezin çəkməyə oxşamır!

Həşimin Salatından olan uşağı suyun altındakını yavaşca qaldırmaq istədi. Hələ suyun üzərinə çıxarmamış hiss etdi ki, onun bir ucunu nəyəsə bağlayıblar. Yavaş-yavaş o biri ucunu qaldırdı və suyun üzünə çıxan kimi əlindən buraxdı. Özü də səndələyib böyrü üstə suya yıxıldı. Təngənəfəs adamlar kimi yavaşca qalxıb ölü kimi dayandı. Hiss etdi ki, rəngi ağappaq olub. Suyun altında olan meyidin əlini yuxarı qaldırmışdı.

Həşimin Salatından olan uşağı handan-hana özünə gəldi. Yavaşca geri çevrilib suyu şappıldada-şappıldada qamışlığın kənarına doğru addımlamağa başladı. Bu vaxt dərənin kənarından Tanrıverdinin oğlunun səsi eşidildi. O, qamışlığa üz tutub qışqırırdı ki, gəl gedək, quzuları otarmaq vaxtıdır. Həşimin Salatından olan uşağı cavab verə bilmədi, dil-dodağı qurumuşdu.

O gəlib qamışlığın kənarına çatdı. Məşədi Qafarın nəvəsi ilə Tanrıverdinin oğlu – hər ikisi ayaq üstə durub onu gözləyirdi. Zəli qoyulmuş banka Tanrıverdinin oğlunun, uzunboğaz rezin çəkmə isə Məşədi Qafarın nəvəsinin əlində idi. Məşədi Qafarın nəvəsi dedi:

– Hə, bir şey tapa bildin?

Həşimin Salatından olan uşağı heç bir cavab verməyib şalvarının ayağını aşağı salmağa başladı.

Tanrıverdinin oğlu da dilləndi:

– Biz getdik, sən də dalımızca gəl! Sonra da cavab gözləmədən və şalvarın, köynəyin niyə islandığını soruşmadan belə getməyə başladı. Həşimin Salatından olan uşağı da ətəyi cırılmış

yaş köynəyini, islanmış şalvarını çırpa-çırpa onların dalınca düşdü.

Heç on-on beş addım getməmişdilər ki, Həşimin Salatından olan uşağı qışqırdı.

– Dayanın, bu dəqiqə gəlirəm!

Bu sözlərdən sonra o, geri dönüb qamışlığa tərəf qaçdı. Uşaqlar da heyrətlə onun arxasınca baxıb gözləməyə məcbur oldular.

Həşimin Salatından olan uşağı qaça-qaça boynuna qırmızı parça bağladığı qamışın yanına gəldi. Əyilib qamışı dibindən qırmaq istədi, amma birdən dayandı. Belini düzəldib üzünü uşaqlara tərəf tutdu və sevinclə onlara əl edərək “bura gəlin” qışqırdı.

Uşaqlar da bu sözdən sonra onun yanına qaçdılar. Gəlib çatanda Həşimin Salatından olan uşağı barmağını qamışa tərəf uzadıb dedi:

– Zəli!

Məşədi Qafarın nəvəsi ilə Tanrıverdinin oğlu gördülər ki, qamışın üstündə qırmızı parçanın lap yaxınlığında iki zəli var. Hər ikisi “Ay can, ay can!” – deyərək sevincdən hoppanıb düşməyə başladılar.

Qoltuğunda uzunboğaz rezin çəkmə olan Məşədi Qafarın nəvəsi, içində üç zəlinin oynaşdığı bankanı əlində tutan Tanrıverdinin oğlu və tütək qayırmaq üçün şax bir qamışı çiyninə qoyan Həşimin Salatından olan uşağı az qalırdılar kəndə girsinlər.

Məşədi Qafarın nəvəsi qamışlığın kənarında uzanıb yatan vaxtı gördüyü yuxunu xatırlayırdı: “Babası dirilib gəlib onların həyətinə. Ona bir uzun ağac, bir də cırılmış köhnə əski uzadıb deyir ki, bu əskini ağacın başına dolayıb yandır və üzüm tənəyinin üstündəki arı pətəyinə od vur!”

Tanrıverdinin oğlu birinci sinifdə Tükəzə yazdığı sevgi məktubunu yadına salmışdı.

Həşimin Salatından olan uşağı isə doğulandan hələ çox-çox əvvəllər Arazın o tayına köçüb getmiş Müzəffər dayısının payızda kəndə qonaq gələn və qayıdıb gedərkən yoxa çıxan oğlu Təvəkkülün onunla çiling-ağac oynamasını gözünün qabağına gətirmişdi.

Onlar kəndin girəcəyində evlərin birinə çatanda ürək oxuyan adamlar kimi Qurban qabaqlarına çıxdı. Həşimin Salatından olan uşağı tez çiynindəki qamışı ona uzadıb dedi:

– Qurban dayı, sizin üçün gətirmişəm. Bu qamışdan yaxşı tütək çıxar. Amma istəyirəm ki, bu qamışdan düzəltdiyin tütəklə mənim havamı çalasan!

Qurban qamışın o tərəf-bu tərəfinə baxıb "sağ ol!" – dedi.

Bir az da getmişdilər ki, Nəcəfalının hasarının yanına çatdılar. Həşimin Salatından olan uşağı Məşədi Qafarın nəvəsindən uzunboğaz rezin çəkməni alıb hasarın üstündən üzümlüyə tulladı.

Zəhra arvadın evi kəndin o başında idi.

* * *

Onlar üç uşaq idilər: Məşədi Qafarın nəvəsi, Tanrıverdinin oğlu, Həşimin Salatından olan uşağı. Zəhra arvaddan aldıqları bir ovuc tut qurusunu ciblərinə töküb geri qayıdırdılar.

Bu vaxt Düyərlinin arvadları bir-bir, iki-iki həyətlərdən çıxıb Araza su gətirməyə gedirdilər. Qurban böyrünü evlərinin divarına dayayıb Həşimin Salatından olan uşağının ona verdiyi qamışdan düzəltdiyi təzə tütəkdə yetimlik mahnısını çalırdı.

# VAĞZAL

## PROLOQ ƏVƏZI

Məşədi Vəli kişi sobanın yanındakı məxmər üzlüklü döşəkçənin üstündə oturub yastığı özünə tərəf çəkdi və böyrünü ehmalca əyib yastığa dirsəkləndi. Elə o dəm sobanın istisi kürəyinə vurdu və üşüməyi yadından çıxdı.

– Tutu, ay Tutu!

Tutu arvadın səsi gəlmədi.

Məşədi Vəli kişi bir az dikəlib oturduğu yerdəcə Tutu arvadın toxuduğu və ayağına təzəcə geydiyi yun corabı şalvarının altından görünən ağ tumanın üstünə dartdı. Sonra yenə səsləndi:

– Tutu, ay Tutu!

Tutu arvad içəri girdi:

– Nə olub, yenə səsini nə atmısan başına, ay qurumuş? Özünü elə yırtıb-dağıdırsan ki, elə bil ala dana naxırdan qaçıb!

– Ay Tutu, görüm səni kəndin arvadları ağlasın! Məni bəlaya saldın!

– Bu da mənim yaxşılığım! Səhər qancıq tayadan düşməmiş yuxuna haram qat, qazan-qazan su qızdır, bu qurumuşu çimizdir, kirini tök, əvəzində səni yamanlasınlar!

– Bu gecə sətəlcəm olmasam yaxşıdır!

– Niyə sətəlcəm olursan? Otur isti peçin başında, kəkotu çayından da iç! Sətəlcəm səndən qorxsun, sən niyə ondan qorxursan?

– O qədər kürəyimi sürtüb kirimi tökdün ki, indi elə bil əynimdə bir paltar azalıb. Nəsə birtəhərəm. Elə bilirəm sabah Sultan kişi gəlib yasinimi oxuyacaq.

– Ölməzsən! Səni dəyirmanın boğazına ölü salsan, diri çıxarsan! İndi harda olsa Baftalı Salahın nəvəsi də gələcək, kəfən yırtıb, gor eşməyə başlayacaqsan, axırda o uşağın da başını xarab

eyləyib lənət qazanacaqsan. Necə ki mənim başımı xarab eləyibsən!

Elə bu vaxt qapı cırıldadı. Cırıltı ilə eyni vaxtda Baftalı Salahın nəvəsinin səsi eşidildi:

– Ay Məşədi Vəli kişi, yatmısan?

– Gəl içəri, indi yatmaq vaxtı deyil, ay Baftalı Salahın nəvəsi!

Tutu nənə Məşədi Vəli kişinin eşidə biləcəyi pıçıltıyla dedi ki, adını çək, qulağını bur!

Baftalı Salahın nəvəsi içəri girib ədəb-ərkanla salam verdi və Məşədi Vəli kişinin yanında oturdu. Məşədi Vəli kişi Tutu nənənin üstünə kişiləndi ki, yeri bir stəkan çay gətir, uşaq da kəkotu çayının tamını dadsın.

Tutu nənə dinməz-söyləməz çay dalısınca getdi.

Baftalı Salahın nəvəsi dilləndi:

– Ay Məşədi Vəli kişi, gecə bir yuxu gördüm. Səhərə qədər o yuxu məni zinhar elədi. Nə qədər o tərəf-bu tərəfə vurnuxdum, bir şey anlaya bilmədim. Gördüm ki, üstündə qırmızı zolaqları olan yamyaşıl rəngli elektriçka kəndin düz ortasına gəlib çıxıb. Başında şlyapası olan bir nəfər də inəyin belinə minib elektriçkanın qabağını kəsib. Hamı matdım-matdım bunlara tamaşa eləyir, heç kəsdən də səs-səmir çıxmır.

– İnəyin belində oturan adamı tanıdın?

– Yox, tanıya bilmədim!

– Bəs inəyi necə? Tanıya bildinmi kimindir?

– Onu da tanıya bilmədim, ay Məşədi Vəli kişi?

– Amma mən öz zənnimlə o adamı da tanıdım, hələ istəsən inəyi də, ay Baftalı Salahın nəvəsi!

# 1.

Səhnə yuxudan qalxanda qonum-qonşudan heç kəs oyanmamışdı. O, həmişə belə bivaxt durar, axşamdan termosa tökdüyü çaydan bir stəkan süzər, çayın içinə üç-dörd dişdəm qənd atıb şirin eləyərdi. Sonra da qazıb yerə basdırdığı küpün içindəki ovma pendirdən yarım ovuc lavaşın arasına qoyub bir dürmək düzəldər, onu iştahla yeyər və dabanqırma evdən çıxardı.

Bu gün də evdən çıxanda qapının üstündə sallana-sallana qalan paslı qıfılı açarla ehmalca kilidlədi. Dönüb hündürlüyü qurşağına qədər çatan məhəccərdən aşağıya baxdı. Həyəti başdan-ayağa diqqətlə nəzərdən keçirdi. Neçə gün bundan qabaq yağan qardan əsər-əlamət qalmamışdı. Hasarın dibində ala-tala görünən ağ-ağ qar topaları da yoxa çıxmışdı. Dünən fikrinə gəlmişdi ki, nəvələri burada olsaydı, əlləri üşüyə-üşüyə qar topalarından götürüb həvəslə yeyəcəkdilər. Anaları da üstlərinə çığıracaqdı ki, atın yerə, xəstələnərsiniz. Ancaq birdən Səhnənin gözü gecənin ayazından şümşad olmuş və düz həyətin ortasıyla uzanan cığıra sataşdı. Ürəyindən keçdi ki, bu cığırla gedəndə qəfil sürüşüb yıxılsa, ona kim həyan duracaq? İndi adamlar xorhaxor yatırlar. Sübh namazına duranlar da bir-iki nəfər olar, ya olmaz. Lap sübh namazına duran olsun, onun Ağoşgilin həyətində nə işi var? Allah eləməsin, qolum qırılsa, ayağım sınsa, demək, yaman günlərim başladı. Ya məni götürüb qızgilə aparmalıdılar, ya da qız gəlib ta mən sağalanacan yanımda qalmalıdır. Qızın da gəlib burada oturmağı müşkül məsələdir.

Səhnə düşündü ki, ayağında yaxşı-yaman qaloşu var. Dədə-babadan da bəllidir ki, qışın oğlan çağında da qaloş heç vaxt sürüşüb sahibini bada verməz.

Amma bu qaloş köhnə qaloş idi. Bu qaloşu nə vaxt və haradan alıb evə gətirmişdilər. – Səhnənin yadında deyildi. Üstdən bir az cırılmışdı. Səhnə hər il qış başlayanda o qaloşu əzizləyə-

əzizləyə çarpayının altından çıxarar, o yan-bu yanına baxar, toz-torpağını silər, təmizləyər, cırıq yerini qara sapla çitəyər və qapının ağzına qoyardı ki, ayağına taxsın.

Səhnə düşündü ki, bu ilki qışı da köhnə qaloşla birtəhər ötüşdürdüm. Gələn ilə ya qismət!

Sonra da açara bağlanmış qırmızı zolaqlı ipi açarın üstünə doladı. O tərəf-bu tərəfə baxa-baxa aşağı əyildi, donunun ətəyini qaldırıb açarı corabının balağına qoydu.

O, açarın itməsindən yaman qorxardı. Amma özü də yaxşı bilirdi ki, qapının başqa bir açarı indi mal-qaraya həsrət qalan tövlənin pəncərəsinə qoyulmuş yekə daşın altındadır. Bu açarın yerini qızı da, oğlanları da yaxşı bilirdilər. Əslinə qalsa, açarın orada olması Ağoşun sağlığından bu evin qanun-qaydasına daxil idi. Çox qabaqlar Ağoş bir dəfə demişdi ki, evin açarlarından biri həmişə tövlədəki daşın altında qalmalıdır. İşdi-şayət qapı bağlı olsa, uşaqlar açarı oradan götürüb qapını açsınlar və bayırda qalmasınlar.

Səhnə pilləkənləri asta-asta yenib ayağını yerə təzəcə basmışdı ki, tövlədəki daşın altındakı açar yadına düşdü. Qəfil ölü görən adam kimi bədəni titrədi, dil-dodağı əsdi. Az qala ayağı da sürüşüb yerə dəyəcəkdi, amma cəld tərpənib əliylə pilləkənin dəmirindən tutdu. Öz-özünə dedi ki, ay Allah, bu nə işiydi mən düşdüm?! Sonra da Tanrıya alqış eylədi ki, bəs məni qurtaran da Sən özün oldun. Yoxsa yıxılıb şil-küt olacaqdım. Rəhmətliyin haradan ağlına gəlib ki, evin açarını aparıb daşın altına qoysun. Daş da, nə daş, yalan olmasın, bir putdan ağır gələr. Sənə nə deyim, ay Ağoş?

Evin açarı da daşın altında olar? Bəlkə elə başımıza ona görə daş düşüb. İl-ildən bəd gəlir, mən də quqqulu kimi qalmışam bu evdə tək-tənha. Elə bil qapısı-bacası bağlı bir türmədi. Mənə iş kəsiblər, yanıma çay-çörək gətirən də yoxdur. Evə qay-

ıdan kimi açarı götürəcəyəm o daşın altından. Bəlkə üzümüzə gün doğdu.

Səhnə özünə gəldi və yavaş-yavaş həyət qapısına doğru yollandı.

Şeytandı-nədisə özünü səhər-səhər təpmişdi Səhnənin ürəyinə. Səhnənin də bir ayağı gedirdi, o biri ayağı getmirdi. Fikirləşirdi ki, bəlkə elə indi gedib açarı daşın altından götürüm. Amma ağlına gəldi ki, rəhmətlik demişkən, uşaqlardan gələn olar, açarı tapa bilməz, bayırda qalar.

Həyət qapısına çatanda əlini qapının taxta dəstəyinə atmaq istəyirdi ki, nıx durub səksəndi. Amma qapı da yerindəydi, dəstək də. Hələ deməyəsən axşamdan diyirlədib qapının dalına qoyduğu iri daş da. Əslində Səhnəni səksəndirən elə həmin daş idi. Daşı görən kimi xəyalından keçdi ki, bəlkə heç açar yerində yoxdur. Neçə ay olar ki, bir dəfə də tövlədəki daşı qaldırıb altına baxmamışam. "Lənət şeytana", – deyib aşağı əyildi və daşı bir tərəfə itələdi, qapı taybatay açıldı.

Səhnə küçəyə çıxıb qapını örtdü, əl atıb yerdən götürdüyü yumşaq simi cəftənin halqasına keçirdi və yavaşca burdu. Gözü qapının yanında divara söykənmiş daşa sataşdı və fikirləşdi ki, Ağoş hərdən gecələr bu daşın üstündə oturub papiros çəkərdi. Evə qayıdanda da Səhnəyə bir kəlmə söz söyləməzdi. Səhnə də Ağoşdan heç nə soruşmazdı.

Səhnə sola burulub yerişini bir az yeyinlətdi. Başına bağladığı şal yaylığın bir ucunu bərk-bərk boynuna doladı. Bu şal yaylığı da bir vaxtlar Ağoş Səhnə üçün Urusetdən alıb gətirmişdi. Özü də gətirəndə demişdi ki, möhkəmliyinə söz ola bilməz. Bir yerə ilişib-eləsə də cırılan deyil. Ömrünün axırına qədər bəsindi. Səhnə dodağının altında pıçıldadı ki, görəsən Ağoş hardan bilirdi ki, bu şal yaylıq ömürlük mənimlə olacaq. Ta indi kimin yadına düşürəm ki, təzə bir yaylıq alıb mənə gətirsin?!

Sonra da gözü əynindəki pencəyin yaxasına sataşdı. Deyəsən, azca kirlənmişdi. Bu pencək də böyük oğlunun evdə qalan pencəyi idi. Amma ona yaman yaraşırdı. Elə bil pencək Səhnənin boyuna biçilmişdi. Səhnə olan bəndə heç vaxt fikirləşməmişdi ki, kənardan baxanda düymələr pencəyin kişi üçün olduğunu açıqca bildirir. Bircə təsəllisi vardı ki, əynimdə yaxşı durur, bəsimdi!

Səhnə əlini saldı pencəyin sol cibinə. Barmaqlarının ucları qapı açarına dəydi. Vağzalın rəisi kabinetin bir açarını ona vermişdi və indi Səhnənin barmaqlarının dəydiyi həmin açar idi. Səhnə də həmişə bu açardan daha çox narahat olardı. İndi də ürəyinə gəlmişdi ki, birdən açar düşüb itər. Yenə fikirləşdi ki, açar niyə düşüb itməlidir. Evdə uşaq-muşaq da yoxdu ki, əlini atıb pencəyin cibindən onu çıxartsın. Uşaq-muşaq olsaydı, açarı heç pencəyin cibinə qoymazdım, quyruğuna bir ip bağlayıb boynumdan asardım.

Səhnə düşündü ki, Ağoşun sağ vaxtlarında kabinetin açarı bir dəfə də olsun onun əlinə dəyməyib. Ağoş heç vaxt açarı pencəyin cibindən çıxarıb evdəki stolun üstünə qoymazdı. Yayda pencək geyilməyən vaxtları isə açarı şalvarının cibinə qoyardı və evə girən kimi açarı şalvarının cibindən çıxarıb qapının ağzında şlyapasını asdığı asılqana keçirərdi. Mən də, uşaqlar da həmin açara əl vurmazdıq. Səhnə indiyə qədər bilmirdi ki, Ağoş kabinetin açarlarından birini süpürgəçiyə vermişdi, ya yox?

Xəyalından yenə qapının dalına qoyulmuş daş gəlib keçdi. Bu da elə Ağoşdan qalma idi. Ay balam, qapının da dalına daş qoyarlar? Daşla da qapını bağlayarlar? Hüseynqulunun satdığı şappan-şappan qıfıllara nə olmuşdu ki, birini alıb həyət qapısına vurmamışıq? Bəlkə elə həyət qapımız da başı daşlıdı, ona görə günümüz-dirriyimiz yoxdu? Evdən elə bil xeyir-bərəkət tamam çəkilib. Bəlkə fal açdırım, dua yazdırım? Mən yazıq başıma nə çarə qılım? İndi daş atıb başımı tutmayım, bəs nə eyləyim?

Səhnə yolu keçmək istəyirdi ki, tindən burulub sürətlə gələn avtobus siqnal verdi. Siqnal o qədər uzun oldu ki, dəmir yolunun üstündə mal-qaraya verilən qatarın fit səsinə oxşadı. Səhnə diksinib fikirdən ayrıldı və yolun kənarındakı kərpic divara tərəf çəkildi. Öz-özünə deyindi ki, zalımın balası nə həs qanır, nə də hüs. Ağzını açıb, gözünü yumub səhər-səhər o tərəf-bu tərəfə şütüyür. Evlərində bir böyüyü də yoxdu desin ki, bu maşını adam balası kimi sür. Qəfildən darvazadan yola bir uşaq çıxdı, sən də onu vurub bədbəxt elədin, camaata nə cavab verəcəksən? Məcbur olub onu-bunu iltmasa göndərəcəksən ki, tökülən qanı ortadan götürsünlər. Heç kəsin sözünə baxmayacaqlar, axırda gedib yapışacaqsınız Mirməhəmməd ağanın ətəyindən və yalvaracaqsınız ki, gəl bizi barışdır. O yazıq da naəlac qalıb ölü yiyəsinin qapısına gedəcək. Bu yaxşıdı, yoxsa adam balası kimi maşın sürmək?!

Ya uşaq olmadı bir it vurdun, pişik vurdun! Niyə vurasan? Axı onlar da Allahın heyvanıdı.

## 2.

Səhnə gəlib dəmiryoluna çatmışdı. Bir də gördü ki, Qəssab Əlinin oğlu üstüaçıq bir maşının yanında dayanıb. Sürücü maşını yavaş-yavaş sürərək maşının arxasını dəmiryolunun dikinə dayayırdı. Onda Səhnəyə agah oldu ki, deyəsən Qəssab Əlinin oğlu Düyərlidən rayon mərkəzinə kəsmək üçün dana gətirib. Elə belə də oldu. Maşının arxası yavaşca dikə dayandı. Buruntaxlı dananı maşının üstündən ehmalca itələyib dikə çıxartdılar. Sonra da dananı aşağı yendirib boynundakı ipini az qala maşının burnuna dayanan ağaca sarıdılar.

Qəssab Əlinin oğlu kənarda dayanmış Səhnəyə tərəf yaxınlaşdı:

– Ay Səhnə xala, necəsən? Urusetdən bir xəbər varmı? Uşaqlardan gəlib– eləyən yoxdu ki?

Səhnə bir-birinin ardınca yağan suallara cavab vermədi, Qəssab Əlinin oğluna tərəf yeridi, onun boynunu qucaqlayıb üzündən öpdü. Elə bil neçə il bundan qabaq itkin düşmüş ciyərparasını təzəcə tapmışdı. Bəlkə də oğlanlarından xəbər bilməyən Səhnə Qəssab Əlinin oğlundan öz uşaqlarının iyini alırdı. Səhnə soruşdu ki, kənddə nə var, nə yox? Camaat necə dolanır?

Qəssab Əlinin oğlu da hamının yaxşılığından danışdı, yenə Səhnənin uşaqlarını soruşdu. Səhnə də cavab verdi ki, öldü-qaldılarından xəbər yoxdu. Nə bir gələn var, nə də bir gedən! Barı bir parça kağız da yazmırlar ki, ürəyim sakitləşsin, nigaran qalmayım.

Qəssab Əlinin oğlu da bildirdi ki, inşallah sağ-salamat olarlar. Elə Urusetdə qalmaları yaxşıdı. Yəqin indi adam kimi yaşayırlar. Buradakı əkin-tikindən canları qurtarıb. Biz nə gün görürük ki, onlar da gəlib nə gün görələr? Bütün ili çöldə-bayırdayıq. Ot yığ, saman gətir, bir-iki dana bəslə, onu da kəsib dəyər-dəyməzinə sat!

Səhnə soruşdu ki, dananı niyə kənddə kəsməmisiniz? Qəssab Əlinin oğlu da cavab verdi ki, kənddə bu boyda cöngənin ətini alan kimdi! Hamının həyətində toyuğu-cücəsi, qoyunu-keçisi. Ürəyi ət istəyəndə o dəqiqə bıçağı qoyur birinin başına. Axı, kənddə kəsib satmağın nə xeyri? Qohum-qonşu, dost-tanış gəlib deyəcək ki, nisyə ver! Sonra nisyə yığmaqdan canımız çıxacaq. Qabaqdan da Novruz bayramı gəlir. Deyirəm bu cöngəni kəsib beş-üç manat çıxarsam, bayramı bir təhər sovuşdurarıq.

Səhnə nə fikirləşdisə, dedi ki, küftəlik yerindən bir kilo da mənə saxla, vağzaldan qayıdanda götürərəm. Əti götürəndə söhbət eləyərik, indi vağzala gecikirəm.

Səhnə yavaş-yavaş vağzala tərəf getməyə üz qoydu, Qəssab Əlinin oğlu da ürəyində düşündü ki, mən nisyələrdən qaçır-

dım, bu yandan da bir nisyə çıxdı! Adamın işi gətirməyəndə min əlac eləsən də xeyiri yoxdur.

Səhnə bir az getmişdi, geriyə dönüb, soruşdu ki, bəs qardaşın bu gün işə çıxacaq, ya yox?

O da cavab verdi ki, Mazan avtobusla gələcək.

Səhnə də dinmədi, dəmir yolunun relslərinin üstünə qalxdı. Əslinə qalsa bu axırıncı sualı elə-belə vermişdi. Onsuz da Mazan işə iki-üç gündən bir gəlirdi. Ağoş bibisi nəvəsi Mazana vağzalda çəkməçi butkası düzəldən ili Mazanın da işləri yaxşıydı. O vaxt Mazan bir-iki ay sıxıla-sıxıla işlədi. Elə ki, adamlara üz-gözü öyrəşdi, sıxılmaq da yaddan çıxdı. Hələ kənddəki cırıq-deşik başmaqları da torbaya doldurub yamamaq üçün vağzala gətirməyə başladı.

Mazanı hamı üzüyola adam kimi tanıyırdı. Danışıb-dinməyi də yox idi. Söz soruşmasan, ağzını açıb bir kəlmə danışmazdı. Elə bil Lal Bəhlul qalmışdı bir tərəfə, Mazan olmuşdu lal, qaradinməz. Anası da hərdən yandığından deyərdi ki, dilini Allah əlindon alıb, barı ağlını əlindən almayaydı.

Bu il qış girəndə Mazan özü Səhnəyə demişdi ki, qış ayaqqabılarından cırığı, söküyü varsa, gətir elə yamayım ki, birdəfəlik olsun. Ağlın başqalarının ayaqqabısına getməsin, səninkiləri təzə iynə, təzə sapla tikəcəyəm. Olacaq qət-təzə. Görənlər elə biləcəklər ki, dükandan indicə almısan.

Səhnə dilə gəlməmiş Mazan yenə demişdi ki, indi burada sənin kimin var, aparıb ayaqqabılarını yamadasan? Uşaqlar bir tikə çörəkdən ötrü düşüblər Urusetin canına. Ayaqqabılarını yamasam, uşaqlar gələndə mənə də heç olmasa ağızucu bir “sağ ol” deyərlər. Yoxsa gəlib görsələr ki, Səhnə cırıq ayaqqabı geyir, düşəcəklər mənim üstümə. Yekə oğlun var ha, çox qırmızı adamdı. Yeriyəcək mənə tərəf, çəmkirəcək ki, bəs anamın ayaqqabılarını görmürdün? Gözün kor idi? İynən, sapın əskik gələcəkdi? Başqalarının zir-zibilə batmış sürütdəmələrini az qalırsan

dilinlə yalayasan, anamın tərtəmiz ayaqqabılarına iki barmaq boyda yamaq vura bilmirdin? Düzdür, mən də məcbur olub cavab verəcəkdim ki, oradan üç-dörd cüt ayaqqabı alıb göndərə bilmirdin? Göndərsəydin pulun əskik gələcəkdi? Canın çıxacaqdı? Onlardan birini də heç olmazsa, anama aparardım.

Səhnə Mazanı çox danışmağa qoymamışdı. Bilirdi ki, danışsa uzağa gedəcək. Ürəyindəki kövrəkliyi hiss etdirmədən dedi ki, narahat olma, Mazan, ayaqqabılarımın cırığı-söküyü yoxdu. Sonra da ürəyində fikirləşdi ki, yəqin qaloşa vurduğum tikişi görüb, yoxsa Mazanın hardan yadına düşürdü mənim ayaqqabılarıma yamaq vurmaq.

Mazan son vaxtlar əməlli-başlı ustalaşmışdı – ayaqqabı yamamaqla bərabər, təzə ayaqqabılar da tikirdi. Xüsusən, yay vaxtı üstü deşik-deşik ayaqqabıdan ötrü Mazanın növbə dəftərinə yazılardılar. Mazan da gecəni gündüzə qatıb üstü deşikli ağ ayaqqabılardan hazırlayıb müştərilərini razılıqla yola salardı. Hələ bu ayaqqabılardan birini də vağzalın rəisinə tikmişdi. Rəis bir qəpik pul verməsə də, "sağ ol" deyib Mazanın könlünü almışdı.

Bir gün çaxır zavodunun direktoru tez-tez vağzalda dolaşan, ondan-bundan qəpik-quruş almaqla gününü keçirən Əngiəyri Şəmilin qolundan darta-darta Mazanın yanına gətirib şəstlə demişdi ki, o modnı ayaqqabılardan birini də Şəmilə tik, pulunu mən verəcəyəm. Sonra da gülə-gülə əlavə eləmişdi ki, vağzalın rəisi ilə Şəmilin ayaqqabıları bir olmalıdır! Şəmil də "hı, hı, hı" eləyə-eləyə barmağını zavod direktorunun ayağına uzadıb başa salmışdı ki, həmin ayaqqabıdan özünə zakaz ver! O da məsələni anlayıb Əngiəyri Şəmilin üstünə qışqırmışdı ki, ə köpəkoğlu, mənim ayaqqabılarım rəislə sənin ayaqqabılarından fərqlənməlidi, ya yox?!

Mazanın da çarəsi qalmamışdı, Əngiəyri Şəmilə bir ayaqqabı tikmişdi.

## 3.

Səhnə dəmiryolu relslərinə çatanda birdən gözü dəmiryolunun üstündə qurulan körpüyə sataşdı və yadına Dəllək Rəhim düşdü. Dəllək Rəhim Ağoşdan qabaq Səhnəni istəyirdi. Amma Dəllək Rəhimin dədəsini Səhnənin atası heç darvazadan içəri buraxmamışdı, demişdi ki, gedin başqa qapını döyün.

Dəllək Rəhim qonşu kənddə yaşayırdı. Ağ-ağ xalları olan bir eşşəyi var idi. Dəmir yolunun alt tərəfindəki kəndlərdə heç kəsin belə "sort" eşşəyi yox idi. Yüz eşşəyin içinə qatsaydın uzaqdan deyərdi ki, mən buradayam. Bu eşşəyin digər eşşəklərdən fərqi bir də ondaydı ki, o başını bir az yuxarı tutardı. Başını yuxarı tutmaqla elə bil adamlara demək istəyirdi ki, mənə eşşək deməyin. Amma dəmir yolunun üst tərəfindəki kəndin eşşəklərini görəndə adamı təəccüb bürüyürdü. Hamısı elə bil bir qəlibdən çıxmışdı, başlarını yuxarı qaldırmaqla araları yox idi. Əksinə, elə həmişə başları aşağı gəzərdilər.

Dəllək Rəhim hər gün səhər-səhər eşşəyi minib kəndlərə çıxar, axşam da şər qarışmamış evə qayıdardı. O, gündə bir kəndə gedərdi. Həftənin cümə günü isə Düyərliyə növbə çatardı.

Düyərlidə uşaqdan böyüyə hamı yaxşı bilirdi ki, həmin gün üz qırxdırmaq, baş vurdurmaq günüdür. Xüsusən, üzlərini qırxmağa tənbəllik eləyən yaşlı kişilər cüməni səbirsizliklə gözləyərdilər. Həftədə bircə dəfə üzlərini qırxdıran bu adamlara həftənin ən əziz günü elə cümənin özüydü.

Dəllək Rəhim Düyərlinin bir-iki kilometrliyində olanda hamı uzaqdan baxıb onu tanıyardı. O dəqiqə də kəndə səs yayılardı ki, bəs hazır olun, Dəllək Rəhim gəlir. Kişilər onun intizarını həyətlərində çəkərdilər, uşaqlar isə yola çıxıb Dəllək Rəhimin kəndə çatmasını səbirsizliklə gözləyərdilər. Uşaqlara ləzzət verən bircə şey vardı: Dəllək Rəhimin ayaqları o qədər uzun idi ki, eşşəyin üstündə oturanda ayaqları az qalırdı yerə dəysin. Uşaqlar da nə eşşəyə baxardılar, – nə də Dəllək Rəhimə. Onların

gözü Dəllək Rəhimin yerlə sürünən ayaqlarına dikilərdi. Son vaxtlar Dəllək Rəhim də duyuq düşmüşdü. Uşaqların onu maraqla süzmələrinin sirrini tapmışdı. Ona görə də kəndə girhagirdə Dəllək Rəhim eşşəkdən düşər, eşşəyin boynuna bağladığı kəndirdən tutar və kəndə piyada girərdi.

Dəllək Rəhim Düyərlinin birinci evindən başlayıb axırıncı evinədək baş çəkər, öz müştərilərinin qulluğunda canla-başla durardı. Onun canı-dildən qoruduğu bir ülgücüydü, bir də üstü mil-mil olan aptek butulkasına doldurduğu ağ sabun ovuntusu. Amma çox adam bilməzdi ki, aptek butulkasındakı ovuntunu Dəllək Rəhim evlərində özü hazırlayardı. Kim də soruşsaydı, deyərdi ki, ötən payız qatarla Urusetə gəzməyə gedəndə oradan alıb gətirmişəm, buralarda tapılan şey deyil.

Dəllək Rəhimin ən çətin qırxdığı üz Məşədi Vəlinin üzüydü. Gərək iki-üç dəfə ağ parçanı isti suya salıb Məşədi Vəlinin üzünü həmin parçayla isladaydı. Hələ islanmış parça da onun üzündəki tükləri tam yumşaltmazdı. Bundan sonra iki-üç dəfə də hazırlanmış sabunla onun üzündəki cod tükləri sabunlamalıydı. Ülgücü də tez-tez belinə bağladığı qayışının ucuna sürtərdi ki, itilənsin. Ülgüc kort olanda Məşədi Vəli Dəllək Rəhimin üzünə o ki var söyərdi. Dəllək Rəhim də nə ağ dinərdi, nə qara.

Dəllək Rəhim günorta vaxtı hansı evə çatdı, elə oradaca günorta çörəyini yeyərdi. Amma o, bu işin də ustasıydı. Çünki işini elə qurardı, elə sahmanlayardı ki, günorta vaxtı hərdən bir evin qonağı olardı. Bundan savayı o, ehtiyat pendir-lavaş da götürərdi. Yemək vaxtı qəzetə bükdüyü pendir-lavaşı sakitcə gətirib ev yiyəsinin süfrəsinin bir tərəfinə qoyardı.

Dəllək Rəhimin sənəti yalnız dəlləkliklə bitmirdi. O, üz qırxmaqdan, baş düzəltməkdən savayı başqa işləri də bacarardı. Məsələn, cürbəcür diş kəlbətinləri alıb evinə qoymuşdu, lazım gələndə onun-bunun dişini də çəkərdi. Rayon mərkəzinə əli çatmayanların hamısı arvadlarının dişini çəkdirmək üçün Dəllək

Rəhimin yanına gedərdilər. Dəllək Rəhim də tənbəllik eləmədən kəlbətinlərin birini götürüb düşərdi dişi ağrıyan arvadın dişlərinin üstünə. Bir də görərdin ki, ağrıyan diş yaddan çıxdı, sağlam dişi çıxardıb atdı bir tərəfə. Dəllək Rəhim ötən illərdə bu işi Səhnənin də başına gətirmişdi. Ağoş da Dəllək Rəhimin üzünə olmasa da, daldasınca o ki var söymüşdü.

Dəllək Rəhimin bir sevimli sənəti də var idi. Düyərlidə onun bu sənətinə "əhsən" deməyən az adam tapılardı. El-aləm bilirdi ki, Dəllək Rəhimin sünnət məsələsində əli yüngüldü, onun tayı-bərabəri yoxdu. Hamı bilirdi ki, kəsib atan kimi yerinə kül basar, sonra da "veş-meşokunu" yığışdırıb gedərdi. Gedəndə də deyərdi ki, qanaxma versə, kənddə olacağam, arxamca sifariş göndərərsiniz gəlib baxaram. Amma Dəllək Rəhim özünə çox arxayın idi. Bilirdi ki, dalısınca nə sifariş gələcək, nə də adam.

İllər dolandı, Dəllək Rəhim yeni bir peşənin də sahibi oldu. Elə ki Ağoş getdi oldu dəmiryol stansiyasının rəisi, Dəllək Rəhim də ya onun acığına, ya da öz xoşuna necə iş qurdu, necə alış-veriş elədi, bilmirəm, bütün rayonda sayılıb-seçilən prorab oldu və ən gözə dəyən tikintiləri onun ixtiyarına verdilər. Əvvəlcə Dəllək Rəhimə rayondakı mehmanxananın təmirini tapşırdılar, O da mehmanxananın birinci mərtəbəsində yerləşən dəlləkxanaya xüsusi maya qoydu. Gəlib buraya baxanlar dalda-bucaqda danışırdılar ki, yəqin özü üçün qurub – yaradır, prorablıqdan çıxan kimi eşşəyi də satıb burada dəlləklik eyləməyə başlayacaq.

İki-üç ay sonra Dəllək Rəhim rayon mərkəzində böyrü üstə yıxılan pekarnını ayaq üstə qaldırmışdı. Amma bircə əngəlli iş çıxmışdı: xəmir yoğrulan otağın su kranını aparıb müdirin kabinetinə qoymuşdular və bu da camaatı xeyli çaşdırmışdı. Camaat baş aça bilməmişdi ki, bu qəsdən olub, yoxsa naşılıqdan.

Və günlərin bir günü bütün rayona səs yayıldı ki, dəmiryolunun altından, ya da üstündən keçid düzəltmək üçün ispalkomdan xeyli pul ayrılıb. Bu pulu da veriblər Dəllək Rəhimin

ixtiyarına. Deyiblər ki, otur məsləhətləş, keçidi başla tikməyə. Dəllək Rəhim də məsləhətləşib-məsləhətləşməyib bilmirəm, deyib ki, keçidi dəmiryolunun üstündən tikəcəyəm. Əlavə də eləyib ki, qoy adamlar körpünün üstünə çıxanda rayonun bütöv mənzərəsinə tamaşa eləsinlər, ürəkləri açılsın. Ağoş da elə o vaxt işə qarışıb deyib ki, ay balam, bu rayonun şikəsti var, qocası var, arvad-uşağı var, onlar bu ucalıqda körpüyə necə çıxacaqlar? Keçidi dəmiryolunun altından salın. Hamı rahatca keçib getsin. Bunları eşidən Dəllək Rəhim də üzünü Ağoşa tərəf tutaraq səsinin tonunu gücü çatana qədər qaldırıb: Sən bilə-bilə keçidi yerin altından saldırmaq istəyirsən! İstəyirsən ki, adamlar dəmiryolunun yanında ucalan Leninin heykəlini görməsinlər!

Bununla da mübahisə-filan tamam kəsilib. Hərə gedib öz işinin dalısınca. Dəllək Rəhim də səhərisi gün canı-dildən işə başlayıb. Hələ bu harasıdır! Üç-dörd gündən sonra Dəllək Rəhim Ağoşun çığırmağına məhəl qoymadan vağzalda bir Dəllək butkası açdırıb, oğlu Məmişi do ədəb-ərkanla gətirib qoyub iş başına.

Körpünün tikilişi payızda başlayıb yayın cırhacırında başa çatır. El-aləmə xəbər yayılır ki, bəs filan gün filan saatda körpünün açılışı olacaq. Sübh tezdən kəndlərdən rayon mərkəzinə maşın-maşın, avtobus-avtobus adam axışıb gəlir. Amma həmin gün adamların yadında nə açılış qalır, nə də çıxışlar. Çünki Dəllək Rəhim də qarışıq hamını təəccüb götürür ki, bəs körpünün lap yuxarısına iki misralıq şeiri kim çıxıb yazıb? Doğrudan da, o yazını, texnikanın-filanın köməyi olmadan, körpünün yuxarı hissəsinə yazmaq çox müşkül işdi. Bu, indi də el-aləmə bir sirr olaraq qalır. Adamlar açılışdan dağılıb evlərinə gedəndə özləri ilə körpünün sevincindən çox, həmin iki misranı götürüb aparıblar:

Keçmə Dəllək körpüsündən,
Qoy vursun poezd səni.

Əslinə qalsa Dəllək Rəhim heç vaxt Səhnənin ürəyindən keçməmişdi. Səhnə Ağoşla bağrıbadaş idi. Hələ lap uşaqkən Novruz bayramında Ağoş həmişə Səhnəgilin evinə şal atardı. Həmin şalı da Səhnə rəngindən və zolağından tanıyar, sonra da anasının böyrünə qısılıb yavaşca deyərdi ki, sən Allah, ana, bu şala qırmızı yumurta bağla! Anası da dinməz-söyləməz Ağoşun şalına bir qırmızı yumurta qoyar, yanına da bir ovuc qozdan-fındıqdan əlavə edərdi. Səhərisi gün Ağoş Səhnəni görəndə deyərdi ki, çox sağ ol, göndərdiyin qırmızı yumurta gəlib çatdı. Dəmiryol vağzalının rəisi olandan sonra ildə bir dəfə pulsuz bilet alıb qatarla Urusetin şəhərlərini gəzməyə çıxan Ağoşun Urusetdən alıb gətirdiyi və indi Səhnənin çiyninə saldığı şal da ucuna qırmızı yumurta bağlanan həmin şala çox oxşayırdı.

Ağoşla Səhnənin gizlənqaç oynayan çağlarında uşaqlar konfet kağızı yığıb kağız-kağız oynayardılar. Bu oyun onların başını o qədər qatardı ki, bəzən günortadan sonra quzu otarmağın vaxtı da yaddan çıxardı. Axşamüstü quzu otarmaqdan evə dönən uşaqlar ağlayıb-sızlayardılar ki, bəs mənə konfet verin. Elə ev tapılmazdı ki, orada konfet üstündə dava-dalaş düşməsin. Əslində uşaqları konfetin özündən çox kağızları maraqlandırardı. Həmin illər sanki Ablonun da bəxtinə təzə ulduz doğmuşdu. Qonşu kənddən Düyərliyə xırdavat gətirib satan Ablonun rəngbərəng şarları gözdən düşəndə, o da mallarının çeşidini yavaş-yavaş dəyişib konfet alverinə güc verdi.

Ablo elektriçka ilə İrəvana gedən adamlara pul verib tapşırardı ki, mənə cürbəcür konfetlər alıb gətirin. Sonra da evlərində həmin konfetləri kağızlarına görə beş-beş, on-on ayrıca yığdırar, ağappaq salafan kuloklara bükdürər və ayrıca qiymətlər qoyardı. Bir çətin iş var idi ki, Ablonun gözləri əməlli-başlı görmürdü. Amma ona "kor" deməyə də heç kəsin dili gəlmirdi. Ablonun əlindən yapışıb kəndbəkənd gəzdirən kiçik oğlu

konfetlərin rəngini, şəklini sadalayar, o da hərəsinin əz qiyməti-ni deyərdi.

Ablonun gözləri görməsə də, əlini qəpiyə sürtən kimi, onun neçə qəpiklik olduğunu göydə bilərdi. Ona təsadüfən kağız pul verərdilər. Çünki seçib gətirdiyi malların əksəriyyəti qəpik-quruşluq idi. Onun Düyərliyə gəldiyi günlərin birində Səhnə də bir abbası gətirib beş-on konfet almışdı. Bu həmin gün idi ki, Ablo ömründə birinci dəfə həvəsə gəlib Dəllək Rəhimə iydə ağacının altında üzünü qırxdırmışdı. Səhnə həmin konfetləri evə gətirib bir-bir açmış, konfetləri güllü çit parçanın içinə bükmüş, kağızlarını isə aparıb gizlicə Ağoşa vermişdi. Bu əhvalatdan xəbər tutan olmamışdı, hətta Səhnənin anası da bu barədə heç bir şey bilmirdi. İndi Ağoş haqq dünyasındaydı, bu dünyada isə ondan xəbərdar olan bir adam varıydısa, o da elə Səhnənin özüydü.

Səhnənin Ağoşla gördüyü işlərdən biri də tut yığmaq əhva-latı idi. Zübeydəgilin yan-yana ucalan tut ağacları o qədər boy vermişdi ki, onların evlərinin damından da xeyli yuxarı qalx-mışdı. Bu tutlardan hansının ki, budaqları damın üstünə əyilmiş-di və damın üstündən ağappaq, şipşirin, barmaq boyda tutlara əl çatırdı, Zübeydə o budaqlardakı tutu vedrələrə özü yığar, sonra da elə damın üstünə sərib qurudardı. Qalan budaqların tutunu çırpmaqdan ötrü isə həmişə Ağoşla Səhnəni çağırardı.

Ağoş tut ağacının başına dırmaşardı. Dırmaşa-dırmaşa da baş barmaq boyda ağ tutlardan doyunca yeyərdi. Sonra tut dolu budaqları Zübeydəynən Səhnənin tutduğu palazın üstünə çırpar-dı. Xar tutlar yaz dolusu kimi palazın üstünə yağardı. Bir-ikisi də hərdən tappıldayıb düşərdi düz Səhnənin qoynuna. Səhnə də əl atıb qoynundakı tutları götürdükcə Ağoş yuxarıdan baxıb için-için ləzzət alardı.

Belə günlərin birində Barama Nəcəf Zübeydənin başının üstünü kəsdirmişdi. Hay vurmuşdu ki, tez olun, alt budaqlardakı

tutları çırpıb qurtarın! Qurdlar acından ölürlər. Bu gecə onlara tut yarpağı çatdırmasam, hamısı tələf olacaq. Beş-altı budaq kəsib aparsam kifayətdir. Bu gün-sabaha sarınıb qurtararlar.

Zübeydə də səsini atmışdı başına ki, bəs elə bu kənddə ancaq bizim tutları görübsən? İki-üç gündən bir dolana-dolana gəlib deyirsən ki, yarpaq olmasa, qurdlar qırılıb qurtaracaq. Cəhənnəmə qırılsınlar, gora qırılsınlar. Gedib Hacı Muradın qol yetməyən tut ağaclarının budaqlarından qırıb apara bilmirsən? Nə oldu, Hacı Muraddan üyüdürsən?

Barama Nəcəf də cavab vermişdi ki, bəs Hacı Murad sizin kimi dinsiz-imansız deyil. Doşablıq tutunu götürüb qurtaran axşamı özü qırdırıb göndərir. Allah məni sizin kimi korazehnlərdən saxlasın. Məgər tut yarpağını qarnıma dürtürəm? Qurdlara verirəm də, axı onlar da Allahın heyvanıdır!

Zübeydə də yenə qıy vurmuşdu ki, bu gün qurdlara allahın heyvanı deyirsən, sabah baramanı kisə-kisə doldurub tədarükə verəcəksən, sonra da pulları alıb cibişdanına dolduracaqsan.

Barama Nəcəflə Zübeydə dalaşa-dalaşa qalmışdılar. Ağoşla Səhnə üz qoymuşdular Hacı Muradın tayalarının yanına. Onlar da başqa uşaqlar kimi axşamın sərinində Hacı Muradın tayalarının yanında gizlənqaç oynamağı çox sevirdilər.

İndi görün Ağoş hara, Dəllək Rəhim hara?!

## 4.

Səhnə dəmiryolunun üstündən adlayıb vağzalın qabağındakı daş döşəmənin üstünə qalxdı. Bu daş döşəməni bir vaxtlar Ağoş saldırmışdı. Deyirdilər ki, Bakıdan – Mərkəzi Komitədən kimsə rayona qonaq gələcəkmiş. Qonağın gəlişinə hazırlıq görmək üçün elə Bakıdan da vaqon-vaqon iri daşlar gətirmişdilər. O vaxt Dəllək Rəhim çox çalışmışdı ki, vağzalın işini də öz boynu-

na götürsün, amma Ağoş buna imkan verməmişdi. Ağoş həmin daşları bir aya vağzalın qabağına döşətdirmişdi.

Səhnə birdən barmağını dişlədi. Vay, gorun çatlasın, Ağoş, demə vağzala daş döşətdirəndən sonra onun ağlına gəlibmiş ki, evin açarını aparıb daşın altına qoysun.

Səhnə sağa-sola baxdı, vağzalda heç kəs görünmürdü. Yavaş-yavaş ikinci mərtəbəyə qalxan pilləkənin altına tərəf getdi. Pilləkənin altında divara bitişik bir dəmir şkaf var idi. Şkafın ağzı açıq olsa da, Səhnədən başqa heç kim şkafı açmazdı. Səhnə işini qurtarandan sonra "pol ağacını", "pol əskisini", süpürgəni və vedrəni bu şkafa qoyar, səhər də gəlib götürərdi.

Səhnə şkafa yaxınlaşanda gördü ki, vağzal iti uzanıb düz şkafın qabağında. O hər gün səhər-səhər iti burda yatmış görərdi. Amma indiyə qədər heç vaxt düşünmədiyi bir şey keçdi ağlından. Bəlkə rəis özü burada yatmağı itə tapşırıb ki, şkafın içindəkiləri heç kəs götürməsin? Tez də öz-özünə güldü.

İt hənirtiyə başını qaldırdı. Ayağa qalxıb gərnəşdi və dilini çıxarıb burnunu yaladı. Elə bil it başa düşdü ki, durub getməsə, Səhnə onu təpikləyib qovacaq.

Səhnə dəmir şkafı açdı. Ədəb-ərkanla "pol ağacıyla" əskini, vedrəylə süpürgəni götürdü və şkafın qapılarını örtdü. Pilləkənin o biri tərəfinə keçib kranı açdı, vedrəni su ilə doldurdu. Sonra rəisin kabinetinə tərəf yollandı.

Rəisin kabineti vağzalın yuxarı tərəfində idi. Qapısı da düz dəmiryoluna tərəf açılırdı. Səhnə kabinetin qapısına çatıb pencəyin cibindən açarı çıxartdı. Qapını açıb yavaşca içəri girdi. Gözü stolun düz ortasına qoyulmuş külqabına sataşdı. Külqabı ağzına qədər siqaret kötükləri ilə dolmuşdu. Siqaret kötükləri az qalırdı külqabıdan daşıb yerə tökülsün.

Səhnə ikitağlı pəncərəyə tərəf getdi və pəncərəni açdı. Sərin bir yaz havası Səhnənin üz-gözünü yalaya-yalaya içəri doldu. Elə bil Səhnə də təzədən nəfəs aldı, dərindən köks ötürdü.

Səhnə azca aşağı əyilib rəisin oturduğu stolun yanından zibil qabını özünə tərəf çəkdi. Belini düzəldib şkafın lap yuxarısında təllənmiş köhnə qəzetlərdən birini götürdü, qəzetin arasını açıb külqabını oraya boşaltdı və bürmələyib zibil qabına tulladı. Sonra da şkafın alt gözünün küncünə qoyduğu ağ parçanı götürüb şkafların, stol-stulun tozunu almağa başladı. Fikirləşdi ki, Ağoş sağ olanda məni bir dəfə də bu kabinetə gətirməmişdi. İndi gündə bu kabinetdəyəm. Nə eləyim, həm işləyib beş-üç qəpik pul qazanıram, həm də bu kabinetə girdikcə buradan Ağoşun iyini alıram. Sağ olsun rəis ki, burada heç bir şeyin yerini dəyişməyib, əvvəlcə necəydi, indi də elə o cürdür. Hərdən də mənə deyir ki, Ağoşun ruhuna and olsun, necə ki rəisəm, qoymaram buradakı şeylərin yerini dəyişsinlər. Necə var, eləcə də qalacaqdır.

Sağ olsun, Ağoşun qırxı çıxanda gəldim onun yanına, dedim ki, məni vağzala süpürgəçi götür. Səhər o başdan gəlib işimi görüm, adamlar tökülüşüb gəlməmişdən qabaq qayıdım gedim evə. Uşaqlar da ün təpdi ki, bəs dünən atamız vağzalda rəis idi, indi sən gedib orada süpürgəçilik eləyəcəksən? Mən də dedim ki, puldan ötrü ölmürəm, hər gün atanızın iyini almaq üçün gedirəm. Daha səslərini kəsdilər.

Adamın üstündə Allah var, rəis də neçə kərə dedi ki, sənin pula ehtiyacın yoxdur, ay Səhnə! Ağoşa kəsilən pensiya ömürlük bəsindir, buraya gəlib başımızı aşağı eyləmək istəyirsən? Biri də deməsə, o biri deyəcək ki, bəs bunlar necə iş yoldaşıdırlar, başsız bir arvadı da dolandıra bilmirlər?

Onda da Səhnə qayıdıb bircə kəlmə demişdi ki, işləmək istəyirəm. Daha bundan sonra rəis “sabah işə çıx” – deyib başını bulamışdı.

Səhnə sol divarın ortasında asılmış xəritənin qabağında dayandı. Elə bil bu xəritəni birinci dəfəydi görürdü. Xəritənin hər tərəfini bürümüş qırmızı-qırmızı xətlərə baxıb dərindən bir

ah çəkdi. Düşündü ki, Ağoş bu dəmir yollarının bu başından vurub o başından çıxardı. Həmişə də gələndə mənə şəkillər gətirərdi, gəzdiyi yerləri bir-bir şəkillərdə göstərərdi. Səhnə ağ parça ilə xəritənin üstünün tozunu alıb, zibil qabını salafan torbaya boşaldıb yerinə qoydu, salafan torbanı isə bayıra çıxarıb qapının yanında divara dayadı. Əskini vedrədəki suya salıb çalxaladı, yuxarı qaldırıb sıxdı və "pol ağacını" keçirib döşəməni sildi. Döşəməni silib qurtaran kimi bayırda qapının ağzına sərilmiş ayaqaltını bürmələyib vedrədəki suyun içinə basdı. Ayaqaltını çıxardıb sıxandan sonra yenidən əvvəlki yerinə sərdi. Vedrənin çirkli suyunu vağzalın daş döşəməsinin üstünə caladı, başına əski keçirilmiş "pol ağacını", süpürgəni, zibil boşaltdığı salafanı və vedrəni götürüb hər tərəfi şüşəbənd olan vağzalın içinə tərəf yollandı. Vağzalın o tərəf-bu tərəfinə göz gəzdirdi: Heç kəs gözə dəymirdi. Gəlib düz qardaşı Kərəmin çayçısının qabağında dayandı.

## 5.

Yazıq Kərəmin uşaqları institutda oxuyurlar. Bir təhər ki, ucuz kirayə ev tapmışdı. Manatı manatın üstünə qoyub hər ayın axırında şəhərə yollayardı. Payızın orta ayında həyətdə saxladığı «mənəm, mənəm» deyən erkəklərdən birini kəsər, arvadı Xədicə də doğranmış ətin hamısını yağda qızardıb qovurma hazırlayar və vedrəyə doldurub tanış «kandukturla» Bakıya uşaqlara göndərərdi. Ondan sonra Kərəm də, Xədicə də bir az rahat olardı.

Düşünərdilər ki, uşaqlar qışı yaxşı-yaman başa vuracaqlar.

Kərəm də düşünərdi ki, Zərqələm od parçasıdır. Qovurmanı az-az işlədib qardaşlarını ac qoymayacaq.

Xədicə də elə Kərəm kimi fikirləşib öz-özünə deyərdi ki, Zərqələm çox yığımcıldır, elə bil bibisi Səhnəyə çəkib. Bəlkə də bu

qız olmasaydı, hər ay qonum-qonşudan borc eləyib onlara göndərməliydik. Onda da abrımız gedəcəkdi. Sonra da hərə bir ayama qoşacaqdı ki, nə bilim Kərəm uşaqlarını onun-bunun puluynan oxutdu.

Xədicə hərdən daldaya çəkilib öz-özünə gileylənərdi ki, elə bil Allah ağlımı aldı, bu uşaqları dalbadal doğdum. Hər il də bir uşaq olar? Bic Törənin bic qızına bax, iki il ara verib bir uşaq doğub, üç il ara verib ayrısını pırt eyləyib atıb çölə. Elə bil Allaha "zakaz" veriblər. Bəs görəsən bizim "zakazımız" niyə Allaha çatmadı? Bir də ki, biz başıbatmışlar heç zakaz elədik ki?!

Odu eey, lap elə Əngiəyri Şəmil olsun. Arvadı da halvaçı qızıdır. O günü arvadlar təndirin başında danışırdılar ki, bir gecə halvaçının qızı Şəmilə deyir ki, mən yerimə uzanmışam, sən yeri taxçadakı lampanı üfür keçsin. O da gedir, əyri əngiylə nə qədər üfürürsə, lampa keçmir ki, keçmir. Axırda da dönüb arvadına deyir ki, sən də harda çətin iş olsa, mənə tapşırarsan. Bu da bizim gicbəsərlər! İndi sən niyə onların gic tərəfinə baxırsan, o biri tərəfinə bax! Onda sənə agah olar ki, iki qızları, iki də oğlanları var. Elə bil Allah bir-bir gətirib əliynən düzüb.

Sonra da Xədicə öz əliylə öz başına bir pəmbəçə salıb, pıçıltıyla deyindi ki, indi o biclə bu gicə bax, tab elə görüm, necə tab eləyərsən?!

Xədicədən fərqli olaraq Kərəm başqa şeylər düşünürdü. Düşünürdü ki, günləri çətin keçsə də, ata-anasının arzusunu gözündə qoymayıb. İllah da anası həmişə deyərdi ki, atan da tək oğuldur, sən də təksən. Barı Allah sənə heç olmasa, iki oğul verəydi, təkliyin çətinliyini balaların görməyəydi. Hərdən üzümə üz tutub anama söyləyərdim ki, bəs onda Tutu nənə məni görəndə niyə mənə deyir ki, təklikdən xiffət eləmə, Allah da təkdir! Anam da cavab verərdi ki, yox, bala, Tutu nənə təsəlli üçün deyir.

Kərəm hələ anasının qarnında olanda dədəsi anasına kəsəmət kəsmişdi ki, xəstəxana-məstəxana görməyəcəksən. O Araksi var haa, erməni törəməsidi. Deyirlər ki, görəndə doğulan uşaq oğlandı, uşağı elə anasının qarnında boğub öldürür. Neçə illərdi ki, hamı Araksinin əlinin ağırlığından danışır. Amma arvadları doğanda, utanmaz-utanmaz onun yanına aparırlar. Deyəsən, dünyanın axırıdı. Bu adamlar yedikləriynən içdiklərini dəyişik salıblar.

Lap elə kişilər əvvəldən biləydilər ki, Araksi doğulan oğlan uşaqlarını boğub öldürür. Guya arvadlarını daha onun yanına aparmayacaqdılar? Ay-hay! Vallah bu adamlara tövbə yoxdur.

Kiçik çillənin ortasında Kərəmin anasının ağrısı başladı. Böyük çillənin axırında da bir dəfə belə olmuşdu. Kərəmin atası dediyinin üstə möhkəm durub Səhnəni göndərmişdi Tutu nənənin dalısınca. Tutu nənə də bir çətinliklə gəlib çıxmışdı. Arvadı uzatmışdı evin ortasına, qarnına bir-iki yumruq vurmuşdu və demişdi ki, tələsməyin, kiçik çillənin ortasını gözləyin. Zalımın balasının elə bil ağzı fal idi. Qarnını şişirdən qarnının dərdini bilmirdi, Tutu nənə qarnı dombalanın dərmanını göydə yazırdı. Bu arvad hər şeydən xəbərdar idi, bircə Aya xəbər aparıb, Aydan xəbər gətirməkdən başqa.

Hava qaralsa da, yenə Səhnəni Tutu nənənin dalısınca göndərdilər. Kərimin anası da zırıldaya – zırıldaya evin ortasında qaldı. Bir xeyli keçəndən sonra Tutu nənə gəlib çıxdı. Yenə arvadın qarnını dürtmələdi və dedi ki, gedin Zübeydəni tapın gətirin. Bunu eşidən kimi elə bil Kərəmin dədəsinin beli sındı. Çünki Düyərlidə hamı yaxşı bilirdi ki, iş çətinə düşəndə Tutu nənə həmişə Zübeydəni çağırtdırar.

Kərəmin dədəsi naümid-naümid fikirləşməyə başladı ki, gərək arvadı Araksinin yanına aparaydı. İndi işin içindən iş çıxsa, gəl dalısında dur görüm, necə durursan. Ağzı göyçəklər danışacaqlar ki, bəs puluna qızırqalandı, arvadı xəstəxanaya apar-

madı. Sonra da özünə təsəlli verib dedi ki, Tutu nənənin əli yüngüldü. İnşallah heç bir şey olmaz.

Zübeydə də gəlib çıxdı. Tutu nənə üzünü Kərəmin dədəsinə tərəf tutub dedi ki, gedin hamınız qonşuda rahat yatın, gecəyarıdan tez heç bir xəbər bilinməyəcək.

Kərəmin atasının qonşuya getməsindən bir az keçmişdi ki, Kərəmin anasının zarıltısı dünyanı başına götürdü. Tutu nənə hirsini boğa bilməyib qışqırdı:

– Bəsdi, az zarı! Qarnınıza qoyanda yaxşıdı, doğanda pis?

Elə bil bu sözlər Kərəmin anasına deyilmirdi: arvad zarıldamağında davam edirdi.

Tutu nənə Zübeydəyə üz tutub dedi ki, gedin yekə vanna tapıb gətirin! Bunun qanını-suyunu yekə vanna ancaq yığıb-yığışdırar.

Zübeydə ilə Səhnə bayıra çıxıb tez də qayıtdılar. Yekə vannanı elə bil hazırca qapının yanındakı divara söykəmişdilər. Əslinə qalsa Səhnə hələ gündüzdən ağrısını hiss eləyən anasının sözüylə vannanı tövlədən gətirib qapının yanındakı divara dayamışdı.

Tutu nənə bu dəfə üzünü Zübeydəyə tutub hirsləndi:

-Əşi, bu xarabada bir əski-üskü yoxdu?!

Səhnə tez yerindən tərpənib anasının sözü ilə gündüzdən çarpayının dalına yığdığı bir təl əskini qucaqlayıb Zübeydənin qabağına tökdü.

İşin çətinliyini indi başa düşən Zübeydə qan-tərə batmış Tutu nənəyə üz tutdu:

– Deyəsən, çətin məsələdi!

Tutu nənə də buna bənd imiş kimi qeyzlə cavab verdi:

– Çətin olmasaydı, səni niyə çağırırdım? Sənin qaşına-gözünə aşiq olmuşam? Görmürsən, uşaq tərs gəlir!

Zübeydənin matı-qutu qurudu. Doğan Kərəmin anasıydı, amma bu sözü eşidəndən sonra az qala Zübeydə uşaq salmışdı.

Bu dəfə Tutu nənə Zübeydəyə tərəf çığırdı:

– Çiynini bərk saxla!

Kərəmin anası huşunu itirdi. Zübeydə onun üzünə su çiləməyə başladı. Tutu nənə çarpayının yanında çöməlib qorxa-qorxa oturmuş Səhnəyə dedi ki, qardaşın oldu, get atanı çağır, muştuluğumu versin!

Səhnə ayağa qalxıb tez dedi ki, bəs dədəm bilirdi qardaşım olacaq, adını da Kərəm qoyub.

Tutu nənə bir az da qeyzlə qışqırdı:

– Kəs səsini, qodux! Anası bilmirdi, dədəsi bilir! Get, muştuluğumu al gətir!

Səhnə bunları fikirləşə-fikirləşə bir də baxıb gördü ki, çayçının hər tərəfini süpürüb qurtarıb və gəlib çatıb şəkilçəkən Qadirin butkasının düz qabağına.

## 6.

Fotoqraf Qadir Səhnənin kürəkəni idi. Amma uşaqdan-böyüyə hamı onu şəkilçəkən Qadir kimi çağırırdı. İndiyə qədər cəmisi bircə nəfər ona "fotoqraf" demişdi. Bu adam da Bakıda Universitetdə oxuyurdu. Yay vaxtı tətildə olanda ədəb-ərkanla girmişdi butkanın içinə. Görmüşdü içəridə heç kəs yoxdur. Tez ağlına gəlmişdi ki, yəqin qara pərdənin dalında şəkil çıxardır. Ona görə də uca səslə demişdi:

– Yoldaş fotoqraf, qonaq istəmirsən?

Qadir də "fotoqraf" sözünü eşidən kimi fikirləşmişdi ki, bu adam deyəsən qatarla indicə gəlib, buraların adamına oxşamır. Sonra da iki pərdənin arasından başını çıxarıb demişdi ki, bir az gözlə, gəlirəm! Heç üççə dəqiqə keçməmiş Qadir əlindəki işini qurtarıb əlini göy əskiyə silə-silə keçmişdi pərdənin bu biri tərəfinə:

– Hə, eşidirəm, bacıoğlu!

–Yoldaş fotoqraf, bu il orta məktəb məzunlarının venetkasını sən düzəltmisən?

– Mən düzəltmişəm, amma iki-üç məktəbdən savayı zakaz verən olmadı.

– Sulutəpənin uşaqlarının şəklini çəkmisən?

– Çəkmişəm.

– O kənddən Kərbalayı Musanı tanıyırsan?

– Onu rayonda tanımayan yoxdu. Nə olub?

– Mənə Kərbalayı Musanın nəvəsinin şəkli lazımdır.

– Onun nəvəsi oğlandı, qızdı?

– Qızdı!

– Verə bilmərəm!

– Niyə verə bilmirsən, səni gülləyəcəklər?

– Mən başqa adamın qızının şəklini sənə verə bilmərəm?

–Yoldaş fotoqraf, mən bilən, şəklin birin iyirmi qəpiyə çəkirsən. O şəkildən ötrü sənə üç manat verəcəm. Ta bundan artıq nə istəyirsən?

– Lap beş manat versən də, məndən şəkil ala bilməzsən!

-Bir qırmızı onluq verirəm!

Şəkilçəkən Qadir gördü ki, iş deyəsən tündləşir, ona görə də bu dəfə başqa söz söylədi:

– Ay bacıoğlu, mən venetka şəkillərinin neqativini saxlamıram! İşimi qurtaran kimi yandırıram.

Daha bu sözdən sonra höcətləşməyə yer qalmadı. Universitet tələbəsi də yavaşca sağollaşıb butkadan çıxdı.

Qadirin ən xeyir-bərəkətli günləri avqustun axırları idi. Bu vaxtlar Bakıda oxuyan tələbələr qatara minməmişdən qabaq şəkil çəkdirərdilər. Kimi ata-anasıyla, kimi bacı-qardaşıyla, kimi dost-tanışıyla şəkil çəkdirməkdən ləzzət alardı. Qadir də fotoaparatının qayışını boynuna keçirib vaqonların qabağında gəzər, özünə müştəri axtarardı.

Onun çəkdiyi ən maraqlı şəkillər tələbələrin Əngiəyri Şəmillə çəkdirdikləri şəkillər olardı. Qadir özü bu şəkillərə o qədər məftun olmuşdu ki, hətta Əngiəyri Şəmilin bir fotosunu da böyüdüb butkanın gözəgəlimli yerindən asmışdı.

Səhnə Qadirin butkasının şüşələrini bayırdan silə-silə fikirləşirdi ki, Ağoş uzaqgörən adam idi. Qadir vağzalda bu butkanı düzəltməsəydi, qızımın gün-güzəranı Allah bilir necə olacaqdı. İndi yenə yaman-yaxşı bir tikə çörək tapıb dolanırlar. Allah bizi o gündən saxladı ki, Qadir uşaqlara qoşulub Urusetə getmədi. Getsəydi qız qaragünlü olacaqdı.

“Ağoşla lap gec evləndik. Bir neçə il qabaq toy eləsəydik, yəqin oğlanlar da yerbəyer olmuşdu. Nə bilim, qismət Allahdandı. Bəlkə belə lazım imiş?!

Qadirin bircə işi yaxşıdır ki, arvad-uşağa baxan köpəkoğludur. Allah üzümüzə baxıb qırdı-qaçdı dədəsinə oxşamayıb. Elə bil bu rayonda dərələrin azğıntıları bircə ona qalıb. Üzünün suyu o qədər tökülüb ki, üzünü mürdəşir yumasa, canı qurtarmayacaq. O boyda işin yiyəsi Ağoş haqqında indiyə qədər dodaq büzən olubmu? Hamı atasına, indi də özünə rəhmət oxuyur.

Bir dəfə kəndə yasa getmişdim, Nəcəfalının nəvəsi suya düşüb boğulmuşdu. Oturdum Tutu nənənin yanında. Ordan-burdan xeyli danışdıq, Tutu nənə qəfildən dedi ki, ay Səhnə, Ağoş hər il Urusetdədir, onu boşuna buraxma! Gedib oralarda evlənib-eləyər biabır olarıq. Mən də dedim ki, ay Tutu nənə, Ağoşdan arxayınam. Hər gələndə xeyli şəkil gətirir, birində də arvad xeylağına rast gəlmirəm. Vəssalam-şüttamam! Ağoşdan yastı-yastı deyilən söz bu olub, onu da yas yerində qatlayıb qoymuşuq yastığın altına».

Birdən vağzal rəisinin səsi gəldi və Səhnə diksinən kimi oldu:

– Ay Səhnə, sənin də işin-gücün qurtarıb, kürəkən butkasının qabağından əl çəkmirsən!

Səhnə hələ heç bir cavab vermədən fikirləşdi ki, rəis nə yaxşı belə tezdən işə gəlib? Olmaya məni yoxlamaq istəyir. Sonra da üzünü rəisə sarı tutub dedi:

-Sabahın xeyir, rəis!

Rəis bir də ucadan dedi ki, hər tərəfi yaxşı-yaxşı sil-süpür! Bu gün qonaq-qara çox olacaq! Axşam ispalkom tapşırıb ki, bütün idarələrə maaş verilsin. Yəqin maaş alanlardan vağzala da gələn olacaq.

Səhnənin ürəyindən keçdi ki, bəlkə mənə eyham vurur. Mənim niyə pis işlədiyim gün olub? İki-üç saat bu vağzalın o deşiyi yoxdur ki, oranı silib süpürməyim. Bircə o qalıb ki, hər tərəfi sabunla yuyam.

Sonra yenə rəis dedi ki, özün də ciçç eyləyib evə qaçma.

Süpürgəni şkafa qoyan kimi götürülürsən evə tərəf. Bilmirəm o evdə nə görübsən? Bu gün qal öz maaşını da al. Dünəndən kassirə demişəm, səhər tezdən banka gedib. Mahmuddan da xahiş eləmişəm ki, bankda bizim kassiri birinci yola salsın.

Sonra rəis öz kabinetinə sarı getdi.

Səhnə yenə rəisə heç nə demədi, amma ürəyindən keçən o oldu ki, Qəssab Əlinin oğlununku gətirdi. Qayıdanda ətin pulunu da verərəm, nisyə boynumda qalmaz.

Səhnə dəfə-darağını götürüb keçdi Qəssab Əlinin o biri oğlu Mazanın çəkməçi butkasının qabağına. Başladı oranı da təmizləməyə. Butkanın şüşələrini təmizləyə-təmizləyə qapıya çatanda gördü ki, qapının üstündə xəmirlə yapışdırılmış yekə bir ağ kağız var. Kağızın da üstündə qırmızı hərflərlə bir cümlə yazılıb: "Bu gün nağdı, sabah nisyə".

Səhnənin dodağı qaçdı. Düşündü ki, bu nisyə məsələsi, deyəsən, elə Qəssab Əlinin uşaqlarına qalıb.

Kağıza toxunmayıb keçdi butkanın o biri tərəfinə. Çəkməçi butkasıyla dəllək butkası arasında uzunluğu iki metr, eni yarım metrlik yer var idi. Həmin yeri pol əskisiylə silməyə başladı.

Səhnə elə canı-dildən silirdi ki, elə bil öz evlərinin balkonuydu. Bircə fərq varıydı ki, balkonlarını nəm əskiylə silərdi, amma burada əvvəlcə yerə su çiləyər, sonra pol əskisini işə salardı. Bir azdan Səhnə iki butkanın arasında görünməz oldu. “Bir az da keçdi, yavaş-yavaş “pol əskisiylə” “pol ağacı” görünməyə başladı. Birdən Aptek Rəsulun səsi eşidildi:

– Sabahın xeyir!

Əslinə qalsa Aptek Rəsul Səhnəni görmürdü, salamı da elə bil Səhnəyə yox, irəli-geri gedən “pol ağacına” verirdi. Səhnə bu səsi eşidəndən sonra fikirləşdi ki, görəsən, Aptek Rəsul belə səhər-səhər hardan peyda oldu?

Aptek Rəsul Səhnə ilə qabaq-qənşər dayanıb yenə dilləndi:

– İşin irəli, ay Səhnə xala!

– Salam, ay bala! Nə yaxşı belə səhər-səhər işə gəlmisən?

Aptek Rəsul da ürəyindəkiləri gizlədib ayrı cavab verdi ki, bəs özüm tezdən gəlmişəm apteki açam, içəriyə bir əl gəzdirəsən. Sonra da aptekə tərəf gedə-gedə ürəyindəkiləri öz-özünə deməyə başladı. Öz-özünə dedi ki, düz bir ay – qırx gündür bu camaatı gözləyirəm. Daha bu dərmanları ona-buna nisyə verməkdən boğaza yığılmışam. Biri gəlib deyir ki, uşaq ölür, elə yarım saatlıqdır, dillənmirsən götürüb verirsən. O biri gəlib ağlayıb-sızlayır ki, filan iynə, filan dərman olmasa, arvadı gərək xəstaxanaya aparam, oranı da özün yaxşı bilirsən, məni qapılara salıb diləndirəcəklər. Səsini çıxartmırsan, onu da büküb kağıza verirsən. Və sair və ilaxır. İndi nisyə dərman verməgörüm necə vermirsən? Nisyə dəftəri dədəmin nisyə dəftərinə oxşayır, qapqara qaralıb, adam baxanda özü də qorxur. Deyirlər bu gün idarələrdə maaş paylayacaqlar, bəlkə gətirib beş-üç qəpik verən oldu! Mənim də yüküm bir az yüngülləşdi. İndi hamının dərdinə dərman verən Rəsul bu dərdi sənə necə desin, a Səhnə xala?!

# 7.

Aptek Rəsul Həşimin arvadlarının kəfənini nisyə verən dükançının oğlu idi. Rəsul elə uşaq vaxtından deyirdi ki, doxdur olacam. Hamı da ona zarafatla "doxdur Rəsul" – deyirdi. Bu da Rəsulun ürəyinə yağ kimi yayılırdı.

Bir dəfə fransız dili dərsində rəhmətlik Əli müəllim Rəsulu dərs danışmağa çıxartdı. Rəsul da dərsi danışıb qurtarandan sonra Əli müəllim bir ona baxdı, bir jurnala və qəfildən dedi:

– Keç əyləş! Tramvay altında qalmış üç alırsan!

Rəsul da dinməz-söyləməz keçib oturdu öz yerində. Amma iş bununla bitmədi.

Qonşu kənddəki məktəbdən çıxıb Düyərliyə gələndə yol boyu uşaqlardan hansısa başladı Rəsulla zarafat eləməyə. Zarafat da bu idi ki, o, iki-üç dəqiqədən bir Rəsula üz tutub, "tramvay altında qalmış üç" deyirdi. Uşaqların da hamısı gülüşürdü. Yarı yola çatanda Rəsul hirslənib çantanı atdı ağappaq qarın üstünə. Dalaşma başladı. İş o yerə çatdı ki, dalaşanların ikisinin də burnundan qan açıldı, ağappaq qarın üstü qıpqırmızı qan oldu. Yorulub aralaşan kimi Rəsul soyuq qarı götürüb alnına sürtməyə başladı. Uşaqlardan biri soruşdu ki, ay Rəsul, niyə belə eləyirsən? Rəsul da qarı alnına sürtə-sürtə cavab verdi ki, adamın burnundan qan açılanda gərək alnına soyuq şey qoya!

Dalaşma yaddan çıxdı, hamı başladı gülüşməyə.

Uşaqlardan biri də ucadan dedi:

– Doxdur ki, doxdur!

Bir dəfə payız idi, Rəsul doqquzda oxuyurdu. Rəsulgili də pambıq yığmaq üçün Düyərlinin lap girəcəyində olan Cahangirin yerinə aparmışdılar. Bu həmin yer idi ki, bir vaxtlar Əsgər kişi oranı başdan-ayağa bostan eləmişdi.

Axşamın sərini başlamışdı, amma böyüklü-kiçikli hərə bir tərəfdə kolların arasında pambıq yığırdı. Heç kəsin heç nədən

xəbəri yox idi. Qəfildən lap uzaqdan Müstəcəbin səsi qulaqlara dəydi. Düzü heç kəs heç nə başa düşməyib, başladı pambığını yığmağa. Çünki bilirdilər ki, pambığın hər kilosuna on qəpik alacaqlar. Bir az keçmiş Müstəcəbin səsi qismən eşidildi:

– Dazbaşı yıxdıq! Dazbaşı yıxdıq!

Bu sözləri eşidənlər heç nə başa düşməsələr də, işi dayandırıb qamətlərini düzəltdilər. Kilosuna elə tərəzinin başındaca təzə on qəpiklik alacaqları da yaddan çıxdı. Müstəcib bir az da yaxınlaşdı. Bu dəfə o, bürmələnmiş qəzeti başının üstündə yelləyə-yelləyə qışqırdı:

– Dazbaşı yıxdıq! Dazbaşı yıxdıq!

Hamı yavaş-yavaş Müstəcəbə tərəf yeriməyə başladı. Müstəcəb camaatın yanına çatan kimi qəzetdəki iki böyük şəkli göstərib ucadan dedi:

– Dazbaşı yıxdıq! Xruşşov da belə getdi..

Amma Xruşşovun getməsindən daha çox, camaatı çaşdıran bu iki şəkil idi. Hamı təəccüblənirdi ki, gedən bir nəfərdi, gələn iki nəfər!

Nəhayət, hamı sakitləşdi. Müstəcib bu dəfə üzünü Rəsula tutub dedi:

– A doxdur, sənə yüz kərə dedim ki, bir dərman düzəlt Xruşşova göndərim dazına sürtsün, bəlkə başına tük gələ! Gördün? Nə qədər gözlədik başı tüklənmədi, axırda da vızıldatdılar getdi.

Hamı bərkdən güldü. Müstəcib yenə dilləndi:

– Daha səndən doxdur çıxmaz, get aptekar ol!

Elə belə də oldu. Rəsul orta məktəbi qurtarıb Bakıya getdi və gedən ili də "medinstitutun" aptekçiliyinə qəbul oldu.

İnstitutu qurtarandan sonra orda-burda işlədi, axırda da dədəsinin simsar olduğu Ağoş vağzalda ona bir aptek butkası düzəltdi. Bu butka indi Aptek Rəsulun əlindən əməlli-başlı tuturdu.

Aptek Rəsul butkanı açıb, şkaflardakı dərmanları səliqəyə salmağa başlamışdı ki, Səhnə də vağzalda iki cərgə qoyulmuş stulların arasını silə-silə üz qoydu butkaya tərəf. Bu vaxt bir-iki adam dəmiryol vağzalının içinə girdi. Səhnə o dəqiqə bildi ki, bunlar bilet almaq üçün belə tezdən gəliblər. Doğrudan da, içəri girənlər üz tutdular bilet kassasına tərəf. Kassanın qabağına çatanda biri – qismən cavanı cibindən ədəb-ərkanla ağ kağız və qələm çıxarıb, kağızı kassanın qabağındakı kiçik çıxıntılı taxtanın üstünə qoydu və öz adlarını yazıb növbə düzəltməyə başladı. Aptek Rəsul onları gördü, birdən yadına düşdü ki, qonşuları Kamil hələ axşamdan adını növbəyə yazdırmağı ondan xahiş etmişdi. Tez aptekin qabağına çıxıb ucadan dedi ki, üçüncü Kamilin adını yazın!

Bu vaxt Səhnə lap aptekin yanına çatmışdı. Fikirləşirdi ki, bu vağzalda işi xod gedən iki adam varsa, biri kassir Dadaşdı. Bəlkə Elə işi xod getdiyindən rəisdən başqa heç kəs ona Dadaş demirdi. Hamının dilində Dadaş dönüb Dayday olmuşdu.

## 8.

Bu vağzalda rəisin yanına xahişə gələn çox az adam tapılardı, gələnlər də rəisdən ancaq bilet umardılar. Daydayın isə kassasının balaca gözlüyü gün uzunu açıq olardı. Hələ deməyəsən kassanın qapısının dabanı da az qalardı çıxıb yerə düşsün.

Bilet istəyirsən Dayday, borc pul istəyirsən Dayday, bir adam axtarırsan sənə çay alsın, o da Dayday. Hələ onu demirəm ki, Daydayın sözü raykomda, ispalkomda rəisin sözündən güclü idi. Qaldı vayenkomla alış-verişə, Daydayın qurduğu işi heç kəs qura bilməzdi. Bütün rayonda hamı bilirdi ki, gündə olmasa da, iki gündən bir Dayday vayenkomla bir yerdə nahar eləyərdi.

Ələlxüsus yay aylarında Daydayla vayenkom özlərini verərdilər Söyüdlü bulağın yanındakı yeməkxanaya. Hər yoldan ötən bu yeməkxanaya gəlməzdi. Çox vaxt burada rayonun sayılıb seçilən adamları nahar eləyərdilər. Onların da bir azarı var idi. Yeyib-içəndən sonra yeməkxananın yanından axan çayda çimərdilər. Sabun, dəsmal gətirməyə də ehtiyac yox idi. Çünki yeməkxananın müdiri əvvəldən bu işlərin hamısını sahmana salmış, işçilərinə də tapşırmışdı ki, çayda çimənlərin hər birinə təzə sabun və təzə dəsmal verin. Özü də yeməkxanaya gələnlərlə hərdən zarafat eləyib deyərdi ki, siz buraya yemək-içməyə gəlmirsiniz. Sizin dərdiniz-səriniz çimməkdir. Söyüdlü hamamından da ki, dünyada tapılmaz.

Daydayı tanıyanların hamısı onun xətrini istəyərdi. Ona görə yox ki, bilet alanları Dayday hörmətlə yola salardı. Bir də ona görə ki, Dayday hamının xeyir-şərində başda olardı. Başqaları əllərini böyrünə vurub gendə duranda, Dayday heç nədən ar eləməyib əlini hər işə atardı. Əslinə qalsa Dayday əliaçıq adam idi.

Bir dəfə Dayday oturmuşdu bilet kassasında. Köhnədən qalmış sınıq-salxaq radionun da səsini azca vermişdi və elə bil radionun səsindən başqa heç nəyi eşitmirdi. Əl boyda dəftərçənin qaralanmış yerlərinə baxır, asta-asta gəlir – çıxarını hesablayırdı. Dodağının altında isə nəsə mızıldanırdı. Vağzalın içindəki əhvalatlardan isə tam xəbərsiz idi.

Daydayın xəbərsiz olduğu işlərdən biri də Əngiəyri Şəmilin butkaların qabaqlarını dolaşması idi. Əngiəyri Şəmil bir-bir butkalara baş çəkə-çəkə bilet kassasına gəlib çatdı. Amma Əngiəyri Şəmilə Çəkməçi Mazan da, Aptekar Rəsul da heç nə verməmişdi. Hətta əlini uzadıb Fotoqraf Qadirə öz şəklini neçə dəfə göstərsə də, fotoqraf Qadirin də yanında Əngiəyri Şəmilin əli boş qalmışdı. Əngiəyri Şəmil bilet kassasının pəncərəsini tıqqıldatdı. İçəridən Daydayın səsi eşidildi:

– Gözlə, açıram!

Əngiəyri Şəmil heç bir şey başa düşmürmüş kimi pəncərəni bir də tıqqıldatdı. Bu vaxt Daydayın səsi bir az da ucaldı:

– Ay zalım balası, gözlə açıram!

Daydayın ürəyindən keçdi ki, bu camaatın elə bil yağı daşır. Kim kassaya yanaşırsa, o dəqiqə başlayır mızıldanmağa ki, bəs yaman tələsirəm. Ay imanınıza tula bağlayım, elə tələsmək kassaya qalıb? Əvvəlcə gəlin biletinizi alın, rahatca qoyun cibinizə, sonra da özgə işlərinizin dalısınca gedin. Dayday bunları fikirləşib qurtarmışdı ki, indi də kassanın qapısı taqqıldamağa başladı. Dayday bu dəfə lap ucadan və hirslə dilləndi:

– Bu zalım balalarını başa sala bilmədim.

Sonra da durub qapıya tərəf getdi. Qapını açan kimi Əngiəyri Şəmili gördü və qəzəblə qışqırdı:

– Üzünü mürdəşir yusun, görmürsən pul sayıram! Dayday bu sözlərdən sonra bir az toxdadı və gözünü Əngiəyri Şəmilin gözünə dikib istehza ilə dedi:

– Həə, deyəsən yaman qazanıbsan! Gətir görüm nə qədər pulun var? Kim də bir şey versə, o Fotoqraf Qadir heç nə verməz. Özü də sənin şəklini böyüdüb ədəb-ərkanla butkasında yuxarı başdan asıb və sənin şəklinlə pul qazanır. Di gəl ki, bir manatından da keçməz. Yenə Əngiəyri Şəmilin üstünə qışqıra-qışqıra ucadan soruşdu:

– Həə, Fotoqraf Qadir sənə bir şey verdi? O da başını bulaya-bulaya "yox" dedi. Bu dəfə Dayday astadan, sanki pıçıltıyla Əngiəyri Şəmilə dedi:

– Bax, nə qədər pul istəyirsən verəcəyəm. Amma gedib şəklini Fotoqraf Qadirin butkasından çıxarıb gətirib mənim kassama vuracaqsan! Razılaşdıq?!

Bu dəfə də Əngiəyri Şəmil başını bulaya-bulaya "yox" dedi.

Əngiəyri Şəmilin başını bulamasını görəndə Daydayın təpəsindən tüstü çıxdı:

– Ə, köpəkoğlunun adamı, ağlınız başınıza nə vaxt gələcək? Bunu deyirəm eləmirsən, onu deyirəm başını bulayırsan! Pul lazım olanda da onlara yaxın düşə bilmirsən, itmilçəyi kimi gəlib mənə yapışırsan! Bu dəfə də sənə pul verirəm, amma bir də onlardan qəpik-quruş almayıb kassaya yaxınlaşsan meyidini sərəcəyəm.

Dayday bunları deyib əlindəki manatlardan birini Əngiəyri Şəmilin ovucuna basdı. Əngiəyri Şəmil də pulu görər-görməz azca qımışdı, sonra da tullana-tullana kassadan uzaqlaşdı.

Səhnə Aptek Rəsulun butkasının içinə girmək istəyirdi ki, birdən Daydayın səsini eşitdi: – Ay Səhnə xala, sabahın xeyir! – Sabahın xeyir, oğul!

– Ay Səhnə xala, Aptek Rəsuldan adama xeyir gəlməz! Gəl kassanın qapısını açım, içəridə yır-yığış elə, sonra aptekə baş çəkərsən! Aptek qaçmır ki?! Bir azdan kassanın qabağında iynə atsan, adam əlindən yerə düşməyəcək.

Səhnə də bir söz deməyib üz tutdu kassaya tərəf. Adamın üstündə Allah var, heç Aptek Rəsul da cınqırını çıxarmadı.

Sonra Dayday kassanın qabağına yığışmış adamlara üz tutdu:

– Sabahınız xeyir! Növbədənkənar heç kəsi buraxmayın! Özünüz növbəni pozursunuz, sonra da başlayırsınız deyinməyə ki, mən hamıdan qabaq gəlmişdim, amma mənə bilet çatmadı.

Səhnənin kassanın içini təmizləməyi cəmisi üç-dörd dəqiqə vaxt apardı. Əslinə qalsa kassanın içində elə bir şey yox idi. Daydayın oturduğu stul, üstündə bilet yazdığı stol, sınıq-salxaq bir divan və küncdə qoyulmuş elektrik pilətəsindən başqa gözə heç bir şey dəymirdi. Səhnə kassadan çıxandan sonra Dayday qapının cəftəsini vurdu və sonra gəlib kiçik pəncərəni açdı. İçəridən Daydayın sifətinin bir hissəsi göründü və səsi eşidildi:

– Ay camaat, hər günə cəmisi dörd reys var. Özü də deyirlər ki, bundan sonra “TU-154” olmayacaq, “TU-134” uçacaq. Ona görə də kimin Bakıda vacib işi yoxdursa, bileti zanit eləməsin.

Kimsə camaatın arasından dilləndi:

– Elə bizim bəxtimizdəndir də! Bəs bu “TU-154” niyə yoxa çıxıb? Bəlkə göyə uçanda elə göydə ilişib qalıb?

Bu sözə hamı gülüşdü. Bilet almaq bir anlığa adamların yadından çıxdı. O sözləri eşidən Daydayın yenidən səsi gəldi:

– “TU-154” göydə-zadda ilişib qalmayıb. Odu eyy... gah Dubaya uçur, gah da Kitaya! Adamlar da qalıb çöllərin düzündə.

Sonra əlavə elədi:

– Kimin növbəsidir, pasportunu versin!

Lap qabaqda duran cavanlardan biri pasportu Daydaya tərəf uzatdı. Dayday pasportu alıb ona tərəf əyri-üyrü baxdı və ucadan dilləndi:

– Ə, qırışmal, sənsən! Nə olub, Bakını su yolu eləmisən? Bir imkan ver başqaları da getsin!

“Qırışmal” dediyi adamın Daydaya cavabı bu oldu:

– Ay Dayday, mənim Bakıya getdiyim keçən ilin axırlarıydı. İndi o vaxdan üç ay keçir, hələ də mən Bakıya ayaq basmamışam.

Dayday da bilet yaza-yaza yenə dilləndi:

– Bax, tutalım ki, sən kvartalda bir Bakıya gedirsən. Hesabla gör, hər adam kvartalda bir Bakıya getsə, onda bu camaata bilet çatdırmaq olar, ya yox? Vallah “TU-154” nədir, heç “TU-1O54” də bu adamları yığıb-yığışdıra bilməz.

– Dayday, canım üçün mən kefdən-damaqdan Bakıya getmirəm. Qışdan qabaq atamla anamı aparıb Bakıda qardaşımın yanına qoymuşam. Özün bilirsən ki, qışda onlar burada qalsaydılar, gərək atamla anamı aparıb qəbiristanlıqda basdıraydıq.

– Vallah, sizə söz çatdırmaq olmur. Götür biletini, sənə yaxşı yol!

Dayday bileti verəndə gördü ki, növbədə iki qadın dayanıb. Xəyalından qəfil keçdi ki, onlar hardansa tanışdırlar. Sonra da ona tərəf uzanmış iki pasportu götürdü. Ardınca da pasport sahibi dilləndi:

– Dayday, mümkünsə birinci reysə ver! Özü də ən yaxın günlərdən birinə.

Dayday yenə ucadan dilləndi:

– Ay evi tikilmiş, səndən əvvəlki adamı görmədin? Nə vaxt dedi, nə də reys. Çünki hamı bilir ki, hansı günə bilet varsa, mən də o günə bilet verirəm. Lap tutaq ki, birinci reys olmadı, onda getməyəcəksən?

– Getməyinə gedəcəyəm, amma birinci reys rahat olur. Təyyarə də vaxtında gəlib qayıdır. Ona görə deyirəm birinci reys sərfəlidir, yoxsa neçənci reysə verirsən ver!

Qəfildən Daydayın yadına düşdü ki, növbədə dayanan qadınlar bir dəfə də ondan bilet alıblar. Deyəsən, Türkiyəyə gedib-gəlirlər. Əlindəki pasportları tez bir tərəfə qoyub üzünü növbədə duranlara tərəf tutdu:

– Yaxşı, məmləkətdə hörmət-izzət bu qədər itib? Görmürsünüz, növbədə iki nəfər qadın dayanıb? Heç olmazsa onları buraxın irəli gəlsin! Qorxmayın, hamınıza bilet çatacaq!

Daydayın "Qırışmal" dediyi adam hələ getməmişdi, pasportunu kassaya uzadan kəndçisinin bilet almasını gözləyirdi. Daydayın dediyi sözlərdən sonra dillənən də elə bircə o oldu.

– Ay Dayday, sən kassanı açanda dedin ki, növbəsiz heç kəsi buraxmayın! Nə oldu, növbəni sən özün pozursan ki? Dayday onun sözlərini cavabsız buraxmadı:

– Düzdür, mən dedim ki, növbəsiz heç kimi buraxmayın! Ancaq bu o demək deyil ki, siz də hörmət-izzəti salmalısınız ayağınızın altına, ayaqlamalısınız!

Dayday bu sözlərdən sonra heç kəsə fikir vermədən üzünü qadınlara tərəf tutub ucadan dedi:

– Ay xanım, irəli gəlin! Sizi yola salandan sonra bunlara bilet verəcəm.

Qadınlar da himə bənd imiş kimi irəli yeriyib pasportlarını Daydaya tərəf uzatdılar və Dayday pasportları aldı.

Dayday ədəb-ərkanla və sakitcə onlardan soruşdu ki, hansı reyslə getmək istəyirlər. Qadınlar da qımışa-qımışa bildirdilər ki, sən bilən məsləhətdir. Bu vaxt Dayday əvvəlkindən fərqli olaraq səsini xeyli ucaltdı ki, dediklərini hamı eşitsin:

– Ay nənənizə qurban olum, ağıllı-kamallı, ədəb-ərkanlı adam belə olar. Ta o birilər kimi ayaqlarını bir başmağa dirəyib "anam mənə kor deyib, gəlib gedənə vur deyib" söyləməkdən heç nə çıxmaz.

Sonra da əlavə etdi ki, deyəsən yol gəlib yorulubsunuz, keçin içəri bir az dincəlin, mən də biletləri qaydaya salım. Özü də qalxıb qapını açdı, içəri girən qadınlara divanda oturmaq üçün çox böyük nəzakətlə yer göstərdi. Dayday yenə kassanın pəncərəsinə tərəf döndü və əyri-üyrü ayaqları olan stulda oturdu. Elə bu an qoca bir kişi pəncərəyə yaxınlaşıb ucadan dedi:

– Ay bala, mənə bir bilet yaz, uşaq xəstədir, təcili Bakıya getməliyəm.

Daydayın səsi eşidildi:

– Ay əmi, növbən varmı?

– Ay bala, mənə nə növbə? 41-45-də Mozdoka qədər qan tökə-tökə getmişəm. Orden-medallarımı yaxama taxıb gəlsəydim, parıltısından gözün qamaşardı. Arvad ölənəcən mənə dedi ki, a kişi, bu orden-medalın heç bir faydası yoxdu. Götür bunları nəvələrinə payla, qoy iqruşka kimi oynatsınlar. İndi deyirsən, bu orden-medalın növbəyə dəxli yoxdur?

– Allah eləməsin, mən elə demədim. Mənim bildiyim budur ki, gərək növbədə olanlardan icazə alasan. Mənim üçün nə fərqi var ki, sənə bilet yazdım, ya başqasına.

– Ay bala, burada dayananlar məni növbəsiz buraxmasaydılar pəncərənin qabağına nətəhər gəlib çıxardım.

Dayday gördü ki, iş dolaşığa düşür, başqa cür danışmağa başladı:

– Ay əmi, bəlkə icazə verəsən, içəridə oturan bu iki zənəni yola salım, sonra sənin biletini yazım.

Qoca kişi əyilib pəncərədən içəri baxdı və gördü ki, iki zənən sus-pus divanda oturub. Sonra Daydaya üz tutub dedi:

– Ay bala, gecə səhərə qədər uşaqdan yana elə narahat olmuşam, bir çimir də eləməmişəm. Bəlkə icazə verəsən mən də gəlib içəridə oturam.

– Ay əmi, vallah, içəridə yer yoxdur. Yaxşı, onda gəl əvvəlcə səni yola salım, sonra zənənlərə bilet yazaram.

– Ay atan oldu rəhmət!

Elə bu vaxt qoca bir arvadın səsi eşidilməyə başladı:

– İki gündür bura ayaq döyürəm, hələ də bilet ala bilməmişəm. Dünəndən növbə tutmuşam. Əvvəlcə mən alım, sonra siz alarsınız.

Hamı qoca arvada tərəf döndü. Amma heç kəs dillənmədi. Arvad da heç kəsi saya salmadan düz qabağa gəlib qoca kişinin yanında dayandı. Hamının əvəzinə Dayday dilləndi:

– Xala, sənə nə lazımdır?

– Qurbanın olum, ay bala, təcili mənə bir bilet.

– Yoxsa Bakıda yağın daşır, niyə belə tələsirsən?

– Başına dönüm, ay bala, nəvələrimin üçü də birdən qızılca çıxarıb. Qızım da gündə zəng eləyir ki, gəlməsən uşaqlar əldən gedəcək!

– Ay xala, soruş gör növbədə duranlar sənə icazə verirlər, ya yox?

– Niyə icazə vermirlər? Əvvələn, dünəndən növbədəyəm. İkincisi də mən əmək veteranıyam. Düz qırx il kolxozda işləmişəm. Pambıq yığanda cavan qız-gəlinlər mənimlə yarışa girə bilməzdilər. Budu eey, qinişqamı da gətirmişəm.

Arvad cavab gözləmədən əlindəki bükülü yaylığı açdı və pasportla birgə veteran qnişqasını da Daydaya tərəf uzatdı. Elə bu vaxt qoca kişi səbrini basa bilməyib hirsləndi:

– Bir səbrin olsun, ay arvad! Görmürsən mənə bilet yazır?

Arvad da nəfəsini dərməmiş cavab verdi:

– Əlini tutmuşam, yazsın da! Bir də get evdəkinin üstünə qışqır!

– Evdəki evdədi ki?! Çoxdan sümükləri çürüyüb.

Elə bu vaxt Dayday qoca kişinin içində bilet olan pasportunu ona tərəf uzatdı və əlavə etdi ki, bileti sabah axşam reysinə yazdım. Rahat uçacaqsan.

Bir az əvvəl Daydayın "Qırışmal" dediyi oğlan hələ də kassanın qabağında dayanıb birlikdə gəldiyi kəndçisinin bilet almasını gözləyirdi. Bu əhvalatı diqqətlə izləyən həmin oğlan arvada üz tutub gülə-gülə dedi:

– Ay xala, Dayday qadınları içəri çağırır ki, bir az otursunlar, ayaq üstə durub yorulmasınlar. Sən də içəriyə keç! Odur iki nəfər də içəridə oturub bilet gözləyir.

Arvad bu sözə bənd imiş kimi pəncərədən kassanın içərisinə boylandı, qadınları gördü və Qırışmala cavab verdi:

– Xalanı o qədər də fərsiz bilmə! Əli belində forslana-forslana gedənlərə, əlini ağdan qaraya vurmayanlara ağlın getməsin. Səhərdən axşama qədər həyətdə ayağım altıma gəlmir.

Dayday qoca arvadın biletini yazıb verəndən sonra ucadan dedi:

– Daha heç kəsə növbəsiz bilet verməyəcəyəm!

Arvad “sağ ol” deyib kassadan uzaqlaşanda gözü Aptek Rəsulun butkasından çıxan Səhnəyə sataşdı və yanında olanların heç birinin fərqinə varmadan həyəcanını gizlədə bilmədi:

– Ay Səhnə, neçə vaxtdı yağlı əppək olub yoxa çıxıbsan! Bir de görüm, haralardasan, necə dolanırsan?

Səhnə də əlindəki vedrəni və süpürgəni aptek butkasının yanında qoyub arvada tərəf goldi. Qucaqlaşıb öpüşəndən sonra Səhnə dilləndi:

– Ay Gülsənəm, birtəhər dolanıram. Hərdən qıza baş çəkirəm, babat yaşayırlar. Oğlanlar da Urusetə gediblər, Allah eləməsin, elə bil əlli-ayaqlı yoxa çıxıblar. Bir bitik də yazıb göndərmirlər ki, öldü-qaldılarından xəbər biləm.

– Sağ-salamat olarlar, ürəyini sıxma!

– Ay Gülsənəm, sən de görüm kənddə nə var-nə yox? Səhər-səhər Qəssab Əlinin kiçik oğlunu gördüm. Bir az hal-əhval tutdum. Dolanışığınız necədir?

– Necə olacaq? Uşaqların hamısı Bakıya köçüblər. Kişiynən diz-dizə oturub günlərimizi sayırıq. Hərdən də uşaq vaxtı Hacı Muradın tayalarının yanında gizlənqaç oynadığımızı xatırlayırıq. İndi də Bakıdan qız xəbər göndərib ki, uşaqlar qızılca çıxarıblar. Mən də bilet almışam, təyyarə ilə Bakıya uçacağam. Bu təyyarəyə də minib-düşənə qədər elə bil o dünyaya gedib gəlirəm. Nə eləyim, əlac yoxdu! Getməliyəm!

Səhnə diqqətlə baxıb gördü ki, Gülsənəm elə bil tikan üstündə oturub. Ona görə də söhbəti yarımçıq kəsib, bircə o sözü dedi ki, qohum-tanışa məndən salam söyləyərsən. Gülsənəm də sağollaşıb uzaqlaşdı.

## 9.

Səhnə içinə süpürgəni qoyduğu vedrəni və ucuna əski sarınmış pol ağacını götürüb vağzalın qapısına tərəf üz tutdu. Gözaltı süpürdüyü və sildiyi yerlərə baxıb, nəyin pis, nəyin yaxşı olduğunu beynindən keçirdi. Birdən ağlına gəldi ki, neçə gündür vağzalın dəmiryoluna baxan pəncərələrini silmək istəyir, lakin vaxtı çatmır. Vaxtı çatmır deyəndə ki, Səhnə həmişə camaat vağzala axışan zaman, yəni vağzalın gur çağı başlayana qədər işini qurtarıb getmək istəyir. Səhnənin çalışdığı budur ki, həm görəcəyi işləri səliqə ilə yerinə yetirsin, həm də adamlar onu görməsin deyə tez evə qayıtsın. Hərdən də fikirləşir ki, bəs vağzalın rəisi neçə dəfə demişdi ki, ay Səhnə, bizi biabır eləmə, bir tikə çörəyin var, otur evdə dolan. Amma o vaxt Səhnə inad eləmişdi ki, Ağoşun gəzdiyi yerləri, oturduğu kabineti, dolaşdığı butkaların içini silib-süpürmək istəyirəm. Bununla da həm başım qarışacaq, həm də Ağoşun nəfəsini duyacağam.

İndi də Səhnə o ilki söhbətləri fikrinə gətirir, peşman olmağı barədə bir dəfə də olsun düşünmürdü. Amma vağzaldakı adamlardan gizlənmək istəməsinə özü də məəttəl qalmışdı. Məsələ burasındadır ki, bu barədə heç kəsə bir kəlmə də danışmamışdı. Onsuz da kimə danışsaydı, o adam Səhnəyə deyəcəkdi ki, özün günahkarsan. Pis də olsa, yaxşı da olsa bu işin səbəbkarı sən özünsən. Bir də özü yıxılan heç vaxt ağlamaz.

Yaxud başqa birisi təsəlli verəcəkdi ki, ay Səhnə, evdə oturub nə işlə məşğul olacaqsan? Yenə camaat içinə çıxırsan, birinə salam verib birindən salam alırsan, az da olsa özünə çörəkpulu qazanırsan. Sənin kimi ərsiz dul arvadlardan kim evdə oturubsa, elə bil pas atıb. Vallah, onlardan eləsi var ki, xeyir-şərə gələndə oturub-duruşundan xəcalət çəkirsən. Altdan-altdan göz qoyub fikir verirsən, söhbətinə qulaq asırsan, az qalır adamın əti tökül-

sün. Amma, ay Səhnə, sənin oturuşun-duruşun qız-gəlinlərə yenə bir dərsdir.

Səhnə öz-özünə dilinin ucunda deyinməyə başladı ki, keçən il Düyərlidəki sünnət toyunda o dul arvadlardan biri gəlib düz yanımda oturmuşdu. Yediyim-içdiyim hamısı burnumdan gəldi. Zalımın balası elə qoxurdu ki, Elə bil indicə tövlədən çıxıb bura gəlmişdi. Qorxmağı bir yana qalsın, fısıldamağı lap cana gətirdi məni.

Səhnə bunları fikirləşə-fikirləşə vağzalın qapısından çıxmaq istəyirdi ki, səhər-səhər kənddən işə gələn kürəkəni ilə qarşılaşdı. Əvvəlcə Səhnə dillənib soruşdu ki, ay bala, evdə nə var, nə yox? Fotoqraf Qadir də bunun əvəzində salam verib, sonra dedi ki, Allaha şükür hər şey yaxşıdır. Səhnə bir də qayıdıb dedi ki, ay bala, günortalar gəl evdə isti xörək ye! Azdan-çoxdan əlimə düşəndən bişirirəm. Həm də mənə bir-iki saatlıq qulaq yoldaşı olarsan. Fotoqraf Qadir də cavab verdi ki, bəs axşam evdə bişəndən bir tikə götürüb işə gətirirəm. Allah razı olsun! Səhnə yenə dedi ki, ay bala, keçən dəfə qız bizə gələndə söylədi ki, bəs həyətdə ağacın başından asılan elektrik lampası xeyli vaxtdır xarab olub, yanmır. Sonra da gileyləndi ki, bəs uşaqları gecə bayıra çıxaranda hər tərəf qaranlıq olur, uşaqlar da, mən də qorxuruq. Bu gün maaş verəcəklər, yadından çıxmasın, barı kəndə bir lampa al apar. Qadir də tez dilləndi ki, Ay Səhnə xala, narahat olma, keçən həftə alıb aparmışam. Səhnə də dedi ki, sağ ol, bala, bir-birinizdən muğayat olun.

Bundan sonra Səhnə ilə Fotoqraf Qadir bir-biri ilə sağollaşıb ayrıldılar. Amma Səhnənin nəzərindən bir şey yayınmamışdı. Nəzərindən yayınmayan o idi ki, kürəkəni söhbət elədikcə gözlərini "pol əskisindən" çəkmirdi. "Deyəsən tanımışdı ki, pol ağacının başına doladığı qızımın donundan kəsib düzəltdiyim əskidir".

Həmişə Novruz bayramından qabaq, daha doğrusu, axır çərşənbədə qohumlar bir-birinin evinə gedər, təbrik üçün əlində bir kiçik boxça da aparardılar. Kimi alma götürər, kimi də limon. Qoca arvadlara kəlağayı aparmaq daha çox dəbdə idi. Kirvəlik eləyən ailələrdə isə birinci ili həmişə ən qiymətli pay xoruz olardı. Xoruzu verərdilər sünnət edilən uşağın qoltuğuna, uşaq da Düyərlinin küçələrindən keçərək öz kirvələrigilə gedərdi.

Qız köçürənlərin birinci bayramlığı o qədər də asan başa gəlməzdi. Əvvələn qızın qayınanasına və qayınatasına gərək pay alaydın. İkincisi, qızın qayınları və baldızları yaddan çıxsaydı səhərisi kəndin ortasında bir yekə zurna çalınacaqdı. Üçüncüsü, kürəkənə də ən azı köynək, dəsmal və corab qoymalıydın. Dördüncüsü də qızın öz payı el-oba içinə çıxarılmalı pay olmalıydı. Çünki elə çərşənbə axşamı qonşulardan gələn qız-gəlinə pay göndərilən boxçanı açıb göstərməliydin. Onlar da göndərilən paya ya bir-bir baxıb başlarını bulayardılar, ya da razılıq əlaməti olaraq yavaşca mızıldanardılar. İnsafən Səhnə də qızının birinci bayramlığına xüsusi diqqət göstərmişdi. Cehiz paltarları kimi qızına hər şey qoymuşdu. “Novqod” vaxtı Ağoşun Urusetdən gətirdiyi qırmızı güllü donu da sandıqda gizlədib Novruz bayramına saxlamışdı. Bax Fotoqraf Qadirin diqqət yetirdiyi “pol əskisi” də köhnəlmiş həmin paltarın bir hissəsi idi.

Səhnə bütün bunları xatırlaya-xatırlaya divarın dibində qoyulmuş və səhər qabağında it yatan dəmir şkafın yanına çatdı. Əvvəlcə vedrə ilə süpürgəni şkafın bir küncünə qoydu, sonra isə başına əski keçirilmiş “pol ağacını” şkafın o biri küncünə dayadı. İndi də Səhnənin öz nəzərləri dikilib “pol əskisinə” qaldı. Bir anlığa Ağoşla Hacı Muradın tayalarının yanında gizlənqaç oynadıqları yadına düşdü. Sonra da necə oldusa, elə o vaxtlar Salatının Araza düşüb boğulmağı gözlərinin qabağından çəkilmədi.

Səhnə tez şkafın qapılarını örtüb sürətlə vağzaldan uzaqlaşmağa başladı. Elə vağzalın səkisindən dəmiryolunun üstünə

ayaq qoyan kimi Səhnəni ağlamaq tutdu. Maaş almaq da, aparıb Qəssab Əlinin oğlunun pulunu vermək də Səhnənin yadından tamam çıxmışdı. Səhnə istədi ki, dəmiryolunun üstündə oturub doyunca ağlasın. Səhnənin dəmiryolunun üstündə oturub ağlamağının heç bir qorxusu yox idi. Çünki neçə il idi ki, bu vağzala qatarlar gəlmirdi.

Amma Səhnənin qorxduğu o idi ki, ağlamağını görənlər olar. Beləcə Səhnə ağlaya-ağlaya da yoluna davam elədi. Amma Səhnə hələ də bilmirdi ki, oğlundan teleqram gəlib və poçtolyon da səhər-səhər həmin teleqramı gətirib onların darvazasının yanındakı daşın altına qoyub. Teleqramda bu sözlər yazılmışdı: “Ana, təbrik edirəm. Qardaşlarımı tapmışam. Rəşid”.

## EPİLOQ ƏVƏZİ

Ağoşla Səhnənin bir baməzə qohumu varıydı. Onu tanıyırdınmı, ay Baftalı Salahın nəvəsi?

– Kimi deyirsən?

– Maarifdə inspektor işləyən Murtuz müəllimi deyirəm.

– Bəli, bəli, tanıyırdım, ay Məşədi Vəli kişi.

– İnanmıram. O qədər də yaxşı tanımazsan. İndi Murtuz müəllimdən bir əhvalat danışım, onda biləcəyəm tanıyırdın, ya yox?

– Bəlkə də yaxşı tanımamışam, nə deyim?

– Müəllimlərin hamısı dərsə başlamazdan əvvəl avqustun axırlarında maarifə kedib təzə əmrlərini alardılar. İki barmaq boyda bir kağıza yazılmış əmri alan hər kəs Murtuz müəllimə bir manat verərdi. Murtuz müəllim də dədəsinin malı kimi manatları götürüb sürməyə atardı. İstidən yerin bağrı çatlayan avqust günlərinin birində İnkevedi Həsən Murtuz müəllimin yanına gəlib məktəbdə rus dili müəllimi işləyən arvadının əmrini alandan sonra ədəb-ərkanla və dinməz-söyləməz bir kağız manat çıxardıb stolun üstünə qoyur. Bu zaman Murtuz müəllim iki əlini yuxarı qaldırıb ucadan deyir ki, mənə lazım deyil, pulunu götür, cibinə qoy! İnkevedi Həsən də cavab verir ki, müəllimlərin əmrini verəndə hərədən bir manat almağını rayonda hamı bilir. Mən də düşündüm ki, nə olar inkevedidə işləyəndə, palaza bürün, elnən sürün. Onda Murtuz müəllim qayıdır ki, elədirsə, etirazım yoxdur. Amma mənə yaxşılıq eləmək istəyirsənsə, get dəmir manat gətir! Dəmir manatın üstündə nömrəsi olmur. İnkevedi Həsən də sakitcə gedib Murtuz müəllimə bir dəmir manat gətirir.

– Bax, bunu eşitməmişdim, ay Məşədi Vəli kişi!

– Hələ sən çox şeyləri eşitməmisən, ay Baftalı Salahın nəvəsi!

***Basqal, iyul-avqust 2000***

# ŞEİRLƏR

# UZAQ İLLƏRİN ŞEİRLƏRİ

## ANAMA MƏKTUB

Ana, gələcəyəm mən kəndə hərdən,
Gələcəm rahatlıq bürünə köksün.
Bir də istəmirəm hər sünbül, hər dən
Mənim yoxluğuma göz yaşı töksün.

Bilirəm, gəlməsəm yollar boyunda,
Söyüd kölgəsindən kövrəklənərsən.
Gəlməsəm bir oğlan, bir qız toyunda,
Oynasan fikirlə bizə gələrsən.

Ana, təzə evə xalçalar sərin,
İstisə düzəldin bir azca ovduq.
Qohum, tanışlara xəbər göndərin,
Bəlkə, ikilikdə gələsi olduq.

***1972***

## QATARLAR

Mənzildən mənzilə insan daşıyar,
Sevinci kədərə qatan qatarlar.
Qatarlar yollarda ömür yaşayar,
Ölütək görünər yatan qatarlar.

Nəğməyə bənzəyən qatar səsindən,
Kimlərsə dayanıb yerində qalar.
Hamının qatara göz dikməsindən,
Günbəgün saralar, solar qatarlar.

Həsrətli olanlar qatar izləyər,
Nənəm də qucaqlar hey dizlərini.
Hər gün bax beləcə nənəm gözləyər,
Gedib qayıtmayan əzizlərini.

***07.06.1977***

## PƏNCƏRƏ

Pəncərə dalında durursan hərdən,
Baxışın yol boyu salam göndərir.
Elə uzaqdan da eşidirəm mən,
Sənin sözlərini qulağım dərir,
Baxışın yol boyu salam göndərir.

O qədər sildin ki, sən pəncərəni,
Mənim pəncərəm də buna öyrəşdi.
Pərdələr geriyə çəkəndə səni,
Şüşələr deyindi: ax, bu nə işdi?
Mənim pəncərəm də buna öyrəşdi.

Pəncərəm hey yanır, oda düşübdü,
Ah-fəğan eyləyir onu hər görən.
Pəncərəm yamanca moda düşübdü,
Bilmirlər səbəbkar sənin pəncərən,
Bilmirlər günahkar sənin pəncərən.

***1972***

## SEVGİ ŞEİRİ

Sənin könlün olsa, bircə anlığa,
Dünyanı ovuca yığmağa nə var?!
Sənin könlün olsa, oda, yanğıya,
Göydə işıq olub yanmağa nə var?!

Şaxtada, boranda, sazaqda qalsam,
Sənin nəfəsinlə diriləcəyəm.
Quş kimi yüksəlib göylərə qalxsam,
Sənin həsrətinlə tez enəcəyəm.

Sənin könlün olsa, ay könlü olan,
Bircə an içində bir uca dağam.
Bircə yol desən ki, başıma dolan,
Bütün ömrüm boyu dolanacağam.

***1974***

## QIZ PORTRETİ

Saçları nə qədər qəribə imiş,
Axan şəlalətək düşmüş çiyninə.
Saçlar bir sığala çox qəribsəmiş,
Dodaqlar lal kimi dayanmış yenə.

Dərd, kədər bir azca başını əyib,
Gözündə bir həsrət düyünlənibdi.
O al yanaqlara öpüş dəymәyib,
Fikrinə sevgidən nur ələnibdi.

***1974***

## SƏRBƏST ŞEİR

Ən sevimli dostuna sən
demisən ki,
fərqi yoxdur
kiməm, nəyəm,
Təkcə ona gedəcəyəm.

Sonra bunu eşidibdi
bir özgəsi,
bir özgəsi,
Hərə ağzında bir söz biçib,
bir söz kəsib.

Bu kəlmənin sərhədləri,
son hədləri,
Üç ev boyu,
beş ev boyu,
məhlə boyu,
bir kənd boyu
Böyüyübdü.
Bir özgənin elçiləri
bu sədanın havasiylə
Qapınızı tez döyübdü.

Demisən ki,
fərqi yoxdur
kiməm, nəyəm,
Təkcə ona gedəcəyəm.

Mənim səni sevdiyimi
deməmişəm heç bir kəsə,

demәmişәm heç sәnә dә
yaymamışam ağız-ağız.
Mәnim sәni sevdiyimi
Axı hardan öyrәnmisәn,
a mәsum qız?

***20.11.1975***

## UCUZLAŞMIŞ MӘHӘBӘT

Mәcnunun ürәyindә qalan mәhәbbәt,
Leylinin qәlbindә olan mәhәbbәt,
Onlarla bir yerdә getdi dünyadan.
Sonra mәhәbbәt keçdi әllәrә,
Mәhәbbәt bu әldәn o әlә
ötdü dünyada.
Hәlә ada-sana
sayılan vaxtı da
var idi,
Sevginin.
Özgәyә hәdiyyә verilәn baxtı da
var idi,
Sevginin.
İndisә mәhәbbәt yellәncәk kimi,
Yellәnir, baxan yox ağ-qarasına.
İndi mәhәbbәti
qoyublar
Ucuzlaşmaş mallar
mağazasına.

***1975***

## SEVGİ SINAĞI

Gecə görüşərik səssiz-səmirsiz –
İstəklər yuxuya köçərmiş, gülüm.
Gözümdə tənhadır hər cığır, hər iz,
Baxış da qəriblik çəkərmiş, gülüm.

Qollarım uzalı qalıbdı indi,
Sənin həsrətinin heykəli kimi.
Nə olar, bircə yol sən məni dindir,
Ya da ki uzaqlaş, öldür sevgimi.

***1976***

## BİR ANDA YAZILAN ŞEİR

Önümdə bir alov, bir od dayandı,
İlahi, bilmədim qiblə hayandı.
Dodağım su üçün alışdı, yandı,
Elə bil su idi, o axdı getdi.

Bir günəş qarşımı saxladı, kəsdi,
Nəfəsdən donuxdum, bu nə nəfəsdi?
Heyrətdən dizlərim titrədi, əsdi,
O ayaq insafsız ayaqdı, getdi.

Onunçün ağlasam mən göz silmərəm,
Hardadı inləyə bir "Yanıq Kərəm",
Bu dərdi gorda da çəkə bilmərəm,
Gözüylə ötəri o baxdı getdi.

***1977***

## QOŞMA
## (Fransız dili müəlliməsinə)

Mən sərxoş deyiləm, nə məstlik, nə dəm?
Heç ürək qalıbmı bir addım gedəm?
Toxunsan qaydası pozular o dəm, –
Telləri yanlarda qırışıb tamam.

Yerişin işvəsi ürək yıxanda,
Gülüşü dodağa yayıb sıxanda,
Buxağın ağlığı üzə çıxanda,
Zirvədən heyrətlə qar aşıb tamam.

Yaşıldır sürməsi, yaşıldır şalı,
Üzündə görünməz fikri, xəyalı,
Ögey baxışlardan yayınan xalı,
Qaynayıb kirpiyə qarışıb tamam.

***08.04.1977***

## GÜLÜM, AY GÜLÜM

Saçların şəlaləmi?
Yanaqların laləmi?
Yandır bütün aləmi?
Gülüm, ay gülüm.

Baxışın dənər-dənər,
Göydən yerə qəm yenər,
Səni sevən öyünər,
Gülüm, ay gülüm.

Dindirmisən, dinmişəm,
Səsindən isinmişəm,
Sən nəğməyə dönmüsən,
Mən nəğməyə dönmüşəm,
Gülüm, ay gülüm.

***1978***

## NƏNƏMİN NAĞILI

Çadrası çiynindən düşməz nənəmin,
Qapıbir qonşuya yol alanda da.
Qonşuda unudar kədərin, qəmin,
Nənəmə dərmandır – qonşu dünyada.

Nənəm bir az keçər qayıdar evə,
Qayıdar fikirli, qayıdar məhzun.
Çadrasın çıxarıb o atar evə,
Nağıla başlayar, nağılı uzun.

Kiçik nəvələri dörd dövrəsində,
Nənəmin ağzına baxar-baxarlar.
Bəzən sözlər titrər onun səsində,
Nəvələr bilməzlər nağılda nə var.

Nağılda danışar hər cığır, hər iz,
Nəvələr dinləyər onları bir-bir.
Nənəmin nağılı şeytansız, cinsiz,
Özü yaratdığı əfsanələrdir.

***05.07.1972***

## DİVAR

Kəndin ortasında bir adi divar,
Dağlara boylanar hey qərib-qərib.
Gözümü açandan divar orda var,
Elə bilmişəm ki, yerdən göyərib.

Elə ki yetişdi yay axşamları,
Qocalar yığışıb divar yanına.
Tez-tez yandırıblar siqar-şamları,
Divarsa tüstünü çəkib canına.

Qocalar bir yuxu deyib yozanda,
Yuxu həsrətlisi divar dinməyib.
Çox zaman sükutu təsbeh pozanda,
Arxayın kürəklər divara dəyib.

Bir gün iki köpək batıb qanına,
Divarın dibində bərk boğuşdular.
(Axı, bu qədər də boğuşmaq olar?)
O vaxtdan o köhnə divar yanına,
"İt boğuşan yerdir", – dedi uşaqlar.

O sözdən belini tez əyən divar,
Ağnayıb dağları süzə bilmədi.
Qoca nağılını dinləyən divar,
Uşaq tənəsinə dözə bilmədi.

***15.11 1976***

## GÖY GÖL

Elə bil göylərin kiçik parçası,
İnsana həsrətdən düşübdür yerə.
Kəpəz də unudub kədəri, yası,
Heyrətdən bölünüb bir neçə yerə.

Heç kəs qaçırmasın Göy gölü, – deyə,
Qoç dağlar əl tutub çəkirlər keşik.
Qalın meşələr də alıb dövrəyə,
Bu gözəl gəlinə qurub ev-eşik.

Yaman utancaqdır, billəm halını, –
Çətin tapacaqdır bir tay özünə.
Cehiz gətirdiyi mavi şalını,
Yavaşca salıbdır Göy göl üzünə.

***07.07. 1972***

## QORXURAM

Arxanca baxmağa qorxuram yaman,
Qaranlıq gecədən qorxmuram belə.
Gözlərim gizlədər səni hər zaman,
Bəs niyə qorxuram, qorxuram elə?

Arxanca baxmağa qorxuram yaman,
Birdən baxmağımı görənlər olar.
Bilirlər qəlbimdə olarsan hər an,
Onda özgələrdən bəs nə qorxum var?

Xəyal sularilə üzən gəmimdə,
Sən mənə ülvilik timsallı yarsan.
Arxanca baxdığım vüsal dəmində,
Qorxuram, çevrilib mənə baxarsan,
Qorxuram, çevrilib mənə baxarsan,

## YAZ GƏLƏNDƏ

Uca dağlar ağ örpəyin silkələr,
Qoca palıd yol üstündə kölgələr,
Göylər yerə xəlbir-xəlbir su ələr,
Yaz gələndə.

Yarpız iyi süfrələrin qonağı,
Tər lalələr yamacların yanağı,
Quzular da başlayarlar "Qaytağı",
Yaz gələndə.

İlk körpələr boylanırlar sağ-sola,
Anam deyər: "Yalın çıxma sən yola,
Qan qaynayar, qan oyanar, ay bala",
Yaz gələndə.

Qız-gəlinlər zəmilərə tökülər,
Qarış-qarış hər bir tərəf əkilər.
Kaş qəlblərdən umu-küsü çəkilə,
Yaz gələndə.

***25.03.1978***

## KƏND CAVANLARI

Bu kəndin cürətli od cavanları,
Qonşudan-qonşuya əl uzadarlar.
Cavanlar bu kəndin dövləti-varı,
Kəndimiz onlarla səadət tapar.

Bir mağar quruldu, bir toy başladı,
Demək, bu mağarda yallı gedən var.
Bu kənd cavanları əl ki yaşladı,
Bu kəndin toyları göylərə qalxar.

Onlar övladıdır bu yurdun, elin,
Kəndi qaldırarlar çiyinlərinə.
Vədəsi yetəndə əsgər şinelin
Vüqarla geyərlər əyinlərinə.

Onların gizlicə sevməyi də var,
Onların ürəyi əridər qarı.
Kəndə yox, dünyaya dayaq durarlar,
Bu kənd cavanları, kənd cavanları.

## MƏN ÜRƏK GÖRMƏMİŞDİM…

Ürək ömrü az eylər,
Ürək ömrü yaz eylər.
Mən ürək görməmişdim,
Ürək necə naz eylər?

Ürək təzə gəlindi,
Ürək mənim dilimdi.

Mən ürək görməmişdim,
Ürək necə həlimdi.

Ürək ürək saxlayar,
Ürək ürək dağlayar.
Mən ürək görməmişdim,
Ürək necə ağlayar.

Ürək ürək sanarmış,
Sevgi ürək sınarmış.
Mən ürək görməmişdim,
Ürək necə sınarmış.

Bulaq başı yaş olar,
Göz üstündə qaş olar.
Mən ürək görməmişdim,
Ürək necə daş olar.

## İTİRİLMİŞ SEVGİ

Uşaq vaxtı topum itdi,
Şəkilli kitabım itdi,
Qələmlərim itdi bütün,
Çantam itdi bir gün,
Almadım heç vecimə.

Əlimdə oynatdığım,
Balıncımın altına
Hər gün qoyub yatdığım
Aşıqlarım da itdi.
Söyləmədim heç kimə.
Uşaqlıq günlərim də,

Bütün gənclik çağım da
İtdi… Düzü bilmədim,
Hər nə itirdimsə mən,
Ağlayıb göz silmədim.

O vaxt hər nə itsə də,
Qəlbim yerində idi.
İndi sevgim yox olub,
Dəyişmişəm büsbütün:
Çünki ürəyim itib.

## XATİRƏ

O yerə toxundu ayağım yenə,
Ağaclar göz dikdi köhnə tanışa.
Bizdən bu yerlərdə nə qaldı, de nə?
Ötüşən günlərdən deyib danışa.
Ağaclar göz dikdi köhnə tanışa.

Yarpaqlar yazıbdı pıçıltımızı,
Bu ağac keçmişin şahidi kimi.
Bax, burda dünyanın ən məsum qızı,
Adi baxışıyla didib qəlbimi.
Bu ağac keçmişin şahidi kimi.

Bu kiçik nöqtədə dururam hərdən,
Bilmirəm ömrümə nə qədər qalıb.
Sevincli, kədərli olan bu yerdən
İndi mənim üçün tək kədər qalıb,
İndi mənim üçün tək kədər qalıb,

***07.10.1976***

## BİR QIZ HAQQINDA BALLADA

Getdin, tanımadım heç ünvanını,
Biləydim, dostlara deyəydim səni.
Bu böyük şəhərdə sənə tay hanı?
Həmişə unutdun gəlib gedəni.

Gəmi də xatirə olarmış, ay qız,
Adi dalğalara ümid gətirdin.
Ləpələr saçını yolarmış, ay qız,
Bəs bu məhəbbəti niyə itirdin?
Sən ki dalğalara ümid gətirdin.

## YUXULAR

Gecə yuxumda da dənizlər üzər,
Arxanca aydınlıq səpilsin deyə.
Yuxumda gözlərin bağrımı üzər,
Oyanmaq da gəlmir qorxudan heyə.

Qaranlıq gecənin yuxu yolunda,
Yanaşı getmirsən mənimlə yenə.
Qohum, tanış yoxdur, bəs söylə onda,
Səni yaxınlıqda nə qorxudur, nə?
Yanaşı getmirsən mənimlə yenə.

Gözümdə dolaşan ayaq izlərin,
Gəlib yuxuda da çaşdırır məni.
Xəyallar uçuşur, qaranlıq – dərin,
Yuxumu görürəm yuxuda səni?

Tulla bir tərəfə kədəri, kini, –
Neynirəm bürüncək, heç üşümürəm.
Mən sənə torpağam, mən sənə yerəm,
Bütün yuxuların tilsimi kimi
Səni yuxumda da başa düşmürəm,
Səni yuxumda da başa düşmürəm.

***20.11.1976***

## DƏNİZ HEKAYƏSİ

Dalğalar içində, ləpələr üstdə
Dünya öz sirrini açan dünyadı.
Dənizin suyunu bir qədəh kimi
Bu dünya başına çəkən dünyadı.

Günəş saçlarını sərib darayar,
Üfüqlər bir əngin dəniz arayar.
Ayın bu dənizdə naxışları var
Bu dünya xalçada uçan dünyadı.

Ləpələr sahili yalar duz kimi
Sahil ləpələrə şirin qız kimi.
Qumlar axar suya bir ulduz kimi
Bu dünya fələkdən qaçan dünyadı.
Bu dünya fələkdən qaçan dünyadı.

## GETDİLƏR

Oğullar gedəndə fikirlər haça,
Oğulları yaladılar, öpdülər.
Oğullar gedəndə arxalarıca
Su yerinə göz yaşını səpdilər.

Oğullar gedəndə durnalar kimi
Bacılar yollara gəlib qondular.
Oğullar gedəndə bir vüqar kimi
Analar kandarda qalıb dondular.

Getdilər qol-qola, bir halay kimi,
Kənddən toyları da apardı onlar.
Getdilər hay kimi, bir haray kimi,
Kəndin ürəyini qopardı onlar.

Getdilər, güllələr insan keyitdi,
Min istək, min ümid, min arzu qaldı.
Analar əzabla oğul böyütdü,
Analar oğula tamarzı qaldı.

Hər addımda, hər qarışda, hər səddə,
Onlar qəlpə oldu, al qan oldular.
Qaldı sevdikləri gözəllər kənddə,
Getdilər vətənə qurban oldular!
Getdilər vətənə qurban oldular!

## GÖZƏLLİK

Qızların çiyinə saç tökməsini,
Qəmzəli baxmağın görmüsənmi heç?
Barmaq toxundurub qırçın tellərə,
Astaca-astaca hörmüsənmi heç?

Gözəllər yuxuya axışıb gələr,
Gələr küsənlərlə barışmaq üçün.
Ötən xatirələr yığışıb gələr,
Ömrün günlərinə qarışmaq üçün.

Vüsal bulaqları ayrıca axar,
Hamının həsrəti yaşıtdır ancaq.
İnsan gözəlliyi dağıdar, yıxar,
Gözəllik insanı yaşadar ancaq.

## SEVGİ ƏZABI

Yenə dalğın-dalğın gileylənirsən,
Dünyanın əzabı sənəmi qalıb?
Əzizim, göylərdən bir gün enərsən,
Bu enmək gününə deyən az qalıb.

Bəsdir gecələri geydin əyninə,
Soyun bu libası gündüz qısqanar.
Gəzdin küçələri uzun-eninə,
Bəsdir, küçələr də alışıb yanar.

Ürəyin bir heyrət yuvası imiş,
Bu dünya heyrəti səndən alıbdı.

Məcnunun sevgisi eşq havasıymış,
Bax burda Füzuli lap aldanıbdır.

Sən qaçma, tələsmə, bir azca dur ki,
Nə isə deməyə söz yenə qalıb.
Əzizim, xoşbəxtlik elə odur ki,
Dünyanın əzabı tək sənə qalıb,
Dünyanın əzabı tək mənə qalıb,

***04.03.1977***

## QƏRİBƏ TALE

Mənim sevgi adlı bu dünyama sən,
Səssizcə gəlmişdin, harayla getdin.
Axırda gördüm ki, sən də eləsən,
Haradan gəlmişdin, haraya getdin.
Səssizcə gəlmişdin, harayla getdin.

Barı heç bildinmi orada nə var,
Yoxsa ki kədərdən qorxu çəkmisən?
Gedirsən, sevinci özünlə apar,
Bütün qəm-qüssəni mən çəkərəm, mən.
Yoxsa ki kədərdən qorxu çəkmisən?

Gec gəldin, tezcə də yox oldun, gülüm,
Belə tez-tələsik sevgi olarmış?
Bəs indi bir söylə, mən necə gülüm, –
Mənim nə qəribə taleyim varmış?!
Belə tez-tələsik sevgi olarmış?

## HƏSRƏT

İşıqlar göz vurur şəhərdə yenə,
Onlar da gecənin vurğunlarıdır.
Ürək istəyirəm elə döyünə,
Billəm ki, bir qətrə atəşi vardır.

Bir gözəl yeriyə ayaq izində,
Məhəbbət görünə, sevgi görünə.
Saçını tökdüyü o ay üzündə
Sevinc gülümsəyə kədər yerinə.

Qaranlıq beşiyə yığıb hamını,
Gecə yırğalayar bir ana kimi.
Görüş vaxtlarının hər bir anını
Saxlayar qəlbində duyana kimi.

Gedirəm, üstümə qəriblik yağır,
Tək gəzən qızları islatmırmı o?
Bu gecə içində hər qəribəlik,
Mənə layla çalır, heç yatmayır o!
Tək gəzən qızları islatmırmı o?

## BUZ EYLƏ MƏNİ

Ürəyim qovrulur sənin odunda,
Bəsdir od olduğun, indi ayaz ol.
Nə olar qoy duyum buzun dadın da,
Şaxta ol, soyuq ol, bir gün bir az ol.

Donsam, donacaqdır baxışım mənim,
Sənin gözlərin də özgə olacaq.
Xəyallar qəlbimə kəsilib qənim, –
Kükrəyən köksüm də küsüb qalacaq.

İzlərim izinə ilişməyəcək,
Tənha görünəcək o ləpirlərin.
Təkliyin qəlpəsi sənə dəyəcək,
Səni qarsıyacaq od ləpirlərin.

Baxmaram, dinmərəm, axı nə sayaq?
Gözümdən, sözümdən sənə deyərlər?
Heç kəs məndən sənə danışmayacaq,
Axı donuqluqdan de, nə deyərlər?

Mənə tay tutma sən ötüb keçəni,
Mən odam, alovam, mən od oğluyam.
Şaxta ol, soyuq ol, buz eylə məni,
Onda bilərsən ki, mən də odluyam.

***20.01.76.***

## ŞƏRUR BALLADASI

## I

Babam "Şəril" deyib bizim Şərura,
Adında gözəllik, şəlaləlik var.
Bir bax dağlardakı qüvvət – qürura,
Toxunsan qayalar yerindən qopar.

Dədəm Qorqud ötüb burdan qopuzla,
Səsindən Arpaçay uzalı qalıb:

– Niyə dayanmısan, bir sən də sızla,
Çobanın fəryadı dünyanı alıb.

Şərurdan yaylağa elat köçəndə,
Zurnaçı bir yallı – "Gülüm ey" çalıb.
Deyirlər Xətayi burdan keçəndə,
Hiddəti, qəzəbi əmanət qalıb.

Bir zaman nazlanan Şərur düzündə,
"Çay dəsgahı" qurub o Mirzə Cəlil.
Babalar neçə yol qoyun küzündə,
Füzuli ahını ötüblər dil-dil.

Yayın qızmarında odda yanaraq,
Ürəkdə kükrəyib, soyuyub Şərur.
Qışda qar içində xumarlanaraq,
Nağıllar qoynunda uyuyub Şərur.

**II**

Motorlar hayqırır, göy də diksinir,
Arpaçay küsübdür, yavaşca dindir.
Qorxudan sular da çaylağa sinir,
Arpaçay sərhədə düşübdür indi.

Ey insan, yaxın gəl, sən yaxşı bax bir,
Yatmayıb əsgərtək ayıqdır Şərur.
Yuxulamaq nədir, uyumaq nədir?
Çimir də almayıb, oyaqdır Şərur.

## BİR OTAQ HAQQINDA BALLADA

Dəniz uğultusu eşitməz bu ev,
Sığınıb şəhərə qəriblər kimi.
İstərsən üz çevir, istəyirsən sev,
Bu evdə titrəyər qəlblərin simi.

Bu evdə kağızlar söyüdlər təki,
Utana-utana baş əyibdilər.
Bu evdə şəkillər igidlər təki,
Heç kəsin qəlbinə dəyməyibdilər.

Divarlar bəzənib gəlinsayağı,
Onlara toxunsan qəbahət olar.
Bu evdə hər stol, stul ayağı,
Yalqız adam kimi xəyala dalar.

Nə qədər xatirə dil açıb burda,
Nə qədər xatirə əriyib gedib.
Gözəllər xəyaltək hey qaçıb burda,
Gözəllər səssizcə səyriyib gedib.

Bir otaq yaşayır şəhərdə hələ,
Yorğun adam kimi hey baş əyir o.
Burada arzular dönsə də ilə,
Kimisə həsrətlə gözətləyir o.

## HƏSRƏTİNDƏYƏM
**(Aşıq Ələsgərsayağı)**

Sənin buxağını görəndən bəri,
O al buxağının həsrətindəyəm.
Qaşının, gözünün, baxışlarının,
Bir də yanağının həsrətindəyəm.

Heyrətdə qoymusan gəlib gedəni,
Dodağa həsrətdir incə dəhənin.
Ay gözəl, bilirsən, o şux bədənin,
Solunun, sağının həsrətindəyəm.

Mən səni görəndə könlüm qovrular,
Baxışım arxanca dikilib qalar,
Çox deyil, bir kiçik umacağım var:
İsti qucağının həsrətindəyəm.

## KƏDƏR DUYĞUSU

Bir şəklə baxdım, adi bir şəkil,
Bir oğlan bir qızla durub yanaşı.
İnan ki ötsə də neçə-neçə il,
Orda qəribliyi görər hər naşı.

Kiminsə istəyi burda kövrələr,
Kükrəyər, dayanar qatarlar kimi.
Burda ayaq açan şübhələr gələr,
Ölçüsüz şübhələr – birmi, ikimi?

Yersiz hərəkəti baxış süzəndə,
Yad notlar həmişə ürəyi dələr.
Deyirəm adamlar dünya üzündə,
Kədəri duyanda şəkil çəkələr.

## SUAL

İzlərin izimə qarışdı o gün,
Ömrümüz bir olub qarışmamışdan.
Bir könül od tutub alışdı o gün,
Alışdı, ürəyin alışmamışdan.

Bircə yol arxana dönüb baxmadın,
Bir həsrət o axşam səni sıxdımı?
Şimşəktək titrəyib niyə çaxmadın?
Qəlbinə o axşam sevgi axdımı?
Bir həsrət o axşam səni sıxdımı?

## YALQIZLIQ

Getdin qəribliyin dondurdu məni,
Sənin baxışların lap minnət imiş.
Mən necə unudum olub keçəni?
Demə hər dəqiqən qənimət imiş.

İzimiz yollarda qol-boyundular,
Mən burda tək-tənha yalqız kimiyəm.
Səsimiz, sözümüz elə yandılar,
Özüm də bilmirəm nəçiyəm, nəyəm?

Gülüşün səpilib küçə boyunca,
Qarlar da əridi gülüşlərindən.
Mən niyə baxmadım sənə doyunca,
Sən niyə baxmadın mənə dərindən.

Bu nədir, üstümü alıbdır ölüm,
Ürəyim hey qaçır, elə bil hürküb.
Sənin yoxluğundan gülüm, ay gülüm,
Şəhər də yetimtək boynunu büküb.

## TOY

Neçə ürək qızınmadı
o toy günü,
Talelərin talelərə
yolu bumu?
Od-alovdur isindirən
toy-düyünü,
Bu od-alov bir ürəyin
odudumu?
Nəğmə qalxdı fikir-fikir,
dolay-dolay,
Nər cavanlar yer qazıdı
ayağıyla.
Böyüklər də yallı tutdu
halay-halay,
Burda kimdir bir iş tutan
öz ağlıyla.
Dayan, ey dost, bir ürəyin
şad yaşamaq xatirinə,
Neçə-neçə şad ürəyi
yandırdın sən.

Bu arzunu söyləmədin
dostlarının heç birinə,
Neçə-neçə dost ürəyin
sındırdın sən.
Dayan, dayan,
bu mənalar sevgidimi?
Bu mənalar
bir taledən bir taleyə
vergidirmi?
Hansı insan qəlbi idi
bu əməli ilk düşünən,
ilk daşınan?
Bu iş oldu de yaşınan,
ya başınan?
Toy səsindən
buludlar da daldalanır,
buludlar da kölgələnir,
buludlar da gilələnir.
Bilən varmı
bu büsata kimlər gəlir?
Kimlər gəlir?
Nə qəribə toyu varmış
de bu kəndin?
Haralarda tayı varmış
de bu kəndin?
Ədavətdən yoğrulmuşmu
hər addımı, hər qarışı?
Bu torpağa bəs nə vaxtdan
şər qarışıb?
Səs-səmiri söyüş olub
qonşuların,
Arzuları döyüş olub

qonşuların.
Hər döngədə inad olub,
Neçə qardaş doğma ikən
düşmən olub,
lap yad olub.
Elə bil ki bərəkətin qanunları
bərk çaşıbdı,
İşə bax ki toya həsrət
bax bu kəndin
Toyları da özü üçün yadlaşıbdı.

## SEVGİ SÜKUTU

Bir kəlmə danışıb dinə bilmədim,
Arzum dodağıma qısılı qaldı.
Yenə sevinmədim, yenə gülmədim,
Baxışım gözündən asılı qaldı.

Dilim özgələri nişan eylədi,
Sən demə fikrimin axarı itib.
Sözlər ürəyimi şan-şan eylədi,
Sandım ki, ömrümün axırı yetib.

Əvvəlki dolaylar, əvvəlki izlər,
Qoynunda aparıb gətirdi bizi.
Yollar da bu qədər insan əzizlər?
Döngədən-döngəyə ötürdü bizi.

Mən yenə danışıb dinə bilmədim,
Arzum dodağıma qısılı qaldı.

Yenə sevinmədim, yenə gülmədim,
Baxışım gözündən asılı qaldı.

***26.10.1976***

**YUXULAR**

Gecə yuxumda da dənizlər üzər,
Arxanca aydınlıq səpilsin deyə.
Yuxumda gözlərin bağrımı üzər,
Oyanmaq da gəlmir qorxudan heyə.

Qaranlıq gecənin yuxu yolunda,
Yanaşı getmirsən mənimlə yenə.
Qohum, tanış yoxdur, bəs söylə onda,
Səni yaxınlıqda nə qorxudur, nə?
Yanaşı getimirsən mənimlə yenə.

Gözümdə dolaşan ayaq izlərin,
Cığır yuxuda da çaşdırır məni.
Xəyallar uçuşur, qaranlıq – dərin,
Yuxumu görürəm yuxuda səni?

Tulla bir tərəfə kədəri, kini, –
Neynirəm bürüncək, heç üşümürəm.
Mən sənə torpağam, mən sənə yerəm,
Bütün yuxuların tilsimi kimi
Səni yuxumda da başa düşmürəm,
Səni yuxumda da başa düşmürəm.

***20.11.1976***

## GİZLİ SEVGİ

Baxırsan, baxışın nəğmə biçimli,
Gözlərim uyuyur baxış içində.
Bizim söhbətimiz bir su içimli, –
Hələ ki sevgimiz naxış içində.

“Dayan” söyləyirəm durursan o dəm,
Vəfadan deyirəm, dodaq büzürsən.
Elə ki vaxt gəlir ayrılıb gedəm,
“Nişanlıyam” deyib dodaq büzürsən.

Elə ki yanaşı keçdik küçəni,
Deyirsən vaxtını eyləmə hədər.
Ay gözəl, nə dərdim, görəndə səni,
Mən ki ötürürəm düz evə qədər.

## BEZİKMİŞ ÖMÜR

Qar yağır başıma, bir yuxulu qar,
Buluddan küsənlər yerəmi enir?
Ay cığır, məni də sən götür apar,
Bu küsən ürəyim yaman döyünür.

Bir gözəl sındırdı ümidlərimi,
Sınmış ümidlərin muzeyi varmı?
Aldılar əlimdən qəm, kədərimi,
Qəmsiz, kədərsiz də sevgi olarmı?

Gözəllər, bircə yol çevrilin geri,
Dünyanın bezikmiş insanı gəlir.
O duymur günəşi, görməyir yeri,
Həsrətin oxları bağrını dəlir,
Dünyanın bezikmiş insanı gəlir.

## MƏHƏBBƏTİN ODU

Əllərin əlcəyə toxundu, gülüm,
Az qaldı yerindən qopsun ürəyim.
Gözündə məhəbbət oxundu, gülüm,
Bir az da gülümsə, gülüş görəyim.

Gecə istəyirəm sənlə danışam,
Üz-üzə gələndə dilim gəlməyir.
Bu nədir? Heyrətdən elə yanmışam,
Qəlbim hey döyünür, heç dincəlməyir.

Mən sənsiz heç yeri gəzə bilmirəm,
Fikrim xəyalınla bir yerdə üzür.
Mən sənin oduna dözə bilmirəm,
Pillələr oduna bəs necə dözür?

## BİR BƏND

Kənarda durubsan sən fağır-fağır,
Amma ki gözündən məhəbbət yağır –
Sənin məhəbbətin sirli bir nağıl,
Özünü uşaqtək aparma, gülüm.

# YARIMÇIQ NOTLAR
## (Lirik poema)

İki adamın bədbəxtliyi birləşsə,
böyük xoşbəxtlik olar.
**"Günahsız oğul" hind kinofilmindən.**

### Proloq

Neçə yol sükutla sövdələşib mən,
Neçə yol sahildə ümid tapmışam.
Bəzən də yuxumda bərk ilişib mən,
Məftillər içində şam yandırdım, şam.

Tufan istəmirəm, nəyimə gərək,
Tufansız keçinən azmıdır məgər?
Bir qarış torpağı sən yüz dəfə ək,
Torpaq istəməsə, çətin göyərər.

Keçən küçələri dolaşmışam mən,
Neçə-neçələrlə gözləşmişəm də.
Bəzən unutmuşam: – nə yedim dünən?
Bəzən bir vəfasız gözləmişəm də.

Yaman dəyişkəndir addım izləri,
Yoxuşu silinir, bir azı qalır.
Hey dara çəkirlər xeyiri, şəri,
Bilmirlər kimisi narazı qalır.

Gözlərin seyrinə gözüm az olub,
Bəzən baxmağa da yoxdu cürətim.
Fikrimdə gah nəğmə, gah da saz olub,
Amma ki, qəlbimə oxdu cürətim.

Nədir bu hikmət? Anlamamışam,
Bir yuxu yozanda tapmaq çətindi.
İstədim bir böyük təpəni aşam,
Yenə də dörd yandan hikmətlər dindi.

Hikmət! Bəs bu nə? Kimin cümləsi?
İnləyən uşaqdı, gülən böyükmü?
Babamın, nənəmin, anamın səsi.
Atamın çiynində bir ağır yükmü?

Böyük arzusudur bacılarımın,
Dostun, tanışın da həvəsidir bu.
Qəddar düşmənidir acılarımın,
Bir də bir insanın gur səsidir bu.

## QIRIŞLI DÜNYA

Babam bayatı dedi,
Gözlərində od, alov.
Babam bayatı dedi,
Gözünün acısın ov.

Səsi Koroğlu səsi,
Nəfəsi yanağımda.
Sandım yoxdu kimsəsi,
Nəvəsi qabağında.

Babam bayatı dedi:
Əzizinəm gül əllər,
Gül biləklər, gül əllər.

Dəryaca ağlın olsa,
Yoxsul olsan güləllər.

Damdakı duman kimi,
Fikir bürüdü məni.
“Könülsüz” torpaqlara,
Fikir sürüdü məni.

Babam bayatı dedi:
Əzizim ala dağı,
Buyurub lala dağı.
Hər yaralar sağalsa,
Sağalmaz bala dağı.

Qara qəlyan tüstüsü,
Beynimin qara donu.
Babamın qırış üzü,
Bir qoca ömrün sonu.

Babam bayatı dedi,
Necə “ah” çəkə-çəkə.
Babam bayatı dedi,
Hövsələsi bir tikə.

Babam bayatı dedi,
Babam bayatı dedi.
Mən dünən görmədiyim
Sirli həyatı dedi.

Babam bayatı dedi,
O, qoca, mən tələbə.

Əlin qoydu çiynimə,
Birdən çatdı mətləbə:

– Xoruz ban verəndə gəl,
Yaram qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı qan verəndə gəl.

Susdu bir az çəkilib,
Məndən yan durdu babam.
Qapqara qəlyanını,
Təzdən yandırdı babam.

Sifətimdə qızartı,
Fürsət məni haqladı.
Düzü, yaddan da çıxdı,
Özümün sadə adı.

## NƏNƏMİN NAĞILI

Çadrası çiynindən düşməz nənəmin,
Qapıbir qonşuya yol alanda da,
Qonşuda unudar kədərin, qəmin.
Nənəmə dərmandır qonşu – dünyada.

Kiçik döşəkçələr uşağa həsrət,
Həmişə qocalar ayağı altda.
Onlar danışarlar gah yavaş, gah sərt,
Nənəmsə arzular: nəvəsin – ata.

Nənəm bir az keçər qayıdar evə,
Qayıdar fikirli, qayıdar məhzun.

Çadrasın çıxarıb o atar evə,
Nağıla başlayar, nağılı – uzun.

Kiçik nəvələri dörd dövrəsində,
Nənəmin ağzına baxar-baxarlar.
Bəzən sözlər titrər onun səsində,
Nəvələr bilməzlər nağılda nə var.

Nənəmin nağılı şeytansız, cinsiz,
Özü yaratdığı əfsanələrdir.
Nəvəsi oynayır, dinli, ya dinlisiz,
Əl çalan nənələr, həm nəvələrdir.

## NAĞIL XATİRƏ
### Göy göl

Elə bil göylərin kiçik parçası,
İnsana həsrətdən düşübdür yerə.
Kəpəz də unudub kədəri, yası,
Heyrətdən bölünüb bir neçə yerə.

Heç kəs qaçırmasın Göy gölü, – deyə,
Qoç dağlar əl tutub, çəkirlər keşik.
Qalın meşələr də alıb dövrəyə,
Bu gözəl gəlinə qurub ev-eşik.

Yaman utanqaçdır, billəm halını, –
Çətin tapacaqdır bir tay özünə.
Cehiz gətirdiyi mavi şalını,
Yavaşca çəkibdir Göy göl üzünə.

## ANA İSTƏYİ

Anam tikiş tikir, əlində iynə,
Fikri də paltartək tikiş-tikişdir.
Baxır sabahına, baxır d
ünənə,
Elə xəyal, xəyal... bəs bu nə işdir?

Anam inək sağır, səssiz-səmirsiz,
Vay o vaxt ki ola, açıla buzov.
Bayaqkı sükutdan qalmaz bircə iz,
Kimi görsə deyər: tez uzağa qov.

Anam bəzən hirsli, bəzən gülərüz,
Kiçik uşaqları qovar da hərdən.
Səhər qaranlığı anama gündüz,
Gah mala yem verər, gah toyuğa dən.

İşsiz qala bilməz anam bircə gün,
Yorular, unutmaz ancaq ümidi,
Bir oğul böyütdü, bir ömür bütün,
Ümid – öz oğluna verdiyi südü.

Bəzən səs ucalır – "Vağzalı" səsi,
Anamın dodağı, dili oynayır.
Bir az danışmağa qoymaz heç kəsi,
Anamın toy-düyün ili oynayır.

Bəzən "son xəbərlər" eşidir anam,
Eşidir göllərdə qan durub yenə.
Dişin dodağıyla hey didir anam,
Düşünür kimisə qudurub yenə.

Anam bəzən qorxur, dava qızışar,
Oğlu da geyinər ulduzlu papaq.
Bilin ki, anamın toy arzusu var,
Yoxsa ki, haqq üçün deyildi qorxaq.

Düzü, neçə qızda ilişib gözü,
Neçə qız adından sükutla keçib.
Düşünüb, düşünüb... gəlinin özü,
Oğluna oğlundan xəbərsiz seçib.

## ATA TƏMKİNLİYİ

Qabağımda bir təkər
fırlaya-fırlaya qaçardım,
kəndimizin tozlu küçələrində.
Dəli, gic deyərdilər
mənə onda, – yerində.
Çox adam arxamca deyinərdi:
İmranın oğluna bax,
İmranın oğluna.
Dəmir keçirib qoluna.
Bir az böyüdüm, ayaq açdım,
Qonşu kəndə – xalamgilə.
Dayım əlimdən tutub
küçəyə çıxdı
"İmranın oğlu ilə".
İndi də çoxu mənə belə deyir,
Belə istəyirəm mən də.
Axı, oğul atadan dolanar gendə?
Ancaq görəsən bir gün,
Çalınanda el havası,

Atam şabaş verəndə,
Deyəcəklərmi:
– Budur Kamranın atası!
Ancaq görəsən bir gün,
Olanda kənd yası
Deyəcəklərmi:
– Bax, o qəmlənəndir
Kamranın atası!
O günlər də olub, danmayır heç kəs,
İndi gənclik kimi qayıtmaz geri.
Döyür qulağımı sehrli bir səs:
Atadan söhbət aç yeridir, yeri.

Ondan uzaq düşməz xəyal sirdaşı,
Dolanar başına pərvanə kimi.
Nə o yaş haqlayıb, nə onu yaşı,
Kimi qoca deyir, deməyir kimi.

Səsində təmkin var, sözündə təmkin,
Gözləri nəyisə həsrətlə əzər.
Onun ürəyində tapılmaz heç kin,
Oğul nəvəsini axtarıb gəzər.

## HAMAR DÜNYA
## I Etüd – Su müqəddəsliyi

Dağlar dərələrlə növbələşiblər,
Daşlar yol boyunca səpələnibdir.
Günəş istisindən otlar "bişiblər",
Sanki isti burda ləpələnibdir.

Uzaqda bir bulaq – insan arzulu,
Axıdar suyunu üzüaşağı.
Burda kimlərəsə məhəbbət – ulu,
Burda kimlərəsə məhəbbət – acı.

Yaşayır kimlərsə bir ömür orda,
Bulaq müvəqqəti ömrə su yayıb.
Çoxu səcdə edir müqəddəs oda,
Kimsə burda suyu müqəddəs sayıb.

## YENƏ KƏND...

Yenə kənddir!
Tanış-biliş əyləşibdir
                    dörd tərəfdə.
Yenə kənddir!
Qalacağam mən burada
                    neçə həftə.
Hamı,
                    hamı deyib-gülür,
Ancaq mənim fikrim
                    dən-dən.
Birdan hamı
                    qəh-qəh çəkdi,
Demə söhbət gedir
                    məndən.
Kiçik bacım oxuyurmuş:
"Evimizə gəlin gəlir".

Elə bu an, ey Dünənim,
Ürəyimi bürüməyə
Odlu-odlu əlin gəlir:
"Evimizə gəlin gəlir".

## HAŞİYƏ

*"Gənc Verterin iztirabları" sevgi*
*ensiklopediyasıdır".*
*Bir qızın bloknotundan.*

Dəniz,
        Sahil,
                Bulvar.
Burda qoca da
        cavan da var.
Sevinc,
        nəşə,
        şadlıq.
Yazıq o günə! Orada
        ayaq tutur yadlıq!
Sükut!
        Tufan!
                Üsyan!
Səslər gəlir:
        "Xalq üçün yan!"
Məhəbbət  və  müdriklik!
Bir-birinə düşməndirlər,
                neçə illik.
Yazıq Dünya!
İnsan harda Verter kimi
Səndən yaza,

                    səni duya.
Yazıq İnsan!
Verter olsa – özü yanar,
İndi gərək
                    sən yanasan.
Yazıq İnsan!
Vertersizsən!
Çoxu deyir!
          – Gərək mən də haqqı danam!
Yazıq Verter!
Sən Lottosuz, Lotto sənsiz,
İndi can ver!
Yazıq Veter!

Vərəq-vərəq
                    səhifə-səhifə
                    sətir-sətir
                              oxumuşam.
Qurtaranda elə bil ki,
Mən burada yoxumuşam.
Orda təzə bir aləm
                    tapmışam mən.
Qəhrəmanlar,
Sənətkarın yuyulmayıb
                    cizgisində.
Orda təzə bir aləm
          Tapmışam mən,
Bir qəhrəman gah alovun
                    odundadır,
                    gah hisində.
Bir qəhrəman!
Bloknotda çalınmamış

böyük toyun xatirəsi.
Heç bir kəsin görmədiyi
qəhrəmanın
sevgi səsi.

## II ETÜD – KÖLGƏLƏR

İki kölgə gəzir yol kənarında,
Onlar gah ayrılır, gah birləşirlər.
Hələ tam deyillər arzularında,
Arzuda kölgələr sehrləşirlər.

Ağaclar ucadan həsrətli kimi,
Gözlərin dikiblər onlara sarı.
Kiminsə ötüşən üç ili kimi,
İzlər də dəyişib hamar yolları.

Kölgələr danışır, kölgələr dinir,
Kölgələr neçə yol kölgə aşıblar.
Kölgələr yanından keçirlər bir-bir,
Ancaq ki, kölgələr xəyallaşıblar.

## III ETÜD – NAMƏLUM SƏS

İnsanlar,
dinləyin
mən bir sabaham,
Hələ
döyməyiblər
heç qapımızı.
Mən şadlıq,
mən sevinc,
mən kədər,
aham,
Mən rübənd
görməmiş
azəri qızı!

## EPİLOQ ƏVƏZİ

Hərənin qəlbində bir istəyi var,
Ax! Budur, qurtardı yarımçıq notlar.
Bəs niyə yarımçıq? – həyatın bitmiş,
Hikmətli notları toy səsi olar.

Toy səsi qəlblərdən keçən bir maraq,
Xalqın sevinc səsi, şadlıq səsidir.
Yox! Bu səs deyəsən sabah olacaq,
Körpə bir uşağın qəhqəhəsidir.

***30 iyun-16 iyul, 1972***
***Bakı-Diyadin.***

# SON İLLƏRİN ŞEİRLƏRİ

## QIŞ NAĞILI

Ağaclar ağappaq pürsəng bağlayıb,
Yamaclar ağ şaldan qurşaq bağlayıb,
Dupduru sular var, qaysaq bağlayıb,
Bu sənin qışındır, bu mənim qışım.

Bağ-bağat yamanca xəyala dalıb,
Quşlar yuvasına qısılı qalıb,
Sırsıra həsrətdən asılı qalıb,
Bu sənin qışındır, bu mənim qışım.

Ağappaq dənələr göydən sürüşür,
Çəmən son nəfəsdə qarla öpüşür,
Torpağın könlünə məhəbbət düşür,
Bu sənin qışındır, bu mənim qışım.

***11.01.2013***

## QIRX BEŞ YAŞIMA

Şümşadlıq qayanın yalında olar,
Ərköyün ayaqlar yalın da olar,
Bu dünya doğru da, yalan da olar,
Sənin nə yaşın var, a qırx beş yaşım?
Sənin nə daşın var, a qırx beş yaşım?

Qismətin çəkinin pərsəngi kimi,
Ömrün təbiətin pürsəngi kimi,
Sevincin bir əlçim, bir çəngə kimi,
Sənin nə yaşın var, a qırx beş yaşım?
Hələ qarğışın var, a qırx beş yaşım?

Dili açılmayan dil üstündəsən,
Kədərli bəm üstə, zil üstündəsən,
Tarıma çəkilmiş sim üstündəsən,
Sənin nə yaşın var, a qırx beş yaşım?
Sənin nə başın var, a qırx beş yaşım?

***1998***

## SEVGİLİMİN GÜLLƏRİ

O güllərin həsrətidi illərim,
Həsrətimi pillə-pillə qalxıram.
Yarpağına toxunanda əllərim,
Ürəyimin susmağından qorxuram.

O güllərin gizli-gizli gözü var,
Oğrun-oğrun izləyirlər məni də.
Ləçəyində dodağımın izi var,
Fürsət vermir onu öpüm yenidən.

Pıçıltıyla danışırıq arabir,
Danışırıq sakit, səssiz, lap az-az.
Mənim bəxtim, düzü, yaman gətirib,
Sevgilimdə şübhə yeri olammaz.

Hər gün səhər ətir saçır təzə-tər,
Tanıyırlar məni asta yerişdən.
Mən gülləri, güllər məni sevirlər,
Sevgilimin xəbəri yox bu işdən.

***2016***

## ZALIM ADAM

Sözləri titrəyər, əsər astaca,
Baxışı qılınctək kəsər astaca,
Gülüşü qəlbimi əzər astaca –
Bu adam – zalım adam.

İnsafı həsrətə bükülüb gedib,
Rəhmi vədəsiz tökülüb gedib,
Kərəmi göylərə çəkilib gedib –
Bu adam – zalım adam.

Elə bil düşmənəm, elə bil yadam,
Sevinci sevincim, qadası qadam,
Allahı, Tanrısı olmayan adam –
Zalım adam.

***2008***

## AY

Yuxusuzlar günəşi, kədərli ulduz!
Qaranlıq qoynunda qalıbsan yalqız.
Əngin səmalarda məndən uzaqsan,
Bu zülmət gecədə hələ oyaqsan.

Çox zərif yaradıb o xaliq səni,
Cansız şüaların isitmir məni.
Uzaq bir aləmdən seyr edib bizi,
Küskün baxışınla al qəlbimizi.

## TÜNZALƏ ÜÇÜN
*(Ad gününə)*

Qəlbimə, könlümə qəm, kədər dolsa,
İçimdən bir nisgil qalxıb boylansa,
Axşamlar da evə gecikmiş olsam,
Bir bəhanə tapıb mən sənə gələm

Gəmiylə ən yaşıl adaya köçsəm,
Bütün sərhədləri qatarla keçsəm,
Əngin səmalarda xəyaltək uçsam,
Yenə də qayıdıb mən sənə gələm.

Tanrı yuxuları yuxuma qatsa,
Önümdə bir gözəl cənnət yaratsa,
Bir mələk mənə də şərbət uzatsa,
Yuxumdan ayrılıb mən sənə gələm.

## AYTƏKİN ÜÇÜN

O aylı çöhrəndə parlayan işıq,
Qəlbindən astaca süzülüb gələr.
Gülüşün ömrünə verər yaraşıq,
Könlündən salxımtək  üzülüb gələr.

Sənin taleyinə, sənin bəxtinə
Hər payız ələnər çiskin yağışlar.
Həyatın bulaqtək olacaq yenə
Çünki ürəyində uca Tanrı var.

Safdır hər istəyin, safdır niyyətin,
Ən böyük sualdır: sən kimsən, nəsən?
Böyüklük eləmək çətindir, çətin,
Həmişə uşaq ol, əzizlənəsən.

## SELCANIM *(Mahnı)*

*(Sözləri və musiqisi Kamran Əliyevindir)*

Ürəksən, könülsən, dinim, imanım,
Arzusan, ümidsən, bircə gümanım,
Şirinsən, şəkərsən, nabatsan, canım,
Selcanım, Selcanım, mənim Selcanım.

Hər baxışın yaz kimi,
Hər duruşun naz kimi,
Hər səsin avaz kimi,
Selcanım, ay Selcanım.

Ürəksən, könülsən, dinim, imanım,
Arzusan, ümidsən, bircə gümanım,
Şirinsən, şəkərsən, nabatsan, canım,
Selcanım, Selcanım, mənim Selcanım.

Günlərin ağ qar olsun,
Arzuların var olsun,
Tanrı sənə yar olsun,
Selcanım, ay Selcanım.

**NİLAY QIZIM** (*mahnı)*
*(Sözləri və musiqisi Kamran Əliyevindir)*

Gözlərimin qarası,
Ürəyimin parası,
Nənəsinin balası,
Babasının sonası.

Evimizin çiçəyi,
Çiçəklərin ləçəyi,
Gözəllərin göyçəyi,
Nilay qızım, gül qızım.

O, günəşdi, o, aydı.
O, bahardı, o, yaydı,
Tanrıdan şirin paydı,
Nəğməli bir Nilaydı.

Evimizin çiçəyi,
Çiçəklərin ləçəyi,
Gözəllərin göyçəyi,
Nilay qızım, gül qızım".

# NİLAY VƏ MƏDİNƏNİN NAĞILI

## I

Cavan bir ailədə
Körpə bir qız doğuldu.
Üz-gözü bir tamaşa
Adı da Nilay oldu.

Altı aydan da artıq
Ana ona süd verdi.
Ana sanki südüylə
Qızına öyüd verdi.

Böyüdükcə gözündə
Sevinci daşıb coşdu.
Babası da ürəklə
Ona bir mahnı qoşdu.

Hər gələndə nənəsi
Bir oyuncaq alardı.
Oyuncaq topasından
Evdə şəhər yarandı.

Gələn təzə paltarla
Balaca otaq doldu.
Nilay çox əzizləndi,
Nilay ərköyün oldu

## CÜCƏLƏR

*(Nilay  və Mədinəyə)*

Günəş göylərə qalxıb,
Ana önlüyün taxıb,
Nənə yaxmacın yaxıb,
Sizdən ötrü incələr,
Cücələr, ay cücələr!

Bağçaya yoxdur həvəs,
Hər tərəfə düşər səs,
Saya salınmaz heç kəs,
Hamıya da güc gələr,
Cücələr, ay cücələr!

Hər gün deyib-gülənlər,
İş-gücünü bilənlər,
Evə yorğun gələnlər,
Sizi görüb  dincələr,
Cücələr, ay cücələr!

## NƏVƏLƏRİN  MƏZƏLİ  MAHNISI

Nənəm məni söyəndə
Anam baxıb ağlayır.
Anam məni döyəndə
Nənəm də yas saxlayır.
                    Ay dili-dili diloşdu,
                    Günlərimiz nə xoşdu.
Babam mənə qışqırar,
Atam qaçıb gizlənir.

Atam məni hey vurur,
Babam yaman hirslənir.
          Ay dili-dili diloşdu,
          Günlərimiz nə xoşdu.
Bibim mənə pay verir,
Xalam dodağın büzür.
Xalam mənə hay verir,
Bibim gözlərin süzür.
          Ay dili-dili diloşdu,
          Günlərimiz nə xoşdu.
Əmim məni danlayır,
Dayım susub danışmır.
Dayım məni qınayır
Əmim isə qarışmır.
          Ay dili-dili diloşdu,
          Günlərimiz nə xoşdu.

## BİZİM SƏYYAD BALAMIZ

Baba, nənə qoçağı,
Ata-ana uçağı,
Kökü çinar budağı,
Bizim Səyyad balamız.

Danışığı şirindi,
Düşüncəsi dərindi.
Bir kişidi, bax, indi
Bizim Səyyad balamız.

## NİLAY VƏ MƏDİNƏ

Bağ-bağçanı gəzərlər,
Sona kimi süzərlər,
Bir-birindən gözəllər,
Tanrı sizi qorusun.

***27.10.2019***

Günləri belə xoşdur,
Hər biri bir işıqdır,
Ömrümə yaraşıqdır,
Nilayla Mədiş bala,
Yazan da Kamran baba.

***27.08.2018***

# PUBLİSİSTİKA

# BİR KƏNDİN HEKAYƏTİ

Bu kənd çox balaca kənddir; adı Diyadindir, Naxçıvan MR Şərur rayonunda yerləşir. Tanıyanlar üçün xəritədə nöqtə boyda görünür, tanımayanlar üçün isə yox kimidir. Çox uzaqları deyə bilmərəm, amma əlli il bundan qabaq, yəni ötən əsrin 60-cı illərində bu kənddə cəmi-cümlətanı 27 ev var idi. Uzun illər səssiz-səmirsiz qalan bu kənd sanki Allah-taalanın əmri ilə sərhəd dirəklərinə tərəf sıxılmışdı, sərhəd dirəklərinin o tərəfində nazlı-nazlı axan bir çay vardı – Araz çayı. Hər gün gördüyümüz və səsini eşitdiyimiz Araz çayına gəldikdə isə yalnız onun adı bizim idi, çünki bu çaydan istifadə etmək əməlli-başlı müşgülə düşmüşdü. Onun sularında gözəl-gözəl balıqlar üzürdü və təəssüf ki, həmin balıqlardan tutmağa heç kəsin ixtiyarı yox idi, ona görə ki, tikanlı məftillər vardı, rus əsgərləri vardı və bu maneələri keçib Arazdan balıq tutmaq, sadəcə, mümkün deyildi. Mən balıq xiffəti eləmirəm, bizim tərəflərdə balığa meyil göstərənləri barmaqla sadalamaq olar. Düzünə qalsa, bizim kənd adamları balıqların adını da heç əməlli-başlı bilmirlər, haradan balıq tutulursa, elə həmin yerlə də adlandırılır: Arpaçay balığı, Araz balığı, Qobu balığı və sair. Mənim nisgilim onunla bağlıdır ki, uzun illər sərhəd boyda Araz kəndimizin böyründən axsa da, onunla lap yaxından təmasda ola bilməmişəm. Buna görə də mən Araz çayı haqqında Sakit Don, Dəli Kür barədə yazılan kimi yaza bilmirəm.

Bir vaxtlar Arazın sol sahilindən bütün kənd boyu uzanan bir arx çəkmişdilər və onun adını da camaat özü Motor arxı qoymuşdu. Ona görə Motor arxı deyirdilər ki, hər tərəfə səs salan nasoslar Arazdan həmin arxa su vurur və bu su ilə də əkilmiş zəmilər suvarılırdı. Sonralar hündürlüyü iki adam boyda olan Motor arxı da dağılıb getdi, bu boyda arx elə bil birdən-birə göyə

çəkildi. Motor arxının tar-mar olması ilə onun döşündəki qumsallıqda oynadığımız evcik-evcik oyunu da yoxa çıxdı.

Amma adamın üstündə Allah var, uzun müddət kəndin qız-gəlini Arazdan vedrə-vedrə içməli su daşıyırdılar. Belə ki, kəndə yaxın sərhəd dirəklərini söküb adamların keçməsi üçün kiçik bir qapı düzəltmişdilər. Bu qapı da taxtadan, dəmirdən deyildi, elə sərhəd kimi tikanlı məftillərdən toxunmuşdu. Hər gün axşamçağı, təxminən saat 5-də əsgərlər gəlib həmin sərhəd qapısını açar, kəndin qız-gəlini də əsgərlərin nəzarəti altında Araza tərəf gedərdi. Sonra onlar kənd camaatı tərəfindən düzəldilmiş torpaq pilləkənlə çayın aşağısına enər və gətirdikləri qablara Arazın bəzən duru, bəzən də bulanıq sularından doldurub geri qayıdardılar. Hələ də yadımdan çıxmayan bir məqam var ki, oradakı pillələrin sayı 30-a çatırdı. Həmin pillələr bir tərəfə qalsın, qız-gəlinin əsgərlərin müşayiəti ilə Araza gedib-gəlmələri sonralar müharibə mövzusundakı kinolarda gördüyüm əsir qadınların cərgə ilə bir yerdən başqa yerə aparılmasına çox oxşayırdı.

Günlərin bir günü əsgərlər camaatı Arazdan su gətirməyə buraxmadılar. Səbəbi yadımda deyil, amma kənd camaatı ilə əsgərlər arasında nəsə xoşagəlməz hadisə baş vermişdi. Beləliklə, onsuz da problem olan bizim içməli suyumuz da əməlli-başlı müşgülə düşdü. Kəndimizin qadınları içməli sudan ötrü dadaman çəkirdilər. Hətta elə olurdu ki, uşaqlar köynəklərinin ətəyini gölməçələrdəki bulanıq suyun üzərinə tutub lil sudan içirdilər. Bunu eşidib bilən valideynlər isə uşaqların kəpənək xəstəliyi tutacağından qorxurdular.

Amma kəndə işıq gələndən sonra içməli su problemimiz xeyli düzəldi. Kəndin ortasında bir artezian quyusu qazdılar və insafən oradan əsl içməli su çıxdı. Bu su o qədər saf idi ki, hətta qonşu kəndlər də xeyir-şər işləri olanda çay qoymaq, xörək bişirmək üçün lazım olan suyu gəlib bizim kənddən aparırdılar. Bir müddət keçəndən sonra artezianın ətrafı tamam dağıldı. Ba-

xımsızlıq onu tam təhlükə qarşısında qoydu. Bunun bir səbəbi də Aralıq kəndindəki içməli suyun borular vasitəsilə başqa kəndlər kimi bizim kəndə də çəkilməsi oldu. Yəni camaat təzəni görüb köhnəni yaddan çıxartdı. Ən dəhşətlisi bu oldu ki, Aralıq suyunun boruları küçəbəküçə, həyətbəhəyət çəkilsə də, həmin borulardan içməli su gəlmədi ki, gəlmədi.

Bu kəndin bəxtindən idi ki, elektrik işığı da gec çəkilmişdi. Mənə elə gəlir ki, Diyadin kəndi ötən əsrin 60-cı illərində Şərur rayonunda elektrik işığı ilə təchiz edilən axırıncı kənddir. Fəhlələr qonşu Tumaslı kəndindən başlayaraq hündür elektrik dirəklərini yerə basdıra-basdıra bizim kəndə yaxınlaşırdılar. Bu iş də yaman uzun çəkdi. Uzun çəkdi deyəndə ki, dörd-beş aya dirəkləri basdırıb qurtardılar, amma məftillərin çəkilməsi xeyli vaxt apardı. Öz aramızda bir məsələni deyim ki, həmin dirəklərə, məftillərə baxmaqdan biz uşaqların gözünün kökü saraldı. Niyə böyüklərin yox, məhz uşaqların? Ona görə ki, lampa işığında dərs oxumaq uşaqlar üçün çox çətin idi. Mən yazı yazanda, kitab oxuyanda lampanı stolun sol küncünə qoyardım. Çünki müəllimlərimiz öyrətmişdilər ki, yazı yazanda işıq soldan düşməlidir, əks halda adamın əlinin kölgəsi dəftərin üstünə düşüb yazmağa maneə olurdu. Vay o gündən ki, lampanın piltəsi bir az köhnələydi, onda işıq çox zəifləyərdi. Lampanı da yaxına çəkəndə dəftərin üstünə elə lampanın özü boyda və öz şəklində yekə bir kölgə düşərdi. İndi biri qalxıb deyər ki, bəs təzə piltə almaq olmazdı? Almaq olardı, amma piltə harada idi ki, alasan. Piltə deyilən şey dükanlarda tapılmazdı. Əslində lampa şüşəsi də qəhətə çıxardı. Gərək piltəni də, lampa şüşəsini də kəndə gələn alverçidən alaydın. Alverçi də kəndimizdə 2-3 aydan bir görünərdi. Çox vaxt camaat Püsyan kəndində yaşayan Ablonu gözləyərdi. Onun əsl adı ya Abdulla, ya da Allahverdi idi, düzü yadımdan çıxıb. Xırdavat şeylərin hamısını Ablo gətirərdi. Onu da təəssüflə bildirim ki, Ablonun gözləri görmürdü. Buna görə də

o, bir uşağın əlindən tutub gələrdi, daha doğrusu, uşaq onun əlindən tutub gətirərdi. Ablonun gözləri görmədiyinə görə uşaqlar saqqız alanda onu yoxlamaq üçün, yəni bilə-bilə qəpiklərlə aldatmaq istəyirdilər. Amma o da əlini qəpiyə sürtən kimi neçə qəpiklik olduğunu o dəqiqə bilirdi. Uşaqlar da Ablonun mahirliyinə heyran olub əllərində saxladıqları başqa bir qəpiyi də ona verərdilər. Sonra isə həm evlərində, həm də məktəbdə gözlərini yumub qəpikləri özləri tanımağa çalışardılar. Elə bil bu da bir uşaq oyununa çevrilmişdi.

Ayrıca demək istəyirəm ki, lampa dövrünün xeyli qəribəlikləri də olurdu. Məsələn, Məşədi Vəli kişi deyərdi ki, gecə kəndin o biri başından evimizə qayıdırdım. Xeyli diqqət yetirib gördüm ki, daha kənddə gecələr lampaları söndürən yoxdur. Bu da o deməkdir ki, beş-altı ildən sonra məktəbə göndərməyə uşaq tapılmayacaq. Məşədi Vəli kişi yenə deyirdi ki, bir vaxtlar bizim kənddə çənəsi əyri olan bir İbiş yaşayırdı. Gecə yatmaq vaxtı gələndə arvadı naz-qəmzə ilə ona deyir ki, dur lampanı söndür. Çənəsi əyri olduğuna görə o da ağzı ilə nə qədər üfləyirsə, lampanı keçirə bilmir. Dönüb arvadına hirslənir ki, harada çətin iş var, elə mənə tapşırırsan.

Lampa dövründən elektrik işığı dövrünə keçəndən sonra da bu işıq məsələsi bizim başımıza çox oyunlar açdı. Bu oyunlardan biri külək əsən kimi məftillərin sınması idi. Mən də o vaxt rayon qəzetinə məqalə göndərmişdim və yazmışdım ki, bizim kənddə pişik asqıran kimi işıqlar sönür. Onu da elə beləcə çap eləmişdilər. Bu bir cümləlik yazı çap edildikdən sonra rayonda işıq idarəsində işləyən kimsə atam İmran Salahoğluna şikayət eləmişdi ki, bəs sənin oğlun bizi biabır eləyib. Atam da cavab verib ki, boşlayın getsin, uşaqdı, bilməyib yazıb.

O vaxtlar qırılıb tökülən elektrik məftillərindən, yəni alüminium simdən oyuncaq maşınlar düzəldib kənd içərisində sürərdik. Bu maşın sürmək əhvalatı bizim gələcək şirin arzuları-

mızdan xəbər verərdi. Amma böyüklər bu yalançı maşınlarımızı görüb bizə altdan-altdan gülərdilər. Hətta sonralar bunları xatırlayıb bir-iki misralıq şeir də yazmışdım. Həmin şeirdən yadımda qalan bunlardır: “Oğluna bax, İmranın oğluna, Dəmir keçirib qoluna”.

Qırılıb yerə düşən elektrik məftilləri bir faciənin də səbəbi oldu. Belə ki, bir ucu yerdə olan məftili görən məktəbli uşaq fürsəti fövtə verməyib ona tərəf qaçır. Demə, məftilin o biri ucu elektrik xəttinə bağlı imiş. Məftili götürmək istəyən andaca uşağı elektrik vurur. Böyüklər nə qədər çalışırlarsa, uşağı xilas edə bilmirlər. O vaxtlar “adamı tok vuranda torpağa basdırarlar” sözləri el məsəlinə çevrilmişdi. Hətta mənim gözlərim qarşısında yeri qazıb məktəblini torpağa basdırdılar. Yenə faydası olmadı.

Qeyd edim ki, kəndin ortasında qoyulmuş bir yamangünlü transformatorumuz da var idi. Onu da sərhəd dirəkləri formasında tikanlı məftillə mühasirəyə almışdılar. Hamı təşviş içərisində idi ki, uşaqlardan kimsə gedib ona əl vurar, yenidən bir faciə törəyər. Küləklərin elektrik məftillərini sındırması, məftilləri bir-birinə dolaşdırması, uşağın faciəli ölümü, transformatorun yamangünlü olması uzun müddət kəndin üzərindən çəkilməyən bir vahiməyə çevrildi.

Kəndimizin ötən əsrdəki yollarından heç danışmağa dəyməz. Ona görə ki, uzun müddət heç bizim kəndin yolu olmayıb. Əvvəlcə onu qeyd edim ki, ötən əsrin 60-cı illərində rayon mərkəzindəki taksi sürücülərindən, demək olar ki, heç biri bizim kəndi əməlli-başlı tanımırdılar. Tanıyan olanda da onun elə bir faydası yox idi, yəni bizim kəndə çox baha qiymətə gedirdilər. Tutaq ki, Bakı şəhərindən rayon mərkəzinə qatarla on manata gəlirdinsə, taksi sürücüləri rayon mərkəzindən kəndə də həmin qiymətə aparırdılar. Bunun bir səbəbi balaca kəndin o qədər də tanınmaması idisə, digər mühüm səbəbi də kəndin yolunun ol-

maması idi. Bəziləriniz təəccüb edəcəksiniz, bəziləriniz də güləcəksiniz ki, necə yəni, kənd də yolsuz olar? Bəli, elədi ki var, kəndimizin yolu yox idi. Yəni Diyadin kəndi ilə Tumaslı kəndi arasında uzanıb gedən çöllərin hər tərəfi bizim yolumuza çevrilərdi. Yağış yağdımı, qar əridimi yol hökmən dəyişəcəkdi. S.M.Kirov adına kolxozun "QAZ-51" maşınlarını sürən Səyyad kişi ilə Yaqub kişi çimənlik yerlər tapıb həmin çöllərdən yeni yol salacaqdılar. Bunun nə qədər çətin olduğunu indiki kənd cavanlarına başa salmaq heç də asan deyil. Amma həqiqət belədir ki, soyuqda-sazaqda "QAZ-51" maşınının üstündə Tumaslı kəndinə məktəbə gedərdik. Günorta geri qayıdanda da həmin 3-4 kilometrlik yolu hökmən piyada gələrdik. Ta ötən əsrin 70-ci illərinin sonunadək bizim kəndimiz avtobus görmədi. Adamın üstündə Allah var, həmin vaxtlarda bizim kəndə çınqıllı yol salındı. Amma yaz vaxtları tez-tez daşıb kəndə təhlükə törədən daşqınların qarşısını almaqdan ötrü Araz çayının sahilinə tökmək üçün dəmir-beton daşıyan ağır yüklü maşınların ayaqları altında qalan həmin yol da yavaş-yavaş sıradan çıxdı və çala-çuxur nişanələri uzun müddət yoldan çəkilib getmədi.

Bu yol məsələsi ilə bağlı bir cəhəti də hökmən demək lazımdır. Belə ki, şagird olduğumuz vaxt həmin 3-4 kilometrlik yolu boş-boşuna gedib gəlmirdik. Məktəbdən çıxıb kəndə qayıdanda yol boyu dərslərimiz barədə sual-cavab eyləyərdik. Bir az fərasətli uşaq həmin sual-cavablardan xeyli mətləbləri öyrənə bilərdi və öyrənirdilər də. Amma həmin yolda təkcə dərs barəsində danışmırdıq. Məsələn, Tumaslı kəndində baxdığımız kinoları yol boyu müzakirə edirdik. Bir-birimizə kinonun ayrı-ayrı hissələrindən maraqlı suallar verirdik. Aktyorların adlarından tutmuş müxtəlif hadisələrə qədər olan süjetlər həmin sualların canını təşkil edirdi. Yadıma düşən suallardan birini indi demək istəyirəm. "Əhməd haradadır?" kinosuna baxıb kəndə qayıdırdıq. Yuxarı sinif şagirdlərindən biri sual verdi ki, bəs Əhmədin sürdüyü

maşının nömrəsi neçədir? Çox çətinliklə olsa da, biz kollektiv şəkildə həmin nömrəni aydınlaşdıra bildik. Maşının nömrəsi indi də yadımdadır: 46-44 AZQ!

Amma onu da ürəklə demək istəyirəm ki, su, işıq, yol kimi məsələlər nə qədər çətinliklər törətsə də, oxumaq, təhsil almaq məsələsində heç bir problem olmurdu. Oxumaq yarışı bizim kəndin əsas aparıcı yarışı idi. Pambıq, üzüm yığırdıq, tənbəki düzürdük, ot çalırdıq, quzu otarırdıq, amma oxumaqdan da heç vaxt geri qalmırdıq. Cavanlara, lap elə övladlarına nümunə üçün, mənim atam 50 yaşında 3 il həftədə 4 dəfə qonşu Tumaslı kəndinə gecə məktəbinə gedib kamal attestatı aldı. Kəndimizin ağsaqqallarından olan Yusif Babayev kitab mütaliəsi işində hər kəsi, hətta müəllimləri də ötərdi. O dövrün mətbuat səhifələrində, xüsusilə "Azərbaycan" jurnalında çap edilən bütün yeni əsərləri hamıdan qabaq oxuyardı. Kəndimizin kitabxanasına gətirilən yeni romanları o, birinci mütaliə edərdi. Amma bir cəhət var ki, kəndimizin kitabxanası 5-6 ev gəzmişdi. Harada yer tapılırdı kitabları daşıyıb oraya yığırdılar. Hətta həmin kitabxana uzun müddət bizim həyətin aşağısında olan köhnə evimizdə də yerləşmişdi.

## EPİLOQ ƏVƏZİ

Bu gün Naxçıvan MR Şərur rayonunun Diyadin kəndində 102 təsərrüfat var, əhalinin sayı 359 nəfərdir. Muxtar Respublikanın 400 000-ci (dörd yüz mininci) adamı 2009-cu ilin 10 sentyabrında bizim kənddə doğulub. Mələk adlı bu uşaq indi ata və anası ilə Naxçıvan şəhərində onlar üçün dövlət tərəfindən ayrılmış ikiotaqlı mənzildə yaşayırlar. Kəndimizdə 11 illik məktəb fəaliyyət göstərir və bu məktəb üçün bütün lazımi avadanlıqlarla əhatə edilmiş üç mərtəbəli yeni tipli bina inşa edilmişdir. Artezian quyusu bərbəzəkli bir bulağa bənzəyir. Transformator üçün

xüsusi bina inşa edilmişdir. Ayrıca Kənd mərkəzi yaradılmışdır. Müasir layihə əsasında tikilmiş həmin mərkəz Kənd icra nümayəndəliyini, poçt-rabitə şöbəsini, kitabxana, klub və ATS-i, ambulatoriyanı, polis məntəqəsini əhatə edir. Kəndin düz ortasında yaradılmış Ticarət mərkəzi ərzaq və sənaye malları mağazalarından, qadın gözəllik salonu və bərbərxanadan, ət dükanından ibarətdir. Həm kəndə gələn, həm də kənddə bu yeni tikililəri birləşdirən yol tam şəkildə müasir tələblər səviyyəsində və yüksək keyfiyyətlə çəkilmişdir. Hətta heç kəsə təəccüblü gəlməsin ki, yolun üzərində sürət göstəriciləri də ayrıca qeyd edilmişdir. Bütün bunların yaradılmasında və kəndimizin keçmiş həyatının xatirəyə çevrilməsində Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun xüsusi rolu vardır. Mən də daxil olmaqla bütün kəndimizin əhalisi – istər kənddə çalışanlar, istərsə də Bakıda yaşayan ziyalılar hörmətli Vasif Talıbova ürəkdən minnətdarlıqlarını bildirir və onun Ulu Öndərimiz Heydər Əliyev kursunu davam etdirməsini, möhtərəm prezidentimiz İlham Əliyevin göstərişlərini böyük coşqu ilə yerinə yetirməsini alqışlayırlar. İndi bizə qonaq gələnlər bu kəndin simasında Şərqdə bir Avropa kəndinin şahidi ola bilərlər.

# SƏDƏRƏK DÖYÜŞLƏRİ

## PROLOQ ƏVƏZİ

## TÜRK OĞLU AT ÜSTDƏ DOĞULAR, DAŞ ÜSTDƏ BƏLƏNƏR

Qədim Azərbaycan torpağı hələ çox sirlərini öz isti qucağında gizlədib saxlayan füsunkar bir diyardır. Bizim bilmədiyimiz neçə-neçə xəzinələr yatır addımladığımız bu torpağın altında. Onları gələcək nəsillər üçün gizlədib saxlayır bu ana torpaq!

Mənə elə gəlir ki, yadellilər bizim torpaqları bizdən yaxşı tanıyırlar. Bilirlər ki, bu məmləkətin nəyi var, nə yox!? Həmişə acgözlər, harınlar cumublar bu Odlar diyarına. Ya çapıb-talayıblar, ya da odlara qalayıblar hər qarış torpağımızı. Neçə-neçə igidlərimizi qanına qəltan eləyiblər, neçə-neçə gəlinlərimizi gözüyaşlı, ağlar qoyublar. Körpələrimizi süngüyə taxıblar, analarımızın çılpaq kürəyinə qaynar samovar bağlayıblar. Amma bizi diz çökdürə bilməyiblər. Yenidən dəliqanlı cavanlarımız xəncər götürüb at belinə qalxıblar, bacılar qardaşlarının getdiyi yollara su səpiblər, körpələr analarının qucağında boy verib böyüyüblər.

Ey ana torpaq! Sənin nəfəsin ucsuz-bucaqsız çöllərin, meşələrindir. Gövdəsinə insan qolunun yetmədiyi yaşıl ağaclar şirəsini səndən alıb, nəfəsini sənə verib.

Araz, Kür qan damarlarındır. Heç kəs susdura bilməz bu damarlarda kükrəyib axan həyat mənbəyini!

Göy göl sənin varlığını əks etdirən şəffaf bir güzgüdür. Saflığın, təmizliyin, ülviliyin, gözəlliyin hopub Göy gölün sularına. Ona bircə dəfə baxanlar bilərlər bu torpağın hikmətini.

Dağlarına boyuna görə qiymət verməzlər. Sənin qüdrətinin nişanı onların zirvələridir. Zirvələr tanıdar səni, ey ana torpaq!

Bütün bunları Tanrı bağışlayıb sənə. Bu əzəmət, bu gözəllik, bu zənginlik qarşısında övladlarına ağır, lakin şərəfli tapşırıq da verilib: onları göz bəbəyi kimi qorumaq! Ona görə də təbiətin və igidlərinin gücü ilə sinən üstündə əzəmətli qalalar yüksəlib: Dərbənd qalası, Çıraqqala, Qız qalası, Əsgəran qalası, Şuşa qalası, Əlincə, Çalxanqala, Oğlanqala, Bəzz qalası, Ərk qalası!.. Bunların hər biri 5 ilin, 10 ilin deyil, əsrlərin yaddaşıdır. Neçə-neçə nəsillər üçün onlar müdafiə istehkamı olub, yağıların üzünə şillə kimi çırpılıb. Bu qalalar xalqımızın keçmişi, bu günü və gələcəyidir. Düşmənlər üçün göz dağı, dostlar üçün əzəmət, basılmazlıq nişanəsidir. Vaxtilə alman anası müharibəyə gedən oğullarını gülə-gülə yola salıb. Gülüş səpib oğullarının yanağına. Doğduğu oğulları haqlı-haqsız gülə-gülə qurban verib.

Vaxtilə türk anası evinin kandarında oturub için-için ağlayanda ondan soruşublar: Niyə ağlayırsan, ana? Axı, ucsuz-bucaqsız torpaqlar sənindir. Bu qədər torpağı olan ana da ağlayar, sızlayarmı? Türk anası cavab verib: Məgər bu qədər torpaqları qorumaq asandırmı? Mən onun hər qarışında bir oğul itirmişəm.

Əsrlərin içindən keçə-keçə analar gülüb, analar ağlayıb. Torpaqlara, daşlara gülüş çöküb, göy yaşı süzülüb. Analar torpağa qatışıblar, amma gülüş səsləri və göz yaşları hər il göyərir, çiçəkləyir.

Bizim qalalar da insan kimidir. Nəfəsini duydumu səni qoruyacaq. Bu qalalar həmişə müdafiə olunan bir xalqın tarixi simvoludur. Məhz onlar şahiddir ki, atalarımız, babalarımız heç kəsin bir tikə çörəyinə, bir qarış torpağına, bir içim suyuna göz dikməyiblər. Çörəyimizə, suyumuza, torpağımıza yağı kəsilənlərə daş ilə, qaya ilə cavab veriblər. El-obanı dişlə-dırnaqla qoruyublar. Bəs nə oldu Əsgəran qalasına? Əsgəran küsübdü bizdən. Axı neçə on ildir ki, naməhrəm əli dəyib onun divarlarına. Basılmaz Şuşa, necə basıldın bəs? İçimizin qabarıdımı daşlarında göyərib? Çalxanqala, Oğlanqala, bu nədir, başında düş-

mən atəşi gurlayır? Dərbənd qalası, niyə zirvəndə çatılası ocaqlar indi köksündə yanır? Suları qabaran Xəzər, Qız qalasının göz yaşıdırmı bunlar? Ey Əlincə, yaman gərilibsən, haya bəndsən deyəsən? Ey Bəzz, ey Ərk qalası, niyə duruxubsunuz?

Qalxın qalalarım, qalxın! Qalalar səni gözləyir, ey at üstdə doğulub, daş üstdə bələnən türk oğlu!

## KOROĞLU BULAĞININ HARAYI

Qədim Naxçıvan torpağının ayrı-ayrı bölgələrini, uzaq-yaxın kəndlərini gəzdikcə, müxtəlif nəsillərin nümayəndələri və ayrı-ayrı peşə sahibləri ilə görüşüb söhbət etdikcə adamların içindəki narahatlığı və gərginliyi bircə anda duyursan. Hiss edirsən ki, onların qəlbinə, bəlkə də, heç vaxt ağıllarına belə gətirmədikləri bir nisgil çöküb. Axı, adamlar illər boyu min bir əziyyətlə qurub-tikdikləri binalarından, yaşayış evlərindən necə əl çəkə bilərlər? Hamı yaxşı bilir ki, həmişə işlətdiyin çox ucuz qələmi belə itirdikdə təəssüf içində boğulursan. İndi heç kəs ömrü boyu keçdiyi yolları, kölgəsində dincəldiyi qollu-budaqlı çinarları, meyvəsini dərib yediyi ağacları, suyunu içdiyi bulaqları, çayları itirmək fikrində deyil. Bu gün çoxlarının qəlbində “itik yaman şeydir” fikri dolaşır və onlarda dözüm, gələcəyə inam yaradır. Həm də çox asanca duyursan ki, adamların ümid hissi daha böyükdür. Çünki analar cəbhədəki oğullarına xörək bişirib yola salan kimi həyətlərindəki torpaqlarında işə başlayırlar. Atalar güllə səsi eşidib bir an dayanır, sonra isə əkin-biçinini davam etdirirlər. Oğullar qardaşları üçün çörək, dava-dərman aparırlar. Bacılar ümid çırağı kimi döyüşçülərin yollarını gözləyirlər.

Sədərək Naxçıvan Muxtar Respublikasının ən böyük kəndlərindən biri hesab olunur. Burada 14 minə qədər əhali yaşayır. Bu yaşayış məntəqəsi Qərb tərəfdən Naxçıvanın Ermənistanla qapısıdır. Dədə-babaların sözləri ilə desək, İrəvana gedənlər məhz bu yolla gedib gələrdilər. Həmin yoldan Sədərəyə tərəf dönüb 100-200 metr gedəndən sonra şəffaf və şəfalı suyu olan bir bulaqla rastlaşırsan. Adamlar onu “Koroğlu bulağı” adlandırıblar. Bircə ovuc içən kimi özündə rahatlıq tapırsan. Yorğun, əzgin adama təpər gəlir. Elə bil bu su adamların dizinin dayağı, qolunun qüvvətidir. Bəlkə, ona görə də Koroğlunun adını məhz həmin bulaqdan içəndən sonra xatırlayıblar. Amma indi bulağın üstündəki Qaraburun təpəsi Dəlilərin, Qoç Koroğlunun nərəsinə ehtiyac duyur. Deyirəm, tarix də qəribədir: igidlərin döyüş yerini qabaqcadan xəbər verir.

Yəqin ki, yaxın və uzaq müharibələr haqqında az və ya çox dərəcədə məlumatı olanlar var. Həmin müharibələrdə müxtəlif döyüşlər olub: Çay döyüşü, buz döyüşü, dağ döyüşü, qala döyüşü, kənd döyüşü, şəhər döyüşü! Bunların hər biri aparılan müharibələrin xarakterindən, zamanından, hazırlıq səviyyəsindən asılı olaraq salnamələrə düşüb. Sədərək döyüşləri isə sözün əsl mənasında təpə döyüşləridir. Qoy bunlar da tarixə düşsünlər: Qaraburun, Miltəpə, Ucubiz, Qırmızılar.

Kəndlərdə, obalarda elə yerlər var ki, onlar adi günlərdə diqqəti o qədər də cəlb etmirlər. Sadəcə olaraq ildən-ilə yada düşür, təsadüfdən-təsadüfə çayxana söhbətlərinin, yas mərasimlərinin mövzusu olub. Uşaqlar yalnız qoyun-quzu otaranda bu yerləri nişan verirlər. Bəlkə, bunlar elə-belə də olmalıdır. Çünki mübarizəsiz, qansız-qadasız günlərin təbiəti bu cürdür: haray qoparmaz, səs-küy salmaz, həzin layla kimi ötüb keçir. Lakin tarix minilliklərlə ölçüldüyü kimi elə vaxtlar da olub ki, saatlar və dəqiqələr kükrəyən Araza bənzəyir. Araz isə qızılgül açanda elə nərildəyir ki, səsi-sədası sakit gecələrdə yaxın kəndlərdəki

evlərdə eşidilir. Araz öz yatağından çıxıb insana meydan oxuyur.

Artıq Naxçıvanda günəş torpağı isidir. Araz kükrəyir, qaranquşlar ev damlarında, təndirəsərlərdə öz yuvalarını qurur, qızılgüllər bərq vurur. Sədərək torpağında isə insan qanı axıdılır! Təpələrin ətəyində bir bulağın harayı eşidilir: Koroğlu bulağının harayı!

***DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:***

*1 may 1992-ci il. Erməni təcavüzkarları axşam üstündən başlayaraq sərhədlərimizə basqın etmişlər. Sədərək kəndindəki Qaraburun və Qarağac postlarına müxtəlif silahlardan güllə yağdırılmışdır. Qırmızılar təpəsi düşmənin əlinə keçmişdir. Havuş kəndi də atəşə tutulmuşdur.*

*2 may 1992-ci il. Sübh çağı erməni tərəfi daha böyük qüvvə və texnika ilə genişləndirilmiş hücuma keçmişdir. Bütün bunlara baxmayaraq, Qırmızılar təpəsi geri qaytarılmışdır. Sədərək kənd sakini İsmayılov Elman Cabbar oğlu, Axaməd kənd sakini Əsgərov Səid Sabir oğlu qəhrəmanlıqla həlak olmuşlar.*

*Sədərək kənd sakinləri Əliyev Kərim Səfər oğlu, Həsənov Fazil Camal oğlu, Həmzəyev Əziz Hüseyn oğlu, Axaməd kənd sakinləri Ağayev Hüseyn Vərqa oğlu, Novruzov Ələsgər Talıb oğlu, Naxçıvan şəhər sakini Quliyev İlqar Paşa oğlu, Babək rayonundakı Uzunoba kənd sakini Talıbov İbrahim Qasım oğlu, Babək rayonundakı Didivar kənd sakini Hacıyev Əsəd Heydər oğlu döyüşlərdə yaralanmışlar.*

*Yuxarı Yaycı, Cağazir, Günnət kəndləri atəşə məruz qalmışlar.*

## XATİRƏ DƏFTƏRİ – ALIN YAZISI

Sədi Sabir oğlu Əsgərov 22 yaşın içindəydi. Hələ təzə-təzə öz arzularının qanadında uçurdu. Amma özü də bilmirdi ki, bu saf, müqəddəs arzular onu haraya aparır. Hər saat, hər gün, gecə və gündüz duyğularının qoynunda yaşayırdı. Hərdən də mahnılar onun təsəllisi olurdu. Ən çox "Niyə uydun özgə xəyala" nəğməsinin misralarına bürünürdü. Doğulduğu Axaməd kəndi, qarış-qarış gəzdiyi Şərur torpaqları, dolaşıb keçdiyi Bakı küçələri də təkcə bu anda unudulardı və Sədi özüylə təkbətək qalardı. Tənhalığın qucağına atılıb ömrünün cığırlarını, yollarını arayardı.

İndi Sədinin şəkilləri və xatirə dəftəri yadigar qalıb. Şəkillərə baxdıqca məğrur, dönməz, adamın gözlərinin içinə dik baxan bir sima ilə üz-üzə durursan. Xatirə dəftərini oxuduqca daxilən saf, təmiz, ən ülvi hisslərlə yaşayan yaxın dostunu, sirdaşını tanıyırsan.

Bu yaşda adamın ürəyi nə qədər böyük olarmış. Təsəvvür etmək çətindir ki, bu gündə dünyanın bu qədər işini Sədi necə fikirləşirmiş. Bəlkə də, elə onu Minsk şəhərindəki mülki aviasiya texnikumuna cüssəsi, cəsarəti deyil, xəyalının qanadları aparıb çıxarıb.

Bəs görəsən, bu hiss haradan idi ki, tez-tez ölüm haqqında düşünərdi. Həyatının belə gənc çağlarında bu qığılcım haradan düşmüşdü onun qəlbinə ki, "axırımız ölümdür" yaza. Bəli, o, həyatından qorxmurdu, bir damla qanının fikrini çəkmirdi: Sədi həqiqəti görür və həqiqəti yazırdı.

Bir qız vardı Sədinin ürəyində. Lakin əlçatmaz Leyli idi o qız. Bəlkə də, Sədinin ürəyini oxuya bilməmişdi, onu duymağa gücü çatmamışdı o afətin. Belə olmasaydı Sədi dəftərə aşağıdakı misraları köçürməzdi:

*Məhəbbət, nə deyim o ülvi ada,*
*Hamıya bir gözlə baxmayır o da.*
*Kiminə ömür-gün sirdaşı verir,*
*Kiminə ayrılıq, göz yaşı verir.*

Sədi, rahat uyu, o gözəl yalnız indi biləcək sənin qədrini. Nə etmək? Axı bizim çoxumuzun xasiyyəti belədir: öləndən sonra adamların qiymətini bilirik. Bir vaxtlar şair Əli Kərim də yazmışdı:

*Sən mənim qədrimi biləsən deyə,*
*Bu cavan yaşımda ölümmü indi?*

Sədinin ürəyində bir yaxşılıq heykəli varıydı. Elə bir heykəl ki, özünü də, qarşıdakını da əyilməyə qoymazdı. Onun nəzərində xeyirxahlıq ömrün ən uca zirvəsiydi. Pislik isə yalnız və yalnız nifrətə layiqdir. Ona görə Sədi yazırdı: "Heç zaman heç kim üçün dünyada pislik eləməyi özünüz üçün qəhrəmanlıq bilməyin. 24.03.91".

Sədinin həyat idealı saxtalıqdan, təkəbbürdən, riyadan uzaq həqiqi insan olmaq idi. Dostlarına, qohumlarına, iş yoldaşlarına münasibətdə də onun ən böyük qanun kitabı məhz insanlıq etalonuna sığınmasındaydı. Bir adama söz verəndə onun məsuliyyətini köksündə daşıyırdı. Ailələrindəki kiçik bir inciklik Sədinin ürəyində ağır bir dərdə çevrilirdi. Qazandığı hər qəpik pulu şərəflə qazanmaq istəyirdi. Vəfasızlıq görəndə isə onun gənc qəlbi həyatdan küsürdü, acı iztiraba bürünürdü. Bəlkə, elə buna görə Sədi yazmışdı: "Məhəbbətə belə sevdasız çıxan qızlar üçün canını qoysan da, xeyri olmadığını indi başa düşdüm. Və belə qərara gəldim ki, artıq kimin üçünsə yaşamaq, həqiqətən də, əbəsdir".

Tək-tək adamlar üçün yaşamaq hissi son zamanlar Sədinin qəlbindən yoxa çıxmışdı. O, yalançılıq heykəlini gözləri önündən götürüb atmışdı. Əbədi və tükənməz olan həqiqət simvoluna

sığınmışdı. Bu həqiqət simvolu ata, ana, bacı və qardaşa məhəbbətdən, bir də Vətənə sevgidən yoğurulmuşdu.

Sədigilin ailəsi böyükdür. Anası Solmaz xanım qəhrəman anadır. Qabarlı əlləri, qırış-qırış siması, həlim təbiəti olan Solmaz ana övladlarını min bir əziyyətlə böyüdüb. Uşaqlarını nəzir-niyazla, qurbanla yekəldib. Amma heç vaxt ağlına gətirməyib ki, nə vaxtsa oğlunu – Sədini də Vətənə qurban verəcək.

Biz onlarda olanda Solmaz ana stol boyu təzə qızılgül yarpaqları sərib qurudurdu. Neçə illərdi ki, ana hər yazda qızılgül yarpağı qurudar və qış üçün mürəbbə bişirərdi. Bir pay da Sədiyə göndərərdi. Bu dəfəki yarpaqlara baxanda isə Solmaz ananın şirin və ağrılı laylası qulağımda səsləndi!

*Laylay dedim yatasan,*
*Qızılgülə batasan,*
*Qızılgüllər içində*
*Şirin yuxu tapasan.*
*Laylay, balam, a laylay!*
*Laylay, gülüm, a laylay!*

Sədinin atası Sabir Əsgərov Axaməd kəndinin tanınmış ziyalılarındandır. Ermənilərin torpaqlarımıza basqın etdikləri ilk günlərdən Sabir öz uşaqları, qohumları və kənd cavanları ilə sərhədlərdə döyüşüblər. Sərhəddən köç olanda, nə qədər adamı arxa kəndlərə daşıyıb, evlərində yerləşdirib. Sədi düşmən gülləsinə tuş gələndə isə bu acı həqiqəti ilk dəqiqələr ondan gizlədiblər. Lakin Sabir dağürəkli kişidir. Göz yaşlarını ürəyinə axıdıb. Bircə dəfn günü dözə bilməyib, küçə-dalana, həyət-bacaya sığışmayan adamlara içindəki hönkürtüylə və dəli bir harayla deyib: "Camaat, bu, Sədinin toyudur!".

Məsum ananın, dözümlü atanın, igid oğlanların qardaşı Sədi bunları elə bil əvvəldən bilirdi. Ona görə də xatirə dəftərinə belə yazmışdı: "Kimi həyatın xoşbəxtliyini mal-dövlətdə, kimi vəzifədə görür. Lakin mən hər şeyi ailəmizin sağlığında və xoş-

bəxt olmasında görürəm. Arzum ailəmizdə hamıdan əvvəl qara torpağa getməkdir. Onlarsız mən heç nəyəm və heç kiməm".

Sənin nə yaşın varıydı, bütün arzularına çatasan?! Amma təkcə bu arzuna çatdın Sədi!

Sən yaşamaq da istəyirdin. Qəlbində böyük həyat eşqi varıydı. Belə olmasaydı aşağıdakıları yazmazdın: "Yaşamağın mənim üçün nəyə lazım olduğunu heç kimə deməmişəm".

Sədi, sən həyat eşqinin sirrini heç kimə demədin. Amma adamlardan da gizli saxlaya bilmədin. İndi hamı bilir bu sirri. Vətən eşqiydi sənin amalın. Torpaq sevdasıydı sənin əsl sevdan. Bax ona görə də hələ 1991-ci il mart ayının 15-də xatirə dəftərinə qan rəngi olan qırmızı hərflərlə yazmışdın: "Torpaqdan yaranmışıq, torpağa da gedəcəyik".

Deyirlər, hər adamın öz alın yazısı var. Amma adamlar onu oxuya bilmirlər. Bəs sən necə oxumuşdun öz alın yazını, Sədi?! Bax bu, əbədilik sirr olaraq qalacaq: xatirə dəftəri – alın yazısı!

***DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:***

*3 may 1992-ci il. Saat 16 radələrində Ermənistan tərəfdən sərhədlərimizə soxulmuş 2 hərbi vertolyot postlarımızı pulemyot və raketlərdən atəşə tutmuşdur. Sədərəkdə 100-ə qədər ictimai və şəxsi bina dağıntıya məruz qalmışdır. Qocalar, qadınlar və uşaqlar kənddən təhlükəsiz yerlərə çıxarılmışlar.*

**DƏHNƏ**

Dədə-babadan çox kəndin, çox obanın yanında dəhnələr olub. "Dəhnə" arxlara axan suyun bölündüyü yer deməkdir. Adamlar çox vaxt oraya ümid kimi də baxıblar. Sədərəyə yetişməmiş yolun sağ kənarında, dağların ətəyində yerləşən Dəhnə

isə indi tanınmaz olub. Sədərəkdən köçürülənlərin bir hissəsi buranı özlərinə sığınacaq biliblər.

Uzaqdan alaçıqlar görünür. İlk baxışdan diqqəti cəlb eləyən çadırlar rənginə, böyük-kiçikliyinə görə bir-birindən fərqlənir. Deyirlər, həmin çadırların xeyli hissəsi Türkiyədən gətirilib. Təmənnasız olaraq kəndi tərk edən əhalinin ixtiyarına verilib.

Dəhnədə ağaclar sən deyən o qədər də çox deyil. Lakin kölgə salan onlarla ağac indi adamların köməyi olub. Çadırlarla ağaclar qoşa dayanıblar, bir-birinə həyan durublar. Elə bil çiyin-çiyinə verib düşmənə sinə gərirlər. Bir az uzaqda isə nəhəng dağlar əyilməz əsgər kimi ağaclara, çadırlara keşik çəkirlər. Dağların o tərəfində top gurlayır, igidlərimiz Sədərək kəndini qoruyurlar.

Dəhnədə çadırların yanında ara-sıra maşınlar dayanıb. Təsərrüfat maşınları da görünür. Amma nə faydası, əkin-tikinə yadırğayıb indi onlar. Bir traktorçu isə lafetinin üstünü çadırlayıb ailəsi üçün "ikinci mərtəbə"də ev düzəldib. Burada deyiblər: "Ağıl ağıldan üstündür".

Çadırların yanında ocaq çatıblar. Çöllərdən yığılıb gətirilən quru ağaclar, çör-çöplər burada yaşayanların ocağının odu, közü olub. Çay qoyurlar, süd bişirirlər, su qaynadıb pal-paltarını, baş-gözlərini yuyurlar. Sədərəkdə isə evlərdəki hamamlar adama həsrət qalıb.

Bu mənzərəni mən uşaq vaxtı az-çox yadımda qalan yaylaqda görmüşdüm. Orada da çadır qurardıq, ocaq çatardıq. Uşaqlar dəstə-dəstə əl-ələ verib "qaynatma" saqqız yığardılar. Səhərdən axşama o qədər oynayardıq ki, gecələr çadırda necə yatdığımızı bilməzdik. Vallah heç kəndimizi yuxuda da görməzdik. İndi burada uşaqlar saqqız yığmağa getmirlər, oynamaq da yadlarından çıxıb. Yuxularında isə hər gün kəndlərini görürlər. Dağın o tərəfində yerləşən, lakin gedilməsi müşkül olan kəndlərini!

Yolun sol tərəfində dəmir yolunda 30-40 vaqon dayanıb. Bunlar yük vaqonlarıdır. Sədərəkdən köçənlərin bir qismi bu vaqonlarda yaşayırlar. Bura da onların "dəhnə"sidir.

Biz orada olanda adamların mal-qarası örüşdən qayıdırdı. Qəribədir, kəndlərdə, yollarda mal-qara gələndə sürücülər siqnal verir, tez keçmək istəyirlər. Bu magistral yolda isə hamı maşını yavaşca əyləyir, mal-heyvana yol verir. Çünki bütün sürücülər bilir ki, indi bu, adamların ruzisidir. Ruzini heç kim keçib getmək istəmir. Bu kəndin tanınmış ziyalılarından olan Əhməd Sədərəkli ilə görüşdüm. On dəfə, yüz dəfə görüşmüşəm bu söhbətcil şairlə. Amma iki dəfədir ki, görəndə tanımadım onu. Jurnalist dostum Cəfər Əliyev "Əhməd müəllim" deyəndən sonra tanımadığıma utandım. Ancaq açıb-ağartmadım. Düşündüm ki, onun qəlbinə bir damla nisgil də salmış olaram.

İlahi, adam nə qədər tanınmaz olarmış, adam bir-iki ayın içində nə qədər qocalarmış! Eşitmişdim ki, 37-ci illərdə bir gündə adamların saçı ağarar, ürəyi partlayarmış. İndi o illərin də ağrısını yaxından duydum. Neçə vaxtdan uzatdığı saqqalı ağappaq olmuşdu və elə bil ağ saçlarına qarışmışdı. Gözləri saqqalla saçın arasında itmişdi. Bu iti gözlərə bir az da qızartı çökmüşdü. Hiss olunurdu ki, gecələr yuxusu ərşə çəkilib.

Əhməd Sədərəkli yaman qocalmışdı. Az qalırdı belə bükülsün. Siqareti siqaretə calayırdı. Ayaqları taqətdən düşmüşdü. Hiss edirdi ki, şeir yazmağa ürəyindən çox mövzular keçir. İstədim soruşam: Əhməd müəllim, şeir yazırsanmı? Amma soruşmadım. Bildim ki, onun çəkdiyi ağrı şeir ağrısından çoxdur. Bildim ki, indi yaza bilmir, amma sağlıq olsun yazacaq. İndidən duydum ki, həmin şeirlər dəli şeirlər olacaq. Əvvəlkilərə qətiyyən oxşamayacaq.

Əhməd Sədərəkli ara-sıra danışırdı. İçində siqaretdən düşən bir od var idi. Közərirdi, qızarırdı, yanırdı, sönürdü bu od. Bakıya köçüb gedən kəndlilərindən gileyli idi. Dar günün, ya-

man günün həmdərdiydi o. İmkan tapıb arada Muxtarı, Vəlini soruşurdu. Dedim ki, ikisi də yaxşıdır. Bu çətin günlərdə Əhməd Sədərəklinin haradan yadına düşdü mənim və onun dostları. Məhz elə bu anda hiss etdim ki, Ə.Sədərəkli yas içindədir. Hələlik əli çatmayan kəndinin, şeirlərini yazdığı doğma evinin yasını çəkir. Yalnız belə ağır günlərdə adamların gözü dost-tanış axtarır, adamların dili dost-tanış soruşur.

Əhməd müəllim, sənin çəkdiyin dərd yalnız sənin, mənim deyil, hamınındır. Sənin ürəyindəki düşmənə tuşlanan nifrətin bütün el-obanın nifrətidir. Sənin haqq səsin bütün Azərbaycanın haqq səsidir. Əgər belə olmasaydı, Naxçıvan Muxtar Respublikasının baş prokuroru, əsl vətəndaş ziyalı Hüseyn Hüseynov qələmə sarılıb aşağıdakı qəzəbli şeiri yazmazdı. Vallah, dərdin böyüklüyüdür ki, hüquqşünas da bu gün şair olur:

*Türkəm, türk oğluyam, türk balasıyam,*
*Düşmən torpağımı ala, qoymaram.*
*Qanımı tökəndən can alasıyam,*
*Qisas qiyamətə qala, qoymaram!*

*Mən Tanrı demişəm pərvərdigara,*
*Qurbanlar vermişəm doğma diyara.*
*Köksümdə olsa da, çal-çarpaz yara,*
*Qarabağ kafirdə qala, qoymaram!*

*Babam Oğuz "haydı, qeyrət!" deyibdir,*
*Dədəm Qorqud xeyir-dua veribdir,*
*Erməni həmişə payın yeyibdir,*
*Boz qurdam, çaqqalı yala qoymaram.*

*Rus silahlı qorusa da "yan"ını,*
*Xain qonşu qurtarammaz canını,*

*Xocalının, Daşaltının qanını,*
*Haxçikdə, dağıda qala, qoymaram.*

*Bəsdir didişdiyim, qeyrət vaxtıdır,*
*Birləşmək vaxtıdır, şöhrət vaxtıdır,*
*İntiqam vaxtıdır, nifrət vaxtıdır,*
*Yağılar yurdumda qala, qoymaram!*

## *DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:*

*4 may 1992-ci il. Atışmalar nəticəsində Naxçıvan şəhər sakini Mirzəyev Nadir Əli oğlu, Babək rayonundakı Çalxanqala kənd sakini Qəhrəmanov Tağı Yusif oğlu, Sədərək kənd sakini Əsədov Eldar Müzəffər oğlu, Çərçiboğan kənd sakini Kərimov Viləddin Abuzər oğlu, Babək rayon sakini Hacıyev Mehman Qəzənfər oğlu yaralanmışlar.*

*Naxçıvan şəhər sakini Allahverdiyeva Sərvinaz Qara qızı övladı Məmmədova İlhamə Qüdrət qızı ilə döyüşçü oğlunun yanına gedərkən yolda yaralanmış və Şərur rayon xəstəxanasına gətirilmişdir.*

*Sərhəddən uzaqda yerləşən Dizə, Mahmudkənd, Dəmirçi kəndlərinə mərmi düşmüşdür. Dəmirçi kəndinə düşən mərminin partlaması nəticəsində Həsənov Müzəffər Abbas oğlu və Hüseynəliyev Vüqar Abbas oğlu yaralanmışlar.*

*5 may 1992-ci il. Atışmalar nəticəsində Sədərək kənd sakinləri İsgəndərov Yasin Davud oğlu, Səfərov Əli Abbas oğlu, Naxçıvan şəhər sakini Babayev Namiq Yaşar oğlu yaralanmışlar.*

*Günnüt kəndində altı saatlıq döyüş getmişdir. Kəndə daxil ola bilən təcavüzkarlar geri oturdulmuşlar. Milis işçilərindən Abbasov Mərdan Fərman oğlu və Rəhimov İnşallah Xəlil oğlu yaralanmışlar. Milis işçisi, Düdəngə kənd sakini*

*Rəhimov Asəf Bayram oğlunun taleyi haqqında heç bir məlumat yoxdur (Bir neçə gündən sonra öldüyü məlum olmuşdur).*

## MACƏRA İÇƏRİSİNDƏ QƏHRƏMANLIQ

Qədim Şərq adət-ənənələrini ciddi şəkildə qoruyub saxlayan Düdəngə kəndi öz dar küçələri ilə Şərurun bütün kəndlərindən fərqlənir. Hələ neçə il bundan qabaq bu kəndin yollarını, dalanlarını burula-burula keçdikcə beynimdə bir fikir dolaşmışdı: Düdəngəni Şərurun "İçərişəhəri" adlandırmaq olar. Həqiqətən də, burada bir kərə getdiyin evi ikinci dəfə tapmaq o qədər də asan deyil. Gərək çox diqqətli olasan, hər divarı, hər ağacı yaddaşına köçürəsən.

İndi bu kəndin mərkəzi yolu tamam dəyişilib. Çəpərlər, divarlar, hətta evlər belə sökülüb həyətlərə çəkilib. "Zeyvə-Düdəngə" sovxozunun direktoru Mamoş Şirəliyevin səyi ilə həmin küçə sanki geniş xiyabana çevrilib. Asəf Bayram oğlu Rəhimov 1960-cı il yanvar ayının 24-də bu kənddə dünyaya göz açıb, bu kənddə böyüyüb. Qohumları da ona məhəbbətlə yanaşıb, dostları da. Lakin Asəf Düdəngədə çox duruş gətirə bilməyib. Bakıya, Saratova, Murmanska üz tutub. Onun bu səyahətləri elə bəlkə kəndin dar küçələrinə etirazdan doğulub. Asəfi yaxşı tanıyanlar da qətiyyətlə söyləyirlər ki, o, öz ömrünə sığışmayan bir cəsur idi. Yalnız arzuları, istəkləri ilə yaşamırdı, arzularından daha irəliyə şığıyırdı.

Asəf Rəhimov ticarət texnikumunda oxumuşdu. Lakin az vaxt içərisində iş yerini tez-tez dəyişməsi sübut edir ki, Asəf ticarətin alaqaranlıq dolaylarını da Düdəngənin əyri-üyrü döngələri kimi görür və oranı tərk etmək, oradan uzaqlaşmaq qərarına gəlir. Bu gənc oğlan sanki Nizami Gəncəvinin Fateh qəhrəmanı İsgəndərin ucsuz-bucaqsız məmləkətləri keçərək şimalda

"azad cəmiyyət" tapdığını xatırlayıb, özü də bu azad cəmiyyət, geniş meydan, sərbəst həyat arzuları ilə zərif macəra qanadlarında Rusiyanın içərilərinə doğru irəliləyir. 1984-cü ilin bir yay axşamı Murmanska – bu şimal şəhərinə gəlir. Milis orqanlarında işə düzəlir. Deyəsən, milis nəfəri olmaq onun alın yazısıymış. Çünki 1987-ci ildə Şərura qayıdıb iki il başqa işlə məşğul olandan sonra yenə sevdiyi milis paltarını geyinir. Ömrünün axırına qədər rayon daxili işlər şöbəsində serjant rütbəsində çalışır. Ömrünə-gününə sığmayan Asəf yağı düşmənlə mübarizədə də folklor qəhrəmanının tilsiminə sığınır. Şərq folklorunun məşhur nümunəsi olan "Əlibaba və qırx quldur" əsərindəki baş obrazın adını özünə təxəllüs götürür: "Əlibaba!" Əlibabanın döyüşləri nağıl idi. Bu nağılı adamlar bir-birindən eşidib körpələrinə, nəvələrinə danışacaqdılar…

Əlibabanın vuruşları kino idi. O kinoları görənlər daha böyük qüvvə ilə hücuma keçirdilər. Görməyənlər həsrət çəkə-çəkə qalacaqlar. Əlibaba savaşlarda tilsim idi, gözəgörünməz, güllə-batmaz bir tilsim. Onun adı yağı düşməni top, raket gülləsindən daha dəhşətli lərzəyə salardı. Yağılara açılan atəşlər nə vaxtsa ara verər, səngiyərdi, ancaq bu ad bir dəqiqə, bir an belə düşməni sakit buraxmazdı. "Əlibaba" adı elə bir odlu güllə idi ki, yağıların bağrına, yuxularına girib çıxmazdı. Çünki Asəf düşmənlərin olduqları yerə tez-tez kəşfiyyata gedər və həmin yerlərə bir nişanə qoyub qayıdardı. Bu nişanlar mina kimi partlayardı, mərmi kimi gurlayardı. Sonra isə qorxardı düşmən: özündən, öz dostundan, gələcəyindən! Asəf gülləni az-az işlədərdi, gülləyə heyfi gələrdi. Elə macəraları ilə öldürərdi düşməni.

Asəfin ilk övladı oğlan olmuşdu. Adam indi başa düşə bilmir ki, o zaman "Əfqanıstan" hardan gəlib onun ağlına, oğluna Əfqan adı verib! Deyəsən, bu da macəralı bir ömrün nişanəsidir.

İndi Əfqanın beş yaşı, balaca Gülnarın isə iki yaşı var. Bu məsum körpələrin hələ heç nədən xəbəri yoxdur. Xəbərləri yoxdur ki, Asəf atanın özü deyil, qəhrəman adı onlara dayaq duracaqdır.

Ey körpə balalar, gözləriniz yol çəkməsin, siz bütün el-obamızın övladlarısınız!

Asəfin dostu Tofiq Cəfərov deyir ki, biz onu son döyüşə gedərkən yola saldıq. Çoxdan tanıdığım Asəf gözlərimdə bir boy da böyümüşdü. Əvvəlki vaxtlarda olduğundan bir az da cəsarətli, bir az da vüqarlı, bir az da qürurlu idi. Silah, geyim, boy-buxun ona necə də yaraşırdı. Ayrılanda mənə dedi ki, Diyadində Məmməd müəllimə deyərsən, onda bir zolaqlı matros köynəyi var. Onu mənə göndərsin. O köynəyi geyib, sinəmi açıb düşmənlə vuruşa gedəcəyəm. Belə daha ləzzətlidir.

Asəf matros könəyini geyə bilmədi. Onun bir macərası da qaldı. Düşmənlər Sədərəkdəki müdafiə qüvvələrimizi parçalamaq niyyətilə Günnüt kəndini atəşə tutanda Asəf Rəhimov orada alınmaz bir qala idi. Yolları, cığırları ovuc içi kimi tanıyan bu igid oğlan son döyüşdə amansız düşmənlə təkbətək qalmağa qərar verdi. Bütün silahdaşlarının geri çəkilməsini tələb etdi.

*Daşların arxasına keçdi,*
*Tərini su edib içdi,*
*vuruşdu...*

*Ayaqları sürüşdü,*
*Çalaya düşdü,*
*vuruşdu...*
*Kolların altına sindi,*
*Qəlbində körpəsi dindi,*
*vuruşdu...*

Lakin uzun atışmalardan sonra əsir düşəcəyini bilib, yaddaşlardan silinməyən qəhrəmanlıq nümunəsi göstərdi. Özünü

məhv edib ölümün və ölməzliyin qucağına atdı. Bu isə macəra içərisində unudulmaz bir qəhrəmanlıq idi!

## *DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:*

*6 may 1992-ci il. Sədərək kəndi intensiv olaraq top, raket və pulemyot atəşinə tutulmuşdur. Döyüşlər davam edir. Dəmirçi kənd sakini, 1953-cu ildə anadan olmuş dörd uşaq atası həkim Məmmədov Şahvələd Qasım oğlu yaralı əsgəri atəş zonasından çıxararkən düşmən gülləsi ilə qətlə yetirilmişdir. 11 nəfər yaralanmışdır. Yaralananlar arasında 2 nəfər məktəbyaşlı uşaq vardır.*

*7 may 1992-ci il. Sədərək kəndi ətrafında döyüşlər bütün günü davam etmişdir. Döyüşçülərimiz təcavüzkarlara layiqli cavab verirlər.*

*Düşmən bütün məntəqələrdən geri çəkilir.*

## ORDU DÖYÜŞLƏRDƏ YARANIR

İndi Şərurda əsgər paltarı geymiş gənc oğlanlara tez-tez rast gəlmək olur. Onlar fəxrlə, qürurla daşıyırlar bu əsgər paltarlarını. Yadımdadır ki, bir vaxtlar əsgərlikdən gələn uşaqlar öz mülki paltarlarında gələrdilər. Kimi də hələ tərxis olunmamışdan ata-analarına məktub yazıb bildirərdi ki, evdəki paltarlarını göndərməsələr, kəndə gəlməyəcəklər. İndi isə tamamilə əksinədir. Cavanlar mülki paltarlarını soyunub əsgər paltarı geymək istəyirlər. Yəqin onların sevdikləri gözəllərə də bu əsgər geyimləri xoş gəlir. İndi kəndlərdə, yollarda, şəhər içində əsgərlər isti nəfəs kimi adamların arasında dolaşırlar. Hərdən də qoca arvadların səsi eşidilir: “Boyuna qurban, oğul!”, “Allah səni bə-

ladan saxlasın!” Onların bəziləri Sədərəkdən və başqa döyüş məntəqələrindən qayıdıb evlərinə gedir, bəziləri isə döyüş zonalarına yollanırlar. Bircə dəfə gedənləri və gələnləri görsən, elə bil dünyanı bağışlayırlar sənə. Bir dəstə evinə, kəndinə qələbə sevinci aparır, o biri dəstə içlərindəki qəzəb və nifrətlə cəbhəyə can atır. Bəzən də görürsən ki, bir əsgər çəkməçi dükanında oturub dostuna dünənki döyüşlərdən danışır. Başqa bir əsgər isə nişanlısı ilə şirin-şirin söhbət edərək bazar yolu ilə irəliləyir, heç fərqinə varmır ki, onlara baxan var, ya yox! Bir vaxtlar bu yerlərdə ara-sıra gözə dəyən əsgərlərdən fərqli olaraq, onlar daha möhkəm addımlarla yeriyir və özlərini bu torpağın əsl övladları kimi aparırlar.

Əsgərlərin həyatı ilə daha yaxından tanış olmaq üçün Şərurun mərkəzində yerləşən “N” hərbi hissəsinə getməyi qərara alıram. Həmin hərbi hissə vaxtilə SSRİ qoşunlarına məxsus o qədər də böyük olmayan bir həyətdə yerləşir. Əvvəlcədən elə zənn edirdik ki, oraya daxil olmaq bir o qədər də çətin olmayacaq. Lakin bizi hasar qapısının ağzında növbətçi əsgər qarşılayır. Elə ilk andan hərbi hissədəki ciddi intizamın şahidi oluruq. Növbətçi daxili telefon vasitəsilə qərargah rəisinə zəng vurur. Yalnız rəisin icazəsindən sonra həyətə daxil ola bilirik.

Hər tərəf səliqə-səhmandadır. Yolun kənarındakı rəngbərəng güllər yaşıllığın içindən boy atıb sanki bizi salamlayır. Biz də öz növbəmizdə əsas binanın qarşısındakı kölgəlikdə oturan əsgərlərlə görüşür, hal-əhval tuturuq. Binanın giriş qapısında bizi başqa bir növbətçi qarşılayır. Onun müşayiətilə qərargah rəisinin otağına gəlirik.

Bura Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin regional qərargahıdır. Qərargahın rəisi Azərbaycan xalq deputatı Şahmərdan Cəfərovdur.

Ş.Cəfərov bu hərbi hissənin yaradılmasından danışdı. Aydın oldu ki, hələ 1990-cu ilin əvvəllərində erməni təcavüzkarları

ərazimizə basqın edəndə, xalq cəbhəsi nəzdində müdafiə komitəsi yaratmaq zərurəti meydana çıxmışdı. O zaman hələ beşikdə olan bu hərbi təşkilatın 40 nəfər könüllü əsgəri var idi. Ancaq təcavüzkarlara qarşı mübarizədə yalnız qərargah üzvləri deyil, hamı bir nəfər kimi iştirak edirdi. Bizim qüvvələrlə düşmən neçə dəfə geri oturdulmuşdu. Uğurlarımız isə daha geniş formada birləşməyə imkan verirdi. Məhz buna görə də sonralar Şərur rayon məclisinin qərarı ilə həmin bazada milli müdafiə dəstəsi yaradıldı. Naxçıvan MR Ali Məclisinin qərarı ilə Dövlət Müdafiə Komitəsi fəaliyyətə başlayanda isə Şərur rayon milli müdafiə dəstəsi də buraya daxil oldu.

Beləliklə, könüllülərin sayı xeyli artdı. Bunların sırasına keçmiş SSRİ-nin başqa yerlərdəki hərbi hissələrindən qaçıb gəlmiş əsgərlər də daxil edildi. İndi burada hərbi çağırışda olan gənclər də vətən qarşısındakı borclarını yerinə yetirirlər.

Qərargah rəisi əsgərlərin şücaətindən və mərdliyindən ağızdolusu danışdı. O dedi ki, döyüşdə mən hərdən uşaqların sifətinə baxıram. Baxdıqca da elə bilirəm ki, vuruşan əsgərlərin ən böyük silahı qeyrətdir. Ayrı-ayrı silahlar, güllələr deyil, bu qeyrətdir düşmən üzərində qələbə çalan yeganə amil.

Şahmərdan dedi ki, indi uşaqlarımız döyüş bölgələrini qarış-qarış tanıyırlar. Onlar yaxşı bilirlər ki, haradan və nə vaxt hücuma keçmək lazımdır. Müdafiə olunmanı da çox gözəl bacarırlar. Mən istəyirəm ki, igidliklə vuruşan əsgərlərə vaxtında qiymət də verilsin. Əsgər şərəfini bu gün yalnız əsgərlər deyil, bütün xalq uca tutmalıdır. Bizim Qarabağda da, sərhəd bölgələrində də tam qələbəmiz bundan çox asılıdır.

Qərargah rəisi böyük qürurla bildirdi ki, Azərbaycan ordusu çox qüvvətli ordu olacaq. Çünki bu ordu döyüşlərdə yaranır.

***DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:***

*8-17 may 1992-ci il. Sərhədlərdə ara-sıra atışmalar olmuşdur. Nisbi sakitlik hökm sürür.*

*18 may səhər saat 5-də erməni quldur birləşmələri hər cür müasir silahlarla Sədərək kəndindəki Qırmızılar, Ucubiz, Mil, Qaraburun təpələrinə hücuma keçmiş və bu mövqeləri müvəqqəti olaraq tutmuşlar. Ağır döyüşlər bütün gün ərzində davam etmişdir. Qarahəsənli kənd sakini Məmmədov Muxtar İsa oğlu, İbadulla kənd sakini Tağıyev Rüstəm Rəşid oğlu, Sədərək kənd sakini Şirəliyev Mustafa Hüseyn oğlu, Əhmədov Eldar Paşa oğlu, kəndin digər sakini Məmmədova Ceyran Mirəli qızı həlak olmuşlar. Döyüşlər zamanı 47 nəfər müxtəlif dərəcədə yaralar almışlar. Yaralılar xəstəxanalara göndərilir. Onların arasında topçu komandir Tağıyev Zakir Hüseyn oğlu, Sədərəkdə təsərrüfat briqadiri Alı Alırzayev, Arif Musa oğlu, pensiyaçı Səriyyə Şükürova da vardır.*

*Dinc əhali Sədərəkdən yenə çıxarılır.*

*Düşmənin Havuş kəndinə hücumlarına layiqli cavab verilmiş və onların atəş nöqtələri susdurulmuşdur.*

**BORC**

1990-cı ilin yanvar ayı idi. Ermənilər Sədərəyə hücuma başlamışdılar. Atəş səslərindən qulaq tutulurdu. Körpə də, böyük də atəş içində idi. Uzun illər ermənilərlə qonşu yaşayan, bir-birlərinin evinə gedib-gələn sədərəklilər inana bilmirdilər ki, bu gülləlləri onların başına həmin dost olduqları ermənilər yağdırırdılar.

Atılan mərmilərdən biri də Sədərəkdəki "Nərgiz" kafesinə düşdü. Qərargah yerləşən bu kafeda könüllülərimiz toplaş-

mışdılar. Onların arasında ölənlər və yaralananlar oldu. Eldar bu dəhşəti öz gözləri ilə gördü. Dostlarının qisasını alacağına and içdi.

Əhmədov Eldar Paşa oğlu 1966-cı ildə Sədərək kəndində anadan olmuşdur. Orta məktəbi qurtarandan sonra 1984-1986-cı illərdə hərbi xidmətə getmişdi. Hərbi xidmətdən qayıdıb "Gənclik" kafesində işləyirdi. Erməni təcavüzü başlayandan isə silaha sarılıb könüllülərlə kəndin keşiyini çəkirdi. Eldar atasını çox sevirdi. Ürəyində fikirləşirdi ki, böyüyərəm, əlim bir iş tutar, atamın qulluğunda duraram. Lakin o, ata borcunu qaytara bilmədi. Çünki özü 20 yaşa çatmamış onu itirdi. Atasından isə ona öyüd-nəsihətlər qaldı. Eldar bu nəsihətlərlə həyat yolunda addımlamağa başladı. Çətin gündə gərəyi oldu atasının məsləhətləri.

Eldar özündən böyük qardaşı Nəsibi də çox istəyirdi. Onunla dost idi, sirdaş idi. Nəsib kənddən uzaqlarda yaşamasına baxmayaraq, Eldara qayğı göstərirdi. Eldar da fikirləşirdi ki, vaxt gələr qardaşımın borcundan çıxaram. Lakin Nəsib də 1991-ci ildə gözünü əbədi yumdu. Qardaşına da borclu qaldı Eldar.

Eldar anasıynan canbir qəlbiydi.

Sözünü-söhbətini ona söyləyirdi. Anası da yaman isinmişdi Eldara. Heç bir oğluna bu qədər ərk eyləyə bilmirdi ana. İllah da ki, əri öləndən sonra oğlanlarının içində Eldarı daha əzizləyirdi. Elə bil mehrini heç kəsə yox, bircə Eldara salmışdı. Eldar da hərdən götür-qoy eyləyir, düşünürdü ki, anamı ovcumun içində saxlayacağam. Qoymayacağam qara gün görsün. Bəlkə, borcumdan bir az çıxdım.

Eldar kiçik bacısını görməyəndə darıxardı. Bacısı tez-tez onun paltarlarını qaydaya salır, hərdən də qımışıb onunla zarafatlaşardı. Eldar bacısını görəndə bir hərarət gələrdi bədəninə, bir sevinc qonardı sifətinə. Oğrun-oğrun da bacısının böyümə-

yinə baxardı. İçində bir duyğu gizlənmişdi ki, gör onun borcundan necə çıxacağam?!

Eldar Pərvanəyə nişanlanmışdı. Onu görməyəndə darıxırdı. Bilirdi ki, döyüşlərdə olanda Pərvanə narahatdır. Ürəyi əsirdi Pərvanədən ötrü. Hər gün-hər gecə fikirləşirdi ki, gərək elə döyüşəm, Pərvanə el içində xar olmasın. Pərvanə həmişə mənim cəsarətimi, qəhrəmanlığımı eşitsin. Düşünürdü ki, qardaşımın ili çıxan kimi toy eyləyəcəyəm. Onun da həsrətli baxışlarının borcundan çıxacağam. Lakin 18 may döyüşləri amansız oldu. Eldar döyüşlərin şiddətləndiyini eşidən kimi cəbhəyə üz tutdu. Ana yalvarışı, bacı sızıltısı, nişanlı xəyalı onu yolundan qaytara bilmədi. Eldar silaha sarılıb döyüşlərə girdi. Yoldaşları söyləyirdilər ki, Eldar hələ indiyə qədər bu cür vuruşmamışdı. O, öz çəldliyi ilə düşməni də heyran qoymuşdu.

Atdığı güllələr boşa çıxmırdı. Miltəpə uğrundakı döyüşlərdə onun şücaəti hamıya nümunə oldu. Biz hamımız bilirdik ki, Miltəpəyə qalxmaq son dərəcə çətindir. Müvəqqəti mövqelər tutmuş düşmən döyüşçülərimizin təpəyə qalxmasına imkan vermirdi. Lakin Eldar bütün gücü ilə təpənin başına qalxdı. Təəssüf ki, onu təpədə vurdular. Eldar torpaq uğrunda öz qanına qəltan olmuş bayrağa çevrildi. Min təəssüf! Bu dəfə Eldar özü torpağa qovuşdu. Anasının, bacısının, nişanlısının borcunu qaytara bilmədi. Lakin bu gənc yaşında torpaq qarşısındakı borcunu şərəflə yerinə yetirdi.

## QƏFİL ÇƏKİSİZLİK

Sədərək döyüşlərində qəhrəmanlıqla həlak olanları xatırladıqca yalnız onların taleyi barədə düşünmürsən. Bəzən qardaşı, nişanlısı, dostu, bəzən də atası, əmisi yada düşür bu igidlərin. Kədər və dərd bir ömrün içindən keçib neçə-neçə ömürlərə dayanır. Torpaq insanı özünə çəkən kimi, qəhrəmanlıq taleyi də adlı-adsız insanları özünə tərəf çəkir. 1973-cü il avqust ayının 15-də İbadulla kəndində doğulmuş Tağıyev Rüstəm Rəşid oğlu haqqında fikirləşəndə də nədənsə birinci olaraq əmisi Bayram yada düşdü.

Bayramla yaşıdıq. Yeniyetmə çağlarımızdan bir-birimizi tanıyırdıq. Eldə-obada hörməti var. Qabaqlar "Zil" markalı maşın sürərdi. Qonum-qonşuya əl tutar, çox vaxt da təzə ev tikənlərə daş gətirərdi. İstəyirdi hamının evi olsun. İstəyirdi ki, təzə evlənən də öz damının içində yığışıb körpələri ilə desin, gülsün, sevinsin.

Bir əhvalat da yada düşür. 8-9-cu sinifdə oxuyurduq. Qışlaqabbas kəndindəki dərə deyilən yerin yuxarısında çimməyə getmişdik. Gur çay axırdı, burulğan-burulğanın dalınca gəlirdi. Yoldaşlarımızdan biri qəfil burulğana düşdü. Heç kəs cəsarət etmədi onu çıxarmağa. Bayram əsl qəhrəmanlıq göstərdi. Özünü burulğanın içinə vurub, oğlanı ölümün pəncəsindən aldı. Bəlkə, Bayram özü də bilmir ki, o hadisə mənim yaddaşımdan silinməyib. Və elə Bayram həmin vaxtdan yadımda daha çox qalıb.

Bəs nə oldu, Bayram? Niyə qardaşın oğlu igid Rüstəmə maşınınla daş gətirib ev tikmədin? Niyə onu düşmənlərin burulğanından xilas eyləyə bilmədin? Bəlkə elə bu nisgillərinin ağrısıyla avtobus dayanacağında oturmuşdun. Səni heç vaxt oturan, əyləşən görməmişdim. Bu çəkilməz dərd idi, ağrıydı səni oturdan, səni bükən, qardaş!

Rüstəm mart ayında əsgəri xidmətə çağırılır. Xüsusi Təyinatlı Milis Dəstəsində qulluq etməyə başlayır. Gümrahlıq və cürət nişanəsini baxışında, qollarının əzələlərində saxlayan Rüstəm ən çətin tapşırıqları yerinə yetirən əsl cəngavər idi. Ölümündən qabaq bir həftəliyə evlərinə istirahətə gəlibmiş. Ailəsi və qohumları ürəkdən sevirdilər onu. Deyirdilər ki, elə körpəliyindən hamı Rüstəmlə birlikdə şəkil çəkdirmək istəyirdi. Son görüşündə də Rüstəmi beləcə duz kimi yalayırmış qohumları.

Bu istirahət də elə bir istirahət deyildi. Hər gün, hər gecə fikrindən Sədərək təpələri gəlib-keçərdi. Cəbhə dostlarının səmimiyyəti, təmizliyi onun qəlbində iz salar, göyərərdi. Bir gün axşamçağı eşidir ki, onun üzv olduğu dəstə Sədərəyə təcili döyüşə yollanır. Rüstəm artıq istirahət edə bilmədi. Vaxtı da itirmək olmazdı. O, dostlarını darda, özünü qıraqda qoymamaq üçün birbaşa Sədərəyə döyüşə yollanır. Amma Rüstəm bilmirdi ki, bu, onun axırıncı döyüşüdür.

Rüstəm orta təhsilini Şərur rayonunun mərkəzindəki 1 №-li məktəbdə bitirmişdi. Onun kənddən kənarda oxuması dünyagörüşünə az təsir göstərmir. Yeni dostlar, həmkarlar tapır özünə. Rüstəm burada rus dilini öyrənir və səlis danışmağa başlayır.

Rüstəmin böyük kitabxanası indi də evlərində durur. Dünya klassiklərinin əsərlərini dönə-dönə oxuyar, kitablardakı ən maraqlı əhvalatları atasına, qardaşlarına danışardı. Rüstəm oxumaqdan da doymazdı, danışmaqdan da. Mən Rüstəmin atasıyla görüşəndə əlində qürurla saxladığı bir kitab diqqətimi daha çox cəlb etdi. Bu əsər məşhur ingilis yazıçısı Herbert Uelsin "İlk adamlar ayda" romanıdır. 90 il əvvəl qələmə alınmış roman Rüstəmin tez-tez oxuduğu kitablardan idi. Görünür, fantaziyanı çox sevirmiş Rüstəm. Amma yeniyetmə yaşlarını yaşayan bu gənc əsgər gecələr göy üzündə gördüyü ayın sehrli aləmini yalnız Sədərək döyüşləri ilə müqayisə edə bilmişdi. O, həmin döyüşlərdə elə bil Aya uçurdu, başqa planetlərə doğru şığıyırdı.

Amma qəfildən elə Yerdə ikən çəkisizliyə düşdü, əbədi çəkisizliyə. Cənnət ruhu apardı onu.

## ARPAÇAYIN GÖZ YAŞLARI

Hələ ömrümdə yazın axır ayında Arpaçayı belə gur görməmişdim. Arazqırağı kəndləri Şərurun mərkəzi ilə birləşdirən Arpaçay körpüsündən keçəndə gözlərimə inanmadım. Sular elə ucadan hayqırırdı ki, səsi körpüyə dəyib əks-səda verirdi. Çayın yatağı tutmurdu kükrəyən, coşan, şaqqıldayan suları! Ləpələr sahilin ən uca qatlarını yalayırdı, köpüklər su üzünü. Elə bil el-obanın dərdini aparırdı Arpaçay!

Arpaçayın Arazla qovuşduğu yerin sağ sahilində Qarahəsənli kəndi yerləşir. Qarahəsənli Şərurun o qədər də böyük olmayan kəndlərindən biridir. Bağ-bağatı, yolları, əkin-tikini ilə yaxın-uzaq kəndlərdən o qədər də fərqlənmir. Lakin çaylara sinə gərən bu kəndin coğrafi mövqeyi ona bir sərinlik verir. Elə buradan çaya tamaşa edəndə bir dinclik, rahatlıq tapırsan. Gecələr Arpaçayın, Arazın həmin nəğmələri, yorğun adamların yuxularının şirinliyi olur. Amma 19 yaşlı Məmmədov Muxtar İsa oğlu üçün bu şirin yuxular daha heç vaxt olmayacaq.

Bu kənddə ən qədim adət-ənənələrimiz böyük hörmətlə qorunub saxlanır. Kiçiyin-böyüyün yeri bilinir. Bir adamın xeyiri, şəri bütün kəndin xeyiri-şəridir. Qarahəsənlidə həna qoymaq tez-tez müşahidə olunan adətlərdəndir. Muxtarın atası xeyli danışdı. Danışa-danışa elə bil ürəyini boşaldırdı, özünə təskinlik verirdi. Deyirdi ki, adətən, Qurban ayında seçmə erkəkləri həna ilə boyayar və sonra kəsib el-obaya qurban paylayarlar. Çünki həna bizdə qurbanlığın nişanəsidir.

Amma Muxtar bu il qurbanlıq əti yeyə bilmədi. Cəmisi 25 gün dözmədi. Atası deyirdi ki hamınız yaxşı bilirsiniz, gəlin gə-

ləndə onun əllərinə, ayaq barmaqlarına həna qoyarlar. Bununla gəlini köçdüyü evə qurban deyərlər. Amma İsa kişi Muxtara gəlin gətirə bilməyəcək. Onun evinə bir gözəl gəlini "Qurban" deməyəcəklər.

Atası söyləyirdi ki, bizdə bir adət də var. Oğlan əsgər gedəndə onun əl-ayağına həna qoyarlar. Bununla övladı Vətənə qurban deyərlər. Muxtar da əsgərliyə gedəndə ona həna mərasimi düzəltdik, Vətənə qurban dedik.

Təkcə bu qurbanlıq baş tutdu. Rüstəm vətənə qurban getdi. Sədərəkdəki 18 may döyüşlərindən qabaq, aprel ayından milli orduda xidmət edən Muxtar kənddə idi. Elə bil ürəyinə dammışdı ölümü. Az qalırdı ürəyi köksündən qopa. Muxtar ürəyini açmaq üçün kəndin kənarına çıxdı. Uşaq vaxtı dostlarıyla oynadığı, gəzdiyi yerlərə doyunca tamaşa etdi. Arpaçaya göz yetirdi, uca, yaraşıqlı evlərə baxdı, bir anlıq keçmiş günlərini xəyalında canlandırdı. Sonra həyətlərinə gəldi. Budaqları yerə düşən göycə ağacının altında dayandı. Doyunca göycə yedi. Muxtar kəndlə, evlə sağollaşdı, kəndlə, evlə halallaşdı və Sədərəyə yola düşdü.

İndi elə bil Arpaçay boylanır kəndə tərəf. Dili yox, ağzı yox, nəsə danışa. Arpaçay yatağına sığmır. Axan elə bil su deyil, Arpaçayın göz yaşlarıdır.

## *DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:*

*19 may 1992-ci il. Davam edən döyüşlər bütün gün ərzində ara verməmişdir. Qəhrəman döyüşçülərimizin igidliyi sayəsində Ucubiz, Qırmızılar və Qaraburun təpələri geri qaytarılmışdır. Qələbə Naxçıvan Milli Müdafiə Ordusunun, Xüsusi Təyinatlı Milis Dəstəsinin Şərur rayonundakı Milli Müdafiə Dəstəsinin əsgərlərinin, könüllülərin birgə əməliyyatı sayəsində mümkün olmuşdur. Bugünkü döyüşlərdə Naxçıvan Xüsusi Təyinatlı*

*Milis Dəstəsinin üzvi Seyidov İlkin Mirnəzər oğlu, Culfa rayon sakini Səfərov Müşfiq Qasım oğlu, Sədərək kənd sakinləri Qasımov Şükür Məhərrəm oğlu, Nazimov İlham Cəbrayıl oğlu, Sədərək kəndinin dinc sakini Əliyeva Əsli Qasım qızı həlak olmuşlar.*

*13 nəfər yaralanmışdır. Yaralananlar içərisində 3 uşaq atası Yengicə kəndinin sakini Bağırov Ramiz Məmməd oğlu ağır vəziyyətdədir. Miltəpənin geri qaytarılması uğrunda gərgin döyüşlər gedir.*

## ANALAR, QARĞIŞ ELƏMƏYİN!

"Sürüklənən bəşəriyyət qadınla yüksələcək!" Dahi sənətkarımız Hüseyn Cavidin bu misrası həyatımızın dinc dövründə az-az xatırlanıb. Bəzən şairlərin, bəzən publisistlərin, bəzən də jurnalistlərin yadına düşüb. Hərdən də 8 Mart qadınlar günü ərəfəsində qəzetlərin səhifələrində görünüb. Sözün düzü, yazılarımızın mənalı, parıltılı olması üçün həmin aforizmi xatırlamışıq. Bu müdrik fikrin dərin qatlarına enə bilməmişik, onu xalqın yaddaşına hopdurmamışıq. Heç Quranın məşhur və müdrik kəlamlarından biri olan "Cənnət anaların ayağı altındadır" həqiqətini də lazımınca dəyərləndirməmişik. Amma bu həqiqət XX əsrin əvvəllərində qəzetlərdə tez-tez işlənər, dövrün tərbiyə məktəbinin baş şüarına çevrilərdi. Görünür, çətin günlərdə sınaq məqamlarında xalqın bütöv yaddaşı oyanır, silkələnir, əfsənir və çətinlikdən, sınaqdan çıxmağın yolu, cığırı tapılır.

İndi Şərurda mayın 18-də həlak olmuş Məmmədova Ceyran Mirəli qızını, mayın 19-da son gününü yaşamış Əliyeva Əsli Qasım qızını, demək olar ki, hər gün xatırlayırlar. Sədərəyin bu iki dinc sakininin yağı düşmənin gülləsi ilə ölümü ürəklərdə dərin şırım açmışdır. İndi onların adı həlak olmuş cəsur igid-

lərimizlə bir tutulur və əzmkar döyüşçülərə daha böyük qüvvə verir.

Sədərəkdə döyüşən oğulları evlərindən analar yola salırlar. Yola salırlar ki, torpağa düşmən ayağı dəyməsin, analara güllə atılmasın. Amma analara da güllə atırlar.

Mayın 4-də el-oba adamları bir cəsarətli ana və onun qızı ilə də tanış oldular. Allahverdiyeva Sərvinaz Qara qızı və Məmmədova İlhamə Qüdrət qızı! Naxçıvan şəhərindən gələn ana öz qızı ilə oğlunun və döyüşçülərin yanına gedirmiş. Həsrətə və əzaba dözməyən qadın ürəyi hazırladığı azuqəni və isti paltarları əsgərlərə aparırmış. İstəyirdilər ki, çətinliklərlə, zəhmətlə bir qətrə də olsa, təsəlli tapalar. Gecələri, gündüzləri bilinməyən bu nəcib adamlar gördükləri işlə ovunmaq istəyirdilər. Lakin elə Sədərək yaxınlığındaca onları düşmən mərmisi haqladı. Maşında olan töhfələri əsgərlərə çatdırmaq mümkün olmadı. Hər ikisi ağır yaralanıb Şərur Mərkəzi Xəstəxanasına gətirildilər.

Bəli, döyüşçülərə çatmayan ananın gətirdiyi azuqə və paltar oldu. Lakin Sədərək uğrunda döyüşən əsgərlərə bu adamların nəcibliyi, cəsarəti və dönməzliyindən xəbər verən sədalar gedib çatdı. İgid oğlanlarımız hiss etdilər ki, onların böyük dayaqları, əyilməz arxaları var.

Elə bu gərgin günlərdə arxa cəbhədəki bir gəlinin simasında faciə və qəhrəmanlığın şahidi olduq. Bu gəlin üç uşaq anasıydı, hələ övladları böyüməmişdi ki, cəbhəyə göndərsin. Bəs nə idi həmin faciə və qəhrəmanlıq? Naxçıvanda yaranan çətinliklərdən biri də elektrik işığının son dərəcə qıt olmasıdır. Məişətimizə çox ciddi şəkildə daxil olan elektrikin olmaması bütün həyatı iflic vəziyyətinə salıb: zavod və fabriklər işləmir, su nasosları tarlalara su vurmur, qaz olmaması bir yana, elektrik plitələri də yanmır, soyuducular işləmir, adamların geyim paltarları ütüyə həsrət çəkir. Belə ağır dəqiqələrin birində İbadulla kəndində körpə bir uşaq həyətdə quyudan su çəkən elektrik nasosu

ilə oynayırmış. Qəfil işıq gəlir və elektrik məftili uşağı tutur. Yaxında olan gəlin uşağı ölümdən qurtarır, lakin özü xilas ola bilmir. Bu günlərdə torpağın müdafiəsinin nə qədər şərəfli olduğunu dərindən hiss edən gəlin – ana övladını qorumağı daha üstün tutur və özünü qurban verir.

Demə, çətin günlərin qəhrəmanlığı yalnız cəbhədə olmur: Zaman, dövr hamını qəhrəmana çevirir!

Sədərəkdə yenə atışmalar davam edir, ölənlər olur, bir ana başının qara yaylığını açmamış, o biri ana qara yaylıq bağlayır, bir bacı qara paltarını soyunmamış, o biri bacı qara paltar geyir.

Əziz analar, yaddaşımda bir ağrı da yaşayır, onu da demək istəyirəm. Eldə bir məsəl var: deyərlər ki, ana qarğışı övladı tutmaz! Nə qədər eşitmişəm ki, analar öz övladlarını qarğışlayıblar. Hirslə deyiblər: Görüm səni qan qusasan! Səni görüm çörək tapmayasan! Qarşına sənin kimi bala çıxsın! Demisiniz, özünüz də bu inama söykənibsiniz ki, ana qarğışı övladı tutmaz. Amma bu qarğışı da eşitmişəm: Səni görüm düşmən gülləsinə gələsən! İndi oğullar düşmən gülləsinə gəlir, Analar! Sizə də dəyir bu güllələr. Daha bundan sonra övladlarınıza qarğış eləməyin. Dünya yaman dünyadı!

***DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:***

*20 may 1992-ci il. Sədərəkdə atışmalar davam edir. Düşmənə layiqli cavablar verilir. Ordubad rayon sakini Nəsibov Vüqar Şəmil oğlu qəhrəmancasına həlak olmuşdur. 11 nəfər yaralanıb. Yaralananlar içərisində Xalq Cəbhəsinin könüllərindən Rüstəmov Yunis Nadir oğlu və Nəbiyev Adəm Nəbi oğlu da vardır. Şərur rayonunun mərkəzinə, Cəlilkəndə və Düdəngəyə mərmilər düşmüşdür. Cəlilkənddə 9 yaşlı uşaq – Eyvazov Xaqani İsa oğlu yaralanmışdır.*

*21 may 1992-ci il. Düşmən pulemyot və avtomatlardan atəş açır. Müdafiə dəstələrimiz Qırmızılar və Ucubiz təpələrində möhkəmlənirlər.*

*6 nəfər yaralanıb.*

*Bu gün xeyli yaralı Şərur rayonunda ilk tibbi yardım göstərildikdən sonra Naxçıvan mərkəzi xəstəxanasına yola salınmışdır.*

*22 may 1992-ci il. Düşmənlər səhər saat 5-dən 6-30-dək Sədərəyi ağır texnikadan, raketlərdən, pulemyot və avtomatlardan intensiv atəşə tutmuşlar. Atəşə atəşlə cavab verilmişdir. Düşmənin Miltəpədə öz mövqelərini möhkəmləndirməsinə imkan verilmir.*

*23 may 1992-ci il. Ermənilər səhər tezdən başlayaraq bir neçə istiqamətdə mövqelərimizə hücuma keçmişlər. Düşmənə layiqli cavab verilmişdir. Döyüşçülərimizdən 2 nəfər yaralanmışdır.*

*24 may 1992-ci il. Düşmən tərəf atəşin dayandırılmasına razı olduğunu bildirmişdir. Lakin Abbasov Bahadur Bayram oğlu həlak olmuş yoldaşlarından birinin meyidini götürmək istəyərkən snayperlə qətlə yetirilmişdir.*

## VƏTƏN TƏƏSSÜBÜ

Naxçıvan şəhərindəki küçələri onlara verilən ünvanlarla deyil, qəbir adlarıyla tanıyırlar. Dədə-babalarımızın yaşadığı çağlardan üzü bəri bu torpağın bütün övladları həmin adlarla fəxr ediblər. Onları böyük qürur hissi ilə öz nəvə və nəticələrinin yaddaşına hopdurublar. Yaddaşlarda bitib göyərən məhəllələrdən biri də Şahab məhəlləsidir.

Məhəllənin ağsaqqalları öz nəsihətləri ilə cavanlara yol göstərir, cavanlar isə qocaların görə bilmədikləri işləri yerinə ye-

tirirlər. Məhəllədəki xeyir-şər mərasimlərini bir göz qırpımında yola salırlar. Budur, yenə Şahab məhəlləsində qəfil yas məclisi qurulub. Heç kəsin ağlına gətirmədiyi halda məhəllədə igid oğlan kimi tanınmış Bahadur Sədərək döyüşlərində qəfil atılan gülllədən əbədiyyətə qovuşub.

Bahadur Bayram oğlu Abbasov 1960-cı ildə anadan olmuşdur. 1977-ci ildə Naxçıvan şəhərindəki C.Məmmədquluzadə adına 2 №-li orta məktəbi bitirmişdir. Elə həmin ili hamının kinomexanik kimi tanıdığı və hörmət bəslədiyi atası əbədiyyətə qovuşur. Görünür, bu ağır itki Bahadura dərindən təsir göstərmiş və o, təhsilini davam etdirə bilməmişdir. Yalnız 1985-1988-ci illərdə Naxçıvan Politexnik Texnikumunda oxumuşdur.

Bahadur 1986-cı ildə ailə həyatı qurmuşdur. İndi böyük qızı İncinin 5, Şəfəqin 3 yaşı var. Hələ onlar bu ağır itkinin nə olduğunu duymurlar. Təkcə Sürəyya xanım bilir ki, onu qarşıda necə çətinliklər, necə ağır günlər gözləyir. Təkbaşına iki körpə qızı böyütmək, onları oxutmaq, onlara cehiz hazırlamaq… o qədər də asan deyil. Lakin Sürəyya  xanım onu da bilir ki, İnci və Şəfəq şəhid atanın övladlarıdır. Xalqımızın xeyirxah adət-ənənələri həmişə onların dayağı olacaqdır.

Bahadurla Sədərək döyüşlərində bir yerdə vuruşmuş dostu Əbülfəz Məmmədovun dedikləri: “Biz mayın 23-də səhər Sədərəyə döyüşə yola düşdük. 25 nəfər könüllü məhəllə sakini idik. Miltəpədə döyüş mövqelərimizi möhkəmləndirdik. Ermənilər hər cür silahdan istifadə edərək bizə mane olurdular. Onların həm döyüş texnikası, həm də canlı qüvvəsi bizdən çox idi. Lakin bir sutka ağır döyüşlərdən sonra qüvvələrin qeyri-bərabərliyinə baxmayaraq, öz mövqelərimizi əldən vermədik. Bizim başlıca məqsədlərimizdən biri o idi ki, hələ mayın 18-də döyüş zamanı öldürülmüş 14 nəfərdən 4-nün meyidini oradan çıxaraq. Çünki bu dörd meyid ən yaxın məsafədən görünürdü. Bu anlar Bahadur daha qəzəbli idi. Ermənilərin hətta meyidlərimizi götürməyə

belə imkan verməməsi onda ölçüyəgəlməz dərəcədə nifrət hissi yaratmışdı. Deyirdi ki, nəyin bahasına olursa-olsun, bu tapşırığı yerinə yetirməliyik. Artıq 24-də gündüz saat 3-ə az qalırdı. Bu zaman qərargahdan məlumat aldıq ki, ermənilərlə razılaşmaya görə 1 saat müddətinə atəş dayandırılır və döyüş yerində olan meyidlər ikitərəfli qaydada götürüləcəkdir. Biz bu xəbəri alıb çörək yeməyə başladıq və bu zaman ermənilər öz vədlərinə xilaf çıxaraq, bizi təxminən 20-30 metrlikdən mühasirəyə aldılar və güclü atəşə tutdular. Buna baxmayaraq, biz özümüzü itirmədik və onlara layiqli cavab verərək 6 nəfər erməni quldurunu məhv etdik. Bizim tərəf də itkisiz ötüşmədi. Bu döyüş Bahadur üçün son döyüş oldu. O, erməni snayperindən açılan güllə ilə düz alnından vuruldu. Biz onu döyüş meydanından çıxara bildik".

Orta məktəbdə Bahadurla bir sinifdə oxumuş Sultan Əmiraslanovun dedikləri: "Bahadur məktəbdə də başqalarından bir çox xüsusiyyətləri ilə seçilirdi. O, ilk görünüşdən öz təmkini ilə də fərqlənirdi. Son dərəcə sakit təbiətə malik idi. Hər deyilən sözə cavab verməzdi. Amma həm hirsli, həm də qeyrətli oğlan kimi tanınardı. Sinfin qızlarının, məhəllə sakinlərinin təəssübünü çəkərdi. Vətən, torpaq qeyrəti isə onda daha çox idi".

Bahaduru da elə vətən təəssübü apardı.

## *DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:*

*25 may 1992-ci il. Ağır döyüşlər Sədərək bölgəsində gecə yarıyadək davam etmişdir. Döyüşçü Əliyev Səyyad Əhməd oğlu həlak olmuşdur. 9 nəfər ağır yaralanmışdır. Düşmən tərəfi daha çox itki vermişdir.*

*Düşmənlər bizim əsgərləri snayperlə vururlar.*

## FUTBOL, YOXSA ÇAXMAQ?

İkinci dünya savaşından sonra xeyli müddət adamlar sakit yaşayıblar. Müharibəni lənətləyib, bir-birilərinə xoş günlər arzulayıblar. Çox adam evində ov tüfəngi ola-ola heç onu da qaldırmayıb, atmayıb. Bir vaxtlar qılınclar qında paslanan kimi, sonralar da ov tüfənglərimiz divarlardan asılı qalıb. Atalarımız yanımızda patronlara barıt doldurmayıblar ki, baxıb öyrənək. Analarımız boş tüfəngə əl uzatmağa, çaxmağı çəkməyə qoymayıblar bizi. Deyiblər ki, boş tüfəng də açılar, öldürər sizi. Böyüklərin yanına düşüb ova getməmişik, dovşan, tülkü vurmamışıq. Vurmamışıq ki, görək sərrast ata bilirik, ya yox?

Amma futbola getmişik. Məktəbdə böyük tənəffüslərdə futbol oynamışıq, dərsdən sonra futbol oynamağa tələsmişik, axşamlar evdə radionun, televizorun qabağında oturub, futbol oyunları ilə daha çox maraqlanmışıq. Şəcərələrimizi yaxşı öyrənməmişik, yeddi nəsildən o tərəfdəki qohumlarımızın adlarını sadalamağa gücümüz çatmayıb, amma dünya futbolçularının adını əzbər bilmişik, bu adlar üstündə yarışa girmişik.

Azərbaycanın dahi sənətkarlarını yaxşı tanımamışıq. Amma futbol ulduzu Pelenin ad-familiyasını bütöv deyənlərə universitetdə "5" yazıblar. Bir vaxtlar şair Bəxtiyar Vahabzadə yana-yana deyirdi ki, "Neftçi" 1966-cı ildə bürünc medal aldı. Elə dilimizin əzbəri oldu bu. Amma fərqinə varmadıq ki, biz ayaqla bürünc alanda, erməni başıyla şahmatda qızıl aldı. İndi də Sədərəkdə həmin erməni bizim igidləri snayperlə vurur. Bunu görəndə düşünürsən: futbol yaxşıdır, yoxsa çaxmaq?

Bir də futbol oynaya-oynaya ayrı-ayrı komandalara o qədər bölünmüşük ki, bölmək-bölünmək qanımıza işləyib. Amma atıcılıqla məşğul olsaydıq, indi hamı bir hədəfə vurardı. Daha söz-söhbət olmazdı ki, gəlin birləşək. Bunları fikirləşəndə xəyala dalırsan: futbol yaxşıdır, yoxsa çaxmaq?

Nə yaxşı ki, bizim xalqımızın qeyrət damarı var. Bütün dövrlərdə düşmənə peşəmizlə yox, qeyrətimizlə qalib gəlmişik.

İndi də qeyrət dəmidir. Sədərək döyüşlərində igidlərimiz qeyrətini snayper eləyib düşməni alnından vururlar.

***DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:***

*26 may 1992-ci il. Düşmən tərəfi mövqelərimizi pulemyot və avtomatlardan atəşə tutmuşlar. Türkiyə Cümhuriyyətindən bir qrup həkim və orta tibb işçisi yaralılara yardım göstərmək üçün Naxçıvana gəlmişlər. Daha ciddi müalicəyə ehtiyacı olan 16 nəfər yaralı türk həkimlərinin məsləhəti ilə qonşu respublikaya müalicəyə göndərilmişlər.*

*27 may 1992-ci il. Günün ikinci yarısında Şərur şəhərindəki şəhidlər xiyabanında dəfn mərasimi keçirilmişdir. Xəbər verildiyi kimi, mayın 18-də erməni quldurlarının Sədərək qəsəbəsinə qəflətən etdikləri basqın zamanı itkimiz çox olmuşdu. Onlardan beş nəfərini dəfn etmiş, qalanlarını isə düşmənlərin azğınlığı nəticəsində döyüş mövqeyindən çıxara bilməmişdik. 9 gün ərzində aparılan müxtəlif səviyyəli danışıqlar nəticəsində İsveçrə Qırmızı Xaç Cəmiyyəti üzvlərinin iştirakı ilə meyidlərdən 14-ü döyüş mövqeyindən çıxarılıb rayon mərkəzi xəstəxanasına gətirilmişdir (Qalan 3 meyid isə mayın 28-də həmin mövqedən çıxarılıb dəfn edilmişdir).*

## ONLAR 14 NƏFƏR İDİLƏR
## BİRİNCİSİ: GÖY RƏNGİN AĞISI

Uşaq olanda torpaq üstdə yıxıla-yıxıla, dura-dura ötüşür günlərimiz. Torpaq üstdə bərkiyir dizlərimiz. Bir az da böyüyəndən sonra üzümüzü göy üzünə tuturuq. Bəzən sirli-sehrli görünür, bəzən sadə, aydın olur göy üzü. Ümidimizin güzgüsünə oxşayır, arzumuzun yoluna bənzəyir göy üzü. Göy rəng Nüsrəti də özünə ovsunlamışdı. Əsgərliyə gedəndə göy paltar istəyirdi. Nə bilim, bəlkə göy gözlər keçirdi qəlbindən, bəlkə, anasının gəlinlik sandığındakı göy paltarların həsrətini yaşadırdı baxışlarında. Məmmədov Nüsrət Hüseyn oğlu 1973-cü il fevral ayının 10-da Şahbuz rayonunun Sirab kəndində anadan olub. Atası Hüseyn və anası Güllü Sirab mineral suları istehsalı birliyində işləyirlər. Halal zəhmətlə dolanan bu adamlar övladlarında el-obaya məhəbbət duyğuları yaradırdılar. Ona görə də ikinci oğlanlarını Elsevər çağırmışdılar. Bu həqiqəti şəhid adıyla əbədiləşdirmək isə böyük övlad Nüsrətin bəxtinə düşdü.

Nüsrət ermənilərlə vuruşda sonuncu gülləsinə qədər döyüşmüşdü. Görənlər söyləyirlər ki, həlak olan yoldaşlarının güllələrini də götürüb onların intiqamını alıb. Amma onun qəhrəmanlığının ən etibarlı şahidi göy üzüdür. İndiyə qədər torpaq yaşadırdı, bundan sonra göy üzü yaşadacaq Nüsrəti.

## İKİNCİSİ: QIRMIZININ FƏRYADI

Məmmədov Faiq Yaqub oğlu 1973-cü ildə Şərur rayonundakı Çərçiboğan kəndində anadan olub. 1992-ci ilin aprel ayında milli orduya çağırılıb. Əvvəlcə Babək rayonunun Buzqov kəndində hərbi xidmətdə olmuş, may ayının 12-də isə Sədərəyə döyüşlərə göndərilmişdir. May ayının 18-də həlak olmuşdur. Fai-

qin doğulduğu Çərçiboğan kəndi rayon mərkəzinə yaxın olan kəndlərdən biridir. Şərurdan Naxçıvana gedən yolun ilk dayanacağı məhz bu kənddir. Rayon mərkəzində avtobusa minənlər bu kənddə düşənlərə həsəd aparırlar. Həsəd aparırlar ki, adamlar öz mənzillərinə necə də tez çatırlar. Lakin Faiq daha bu dayanacaqda düşməyəcək. İş elə gətirdi ki, onun son mənzili də öz kəndləri olmadı. Faiqi Naxçıvan şəhərindəki Şəhidlər qəbiristanlığında dəfn etdilər.

Faiq qırmızı rəngi çox sevərdi. Novruz bayramlarında qırmızı boyanmış yumurta ona verilmiş ən böyük, ən qiymətli hədiyyə olardı. Toylarda qırmızı xonçalara həsrətlə baxardı. Qırmızı rəngin sevinciylə yaşayardı. Lakin üzərinə qırmızı parça salınmış cənazə çox tez qucaqladı onu. Bu dəfə qırmızının fəryadı yola saldı Faiqi.

## ÜÇÜNCÜSÜ: YAŞIL RƏNGİN NALƏSİ

Hüseynov Şamil Telman oğlu 1972-ci ilin avqust ayında Culfa rayonunun Bənəniyar kəndində anadan olmuşdur. Elə gənclik çağlarından başlayaraq namaz qılmağa, oruc tutmağa adət etmişdi. Etiqadına görə onu yoldaşları “molla” çağırardılar.

Şamil Quranın bir çox kəlamlarını əzbər bilirdi. Söhbətlərində bu kəlamlardan misal gətirər, dinləyənləri haqqa, ədalətə çağırardı. Həmişə deyərdi ki, imanlı olun. İman xoşbəxtlik və səadət gətirər.

Şamil hərbi xidmətdə olarkən də namaz qılar, ibadət edərdi. Onun qəlbində əbədi bir ilahi eşq məskən salmışdı. Tanrı sevgisi ona ölümündə də gərək oldu. Meyidlərin şəxsiyyətini təyin edən zaman cibdən çıxan möhür və təsbeh tərəddüdsüz olaraq Şamili nişan verdi. Yaşıl rəngin naləsindən tanındı Şamil!

**DÖRDÜNCÜSÜ: MİRZƏYEV FƏRHAD SƏYYAD OĞLU**
**BEŞİNCİSİ: CƏFƏROV ŞAKİR SƏTTAR OĞLU**

**ALTINCISI: ZAMANOV FAZİL İMRAN OĞLU**

**YEDDİNCİSİ: QƏDİMOV HAMLET ƏLİ OĞLU…**

Allah Sizin hamınıza rəhmət eləsin! Qəbriniz nurla dolsun!

***DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:***

*28 may 1992-ci il. Bu gün istiqlal günüdür. Sərhədlərdə atışmalar davam edir. Eyni zamanda bu gün Naxçıvanla Türkiyəni birləşdirən Sədərək körpüsünün açılışıdır.*

## ŞƏRQİN VƏ QƏRBİN QAPISI

İndi qocaman Naxçıvan torpağının sədası dünyanın hər tərəfinə yayılmaqdadır. Mütərəqqi bəşəriyyətin müharibəsiz gələcək arzuları Naxçıvanda sakitliyin və sabitliyin bərqərar olmasına daha çox maraqlıdır. Artıq dünya bütün əvvəlki dövrlərdən fərqli olaraq insan hüququnun, insan azadlığının və insan təntənəsinin vüsətinə daha böyük üstünlük verir. Görünür, tarix öz keçmiş təcrübəsini XX əsrin sonlarında dərindən təhlil edir, itkinin, uğurun yollarını bir-birindən daha sərrast şəkildə fərqləndirir, eyni zamanda, bütün dünya üçün vahid, düzgün yol seçir.

28 may günü. Naxçıvanı hələ heç kəs bu cür şad və təntənəli görməmişdi. Mən dəfələrlə bu ana torpağın həm sevincli, həm də kədərli günlərində iştirak etmişəm. Cavid təntənələrində, Mirzə Cəlil tədbirlərində, Əziz Şərifin dəfnində… naxçıvanlı

həmkarlarımla, dostlarımla, qohumlarımla, müəllimlərimlə, şagirdlərimlə bir yerdə olmuşam. Həmişə də keçirilən tədbirlərin bir-birindən üstün olduğunu duymuşam. Lakin Sədərək körpüsünün açılışı Naxçıvan tarixinin ən qiymətli və ən təntənəli səhifəsi hesab oluna bilər. Hələ çox-çox illər bundan əvvəl 90-100 yaşlı babalar danışardılar ki, Novruz bayramı yaxınlaşanda Naxçıvan əhalisinin xeyli hissəsi Təbrizə yollanar və bayram töhfələri alıb gətirərdilər. Bunların içərisində ən qiymətlisi Təbriz xurması olardı. Lakin sonralar Araz çayının üstündə tikanlı məftillər və sərhəd dirəkləri peyda oldu. Gediş-gəliş kəsildi. Naxçıvanlılar tarixən özlərinin bazarı hesab etdikləri İrəvan xanlığının mərkəzinə üz tutdular. Bakı buradan xeyli uzaq olduğuna görə neçə onilliklər idi ki, bu torpağın kişiləri, qadınları, oğlan və qızları səhər sübh çağı Şərur torpağında keçən "Zəngəzur" qatarına tələsər və İrəvana alış-verişə gedərdilər.

İndi naxçıvanlılar üçün İrəvan yolu da, Təbriz yolu da, hətta Bakıya gedən şose və dəmir yolu da bağlıdır. Buna görə Sədərək körpüsünə böyük ehtiyac var idi. Bu körpü dünyanın ən məşhur turizm ölkələrindən biri olan, yəni gediş-gəliş sərbəstliyini nümayiş etdirən Türkiyə ilə Naxçıvan arasında iqtisadi əməkdaşlığın genişlənməsinin, Naxçıvanın iqtisadi böhrandan çıxmasının hələlik yeganə şərti və əsasıdır.

Naxçıvanın təyyarə limanında Türkiyənin baş naziri Süleyman Dəmirəli və onunla birgə gəlmiş nazirləri, millət vəkillərini, digər qonaqları buraya toplaşmış minlərlə naxçıvanlı qarşılayırdı. Qarşılayanlar arasında Bakıdan gələn dövlət rəhbərləri və ziyalılar da var idi. Elə təyyarə limanındaca S.Dəmirəlin ayaqları altında qurban kəsildi. Lakin sonradan məlum oldu ki, bu, yeganə qurban deyilmiş. Naxçıvandan Sədərək körpüsünə qədərki təxminən 70 km yolda və körpünün üstündə onlarla erkək kəsildi. S.Dəmirəlin və H.Əliyevin mindikləri maşın qarşı tərəfdən kəsilmiş erkəklərin qızıl qanına boyanmışdı. Bütün yol

boyu adamların ürəyindən bir fikir keçirdi ki, bəlkə, bu qızıl qanlar insanların nahaq axıdılan qanlarının qarşısını alan simvola çevrildi. Mənim də beynimdə H.Cavidin aşağıdakı misraları canlanırdı:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur Yer üzünü.*

Naxçıvandan Sədərəyə qədərki yolda uşaq, böyük, qadın, kişi dəstə-dəstə düzülüb maşın karvanını hərarətlə qarşılayır, əllərini yellədirdilər. Böyükdüzdə, Xökdə, Qıvraqda, Püsyanda, Şəhid Məmməd kəndində, Xanlıqlarda, Daşarxda, Siyaqutda, Mahmudkənddə, Düdəngədə, Maxtada, Dəmirçidə və digər yaşayış məntəqələrində toplaşmış adamların üzlərində sevinc, qəlblərində hərarət, baxışlarında ümid parlayırdı. Əməksevər kənd adamları sanki hər şeyi, hətta Sədərəkdəki döyüşləri də unutmuşdular. Təsəvvür etmək nə qədər çətin olsa da, insanların el-obanı bürümüş kədəri unutmalarına inanmaq lazım gəlirdi. Bu adamların arasında şəhidlərin qohumları və yaxınları da var idi. Bəs bunların əsl səbəbi nə idi? Xalqın qonaqpərvərliyimi? Süleyman Dəmirəlin böyük nüfuzuna hörmətmi?

Şübhəsiz, bunlar da olmamış deyildi. Lakin adamları hərəkətə gətirən ən güclü hiss və duyğu doğma torpağa bağlılıq eşqi idi. Çünki əkin-tikinlə məşğul olan zəhmətkeş adamların ən böyük istəyi rahatlıqla yaşamaqdır. Onlar bu sabit həyatın təmin olunmasında Türkiyənin mühüm rolunu artıq dərindən duymuşdular. Türkiyəli qonaqlar da əslində Azərbaycanın, Naxçıvanın sərhədlərinin pozulmazlığını və dəyişməzliyini sözün tam mənasında qəbul edirdilər. Hətta bu barədə geniş ürək açıqlığı ilə danışırdılar. Türkiyənin millət vəkili Yaşar Ərbazın söhbətləri hələ də qulaqlarımda əks-səda verir. O deyirdi ki, indi Türkiyənin baş naziri Süleyman Dəmirəl, baş nazir köməkçisi Ərdal İnönü və onlarla nazirin, millət vəkilinin Sədərək körpüsünün açılışına gəlmələri təsadüfi deyil. Bizdə böyük və füsunkar İs-

tanbul körpüsü var. Yüzlərlə tikililər, göz oxşayan memarlıq abidələri turistləri heyran qoyur. Elə bu cür körpüləri Türkiyədə nə qədər desən, tapmaq olar. Bəs bunun mənası nədir ki, bu qədər adam Türkiyədən yığılıb buraya gəlib? Yaşar Ərbaz böyük şövqlə izah edirdi ki, indi bütün Türkiyə hökuməti, Türkiyə dövləti buradadır. Və bununla biz təcavüzkarlara demək istəyirik ki, Naxçıvanın bir qarış torpağı da heç kəsə verilməyəcək. Bax bu duyğular, bu hisslər Naxçıvan sakinlərini türkiyəli qonaqlarla sıx tellərlə bağlayırdı. Hətta çox maraqlıdır ki, səhərisi günü mən yenidən Naxçıvandan Şərura gedirdim. Dünən yolboyu adamların toplaşdığı yerlərdə indi uşaqlar dayanmış və yenə də bütün maşınlara əl edirdilər. Adama elə gəlirdi ki, bu uşaqlar elə bütün gecəni burada qalıblar və sübh şəfəqinə bürünüb öz gələcəklərini qarşılayırlar.

Sədərək körpüsü Naxçıvan-Sədərək yolundan təxminən 2 km solda yerləşir. Ağsaqqallar deyirlər ki, körpünün tikildiyi yer elə qədimlərdən keçid yeri olub. Görünür, tarix nə qədər qocalsa da, öz yaddaşını qoruyub saxlayır. Zamanı gələndə çözələnir və yeni nəsilləri ulu babaların həyatı və yolu ilə qovuşdurur.

İstər Türkiyə, istərsə də İranla sərhəd olan Arazboyu kəndlərin camaatı son illərə qədər heç vaxt ağıllarına gətirməzdilər ki, nə vaxtsa tikanlı məftillər aradan götürülər və Arazın bu tayından o tayına yollar açılar. Arazboyu sərhədlər adamlar üçün "quş keçə bilməz" sərhədlər idi. Ona görə də mən 1989-cu il dekabrın 31-də Naxçıvan xalq cəbhəsi fəallarının tikanlı məftilləri aradan götürmək fədakarlıqlarını demokratik hərəkatımızın ən böyük uğurlarından biri hesab edirəm. Götürülən məftillər yalnız adamların gediş-gəlişinə açılan qapılar deyildi. Bu addım ən başlıcası insanların beyinlərindəki dar və sıxılmış qalıqları parçaladı. Adamlar həyat hadisələrini olduğu kimi yox, dəyişilmiş, yenilənmiş formada görməyə cəsarət etdilər. Bir yəqinlik daha da möhkəmləndi ki, insan şüurunu kitablardan daha

çox gerçəklik dəyişdirir. Dünyaya baxışlar sistemi kəskin dönüş anlarında yeni məna və vüsət tapır. Elə Sədərək körpüsü də təzə ömrün başlanğıcıdır.

***DÖYÜŞLƏRİN GÜNDƏLİYİ:***

*29 may 1992-ci il. Düşmənlər bütün gün ərzində mövqelərimizə müxtəlif silahlardan atəş açıblar.*

*30 may 1992-ci il. Düşmənlər atəşi davam etdirirlər.*

*31 may 1992-ci il. Atışmalar zamanı Məmmədov Murad Oruc oğlu yaralanmışdır.*

*1 iyun 1992-ci il. Atışmalar davam etmişdir. Şərur rayonunun Qıvraq kəndində doğulmuş Canməmmədov Vəli Eldar oğlu həlak olmuşdur. Yaralananlar vardır.*

*2 iyun 1992-ci il. Təxminən 5 saat mövqelərimiz atəşə tutulmuşdur. Düşmənə layiqli cavablar verilmişdir.*

*3 iyun 1992-ci il. Atışmalar davam etmişdir. 5 nəfər yaralanmışdır.*

*4 iyun 1992-ci il. Atışmalar davam etmişdir. 3 nəfər müxtəlif dərəcəli yaralar almışdır.*

*Bütün iyun ayı atışmalar davam etmişdir. Ölənlər və yaralananlar vardır. Düşmənə layiqli cavablar verilir.*

## EPİLOQ ƏVƏZİ:

Sədərəkdəki döyüşləri göz önünə gətirən, qəhrəman igidlərimizin taleyini yaşayan, arxa cəbhədəki adamların gərgin həyatını müşahidə edən hər bir adam, bilmirəm nədənsə, şair olmaq istəyir:

*Oğullar gedəndə bir vüqar kimi, –*
*Analar kandarda qalıb donurlar.*
*Oğullar gedəndə durnalar kimi, –*
*Bacılar yollara gəlib qonurlar.*

*Oğullar gedəndə fikirlər haça,*
*Oğulları yalayırlar, öpürlər.*
*Oğullar gedəndə arxalarınca*
*Su yerinə göz yaşını səpirlər.*

*Gedirlər qol-qola bir halay kimi,*
*Kənddən toyları da aparır onlar.*
*Gedirlər hay kimi, bir haray kimi,*
*Kəndin ürəyini qoparır onlar.*

*Dolama səngərdə, sərhəddə, səddə,*
*Onlar qəlpə olur, al qan olurlar.*
*Qalır sevdikləri gözəllər kənddə,*
*Gedirlər Vətənə qurban olurlar,*
*Gedirlər Vətənə qurban olurlar.*

# ELEGİYA

## İLK MƏQALƏMİ O ÇAP ETMİŞDİ

Dostlarımın təşəbbüsü və iştirakı ilə 2013-cü ildə Azərbaycan Yazıçılar Birliyində anadan olmağımın 60 illiyi qeyd olunurdu. Sağ olsunlar, xeyli tanış-biliş – həmkarlarım, tələbələrim, el-obamızın adamları buraya toplaşmışdılar. Tədbirdə salona nəzər yetirdim, bir nəfər daha çox diqqətimi cəlb etdi: bu, Abbas Abdulla idi. O, salona daxil olarkən birinci sıranın birinci yerində əyləşmişdi. Doğrusu, mənim tərəfimdən heç bir təşəbbüs olmamışdı, Abbas Abdulla özü xəbər tutub gəlmişdi.

Bəs Abbas Abdullanı hansı hiss, hansı duyğu buraya gətirmişdi. Onun sirrini ondan və məndən başqa heç kəs bilmirdi.

Ötən əsrin 70-ci illərində bir hadisə geniş yayılmışdı: gənc şairlərə “uğurlu yol” yazılmasını nəzərdə tuturam. Əslində gənc şairlərin özləri də buna cəhd göstərirdilər və həmin məsələdə mən onları heç də qınamıram. Tanınmaq üçün ən optimal yol idi: həm xeyir-dua alırdın, həm də ədəbi ictimaiyyət arasında yadda qalırdın. Başqa tələbə yoldaşlarım kimi mənim də şeirlərim – cızma-qaralamalarım var idi, amma şeir qoşmaqla müqayisədə məqalə yazmağa daha çox meyillənirdim. Məqalələrə də ki “uğurlu yol” yazılmırdı.

Bir gün səhifəyarımlıq məqaləmi götürüb “Ədəbiyyat və incəsənət” qəzetinin redaksiyasına getdim. Redaksiyada qapının yanında yazılmış “Abbas Abdulla” sözlərini oxuyub həmin otağa daxil oldum. Abbas Abdulla qəzetdə məsul bir vəzifədə işləyirdi, amma onunla bir dəfə də olsun görüşməmişdim. Mənə çox böyük hörmətlə yer göstərdi, əyləşdim. Sonra soruşdu ki, nə yaxşı gəlmisən? Mən də bildirdim ki, Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin beşinci kurs tələbəsiyəm, sizin qəzet üçün məqalə gətirmişəm.

Məqaləni alıb oxumadan stolun bir tərəfinə qoydu və mənimlə hal-əhval tutmağa başladı. Xeyli söhbət etdik: tələbəlikdən, gün-güzərandan, ədəbiyyatdan və doğulduğumuz yerdən. Doğulduğum yeri biləndən sonra bizim aramızda belə bir dialoq oldu:

– Kəndiniz Sədərəyə yaxındır?

– Təxminən 30-40 kilometr olar.

– Deyirlər ki, Sədərəkdə televizorlar Türkiyənin kanallarını göstərir?

– Doğrusu, xəbərim yoxdur.

– Həə, həə, mən bilirəm, göstərir.

Sonralar onun qohumu və bizim tələbə yoldaşımız Arif Acalovdan eşitdim ki, Abbas hərdən Sədərəyə gedib Türkiyə kanallarına baxırmış.

Bir az da söhbətləşəndən sonra Abbas Abdulla mənə dedi ki, narahat olma, məqaləni oxuyacağam, əlaqə saxla. Mən Abbas Abdulladan xoş əhvali-ruhiyyə ilə ayrılıb evə gəldim.

Beşinci gün (3 noyabr 1973-cü il) "Ədəbiyyat qəzeti"ni alıb baxanda (o vaxtlar qəzet beşinci günlər çıxırdı) gözlərimə inanmadım. "Şəfəqlər" adlı məqaləm çap olunmuşdu. Məqalə Cənubi Azərbaycan şairəsi Jalənin eyni adlı şeirlər kitabına həsr edilmişdi. Bunu Abbas Abdullanın mənə arzuladığı "uğurlu yol" kimi başa düşdüm.

Abbas Abdullanın Azərbaycan Yazıçılar Birliyində mənim 60 illiyimə həsr edilən tədbirə gəlməsinin sirri məhz bunda idi. O, həmin gün mənə ilk ədəbi-tənqidi məqaləsini çap etdiyi tələbənin bugünkü nailiyyətlərinin səbəbkarlarından biri kimi göründü.

Allah sənə rəhmət eləsin, Abbas Abdulla, sənin necə də böyük ürəyin var idi!

# YUXULAR DƏRİN OLUR

Atam çox gec-gec yuxu görərdi. Nə vaxtsa, yuxu görəndə səhər tezdən biz uşaqları bir yerə yığıb ehtiyatlı olmağı tapşırardı. Anam atamın yuxularından yaman qorxardı, çünki atamın yuxuları həmişə çin olardı. Mənim isə tələbəlik illərində seriallara bənzəyən rəngli yuxularım olub: bu yuxular hər gecə əvvəlcə qurtardığı yerdən başlayardı. Amma bir az yaşlanandan sonra mənim yuxu görməyim də atamın yuxularına bənzədi – çox gec-gec yuxu görməyə başladım. Təzə yuxu görəndə ondan əvvəlki yuxunun vaxtını heç cür yadıma sala bilmirəm. Amma mənim yuxularım atamınkı kimi çin olmur və qorxulu deyil. Elə belə yuxulardı.

Sizə bir yuxu danışmaq istəyirəm: "Sübh vaxtının alatoranlığı idi. Otağın içindəki sükutla hayqırtı gah bir-birini əvəz edir, gah da bir-birinə qarışırdı. Toğrulun dolu bədəninə və möhkəm əzələlərinə güvənib heç olmasa bircə dəfə başını qaldıra bilməməsi ətrafdakıları dəhşətə gətirmişdi. Ətrafdakılar ümidi Toğrulun özündən gözləyirdilər, çünki o, bir ümid dağarcığı idi. Hətta alatoranlıq da öz ətəklərini arxasınca sürüyə-sürüyə çəkib apardı, evin ortasına pəncərədən gur bir işıq seli düşdü, amma hamının gözlədiyi o ümid gəlmədi ki, gəlmədi. Hələ yada düşməyən və ana bətnində uyuyan bir körpənin yazısı olan ümid yaşayırdı".

Yox-yox! Bu, yuxu deyil. İndi sizə əsl yuxunu danışacağam: "Otağa daxil olmaq çox çətin idi. Birinci mərtəbədən dördüncü mərtəbəyə qədər pilləkənin kənarlarına qadınlar düzülmüşdülər. Hıçqırtı səsləri adamın beyninə işləyirdi, heç kəsin üzünə baxmaq olmurdu. Hamının gözlərinin içində bir Toğrul var idi, elə bil hamı özünü günahkar bilirdi. O gecə "Mən qızımı görməmiş ölmək istəmirəm" – deyən Toğrula kömək edə bilməyən insan nə qədər gücsüz, nə qədər aciz olarmış, İlahi!"

Yox-yox! Bu, yuxu deyil. Mən əsl yuxunu o hadisədən bir neçə ay sonra gördüm. Gördüm ki, biz böyük bir ağacın kölgəsində oturmuşuq. Toğrul da yemək üçün yumurta-pomidor sifariş verib. Yumurta-pomidor hazır olub gələndə Toğrul bizdən ayrılıb çəmənliyin üstündə oturdu və körpə bir uşağı əzizləyə-əzizləyə aşağıdakı mahnını oxuyumağa başladı:

*Əkil-bəkil quş idi,*
*Ağaca qonmuş idi,*
*Getdim onu tutmağa,*
*O məni tutmuş idi.*

Toğrulu hamının gözü qabağında qəfil tutan həmin o ağaca qonmuş quş idi.

Hamının sevimlisi olan Toğrul bunu öz şəxsi fəaliyyəti və faydalı əməlləri ilə qazanmışdı. Canıyananlıq, hədsiz dərəcədə səmimilik və nəhayət, təmənnasızlıq onu əksər yaşıdlarından fərqləndirən xüsusiyyətlər idi. Söz verdiyi işin öhdəsindən gəlməyi bacarardı. Dostu üçün, sirdaşı üçün yüz kilometrlərlə maşın sürməyə ərinməzdi.

Böyüklərə ehtiram onun ən müqəddəs amalı idi. Ata-ana qədrini bilmək nümunəsi onun alnına yazılmışdı.

Toğrul adamlarla dil tapmaqda peşəkar idi. Əslində onunla tanış olan da, dostlaşan da sonralar çox məmnun qalardı. Toğrul yaddaşlarda yaşayan xoş xatirələrin qəhrəmanı idi.

Toğrulun içdən gələn bir yumoru vardı. Mən onun lətifə danışmağını eşitməmişəm və inanmıram ki, o, lətifə danışmaq ustası olsun, amma həyatın öz hadisələrinə və detallarına söykənərək güldürməyi bacarmaq qabiliyyətinə malik idi. Toğrulun qəzəbli adamın hirsini soyuda bilən çox qəribə mimikası vardı.

Toğrul səyahət etməyi, gəzməli-görməli yerlərdə olmağı çox xoşlayardı. Olduğu ölkələrdən, şəhərlərdən ağızdolusu danışardı. Maraqlı danışmaq, ətrafındakıları özünə cəlb etmək Toğrul üçün o qədər də çətin deyildi.

Onun bir sevimli adəti də vardı. Gəzdiyi yerlərin şəkillərini çəkməyə çox həvəs göstərərdi. Toğrul özü də bilmədən özünü şəkillərlə xatirəyə çevirərdi.

Mən Toğrul haqqında keçmiş zamanların söhbətini eləyirəm. Amma içimdə gələcəyin işığı var. Bu işıq güllü-çiçəkli bir çəmənlikdə "Bənövşə" oyunu oynayan uşaqlardan süzülüb gəlir:

– Bənövşə!

– Bəndə düşər!

– Bizdən sizə kim düşər?

– Adı göyçək, üzü göyçək Toğrulay!

# İLK MƏQALƏLƏR

## UNUDULMUŞ SUDARTANLAR

İliç rayonundakı Kirov adına kolxozun üç sudartan motoru vardır. Bunlardan biri Diyadin kəndində, ikincisi Ərəbyengicə kəndində, üçüncüsü isə kolxoz idarəsinin həyətindədir. Vaxtı ilə bu sudartanlardan sahələrin suvarılmasında istifadə olunurdu. İndi həmin sudartanlar sıradan çıxmışdır.

Bu il havalar quraqlıq keçir. Belə vəziyyət hamını narahat etməlidir.

Kolxozun idarə heyəti bu haqda tədbir görməlidir.

***Kamran Əliyev.***
***"Şərq qapısı" qəzeti, 26 fevral 1966-cı il, № 48.***

## YARARSIZ BİNALAR

Hörmətli redaksiya!

Diyadin kəndində ibtidai məktəb binasının və tibb məntəqəsinin olması bizi nə qədər sevindirirsə, işin başqa cəhəti bir o qədər kədərləndirir. İstər məktəb binası, istərsə də məntəqənin olması bizi nə qədər sevindirirsə, işin başqa cəhəti bir o qədər kədərləndirir. İstər məktəb binası, istərsə də məntəqənin yerləşdiyi bina acınacaqlı vəziyyətdədir. Məktəbdə natəmizlik həddini aşmışdır. Divarların suvağı, ağacların qurumu partaların üzərinə tökülür. Məntəqədə isə binanın tavan hissəsi saz olmadığından toz-torpaq stol, stul və preparatların üzərində qalın qat əmələ gətirmişdir.

Bunlarla yanaşı, həmin binaların qapı və pəncərələri də həddindən artıq köhnəlmişdir. Bu haqda dəfələrlə maarif və sə-

hiyyə şöbələrinə müraciət edildiyinə baxmayaraq, heç bir tədbir görülməmişdir.

***Kamran Əliyev,***
***Tumaslı kənd orta məktəbinin şagirdi.***
***"İşıqlı yol" qəzeti, 7 aprel 1966-cı il, № 19.***

## MƏKTƏB KİTABXANASINDA

Məktəbimizdə olan kitabxanada oxuculara nümunəvi xidmət göstərilir. Burada on min nüsxə müxtəlif adda kitab vardır. Oxucuların sayı keçən ilə nisbətən xeyli artaraq 246 nəfərə çatmışdır.

Kitabxabxanada Böyük Oktyabr sosialist inqilabının 50 illiyinə və V.İ.Leninin 100 illiyinə ciddi hazırlıq görülür. Bu münasibətlə guşələr düzəldilmiş, foto-bülletenlər tərtib edilmiş və divar qəzetinin xüsusi nömrələri buraxılmışdır.

***Kamran Əliyev,***
***Tumaslı kənd orta məktəbinin şagirdi.***
***"İşıqlı yol" qəzeti, 26 aprel 1966-cı il.***

## ZƏHMƏTİN BƏHRƏSİ

İliç rayonunun İbadulla kəndindəki orta məktəbin VIII sinfində oxuyan 30 nəfər şagird ilk imtahandan yüksək qiymət almışdır. Müəllimlərdən R.Əliyev, H.Əliyev, M.Abdullayev, F.Əliyev və başqaları imtahanlara hazırlıq sahəsində şagirdlərə yaxından kömək edirlər.

Məktəbin başqa siniflərində də imtahanlar mütəşəkkil keçirilir.

***Kamran Əliyev. "Şərq qapısı". 4 iyun 1966-cı il.***

## FƏAL POÇTALYON

Seyidov bir ildir ki, Kirov adına kolxozda poçtalyon işləyir. O, öz vəzifəsinin məsuliyyətli və şərəfli olduğunu yaxşı bilir.

Seyidov yoldaş qəzet və jurnalları, bağlama və məktubları vaxtında zəhmətkeşlərə çatdırır. Yaxşı işinə görə o, kolxoz idarə heyəti tərəfindən dəfələrlə mükafatlandırılmışdır.

***Kamran Əliyev. Diyadin kəndi.***
***"İşıqlı yol" qəzeti, 11 iyul 1966-cı il , № 47.***

## SAHƏLƏR NÜMUNƏVİ BECƏRİLİR

Kirov adına kolxozda Əli Kərimovun başçılıq etdiyi briqadanın üzvləri bu il 35 hektar sahəyə çiyid səpmişlər. Onlar ilk gündən işə əzmlə girişmiş, sahələri vaxtında suvarmış, alaq otlarından təmizləmişlər. İndi tarlalarda beşinci becərmə sürətlə aparılır. Südabə Məmmədova, Lalə Əliyeva, Xanım Paşayeva, mexanizator Allahverdi Əliyev və başqaları bu işdə daha çox fəqlənirlər.

Briqada üzvləri hər hektardan 30 sentner məhsul əldə etmək üçün səylə çalışır, sahələri nümunəvi becərirlər.

***Kamran Əliyev, Diyadin kəndi.***
***"İşıqlı yol" qəzeti, 10 avqust 1966-cı il , № 56.***

## SÖZ VERİRLƏR, AMMA...

1961-ci ildə xəbər yayıldı ki, Vərməziyar kəndi ilə Tumaslı kəndi arasındakı yolu asfaltlaşdıracaqlar. Bu şad xəbər camaatı çox sevindirdi. Bir neçə gündən sonra yola çınqıl tökərək asfaltlaşdırma işinə başlayacaqlarını bildirdilər.

Bu söhbət 1964-cü ilin yaz aylarında da getdi, lakin bunun heç bir faydası olmadı. Asfaltlaşdırılma dursun bir tərəfə, indi yollarda çınqıl əlindən hərəkət etmək mümkün deyildir.

Tumaslı kəndinin zəhmətkeşləri verilən vədin beşinci ildönümü münasibəti ilə bu söhbəti yenə yada salırlar. Bu işi başa çatdırmaq haqqında görəsən düşünən olacaqmı?

***Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 28 avqust 1966-cı il, № 61.***

## MƏKTUBLARDAN SƏTİRLƏR

Kirov adına kolxozda Əli Kərimov yoldaşın başçılıq etdiyi briqadanın üzvləri bir neçə gündür ki, pambıq yığımına başlamışlar. Bu işdə qabaqcıl pambıqçılardan Gülgəz Ələkbərova, Lalə Əliyeva, Hüsnü Abdullayeva və başqaları xüsusilə fərqlənir, onların hərəsi gündə 120-130 kiloqram "ağ qızıl" toplayır.

***Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 10 sentyabr 1966-cı il, № 65.***

## POÇTALYON YOXDUR

Diyadin kəndində poçtalyon yoxdur. Ona görə də kənd zəhmətkeşləri abunə yazıldıqları qəzet və jurnalları vaxtında ala bilmirlər. Bu da onların haqlı narazılığına səbəb olur.

Bu hal Kirov adına kolxozun başçılarını əsla narahat etmir.

***Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 28 oktyabr 1966-cı il , № 78.***

# XOŞBƏXT AİLƏ

Haqqında söhbət açacağım Yaqub Rəcəbovun çox sadə peşəsi vardır. O, Kirov adına kolxozda sürücü işləyir. Aylıq tapşırıqları vaxtında və artıqlaması ilə yerinə yetirir. Çoxlu yanacağa qənaət edir.

Y.Rəcəbovun xoşbəxt ailəsi vardır. O, həyat yoldaşı Xanımzər ilə 7 uşaq böyüdüb tərbiyə etmişdir. Böyük oğlu Məmməd Tumaslı kənd orta məktəbinin IX, Şükür VII, Müsəvəddin IV sinfində oxuyur. Aydın isə Diyadin kəndindəki ibtidai məktəbin, II sinfində təhsil alır. Ailə dövlətdən yardım alır, firavan yaşayır. Söz düşəndə Y.Rəcəbov deyir:

– Bizim ailə xoş və firavan həyat üçün partiya və hökumətimizə, onun müqəddəs qanunlarına minnətdardır.

***Kamran Əliyev.***
***“İşıqlı yol” qəzeti, 5 dekabr 1966-cı il, № 121.***

# MƏKTUBLARDAN SƏTİRLƏR

Rayonumuzun İbadulla kəndində hamamın tikintisi yarımçıq qalıb. Diyadin kəndindəki məktəbin və xəstəxananın əsaslı təmirə ehtiyacı var. Tumaslı və Vayxır kəndlərinə avtobus işləmir.

***Kamran Əliyev. İliç rayonu.***
***Xəbərlər: “İşıqlı yol” qəzeti, 3 fevral 1967-ci il, № 15.***

## GƏNCLİYİN SƏSİ

Tumaslı kənd orta məktəbində ilk komsomol təşkilatının orqanı olan "Gəncliyin səsi" adlı divar qəzeti buraxılır. Qəzetdə əlaçı, dərs qaydalarına ciddi əməl edən şagirdlər haqqında maraqlı yazılar dərc edilir.

Yuxarı sinif şagirdlərindən V.Hüseynov, M.Rəcəbov, Z.Quliyeva, S.Abdullayeva, E.Əliyev və başqaları qəzetin buraxılmasında yaxından iştirak edirlər.

***Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 10 aprel 1967-ci il, № 35.***

## AVADANLIQ YOXDUR

Tumaslı kənd orta məktəbinin şagirdləri idmana böyük maraq göstərirlər. Lakin burada avadanlıq çatışmadığından məktəblilər idmanın bir çox növləri ilə məşğul ola bilmirlər. Nədənsə, idman avadanlığı almaq heç kimin yadına düşmür.

***Kamran Əliyev,***
***Tumaslı kənd orta məktəbinin şagirdi.***
***"İşıqlı yol" qəzeti, 17 mart 1967-ci il.***

## PAMBIQ TARLALARINDA BECƏRMƏYƏ BAŞLAMIŞLAR

Kirov adına kolxozda Əli Kərimovun başçılıq etdiyi briqadanın üzvləri 35 hektar pambıq əkini sahəsində çiyid səpinini rayonda birinci olaraq qurtardıqları kimi, pambığın becərilməsinə də birinci başlamışlar.

Keçən il pambıq təhvili planını artıqlaması ilə yerinə yetirən briqadanın əməksevər kollektivi bu il pambıq əkinlərinin hər hektarından 19,7 sentner "ağ qızıl" götürmək uğrunda mübarizə aparır. İşçilərdən Gülgəz Ələkbərova, Südabə Mirzəyeva, Lalə Əliyeva, Hüsnü Abdullayeva və başqaları yubiley ilinin əmək növbəsində duraraq tapşırıqlara artıqlaması ilə əməl edirlər.

***Kamran Əliyev.***
***Diyadin kəndi.***
***"İşıqlı yol" qəzeti, 12 may 1967-ci il, № 49.***

## "ƏLA" VƏ "YAXŞI" QİYMƏTLƏRLƏ

Söz vermişik ki, imtahanları "Əla" və "yaxşı" qiymətlərlə başa vuraq. Bunun üçün müəllimlərin və əlaçıların görməyi ilə imtahanlara ciddi hazırlaşırıq.

***Kamran Əliyev,***
***Tumaslı kənd orta məktəbinin VIII sinif şagirdi.***
***"İşıqlı yol" qəzeti, 23 may 1967-ci il, № 54.***

## TƏSƏRRÜFATDA İŞLƏYƏCƏYİK

Son imtahan rus dilindən idi. Hamımız bu fəndən "4" və "5" qiymət aldıq. İmtahan qurtarandan sonra sinfə yığışıb tətil vaxtı görəcəyimiz işlər haqqında söhbət açdıq. Qərara aldıq ki, hamımız kənddə qalıb Kirov adına kolxoza kömək edək.

Bəli, biz yay tətili dövrü taxıl yığımında, tütün yarpağı dərimində, pambıq əkinlərinin becərilməsində və toplanışında öz ata-analarımıza yaxından kömək edəcəyik.

***Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 24 iyun 1967- ci il.***

## YONCA BİÇİLİR

İliç rayonundakı Kirov adına kolxozda yem istehsalına başlanmışdır. Kolxozda birinci olaraq Y.Həsənov yoldaşın briqadasında yonca biçini keçirilir. Biçilmiş yonca müəyyən olunmuş yerə daşınır. Briqadanın üzvlərindən Rəcəb Hüseynov, Məmməd Cəmilov, Yaqub Rəcəbov və başqaları yem istehsalında fəallıq göstərirlər.

***Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 29 iyun 1967- ci il, № 150.***

## QABAQCIL BRİQADA

Kirov adına arteldəki komsomolçu gənclər briqadalarından birinə kolxoz ilk komsomol təşkilatının katibi Qəhrəman Məmmədov yoldaş başçılıq edir. Briqadada işləyənlərin əksəriyyəti gənclərdir. Onlar bildir 66 hektar sahədə 143 ton məhsul sataraq planı xeyli artıqlaması ilə yerinə yetirmişdir.

Briqadanın əməksevər üzvləri cari ildə 58 hektar sahəyə çiyid səpmişlər. İlk günlərdən briqadada pambığın becərilməsinə ciddi fikir verilir, aqrotexniki qaydalara düzgün əməl edilir. Suçulardan M.Əhmədov və V.Əliyev yoldaşlar öz işlərinin öhdəsindən layiqincə gəlirlər. Onlar sahələri sızqa axınla suvarır, su itkisinə yol vermirlər.

Burada kolxozçuların daha səmərəli işləməsi üçün yaxşı şərait yaradılmışdır.

Bu günlərdə briqadanın pambıq zəmilərini gəzdik. Hər yerdə iş bulaq kimi qaynayırdı. Bir tərəfdə kolxozçular alaq edir, bir tərəfdə isə mexanizatorlar kultivasiya çəkirdilər.

Briqadir Qəhrəman Məmmədovla tarlada görüşdük. Biz ondan öz işləri haqqında danışmasını xahiş etdik. O:

– Düz üçüncü becərmə qurtarıb. Sahələrə iki dəfə yemləmə gübrəsi vermişik. Biz hər hektardan 20 sentner əvəzinə 25 sentner məhsul götürməyi öhdəmizə almışıq, – dedi.

Böyük Oktyabr inqilabının 50 illiyi şərəfinə əmək növbəsində duran briqada üzvlərindən Misri Hümmətova, Səkinə Hüseynova, Zərgül Heydərova və başqaları öhdəçiliyi yerinə yetirmək üçün daha səylə çalışırlar. Mexanizatorlardan Allahverdi Abdullayev yoldaşları da gündəlik iş normasını vaxtında və artıqlaması ilə yerinə yetirirlər.

Briqadada iki manqa var. Həmin manqalara komsomolçulardan M.Əhmədov və V.Əliyev başçılıq edirlər. Manqalar arasında yarış təşkil edilmişdir. Hələlik Məmməd Əhmədovun manqası irəlidə gedir. Onlar dördüncü becərməni vaxtında başa çatdırmış, beşinci becərməyə başlamışlar. Əminik ki, yubiley ilini əmək növbəsində duran pambıqçılar vədələrini şərəflə yerinə yetirəcəklər.

***Məmməd Rəcəbov,***
***Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 26 iyul 1967-ci il , № 74.***

## YADA DÜŞÜR

Bir neçə il bundan əvvəl Kirov adına kolxozun idarə heyəti Diyadin kəndində klub binası tikilişinə başlamağı qərara almışdır. Lakin bu qərar kağız üzərində qalır. Onu həyata keçirmək heç kimin yadına düşmür.

Görəsən, bu vəziyyət çoxmu davam edəcəkdir?

***"İşıqlı yol" qəzeti, 6 avqust 1967-ci il***

# PAMBIQ TARLALARINDA NÖQSANLARA DÖZÜRLƏR

Bu günlərdə üç nömrəli tütünçülük sovxozuna getmişdik. Burada tütünçülüklə yanaşı pambıqçılıq da təsərrüfatın əsas sahələrindən biridir. Sovxozda olarkən pambıq əkinlərinin becərilməsi vəziyyəti ilə maraqlandıq və bu məqsədlə İbrahim İbrahimov yoldaşın müdir olduğu 1 nömrəli şöbənin pambıq tarlalarını gəzdik.

Şöbənin fəhlələri cari ildə 50 hektar sahəyə çiyid səpmiş və yüksək öhdəçilik götürmüşlər: hər hektardan 17 sentnerə "ağ qızıl" götürmək!

Bu vədə şərəflə əməl etmək üçün həmin şöbədə Bəylər Zamanov və Yəhya Rzayev yoldaşların başçılıq etdikləri briqadalarda ciddi səy göstərildiyinin şahidi olduq. Bu briqadaların hər birinin öhdəsində 12,5 hektar pambıq sahəsi vardır. Briqadalarda iş yaxşı təşkil edilmişdir. Becərmədə aqrotexniki qaydalara ciddi əməl edildiyindən və əkinlərə nümunəvi qayğı göstərildiyindən tarlalarda bol məhsulun əsası qoyulmuşdur.

Təəssüf ki, şöbənin əhatə etdiyi bütün briqadalarda pambığın becərilməsi vəziyyəti fərəhləndirici deyildir. Belə ki, İsgəndər Hüseynov və Cəbi Əliyev yoldaşların başçılıq etdikləri briqadalarda aqrotexniki qaydalara əməl olunmadığından bitkilər yaxşı inkişaf etməmişdir. Məsələn, biz İ.Hüseynovun briqadasında olarkən tarla suvarılırdı, ancaq suçular iş başında yox idi. Suvarmada boru üsulundan istifadə olunmurdu: su istənilən səmtə axır, bir cərgədə pambıq kollarının dibini yuyub aparır, digərində isə çatışmırdı. Sahənin çökək yerlərində isə gölməçələr əmələ gəlmişdi. Bu, suçulardan Əsəd Əsədov və Musa Niftəliyev yoldaşların işə məsuliyyətsiz yanaşmalarının nəticəsi idi. Bundan başqa, pambıq kollarında bəzən gözə çarpan zədələr sübut edirdi ki, mexanizatorlar cərgələr arasını becərərkən diqqətsizliyə yol verirlər.

Görəsən, sovxozun baş aqronomu B.Quliyev yoldaş bu nöqsanlara nə üçün göz yumurdu?

***Məmməd Rəcəbov, Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 14 avqust 1967-ci il***

## QAYĞIKEŞ FELDŞER

Tumaslı kəndinin zəhmətkeşləri xəstəxananın feldşeri Məmməd Süleymanovdan həmişə razılıq edirlər. O, əhaliyə nümunəvi tibb xidməti göstərir.

M.Süleymanov tez-tez kolxozçular arasında olur, tarla zəhmətkeşlərinə faydalı məsləhətlər verir.

***Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 8 sentyabr 1967-ci il.***

## ŞAGİRDLƏR ABUNƏ YAZILIR

Məktəbimizin müəllim və şagird kollektivi 1968-ci il üçün qəzet və jurnallara həvəslə abunə yazılırlar. IX sinif şagirdləri bu işdə xüsusilə fərqlənmiş, 72 manatlıq abunə yazılmışlar.

***Kamran Əliyev,***
***Tumaslı kənd orta məktəbinin şagirdi.***
***"İşıqlı yol" qəzeti, 5 noyabr 1967-ci il, № 111.***

## HAMI ONDAN RAZIDIR

Keçən ildən məktəbimizdə kino qurğusu qoşulmuşdur. Kinomexanik Əli Həsənov qurğunu həmişə saz saxlayır. Fizika, kimya və başqa fənlərin tədrisinə dair sənədli filmlər nümayiş etdirir.

Məktəbimizin kollektivi mexanik Əlidən həmişə razılıq edir, ona böyük ehtiram göstərirlər.

***Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 24 noyabr 1967- ci il, № 117.***

## NİYƏ? NƏ ÜÇÜN?

Niyə Qarxun ve Təzəkənd kəndlərində bərbərxana yoxdur?

Nə üçün rayon məişət xidməti kombinatında bu haqda fikirləşmirlər?

Niyə Diyadin kəndində poçtalyon yoxdur?

Nə üçün Kirov kolxozunun başçıları bununla maraqlanmırlar?

Niyə üç nömrəli tütünçülük sovxozunda aşxana yoxdur?

Nə üçün sovxoz direksiyası bu haqda tədbir görmür?

Niyə Ulya Noraşen kəndindəki mədəniyyət evində qayda yaradılmır?

Nə üçün M.Qorki adına kolxozun idarə heyəti bu işə laqeyd münasibət bəsləyir?

Niyə avtobuslarda hərəkət cədvəllərinə riayət olunmur?

Nə üçün rayon avtobazasında bu işə göz yumurlar?

***T.Tağıyev, Kamran Əliyev.***
***"İşıqlı yol" qəzeti, 16 yanvar 1967-ci il, № 5.***

## MƏKTƏB HƏYƏTİ DOSTLUQ GUŞƏSİ

Məktəbimizin pioner otağında "Dostluq guşəsi" yaratmışıq. Burada şagirdlərin respublikamızın müxtəlif şəhər və kənd məktəblərinin pionerlərindən aldıqları məktublar qoşulmuşdur. Guşənin təşkilində məktəbin pioner baş dəstə rəhbəri Xalidə İsmayılova, pionerlərdən Rövşən Səfərov, Paşa Paşayev və başqalarının əməyi böyükdür.

Biz çalışırıq ki, guşəmiz daha da zənginləşsin. Bunun üçün vətənimizin bir çox məktəblərinin pionerləri ilə də yazışırıq.

***Kamran Əliyev,***
***Tumaslı kənd orta məktəbinin şagirdi.***
***"İşıqlı yol" qəzeti, 21 yanvar 1967-ci il, № 7.***

## SƏRGİLƏR, MƏRUZƏLƏR

Məktəbimizdə dahi rəhbər V.İ.Leninin yubileyinə ciddi hazırlıq görülür. Pioner otağında "Leninin guşəsi" təşkil olunmuşdur. Guşədə Leninin həyat və fəaliyyətinə aid foto bülleten düzəldilmiş, müxtəlif illərdə çap edilmiş əsərlərinin sərgisi təşkil olunmuşdur.

Məktəbdə V.İ.Leninə həsr edilmiş məruzə və söhbətləri şagirdlər maraqla dinləyirlər.

***Kamran Əliyev,***
***Tumaslı kənd orta məktəbinin şagirdi.***
***"İşıqlı yol" qəzeti, 13 aprel 1968-ci il.***

## YAŞILLIQ DOSTLARI

Biz məktəbimizin həyətinin yaşıllaşdırılması üçün əlimizdən gələni əsirgəmirik. Təkcə keçən bazar günü futbol meydançasının ətrafına və həyətə 200-dən artıq müxtəlif bəzək və meyvə ağacları əkmiş, daş döşənmiş kiçik xiyabanların kənarına gül şitilləri salmışıq. Bu işdə yuxarı sinif şagirdlərindən Məmməd Rəcəbov, Paşa Paşayev, Əhməd Həsənov və başqaları xüsusilə fəqlənmişlər.

***Kamran Əliyev, R.Tarverdiyev,***
***Tumaslı kənd orta məktəbinin şagirdləri.***
***"İşıqlı yol" qəzeti, 20 aprel 1968-ci il, № 36.***

## ÇƏHRAYI RƏNGLİ YARPAQLAR

Əli Əliyevi tanıyırsınızmı? Əgər tanımırsınızsa, gəlin tanış olaq. O, İliç rayonundakı Kirov adına kolxozda briqada başçısı işləyir. Onun briqada üzvləri apreldə ilk dəfə olaraq tütün yarpaqlarının qırımına və düzümünə başlamışlar. Bunu da deyək ki, onlar 8 hektar sahədə bol məhsul yetişdirmişlər. Hər hektardan 18 sentner əvəzinə, 23 sentner məhsul toplamağı qarşılarına məqsəd qoymuşlar.

Son 3 gün ərzində Əlinin briqada üzvləri 4 ton tütün yarpağı dərib qaytanlara düzmüşlər. İşin sürətlə və keyfiyyətlə aparılmasında Zəhra Novruzova, Kəklik Əliyeva, Xədicə Məmmədova və başqaları fərqlənirlər.

***Kamran Əliyev.***
***"Şərq qapısı"qəzeti, 22 iyul 1968- ci il, № 106.***

## YAŞILLIĞI SEVİRİK

Məktəbimizin şagirdləri hər il bahar aylarında məktəbin ətrafının yaşıllaşdırılmasına xüsusi fikir verirlər. İndi biz biologiya müəllimi Bəhlul Axundovun rəhbərliyi altında yeni tinglər salmaqla məşğuluq. Hər bir şagirdə bir ağac əkilməsi tapşırılmışdır. Məktəb ətrafında artıq 100-dən çox ağac əkmişik.

Şagirdlərdən Nazim Səfərov, Abdulla Əliyev, Paşa Paşayev və başqaları ağacların əkilməsində və suvarılmasında yaxından iştirak edirlər.

***Kamran Əliyev,***
***İliç rayonundakı Tumaslı kənd***
***orta məktəbinin şagirdi.***
***"Şərq qapısı" qəzeti, 25 aprel 1968-ci il.***

# YOLLAR HARAYA APARIR
## Təəssürat

Şərur torpağı və Şərur eli çox qədim və zəngin yaddaşa malikdir. İllərin və əsrlərin taleyi adamların fəaliyyəti və mübarizəsi bu yaddaşa köçərək yaşamaqdadır. Hələ "Kitabi-Dədə Qorqud"da adı çəkilən Şərur müəyyən fasilələrlə neçə-neçə qanlı döyüşün şahidi olmuş, lakin heç vaxt öz yenilməzlik qüdrətini itirməmişdir.

İndi Şərur torpağı boyunca iki yol uzanıb gedir. Onlardan biri Naxçıvandan Sədərəyədək addımlayan enli şose, digəri isə insan qolları kimi irəliyə doğru yönələn dəmir yoludur. Həmin yollar Şərurun bu gününü tanımaq üçün ən gözəl vasitədir.

Qatarla İliç şəhərinə daxil olarkən, çox nəhəng bir tikinti ilə qarşılaşırsan. Bu tikinti gələcək konserv zavodudur. Oradakı dairəvi, uzun çənləri görən kimi fikrimə akademik S.Korolyovun ağır addımlarla yanından getdiyi kosmik gəmi düşdü. Həmin gəmi yüksəkliyin fəthinə ilk təkan idi. Əslində elə zavod da rayonun iqtisadi-sosial inkişafının yüksəlişi deməkdir. Mənəvi cəhətdən ciddi stimuldur ki, şose yolu ilə Arpaçay körpüsünə yaxınlaşanda sağ tərəfdə ucaldılmış kafeyə də "Kosmos" adı ilə verilmişdir. "Kosmos" burada rəmzi məna daşıyır və kənd əməkçilərini yüksəlişə doğru səsləyir.

Hər iki yoldan baxanda rayonun bir çox sahələrində ucaldılmış tarlı düşərgələrinin şahidi olursan. Bunlar sadəcə olaraq zəhmətkeşlərin küləkdən və yağışdan daldalanmaları üçün sığınacaq yeri deyildir. Tarlı düşərgəsi kənddən-kəsəkdən uzaq, ucsuz-bucaqsız zəmilərdə kiçik mədəniyyət mərkəzidir. Bir də ki, bu düşərgələr bütün il boyu insanla torpağın-bərəkətin qardaşlıq simvolunu özündə yaşadır.

Naxçıvandan avtobusla üzü bəri gələndə yolun yeni mənzərəsi ilə tanış olursan. Yol boyu düzəldilmiş bulaqlar adamların

harayına gəlir. Sürücü də, sərnişin də o bulaqlardan su içəndə ürəkdən nəfəs alır. Hələ onu demirik ki, bu bulaqlar üçün düzəldilmiş qiyafələr öz naxışları ilə insanı canlı həyata səsləyir.

Qatarla da, avtobusla da İliç şəhərinə daxil olub, şəhəri gəzməyə başlayanda, ilk dəfə nəzəri cəlb edən memarlıq üslubuna valeh qalırsan. Divarlara hörülmüş kərpiclər də, pəncərələrə vurulmuş şəbəkələr də yeni duyğu, yeni nəfəs gətirir. Hiss edirsən ki, şərqlilərə məxsus şəhərin küçələri ilə addımlayırsan. Hiss edirsən ki, inşaatçıların zövqü yenidir, doğmadır.

Yol və su, tikinti və memarlıq – bunlar hamısı yeni Şərurun nemətləridir. Bəs, qədim Şərur? Onu necə görmək, necə tanımaq olar? Çox sadəcə. Bunun üçün Şərurun "İçərişəhəri"nə – tarix-diyarşünaslıq muzeyinə baxmaq kifayətdir. Orada nümayiş etdirilən bir saxsı əşya da, onların üzərindəki boyalar və naxışlar da qədim babalarımızın sənətkarlığının şahididir.

O illərdən bu illərə qədər neçə-neçə nəsillər dəyişib, yeniləşib, amma Şərur yenilməz qüdrəti ilə öz yerində dayanıb, gündən-günə daha da möhkəmlənir və zirvələrə doğru addımlayır.

***Kamran Əliyev,***
***filologiya elmləri namizədi.***
***"İşıqlı yol" qəzeti, 17 noyabr 1984***

# ŞAGİRD, ƏMƏK VƏ MƏDƏNİYYƏT

Məktəblər əmək tərbiyəsi ilə məşğul olan əsas tədris müəssisələrindən hesab edilir. Çünki ilk elmi biliklərin və əxlaqi keyfiyyətlərin şagirdlərə aşılanması prosesində əməyin müsbət və dəyişdirici xarakterini izah etmədən keçinmək mümkün deyildir.

Şagird, əmək və mənəviyyat probleminə adi və sadə məsələ kimi baxmaq olmaz. Onların qarşılıqlı şəkildə anlaşılmasında müxtəlif amillərin, ötəri və ciddi münasibətlərin xeyli dərəcədə rolu vardır. Məktəb və ailə, müəllim və valideyn kimi tərəflər əməyə baxış mövqeyində birləşə və ayrıla bilərlər. Əsl əmək tərbiyəsi onun müvəffəqiyyətli dərəcədə reallaşması və qütblərin birliyindədir.

"Əmək" anlayışı geniş məfhumdur. Buraya həm zehni, həm də fiziki fəaliyyət daxildir. Lakin hal-hazırda əmək sözü daha çox fiziki işlə, "əzələ qüvvəsi" ilə eyniləşir. Bunun da əsas səbəbi fiziki fəaliyyətə daha çox diqqət verilməsindən irəli gəlir.

Əməyin indiki şəraitimizdə zövq mənbəyinə çevrilməsi amili təsadüfi deyildir. Bu, onun öz məzmunundan, mənasından, yaradıcı xarakterindən, dəyişdirmə funksiyasına malik olmasından doğan nəticədir. Buna görə də sovet adamlarına əməyin dəyər və əhəmiyyətini hələ şagird partası arxasında aşılamaq daha vacib şərtdir. Hər şeydən qabaq əmək şagird aləminə o zaman genişliyi və hərtərəfliyi ilə daxil olur ki, şagird əhatə edən mühitdə əməyə eyni dərəcədə müsbət münasibət mövcud olsun. Dərsdə, evdə, ictimai yığıncaqlarda, lazım gəldikdə yolüstü söhbətlərdə belə bir məsələyə qayğı ilə yanaşılmalıdır. Belə olduqda əməyin bütün funksiyası təsiredicilik mövqeyində olur. Şagird burada nə isə müsbət, xeyirli tərəf görür, əməyə can atır. Məktəbdə şagird-istehsalat briqadalarının fəaliyyəti məhz bununla əlaqədardır. Tumaslı kənd orta məktəbinin bu sahədəki müvəffəqiyyəti ictimaiyyətə yaxşı məlumdur. Həmin məktəbdə şagirdlərin işə cəlbi kollektiv xarakter daşıyır və orada əmək rübü heç də əvvəlki dərs rüblərindən aşağı səviyyədə keçirilmir.

Həm də yeri gəlmişkən onu qeyd etmək lazımdır ki, indi tələbə inşa dəstələri kimi şagirdlərin də yay tətillərini əməklə daha geniş əlaqələndirib bütöv halında, yəni mərkəzləşmiş şəkil-

də kütləvi fəaliyyət çevirmək vaxtı çatmışdır. RXMŞ-in işçiləri yəqin ki, bu təklifə tərəfdar çıxarlar. Çünki belə hal rayon ərazisində böyük əmək coşqunluğu yarada bilər. Şagirdlərin məktəblərin həyatyanı sahələrindəki işi də xüsusi rejim və düzgün istiqamət tələb edir. Yaşlılığa məhəbbət, torpağa sevgi, kənd təsərrüfatı bitkilərini dərindən öyrənmək və sairə bu sahədə mühüm rol oynamalıdır. Şagirdlər məhz burada təbiətə qayğı göstərmək kimi nəcib işi öyrənməli, bununla əlaqədar cəmiyyətin qarşıya qoyduğu mənəvi amillərə yiyələnməlidirlər. Şagirdlərin müasir geniş dünyabaxışı bəzən də o yerə gətirib çıxarır ki, onlar həyətyanı sahədə əkilən məhsulun doğurduğu mənfəətin haraya sərf olunması ilə maraqlanırlar. Onun üçün də məktəb müdiriyyəti həmin vəsaitin ümumi işin xeyrinə olmaq şərtilə şagirdlərə aydın olan ləvazimatlara xərclənməsinə daha çox səy etməlidir. Bu məsələnin həyata keçirilməsi şagirdlərdə düzlüyə, doğruluğa böyük inam yaradır. Onlar əliəyriliyə qarşı kinli adam kimi tərbiyələnirlər. Vərməziyar kənd orta məktəbi bu baxımdan xüsusi fəaliyyət göstərir. Məktəbin həyətyanı sahəsinin xeyli dərəcədə və böyük həvəslə yaşıllaşdırılması buna parlaq sübutdur. Həyətyanı torpağı geniş olub, lakin yararsız halda saxlayan məktəblər varsa, məhz Vərməziyar kənd orta məktəbinin müəllim kollektivinin işindən nümunə götürülməlidir.

İməciliklərdə təsərrüfatlara şagirdlərin köməklik göstərdikləri vaxtlarda bəzən az-az valideynlərdən giley-güzar eşidilir: “mən uşağımı oxumağa göndərmişəm, işləməyə yox!” Tamamilə yanlış fikirdir. Bu, hər şeydən qabaq əmək prosesində kollektivçiliyə qarşı yönəldilən müqavimətdir. Belə hallarda ata öz övladını kollektiv əmək fəaliyyətindən bir növ soyudur. O, özü də başa düşmədən uşağını həyat prosesində təkləyir. Bu hal şagirdlərdə lovğalıq, ərköyünlük, işə yabançı münasibət, bir növ ətalət yaradır. Daha doğrusu, şagird mənəvi kamilləşmə istiqamətində hərəkət etdiyi yolda büdrəyir.

Ən maraqlı burasıdır ki, belə hallarda bəzən şagird özü tarlaya, iş qaynayan sahəyə getmək istəyir. Çünki oraya onun şagird yoldaşları, dərs deyən müəllimləri, bir az da açıq və cəsarətlə desək xatirini istədiyi qız və ya oğlan gedir. Bu həvəslərdən, bu hissələrdən şagirdi məhrum etmək onun gələcəyi üçün

çox qorxuludur. Əslində evdə müəllim vəzifəsini yerinə yetirən valideyn uşağı öz şəxsi həyatində çalışdırmaqla yanaşı, onda ictimai əməyə məhəbbət oyatmalıdır və sahədə onu nəzarətdə saxlamalıdır. Məktəbdə bütün fənlərlə əlaqədar əmək tərbiyəsindən geniş danışmaq olar. Lakin əmək təlimi dərsləri buna daha çox imkan verir. Çünki orada deyilən sözlə əməli iş faktik şəkildə bir-birini tamamlayır. Bunun üçün isə məktəb emalatxanalarının fəaliyyət miqyasını genişləndirmək tələb olunur. Bəzən də fizika elminin köməyi ilə yaradılan bu vəsait həm fiziki, həm də zehni əməyin inkişafında şagirdlərə müsbət təsir göstərir. Çünki şagirdlər zəhmətə qatlaşıb yeni bir əşya yaratmaqla bərabər, zehni fəaliyyətlərini də təşəkkül etdirərək özlərinə böyük inam yaradırlar. Qarxun kənd orta məktəbinin fizika müəllimi Nizami Quliyevin bu sahədə fəaliyyəti çox təqdirəlayiqdir. Onun pedaqoji işlərinin istiqaməti şagirdlərdə çalışqanlığa, əzmkarlığa, ixtiraçılıq yaradıcılığına meyil oyatmaq kimi nəcib məqsədə yönəldilmişdir.

Fiziki əməyin fiziki kamillik üçün də böyük rolu vardır. Lakin bu halda onu bədən tərbiyəsi dərsləri ilə əlaqələndirmək vacibdir. Xanlıqlar kənd orta məktəbinin bədən tərbiyə müəllimi Fazilə Rəcəbovanın bu sahədəki işi qiymətləndirilməyə layiqdir. Belə olduqda şagirdlər gümrah və sağlam böyüyürlər. Başqa sözlə desək, şagirdlər fizianomiya cəhətdən formalaşırlar. Oğlanlardan enlikürək, qabarıq musqul, qızlarda incəlik və tarımlılıq yaranır. Bunlar isə şagirdin, gələcəkdə müstəqil həyata atılan gəncin mənəvi inkişafına səbəb olur. Bu cür keyfiyyətlərdən isə güman ki, heç kəs imtina etməz.

Bu məsələlər göstərir ki, əməyin şagird mənəviyyatı üçün xeyli əhəmiyyəti vardır. Buna görə də onu düzgün mənalandırmaq, düzgün istiqamətləndirmək hər bir müəllimin və hər bir valideynin vətəndaşlıq borcudur.

Məhz şagird, əmək və mənəviyyat probleminə toxunmağımızın əsas səbəbi də vətəndaşlıq, məsuliyyəti olmuşdur.

***Kamran Əliyev, aspirant.***
***"İşıqlı yol" qəzeti, 15 sentyabr 1977-ci il.***

# MÜASİR GƏNCLİK VƏ MƏNƏVİ TƏRBİYƏ

Son vaxtlar sovet adamının mənəvi aləmi çox böyük diqqətə səbəb olmuşdur. Bu da hər şeydən qabaq kommunist dünyagörüşünün formalaşması prosesində müəyyən bir mərhələyə maraq deməkdir. Elə bir mərhələ ki, öz varlığında ictimai-sosial, texniki-iqtisadi, fəlsəfi-estetik və sair mühüm cəhətləri birləşdirir və özündə qovuşdurur.

Bu mənada müasir gəncliyin daxili dünyası, mənəvi siması cəmiyyətin gələcək taleyi üçün böyük və ciddi meyarıdır. İndi parta arxasında oturan, yaxud öz şagirdlik dövrünü arxada qoyan gənclik sabahın aparıcı qüvvəsi və idarəedicisidir. Ona görə də ilk növbədə gəncliyin əmək tərbiyəsi həmişə diqqət mərkəzində dayanmalı və sözün həqiqi mənasında mərkəzləşdirilməlidir.

İndi artıq orta məktəblərdə əmək təlimi dərslərini “əmək tərbiyəsi” ilə əvəz etmək və məşğələləri bu ruhda aparmaq daha münasib olar. Əslində şagird kollektivlərinin təsərrüfatlara köməyi də, gələcəkdə həmin təsərrüfatlarda işləyəcək bir qisim gənclərin yetişdirilməsi deməkdir. O da təsadüfi deyil ki, indi kolxoz və sovxozlarda, ticarət və digər məişət obyektlərində işləyənlərin əksəriyyəti komsomolçu gənclərdən ibarətdir.

Orta təhsildən sonra gənclərin işlə təmin olunması da mühüm məsələlərdən biridir. Bəzən elə olur ki, instituta qəbul olunmayan gənc bir bədbinliyə qapılır, işləməyi özünə ar bilir. “İşləməsən sənədlərini instituta götürməyəcəklər” xəbərdarlığı da onu qorxutmur. O, bəzi hallarda tüfeyli həyat keçirməyə meyil edir, ata-ananın qazancı hesabına yaşamaq istəyir. Belə hallar baş verməsin deyə orta məktəbi qurtaran gənclər vaxtında ictimai əməyə cəlb edilməlidirlər.

Burada rayon komsomol komitəsinin göndərişləri də mühüm rol oynaya bilər.

Müasir gəncliyin əmək tərbiyəsində əmək bayramları çox böyük əhəmiyyət kəsb edir. Əlbəttə, belə bayramları təsərrüfat ilinin sonuna və əvvəlinə salmaq olar. Hər halda bu bayramlar gəncliyin kollektiv birliyini daha gözəl nümayiş etdirir və əməyə, zəhmətə bağlılığını daha da artırır.

Gənclərin ənənəyə münasibəti də mənəvi tərbiyənin göstəricilərindəndir. İndi gənclərdə müharibə və əmək qəhrəmanlarına hörmət və ehtiram hissi sabitləşmiş və getdikcə güclənməkdədir. Belə bir şəraitdə milli adət və ənənələrə rəğbət, sədaqət gənclərdə ali keyfiyyətlərin yaranması üçün əsas zəmindir. Buna görə də mütərəqqi ənənələrlə keçmişin qalıqları kimi təqdim olunan "ənənələri" saf-çürük etmək çox vacib məsələlərdəndir.

Müasir gənclikdə valideynlər arasında müəyyən "pərdə" var və bunu hər tərəf çox ciddi şəkildə qoruyub saxlamalıdır. Lakin bəzi hallarda bu pozulur və övlad-valideyn ziddiyyətinə çevrilir. Belə hallar adətən evlənmək, ərə getmək, oxumaq, işə düzəlmək və sair vaxtlarda baş verir.

Bir neçə kəlmə də yeni ailə quran gənclərimiz barədə.

Gənc ailənin sağlam inkişafı üçün hər şeydən əvvəl iqtisadi imkanlar, o cümlədən ev və ev əşyaları təmin olunmalıdır. İndi çoxlarının yeni ailə üçün əsas hesab etdikləri bu imkanlar mənəvi amillər qarşısında çox dəyərsiz və puçdur. Gənc oğlan və qız bir-birini yaxşı başa düşüb və anlamalıdır. Şübhəsiz "ər zorakılığı" bir neçə il ailəni yaşada bilər. Lakin bir vaxt gəlir ki, ana olmuş gənc qız öz taleyinə etiraz edir və ailənin sükanına o da əl atır. Birinci və ikinci vəziyyətlərin hər ikisində qeyri-mütənasiblik mövcuddur. Beləliklə, həmin ailədə ya şənlik əhvali-ruhiyyəsi, nikbinlik yox olub gedir, ya da hər iki tərəf "mən səni başa düşməmişəm" etirazına sığınaraq ayrılırlar. Buna görə ailə tərbiyəsi ilə əlaqədar olaraq komsomol təşkilatlarında vaxtaşırı mühüm tədbirlər keçirilməli, hətta bu tədbirlər onların illik planlarına rəsmən daxil edilməlidir.

Kim etiraz edə bilər ki, əgər rayon mərkəzinin müəyyən bir salonunda, lap elə "Bahar" kinoteatrında ailə məsələləri ilə əlaqədar estetik tədbirlər keçirilsə salon dolu olmaz? Belə vaxtlarda gənc oğlan və qızlar tribunaya çıxar, çəkinmədən öz ürək sözlərini yaşıdları ilə bölüşdürərlər. Bu isə onlarda ailəyə, sevgiyə fəallıq münasibəti yaradar və deməli, xeyli müvəffəqiyyətə nail olmaq olar.

Ümumiyyətlə, disput və müzakirələrin müasir gəncliyin mənəvi tərbiyəsində böyük rolu vardır. Lakin bunları təşkil etmək, mövzuları dəqiq müəyyənləşdirmək yüksək işgüzarlıq tələb edir. Burada bir cəhətdən ehtiyat etmək lazımdır ki, qüsurlu, məqsədsiz və ya az məqsədli, cansıxıcı disputlar gəncləri özündən uzaqlaşdıra bilər.

Göründüyü kimi, müasir gənclik və mənəvi tərbiyə məsələləri çox geniş, vacib və mürəkkəb məsələdir.

Bakıda keçirilmiş "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin praktik və aktual problemləri" Ümumittifaq konfransında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaş demişdir: "Gənclər ölkəmizin gələcəyi, onun iftixarı, onun ümididir. Mənəvi tərbiyə prosesinin mərhələlərində – əmək kollektivində, ali məktəblərdə komsomol təşkilatlarının borcu gənclərimizi həyata, fədakar əməyə, yaradıcılıqla düşünməyə hazırlamaqdan, kommunizm uğrunda sıx birləşmiş mübarizlər sırasında öz yerini müəyyən etmək bacarığı tərbiyə etməkdən ibarətdir".

***Kamran Əliyev,***
***Nizami Gəncəvi adına***
***Ədəbiyyat İnstitutunun aspirantı.***

# ƏSRİN SONU: ELM VƏ TƏHSİL

Elmə və savada hörmət qədim dövrlərdən indiyə qədər xalqımızın ən ümdə arzularından biri olub. Dədə-babalarımızın "türkəçarə" dedikləri təbabət məktəbi, poeziya sənətimizin "yeddi səyyarə" çevrəsindəki süslü beytləri, nücum elminin həyatda Marağa səviyyəsinə qədər yüksəlişi, xalı sənətkarlığının "uçan xalça" hikmətinə çevrilməsi, zəncir və kəndirə üsyan olan miniatürlərdəki iç fəlsəfəsi keçilən böyük və əzəmətli yoldan soraq verir. Bütün bunlar ötən əsrlərin timsalında xalqımızın adına ünvanlanan "savadsız", "yazı-pozu bilməyən" təsəvvürləri altüst edir, keçmişin fəxarət yaddaşına yenidən qayıtmağa inanc yeri qoyur.

Oxumağa və yazmağa həvəs göstərməyən, kitabdan və dəftərdən rəncidə olan bir xalq XII əsrdə Nizami Gəncəviyə, XVI əsrdə Məhəmməd Füzuliyə, XX əsrdə Xiyabaniyə "Şeyx" deməzdi. Bir məmləkətin təhsilə yaman gözlə baxan övladları Vaqifi "Molla Pənah", Vidadini "Molla Vəli" kimi tanımazdı, öz gülüş yaddaşını "Molla Nəsrəddin"in adına yazmazdı. Savada biganəlik göstərən nəsillər Axundova "Mirzə Fətəli", Cəlil Məmmədquluzadəyə "Mirzə Cəlil", Sabirə "Mirzə Ələkbər" söyləməz və onları sevməzdilər.

Azərbaycanın şeyxlik, mollalıq, mirzəlik tarixi savad, elm, təhsil və mədəniyyət tarixidir. Çox az öyrənilmiş bu salnamə neçə-neçə sirlərin gizli yatağı və inci xəzinəsidir. Məhz bu mənəvi yaddaş yataqları duzlu dəniz suları ilə örtülən yataqlardan heç də az qiymətli olmayıb, yəni əsrin başlanğıcında elmə və təhsilə müasir baxımın formalaşmasını da zəruri şərtə çevirir. Bu şərt Qərb və Şərq kontekstindən ayrılmazdır, keçmiş və gələcək müstəvisindən kənarda deyildir.

O ayrı məsələdir ki, yenilik həmişə bizim tarixdə müqavimətlə qarşılaşıb. Keçən əsrin indiki çağlarında yeni tipli mək-

təblərin yaradılışı əqidə və məslək döyüşündən keçdi. Bu məktəblərə tərəf yönələn maneələr yeni ruh önündə, yeni fikir qarşısında incəlib üzüldü. Təkcə iki nümunə – Şamaxıda Seyid Əzim Şirvaninin, Naxçıvanda Məhəmmədtağı Sidqinin adı ilə bağlı olan tədris müəssisələri Azərbaycana iki böyük dahi verdi: Mirzə Ələkbər Sabir və Hüseyn Cavid. Bəlkə də o zaman yeni məktəbə xoş baxanlar Sidqinin adındakı "Məhəmməd", Şirvaninin adındakı "Seyid" sözlərindən – peyğəmbərlikdən və seyidlikdən qorxub geri çəkilməsəydilər, bu böyük dahilər də yetişməyəcəkdi.

Bizim əsrin indiki çağlarının yeni maarif xətti isə lisey, kollec, gimnaziya adlarından keçib gedir və son ucda özəl təhsil sisteminə dayanır. Əfsus ki, bu sistem hələ də bir müəllim kimi vaxtilə ona inanmayıb gecikənlərin, sarılmış mühazirə vərəqlərindən bezmiş, lakin bezikməyi gizlətmək istəyənlərin, təhsilin qədir-qiymətini uca tutmaq yalanına bürünənlərin ögeylik baxışları ilə üzbəüz qalıb. Sanki təhsildəki yeniliklərə keçən əsrin axırlarında ögey və xor baxanları, bizim əsrin sonunda ögeylik nəğməsini xorla oxuyanlar əvəz edib.

Təhsilə yanğı və qayğı onun formasını deyil, məzmununa yönələndə daha səmərəli olur. Günümüzün ən böyük sualı "nəyi və necə öyrətməli?" sualıdır. Bu sual əsil ziyalı və maarifçi düşünməyə və yazmağa səsləyir. İndi müəllim və maarif işçisi üçün ən böyük rahatlıq həmin suala cavabını tapmaqdan ibarətdir.

Tarix elminin yaddaşı hələ də iftixar yaddaşından gen düşüb. Tarix kitablarımızın çoxusu müharibə və ədavətin, savaş və yalvarış, xəyanət və satqınlığın ifadəsindən uzağa gedə bilməyib. Ötən əsrlərə tarixçi baxışı M.Ə.Sabirin "Öz qövnümüzün başına əngəl kələfik biz" poetik misrasında söykənib və beləliklə, tarix elminin qarşısında duran vəzifələr çox hallarda bədii sənətin – poeziyanın tuşlandığı hədəflərlə qarışdırılıb və eyniləş-

dirilib. Sabirdən qüvvət alan tarixçi Füzulinin poeziya üçün dediyi "Aldanma ki, şair sözü, əlbəttə, yalandır" fikrini, nədənsə, unudub və tarixşünaslığın həqiqət gücünə ciddi zərbə vurulub.

Dilçilik kitablarında, eyni zamanda, dilçiliyə dair dərsliklərin bir çoxunda elmi mülahizələr türk dil sisteminə uyğun olmayan digər dil sistemlərinin modelləri əsasında qurulub. Yad qəliblər və modellər milli təfəkkürdə biganəlik toxumları cücərdib, hətta adamlarda dilin adına belə etinasızlıq hissi tərbiyələndirib.

Ədəbiyyatşünaslıqda "sinfilik" düsturu onun icadı tarixdən əvvəlki əsrlərdə yaşamış klassik sənətkarlarımızın yaradıcılığına həvəslə tətbiq olunub. Bununla da, son dövr ədəbiyyatımız bir yana, Nizami Gəncəvi, Məhəmməd Füzuli sinfi və partiyalı şair kimi araşdırılıb.

Fəlsəfəşünaslarımızın ateizm təbliğatındakı coşğunluğu və ateizmin ədəbiyyata möhürbənd edilməsi Nəsimi sufizminin altını üstünə çevirib. Qüdrətli şair Tanrı qüdrətinə sığınan müsəlmandan sürətlə uzaqlaşdırıb.

Vidalaşdığımız əsrin "məfkurə" sahibli naşirləri "Xəmsə"yə daxil olan poemaları nəşr edəndə, bu əsərlərin əvvəlindəki Tanrıya müraciət və Peyğəmbərin tərifi hisslərini kəsib atıblar. Amma unudublar ki, vaxtilə həmin poemaları tonqallara atmaq istəyən dinsiz və imansızlar belə Allah və Peyğəmbər adından qorxaraq, onları yandırmayıblar, yavaşca bir kənara qoyublar.

Elmdən doğulan təhsillə ünsiyyət yüksəliş amili kimi bütün dövrləri əhatə edir. Belə ki, orta əsrlər təhsili "oxudub öyrətmək" prinsipinə dayanaraq, daha çox didaktika elementləri ilə yüklənmişdi. "Gülüstan" və "Bustan" kitabları həmin dövrlərin ən böyük dərslikləri idi. M.Füzulinin "Leyli və Məcnun" poemasının yaradılışından sonra bu əsər də bir növ dərsliyə çevrildi.

Amma maraqlıdır: "Leyli və Məcnun"da insanın təhsillə əlaqələri, insanla təhsil arasındakı qabarma və çəkilmələr öz nəticələri ilə birgə göstərilir. Aydın olur ki, Qeys məhz bilik almaq

təhsilindən uzaqlaşıb sevgi "təhsili"nə üz tutanda Məcnuna çevrilir. Leyli məktəbdən sızan xəbərlər müqabilində deyilən ana öyüdünü eşitməyib Qeysin ardınca gedəndə, ömrünün nakamlıq qismətini qəbul etmiş olur (Bu fikirlər üçün Füzuli bizi bağışlayar).

M.F.Axundovun qəhrəmanı Şahbaz bəyin isə Parisdə oxumaq eşqi Şərəfnisə xanıma olan məhəbbəti hissini az qala üstələyəcəkdi. Lakin belə bir tarixi hadisə baş vermədi. Şahbaz bəyin səyahəti yarımçıq qaldı və M.F.Axundovun ideyası öz həllini gözləməli oldu.

Yalnız keçən əsrin sonlarına yaxın "Müctəhidin təhsildən qayıtması" mərasimi baş tutdu. Bizim əsrin əvvəlində isə Leyla xanım Şahtaxtinskaya Sürüxdə tələbə olarkən vəfat etdi. Oxuyub vətənə qayıtmış İsgəndər keflilik "mərəz"inə tutuldu. "Anamın kitabı"ndakı məsum bir qız "alimi-biəməl" qardaşlarının əlində qaldı.

Bir tərəfdə elm və təhsil uğrunda vuruş, digər tərəfdə elm və təhsilə qarşı "qarğış"! – Əcəba, deyəsən, bütün tariximiz boyu xalq bu dilemma ilə üzbəüz qalıb. XXI əsrdəki taleyimiz də bu əsrin sonunda həmin dilemmanın tərəflərindən hansı birinin seçilməsindən daha çox asılı olacaqdır.

# TƏHSİL – İFTİXAR YADDAŞI

XIX əsrin indiki çağlarında yeni tipli məktəblərin yaradılışı əqidə və məslək döyüşündən keçdi. Bu məktəblərə tərəf yönələn irtica yeni ruh önündə, yeni fikir qarşısında incəlib üzüldü. Bir nümunə – Şamaxıda Seyid Əzim Şirvaninin, Naxçıvanda Məhəmmədtağı Sidqinin adı ilə bağlı olan tədris müəssisələri Azərbaycana iki böyük dahi verdi: Mirzə Ələkbər Sabir və Hüseyn Cavid. Bəlkə də o zaman yeni məktəbə xor baxanlar Sidqinin adındakı "Məhəmməd", Şirvaninin adındakı "Seyid" sözlərindən – peyğəmbərlikdən və seyidlikdən qorxub geri çəkilməsəydilər, bu böyük dahilər də yetişməyəcəkdi.

Təhsilə yanğı və qayğı onun formasına deyil, məzmununa yönələndə daha səmərəli olur. Günümüzün ən böyük sualı nəyi və necə öyrətməlidir. Bu sual əsl ziyalı və maarifçini düşünməyə və yazmağa səsləyir. İndi müəllim və maarif işçisi üçün ən böyük rahatlıq həmin suala cavab tapmaqdan ibarətdir.

Dilçilik kitablarında, eyni zamanda dilçiliyə dair dərsliklərin bir çoxunda elmi mülahizələr türk dil sistemlərinin modelləri əsasında qurulub. Yad qəliblər və modellər milli təfəkkürdə biganəlik toxumları cücərdib, hətta adamlarda dilin adına belə etinasızlıq hissi tərbiyələndirib.

Tarix elminin yaddaşı hələ də iftixar yaddaşından gen düşüb. Tarix kitablarımızın çoxusu müharibə və ədavətin, savaş və yalvarışın, xəyanət və satqınlığın ifadəsindən uzağa gedə bilməyib. Ötən əsrlərə tarixçi baxışı M.Ə.Sabirin "Öz qövmümüzün başına əngəlkələfik biz" poetik misrasına söykənib və beləliklə, tarix elminin qarşısında duran vəzifələr çox hallarda bədii sənətin – poeziyanın tuşlandığı hədəflərlə qarışdırılıb və eyniləşdirilib. Sabirdən qüvvət alan tarixçi Füzulinin poeziya üçün dediyi "Aldanma ki, şair sözü, əlbəttə, yalandır" fikrini, nədənsə, unudub və tarixşünaslığın həqiqət gücünə ciddi zərbə vurulub.

***1998***

# TƏBRİK, YAXUD "MÜƏLLİFİN FİKRİ İLƏ REDAKSİYANIN FİKRİ ÜST-ÜSTƏ DÜŞÜRDÜ..."

Hörmətli redaktor!

"Şərurun səsi" qəzetinin təsis edilməsinin 75 illiyi münasibəti ilə sizi və peşəkar kollektivinizin hər bir üzvünü ürəkdən təbrik edir, hamınıza cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

Mənim üçün bu qəzet ötən əsrin 60-cı illərindən hələ onun adı "İşıqlı yol" adlanan vaxtlardan doğmadır və o dövrdən xeyli keçməsinə baxmayaraq, indi də doğma və əziz olaraq qalır. Bu doğmalığı təsdiq etmək üçün qəzetiniz vasitəsi ilə tanış olduğum və ünsiyyət bağladığım redaktorların və digər qəzet işçilərinin bir hissəsinin adını çəkmək istəyirəm: Cəfər Məmmədov, Rafiq Həsənov, Hüseyn Əbdülhüseynov, Mikayıl Əliyev, Elman Məmmədov, Yaşar Ələkbərov, İslam Əliyev, Cəfər Əliyev, Məhluqə Abdullayeva, Mirhüseyn Seyidov, Çingiz Nağıyev, Hidayət, Kərim və başqaları. Onlar bu gün də, həqiqətən alqışa layiqdirlər!

Mənim "İşıqlı yol" ilə əməkdaşlığım düz 40 il bundan öncə 1966-cı ildən başlayır. Bircə faktı qeyd edim ki, yalnız həmin il qəzetdə 9 məqaləm çap edilib və o vaxtdan bu günə qədər bu mətbuat orqanı ilə əlaqələrim üzülməmiş, əksinə, sıx şəkildə davam etməkdədir. Yəqin hamı üçün maraqlı olar ki, həmin dövrdə 7-ci sinifdə oxuyan 13 yaşlı bir məktəbli bu qəzetə nə yazırdı, onu düşündürən hansı məsələlər idi?

Həmin şagird "Məktəb kitabxanasında" adlı məqalədə aşağıdakıları bildirirdi: "Məktəbimizdə olan kitabxanada oxuculara nümunəvi xidmət göstərilir. Burada on min nüsxə müxtəlif adda kitab vardır. Oxucuların sayı keçən ilə nisbətən xeyli artaraq 246 nəfərə çatmışdır..." ("İşıqlı yol" qəzeti, 26 aprel 1966, № 78).

Deməli, kitab və mütaliə məsələləri o dövrün ən xarakterik cizgilərindən biri hesab edilirdi.

Yaxud, yazırdı ki, Diyadin kəndində abunə olduğumuz qəzet və jurnalları vaxtında ala bilmirik. "Poçtalyon yoxdur" adlı həmin məqaləni olduğu kimi nəzərinizə çatdırıram: "Diyadin kəndində poçtalyon yoxdur. Ona görə də kənd zəhmətkeşləri abunə yazıldıqları qəzet və jurnalları vaxtında ala bilmirlər, bu da onların haqlı narazılığına səbəb olur. Bu hal Kirov adına kolxozun başçılarını əsla narahat etmir" ("İşıqlı yol" qəzeti, 28 oktyabr 1966, № 78).

İndi çoxlarına sadə görünən həmin sətirləri oxumaq, məlumat əldə etmək, yeniliklərlə tanış olmaq istəyən hər bir şagirdin ürəkdən gələn arzuları idi və bu arzular sonralar həyata keçdi. Çünki mən 1974-1976-cı illərdə Xanlıqlar kənd orta məktəbində müəllim işləyərkən nəinki respublikamızda, hətta Moskvada çap edilən "Voprosı literaturı" jurnalını, "Literaturnaya qazeta"nı məhz Diyadin kəndində ala bilirdim.

Yenə həmin məktəbli "Avadanlıq yoxdur" məqaləsində gileylənirdi: "Tumaslı kənd orta məktəbinin şagirdləri idmana böyük maraq göstərirlər. Lakin burada avadanlıq çatışmadığından məktəblilər idmanın bir çox növləri ilə məşğul ola bilmirlər. Nədənsə, idman avadanlığı almaq heç kimin yadına düşmür" ("İşıqlı yol" qəzeti, 17 mart 1967, № 58). O illəri xatırlayan bugünkü yaşlı adamlar bilirlər ki, həmin məqalədən sonra məktəbimizə adını eşitmədiyimiz və üzünü ilk dəfə gördüyümüz müxtəlif idman qurğuları gətirdilər.

Mənim arxivimdə çox səliqə ilə saxlanılan bu nümunələrin sayını artırmaq istəmirəm və bu faktları sadalamaqda əsas məqsədim yalnız özümün – o vaxtkı bir məktəblinin düşüncələrini sadalamaq deyil, eyni zamanda və hətta bundan daha artıq dərəcədə həmin dövrdə fəaliyyətdə olan qəzet redaksiyasının hansı mətləbləri ön sıraya çəkdiyini nəzərə çatdırmaqdan ibarət idi. O vaxtlar müəlliflərin fikri ilə redaksiyanın fikri üst-üstə düşürdü...

***2006***

## HƏQİQƏTİN TƏRƏFİNDƏ

Bədii publisistikanın səciyyəvi janrlarından biri olan felyeton müasir dövrdə əliəyrilik və eybəcərliyə, çirkinliyə və ədalətsizilyə qarşı mübarizədə mühüm rol oynamaqdadır. Bu baxımdan Əli İldırımoğlunun "Yazım, yazmayım?..." kitabı (Yazıçı, 1982) maraq doğurur.

Ə.İldırımoğlunun qələmə aldığı felyetonların tənqid silahı haraya tuşlanmışdır? – Həyatımızın bugünkü inkişafı ilə ayaqlaşmayan kolxoz və sovxozlara, tikinti və ticarət təşkilatlarına, maarif və səhiyyə şöbələrinə, mədəni-məişət müəssisələrinə, bəzi nazirliklərə, istintaq orqanlarına… Müəllifi ilk növbədə düşündürən laqeydlik və məsuliyyətsizlikdir; kimsə söz verib yerinə yetirmir, kimsə görüləsi vacib işləri "bu gün-sabaha" salır, kimsə öz başını dolandırmağı üstün tutur, kimsə öz "şabalıdı rəngli" müdirlik stolunun hayındadır… Felyetonlarda təhlil olunan bu problemlər bilavasitə həyatın özündən gəlir. Şübhəsiz, güclü həyati əsası olan bu əsərlərin yaranmasında müəllifin xüsusi müxbirliyi xeyli köməyə gəlmişdir.

Kitabdakı felyetonların bir qismi mədəni-məişət ocaqlarına barmaqarası baxanların tənqidinə həsr edilmişdir. "Fit səsi" felyetonunda göstərilir ki, hamam binası barama qurdu saxlanılan yerə çevrilib və qatarın fit səsi eşidiləndə camaat elə bilir hamam işə düşüb. "Mərc, pişiklər və müasirlik" felyetonundan aydın olur ki, kənd kulubuna heç əhəmiyyət verən yoxdur: "Əlqərəz, mərkəzdən gələnlər sovxoz başçılarını tuturlar sorğu-suala: mal-qara yaylağa qaldırılıbmı? Yun təhvilinin vəziyyəti? Yay yağışları zəmiləri yatırmayıb ki? Üzüm tənəklərinə neçə dəfə dərman vurulub? Xudahafiz… Söz-söhbət bununla da yekunlaşır. Nə klub kəlməsi işlədilir, nə kitabxana adı çəkilir və nə də ki, avadanlıqdan söhbət açılır…".

Bütün bunlar yazıçı-jurnalist ürəyinin yanğılarıdır. Müəllif üçün belə faktların şahidi olmaq yeni bir felyetonun da yazılaca-

ğından xəbər verən sevinc hissindən daha çox, bu cür xoşagəlməz halların hələ də mövcud olması ağrısı ilə yaşamaq deməkdir.

Ə.İldırımoğlunun felyetonları üçün səciyyəvi cəhətlərdən biri müəllifin xalq yaradıcılığından professional səviyyədə, bələdçiliklə istifadə etməsidir. O, bir çox obrazların dilində, yaxud onları səciyyələndirmək məqamlarında atalar sözləri işlədir. Kolxozun hesabdarı üçün "əl əli yuyar, əl də üzü" məsəli ("Bir telefon, bir möhür") camaatı tovlamaq açarına çevrilmişdir. Hətta felyetonlarda işlənən "Əgər sədrlə ferma işçilərinin sözü, sirri bir olsa ölü qoyun lap əkiz də doğar", "Əlini tutursan, ayağı yazır" cümlələri elə atalar sözü səviyyəsində çıxış edir ("Bataqlıq", "Yazım, yazmayım?.."). Bəzən felyetonlarda nağıl dilində deyilən söhbətə də rast gəlirik. Necə deyərlər, nağıl dili yüyrək olar: "Yaz gəldi. Səpin başa çatdı. Kollar daraq gətirən, qönçə bağlayan, çiçək açan vaxta çatdı" ("Üç nöqtə"). Bu üsulla sözü ilə işi arasında kəskin ziddiyyət olan vəzifə sahiblərini ifşa etmək məqsədinə tez çatmağın formalarından biri kimi baxmaq lazımdır.

Bəzən isə müəllif müəyyən bir fikri qabartmaq, yaxud tamamlamaq istəyəndə Molla Nəsrəddinin məşhur lətifələrinə müraciət edir ("Öküz kababı", "Əmanət və əmanətçilər", "Xəcalət təri" və s.). Bütün bunlar felyetonun dilini sadələşdirmək və səlisləşdirmək, maraqlı süjet qurmaq istəyindən irəli gələrək, yazıçı ilə oxucu arasında yaxınlıq yaradır və onları bir-birinə isinişdirir.

Ə.İldırımoğlunun felyetonlarındakı finallar kiməsə töhmət verilməsi, kiminsə həbs olunması, kiminsə tutduğu vəzifədən azad edilməsi barədəki informasiyalarla deyil, müxtəlif bədii priyomlarla bitir. "Üç nöqtə" və "Çoban məftillər" felyetonunun sonu düşündürücü üç nöqtə ilə başa çatır, "Sınıq saz" və "Qoçaq oğlanlar" felyetonları "müxbir" və "jurnalist"in tanınması ilə so-

na yetir. Müəllif bir-birindən fərqlənən maraqlı priyomlarından istifadə edir. “Nazir gəlir” felyetonunundakı süjetin əsasında vəzifə bildirən nazirlə işə yenicə təyinat almış gənc mütəxəssis nazirin səhv salınması durur. “Yarımçıq tikintilər, haram tikələr” əsərində müəllif, baş mühəndis və baş mühasibin rəis üçün məruzə hazırlayarkən etdikləri mübahisəni diqqət mərkəzinə çəkir. “Dil pəhləvanları” felyetonunda tikintidə işləyən qabaqcılların şəklini çəkməkdən ötrü fotoqraf və rəssamın tikinti obyektlərinə getməsi faktı əsas götürülür. Lakin bütün bunlar – nazir məsələsi, məruzə hazırlamaq, fotoqraf və rəssamın ezamiyyəti – tipik hadisələr deyil və yazıçı üçün yalnız bədii vasitələrdir.

Elə felyetonlar vardır ki, onlarda müəllif bir jurnalist – yazıçı kimi hadisələrə birbaşa müdaxilə edir (“Bataqlıq”, “İnşallah”). Bu cür açıq müdaxilə müəllifin mövqeyi barədə oxucuda qəti təsəvvür yaradır. Bəzən də olur ki, müəllif öz münasibətini yarımgizli vəziyyətdə saxlayır (“Tütək çalanlar”, “Yazım, yazmayım?...”). Bu felyetonlarda bütün əhvalat danışılıb qurtarandan sonra müəllif həmin əhvalatları yazıb-yazmamaq barədə düşünür. Belə çıxır ki, guya müəllifin bu hadisələrdən xəbəri yoxdur. Üçüncü qism felyetonlarda isə müəllif iştirak etmir, özünü surətlərin arxasında gizlədir. Belə ki, “Yazma, başın ağrıyar” felyetonunda yalnız ata və oğul arasındakı söhbət, “Təcili yardım” felyetonunda isə xəstəxana müdiri ilə xəstəxana işçilərinin danışığı verilir. Lakin bütün örtülü eyhamlara, bədii-publisistik priyomlara baxmayaraq, müəllifin mövqeyi oxuculara həmişə aydındır. O, felyetonlardakı hadisələrə açıq müdaxilə etməsə də, öz münasibətini yarımgizli və gizli saxlasa da, ilk növbədə həqiqətin tərəfindən dayanmışdır.

Ə.İldırımoğlunun “Yazım, yazmayım?...” kitabı müasir felyetonun imkanları haqqında ciddi elmi qənaətlər yaradır və müəllifin yeni yaradıcılıq perspektivlərini nümayiş etdirir.

***1983***

## BİR ÖMÜRLÜK TARİX

İnsanların həyatı və taleyi Tanrının onlara bəxşişidir. Əslində adamların dilindən tez-tez eşitdiyimiz Şükranlıq da öz mənbəyini məhz buradan götürür, onların dərin inam və imanından qaynaqlanır. O kəslər xoşbəxtdirlər ki, bu Şükranlıq içərisində arzuları ilə əməllərini uzlaşdıra bilir, istəklərini imkanlarından uzaqda təsəvvür eləmirlər. Bu cümlələri yazarkən mən tarix üzrə fəlsəfə doktoru, mahir pedaqoq və səmimi dost olan Maarif Xalıqov haqqında düşünürəm.

Əgər həyatda tək özünü görürsənsə, əgər yalnız özün haqqında düşünürsənsə, o halda səni özündən başqa heç kəs tanımayacaq, sənə yalandan salam verib yanından keçəcəklər. Maarif müəllimin çevrəsi qohum-əqrəbalarının sayından xeyli çoxdur. Bu çevrə adamları özündən uzaqlaşdırmır, əksinə onları cəzb edir, onlarda maraq yaradır və ən başlıcası, hər kəsi həyata səsləyir.

Maarif Xalıqov öz acılarından danışanda belə qarşısındakını batman-batman görünən ağrı-acı ilə yükləmək istəmir, danışdıqlarını və yadına düşənləri xatirə kimi söyləyir. Əslində içindən gələn ən səmimi duyğuları xatirəyə çevirməklə başqa bir missiyanı da yerinə yetirir: deyilənləri onu dinləyənlərin, ona qulaq asanların yaddaşına hopdura bilir. Bu, bəlkə də, onun pedaqoq ustalığıdır, bəlkə də, həyat təcürbəsinin nəticəsidir. Hər halda insanın özü ilə müsahibi arasında səmimiyyət yaratmaq hər adamın işi deyil.

O, acılı-şirinli xatirələri ilə heç vaxt bədbin, tərki-dünya bir insana çevrilməyib. Maarif Xalıqov daxilən nikbin adamdır, bunu yalnız onu yaxşı tanıyanlar, onunla həmsöhbət olanlar bilərlər. Amma unutmayaq ki, nikbin olmaq əzab-əziyyətdən, qəm-kədərdən uzaq olmaq da demək deyil. Əgər belə olsaydı, o, keçdiyi əzablı yolları, uzun illərin ağrı-acılarını özündə toplayan ayrıca bir kitab yaza bilməzdi. Bu kitab “Ömrün ağlı-qaralı zo-

laqları" adlanır. Müqəddəs anaya həsr olunan kitab müəllifin real həyata baxışının və ədəbi düşüncələrinin məhsuludur.

Maarif müəllim öz yaddaşında olan, bəlkə də, heç vaxt yadından çıxmayan faktları və detalları bədiiləşdirə bilir, faktlara və detallara bu günün gözü ilə baxmağı bacarır. Bir həqiqət danılmazdır ki, kitabdakı ədəbi-bədii qatlar, oxucunun qəlbini riqqətə gətirən mətn nümunələri həyat hadisələrinin özündən doğur, necə deyərlər, müəllif hadisələri deyil, hadisələr müəllifi öz ardınca aparır. "Ömrün ağlı-qaralı zolaqları" kitabı bir ananın, bir övladın taleyindən bəhs etsə də, yalnız bir anadan, bir övladdan bəhs edən bir əsər çərçivəsində məhdudlaşıb qalmır, əsərin qəhrəmanları ümumiləşmiş obrazlara çevrilirlər. Bu da kitabın həm təsir gücünü, həm də əhəmiyyətini qat-qat artırmış olur, oxucu marağını özünə cəmləyə bilir.

Maarif Xalıqov həyatının ən həssas məqamlarını ədəbi yanaşmalarla canlandırır, yəni onlara yeni bir həyat verir, özü də sevinir, başqalarını da sevindirir.

Əmək sərf etməkdən, zəhmət çəkməkdən heç vaxt usanmır. Maarif müəllim yazdığını bir də yaza bilir, oxuduğunu bir də oxuya bilir. Onun gənclərə, tələbələrə öyrətdikləri öyrəndiklərinin davamıdır. Gördüyü hər bir işin başına dolanır, onu əzizləyir, küsdürübsə, könlünü almağa çalışır. Çünki zəhmətin mənasını başa düşür, zəhmətin qədir-qiymətini anlayır.

İnsanın adında onun həyatı və taleyi yaşaya bilər. Ya da gərək həyatdakı əməllərini adınla yaşatmağı bacarasan. Maarif müəllimdə bunların hər ikisi qovuşuq şəklindədir, o, maarifin, elmin, təhsilin içində böyüyüb və elə indi də böyüyür. Hərdən düşünürəm ki, hərgah o, bu peşəni seçməsəydi, başqa bir yolla getsəydi, istədiklərinə bu qədər nail ola bilərdimi? Yadımdan çıxmasın deyə tez də cavab verirəm: qətiyyən yox!

Müəllimlik çətin peşədir. Ona görə ki, bu peşə hər gün oxumaqla, öyrənməklə, metodikanı zənginləşdirməklə tamam-

lanmır, bundan əlavə, bəlkə də, bundan daha çox və ən başlıcası, ünsiyyət qurmağı bacarmalısan. Ünsiyyət qurmağı bacarmayan müəllim öz fənnini heç vaxt sevdirə bilməz, heç özü də sevilə bilməz. Müəllim üçün yaxşı ünsiyyət yaratmaq isə böyük incəliklə qurulmuş tələbkarlıqdan keçir. Mən bu həqiqəti Maarif müəllimin fəaliyyətində olduğunu biləndən sonra yazıram.

Pedaqoq sevinməyi bacarmalıdır. Hər adam gördüyü işə sevinir, çünki görülən iş ayların, illərin, yuxusuz gecələrin, nəhayət, zəhmətin bəhrəsidir. Alim bir məqaləsi, bir kitabı çaxanda, bəstəkar yeni mahnısını bəstələyəndə, heykəltəraş yaratdığı abidəni ucaldanda sevinir. Müəllim isə yalnız öz tələbəsi ali məktəbə girəndə yox, eyni zamanda həmin tələbəni hər dəfə görəndə sevinir – Maarif müəllim kimi.

Maarif Xalıqovun ən çox sevdiyi bir kitabı da var: bu, "Bəzz qalası" adlanır. "Bəzz qalası" kitabına bu qalada çəkilmiş şəkillərin qalereyası da demək olar. Şəkillər qalanın bütün giriş-çıxışını ardıcıllıqla ifadə edə bilir. Bu şəkillərdə qalanın yolu, cığırı, divarı, gizlin yerləri ilə bərabər, bəzilərində öz qüruru və məmnunluğu ilə Maarif müəllim də görünür. Bu görüntülər Maarif müəllimin qalanın ən yüksək zirvəsinə qalxması düşüncəsini deyil, daha çox onun "Bəzz qala"sını oxucuların qəlbinə, könlünə daşıyıb gətirməsi anlamına gəlir.

Maarif Xalıqov tarixə aid faktları elmi mühakimələrlə – dərs, proqram, icmal, məqalə və kitabla dövriyyəyə gətirir, özü də məmnun qalır, başqalarını da məmnun edir.

Bu deyilənlərin hamısı birlikdə Maarif Xalıqov üçün Şükranlığa iman gətirməyin, uşaqlıq və gənclik illərinə bağlı xatirələrin, orta və ali məktəbdəki müəllimliyin, peşəkar pedaqoq statusunun, elmi araşdırmalarla zəhmətə qatlaşmağın, dostluq ənənələrini qorumağın, Prezident Administrasiyasındakı səmərəli fəaliyyətin əks-sədası olan və övladlarına heç vaxt utanc gətirməyən bir ömrün tarixidir.

# ƏSL MÜƏLLİM HAQQINDA POVEST

Yusif Ələkbərovu tələbəlik illərindən tanıyıram, Azərbaycan Dövlət Universitetində bir vaxtda təhsil almışıq. Doğrudur, bir-iki kurs fərqimiz var idi, amma onun özündən yaşlılarla oturub-durmaq həvəsi olduğuna görə elə çox vaxt bir yerdə olardıq. Ən başlıcası, elə həmin vaxtlar o, xalqına, millətinə, ziyalılığa vurğun bir tələbə kimi tanınırdı.

Bir neçə il bundan qabaq "Ömrün davamı" adlı kitabını rəy üçün mənə göndərəndə ötən əsrin 70-ci illərində onun haqqında düşündüklərimin həqiqət olduğuna bir daha inandım. Çünki "Ömrün davamı" adlı kitab həmin illərdə Mingəçevir şəhərində çıxan qəzetin redaktoru Fidail Abdullayevə həsr olunmuşdur. Hər hansı bir qəzet redaktor haqqında kitab yazıla bilər, amma məsələ burasındadır ki, Fidail Abdullayev el arasında əsl vətənpərvər, əsl ziyalı kimi hörmət-izzət qazanan bir şəxsiyyət idi. Deməli, Yusif bu ünvanı təsadüfən seçməmişdir.

Yusif Ələkbərov bu yaxınlarda mənə bir kitabını da rəy üçün göndərdi və telefonda: "kimdən bəhs etdiyimi əvvəlcədən bildirmirəm, amma əminəm ki, xoşuna gələcəkdir", – dedi. Kitabla tanış olandan sonra aydınlaşdı ki, həmin əsər el-oba arasında böyük nüfuza malik və 38 il pedaqoji fəaliyyətlə məşğul olan bir müəllimə – Məmməd Qorçiyevə həsr edilib. Doğrudan da, Yusif düşündüyü kimi oldu, əsərin müəllim şəxsiyyətindən bəhs etməsi məni çox sevindirdi. Ona görə ki, xeyli dərəcədə zədə almış müəllim adını bu gün xilas etmək vacibdir. İndi müəllimin əvvəlki şərəf və şöhrətini özünə qaytarmaq hər kəsin vətəndaşlıq borcudur. Yusif bu kitabı ilə öz vətəndaşlıq borcunu yerinə yetirmək sahəsində cəsarətli bir addım atmışdır. Kitabın başlıca qayəsi də bundan ibarətdir ki, Məmməd Qorçuyev kimi müəllimləri bu gün tarixi nümunə kimi cəmiyyətə təqdim etmək vacib və zəruridir.

Biz “istedad” sözünü işlədəndə daha çox şairlər, yazıçılar, rəssamlar, musiqiçilər və heykəltəraşlar haqqında düşünürük. Bu da təbiidir, çünki sənət adamı heç vaxt istedadsız yetişə bilməz. Yaradıcı insanlar üçün zəhmət məhz istedad olduqda faydalıdır. Amma ən maraqlısı budur ki, Yusif Ələkbərov çox böyük əmək sərf etməklə qələmə aldığı “Məmməd Qorçuyev” kitabında istedadın müəllim üçün də nə qədər faydalı olduğu prinsipini irəli sürmüş və onu müdafiə etmişdir.

Məmməd müəllimin məktəblə əlaqədar fəaliyyət dövrü bir məknla məhdudlaşmamışdır. Onun çalışdığı təhsil ocaqlarının coğrafiyası genişdir: Göygöl, Kürdəmir, Şəmkir və Mingəçevir. Bu məkanlar həm onun püxtələşməsinə, həm də böyük təcrübə qazanmasına imkanlar açmışdır. Kitabda Məmməd müəllimlə bağlı bu yol xəritəsi diqqətlə araşdırılır və prototipi Məmməd Qorçuyev olan ədəbi qəhrəmanın ömür gündəliyinin keçidləri faktlarla işıqlandırılır. Nəticə isə belədir ki, hər döngə, hər məntəqə ona hüfuz və hörmət qazandırmışdır.

Kitabın ən məziyyətli cəhətlərindən birisi konkret faktlara istinaddır. Bu isə özünü daha çox Məmməd Qorçuyev haqqında mövcud olan qəzet materiallarına müraciətdə özünü göstərir. O dövrkü Azərbaycan Dövlət Pedaqoji İnstitutunun orqanı olan “Gənc müəllim” qəzetində çap olunan “Kollektivlə əlaqəni möhkəmləndirməli” (15 noyabr 1958-ci il) və “Fizika-riyaziyyat fakültəsində imtahan sessiyası” (17 iyun 1959-cu il) adlı yazılarda Məmməd Qorçuyevin təhsil əlaçısı olması barədə qeydlər onun gələcəkdə nümunəvi müəllim olacağına əsl zəmanətdir. Həmin qəzetin 1 sentyabr 1958-ci il tarixli sayında isə Məmməd Qorçuyevin özünün “Doğma kəndimizdə” sərlövhəli məqaləsi dərc olunmuşdur ki, bu məqalə də onun gələcəyini dəqiqliklə proqnozlaşdırırdı.

Məmməd müəllimin təhsil illəri kimi, müəllimlik həyatı da mətbuat orqanlarında öz geniş təhlilini tapmışdır. Yusif Ələkbərov müxtəlif qəzetlərdə və müxtəlif vaxtlarda çap edilən həmin

məqalələrin Məmməd müəllimin fəaliyyətində oynadığı rolu ürəkaçıqlığı ilə şərh etmişdir. “Mingəçevir işıqları“ qəzetindəki “Minnətdalıq hissi ilə” (30 iyul 1985-ci il), “Azərbaycan müəllimi“ qəzetindəki “Qaynar ürək xatirinə” (29 yanvar 1982-ci il), “Mingəçevir işıqları” qəzetindəki “Məmməd müəllim” (1982-ci il 2 oktyabr), “Qara gözlərin işığı” (5 oktyabr 1985-ci il), “İkiqat fərəh” (13 iyun 1987-ci il), “Respublika“ qəzetində “Müəllimliyə həsr olunmuş ömür” (10 fevral 2016-cı il) adlı məqalələrin bu gün belə öz əhəmiyyətini itirmədiyini aydınlaşdırmışdır. Eyni zamanda həmin məqalələr təhsil illərində Məmməd müəllimlə bağlı yazıların onun gələcək fəaliyyətini necə proqnozlaşdırmasının təsdiqi olmuşdu.

Yusif Ələkbərovun xeyli dərəcədə araşdırdığı və ən başlıcası, pedaqoji işin mahiyyətini və vəzifələrini nəzərə almaqla qələmə aldığı kitabda müəllim şəxsiyyətinə daha çox önəm verilmişdir. Bu, müəllimin nüfuzu deməkdir. Bu, müəllim-şagird münasibətlərinə diqqətlə yanaşmağı bir prinsip kimi irəli sürmək deməkdir. Bu, müəllim şəxsiyyətinin cəmiyyətin inkişafında nə qədər önəm daşıdığını yenidən yada salmaq deməkdir. Kitab sübut edir ki, təhsil haqqında irəli sürülən əksər müddəalar məhz bu dəyərlərdən keçib gedir: “Məktəb illəri hər bir insanın həyatında böyük rol oynayır. İllər gəlib keçir, zaman dəyişir, nəsillər bir-birini əvəz edir, həyata yeni-yeni insanlar gəlir. Məmməd Qorçuyev Azərbaycan maarifinin, təhsilinin tarixinə fədakar xalq müəllimlərindən biri kimi daxil olmuş, gənc nəslin cəmiyyətimiz üçün faydalı vətəndaşlar kimi yetişməsində böyük xidmətlər göstərmiş, özünəməxsus silinməz izlər qoymuşdur”.

Azərbaycan Yazıçılar Birliyinin üzvü Yusif Ələkbərovun böyük zəhmət bahasına və sevgi ilə qələmə aldığı “Məmməd Qorçuyev” adlı kitabı öyrənməkdən çox, elə birbaşa öyrədən əsərdir. Əsər həm müəllifini, həm də baş qəhrəmanını ədəbi-elmi və pedaqoji ictimaiyyət üçün kifayət qədər tanıdacaqdır.

Kitabı əsl müəllim haqqında povest də adlandırmaq olar.

## FAYDALI GÖSTƏRİCİ

Elmi əhəmiyyəti olan tədqiqatların hamısı ondan əvvəl həmin mövzularda yazılmış araşdırmalara yaxından və hərtərəfli bələd olandan sonra yarana bilər. Əvvəlkilərin əsas istiqamət və meyillərini, mənbələrə əsaslanan real fakt göstəricilərini, həll edilmiş və həlli zəruri olan problemləri öyrənmədən hər hansı bir məsələ ətrafında yeni mülahizələr irəli sürmək çox çətindir, yaxud da heç mümkün deyil. Buna görə də hər bir mövzuya aid biblioqrafik mənzərənin diqqətlə öyrənilməsi son dərəcə vacib və zəruridir.

Yeni başlanmış tədqiqat üç istiqamətdə mümkün ola bilər: birincisi, obyekt barədə şəxsi mülahizələr irəli sürüb sonradan tədqiqat tarixini izləməklə; ikincisi, mövzu və problemlə bağlı olan araşdırmalardakı müəyyən tezisləri inkişaf etdirməklə; üçüncüsü, mövcud tədqiqatlara tənqidi yanaşmaqla. Kimin hansı xətti seçəcəyi onun özündən, məsələlərə yanaşma üsulundan və bütövlükdə tədqiqatçının fəhmindən asılıdır. Əsası odur ki, bunların üçü də biblioqrafik məlumatlardan kənarda baş tuta bilməz.

Folklor və yazılı ədəbiyyatın qarşılıqlı problemlərindən, xüsusilə folklorun yazılı ədəbiyyata təsirlərindən bəhs edən biblioqrafik bazanın yaradılması da məhz bununla əlaqədar olmuşdur. Yazıçıların folklora bağlılığı, yazıçı yaradıcılığının folklordan qaynaqlanması tarixi və ənənəvi bir yaradıcılıq hadisəsidir. Bu gün tam əmniyyətlə qeyd etmək olar ki, hər hansı bir görkəmli sənətkarın bədii irsini folklor nümunələrindən kənarda təsəvvür etmək mümkün deyil.

Bədii əsərlərdə folklorizm və mifologizmlərdən istifadənin müxtəlif yolları və üsulları vardır. Böyük söz ustaları şifahi xalq ədəbiyyatının zəngin irsindən faydalanarkən həm folklor nümunələrinin qorunub saxlanmasına xidmət edir, həm də öz əsərlərinin bədii məziyyətlərini artırmış olurlar. Üçüncü tərəfdən də o

cür əsərlərin oxunması, yaddaşlara köçməsi asanlaşır və təsir gücü daha da artır.

Folklor və yazılı ədəbiyyatın əlaqələrinə dair tədqiqat materialları məruzə tezislərini, konfrans materiallarını, elmi və elmi-publisistik məqalələri, məcmuələri, monoqrafiyaları əhatə edir. Biblioqrafik göstərici hazırlanarkən imkan daxilində həmin faktların hamısını əhatə etməyə çalışılmışdır. Onların ən son nümunələri çap olunmuş 2 cildlik "Folklor və yazılı ədəbiyyat" adlı məcmuədir. Bu məcmuə eyni adlı şöbənin əməkdaşları tərəfindən hazırlanmışdır.

Folklor və yazılı ədəbiyyat problemlərinə həsr edilmiş biblioqrafik göstərici ilk addımdır. İnanırıq ki, bu göstəricinin imkanları bundan sonra həmin sahə üzrə aparılacaq araşdırmaların imkanlarını daha da genişləndirəcəkdir.

Həmçinin özümə borc bilirəm ki, biblioqrafik göstəricinin hazırlanmasında çox böyük zəhmətləri olan filologiya elmləri doktoru İslam Sadığa və filologiya üzrə fəlsəfə doktoru Gülsüm Hasilovaya dərin minnətdarlığımı bildirəm.

# ADLAR GÖSTƏRİCİSİ

**1.** Abbasova A. 4
**2.** Ağaməmmədova Ş. 7
**3.** Axundov M.F. 17, 21, 42, 453, 456
**4.** Akman M. 8
**5.** Araslı H. 113
**6.** Aşıq Ələsgər. 149, 343
**7.** Bismark. 126
**8.** Cabbarlı C. 23, 42, 116
**9.** Cavid H. 25, 409, 419, 421, 454, 457
**10.** Cəfər M. 21, 22
**11.** Dəmirəl S. 405
**12.** Əhmədova L. 5
**13.** Ələkbərli M. 28, 29, 33
**14.** Əlimirzəyev Ə. 42
**15.** Əliyev H. 382, 420, 437, 452
**16.** Əliyev İ. 382
**17.** Əliyev K. 3-7, 368, 369, 429-444, 446, 449, 452
**18.** Əlizadə A. 5
**19.** Əsgərova Z. 5
**20.** Əzimzadə Ə. 22
**21.** Füzuli M. 338, 341, 453, 455-457
**22.** Gəncəvi N. 396, 453, 455
**23.** Həbibbəyli İ. 3
**24.** Hovuslu X. 8
**25.** Hüseynzadə Ə. 23
**26.** Xəlil A. 6, 7
**27.** Xiyabani. 454
**28.** İbrahimov M. 22, 439
**29.** İldırımoğlu Ə. 461, 461, 463
**30.** İmanov-Kazımoğlu M. 3

**31.** Kərim Ə. 21, 389
**32.** Qasımova L. 8
**33.** Qulamova A. 4
**34.** Markes. 5, 7, 101, 108
**35.** Məmmədquluzadə C. 341, 413, 419, 453-455
**36.** Nərimanov N. 22
**37.** Paşazadə Ç. 6
**38.** Sabir M.Ə. 453-455, 457
**39.** Sidqi M. 454, 457
**40.** Şıxlinskaya L. 101
**41.** Şirvani S.Ə. 454, 457
**42.** Tahir S. 149, 150
**43.** Tolstoy L. 6
**44.** Vahabzadə B. 22, 33, 415
**45.** Vaqif M.P. 453
**46.** Vidadi M.V. 453
**47.** Yusifli V. 4
**48.** Zamanov A. 22





**Kamran Əliyevin Diyadin kəndində yaşadığı ev**




**Kamran və Tünzalə xanımın nişanlı olduğu çağlar (1980)**




**Kamran, Tünzalə xanım, Orxan və Aytəkin (1986)**



**Prof. Kamran Əliyev ailəsi ilə: Tünzalə xanım Aşurova, Kamran Əliyev, Natiq, Aytəkin, Fidan, Orxan**



**Prof. Kamran Əliyev və Tünzalə xanım Aşurova nəvələrlə: Nilay, Səyyad, Selcan, Mədinə**



**Kamran Əliyev Xəzər dənizi sahilində (2017)**




**Kamran Əliyev konfransda çıxış edərkən (2019)**

# MÜNDƏRİCAT

**Ön söz əvəzi: Yaradıcılıq imkanları ........................ 3**

**HEKAYƏLƏR ................................................................ 9**
Dağlı məhəlləsi ........................................................ 10
204 nömrəli avtobus ................................................. 19
Novruza bir gün qalırdı ...........................................28
Gəlincik .................................................................... 35
Kollecdə valideyn iclası ........................................... 46
Bənövşə oyunu ......................................................... 55
Poeziya günləri ........................................................ 65
Natura ....................................................................... 74
Oğru pişik ................................................................. 85
Riyaziyyat müəllimi ................................................. 93
Markesin ölümü ...................................................... 101
Aspiranturaya qəbul ............................................... 109
Mən dəli deyiləm .................................................... 118
Qocalar evi ............................................................. 126
Yorğa atın qaçışı ..................................................... 132
Pole çudes oyunu .................................................... 140
Şeir dərsi ................................................................ 147

**POVESTLƏR ............................................................ 155**
Yalquzaq ................................................................. 156
Qara köpək .............................................................. 215
Zəli .......................................................................... 245
Vağzal ..................................................................... 274

**ŞEİRLƏR ................................................................. 319**
**UZAQ İLLƏRİN ŞEİRLƏRİ .............................................. 320**

Anama məktub ........ 320
Qatarlar ........ 320
Pəncərə ........ 321
Sevgi şeiri ........ 322
Qız portreti ........ 322
Sərbəst şeir ........ 323
Ucuzlaşmış məhəbbət ........ 324
Sevgi sınağı ........ 325
Bir anda yazılan şeir ........ 325
Qoşma ........ 326
Gülüm, ay gülüm ........ 326
Nənəmin nağılı ........ 327
Divar ........ 328
Göy göl ........ 329
Qorxuram ........ 329
Yaz gələndə ........ 330
Kənd cavanları ........ 331
Mən ürək görməmişdim ........ 331
İtirilmiş sevgi ........ 332
Xatirə ........ 333
Bir qız haqqında ballada ........ 334
Yuxular ........ 334
Dəniz hekayəsi ........ 335
Getdilər ........ 336
Gözəllik ........ 337
Sevgi əzabı ........ 337
Qəribə tale ........ 338
Həsrət ........ 339
Buz eylə məni ........ 339
Şərur balladası ........ 340
Bir otaq haqqında ballada ........ 342
Həsrətindəyəm ........ 343

Kədər duyğusu ........................................................................ 343
Sual ........................................................................ 344
Yalqızlıq ........................................................................ 344
Toy ........................................................................ 345
Sevgi sükutu ........................................................................ 347
Yuxular ........................................................................ 348
Gizli sevgi ........................................................................ 349
Bezikmiş ömür ........................................................................ 349
Məhəbbətin odu ........................................................................ 350
Bir bənd ........................................................................ 350

## YARIMÇIQ NOTLAR – LİRİK POEMA

**Proloq ........................................................................ 351**
**Qırışlı dünya ........................................................................ 352**
**Nənəmin nağılı ........................................................................ 354**
**Nağıl xatirə ........................................................................ 355**
**Ana istəyi ........................................................................ 356**
**Ata təmkinliyi ........................................................................ 357**
**Hamar dünya (I Etüd – su müqəddəsliyi) ......................... 358**
**Yenə kənd ........................................................................ 359**
**Haşiyə ........................................................................ 360**
**II etüd – kölgələr ........................................................................ 362**
**III etüd – naməlum səs ........................................................................ 363**
**Epiloq əvəzi ........................................................................ 363**

## SON İLLƏRİN ŞEİRLƏRİ

Qış nağılı ........................................................................ 364
Qırx beş yaşıma ........................................................................ 364
Sevgilimin gülləri ........................................................................ 365
Zalım adam ........................................................................ 366
Ay ........................................................................ 367
Tünzalə üçün ........................................................................ 367

Aytəkin üçün ........................................................................ 368
Selcanım (mahnı) .................................................................... 368
Nilay qızım (mahnı) ................................................................. 369
Nilay və Mədinənin nağılı ....................................................... 370
Cücələr (Nilay və Mədinəyə) ................................................... 371
Nəvələrin məzəli mahnısı ........................................................ 371
Bizim Səyyad balamız ............................................................. 372
Nilay və Mədinə ....................................................................... 373

**PUBLİSİSTİKA**

Bir kəndin hekayəti ................................................................ 375

**SƏDƏRƏK DÖYÜŞLƏRİ (KİTAB)**

**Proloq əvəzi ........................................................................ 383**
**Türk oğlu at üstdə doğular, daş üstdə bələnər .................. 383**
**Koroğlu bulağının harayı ...................................................... 385**
**Döyüşlərin gündəliyi ............................................................. 387**
**Xatirə dəftəri – alın yazısı ..................................................... 388**
**Döyüşlərin gündəliyi ............................................................. 391**
**Dəhnə ...................................................................................... 391**
**Döyüşlərin gündəliyi ............................................................. 395**
**Macəra içərisində qəhrəmanlıq ............................................ 396**
**Döyüşlərin gündəliyi ............................................................. 399**
**Ordu döyüşlərdə yaranır ....................................................... 399**
**Döyüşlərin gündəliyi............................................................. 402**
**Borc ........................................................................................ 402**
**Qəfil çəkisizlik ....................................................................... 405**
**Arpaçayın göz yaşları ............................................................ 407**
**Döyüşlərin gündəliyi ............................................................. 408**
**Analar, qarğış eləməyin! ....................................................... 409**
**Döyüşlərin gündəliyi ............................................................. 411**
**Vətən təəssübü ....................................................................... 412**

**Döyüşlərin gündəliyi ........................................................ 414**
**Futbol, yoxsa çaxmaq? .................................................... 415**
**Döyüşlərin gündəliyi ........................................................ 416**
**Onlar on iki nəfər idilər .................................................. 417**
**Şərqin və Qərbin qapısı ................................................... 419**
**Döyüşlərin gündəliyi ........................................................ 423**
**Epiloq əvəzi ...................................................................... 423**

**ELEGİYA**
İlk məqaləmi o çap etmişdi ..................................................425
Yuxular dərin olur ..................................................................427

**İLK MƏQALƏLƏR**
Unudulmuş sudartanlar ......................................................... 430
Yararsız binalar ...................................................................... 430
Məktəb kitabxanası ............................................................... 431
Zəhmətin bəhrəsi ................................................................... 431
Fəal poçtalyon ........................................................................ 432
Sahələr nümunəvi becərilir ................................................... 432
Söz verirlər, amma ................................................................. 432
Məktublardan sətirlər ............................................................. 433
Poçtalyon yoxdur ................................................................... 433
Xoşbəxt ailə ............................................................................ 434
Məktublardan sətirlər ............................................................. 434
Gəncliyin səsi ......................................................................... 435
Avadanlıq yoxdur ................................................................... 435
Pambıq tarlalarında becərməyə başlamışlar .......................... 435
“Əla” və “yaxşı” qiymətlərlə ................................................ 436
Təsərrüfatda işləyəcəyik ........................................................ 436
Yonca biçilir ........................................................................... 437
Qabaqcıl briqada .................................................................... 437
Yada düşür ............................................................................. 438

Pambıq tarlalarında nöqsanlara dözürlər ............................... 439
Qayğıkeş feldşer ................................................................... 440
Şagirdlər abunə yazılır ........................................................ 440
Hamı ondan razıdır .............................................................. 441
Niyə? Nə üçün? .................................................................... 441
Məktəb həyəti dostluq guşəsi ............................................... 442
Sərgilər, məruzələr ............................................................... 442
Yaşıllıq dostları .................................................................... 443
Çəhrayı rəngli yarpaqlar ...................................................... 443
Yaşıllığı sevirik .................................................................... 444
Yollar haraya aparır ............................................................. 445
Şagird, əmək və mədəniyyət ................................................. 447
Müasir gənclik və mənəvi tərbiyə ........................................ 450
Əsrin sonu: Elm və təhsil ..................................................... 453
Təhsil – iftixar yaddaşı ........................................................ 457
Təbrik, yaxud "müəllifin fikri ilə redaksiyanın fikri üst-üstə düşürdü..." ........................................................................... 458
Həqiqətin tərəfində .............................................................. 460
Bir ömürlük tarix ................................................................. 463
Əsl müəllim haqqında povest ............................................... 466
Faydalı göstərici .................................................................. 469

**ADLAR GÖSTƏRİCİSİ ..................................................... 471**
**ŞƏKİLLƏR ......................................................................... 473**

# 10 CİLDLİYƏ DAXİL OLAN KİTABLARIN SİYAHISI

**I CİLD – ROMANTİZMİN NƏZƏRİYYƏSİ**

**II CİLD – ROMANTİZMİN POETİKASI**

**III CİLD – HÜSEYN CAVİD**

**IV CİLD – KLASSİKLƏR, MÜASİRLƏR**

**V CİLD – ƏDƏBİYYATŞÜNASLIQ, ƏDƏBİ TƏNQİD**

**VI CİLD – FOLKLOR KİTABI**

**VII CİLD – DƏDƏ QORQUD**

**VIII CİLD – DƏRS VƏSAİTİ**

**IX CİLD – RƏYLƏR, MÜSAHİBƏLƏR**

**X CİLD – BƏDİİ ƏSƏRLƏR, PUBLİSİSTİKA**

**Kamran İmran oğlu Əliyev**

# Bədii əsərlər, publisistika

*Qeyd üçün*

*«Elm və təhsil»* **nəşriyyatının direktoru:**
*Professor Nadir MƏMMƏDLİ*

Dizayn: **Kamran İbrahimov**
Korrektor: **Gülnar İsmayılova**
Kompüterdə yığdı: **Nigar İmaməliyeva**

Çapa imzalanmışdır **28.12.2019**
Şərti çap vərəqi **30,5.** Sifariş **№ 458**
Kağız formatı **60/84 1/16.** Tiraj **120**

*Kitab* ***"Elm və təhsil"*** *nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Тел: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*